Doktor Casim Musəvi

Şübhalarin KAŞFİ

İHSAN İLAHİ ZAHİRİN "ŞİƏ VƏ ƏHLİ-BEYT" KİTABINA RƏDDİYƏ

313news

Doktor Seyyid Casim Musəvi

ŞÜBHƏLƏRİN KƏŞFİ

İhsan İlahi Zahirin

"Şiə və Əhli-Beyt" kitabındakı iddialara

böyük rəddiyyə

3-cü cild

Layihə rəhbəri: 313news.net
Tərcüməçi: Hilal Ağamoğlanov
Redaktor: Peyman Məmmədov
Korrektor: Peyman Məmmədov
Texniki redaktor: Tural Ordubadi

Bu kitabı tərcümə etməkdə məqsədimiz insanlara sələfilərin (vəhhabilərin) ən tərifli münazirə və rəddiyyə ustadlarından birinin yalan və böhtanlarını insanlara göstərmək və bu əqidə daşıyıcılarından mümkün qədər ehtiyatlı olmalarını təbliğ etməkdir. Bu kimi şəxslər müsəlmanları azdırıb öz sıralarına daxil etməkdən ötrü hər cür yalan danışmağa və manipulyasiya etməyə hazırdırlar.

İhsan İlahi Zahir öz yalanları ilə təəssüf ki, minlərlə şiə və müxtəlif məzhəb nümayəndələrini sələfiliyə dəvət edə bilir. Əlinizdəki kitabda onun saysız-hesabsız yalanları ilə, təhrifləri ilə tanış olacaqsınız.

1987-ci ilin 23 Mart tarixində Lahor şəhərində xütbə zamanı bomba hücumu nəticəsində ağır yaralanır. Səudiyyə Kralı Fəhd ibn Əbdüləzizin göstərişi ilə Riyad şəhərindəki Feysəl Hərbi Hospitalına köçürülsə də, həyatını xilas edə bilmirlər. Cənazə namazını Şeyx ibn Baz qılmış və Bəqi qəbirstanlığında dəfn edilmişdir.

İhsan İlahi Zahir Mədinədə bir çox məşhur sələfi şeyxindən dərs almışdı. Onların arasında “əsrin mühəddisi” ləqəbli Hafiz Muhəmməd Qondəlvi, Şeyx Əlbani, Şeyx Əbdüləziz ibn Bazı saymaq olar.

İhsan İlahi Zahirin İbn Bazla xüsusi münasibətləri var idi. Xütbə zamanı İbn Baz onu öz yanında otuzdurardı. O, Mədinədə oxuyanda Şeyx İbn Baz Mədinə Universitetinin rektoru idi. İlahi Zahir son kursda ikən ona mühazirə deməyə icazə verilmişdi. Həmin vaxt o, "Qadiyanilik" əqidəsinə qarşı kitab yazır və Pakistanda nəşr etdirmək istəyir. Kitabda "Mədinə Universitetinin məzunu" sözlərini yazmaq istəsə də, faktiki olaraq Universiteti bitirmədiyi üçün rəhbərliyin icazəsi lazım olur. İbn Baz ona bu xüsusi icazəni verir. İlahi Zahir sual verir ki: "Birdən mən məzun ola bilməsəm necə?" İbn Baz cavab verir: "Əgər sən məzun ola bilməsən, mən bu Universitetin qapılarını bağlayaram!"

Onun "Şiə və əhli-beyt", "Şiə və şiəlik", "Şiə və Quran", "Şiə və sünnə" kimi yalan və təhrif dolu kitabları var. Bu kitalar bir çox başqa dillərə də tərcümə edilib. Əlinizdəki kitab onun "Şiə və əhli-beyt" kitabına rəddiyyə olaraq yazılmışdır, hansı ki, vaxtilə Pakistanda ilk 9 ay ərzində 5 dəfə təkrar-təkrar nəşr edilmişdi.

MÜNDƏRİCAT

Müqəddimə 7
Altıncı bab: Şiəlik və dəlilləri 8
Giriş 9
Birinci fəsil: Əhli-Sünnə mənbələrində "Vəsilik" kəlməsi ilə nəql olunmuş hədislər; ... 13
1. Aişənin hədisi 14
2. Möminlərin əmiri Əlinin (ə) hədisi 17
3. Əbu Səid Xudrinin hədisi 24
4. Əbu Əyyub Ənsarinin hədisi 28
5. Büreydənin hədisi 33
6. Ənəs ibn Malikin hədisi 36
İkinci fəsil: Əhli-Sünnə mənbələrində "Vəsilik" kəlməsindən istifadə edilmədən bu mənada nəql olunmuş hədislər; 43
Birinci bəhs: "Qədir-Xum" hədisi 47
"Qədir-Xum" hədisinin nəql yolları 48
1. Zeyd ibn Ərqəmin hədisi 48
2. Səd ibn Əbu Vəqqasın hədisi 57
3. Büreydənin hədisi 58
4. Möminlərin əmiri Əli ibn Əbu Talibin (ə) hədisi 60
5. Bərra ibn Azibin hədisi 66
6. İbn Abbasın hədisi 67
7; 8; 9. Əbu Hüreyrənin, Əbu Səid Xudrinin və Ənəs ibn Malikin hədisləri 69
10. Hubşi ibn Cünadənin hədisi 74
11. Malik ibn Hüveyrisin hədisi 74
12. Cəririn hədisi 74
13. Əmmar ibn Yasirin atasından nəql etdiyi hədis 76
14. Hüzeyfə ibn Üseyd Ğəffarinin hədisi 76
Hədisin rəvayət yolları ilə bağlı bəhsdən hasil olanlar 83
"Qədir-Xum" hədisinin İmam Əlini (ə) sevməklə bağlı olduğu iddiasının müzakirəsi 114
Birinci müzakirə 114
İkinci müzakirə 121
Üçüncü müzakirə 127
Dördüncü müzakirə 148
Beşinci müzakirə 149
İkinci bəhs: "Qüreyşdən olacaq on iki xəlifə" hədisi 152
"On iki xəlifə" hədisinin nəql yolları 152
1. Cabir ibn Səmurənin hədisi 152

2. Əbu Cüheyfənin hədisi 158
3. İbn Məsudun hədisi 159
"On iki xəlifə" hədisinin dəlaləti 160
"On iki xəlifə" hədisinin dəlaləti barədə Əhli-Sünnə alimlərinin fikirləri 181
Üçüncü bəhs: "Mənzilət" hədisi 187
"Mənzilət" hədisinin nəql yolları 187
1. Səd ibn Əbu Vəqqasın hədisi 187
2. İbn Abbasın hədisi 191
3. Zeyd ibn Ərqəmin hədisi 194
4. Əbu Səid Xudrinin hədisi 194
5. Cabir ibn Abdullah Ənsarinin hədisi 196
6. Əsma bint Ümeysin hədisi 196
7. Möminlərin əmiri Əlinin (ə) hədisi 197
"Mənzilət" hədisinin dəlaləti 199
"Mənzilət" hədisinin İmam Əlinin (ə) imamlığına dəlaləti 206
Üçüncü fəsil: Abdullah ibn Səbanın "vəsilik"lə bağlı rəvayətləri və onun şəxsiyyəti .. 226
Birinci bəhs: Şiə rəvayətlərində İbn Səbanın "vəsilik"lə bağlı rəvayətləri 227
İkinci bəhs: Sünni rəvayətlərində İbn Səbanın vəsiliklə bağlı rəvayətləri 232
Üçüncü bəhs: Abdullah ibn Səbanın şəxsiyyətinin həqiqəti 238
Dördüncü fəsil: Qəti dini dəlillərin məzhəblərin yaranması ilə əlaqəsi və şiəliyin meydana çıxma tarixi 256
İslam məzhəblərinin ortaya çıxması 256
Əbu Bəkrin xəlifəliyində Ömərin rolu 260
Səqifə beyətindəki vəziyyət 263
Xilafətlə bağlı çəkilmiş planları 271
Beşinci fəsil: Nicat tapmış firqə 282
Ümmətin ixtilafı 283
2. Nicat tapan firqənin əlamətləri ilə bağlı hədislər 290
Yeddinci bab: Əhli-Beyt (ə) və Osman ibn Əffan 330
Birinci fəsil: Osmanın rəftar və davranışları 334
Bəni-Üməyyənin rəhbərliyə gətirilməsi 335
Peyğəmbərin (s) qovduğu şəxsin Mədinəyə qaytarılması 339
Allahın malına qarşı qəsbkarlıq 344
Səhabələrin Osmanın maliyyə siyasətinə etirazı 345
Səhabə ehtiramının tapdanması 347
Quran nüsxələrinin yandırılması 353
Osmanın digər yenilikləri 354
Camaatı Osmana qarşı qaldıranlar 358

Osmana qarşı camaatı təhrik edən digər səhabələr 363
Osmanın mühasirəsi və öldürülməsi 365
Osmanın dəfni 373
Osmana qarşı üsyanda Möminlərin əmiri Əlinin (ə) tutduğu mövqe 375
İhsan Zahirin səhabələrə hücumu 386
İkinci fəsil: İhsan Zahirin iddialarının təhlil və müzakirəsi 387
1. Möminlərin əmiri Əlinin (ə) Fatimə (s.ə.) ilə evlənməsinə Osmanın yardım göstərdiyi iddiası 388
2. Peyğəmbərin (s) Osmanı nikaha şahid tutması iddiası 392
3. Osmanın iman və səhabəliyinə İmam Əlinin (ə) şahidlik etməsi iddiası 395
4. Əhli-Beytin (ə) Osmanı tərifləndikləri iddiası 398
5. Möminlərin əmiri Əlinin (ə) Osmana beyət etdiyi iddiası 407
6. Möminlərin əmiri Əlinin (ə) Osmanın hökumətində iştirak etdiyi iddiası 425
7. İmam Əlinin (ə) Osmana itaətkarlığı iddiası 440
8. Əhli-Beytin (ə) Osmana sevgi və ehtiramla qarşılıq verdiyi iddiası 456
Üçüncü fəsil: Kürəkənlik və adqoymanın dəlil göstərilməsi 527
1. Kürəkənliklə sevgi və razılığın bir-birinə bağlı olmaması 527
2. Qarşı tərəfə öz mənbələrindən dəlil göstərilməsinin zərurəti 538
3. Peyğəmbərə (s) kürəkən olmasına Osman heç bir dəyər verməyib 542
4. Osmanın Peyğəmbərə (s) kürəkən olmasına dair xəbərlərdə bir çox uydurma və uyğunsuzluqların olması 550
5. Adqoyma iddiasının yanlışlığı 558

Müqəddimə

Rəhman və Rəhim Allahın adı ilə! Həmd aləmlərin Rəbbinə məxsusdur. Ağamız Muhəmmədə, onun pak və məsum ailəsinə salam və salavat olsun!

Təəssüf ki, İslam aləminin və ümmətin keçdiyi qaranlıq dövrlərdə müsəlmanlar arasında fitnə və təfriqəyə çağırış edən bəzi kitablar ortaya çıxıb. Təbii ki, belə kitablar məntiqə, dinə və düzgün dünyəvi dəlillərə istinad olunmayıb. Bunlar yalnız mənfur və kor təəssübünün nəticəsidir. Belə "müəlliflər" müxtəlif qəbuledilməz üsullarla qarşı tərəfi ləkələyərək hədəflərinə çatmağı qarşılarına məqsəd qoyublar. Bu mənfur niyyətləri üçün heç bir dəlil və sübuta istinad etmədən cürbəcür yalan və böhtanlara əl ətmaqdan çəkinməmişlər.

Məqsədimiz bu "müəlliflərin" müsəlman ümmətinin fərdləri arasında ixtilaflar yaratmağa, fitnə və nifrət alovlarını qızışdırmağa vadar edən səbəbləri araşdırmaq deyil. Şübhəsiz ki, qapanıq mühitli, dar düşüncəli və qarşısındakının rəyini qəbul etməyən yanlış təfəkkür bu cür halların meydana çıxmasına daim münasib şərait yaratmışdır.

Ümmət arasında ixtilafların dərinləşməsi, vəhdətin bölünməsi, təfriqələrin yaranması və düşmənlər qarşısında güclərinin zəiflədilməsi istiqamətində atılan addımların əksinə olaraq, İslamın öz haqq nəzərini açıqlamaq və müxaliflərinə cavab vermək üçün tövsiyə etdiyi gözəl və düzgün üsluba tabe olmayan heç bir müsəlmanın üzrü yoxdur. Həmçinin, dinimizdə müsəlmanların fikir və düşüncələrinin uzlaşdırılması üçün səy göstərməyi qadağan edən maneələr də mövcud deyil. Bəs, təfriqə və ixtilafları qızışdırmağa səy göstərənlər bununla nə əldə etmək istəyirlər?!

Altıncı bab: Şiəlik və dəlilləri

Burada bir neçə fəsil var:

Birinci fəsil: Əhli-Sünnə mənbələrində "Vəsilik" kəlməsi ilə nəql olunmuş hədislər;

İkinci fəsil: Əhli-Sünnə mənbələrində "Vəsilik" kəlməsindən istifadə edilmədən bu mənada nəql olunmuş hədislər;

Üçüncü fəsil: Abdullah ibn Səbanın "vəsilik"lə bağlı rəvayətləri və onun şəxsiyyəti;

Dördüncü fəsil: Məzhəblərin yaranmasında dəlillərin rolu və şiəliyin yaranma tarixi;

Beşinci fəsil: Nicat tapan firqə.

Giriş

Əhli-Beytin (ə) tərəfdarlarının (şiələrinin) meydana çıxması Möminlərin əmiri Əlinin (ə) Peyğəmbər xəlifəsi və vəsisi olması məsələsi ilə birbaşa bağlıdır. Şiə məzhəbinin yaranma tarixini araşdırmaq istəyən şəxs xəlifəlik və vəsilik əqidəsini, bunun müsəlmanların arasında meydana çıxma dövrünü təhqiq etməlidir. Məlumdur və məşhur faktdır ki, Miqdad, Salman və Əbuzər (Allah onlardan razı olsun!) kimi bir çox böyük səhabə İmam Əlinin (ə) qəti dəlillər və Peyğəmbər (s) vəsiyyəti ilə xəlifə təyin olunduğuna etiqad bəsləyirdilər. Bu etiqad heç də Peyğəmbərin (s) vəfatından sonrakı təəssüf doğuran hadisələr zamanı ortaya çıxmamışdı. Bunun mənbəyi onların Peyğəmbərdən (s) eşidib itaət etdikləri sözlər idi. Nəticədə heç bir məzhəb libasına bürünmədən şiəliyin ilk toxumları Peyğəmbərin (s) zamanında atıldı. Şiəlik bir məzhəb kimi isə, Peyğəmbərin (s) vəfatından sonra Səqifə əhlinə və onların tərəfdarlarına müxalif qrup olaraq tanındı.

Məsələ o dərəcədə aydındır ki, hətta Əhli-Beyt (ə) məzhəbinə qarşı ciddi ittihamları ilə tanınan doktor Əli Salus kimi bəzi müasir vəhhabi müəllifləri də bunu təsdiq edirlər. O, bəzi səhabələrin Əbu Bəkrə beyətdən boyun qaçırdıqlarına toxunaraq deyir: *"Məşhur rəy budur ki, onlar beyət etmədilər. Çünki onlar rəhbərliyin ümumi olaraq Qüreyşə deyil, xüsusi olaraq Peyğəmbər Əhli-Beytinə, ələlxüsus Əliyə məxsus olduğunu düşünürdülər. Tarixin qeyd etdiyinə əsasən, onlar Bəni-Haşimdən olmayan Miqdad ibn Əsvəd, Salman Farisi və* Əbuzər *Ğəffari kimi (Allah onlardan razı olsun!) az sayda səhabə idilər".*[1]

Lakin qəribədir ki, İhsan Zahir şiəliyin yaranmasını dəlilsiz-sübutsuz Abdullah ibn Səba ilə bağlayır. Deyir: **"Yəhudi Abdullah ibn Səbaya gəldikdə, onun varlığının inkar edilməsi günorta çağı səmada parlaq**

[1] Məəl-isna əşəriyyə fil-usul vəl-furu, Əli Salus, c. 1, s. 29-30

günəşin həqiqətini inkar etmək kimi bir şeydir. Qədim alimlərin arasında onu inkar edən bir nəfər belə yoxdur. Başa düşmürəm, bunlardan hansı daha çox elm və məlumat sahibidir – qədim alimlər, yoxsa axır dövrün alimləri?! Biz şiələri bizim deyil, özlərinin qədim alimlərdən birinin sözləri ilə Abdullah ibn Səbanın inkar edildiyini və xəyal məhsulu sayıldığını isbatlamağa dəvət edirik".[2]

Bundan daha qəribəsi, İhsan Zahirin yolu ilə gedənlərin də Abdullah ibn Səbanı "vəsilik" əqidəsini uyduranlardan hesab etməsidir.[3]

Bu cür puç iddiaların heç bir dəyəri yoxdur. Bunlar yalnız oxucunun zəkasını yüngül saymaqdır. Abdullah ibn Səbanın şiəliyi ortaya atmaqda məqsəd nədir?! O, vəsilik məsələsini niyə uydursun ki?!

Görəsən, İbn Səbanın Peyğəmbərin (s), sanki, "Məndən sonra xəlifəm, vəlim və bu kimi xüsusiyyətlərə sahib şəxs filankəsdir" dediyini uydurması ilə məqsədi Möminlərin əmiri Əliyə (ə) iftira atmaqdır? Yoxsa İbn Səbanın məqsədi xüsusi olaraq "vəsilik" kəlməsi ilə dəlil uydurub Möminlərin əmiri Əlini (ə) dəstəkləmək idi?

"Vəsilik" mövzusunun bəhsindəki iki cəhətdən biri budur ki, həmin kəlmədən istifadə edilməsə belə, Peyğəmbərdən (s) sonrakı xəlifənin təyininə dəlildir. Digər cəhət isə, xüsusilə məhz "vəsilik" kəlməsi ilə Peyğəmbərdən (s) sonrakı xəlifənin müəyyən edilməsi ilə əlaqədardır.

Birinci cəhətə ("vəsilik" kəlməsindən istifadə edilməsə də Peyğəmbərdən (s) sonrakı xəlifənin təyininə dəlil olmasına) əsasən, onun barəsində On iki imama etiqadı olan alimlər tərəfindən geniş şəkildə bəhs aparılıb, onlar bu mövzuya dair dəlillərini qeyd ediblər. Bunların əsasını

---

[2] Şiə və Əhli-Beyt, İhsan İlahi Zahir, haşiyə, s. 115-124

[3] Əksər hallarda bu sözlər İhsan Zahir, Əli Salus kimi müasir vəhhabi kitab müəllifləri tərəfindən təkrarlanır (sitat Salusdandır): *"Abdullah ibn Səba yəhudi idi, sonradan müsəlman olmuşdu. Əli ibn Əbu Talibi (r) özünə dost tuturdu. Yəhudi olarkən Yuşa ibn Nun barədə həddi aşan fikirlər söyləyirdi. Peyğəmbərin (s) vəfatından sonra isə Əbülhəsən (Əli) barədə eyni sözləri danışmağa başladı. O, Əlinin Peyğəmbərin (s) vəsisi olduğu fikrinin sahibidir".* (Məəl-isna əşəriyyə fil-usuli vəl-furu, c. 1, s. 9)

Qurani-Kərimin və pak Peyğəmbər (s) sünnəsinin dəlilləri təşkil edir. İmamiyyə və Əhli-Sünnə alimlərinin arasında bu dəlillər mövzusunda ixtilaf mövcuddur. Lakin buna baxmayaraq, onlardan heç biri bu dəlillərin Abdullah ibn Səbanın uydurmaları olduğunu iddia etməyiblər. İnşallah, qarşıdakı bəhslərdə həmin dəlilləri qeyd edəcəyik.

İkinci cəhətə (xüsusilə "vəsilik" kəlməsi ilə Peyğəmbərdən (s) sonrakı xəlifənin müəyyən edilməsinə) gəldikdə, həmçinin bu barədə də İmamiyyə alimləri tərəfindən geniş bəhs açılmış, orada Peyğəmbər (s) sünnəsində "vəsi" kəlməsi ilə varid olmuş hədislər dəlil göstərilmiş, onların sənədləri, nəql yolları və dəlalətləri barədə müzakirələr aparılmışdır. Əhli-Sünnə alimlərinin isə bu barədə fərqli sözləri olmuşdur. Lakin onların heç birinin dilindən bu kəlmələrin Abdullah ibn Səbanın uydurmaları olduğuna dair kiçik bir eyham belə çıxmamışdır. Buna əsasən, həmin dəlillərin İbn Səbanın uydurmaları olduğu iddiasını etmək elmi bəhs mövzusunda heç bir əhəmiyyətə sahib deyil. İnşallah, bunu da qarşıda bəyan edəcəyik.

Abdullah ibn Səbanın "vəsilik" mövzusunu uydurması və İslam tarixində ona nisbət verilənlərlə bağlı şəxsiyyəti haqqında söylənmiş sözlərin arasında bir qarışıqlıq mövcuddur. İhsan Zahir və onun kimilər bunu özlərinə qənimət hesab etmiş, bununla insanları aldatmağa və onun həqiqi şəxsiyyəti ilə əlaqələndirməyə çalışmışlar. Halbuki o, bir çox səhabə ilə eyni dövrdə yaşamışdır. Həmçinin bununla bərabər, İhsan Zahir kimilər onun "vəsilik" və digər əqidələri uyduran şəxs olduğu iddiası ilə arada əlaqə yaratmağa səy göstərmiş, İbn Səbanın adı çəkildikdə, onu "vəsilik" əqidəsini uyduran şəxs kimi təqdim ediblər. Lakin bunların arasında heç bir əlaqə yoxdur.

Məsələnin tam aydın olması üçün mövzunu bu iki cəhət barədə, bir neçə fəsildə, oxucuya ehtiram olaraq, müxtəsər şəkildə müzakirə edəcəyik. Əgər İhsan Zahirin kitabındakı mətni təqdim etsək, bu, oxucunu

yormaqdan savayı bir şeyə fayda verməyəcək. Belə ki, onun kitabındakı mətndə cavaba layiq bir şey mövcud deyil. Orada yalnız heç bir dəlil və sübuta əsaslanmadan təhqir, söyüş və danlaq dili ilə ortaya atılan uydurmalar, iddialar və gümanlar sadalanır. Qeyd edəcəyimiz fəsillər aşağıdakılardan ibarətdir:

Birinci fəsil: Əhli-Sünnə mənbələrində "Vəsilik" kəlməsi ilə nəql olunmuş hədislər;

İkinci fəsil: Əhli-Sünnə mənbələrində "Vəsilik" kəlməsindən istifadə edilmədən bu mənada nəql olunmuş hədislər;

Üçüncü fəsil: Abdullah ibn Səbanın "vəsilik"lə bağlı rəvayətləri və onun şəxsiyyəti;

Dördüncü fəsil: Məzhəblərin yaranmasında dəlillərin rolu və şiəliyin yaranma tarixi;

Beşinci fəsil: Nicat tapan firqə.

Birinci fəsil: Əhli-Sünnə mənbələrində “Vəsilik” kəlməsi ilə nəql olunmuş hədislər;

Buradakı bəhslər:

1. Aişənin hədisi;
2. Möminlərin əmiri Əlinin (ə) hədisi;
3. Əbu Səid Xudrinin hədisi;
4. Əbu Əyyub Ənsarinin hədisi;
5. Büreydənin hədisi;
6. Ənəs ibn Malikin hədisi.

Giriş

Əhli-Sünnənin böyük hədis alim və hafizləri xilafətə dair "vəsi" kəlməsi ilə rəvayətlər qeyd ediblər. "Vəsilik" hədislərinin Abdullah ibn Səbanın uydurmaları və iddianın heç bir elmi dəyərə malik olmadığını göstərmək üçün həmin kəlmənin Peyğəmbərin (s) və böyük səhabələrin də dilindən söyləndiyini sizə göstərəcəyik. Bütün bunlar İbn Səbanın İslamı qəbul etməsindən öncə baş verib.

İndi isə İmam Əli (ə) barədə Peyğəmbərin (s) "vəsi" kəlməsindən istifadə etdiyi və Əhli-Sünnə hədis kitablarında nəql olunmuş rəvayətlərin bir hissəsinə qeyd edirik. Belə ki, şiə hədis kitabları bu mövzuda səhih rəvayətlərlə doludur. Hazırda biz qarşı tərəfə dəlil təqdim etməkdə olduğumuzu nəzərə alaraq, onları burada sadalamağa lüzum görmürük.

1. Aişənin hədisi

Buxari "Səhih"ində Əsvəd ibn Yezidin vasitəsilə nəql edir: *"Aişənin yanında Peyğəmbərin (s) Əliyə vəsiyyət etməsi ilə bağlı hadisə zikr olundu. Dedi: "Bunu kim deyir? Mən Peyğəmbərin (s) son anlarını gördüm, o, sinəmə söykənmişdi. Bir tas gətirilməsini istədi. Sonra başını (dizimə) qoyub vəfat etdi. (Nə vaxt öldüyünü) heç anlamadım. Əliyə nə vaxt vəsiyyət etdi?"*[4]

Buxari və Müslim "Səhih"lərində həmçinin bunu Əsvəd yolu ilə və azacıq fərqli kəlmələrlə də nəql edirlər: *"Aişənin yanında Əlinin vəsi olduğu bildirildi. Dedi: "Ona nə vaxt vəsiyyət etdi? Peyğəmbər (s) mənim sinəmə (və ya qucağıma) söykənmişdi. Bir tas gətirilməsini istədi. Sonra*

[4] Səhih, Buxari, c. 3, s. 186, "Vəsiyyət" kitabı, "Peyğəmbərin (s) vəsiyyəti və sözləri" babı; Səhih, Müslim, c. 5, s. 75, "Vəsiyyət etməyə heç bir şeyi olmayan şəxsin vəsiyyəti tərk etməsi" babı

başını dizlərimə tərəf aydi. Onun öldüyünü heç anlamadım. Bəs nə vaxt ona vəsiyyət etdi?"[5]

Nəsai "Müsnəd"ində Əsvədin vasitəsilə rəvayət edir: *"Aişə dedi: "Deyirlər ki, Peyğəmbər (s) Əliyə (r) vəsiyyət edib? O, bövl etmək üçün bir tas istədi, sonra başını aydi və mən (öldüyünü) anlamadım. Kimə vəsiyyət etdi?"*[6]

Fərqli kəlmələrlə nəql edilən bu rəvayətlərin sənədi barədə Əhli-Sünnənin arasında heç bir şübhə yoxdur. Bu hədislərdən anlaşılır ki, Peyğəmbərin (s) Əliyə vəsiyyəti səhabələrin arasında məşhur məsələ idi. Onlar bu məsələni öz məclislərində və söhbətlərində qeyd edirdilər. Sanki, bu, mövcudluğu qəti olan bir məsələ idi.

Bəs, Aişənin yanında İmam Əlinin (ə) Peyğəmbər (s) vəsisi olduğunu söyləyən səhabələrə də bu fikri Abdullah ibn Səba təlqin etmişdi?

Aişənin bu məsələdən xəbərsiz olması heç də vəsiyyətin varlığının mütləq şəkildə inkarı demək deyil. Peyğəmbərin (s) Əliyə (ə) Aişənin hüzurunda və ya onun dizləri üzərində vəsiyyət etməsi vacib deyildi! Bu, Peyğəmbərin (s) mübarək ömrünün son günlərində, səhabələrin hüzurunda da baş verə bilərdi.

Əlavə olaraq qeyd edək ki, Aişənin İmam Əli (ə) ilə bağlı faktı inkar etməsi qəribə deyil. Belə ki, onun Möminlərin əmiri Əlidən (ə) heç də xoşu gəlmirdi. Əbdürrəzzaq (vəfatı: h.q 211) Müəmmərə, o da Zuhriyə istinadən Übeydullah ibn Abdullah ibn Ütbədən Aişənin ona belə söylədiyini nəql edir: *"Peyğəmbərin (sağlamlığından) ilk şikayəti Məymunənin evində oldu. Xəstəlik səbəbilə Meymunənin evində qalması üçün zövcələrindən icazə istədi, onlar da izn verdilər.*

---

[5] Səhih, Buxari, c. 3, s. 186, "Vəsiyyət" kitabı, "Peyğəmbərin (s) vəsiyyəti və sözləri" babı; Səhih, Müslim, c. 5, s. 75, "Vəsiyyət etməyə heç bir şeyi olmayan şəxsin vəsiyyəti tərk etməsi" babı

[6] əs-Sünənul-kubra, Nəsai, c. 4, səh, 101-102, "Peyğəmbər (s) vəsiyyət etdimi?" babı; həmçinin "Sünən"də də qeyd edib: c. 1, s. 32-33, "Tasa bövl etmək" babı, c. 6, s. 240-241, "Peyğəmbər (s) vəsiyyət etdimi?" babı

Bir müddət sonra Peyğəmbərin (s) bir əli Fəzl ibn Abbasın və digər əli başqa bir nəfərin üzərində, ayaqlarını yerlə sürüyən halda evdən çıxdığını gördüm".

Übeydullah deyir: "Bunu İbn Abbasa danışdım, Aişənin adını söyləmədiyi ikinci şəxsin kim olduğunu soruşdum. İbn Abbas onun Əli olduğunu bildirdi. Çünki Aişənin ondan xoşu gəlmirdi".[7]

Həmçinin Əhməd ibn Hənbəl (vəfatı: h.q 241) səhih sənədlə "Müsnəd"ində nəql edib.[8]

Təbəri (vəfatı: h.q 310) öz "Tarix"ində İbn İshaq yolu ilə Yaqub ibn Ütbədən, o da Muhəmməd ibn Müslim ibn Şihab Zuhridən, o da Übeydullah ibn Abdullah ibn Ütbədən, o da Aişədən nəql edir. Orada deyilir: *"Lakin Aişə Əlini yaxşılıqlarla yad etməyi xoşlamırdı".*[9]

Müslim özünün "Səhih"ində Əbdürrəzzaqın vasitəsilə bu rəvayəti *"Çünki Aişənin ondan xoşu gəlmirdi"* sözünü qeyd etmədən nəql edir.[10] Həmçinin bu sözləri qeyd etmədən Əqilin vasitəsilə Zuhridən də nəql edir.[11]

Buxari də bu sözü qeyd etmədən öz "Səhih"ində Zuhri yolu ilə Şüeybdən,[12] eləcə də Müəmmər yolu ilə Zuhridən[13] nəql edir. Orada başqa bir rəvayət yolu da Əqilin Zuhridən,[14] digəri isə Müəmmər və Yunusun Zuhridən[15] nəql etdiyidir.

Buxari və Müslimin İbn Abbasın rəvayətindəki *"...Çünki Aişənin ondan xoşu gəlmirdi"* sözünü silmələrinə baxmayaraq, bu, heç də məsələyə təsir

---

[7] əl-Müsənnəf, Əbdürrəzzaq Sənani, c. 5, s. 428, hədis 9754, "Peyğəmbərin (s) xəstəliyinin başlaması"

[8] Müsnəd, Əhməd ibn Hənbəl, c. 6, s. 228, hədis 25956

[9] Tarix, Təbəri, c. 2, s. 433

[10] Səhih, Müslim, c. 1, s. 311, hədis 418, rəqəm 91

[11] Səhih, Müslim, c. 1, s. 311, hədis 418, rəqəm 92

[12] Səhih, Buxari, c. 1, s. 83, hədis 195

[13] Səhih, Buxari, c. 1, s. 236, hədis 634; c. 2, s. 914, hədis 2448

[14] Səhih, Buxari, c. 4, s. 1614, hədis 4178, "Peyğəmbərin (s) xəstəliyi və vəfatı" babı

[15] Səhih, Buxari, c. 5, s. 2160, hədis 5384

etməyib. Belə ki, Aişənin *"...Peyğəmbərin (s) bir əli Fəzl ibn Abbasın və digər əli başqa bir nəfərin üzərində"* sözü, İbn Abbasın isə həmin şəxsin Əli ibn Əbu Talib olmasını bildirməsi açıq şəkildə Aişənin İmam Əlinin (ə) adını çəkmək istəmədiyini göstərir. Bunun ən yaxşı dəlili isə tarixçilərin Cəməl müharibəsi barədə söylədikləridir. İbn Həcər Buxarinin "Səhih"indəki *"Zübeyr Cəməl müharibəsində səf tutub dayandığı gün..."* rəvayətinin şərhində yazır: *"Bu sözündə məqsədi Əli ibn Əbu Talib və tərəfdarları ilə aralarında Zübeyrin də olduğu Aişə tərəfdarlarının arasında baş vermiş məşhur savaş günüdür. Müharibəyə "Cəməl" adının verilməsinin səbəbi isə məşhur səhabə Yəla ibn Üməyyənin Aişəni yüz (iki yüz və ya daha çox olduğu da deyilib) dinara aldığı böyük bir dəvəyə oturdaraq döyüşə gətirməsi idi. Onu döyüşçülərlə bir sırada yerləşdirmiş, döyüşçülər dəvənin ətrafında savaşmışdılar. Sonda dəvə öldürüldü, onlar isə məğlub oldular".*[16]

Rəvayətdəki *"...Onu döyüşçülərlə bir sırada yerləşdirmiş, döyüşçülər dəvənin ətrafında savaşmışdılar. Sonda dəvə öldürüldü, onlar isə məğlub oldular"* sözlərinə diqqət yetirin. Məgər bundan sonra kimsə Aişənin İmam Əlini (ə) xoşlamadığına şübhə edə bilərmi?

2. Möminlərin əmiri Əlinin (ə) hədisi

Təbəri İbn Hümeyd yolu ilə Sələmədən, o da Muhəmməd ibn İshaqdan, o da Əbdülğəffar ibn Qasimdən, o da Minhal ibn Əmrdən, o da Abdullah ibn Haris ibn Nofəl ibn Haris ibn Əbdülmüttəlibdən, o da Abdullah ibn Abbasdan, o da Əli ibn Əbu Talibdən nəql edir ki, ***"Yaxın qohumlarını qorxut"*** *ayəsi nazil olduqdan sonra Peyğəmbər (s) qohumlarına dedi: "Sizdən hansınız bu işdə mənə vəzirlik edərək qardaşım, vəsim və aranızda xəlifəm olmağa razıdır?" (İmam Əli (ə) dedi: "Qohumlarının hamısı bundan imtina etdilər. Mən aralarında yaşca ən kiçik, gözünün ağı qarasından daha*

[16] Fəthul-Bari, İbn Həcər, c. 6, s. 160

çox, qarnı böyük və ayaqları ən incə olmağıma baxmayaraq dedim: "Ey Allahın Peyğəmbəri, bu işdə sənin köməkçin mən olaram". Əlini boynumun arxasına qoydu və buyurdu: "Həqiqətən, bu mənim qardaşım, vəsim və məndən sonra sizin aranızdakı xəlifəmdir. Onun sözlərini eşidib itaət edin".[17]

Hədisin sənədindəki ravilərin hamısı siqədirlər (inanılan və etibarlı şəxslərdir):

İbn Hümeyd (vəfatı: h.q 248) – Əbu Abdullah Muhəmməd ibn Hümeyd ibn Həyyan Razidir. Yəhya ibn Muin, Əhməd ibn Hənbəl, Cəfər ibn Əbu Osman Təyalisi və digərləri onun etibarlı (siqə) olduğunu söyləyiblər.[18]

Sələmə (vəfatı: h.q 190-cı ildən sonradır) – İbn Fəzl Əbrəş Ənsaridir. Əbu Davud, Tirmizi və İbn Macə ondan rəvayət nəql ediblər. İbn Muin, Muhəmməd ibn Səd, Əbu Davud və başqaları onun etibarlı (siqə) olduğunu söyləyiblər.[19]

Muhəmməd ibn İshaq (vəfatı: h.q 150) – o, məşhur ömür sahibidir. Buxari, Müslim, Əbu Davud, Tirmizi, Nəsai və İbn Macə ondan rəvayətlər nəql ediblər. Barəsində heç bir tənqid eşidilməyəcək həddə elm və inam sahibi kimi məşhurlaşıb.[20]

Bir neçə alim onun şiə və ya qədəriyyə etiqadlı, eləcə də saxtakarlıq etməsi (bəzi ravilərin adlarını gizlətməsi) gümanı ilə rəvayətlərini dəlil göstərməkdən çəkinib. Lakin onun sözlərindəki dürüstlüyü barədə dəlillər inkaredilməzdir. Zəhəbi deyir: *"Alimlərdən bir neçəsi İbn İshaqın rəvayətlərini dəlil göstərməkdən çəkiniblər. Səbəb kimi isə şiəliyini, qədəriyyəyə nisbət verilməsini və hədislərində saxtakarlıq etməsini (bəzi*

---

[17] Tarix, Təbəri, c. 2, s. 62-63

[18] Təhzibul-kəmal, Mizzi, c. 25, s. 100-101; Təhzibut-Təhzib, İbn Həcər Əsqəlani, c. 9, s. 115

[19] Bax: Təhzibut-Təhzib, İbn Həcər, c. 4, s. 135-136

[20] Bax: Təhzibut-Təhzib, c. 9, s. 36; Siyəru əlamin-nübəla, Zəhəbi, c. 7, s. 33-37

ravilərin adlarını gizlətməsini) göstəriblər. Lakin onun dürüstlüyünü heç bir şeylə inkar etmək mümkün deyil". Ardınca yazır: *"Buxari deyir: "Əli ibn Abdullahın İbn İshaqın rəvayətlərini dəlil göstərdiyini gördüm. Süfyanın onu heç kimin ittiham etmədiyini söylədiyini bildirdi".*[21]

Əbdülğəffara gəldikdə, o, Əbu Məryəm Kufi Əbdülğəffar ibn Qasim ibn Qeys Ənsaridir. Şöbə, Yəhya ibn Səid və digərləri ondan rəvayətlər nəql etmişlər. İbn Həcər Şöbəyə istinadən deyir: *"Ondan daha hafiz birini görmədim... Elmə və ricala böyük diqqət sahibi idi".*[22]

İbn Ədiy deyir: *"Əhməd ibn Muhəmməd ibn Səidin*[23]*Əbu Məryəmi tərifladiyini və mədhində həddi belə aşdığını eşitdim. O deyirdi: "Əgər Əbu Məryəmin elmi və hədisləri yayılsa camaatın Şöbəyə ehtiyacı qalmayacaq... Əbdülğəffar ibn Qasimin dəlil olmaq səlahiyyətində hədisləri var".*[24]

Onu zəif hesab edənlər isə bunu hədislərinə görə deyil, onun şəxsi rəylərinə görə ediblər. Üqeyli Əhməd ibn Hənbəldən Əbu Məryəmin hansı səbəbdən – şəxsi rəyi və ya hədisləri cəhətdən zəif hesab edildiyi

---

[21] Siyəru əlamin-nübəla, c. 7, s. 33-37

[22] Lisanul-mizan, İbn Həcər Əsqəlani, c. 4, s. 42

[23] O, İbn Üqdədir. Hədis alim və hafizləri, eləcə də rical alimləri arasında onun xüsusi məqamı var. Zəhəbi onun tərcümeyi-halında yazır: *"Əsrinin hafizi, hədis dəryasıdır... Yaddaş gücündə və çox hədis bilməkdə son zirvə idi".* (Təzkiratul-huffaz, c. 3, s. 839)

İbn Həcər isə Əbu Əli Hafizə istinadən deyir: *"Əbülabbas ibn Üqdədən kufəlilərin hədislərini daha yaxşı əzbər bilən bir şəxs görmədim. Əbu Əliyə camaatın onun barəsində nə danışdığı soruşulduqda demişdi: "Əbülabbas imam və hafizdir, onun məqamı tabeun və tabeunların tabeunları kimidir. Onun barəsində camaatdan rəy soruşulmaz".* (İbn Həcər, Lisanul-mizan, c. 1, s. 265)

İbn Ədiy deyir: *"Mərifət sahibi, hafiz və bu sənətdə öndə olanlardan idi... Barəsində kiçik (pis) bir sözə belə rast gəlmədim. Belə ki, bu kitabımda şəxslər barəsində deyilmiş ən kiçik sözləri də qeyd etməyi qarşıma şərt qoymuşdum. Əsla tərəf tutmuram, əgər onun barəsində bir söz deyilsəydi, mütləq qeyd edərdim. Onun barəsində yalnız fəzilətlər və mərifətlər zikr edilib".* (əl-Kamil, c. 1, s. 206)

İbn Həcər onun bu sözünün ardınca deyir: *"Bu sözlərinin ardınca isə İbn Ədiy onun barəsində heç bir mənfi söz zikr etmir".* (Lisanul-mizan, c. 1, s. 236)

[24] əl-Kamilu fi zuəfair-rical, İbn Ədiy, c. 5, s. 327-328

soruşularkən belə cavab verdiyini yazır: *"Rəyinə görə". Sonra dedi: "O, Osman barəsində pis sözlər danışırdı".*[25]

İbn Əbu Hatəm də Əhməd ibn Hənbəlin belə söylədiyini qeyd edir: *"Siqə (inanılan, etibarlı) deyil. O, Osman barəsində pis sözlər danışırdı".*[26] Deyir: *"Hədisləri tərk olunur. O, şiə başçılarından idi".*[27]

Buradan aydın olur ki, Əbu Məryəmin zəif hesab edilməsinin səbəbi onun rəyinə, xüsusilə də əqidəsinə və Osman barədə mənfi fikirlərinə görədir. Əks təqdirdə o, özü-özlüyündə inanılan və etibarlı şəxsdir (siqədir).

Əbu Məryəmin tərifənməsinə baxmayaraq,[28] şiə olduğu üçün onun elmi məqamının müdafiəsinə qalxmamışlar.

Minhal ibn Əmr – ondan Buxari, Əbu Davud, Tirmizi, Nəsai və İbn Macə rəvayətlər nəql etmiş, Yəhya ibn Muin, Nəsai, İcli və digərləri onu etibarlı ravi saymışlar.[29]

Abdullah ibn Haris ibn Nofələ gəldikdə, ondan da Buxari, Əbu Davud, Tirmizi, Nəsai və İbn Macə rəvayətlər nəql etmiş, Yəhya ibn Muin, Nəsai və başqaları onu etibarlı (siqə) hesab etmişlər.[30] İbn Əbdülbərr deyir: *"Onun etibarlı (siqə) olması barədə icma var".*[31]

İbn Əsakir Kufədə Əbu Bərəkət Ömər ibn İbrahim Zeydi Ələvinin vasitəsilə Əbülfərəc Muhəmməd ibn Əhməd ibn Əllan Şahiddən, o da Muhəmməd ibn Cəfər ibn Muhəmməd ibn Hüseyndən, o da Əbu Abdullah Muhəmməd ibn Qasim ibn Zəkəriyyə Müharibidən, o da İbad ibn Yaqubdan, o da Abdullah ibn Əbdülqüddüsdən, o da Əməşdən, o da

---

[25] əz-Züəfa, Üqeyli, c. 3, s. 102; Mizanul-itidal, c. 2, s. 640

[26] əl-Cərhu vət-tədil, İbn Əbu Hatəm, c. 6, s. 54

[27] əl-Cərhu vət-tədil, İbn Əbu Hatəm, c. 6, s. 54

[28] əl-Kamilu fi zuəfair-rical, c. 5, s. 372

[29] Təhzibul-kəmal, Mizzi, c. 28, s. 570; Təqribut-təhzib, İbn Həcər, c. 2, s. 216; əl-Kaşif, Zəhəbi, c. 2, s. 298

[30] Bax: Təhzibut-təhzib, c. 5, s. 158

[31] Təqribut-təhzib, c. 1, s. 485

Minhal ibn Əmrdən, o da Əbbad ibn Abdullahdan, o da Əli ibn Əbu Talibdən rəvayət edir ki, ***"Yaxın qohumlarını qorxut"*** ayəsi nazil olduqdan sonra Peyğəmbər (s) qohumlarını toplayaraq dedi: *"Sizlərdən kim borcumu ödəyər, məndən sonra xəlifəm və vəsim olar?" Əli deyir: "Abbas bu işin onun mal-dövlətinə toxunacağından qorxaraq susdu. Peyğəmbər (s) sözünü təkrarladı, lakin Abbas yenə də susdu. Peyğəmbər (s) üçüncü dəfə söylədi. Mən həmin günü aralarında ən pis görkəmli, ən incə ayaqlı, gözünün ağı qarasından daha çox və qarnı böyük olmağıma baxmayaraq dedim: "Ey Allahın Peyğəmbəri, mən olaram". Peyğəmbər (s) buyurdu: "Ya Əli, bəli, sən! Ya Əli, bəli, sən!"*[32]

Rəvayətin sənədindəki şəxslərin hamısı etibarlı və inanılan (siqə) şəxslərdir.

Əbülbərəkət Ömər ibn İbrahim (vəfatı: h.q 539) – Zəhəbi onun tərcümeyi-halında yazır: *"Şeyx, əllamə, ərəb dili qrammatikası ustadı, Kufə alimlərindəndir, xeyirxah, dindar şəxs olub. Ona otuz min insan cənazə namazı qıldı... Səmani deyir: "Böyük şeyx, fiqh, lüğət, təfsir və ərəb dili qrammatikası mütəxəssisi idi".*[33] İbn Əsakir onun barəsində yazır: *"Onun barəsində Kufədə məlumat topladım. O, indiyədək qarşılaşdığım ən təqvalı Ələvi idi".*[34] İbn Nəccar isə Əbülhəsən ibn Müqəddəsə istinadən deyir: *"Ən aqil ravilərdən idi, səhabələrə qarşı gözəl münasibəti var idi, onları tərifləyər və məzəmmət edənlərdən uzaq durardı".*[35]

Əbülfərəc Muhəmməd ibn Əllan Şahid (vəfatı: h.q 446), Zəhəbi onun tərcümeyi-halında deyir: *"Şeyx istinad olunan şəxs və etibarlıdır (siqədir)".*[36]

---

[32] Tarixu mədinəti Dəməşq, İbn Əsakir, c. 42, s. 47-48
[33] Siyəru əlamin-nübəla, c. 2, s. 145-146.
[34] Tarixu mədinəti Dəməşq, İbn Əsakir, c. 43, s. 543
[35] Zeylu tarixi Bağdad, İbn Nəccar, c. 5, s. 9-10
[36] Siyəru əlamin-nübəla, c. 18, s. 451

Muhəmməd ibn Cəfər ibn Muhəmməd ibn Hüseyn (vəfatı: h.q 402) – Zəhəbi onun tərcümeyi-halında yazır: *"İmam, uzun ömür sürmüş və istinad olunan şəxsdir".*[37]

Əbu Abdullah Muhəmməd ibn Qasim ibn Zəkəriyyə Müharibi (vəfatı: h.q 320) – Zəhəbi onun tərcümeyi-halında deyir: *"Şeyx və hədisşünas idi, uzun ömür yaşamışdı".*[38]

Onu zəif hesab edənlər isə bunu rəyinə və əqidəsinə görə söyləmişlər. Zəhəbi yazır: *"Onun barəsində bəzi sözlər deyilib: rəcətə inanırdı... Daraqutni ondan hədis nəql edib".*[39]

Deməli, zəif sayılmasının səbəbi rəcətə etiqad bəsləməsi idi. Lakin bu da təsdiqlənməmişdi. Belə ki, həmin iddia "deyilib" sözünə istinad olunur. Hətta bu etiqadı isbatlansa da, bu ona mənfilik gətirməz. Buna görə də Darəqutni ondan hədis rəvayət edir. Bütün bunlara əsasən, onun adının zəiflər və nöqsanlılar siyahısında qeyd edilməsinə heç bir əsas yoxdur.

İbad ibn Yaqub Rəvacəni (vəfatı: h.q 250) – Zəhəbi, İbn Xuzeymə və digərləri onun etibarlı (siqə) olduğunu bildirirlər.[40] Həmçinin Zəhəbi öz kitabında Əbu Hatəmin də onu etibarlı (siqə) saydığını qeyd edir.

Abdullah ibn Əbdülqüddüsə gəldikdə, Buxari, İbn Hibban, Hafiz ibn Həcər Əsqəlani və digərləri onu etibarlı (siqə) saymışlar.[41] Heysəmi "Məzməuz-zəvaid"də deyir: *"Onun barəsində söz-söhbət var. Ancaq etibarlı sayılır".*[42]

---

[37] Siyəru əlamin-nübəla, c. 17, s. 100

[38] Siyəru əlamin-nübəla, c. 15, s. 73

[39] Mizanul-itidal, Zəhəbi, c. 4, s. 14

[40] Bax: əl-Kaşif, Zəhəbi, c. 1, s. 533-532; Siyəru əlamin-nübəla, c. 11, s. 536-537; Təqribut-təhzib, İbn Həcər, c. 1, s. 469-470; Xulasətu təhzibil-kəmal, Xəzrəci, s. 187

Əbdürrəhman ibn Əbu Hatəm Razinin belə dediyi nəql olunur: *"Atamdan onun barəsində soruşduqda dedi: "Kufəli şeyxdir".* (əl-Cərhu vət-tədil, Əbu Hatəm Razi, c. 6, s. 88, "Daru ihyait-turasil-ərəbi" nəşriyyatı, Beyrut, Livan)

[41] Təhzibut-təhzib, İbn Həcər, c. 5, s. 265; Təqribut-təhzib, İbn Həcər, c. 1, s. 510

[42] Məcməuz-zəvaid, Heysəmi, c. 3, s. 15

Tənqid əhlinin onun barəsindəki mənfi sözlərinə nəzər salanlar bunun əsasən Əhli-Beytin (ə) fəzilətlərinə dair rəvayətlər nəql etməsi səbəbindən olduğunu görəcəklər.

Əməş – o, Süleyman ibn Mehran Əməş Əsədi Kahilidir (vəfatı: h.q 148). Kutubus-sittə sahibləri ondan rəvayət nəql ediblər. Yəhya ibn Muin, Nəsai, Hafiz ibn Həcər Əsqəlani, İcli, İbn Hibban və digərləri onun etibarlı (siqə) olduğunu bildiriblər.[43]

Minhal ibn Əmr barəsində isə əvvəldə söhbət açmışdıq.

Əbbad ibn Abdullah Əsədidən Nəsai[44] rəvayət etmiş, İcli və İbn Hibban[45] onu etibarlı (siqə) saymış, İbn Əbu Hatəm "Təfsir"ində[46] ondan hədis nəql etmiş, Hakim isə "Müstədrək"də[47] onun hədisinin səhih olduğunu bildirmişdir.

Bu rəvayəti İbn Əsakir də öz kitabında Əbu Rafinin vasitəsilə atasından nəql edib: *"Peyğəmbər (s) Əbdülmüttəlib oğullarını bir yerə topladı. Həmin gün sayları qırx nəfərdi. Onlar bişirilmiş ətdən yeyir, süd içirdilər. Peyğəmbər (s) onlara dedi: "Ey Bəni-Əbdülmüttəlib! Uca Allah göndərdiyi hər peyğəmbərə onun ailəsindən bir qardaş, vəzir, varis, vəsi, vədlərini yerinə yetirən və borclarını ödəyən bir şəxs təyin etmişdir. Sizdən hansınız mənə tabe olar ki, qardaşım, vəzirim, vəsim, vədlərimi yerinə yetirən və borclarımı ödəyən şəxs olsun?"*

Əli ibn Əbu Talib aya qalxdı. Həmin günü o, aralarında yaşı ən az olan şəxs idi. Peyğəmbər (s) ona "Əyləş..." dedi.

İkinci gün də onları toplayıb eyni təklifi səsləndirdi. Sonra buyurdu: "Ey Bəni-Əbdülmüttəlib, İslamda baş timsalında olun, quyruq kimi olmayın.

---

[43] Təqribut-təhzib, İbn Həcər, c. 1, s. 392; əl-Kaşif, c. 1, s. 464; Mərifətus-siqat, İcli, c. 1, s. 432; əs-Siqat, İbn Hibban, c. 4, s. 302; Tarixu əsmais-siqat, Ömər ibn Şahin, s. 14

[44] Bax: Təhzibul-kəmal, Mizzi, c. 14, s. 139

[45] Mərifətus-siqat, İcli, c. 2, s. 17; əs-Siqat, İbn Hibban, c. 5, s. 141

[46] Təfsir, İbn Əbu Hatəm, c. 1, s. 45

[47] əl-Müstədrəku ələs-səhiheyn, Hakim Nişapuri, c. 3, s. 112, 129-130

Sizdən hansınız mənə tabe olar ki, qardaşım, vəzirim, vəsim, vədlərimi yerinə yetirən və borclarımı ödəyən şəxs olsun?"

Əli ibn Əbu Talib ayağa qalxdı. Peyğəmbər (s) ona yenə "Əyləş" deyə buyurdu.

Bu hadisə üçüncü gün də təkrarlandı. Peyğəmbər (s) yenə həmin təklifi onlara etdi. Əli ibn Əbu Talib ayağa qalxdı və ona beyət etdi..."[48]

İbn Əsakir həmçinin Əbu Rafinin vasitəsilə rəvayət edir: "Mən bir kənarda oturmuşdum. Camaat Əbu Bəkrə təzəcə beyət etmişdi. Əbu Bəkrin Abbasa belə dediyini eşitdim: "Allahı şahid tuturam, bilmirsənmi ki, Peyğəmbər (s) bütün Əbdülmüttəlib oğullarını toplamışdı, sən də onların arasında idin. Qüreyş istisna olmaqla hamınızı toplamış və buyurmuşdu: "Ey Bəni-Əbdülmüttəlib, Uca Allah göndərdiyi hər peyğəmbərə onun ailəsindən bir qardaş, vəzir, vəsi və əhli üzərində bir xəlifə təyin etmişdir. Sizdən kim ayağa qalxıb mənə beyət edər ki, qardaşım, vəzirim, vəsim və əhlim üzərində xəlifəm olsun?" Onlardan heç biri ayağa qalxmadı. Sonra buyurdu: "Ey Bəni-Əbdülmüttəlib, İslamda baş timsalında olun, quyruq kimi olmayın. Ya sizdən ayağa biri qalxsın, ya da bu iş sizdən başqasına həvalə olunacaq ki, sonra peşman olacaqsınız". Aranızdan bircə Əli ayağa qalxdı. Peyğəmbər (s) söylədiyi şərtlərə uyğun olaraq onunla beyət etdi. Sən bunları bilirsən?" Abbas "Bəli" – deyə cavab verdi".[49]

3. Əbu Səid Xudrinin hədisi

Təbərani "əl-Möcəmul-kəbir"də Muhəmməd ibn Abdullah Həzrəmidən, o da İbrahim ibn Həsən Sələbidən, o da Yəhya ibn Yəladan, o da Nasih ibn Abdullahdan, o da Simak ibn Hərbdən, o da Əbu Səid Xudridən, o da Süleymandan nəql edir: *"Dedim: "Ya Peyğəmbər, hər bir peyğəmbərin vəsisi olub. Bəs sənin vəsin kimdir?" Susub cavab vermədi.*

---

[48] Tarixu mədinəti Dəməşq, İbn Əsakir, c. 42, s. 49-50

[49] Tarixu mədinəti Dəməşq, İbn Əsakir, c. 42, s. 50

Lakin sonradan məni gördükdə "Ya Süleyman!" deyib səslədi. Mən cəld onun yanına gəlib "Buyur, ya Peyğəmbər!" söylədim. Dedi: "Musanın vəsisinin kim olduğunu bilirsən?" Mən "Bəli, Yuşa ibn Nun" dedim. Buyurdu: "Nə üçün?"

Dedim: Çünki aralarında ən elmlisi idi.

Peyğəmbər (s): Həqiqətən də, mənim vəsim, sirrimin xəzinədarı, özümdən sonra aranızda qoyduğum ən xeyirli şəxs, vədlərimi yerinə yetirən və borcumu qaytaran Əli ibn Əbu Talibdir.

Əbülqasim deyir: Peyğəmbərin (s) vəsi sözündə məqsədi xilafət deyil, əhli barəsində etdiyi vəsiyyətidir. "Özümdən sonra aranızda qoyduğum ən xeyirli şəxs" sözü isə, yəni Əhli-Beytimdən ən xeyirli şəxs deməkdir".[50]

Bu rəvayəti Əhməd ibn Hənbəl "Fəzailus-səhabə" kitabında Ənəs ibn Malikə yetişən sənədlə qeyd edib: *"Süleymana dedik: "Peyğəmbərdən (s) vəsisinin kim olduğunu soruş". Süleyman Peyğəmbərlə (s) görüşdükdə vəsisinin kim olduğunu ondan soruşdu. Buyurdu: "Ey Süleyman, Musanın vəsisi kim idi?" Süleyman "Yuşa ibn Nun" deyə cavab verdi. Peyğəmbər (s) buyurdu: "Mənim vəsim, varisim, borclarımı qaytaran və vədlərimi yerinə yetirən şəxs Əli ibn Əbu Talibdir".*[51]

Rəvayətin sənədindəki ravilər etibarlı (siqə) şəxslərdir:

Muhəmməd ibn Abdullah Həzrəmi, o, "Mütəyyən" kimi məşhurdur. İbn Əbu Hatəm, Daraqutni, Zəhəbi, Heysəmi "Məzməuz-zəvaid"də və digərləri onun inanılan (siqə) şəxs olduğunu bildirmiş,[52] Əmr ibn Əbu Asim isə "hafiz" deyə vəsf etmişdir.[53] Hakim Nişapuri "Müstədrək"də onun ravisi olduğu hədisə "səhih" hökmü vermiş, Zəhəbi də "Təlxis"də onunla razılaşmışdır.[54]

---

[50] əl-Möcəmul-kəbir, Təbərani, c. 6, s. 221, hədis 6063

[51] Fəzailus-səhabə, Əhməd ibn Hənbəl, c. 2, s. 615, hədis 1052

[52] əl-Cərhu vət-tədil, İbn Əbu Hatəm Razi, c. 7, s. 298; Təzkiratul-huffaz, Zəhəbi, c. 2, s. 662; Məzməuz-zəvaid, Heysəmi, c. 6, s. 104

[53] əs-Sünnə, İbn Əbu Asim, s. 317

[54] Bax: əl-Müstədrəku ələs-səhiheyn, Hakim Nişapuri, c. 3, s. 560, c. 4, s. 319, "Təliqatuz-Zəhəbi fit-təlxis" kitabı

İbrahim ibn Həsən Sələbini Əbu Hatəm "Şeyx" deyə vəsf edir,[55] İbn Hibban isə onun adını "əs-Siqat" kitabında qeyd edir.[56]

Yəhya ibn Yəla Əsləmidən Buxari "əl-Müfrəd"də, Tirmizi "Sünən"də, İbn Əbu Şeybə "əl-Müsənnəf"də rəvayət nəql etmişlər. İbn Əbu Hatəm isə "Təfsir"ində ondan nəql etdiyi rəvayətin ardınca deyir: *"Bunun ən səhih xəbərlərdə və bənzəri mətnlərlə də rəvayət edildiyi məni heyrətləndirdi".*[57]

İbn Hibban öz "Səhih"ini qələmə alma səbəbini açıqlayarkən yazır: *"Mən bir çox yollarla nəql olunmuş, camaatın isə onların arasındakı səhihlərin az hissəsini bildiklərini gördükdə... hədis əzbərləyən tələbələrə asan olması üçün səhih hədisləri araşdırdım və (sənədlərinə) xüsusi diqqət yetirdim ki, onlardan iqtibas edənlə çətinlik yaranmasın".*[58]

Həmçinin Hakim də "Müstədrək"də ondan rəvayət edilən hədisə səhih hökmü verib.[59]

Onu zəif hesab edənlər isə ədalət cəhətindən deyil, rəyinə və əqidəsinə görə belə hökm veriblər. Bu baxımdan bəzi rical alimləri onu zəif saymış və tənqid etmişlər. İbn Həcər "ət-Təhzib"də deyir: *"Abdullah Dövrəqi Yəhya ibn Muindən belə dediyini nəql edir: "Hədisləri bir şey deyil", Buxari deyir: "İxtilaflı hədisləri var", Əbu Hatəm deyir: "Hədisləri zəifdir, güclü ravi deyil", İbn Ədiy isə deyir: "Kufəli şiədir".*[60]

Bu sözlər onların nəzdində ən aşağı tənqid dərəcəsindədir. Burada onu ədalət və ya dürüstlük cəhətindən məzəmmət etmirlər. Onun yeganə günahı, İbn Ədiyin də sözündən göründüyü kimi, şiə olmasıdır.

Bunun təsdiqi olaraq, Yəhya ibn Yəla Əsləminin rəvayətlərinə nəzər salan şəxs onların əsasən Əhli-Beytin (ə) fəziləti və vilayəti mövzusunu ehtiva etdiyini görəcək. Bu isə ravinin zəif sayılması və hədislərinin rədd

---

[55] əl-Cərhu vət-tədil, İbn Əbu Hatəm Razi, c. 2, s. 92
[56] əs-Siqat, İbn Hibban, c. 8, s. 80
[57] Təfsir, İbn Əbu Hatəm, c. 1, s. 3032
[58] Səhih, İbn Hibban, c. 1, s. 102-103
[59] əl-Müstədrəku ələs-səhiheyn, c. 3, s. 128, "Təliqatuz-Zəhəbi fit-Təlxis" kitabı ilə.
[60] Təhzibut-təhzib, İbn Həcər, c. 11, s. 266

edilməsi üçün yetərli səbəbdir. Hətta bu ravinin İsmail ibn Əbu Xalid, Əməş, Əbdülməlik ibn Əbu Süleyman, Osman ibn Əsvəd, Fitr ibn Xəlifə, Yunus ibn Xəbbab, eləcə də İbn Həcərin "Təhzib"də qeyd etdiyi[61] bir sıra böyük ravi və həddisşünaslardan rəvayət nəql edən Yəhya ibn Yəla olması belə nəzərə alınmır. Həmçinin Əbu Bəkr ibn Əbu Şeybə, Qüteybə ibn Səid, Əbu Hişam Rufai, İsmail ibn Aban Vərraq, Cübarə ibn Muğləs, Vəlid ibn Himad, Əbu Nəim Təhhan, İbad ibn Yaqub Rəvacəni və başqaları[62] Yəhya ibn Yəladan rəvayətlər nəql etmişlər.

Sələminin hədislərinin əsas mövzusu olan Əhli-Beytin (ə) fəzilət və vilayəti onun müdafiəsiz qalmasına səbəb olub.

Nasih ibn Abdullah – ondan Əbu Hənifə Nüman, İsmail ibn Əmr Bəcəli, Abdullah ibn Saleh İcli və başqaları[63] kimi etibarlı (siqə) böyük alim və hədisçilər rəvayət nəql ediblər. O, abid şəxs idi. Zəhəbi deyir: *"Həsən ibn Saleh onun barəsində deyir: "Saleh insandır, necə də gözəl şəxsiyyətdir".*[64]

İbn Hibban isə deyir: *"Saleh şeyx idi".*[65]

Onu zəif hesab edənlər isə nəql etdiyi rəvayətlərin səhihliyinə zərər verə biləcək ədalət, dürüstlük və ya hafizlikdə qüsurlarına görə tənqid etməyiblər. Onların rəyləri "hədisləri inkar olunur", "əhəmiyyətsizdir", "güclü ravi deyil", "düşündüyü şeyləri söyləyir" kimi sözlərdən ibarət olub.[66]

Simakdan və Cabir ibn Səmurədən nəql etdiyi inkar olunan hədisləri Əhli-Beytin (ə) fəzilətləri, üstün xüsusiyyətləri və vilayətləri barədədir. Əbdürrəhman ibn Əbu Hatəm deyir: *"Atamdan Nasih ibn Abdullah Haik barədə soruşdum, dedi: "Hədisləri zəifdir, inkar olunur. Onun Simakdan və*

---

[61] Təhzibut-təhzib, İbn Həcər, c. 11, s. 266
[62] Təhzibut-təhzib, İbn Həcər, c. 11, s. 266
[63] Təhzibut-təhzib, İbn Həcər, c. 10, s. 358
[64] Mizanul-itidal, Zəhəbi, c. 4, s. 240
[65] Kitabul-məcruhin, İbn Hibban, c. 3, s. 54
[66] Təhzibut-təhzib, İbn Həcər, c. 10, s. 359

Cabir ibn Səmurədən fəzilətlərlə bağlı müsnəd rəvayətləri var ki, hamısı inkar olunur; sanki, o, Simak və Cabirdən başqasını tanımayıb".[67]

Əbu Hənifənin və başqalarının ondan rəvayət nəql etməsi, saleh şəxs olduğunu bildirmələri belə Əhli-Beytin (ə) fəzilətləri ilə bağlı nəql etdiyi hədislərə görə onun tənqiddən xilas etməyib. Səbəbi məlum olduqdan sonra, bu tənqidin heç bir dəyərinin olmadığı görünür.

Simak ibn Hərbə gəldikdə (vəfatı: h.q 123) – Yəhya ibn Muin, Əbu Hatəm Razi, Zəhəbi, İbn Ədiy və başqaları onun etibarlı və inanılan (siqə) şəxs olduğunu qeyd ediblər.[68]

4. Əbu Əyyub Ənsarinin hədisi

Təbərani "Möcəmul-kəbir"də Muhəmməd ibn Abdullah Həzrəminin vasitəsilə Muhəmməd ibn Mərzuqdan, o da Hüseyn Əşqərdən, o da Qeysdən, o da Əməşdən, Əbayə ibn Rəbiidən, o da Əbu Əyyub Ənsaridən Peyğəmbərin (s) Fatiməyə (r) belə buyurduğunu nəql edir: *"Məgər bilmirsən ki, Uca Allah Yer əhlinə nəzər salaraq atanı seçmiş və onu peyğəmbər göndərmiş, sonra bir daha nəzər salaraq sənin həyat yoldaşını seçmiş və mənə vəhy edərək səni onunla evləndirməyimi, eləcə də onu özümə vəsi seçməyimi buyurmuşdur?!"*[69]

Bu hədisin də sənədindəki ravilərin hamısı etibarlı və inanılan (siqə) şəxslərdir:

Muhəmməd ibn Abdullah Həzrəmi barədə fikirləri yuxarıda təqdim etdik.

Muhəmməd ibn Mərzuq (vəfatı: h.q 248) – Müslim, Tirmizi və İbn Macə[70] ondan rəvayət nəql etmiş, Əbu Hatəm onu etibarlı saymış,[71] İbn

---

[67] əl-Cərhu vət-tədil, Əbu Hatəm Razi, c. 8, s. 503

[68] Təhzibul-kəmal, Mizzi, c. 12, s. 115; əl-Kamilu fiz-zuəfa, Abdullah ibn Ədiy, c. 3, s. 462; Siyəru əlamin-nübəla, Zəhəbi, c. 5, s. 245-249

[69] əl-Möcəmul-kəbir, Təbərani, c. 4, s. 171, hədis 4064

[70] Təqribut-təhzib, İbn Həcər, c. 2, s. 130

Hibban onun adını "əs-Siqat" kitabında qeyd etmiş,[72] Hafiz ibn Həcər isə onun barəsində *"Doğru danışandır, bəzi fərqli fikirləri olub"* demişdir.[73]

Hüseyn Əşqər Fəzari (vəfatı: h.q 208) – Nəsai onun rəvayətini nəql etdib, həmçinin ondan Əhməd ibn Əbədə Zabiy, Əhməd ibn Hənbəl, İbn Muin, Fəllas, İbn Səd, Muhəmməd ibn Xələf Həddadi və başqalarından rəvayət etmişlər.[74]

İbn Həcər İbn Cüneydə istinadən yazır: *"İbn Muinin Əşqər barədə belə söylədiyini eşitdim: "O, ğali (həddi aşan) şiələrdən idi". Dedim: "Bəs hədisləri necədir?" Onlarda problemin olmadığını söylədi. Doğru danışan olub-olmadığını soruşduğumda isə "Bəli, doğru danışandır, onun barəsində yazmışam" deyə cavab verdi.*[75] *Başqa bir yerdə isə deyir: "Doğru danışandır, fərqli rəyləri olub".*[76]

İbn Hibban onun adını "əs-Siqat"[77] kitabındakı şəxslərin arasında çəkir, Hakim "əl-Müstədrək"də[78] onun hədisinə səhih hökmü verir, Zəhəbi də onun bu hökmü ilə razılaşır: *"Əşqər etibarlı şəxs sayılır".* Başqa bir yerdə isə onun hədisinin yalan və uydurma olduğuna hökm verir.

Zəhəbinin iki müxtəlif yerdə iki fərqli rəyinə diqqət yetirən şəxsə bunun səbəbləri maraqlı gələcək. Hakim Nişapuri ilə həmfikir olduğu rəvayət Hüseyn Əşqərin vasitəsilə Cəfər ibn Ziyad Əhmərdən, onun da Muxəvvəldən, onun da Munzir Sövridən, onun da Ümmü Sələmədən (r) nəql etdiyi hədisdir: *"Peyğəmbər (s) qəzəbləndiyi vaxt Əli ibn Əbu Talibdən savayı bizdən heç kimsə ona bir söz deməyə cəsarət etmirdik".* Sonra Hakim deyir: *"Bu, sənədi səhih hədisdir, Buxari və Müslim öz kitablarında qeyd*

---

[71] əl-Cərhu vət-tədil, c. 8, s. 90
[72] əs-Siqat, İbn Hibban, c. 9, s. 125
[73] Təqribut-təhzib, İbn Həcər, c. 2, s. 130
[74] Təhzibut-təhzib, c. 2, s. 291
[75] Təhzibut-təhzib, c. 2, s. 291
[76] Təqribut-təhzib, c. 2, s. 214
[77] əs-Siqat, İbn Hibban, c. 8, s. 184
[78] əl-Müstədrəku ələs-səhiheyn, Hakim Nişapuri, c. 3, s. 140

etməyiblər". Zəhəbi isə onun sözlərinin ardınca deyir: *"Əşqər etibarlı şəxs sayılır. İbn Ədiy onu ittiham etmiş, Cəfər isə barəsində bəzi mənfi sözlər danışmışdı".*[79]

Hakimin rəyinə qarşı çıxdığı, hədisin yalan və uydurma olduğuna hökm verdiyi rəvayət isə elə Hakimin özünün Hüseyn ibn Həsən Əşqərin vasitəsilə Mənsur ibn Əbüləsvəddən, onun da Əməşdən, onun da Minhal ibn Əmrdən, onun da İbad ibn Abdullah Əsədidən, onun da Əlidən nəql etdiyi rəvayətdir: ***"Həqiqətən də, sən qorxudansan, hər bir qovmün hidayət edəni var"*** *ayəsi barədə Əli dedi: "Peyğəmbər (s) qorxudandır, mən isə hidayət edənəm".* Sonra Hakim Nişapuri deyir: *"Bu, sənədi səhih hədisdir, Buxari və Müslim öz kitablarında qeyd etməyiblər".* Ardınca isə Zəhəbi yazır: *"Bu yalandır, Allah onu uyduranı eybəcər hala salsın!"*[80]

Bu ikili standart Əşqərin şəxsiyyəti ilə deyil, rəvayətləri ilə bağlıdır. Belə ki, etibarı və ədaləti cəhətindən ittiham olunmayıb. Hafiz ibn Həcər də Əhməd ibn Muhəmməd ibn Hanidən belə nəql edir: *"Əbu Abdullaha (Əhmədi nəzərdə tutur) dedim: "Hüseyn Əşqərdən hədis nəql edirsən?" Dedi: "Nəzərimdə onu təkzib edən heç kəs yoxdur".*[81]

İttiham olunmasının ən başlıca səbəbi isə əvvəlki hədisdə olduğu kimi, ***"Həqiqətən də, sən qorxudansan, hər bir qovmün hidayət edəni var"***[82] ayəsinin təfsiri ilə bağlı Əhli-Beytin (ə) fəzilətlərinə dair Zəhəbi və bənzərlərinin nəfslərinə xoş gəlməyən rəvayətlər nəql etməsidir. Ona görə də yalan və uydurma hədislər rəvayət etdiyi böhtanı ilə üz-üzə qalıb.[83]

---

[79] əl-Müstədrəku ələs-səhiheyn, Hakim Nişapuri, c. 3, s. 141. "Təliqatuz-Zəhəbi fit-Təlxis" kitabı ilə

[80] əl-Müstədrəku ələs-səhiheyn, Hakim Nişapuri, c. 3, s. 140, hədis 4646, "Təliqatuz-Zəhəbi fit-Təlxis" kitabı ilə

[81] Təqribut-təhzib, c. 2, s. 291

[82] Rəd, 7

[83] Bax: Təhzibul-kəmal, Mizzi, c. 6, s. 366

Qeys ibn Rəbi Əsədi (vəfatı: h.q 160) – Tirmizi, İbn Macə və Əbu Davud ondan rəvayət nəql etmiş, Sövri, Şöbə, Əbu Hatəm, Zəhəbi və digərləri onu etibarlı (siqə) saymışlar. Zəhəbi deyir: *"Elm sahiblərindən biridir, doğru danışandır... Şöbə onu tərifləyirdi. Əbu Hatəm deyir: "Yeri doğru danışanların sırasındadır".*[84]

İbn Həcər deyir: *"Übeydullah ibn Muaz atasından nəql edir: "Yəhya ibn Səidin Şöbənin yanında Qeysi tənqid etdiyini eşitdim, ondan çəkindirir və hədislərinə istinad etməyi qadağan edirdi".*

Əffan deyir: "Yəhya ibn Səidə dedim: "Sən Süfyanın da onun barəsində mənfi sözlər danışdığını, səhv tutduğunu və s. eşitmisən?" "Xeyr" deyə cavab verdi.

Dedim: "Onu yalançılıqda ittiham edirsən?" Yenə də "Xeyr" dedi.

Əffan deyir: "Onun barəsində deyilənlər dəlil deyil".

Hatəm ibn Leys Cövhəri Əffana istinadən deyir: "Qeys etibarlı (siqə) ravidir. Sövri və Şöbə onu etibarlı (siqə) saymışlar".

Əbu Vəliddən nəql edir: "Qeys etibarlıdır, hədisləri həsəndir".

Əmr ibn Əli Əbu Vəlidə dedi: "Qeys barəsində səndən daha yaxşı nəzəri olan şəxs görmədim!"

Dedi: "O, Allahdan qorxan şəxs idi..."

İbn Hibban deyir: "Onun hədislərini araşdırdım, düz danışan olduğunu gördüm. Yalnız yaşlandıqda yaddaşı korlanmışdı. Oğlu onun tərəfindən inanılan şəxs kimi hədislər nəql edib. Bəzi hədislərində çəkinməyə layiq inkar olunan nüanslar var... Şöbə ondan hədis rəvayət edib. Hədis nəql etməkdə dürüstlüyü ilə tanınıb. Deyilir ki, oğlu onun yazdıqlarını zay etmişdi, camaat da onun hədislərini tərk etdi".

Osman ibn Əbu Şeybə deyir: "Dürüst şəxs idi, lakin bəzi hədislərində ixtilaflar var..."

---

[84] Mizanul-itidal, Zəhəbi, c. 3, s. 393

İbn Xüzeymə deyir: "Muhəmməd ibn Yəhyanın belə dediyini eşitdim: "Qeys ibn Rəbidən altı min hədis yazdım. Bunlar mənim üçün altı min dinardan daha sevimlidir".[85]

Qeys barəsindəki sözlərə diqqət yetirəndə onun şəxsən dürüst və doğru danışan şəxs olduğu, yalançı kimi tanınmadığı və elm keşikçilərindən sayıldığı aydınlaşır.

Onu tənqid edənlər gah bunun səbəbini izah etməmiş, gah şiəliyinə, gah oğlunun onun hədislərinə müdaxilə etdiyinin deyildiyinə və gah da bu başqa bu kimi səbəblər səsləndirmişlər.

Əməşin etibarlı və inanılan şəxs sayıldığını əvvəldə sizə təqdim etdik.

Əbayə ibn Rəbii Əsədiyə gəldikdə, İbn Hibban onun adını "əs-Siqat"da[86] çəkib. Əbu Hatəm deyir: *"Şeyxdir".*[87] Hakim "əl-Müstədrək"də onun rəvayətinə səhih hökmü vermiş, Zəhəbi də onunla razılaşmışdır.[88]

Üqeylinin onu zəif bilməsi isə əhəmiyyətsizdir və ona etina olunmaz. Çünki heç bir dəlil olmadan, yalnız öz rəyinə əsaslanaraq bir çoxlarına zəif hökmü verib. Zəhəbi onun bu xüsusiyyətini ciddi tənqid edərək deyir: *"Ey Üqeyli, yoxsa sənin ağlın yoxdur?! Sən kimin barəsində danışdığını heç bilirsən?! Biz onları müdafiə etmək üçün elə sənin üslubundan istifadə edirik. Guya ki, sən onların hər birinin səndən etibarda qat-qat üstün olduğunu bilmirsən. Onlar nəinki səndən, hətta kitabında adlarının etibarlı şəxslər sırasında qeyd etdiyin bir çoxlarından daha artıq inam bəslənilən şəxslərdir".*[89]

Buna əsasən, hədisin sənədindəki ravilərin etibarlı (siqə) şəxslər olduğu aydınlaşır. Onlar barəsində deyilmiş bəzi mənfi sözlər də ədalət,

---

[85] Təhzibut-təhzib, İbn Həcər, c. 8, s. 350-353

[86] əs-Siqat, İbn Hibban, c. 5, s. 281

[87] əl-Cərhu vət-tədil, c. 7, s. 29

[88] əl-Müstədrəku ələs-səhiheyn, c. 2, s. 141, hədis 2589, "Təliqatuz-Zəhəbi fit-Təlxis" kitabı ilə

[89] Mizanul-itidal, Zəhəbi, c. 3, s. 140

dürüstlük, yaddaş və s. bu kimi şəxsi keyfiyyətləri ilə bağlı deyil ki, rəvayətlərinin dəlil olmasına təsir göstərsin.

Həmçinin Təbərani "əl-Möcəmul-kəbir" və "əl-Möcəmul-övsat" kitablarında Əli ibn Əli Məkki Hilalinin vasitəsilə atasından nəql edir: *"Peyğəmbərin (s) vəfatı ilə nəticələnən xəstəliyi vaxtı onun yanına getdim. Başı üstündə Fatimə dayanmışdı. O, ağladı və hönkürtü səsi yüksəldi. Peyğəmbər (s) bir böyrü üstə qalxaraq dedi: "Əzizim Fatimə, niyə ağlayırsan?"*

Dedi: "Səndən sonra sıxıntılarla qarşılaşacağımdan qorxuram".

Peyğəmbər (s) buyurdu: "Əziz qızım, məgər bilmirsən ki, Uca Allah Yer üzünə bir nəzər salıb sənin atanı seçdi və onu elçi olaraq göndərdi. Sonra bir daha Yer üzünə nəzər salıb sənin həyat yoldaşını seçdi, səni onunla evləndirməyimi əmr etdi. Ey Fatimə, biz Əhli-Beytik, Allah bizə yeddi xüsusiyyət bəxş edib ki, nə bizdən əvvəl və nə bizdən sonra heç kəsə bunlar verilməyəcək: mən peyğəmbərlərin sonuncusu, Allah qatında ən möhtərəmi və Allah üçün məxluqların ən sevimlisiyəm. Mən sənin atanam. Vəsim vəsilərin ən yaxşısı və Allahın ən sevimlisidir. O, sənin həyat yoldaşındır..."[90]

İbn Əsakir də bu rəvayəti "Tarix" kitabında qeyd edib.[91]

5. Büreydənin hədisi

İbn Əsakir Əbülqasim ibn Səmərqəndinin vasitəsilə Əbülhüseyn ibn Nəqqurdan, o da Əbülqasim İsa ibn Əlidən, o da Əbülqasim Bəğəvidən, o da Muhəmməd ibn Hümeyd Razidən, o da İbn Büreydədən, o da atasından nəql edir: *"Peyğəmbər (s) buyurdu: "Hər bir peyğəmbərin vəsisi və varisi var. Həqiqətən də, Əli mənim vəsim və varisimdir".*[92]

---

[90] əl-Möcəmul-kəbir, Təbərani, c. 3, s. 57, hədis 2675; əl-Möcəmul-övsat, c. 6, s. 327, hədis 6540

[91] Tarixu mədinəti Dəməşq, İbn Əsakir, c. 42, s. 130

[92] Tarixu mədinəti Dəməşq, İbn Əsakir, c. 42, s. 392

Hədisin raviləri etibarlı (siqə) şəxslərdir:

Əbülqasim ibn Səmərqəndi – o, İsmail ibn Əhməddir, böyük hafizlərdən idi, Zəhəbi və başqaları onun etibarlı şəxs olduğuna hökm ediblər.[93]

Əbülhüseyn ibn Nəqqur – o, Əhməd ibn Muhəmməd ibn Əhməd ibn Abdullah ibn Nəqqurdur. Xətib Bağdadi, Zəhəbi və başqaları onu etibarlı (siqə) ravi saymışlar.[94]

Əbülqasim İsa ibn Əli ibn Cərrah Vəzir – Xətib Bağdadi onun tərcümeyi-halında yazır: *"Əbülqasim Abdullah ibn Muhəmməd ibn Bəğəvidən hədis eşidib... Eşitdiyi isbatlanıb, yazdıqları düzgündür".*[95]

Həmçinin Zəhəbi onun tərcümeyi-halında deyir: *"İsa ibn Əli ibn Cərrah Vəzir, künyəsi Əbülqasimdir. Bəğəvinin məclislərindən hədis imla edib, ondan hədis eşitdiyi doğrudur. İbn Əbülfəvaris deyir: "Filosofların fikirlərindən bəzi sözlər danışırdı". Dedim: "Barəsində belə bir şey təsdiqlənməyib".*[96]

Əbülqasim Bəğəvi isə Abdullah ibn Muhəmməd ibn Əbdüləziz Bəğəvidir. Zəhəbi, Dərəqutni, Xətib Bağdadi və digərləri onun etibarlı (siqə) şəxs olduğuna hökm etmişlər.[97]

Muhəmməd ibn Hümeyd Razi barədə isə əvvəldə söhbət açmışdıq.

Əli ibn Mücahid ibn Müslim ibn Kabili – bir dəstə alim onun etibarlı (siqə) olduğuna hökm verib. Onlardan: Əbu Davud, Yəhya ibn Muin, Tirmizi. İbn Həcər yazır: *"Əbu Davud Hümeyd barədə deyir: "Ondan hədis yazmışam, heç bir müşkül görmürəm onda". İbn Hibban isə Yəhya ibn Muinə istinadən deyir: "Onun barəsində bir şey yazmamışam, onda heç bir*

---

[93] Bax: Siyəru əlamin-nübəla, Zəhəbi, c. 20, s. 29; Tarixu mədinəti Dəməşq, c. 8, s. 357

[94] Tarixu Bağdad, Xətib Bağdadi, c. 5, s. 146; Siyəru əlamin-nübəla, Zəhəbi, c. 18, s. 372; əl-Kamilu fit-tarix, İbn Əsir, c. 10, s. 107

[95] Tarixu Bağdad, Xətib Bağdadi, c. 11, s. 179

[96] Mizanul-itidal, Zəhəbi, c. 3, s. 318

[97] Bax: Mizanul-itidal, Zəhəbi, c. 2, s. 492

müşkül görmürəm...” Tirmizi “əl-Camiə”də deyir: “Muhəmməd ibn Hümeyd Cərirdən... Deyir: “Bunu mənə Əli ibn Müvahid danışdı. Mənim nəzərimdə o, Sələbdən, Zöhridən etibarlıdır (siqədir)...” İbn Hibban da onun adını “əs-Siqat” kitabında qeyd edir”.[98]

İbn Muinin onun barəsində *“müşkülü yoxdur”* deməsi inanılan şəxs olduğuna dəlalət edir. Xətib Bağdadi Əbu Xeysəmədən nəql edir: *“Yəhya ibn Muinə dedim: “Sən “filankəsdə müşkül yoxdur”, “filankəs zəifdir” deyirsən, bunun mənası nədir?” Dedi: “Əgər sənə “müşkülü yoxdur” deyiramsə, demək o şəxs etibarlıdır (siqədir)”.*[99]

Deyir: *“Əli ibn Mücahid Kabili Əbu Mücahid Razi – Rey şəhərinin qazısıdır. Həccac ibn Ərtahdan, Misərdən, İbn İshaqdan rəvayət nəql edib. Ondan isə Əhməd, Ziyad ibn Əyyub və başqaları rəvayət ediblər. Yəhya ibn Zəris onun yalançı, digərləri isə etibarlı (siqə) olduğunu bildiriblər”.*[100]

Bir neçə nəfərin onu zəif bilməsi rəvayətlərinin dəlil olmasına təsir göstərməz. Belə ki, ravinin müsbət və ya mənfi keyfiyyətləri barədə yaranan ixtilaf onun rəvayətlərini “həsən” dərəcəsinə endirər. Xüsusən də Yəhya ibn Muin, Əbu Davud və Tirmizi kimi rical alimlərinin onun etibarlı şəxs olduğunu təsdiqləməsi nəzərdən qaçmamalıdır.

Muhəmməd ibn İshaqa gəldikdə, onun həyatı məşhurdur. Etibarlı şəxs olduğu barədə əvvəldə söhbət açmışıq.

Şərik ibn Abdullah – o, Əbu Abdullah Nəxəidir. Müslim, Buxari, Əbu Davud, Tirmizi, Nəsai və İbn Macə ravilərin arasında olduğu hədisləri nəql etmişlər. Muhəmməd ibn Səd, İbn Muin, İcli, İbn Hibban və başqaları onun etibarlı (siqə) olduğunu söyləmişlər.[101]

---

[98] Təhzibut-təhzib, İbn Həcər, c. 7, s. 330

[99] əl-Kifayətu fi ilmid-dirayə, Xətib Bağdadi, s. 39

[100] əl-Kaşif, Zəhəbi, c. 2, s. 46

[101] ət-Təbəqatul-kubra, Muhəmməd ibn Səd, c. 6, s. 378; Təhzibut-təhzib, c. 4, s. 294; Mərifətus-siqat, İcli, c. 1, s. 119; əs-Siqat, İbn Hibban, c. 16, s. 444

Əbu Rəbiə İyadi – o, Ömər ibn Əbu Rəbiədir, Yəhya ibn Muin, Mənavi və Hafiz ibn Həcər onu etibarlı (siqə) hesab etmişlər.[102]

Tirmizi isə onun hədisini "Sünən"də[103] "həsən" saymış, Hakim "əl-Müstədrək"də səhih bilmiş, Zəhəbi də bəzilərində onunla razılaşmışdır.[104]

Əbu Hatəmin onu zəif hesab etməsi və hədislərində inkar edilən şeylərin olduğunu söyləməsi isə izahsız deyilmiş sözlərdir, onu etibarlı sayanların sözlərinə əsaslanaraq rəvayətlərini dəlil göstərməyə mənfi təsir etmir. Bəlkə də onun belə hökm verməsi İmam Əlinin (ə) fəzilətləri ilə bağlı nəql etdiyi rəvayətlər səbəbindəndir.

Abdullah ibn Büreydə ibn Hüseyb Əsləmi – onun rəvayətlərinin dəlil olduğuna yekdil fikir mövcuddur.[105]

Həmçinin bu hədisi İbn Əsakirin özü Yusuf ibn Asim Raziyə istinadən Muhəmməd ibn Hümeyd Razidən də nəql edib.[106]

6. Ənəs ibn Malikin hədisi

Əbu Nəim bunu Muhəmməd ibn Əhməd ibn Əlinin vasitəsilə Muhəmməd ibn Osman ibn Əbu Şeybədən, o da İbrahim ibn Muhəmməd ibn Məymundan, o da Əli ibn Əyyaşdan, o da Haris ibn Hüseyrədən, o da Qasim ibn Cündəbdən, o da Ənəs ibn Malikdən nəql edir: *"Peyğəmbər (s) dəstəmaz alması üçün Ənəsə su tökməsini buyurdu. Dəstəmaz aldıqdan sonra ayağa qalxıb iki rükət namaz qıldı. Ardınca dedi: "Ey Ənəs, bu qapıdan ilk daxil olacaq şəxs Möminlərin əmiri, müsəlmanların ağası, alnı nurluların rəhbəri və vəsilərin sonuncusudur".*

---

[102] Bax: əl-Cərhu vət-tədil, Razi, c. 6, s. 109; Feyzul-qədir, Mənavi, c. 2, s. 271; Təqribut-təhzib, İbn Həcər, c. 2, s. 397

[103] Sünən, Tirmizi, c. 5, s. 299

[104] əl-Müstədrəku ələs-səhiheyn, Hakim Nişapuri, c. 3, s. 148; c. 2, s. 212, "Təliqatuz-Zəhəbi fit-təlxis" kitabı ilə

[105] Bax: Təzkiratul-huffaz, Zəhəbi, c. 1, s. 102; Mizanul-itidal, Zəhəbi, c. 2, s. 396; Təhzibut-təhzib, İbn Həcər, c. 5, s. 138; əs-Siqat, İbn Hibban, c. 5, s. 16

[106] Tarixu mədinəti Dəməşq, İbn Əsakir, c. 42, s. 391-392

Ənəs özünün sakitcə belə dua etdiyini söyləyir: "İlahi, qoy həmin şəxs ənsardan olsun!"

Bu zaman Əli gəldi, Peyğəmbər (s) gələn şəxsin kim olduğunu soruşdu. Ənəs onun Əli olduğunu bildirdi. Peyğəmbər (s) sevincək halda ayağa qalxıb onu qucaqladı. Sonra Əlinin üzünü və tərini öz üzünə sürtdü. Əli dedi: "Ya Peyğəmbər, mənimlə əvvəllər etmədiyin bir rəftarı etdin". Buyurdu: "Nədən çəkinim ki? Sən mənim icraçım, səsimi camaata çatdıran və məndən sonra barəsində ixtilafda olduqları məsələləri onlara bəyan edənsən".[107]

Bu hədisin bənzərini həmçinin Cabir Cufinin vasitəsilə Əbu Tüfeyldən, o da Ənəsdən rəvayət edib.[108]

Hədisin sənədi yaxşıdır (ceyyid):

Muhəmməd ibn Əhməd ibn Əli – o, Muhəmməd ibn Əhməd ibn Əli ibn Məxləd Cövhəridir ki, İbn Muhərrəm kimi tanınır. Hafiz ibn Həcər deyir: *"Muhəmməd ibn Əhməd ibn Əli Muhərrəm Əbu Nəim Hafizin böyük şeyxlərindəndir... Bərqani deyir: "Onda müşkül yoxdur..." Dedim: "Şeyx idi, İbn Cəririn şagirdlərindəndir".*[109]

Zəhəbi deyir: *"O, uzun ömür yaşamış, imam və müfti Əbu Abdullah Muhəmməd ibn Əhməd ibn Əli ibn Məxləd Bağdadi Cövhəridir. İbn Muhərrəm kimi tanınıb. İbn Cəririn şagirdlərindəndir... Daraqutni deyir: "Onda müşkül yoxdur".*[110]

Muhəmməd ibn Osman ibn Əbu Şeybə – Hafiz ibn Həcər onun tərcümeyi-halında yazır: *"Hədis və rical sahəsində elm sahibi alim idi, qələmə aldığı faydalı əsərləri var. Saleh Cəzrə onu etibarlı (siqə) sayıb. İbn Ədiy deyir: "Onun inkar olunan hədislərini görmədim..." Xətib Bağdadi deyir: "Böyük tarix, mərifət və fəhm sahibidir..." İbn Hibban onun adını "əs-Siqat" kitabında qeyd edib. Deyir: "Əshabımız onun barəsində yazmışdır..."*

---

[107] Hilyətul-övliya, c. 1, s. 63-64

[108] Hilyətul-övliya, c. 1, s. 63-64

[109] Lisanul-mizan, İbn Həcər, c. 5, s. 51, rəqəm 176

[110] Siyəru əlamin-nübəla, Zəhəbi, c. 16, s. 60-61

Əbdülmömin ibn Xələf Nəsəfi deyir: "Saleh ibn Muhəmməddən onun barəsində soruşdular. "Etibarlıdır (siqədir)" deyə cavab verdi".[111]

Zəhəbi deyir: *"Bacarıqlı və bilikli hafiz, Kufə hədisşünasıdır".*[112]

İbrahim ibn Muhəmməd ibn Məymun Kufi – İbn Hibban onun adını "əs-Siqat"[113] kitabında zikr edib, Əbu Hatəm isə "əl-Cərhu vət-tədil" əsərində qeyd etsə də barəsində heç bir tənqid söyləməyib.[114]

Onu zəif hesab edənlər isə ədalətinə və ya dürüstlüyünə görə deyil, yalnız əqidəsinə görə məhkum etmişlər. Zəhəbi "Mizanul-itidal"da onun tərcümeyi-halında yazır: *"Möhkəm etiqada sahib şiə idi. Əli ibn Abisdən təəccüb doğuran hədis rəvayət edib".*[115] Onun qeyd etdiyi hədis isə Ənəs ibn Malikin yuxarıdakı hədisidir.[116]

Deməli, bu hədis və onun şiə olması Zəhəbi və onun kimilərin ravinin üzərinə hücum çəkməsinə, hədislərində inkar ediləcək məsələlərin olduğunu iddia etməsinə səbəb olub.

Əli ibn Əyyaş – Buxari, Əbu Davud, Tirmizi, Nəsai və İbn Macə ondan hədis rəvayət etmişlər. Hafiz ibn Həcər deyir: *"Etibarlı (siqə) olduğu isbatlanıb".*[117]

Haris ibn Hüseyrə – Buxari və Nəsai onun ravisi olduğu rəvayətləri qeyd ediblər. Hafiz ibn Həcər deyir: *"Doğru danışandır, xəta edərdi, inkar edən sözləri var idi".*[118] Başqa bir yerdə isə yazır: *"Cərir deyir: "Şeyxdir, uzun müddət sükut etmişdi, böyük işlərə israrlı idi". Müslim "Səhih"inin müqəddiməsində onu Cərirdən rəvayət edir. Əbu Əhməd Zübeyri deyir:*

---

[111] Lisanul-mizan, İbn Həcər, c. 5, s. 280, rəqəm 965
[112] Təzkiratul-huffaz, Zəhəbi, c. 2, s. 661, rəqəm 671
[113] əs-Siqat, İbn Hibban, c. 8, s. 74, rəqəm 12307
[114] əl-Cərhu vət-tədil, Əbu Hatəm, c. 2, s. 128, rəqəm 400
[115] Mizanul-itidal, Zəhəbi, c. 1, s. 63, rəqəm 203
[116] Bax: Lisanul-mizan, İbn Həcər, c. 1, s. 107, rəqəm 318
[117] Təqribut-təhzib, İbn Həcər, c. 1, s. 404, rəqəm 4779
[118] Təqribut-təhzib, İbn Həcər, c. 1, s. 145, rəqəm 1018

"Rəcətə inanırdı". İbn Muin isə deyir: "Xəşəbidir,[119] etibarlıdır (siqədir). Zeyd ibn Əlinin çarmıxa çəkildiyi ağaca nisbət veriblər". Nəsai deyir: "Etibarlıdır..." İbn Ədiy deyir: "Kufəlilərin ondan nəql etdikləri rəvayətlər əsasən Əhli-Beytin fəzilətləri barədədir. Bəsrəlilər ondan nəql etdikdə isə hədisləri fərqlənir. Kufədə camaatı şiəliyə təhrik edənlərdən biri hesab olunur. Zəif olmasına baxmayaraq, hədisləri yazılır". Daraqutni deyir: "Şiə şeyxidir, şiəlikdə həddi aşanlardandır". Aciri isə Əbu Davuddan nəql edir: "Şiədir, doğru danışandır". İcli və İbn Nəmir (Nümeyr) onu etibarlı (siqə) hesab etmişlər... İbn Hibban onun adını "əs-Siqat"da zikr edib".[120]

Cabir Cufiyə gəldikdə, o, İbn Yezid ibn Harisdir. Əbu Davud və Tirmizi onun rəvayətlərini nəql edib. Zəhəbi Cabirin tərcümeyi-halında yazır: *"Cabir ibn Yezid ibn Haris Cufi Kufi – şiə alimlərindən biridir, Əbu Tüfeyldən, Şəbidən və Xəliqdən rəvayətlər nəql edib. Şöbə, Əbu Əvanə və bir çoxları ona rəvayətlər istinad ediblər. İbn Mehdi isə Süfyana istinadən deyir: "Cabir Cufi hədis mövzusunda ehtiyatlı şəxs idi. Ondan daha ehtiyatlısını görmədim". Şöbə deyir: "Doğru danışandır". Yəhya ibn Əbu Büleyr də Şöbəyə istinadən deyir: "Cabir bizə "xəbər verdi", "bizə söylədi" və ya "eşitdim" deyirsə, (bilin ki,) o, insanların arasında ən inanılan şəxsdir". Vəki deyir: "Nə barədə şəkk etsəniz də Cabir Cufi barədə şəkk etməyin. O, etibarlıdır (siqədir)". İbn Əbdülhəkəm deyir: "Şafeinin belə dediyini eşitdim: "Süfyan Sövri Şöbəyə dedi: "Əgər Cabir Cufi barədə bir şey danışsan sənin barəndə (yaxşı) heç nə danışmaram".[121]*

Bir dəstə adam isə onu düşüncə və əqidəsinə görə zəif sayıb. Zirkili deyir: *"Cabir ibn Yezid ibn Haris Cufi, künyəsi Əbu Abdullahdır. Tabeundur, şiə fəqihlərindəndir, kufəlidir. Bəzi hədis alimləri onu tərifləmişlər. Bəziləri*

---

[119] Zeyd ibn Əli (r) çarmıxa çəkildikdən sonra onun cəsədinin düşürülüb dəfn edilməsinin qarşısını almaq üçün dörd il boyunca orada keşik çəkmiş şəxslərə "xəşəbilər" deyilir. "Xəşəb" sözü ərəb dilində "taxta" deməkdir. Xəşəbi deyilməkdə məqsəd çarmıxa çəkilmiş taxtanı qoruyanlardır (Tərc.)

[120] Təqribut-təhzib, İbn Həcər, c. 2, s. 121, rəqəm 236

[121] Mizanul-itidal, Zəhəbi, c. 1, s. 379, rəqəm 1425

isə rəcət barədəki sözlərinə görə ittiham etmişlər. Çox rəvayət bilən, din barədə geniş elmə sahib şəxs idi".[122]

Altı səhih kitabın üçünün ravilərindən, Süfyan Sövri, Şöbə və Əbu Əvanə kimi imamların şeyxlərindən olması, bu cür müsbət sözlərlə tərifləmməsi və etibarlı sayılması onun rəvayətlərindən dəlil kimi istifadə edilməsində yarana biləcək hər hansı bir şübhəni aradan qaldırır. Xüsusilə də qeyd edilməlidir ki, onu zəif bilənlər yalnız düşüncələrinə və əqidəsinə görə buna hökm etmişlər.

Əbu Tüfeylin etibarlı (siqə) olmasının dəlillərini isə "Qədir-Xum" hədisi barədə söhbətimizdə qeyd edəcəyik.

"Vəsilik" hədislərindən alınan nəticə

Təqdim edilənlərdən aydın olur ki, "Vəsilik" hədislərini Möminlərin əmiri (ə), Aişə, eləcə də Əbu Səid Xudri, Əbu Əyyub Ənsari, Büreydə və Ənəs ibn Malik kimi bir sıra böyük səhabələr rəvayət etmişlər. Ümumi qəbul edilmiş qaydaya əsasən, əgər bir hədis müxtəlif rəvayət yolları ilə nəql edilmişsə, onların sənədləri barədə müəyyən sözlər olsa belə, həmin rəvayətlərdən dəlil kimi istifadə etmək mümkündür, sənədləri səhih olan rəvayətlərdən söhbət açmağa isə lüzum yoxdur.

Deməli, "vəsilik" İslamın köklü məfhumlarından biridir. Bunu İslam nurunun ilk parladığı anlardan və təbliğinin ilk çağlarından bir çox böyük səhabə Peyğəmbərin (s) öz dilindən nəql eşidiblər.

Bunu təsdiqləyən amillərdən biri də Əhli-Beytin (ə) bir çox xitablarında (xütbələrində) və göstərdikləri dəlillərdə "vəsilik" hədislərindən istifadə etmələridir. Hakim "Müstədrək"də Ömər ibn Əlidən, o ad atası Əli ibn Həsəndən nəql edir: *"Əli qətlə yetirildikdə Həsən ibn Əli camaata xütbə söylədi. Allaha həmd-səna dedi... sonra buyurdu: "Ey*

[122] əl-İlam, Zirkili, c. 2, s. 105

camaat, məni tanıyan tanıyır, tanımayanlara isə deyirəm: mən Həsən ibn Əliyəm, Peyğəmbərin və vəsinin övladıyam...”[123]

Bunu Təbərani isə Əbu Tüfeylin vasitəsilə nəql edib: *“Həsən ibn Əli ibn Əbu Talib camaata xütbə söylədi. Allaha həmd-səna dedikdən sonra möminlərin əmiri, sonuncu peyğəmbərin vəsisi, vəsilərin sonuncusu, siddiq və şühədaların əmini Əlini (r) yad etdi...”*[124]

Təbəri isə özünün “Tarix” əsərində Aşura günü İmam Hüseynin (ə) Yezidin (l) ordusuna xitabən söylədiyi sözləri qeyd edir: *“Məgər mən sizin Peyğəmbərinizin qızının, Peyğəmbərin vəsisi və əmisi oğlunun, Allaha ilk iman gətirən şəxsin, Peyğəmbərin Rəbbi tərəfindən gətirdiklərini təsdiqləyənin oğlu deyiləmmi?!”*[125]

Bundan başqa, “vəsi” kəlməsi müsəlmanların arasında İmam Əlinin (ə) ləqəbi kimi də məşhur idi. İbn Mənzur deyir: *“Əliyə (ə) vəsi də deyilirdi”.*[126] Zübeydi isə deyir: *“Vəsi – ğəni kəlməsinin vəznindədir, Əlinin (r) ləqəbidir”.*[127]

Mübərrid “əl-Kamil”də yazır: *“Şeirdəki*[128] *“vəsi” sözü isə onu əksər vaxtlarda adlandırdıqları kəlmədir (ləqəbdir)”.*[129]

“Vəsi” kəlməsi Möminlərin əmiri Əlinin (ə) ləqəbi kimi Həssan ibn Sabitin şeirlərində də qeyd edilib: *“Məgər mən hidayətdə onun (Peyğəmbərin) qardaşı, vəsisi, eləcə də müsəlmanların arasında Kitab və sünnəni ən yaxşı bilən şəxs deyiləmmi?!”*[130]

---

[123] əl-Müstədrəku ələs-səhiheyn, c. 3, s. 188, hədis 4802

[124] əl-Möcəmul-övsat, Təbərani, c. 2, s. 336, “Darul-Hərəmeyn” nəşriyyatı

[125] Tarix, Təbəri, c. 4, s. 322

[126] Lisanul-ərəb, İbn Mənzur, c. 15, s. 394

[127] Tacul-urus, c. 20, s. 297

[128] Kumeyt məşhur şairdir. Söylədiyi beytlərin birində “Vəsi” kəlməsini İmam Əlinin (ə) ləqəbi kimi zikr edir.

[129] əl-Kamilu fil-luğət, Muhəmməd ibn Yezid Mübərrid, c. 3, s. 1124

[130] əl-Muvəffəqiyyat, Zübeyr ibn Bikar, s. 477

Buradan “Vəsi” kəlməsinin bir yəhudinin şəxsi uydurması olduğu iddiasının nə qədər həyasızcasına söylənmiş söz olduğu aydınlaşır. İnşallah, qarşıdakı bəhsdə bu barədə söhbət açacağıq.

İkinci fəsil: Əhli-Sünnə mənbələrində “Vəsilik” kəlməsindən istifadə edilmədən bu mənada nəql olunmuş hədislər;

Burada üç bəhs var:

Birinci bəhs: “Qədir-Xum” hədisi;
İkinci bəhs: “Qüreyşdən olan on iki xəlifə” hədisi;
Üçüncü bəhs: “Mənzilət” hədisi.

Giriş

Üməyyə oğullarının və bənzərlərinin hakimiyyətlərinin zülm və möhnətindən ümmət öz nəsibini aldığı kimi, Peyğəmbərin (s) hədisləri, xüsusilə də Əhli-Beytin (ə) fəzilətləri və imamətləri ilə bağlı hədislər də bundan kənarda qalmadı. Həmin hakimiyyətlər hər bir vasitə ilə onları aradan aparmağa cəhd göstərdi. Bu məqsədlə illər boyu minbərlərdən Möminlərin əmiri Əlini (ə) söyməyi bir qayda kimi tətbiq etdilər. Zəməxşəri və Hafiz Süyuti deyir: *"Bəni-Üməyyənin hakimiyyəti illərində Müaviyənin qoyduğu qaydaya əsasən, yetmiş min minbərdən Əli ibn Əbu Talilbə lənət oxunurdu".*[131]

Hətta Əli adını övladlarına qoyduqlarına görə insanları qətlə yetirirdilər. İbn Həcər Əsqəlani Əli ibn Əbu Rəbahın tərcümeyi-halında yazır: *"Bəni-Üməyyə övladlarına Əli adı qoyan şəxsləri öldürürdü".*[132]

Həmçinin Əhli-Beytin (ə) fəzilətlərinə dair hədis söyləyən şəxslərə əzab-əziyyət verilirdi. Xətib Bağdadi və Zəhəbi rəvayət edirlər: *"Nəsr ibn Əli Peyğəmbərin (s) Həsən və Hüseynin (ə) əlindən tutaraq belə söylədiyini nəql etdi: "Kim məni, bu iki balamı, onların atasını və anasını sevərsə, Qiyamət günü mənimlə eyni dərəcədə olacaq". Bunu eşidən Mütəvəkkil ona (Nəsr ibn Əliyə) min qamçı vurmağı əmr etdi. Bu barədə Cəfər ibn Əbdülvahid də danışdı, ona da bu cəzanı tətbiq etdi. Deyirdi: "Bu bir sünnədir (qaydadır)". Həmin rəvayətləri tərk edənə qədər bunu tətbiq edirdi".*[133]

Belə hakimiyyətlərin zülmündən Əhli-Beytin (ə) fəzilətlərinə dair kitab yazan Əhli-Sünnə alimləri də amanda qalmadılar. Abdullah ibn Muhəmməd Səqqa buna misaldır. Zəhəbi onu "hafiz, imam" deyərək zikr

---

[131] Rəbiul-əbrar, Zəməxşəri, c. 2, s. 186; ən-Nəsaihul-kafiyə, Muhəmməd ibn Əqil, s. 79, Süyutidən nəql edərək

[132] Təhzibut-təhzib, İbn Həcər, c. 7, s. 318

[133] Tarixu Bağdad, Xətib Bağdadi, c. 12, s. 34; Təzkiratul-huffaz, Zəhəbi, c. 3, s. 991

edir. O, "Quş" hədisini nəql etdikdə bəzi xəbis şəxslərin nəfsi bunu qəbul edə bilmədi. Üzərinə atıldılar, yerindən qaldırdılar, oturduğu yeri yuyub təmizlədilər. O da camaatdan uzaqlaşıb evindən çölə çıxmadı, vasitilərdən[134] heç kimə hədis söyləmədi.[135]

Həmçinin "Sünən" kitabının[136] müəllifi Nəsai; İbn Kəsir onun barəsində *"öz əsrinin imamı"*[137], İbn Teymiyyə *"görkəmli elm sahibi, tənqidçi, hədis sənədlərini yaxşı bilən şəxs"*,[138] Zəhəbi isə *"fəhm, bəsirət və bacarıqda elm dəryası... Bu məsələdə özü kimisi olmayan"*[139] deyə zikr edirlər. Nəsai Əli ibn Əbu Talibin (ə) fəzilətlərini təbliğ etdikdə, Müaviyə barədə uydurulmuş "fəzilət və xüsusiyyətləri" söyləməkdən boyun qaçırdıqda məsciddən qovulmuş, Rəmlə və ya Məkkəyə sürgün edilmiş, orada da vəfat etmişdi.[140]

Bu Hakim Nişapuridən də yan ötməyib. Zəhəbi onun barəsində yazır: *"Elm dəryalarından idi".*[141] Deyir: *"Xorasanda, nəinki, hətta dünyada elmlərin rəhbərliyi onda idi... O, etibarlı (siqə) və höccət şəxs idi".*[142]

Lakin bu ucalığına baxmayaraq, ona əziyyət etdilər, minbərini sındırdılar, sıxışdırdılar, evindən çölə çıxmağa qoymadılar. Əbu Əbdürrəhman Sələmi ona demişdi: *"Əgər evindən çıxıb, Müaviyənin*

---

[134] Hədis nəql edən məşhur Vasitilərdir. Bu şəxslərin Muhəmməd ibn Əmr ibn Ovn Vasiti, Yusuf ibn Yaqub Vasiti, Əhməd ibn Səid ibn Osman Əbülabbas Zarir Şeyx Vasiti olduğu deyilir – tərc.)

[135] Təzkiratul-huffaz, Zəhəbi, c. 3, s. 965

[136] Altı səhih kitabdan biridir

[137] əl-Bidayətu vən-nihayə, İbn Kəsir, c. 11, s. 123

[138] Minhacus-sünnə, İbn Teymiyyə, c. 1, s. 66

[139] Siyəru əlamin-nübəla, Zəhəbi, c. 14, s. 127

[140] Siyəru əlamin-nübəla, Zəhəbi, c. 14, s. 1324 Təhzibul-kəmal, Mizzi, c. 1, s. 132, 339; Təzkiratul-huffaz, Zəhəbi, c. 2, s. 700; əl-Bidayətu vən-nihayə, c. 11, s. 124; əl-Vafi bil-vafiyyat, Səfidi, c. 6, s. 417

[141] Siyəru əlamin-nübəla, Zəhəbi, c. 17, s. 165

[142] əl-İbər, Zəhəbi, c. 3, s. 92

fəzilətlərinə dair bir hədis söyləsən, bütün çətinliklərdən rahatlıq taparsan". O isə cavabında dedi: "Bu, qəlbimdən gəlmir, bu, əsla qəlbimdən gəlmir".[143]

Belə sıxıntılı dövrlərdən keçməsinə baxmayaraq, Əhli-Beytin (ə) fəzilətlərini, uca məqamlarını, ali dərəcələrini və imamətlərinin vacibliyini bəyan edən bir çox hədislər əlimizə yetişmişdir.

Əhli-Sünnə kitablarında "vəsi" kəlməsindən istifadə edilmədən Möminlərin əmiri Əlinin (ə) vilayətinə dəlalət edən bəzi rəvayətlərinə nəzər salacağıq. Bunu üç bəhs çərçivəsində etməyi planlaşdırırıq:

Birinci bəhs: "Qədir-Xum" hədisi

İkinci bəhs: "Qüreyşdən olan on iki xəlifə" hədisi

Üçüncü bəhs: "Mənzilət" hədisi

Sözü uzatmamaq məqsədilə bu üç rəvayətlə kifayətlənmişik. Daha geniş məlumata sahib olmaq istəyənlər müvafiq mənbələrə müraciət edə bilərlər.

[143] Siyəru əlamin-nübəla, Zəhəbi, c. 17, s. 175; əl-Vafi bil-vafiyyat, c. 3, s. 321; ət-Təbəqatul-kubra, c. 4, s. 163; əl-Bidayətu vən-nihayə, c. 11, s. 355; Minhacus-sünnə, c. 4, s. 99

Birinci bəhs: "Qədir-Xum" hədisi

"Qədir-Xum" qəsbkar hakimiyyətlərin mübarizə apardıqları rəvayətlərin önündə gəlir. Bu hədisin raviləri camaatın arasında həmin hadisəni yad etməkdən qorxurdular. Buna Zeydin[144] hədisini nəql edərkən toxunacağıq. Abdullah ibn Əla Zöhrinin "Qədir-Xum" hədisini söylədiyini eşitdikdə deyir: *"Qulaqlarınla Əliyə söyənləri eşitdiyin halda belə "Mən kimin mövlasıyamsa, bu Əli də onun mövlasıdır" hədisini Şamda bir kəsə söyləmə". Dedi: "Allaha and olsun, mən Əlinin fəzilətləri barədə elə şeylər bilirəm ki, əgər onları söyləsəm, mütləq qətlə yetirilərəm..."*[145]

Lakin bütün bunlara baxmayaraq, Möminlərin əmiri Əlinin (ə) imamətinə və ona itaətin vacibliyinə ən əhəmiyyətli dəlil sayılan bu hədisin nəsildən-nəslə bir çox səhih yollarla yetişməsini Allah iradə etmişdir.

"Qədir-Xum" hədisinin əhəmiyyətini artıran xüsusiyyətlərdən biri də hədisşünaslar nəzərində onun sənədinin səhihliyi, mənalarının açıqlığı və aydın dəlalətidir.

Səhihliyinə gəldikdə, İbn Həzm, İbn Teymiyyə və onların vəhhabi əqidə yoldaşları kimi Möminlərin əmiri Əlinin (ə) fəzilətlərini ciddi-cəhdlə inkar edən və tarixdən silməyə çalışan tək-tük Əhli-Sünnə alimlərindən savayı heç kəs onun düzgünlüyünə şəkk etməyib.

Məna və dəlalət açıqlığına gəldikdə isə, əksər Əhli-Sünnə alimləri onun barəsində mübahisələr aparıblar, xüsusilə də ilk üç xəlifə ilə bağlı məsələlərdə bu hədisin kənara atılmayacaq dərəcədə aydın mənaları

---

[144] Əhməd bunu Ətiyyə Ovfi yolu ilə nəql edib: *"Zeyd ibn Ərqəmə dedim: "Kürəkənlərimdən biri mənə səndən Əli (r) barəsində Qədir-Xum günü baş verən hadisəni nəql edib. Mən onu səndən eşitmək istəyirəm". Dedi: "Siz, ey İraq əhli, aranızda olanlardan xəbərdarsınız". Dedim: "Məndən sənə heç bir zərər toxunmaz". Bunu eşidib danışmağa başladı: "Biz Cöhfdə idik..."* (Əhməd ibn Hənbəl, Müsnəd, c. 4, s. 368; "Fəzailus-səhabə", Əhməd ibn Hənbəl, c. 2, s. 586)

[145] Usdul-ğabə, İbn Əsir, c. 1, s. 308

üzərində fikir ayrılıqlarına düşüblər. Lakin səhihliyinə və güclü məna dəlalətinə baxmayaraq, başqa dəlillər gətirərək rədd ediblər.

"Qədir-Xum" hədisinin nəql yolları

Əhli-Sünnə hədisşünas və hafizləri bir çox yollar və fərqli kəlmələrlə "Qədir-Xum" hədisini nəql ediblər. Ravilərin arasında Zeyd ibn Ərqəm, Səd ibn Əbu Vəqqas, Büreydə ibn Hüseyb, Möminlərin əmiri Əli (ə), Əbu Əyyub Ənsari, Bərra ibn Azib, Abdullah ibn Abbas, Ənəs ibn Malik, Əbu Səid Xudri, Əbu Hüreyrə kimi səhabələr var. Hədisin rəvayət yollarına qısa nəzər salaq:

1. Zeyd ibn Ərqəmin hədisi

Səhabə Zeyd ibn Ərqəmdən "Qədir-Xum" hədisi müxtəlif yollarla nəql edilib. Bunu ondan Əbu Tüfeyl, Məymun Əbu Abdullah, Əbu Süleyman (Salman), Yəhya ibn Cədə, Ətiyyə Ovfi, Əbülzüha, Hübeyrə ibn Yərim və Əbu İshaq rəvayət ediblər. Bunlara müxtəsər olaraq nəzər salaq:

Birinci yol: Əbu Tüfeylin Zeyd ibn Ərqəmdən nəql etdiyi rəvayət

Nəsai, Hakim, Təbərani və başqaları Süleyman ibn Əməşə yetişən sənədlərlə rəvayət edirlər: *"Həbib ibn Əbu Sabitdən, o da Əbu Tüfeyldən, o da Zeyd ibn Ərqəmdən: "Peyğəmbər (s) Vida Həccindən qayıtdıqda Qədir-Xumda dayandı, toplanmamızı buyurdu: "Mənim (ilahi) dəvətə (əcəlimə) müsbət cavab verəcəyim gün yaxındır. Sizin aranızda iki ağır əmanət qoyuram. Biri digərindən daha böyükdür: Allahın kitabı və itrətim olan Əhli-Beytim. Məndən sonra onlarla necə rəftar edəcəyinizə diqqət yetirin. Onlar Hovuz başında mənə qovuşanadək əsla bir-birindən ayrılmazlar".*

Sonra dedi: "Allah mənim, mən isə bütün möminlərin mövlasıyam". Ardınca Əlinin əlindən tutaraq buyurdu: "Mən kimin vəlisiyəmsə, bu da onun vəlisidir. İlahi onu dost tutanı dost, düşmən biləni düşmən bil".

Mən Zeydə dedim: "Bunu sən şəxsən Peyğəmbərin (s) özündən eşitmisən?"

Dedi: "Orada toplanan hər kəs bunu öz gözləri ilə gördü və qulaqları ilə də eşitdi".[146]

Hakim hədisin səhih olduğunu bildirir: *"Bu, Buxari və Müslimin şərtinə əsasən, səhih hədisdir, lakin bunu bütünlüklə qeyd etməyiblər".*[147] Zəhəbi isə "ət-Təlxis"də hədis barədə sükut etməyi üstün tutub.[148]

Bəzən Həbibin saxtakarlıq etdiyini (bəzi ravilərin adlarını gizlətdiyini), bəzən də hədisi tam sənədlə ravilərindən nəql etdiyini söyləyiblər. Cavab budur ki, bu hədisi təkcə o nəql etməyib. Bunu Fitr ibn Xəlifə də rəvayət edib. Əhməd ibn Hənbəl, İbn Hibban, Nəsai və başqaları Fitrə yetişən sənədlə Əbu Tüfeyldən nəql edirlər: *"Əli ibn Əbu Talib (r) Rəhbədə camaatı toplayıb dedi: "Peyğəmbərin (s) Qədir-Xum günü söylədiklərini eşidən müsəlmanların ayağa qalxmasına Allahı şahid tuturam". Otuz nəfər ayağa qalxdı (Əbu Nəim isə deyir: çox sayda insan ayağa qalxdı), şəhadət verdilər ki, Peyğəmbər (s) onun (Əlinin) əlindən tutaraq buyurmuşdur: "Mənim möminlərə öz canlarından daha üstün olduğumu bilirsiniz?" Dedilər: "Bəli, ya Peyğəmbər!" Peyğəmbər (s) buyurdu: "Mən kimin mövlasıyamsa, bu da onun mövlasıdır. İlahi, onun dostunu dost, düşmənini düşmən tut".*

---

[146] əs-Sünənul-kubra, Nəsai, c. 5, s. 45, hədis 8148; "Fəzailu Əli (r)", c. 5, s. 130, hədis 8464, "Peyğəmbərin (s) "mən kimin mövlasıyamsa bu Əli də onun mövlasıdır" sözü" babı; əl-Möcəmul-kəbir, Təbərani, c. 5, s. 166, hədis 4969, Əbu Tüfeyl Amir ibn Vasilənin Zeyd ibn ərqəmdən rəvayəti

[147] əl-Müstədrəku ələs-səhiheyn, Hakim Nişapuri, c. 3, s. 118, hədis 4576, "Möminlərin əmiri Əli ibn Əbu Talibin (ə) üstünlükləri".

[148] Həmin mənbə, "Təliqatuz-Zəhəbi fit-Təlxis" kitabı ilə

Mən oradan çıxdıqda, sanki, içimdə bir tərəddüd var idi. Zeyd ibn Ərqəmlə qarşılaşdıqda ona Əlinin (r) filan-filan sözləri söylədiyini eşitdiyimi dedim. Dedi: "Nəyi inkar edirsən? Peyğəmbərin (s) bunu ona söylədiyini mən də eşitmişəm".[149]

Hədisin sənədi Buxarinin şərtinə əsasən, səhihdir. Heysəmi "Məcməuz-zəvaid"də deyir: *"Bunu Əhməd də rəvayət edib, Fitr ibn Xəlifədən savayı ravilərinin hamısı "Səhih"in ravilərdir. Fitr isə etibarlıdır (siqədir)".*[150]

Şeyb Arnaut hədisin haşiyəsində yazır: *"Sənədi səhihdir, raviləri etibarlı (siqə), Buxari və Müslimin ravilərdir. Yalnız Fitr ibn Xəlifə "Sünən"in ravilərindəndir".*[151]

Həmçinin Sələmə ibn Küheyl də rəvayət edib. Bunu Tirmizi "Sünən"də Sələməyə istinadən nəql edir: *"Əbu Tüfeylin Əbu Sərihədən, yaxud da Zeyd ibn Ərqəmdən (şəkk edən Şöbədir) nəql etdiyini eşitdim ki, Peyğəmbərin (s) belə buyurduğunu söyləyirdi: "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır".*[152]

Tirmizi bunun ardınca deyir: *"Bu həsən səhih hədisdir. Bunu Şöbə həmçinin Məymun Əbu Abdullahdan, o da Zeyd ibn Ərqəmdən, o da Peyğəmbərdən (s) nəql edib. Əbu Sərihə – Hüzeyfə ibn Üseyd Ğifaridir, o, Peyğəmbərin (s) səhabəsidir".*[153]

---

[149] Müsnəd, Əhməd ibn Hənbəl, c. 4, s. 370, hədis 19321, "Zeyd ibn Ərəqmin hədisləri"; Səhih, İbn Hibban, c. 15, s. 375, hədis 6931, "Peyğəmbərin (s) Əlinin dostunu dost, düşmənini düşmən tutması üçün Allaha duası" babı; əs-Sünənul-kubra, Nəsai, s. 8478, "Əli ilə dostluğa təşviq və onunla düşmənçilikdən çəkindirilmə" babı

[150] Məcməuz-zəvaid, Heysəmi, c. 9, s. 129, hədis 14612, "Peyğəmbərin (s) *"Mən kimin mövlasıyam Əli də onun mövlasıdır"* sözü" babı

[151] Müsnəd, Əhməd ibn Hənbəl, c. 3, s. 370, hədis 19321, "Zeyd ibn Ərqəmin hədisi", Şüeyb Arnautun hədislərə verdiyi hökmlərlə

[152] Sünən, Tirmizi, c. 5, s. 633, hədis 3713, XX bab, "Əli ibn Əbu Talibin (r) üstünlükləri".

[153] Sünən, Tirmizi, c. 5, s. 633, hədis 3713, XX bab, "Əli ibn Əbu Talibin (r) üstünlükləri".

Həmçinin buna *"Buxari və Müslimin şərtinə əsasən səhihdir"* də deyilib. Hakim Nişapuri hədisi Muhəmməd ibn Sələmə ibn Küheyldən, o da Əbu Tüfeyldən, o da İbn Vasilədən Zeyd ibn Ərqəmin bunu uzun mətnlə Həbibin rəvayətinə uyğun eşitdiyini nəql edir. Orada yalnız *"İlahi onu dost tutanı dost, düşmən biləni düşmən bil"* sözləri yoxdur. Hakim hədisin səhih olduğuna hökm edir və deyir: *"Buxari və Müslimin şərtinə əsasən səhihdir".*[154]

Həbib ibn Əbu Sabit Buxari və Müslimin ravilərindəndir,[155] altı səhih kitab müəllifləri ondan rəvayətlər nəql etmiş və hədislərini dəlil olaraq göstərmişlər. Zəhəbi "Mizanul-itidal"da yazır: *"Yəhya ibn Muin və bir dəstə alim onun etibarlı (siqə) olduğuna hökm vermiş, "Səhih"lərdə isə onun sözlərini dəlil kimi göstərmişlər".*[156]

Tənqid əhli də onun etibarlı (siqə) olduğunu etiraf edib. Zəhəbi "əl-Kaşif"də yazır: *"Etibarlı, müctehid və fəqih idi".*[157]

"Siyəru əlamin-nübəla"da deyir: *"İmam, hafiz və Kufə fəqihidir".*[158]

İbn Həcər isə "Təhzibut-təhzib"də İbn Ədiyə istinadən yazır: *"Onun adı o qədər məşhur, hədisləri o qədər çoxdur ki, hədislərindən nümunə göstərməyə ehtiyac yoxdur. O, imamlardan hədis nəql edib. İbn Muinin sözlərinə əsasən, etibarlı və höccətdir".*[159]

İkinci yol: Məymunun Zeyddən nəql etdiyi hədis

---

[154] əl-Müstədrəku ələs-səhiheyn, Hakim Nişapuri, c. 3. s. 118, hədis 4577, "Əli ibn Əbu Talibin (r) üstün əməlləri barədə Buxari və Müslimin rəvayət etmədikləri" fəsli

[155] Buxari "Oruc", "Satış", "Cihad və seyr", "Məxluqatın yaranması", "Mənaqib", "Qidalar", Təfsir", "Tibb", "Fitnələr" və s. fəsillərdə onun hədisini dəlil göstərir. Bax: "Səhih", Buxari, c. 1, s. 508, c. 2, s. 32, 260, 319, 399, c. 3, s. 101, 272, c. 4, s. 22, 347

Həmçinin Müslim də "Səhih"ində onun rəvayətlərini kitabının "Namaz", "Cənazə", "Zəkat", Oruc", "Həcc", "Cihad və seyr", "Salam" və s. fəsillərində dəlil olaraq göstərir. Bax: "Səhih", Müslim, c. 1, s. 491, c. 2, s. 666, 746, 816, 851, c. 3, s. 1411, c. 4, s. 1740

[156] Mizanul-itidal", Zəhəbi, c. 1, s. 451

[157] əl-Kaşif, Zəhəbi, c. 1, s. 307

[158] Siyəru əlamin-nübəla, Zəhəbi, c. 5, s. 288

[159] Təhzibut-təhzib, İbn Həcər, c. 2, s. 154

Əhməd ibn Hənbəl və Təbərani Məymun Əbu Abdullaha istinadla yazırlar: *"Mən dinlədiyim halda Zeyd ibn Ərqəm bunları söylədi: "Peyğəmbərlə (s) "Qədir-Xum" deyilən bir vadidə dayandıq..."*[160] Davamı isə Həbibin hədisinin eynidir.

Heysəmi "Məcməuz-zəvaid"də deyir: *"Ravilərin arasında Məymun Əbu Abdullah Bəsri var. İbn Hibban onu etibarlı (siqə), bəziləri isə zəif hesab etmişlər".*

Hakim Nişapuri "əl-Müstədrək" kitabında Məymunun rəvayət etdiyi hədislərə səhih hökmü vermişdir. Onlardan biri Əlinin qapısından savayı bütün qapıların bağlanması hədisidir.[161] Belə ki, hədisin ardınca deyir: *"Bu, sənədi səhih hədisdir, lakin Buxari və Müslim bunu kitablarında qeyd etməyiblər".*[162] Zəhəbi də "ət-Təlxis" kitabında bu hökmlə razılaşıb.[163]

Üçüncü yol: Əbu Süleymanın (Salmanın) Zeyddən nəql etdiyi hədis

Əhməd ibn Hənbəl Əbu Süleyman Müəzzin istinadı ilə Zeyd ibn Ərqəmdən nəql edir: *"Dedi: "(Əli) camaatdan şahidlik etmələrini istədi və buyurdu: "Peyğəmbərin (s) "İlahi, mən kimin mövlasıyamsa, Əli də onun*

---

[160] Müsnəd, Əhməd ibn Hənbəl, c. 4, s. 372, hədis 19344, "Zeyd ibn Ərqəmin hədisləri" fəsli; əl-Möcəmul-kəbir, c. 5, s. 202, hədis 5092, "Məymun ibn Əbu Adullahın Zeyd ibn Ərqəmdən nəql etdikləri".

[161] Hakim "Müstədrək"də Məymun Əbu Abdullaha istinadən Zeyd ibn Ərqəmdən nəql edir: *"Peyğəmbərin (s) bir neçə səhabəsinin evinin qapısı məscidə açılırdı. Bir gün Peyğəmbər (s) buyurdu: "Əlidən başqa hamınız evlərinizin məscidə açılan qapılarını bağlayın". Camaat narazılıq sezilən sözlər danışdı. Peyğəmbər (s) də qalxıb Allaha həmd-səna etdikdən sonra buyurdu: "Mən Əlinin qapısından savayı bütün bu qapıların bağlanmasını əmr etdim. Amma aranızdan kiminsə narazı olduğunu görürəm. Allaha and olsun ki, bunu bağlayan və ya açan mən deyiləm, Mənə olunan bir əmrdir ki, ona boyun əyirəm".* (c. 3, s. 135, hədis 4631, "Möminlərin əmiri Əlinin (r) müsəlmanlığı" fəsli)

[162] əl-Müstədrəku ələs-səhiheyn, Hakim, c. 3, s. 135, hədis 4631, "Möminlərin əmiri Əlinin (r) müsəlmanlığı" fəsli

[163] əl-Müstədrəku ələs-səhiheyn, Hakim, c. 3, s. 135, hədis 4631, "Möminlərin əmiri Əlinin (r) müsəlmanlığı" fəsli, Zəhəbinin "ət-Təlxis"dəki qeydlərilə

mövlasıdır. İlahi, onun dostunu dost, düşmənini düşmən tut" söylədiyini eşidən şəxslərə Allahı şahid tuturam". On altı nəfər şahid olaraq ayağa qalxdı".[164]

"əl-İləl"də də qeyd etdiyi kimi, onun nəzərində Əbu Süleyman Zeyd ibn Vəhəbdir.[165] Həmçinin Albaninin "əs-Silsilətus-səhihə"də bildirdiyi kimi, Hafiz ibn Həcərin də rəyi belədir.[166]

Təbərani də "əl-Möcəmul-kəbir"də Əbu Süleymana yetişən sənədlə bunu nəql edib. Orada Əbu Süleymanı Zeyd ibn Vəhəb adlandırıb: *"Zeyd ibn Ərqəm deyir: "Mən şahidliyini gizlədənlərdən idim. Nəticədə gözlərim kor oldu. Belə ki, Əli (r) orada şahidliyini gizlədənlərə bəddua etmişdi".*[167]

Zeyd ibn Vəhəb etibarlı (siqə) şəxs və Buxarinin ravilərindəndir.

Həmçinin "əl-Möcəm"də Əbu Salman Müəzzinə istinadla Zeyd ibn Ərqəmdən rəvayət edilir: *"Bədr savaşında iştirak etmiş on iki nəfər ayağa qalxıb buna şahidlik etdi". Zeyd deyir: "Mən isə şahidliyi gizlədənlərdən idim. Nəticədə (bir müddətdən sonra) gözlərim kor oldu".*[168]

Mizzinin nəzərində isə o, Yezid ibn Abdullahdır. Bu hədisi onun tərcümeyi-halında da zikr edir. Onun fikrinə görə bu, Zeyd ibn Vəhəb deyil.[169]

Lakin Əhməd ibn Hənbələ, Təbəraniyə və Hakim Nişapuriyə bunun qaranlıq qalmasını düşünmək çətindir!

Bundan əlavə, onların ikisinin eyni şəxs olduğunun fərz edilməsi məsələyə əsla təsir etmir. Onların Zeyd ibn Ərqəmdən nəql etmələrində

---

[164] Müsnəd, Əhməd ibn Hənbəl, c. 5, s. 370, hədis 23192

[165] əl-İləl, Əhməd ibn Hənbəl, c. 1, s. 325, rəqəm 577

[166] əs-Silsilətus-səhihə, Albani, c. 4, s. 249, hədis 1750

[167] əl-Möcəmul-kəbir, Təbərani, c. 5, s. 171, hədis 4985, Zeyd ibn Vəhəbin Zeyd ibn Ərqəmdən nəql etdikləri

[168] əl-Möcəmul-kəbir, Təbərani, c. 5, s. 175, hədis 4996, Əbu Salman Müəzzinin Zeyd ibn Ərqəmdən nəql etdikləri. Bu rəvayət Təbəraninin nəzərində Əbu Salmanla Əbu Süleymanın eyni şəxs olduğu fikrini təsdiqləyir. Bu, əvvəldə də qeyd etdiyi Zeyd ibn Vəhəbdir.

[169] Bax: Təhzibul-kəmal, Mizzi, c. 33, s. 368, rəqəm 7407

də heç bir maneə yoxdur. Belə ki, Mizzinin özünün də qeyd etdiyi kimi,[170] Həkəm ibn Üteybə Kindi[171] həm Əbu Süleyman Zeyd ibn Vəhəbdən və həm də Əbu Salmandan rəvayət etmişdir.

Xüsusən, hədisin kəlmələrində də bəzi fərqliliklər var. Əbu Süleymanın rəvayətində "*On altı nəfər şahid olaraq ayağa qalxdı*", Əbu Salmanın rəvayətində isə *"Bədr savaşında iştirak etmiş on iki nəfər ayağa qalxıb buna şahidlik etdi"* deyilir.

Dördüncü yol: Yəhya ibn Cədənin Zeyd ibn Ərqəmdən nəql etdiyi hədis

Təbərani və Hakim kitablarında Yəhya ibn Cədəyə istinadla Zeyd ibn Ərqəmdən rəvayət edirlər: *"Peyğəmbərlə (s) birlikdə yola çıxmışdıq. "Qədir-Xum" deyilən yerə çatdıq. Dincəlməyimizi əmr etdi. Həmin gün kimi isti gün olmamışdı. Sonra Peyğəmbər (s) Allaha həmd-səna söyləyib buyurdu: "Ey camaat, elə bir peyğəmbər göndərilməyib ki, özündən əvvəlki peyğəmbərdən az yaşamasın. Mənim də (ilahi dərgaha) dəvət olunmağıma və bu dəvətə müsbət cavab verəcəyim vaxta az qalıb. Sizin aranızda əmanət buraxıram ki, məndən sonra əsla azmayasınız: Allahın kitabı ki..." Sonra ayağa qalxıb Əlinin (r) əlindən tutub buyurdu: "Ey camaat, sizə öz canlarınızdan daha üstün olan kimdir?" Dedilər: "Allah və rəsulu daha yaxşı bilər". Peyğəmbər (s): "Məgər mən sizə öz canınızdan daha üstün deyiləm?" Camaat "Bəli!" deyə cavab verdi. Buyurdu: "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır".*[172]

Təbəraninin rəvayətinin raviləri etibarlı (siqə) şəxslərdir.[173] Hakim də hədisin səhih olduğuna hökm verərək deyib: *"Bu, sənədi səhih hədisdir,*

---

[170] Bax: Təhzibul-kəmal, Mizzi, c. 10, s. 111, rəqəm 2131; c. 33, s. 367, rəqəm 7407

[171] Kindi – etibarlıdır (siqədir), Buxari və Müslimin ravilərindəndir.

[172] əl-Möcəmul-kəbir, Təbərani, c. 5, s. 171, hədis 4986, Yəhya ibn Cədənin Zeyd ibn Ərqəmdən nəql etdikləri

[173] əs-Silsilətus-səhihə, Albani, c. 4, s. 249, hədis 1750

lakin Buxari və Müslim öz kitablarında qeyd etməyiblər".[174] Zəhəbi də "ət-Təlxis"də onun bu fikri ilə razılaşıb.[175]

Beşinci yol: Ətiyyə Ovfinin Zeyd ibn Ərqəmdən nəql etdiyi hədis

Əhməd ibn Hənbəl və başqaları Ətiyyə Ovfi sənədilə nəql edirlər: *"Zeyd ibn Ərqəmə dedim: "Kürəkənlərimdən biri mənə səndən Əli (r) barəsində Qədir-Xum günü baş verən hadisəni nəql edib. Mən onu səndən eşitmək istəyirəm". Dedi: "Siz, ey İraq əhli, aranızda olanlardan xəbərdarsınız". Dedim: "Məndən sənə heç bir zərər toxunmaz". Bunu eşidib danışmağa başladı: "Biz Cöhfdə idik. Peyğəmbər (s) günorta vaxtı Əlinin əlindən tutmuş halda qarşımızda dayandı..."*

Hədisi eynilə qeyd edir, yalnız sonda belə deyir: *"Ona (Zeydə) dedim: "Peyğəmbər (s) "İlahi, onun dostunu dost, düşmənini düşməni tut" dedimi? Dedi: "Mən eşitdiyim kimi sənə danışdım".*[176]

Ətiyyədən savayı ravilərin hamısı etibarlıdır (siqədir), Müslimin ravileridir. İbn Həcər "ət-Təqrib"dəki[177] sözlərinə əsasən, onu etibarlı (siqə) hesab edib. Başqa yerdə isə onu saxtakarlıqda ittiham etməsi (bəzi ravilərin adlarını gizlətməsi) buradakı sözlərinə kölgə salmır. Belə ki, bu hədisi o, kimlərdənsə deyil, birbaşa özü nəql edir.

Altıncı yol: Zeyd ibn Ərqəmin qızı Üneysənin atasından nəql etdiyi hədis

Təbərani "əl-Möcəmul-kəbir"də Həbib ibn Zeyd ibn Xəllad Ənsaridən, o da Zeyd ibn Ərqəmin qızı Üneysədən, o da atasından nəql edir: *"Peyğəmbər bizə ağacların altındakı alaqları və budaqları təmizləyib*

---

[174] əl-Müstədrəku ələs-səhiheyn, Hakim Nişapuri, c. 3, s. 613, hədis 6272, Zeyd ibn Ərqəm Ənsari

[175] əl-Müstədrəku ələs-səhiheyn, Hakim Nişapuri, c. 3, s. 613, hədis 6272, Zeyd ibn Ərqəm Ənsari, Zəhəbinin "ət-Təlxis"dəki şərhlərilə

[176] Müsnəd, Əhməd ibn Hənbəl, c. 4, s. 368, hədis 19298, Zeyd ibn Ərqəmin hədisi

[177] Təıqribut-təhzib, İbn Həcər, c. 1, s. 393, rəqəm 4616

əyləşməyi əmr etdi, sonra isə xütbə söyləməyə başladı. Allaha and olsun ki, Qiyamət saatına qədər baş verəcək hər bir şeydən həmin gün bizə xəbər verdi. Sonra buyurdu: "Ey camaat, sizə canınızdan daha üstün olan kimdir?" Dedik: "Allah və rəsulu bizə canımızdan daha üstündür". Bunun ardınca buyurdu: "Mən kimin mövlasıyamsa (kimə canından üstünəmsə), bu da onun mövlasıdır (ona canından üstündür)". Bu sözləri ilə Əlini (r) nəzərdə tuturdu. Sonra onun əlindən tutub qaldırdı və buyurdu: "İlahi, onun dostunu dost, düşmənini düşmən tut".[178]

Heysəmi bu rəvayətin ardınca deyir: *"Bunu Təbərani nəql edib. Orada Həbib ibn Xəllad Ənsari var ki, onu tanımıram. Digər raviləri isə etibarlı (siqə) şəxslərdir. Bu rəvayəti həmçinin Bəzzar daha kamil sənədlə nəql edib. Orada Məymun Əbu Abdullah Bəsri var ki, İbn Hibban onu etibarlı (siqə), bir dəstə şəxs isə zəif hesab ediblər".*[179]

Həbib Zeyd ibn Xəllad Ənsarinin oğludur. Necə ki, bunu Təbəraninin özü də sənəddə qeyd edib. Həbib Əbu Davudun, Tirmizinin, Nəsainin və İbn Macənin ravilərindəndir. Hafiz ibn Həcər və başqaları onu etibarlı (siqə) hesab etmişlər.[180]

Bu hədis həmçinin başqa yollarla da nəql olunub. Təbərani onu Əbuz-Zuhaya istinadən Zeyd ibn Ərqəmdən,[181] Hübeyrə ibn Yərimə istinadən Səid ibn Vəhəbdən, Həbbə Ürənidən və Zeyd ibn Ərqəmdən,[182] Əbu İshaq sənədilə Əmr ibn Zi Mərdən və Zeyd ibn Ərqəmdən,[183] Abdullah Şeybani

---

[178] əl-Möcəmul-kəbir, Təbərani, c. 5, s. 212, hədis 5128, Üneysə bint Zeyd ibn Ərqəmin atasından nəql etdiyi

[179] Məcməuz-zəvaid, Heysəmi, c. 9, s. 131, hədis 14616, "Peyğəmbərin (s) "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır" sözü" babı

[180] Təqribut-təhzib, İbn Həcər, c. 1, s. 150, rəqəm 1091; Təhzibut-təhzib, c. 2, s. 160

[181] əl-Möcəmul-kəbir, Təbərani, c. 5, s. 170, hədis 4983, Əbuz-Zuha Müslim ibn Səbihin Zeyd ibn Ərqəmdən nəql etdiyi hədis

[182] əl-Möcəmul-kəbir, Təbərani, c. 5, s. 191, hədis 5058, Əbu Səbiinin Zeyd ibn Ərqəmdən nəql etdiyi hədis

[183] əl-Möcəmul-kəbir, Təbərani, c. 5, s. 192, hədis 5059, ƏbuƏbu İshaq Səbiinin Zeyd ibn Ərqəmdən nəql etdiyi hədis

sənədilə Zeyd ibn Ərqəmdən,[184] Süveyr ibn Əbu Faxitə sənədilə Zeyd ibn Ərqəmdən nəql edib.[185]

Lakin biz sözümüzü uzatmamaq üçün onlar haqqında geniş söhbət açmaq istəmirik. "Əllamə Əmininin (r) "əl-Ğədir" kimi bu mövzuda yazılmış kitablarına müraciət edə bilərsiniz.

2. Səd ibn Əbu Vəqqasın hədisi

"Qədir-Xum" hədisi səhabə Səd ibn Əbu Vəqqasdan da bir neçə yolla nəql olunub. Bunu ondan Əbdürrəhman ibn Sabit, Əbdülvahid atası Əymənin vasitəsilə, Xeysəmə ibn Əbdürrəhman və Səd ibn Əbu Vəqqasın qızı Aişə də rəvayət ediblər. Bu yollara qısaca nəzər salaq:

Birinci yol: Əbdürrəhman ibn Sabitin Səddən nəql etdiyi hədis

İbn Macə öz "Sünən"ində Əbdürrəhman ibn Sabit sənədilə Səd ibn Əbu Vəqqasdan nəql edir: *"Müaviyə Həcc mərasimlərindən birində iştirak edirdi. Səd onun yanına gəldi. Əli barədə söhbət edirdilər. Müaviyə onu təhqir etməyə başladıqda Səd buna qəzəblənib dedi: "Sən o şəxs haqqında danışırsan ki, mən Peyğəmbərin (s) onun barəsində belə buyurduğunu eşitmişəm: "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır..."*[186]

İbn Macənin "Sünən"indəki hədislərə Albaninin verdiyi hökmlərə əsasən, hədis səhihdir. Orada hədisin ardınca deyir: *"Səhihdir".*[187]

İkinci yol: Əbdülvahidin atası Əymənin vasitəsilə Səddən nəql etdiyi hədis

---

[184] əl-Möcəmul-kəbir, Təbərani, c. 5, s. 193, hədis 5065, Əbu Abdullah Şeybaninin Zeyd ibn Ərqəmdən nəql etdiyi hədis

[185] əl-Möcəmul-kəbir, Təbərani, c. 5, s. 194, hədis 5066, Süveyr ibn Əbu Faxitənin Zeyd ibn ərqəmdən nəql etdiyi hədis

[186] Sünən, İbn Macə, c. 1, s. 45, hədis 121, "Əli ibn Əbu Talibin (r) fəzilətləri".

[187] Həmin mənbə, Albaninin hədislərə verdiyi hökmlərlə

Nəsai "əs-Sünənul-kubra"da Əbdülvahid ibn Əymənə, o da atasına istinadən Səd ibn Əbu Vəqqasdan belə dediyini rəvayət edir: *"Peyğəmbər (s) buyurdu: "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır".*[188]

Hədisin sənədi səhihdir, ravilər etibarlı (siqə) şəxslərdir. Əbdülvahidin atası Əyməndən savayı hamısı Buxarinin raviləridir. "ət-Təqrib"də[189] qeyd edildiyi kimi, o, etibarlı (siqə) şəxsdir.

Üçüncü yol: Sədin qızı Aişənin atasından nəql etdiyi hədis

Bəzzar öz "Müsnəd"ində Sədin qızı Aişə sənədilə atası Səd ibn Əbu Vəqqasdan nəql edir: *"Peyğəmbər (s) Əlinin əlindən tutub buyurdu: "Məgər mən möminlərə öz canlarından üstün deyiləmmi? Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır".*[190]

Bunu Bəzzardan Heysəmi də iqtibas edərək "Məcməuz-zəvaid" kitabında zikr edir və deyir: *"Bunu Bəzzar rəvayət edib, raviləri etibarlıdır (siqədir)".*[191]

Bu hədis başqa yollarla da Səd ibn Əbu Vəqqasdan nəql olunub. Hakim kitabında Xeysəmə ibn Əbdürrəhman[192] sənədilə ondan rəvayət edib. Həmçinin digər yollar da var ki, burada söhbəti uzatmamaq məqsədilə onları qeyd və təhqiq etməyə lüzum görmürük.

3. Büreydənin hədisi

Həmçinin səhabə olan Büreydədən də bir neçə yolla bu hədis nəql olunub. Bunu ona istinadən İbn Abbas, İbn Büreydə və Tavus rəvayət ediblər. Həmin rəvayət yollarına qısaca nəzər salaq:

---

[188] əs-Sünənul-kubra, Nəsai, c. 5, s. 108, hədis 8400; "Əli ibn Əbu Talibin (r) Allah yanındakı məqamı"; c. 5, s. 131, hədis 8468, "Peyğəmbərin (s) *"Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır"* sözü" babı

[189] Təqribut-təhzib, İbn Həcər, c. 1, s. 117, rəqəm 598

[190] Müsnəd, Bəzzar, c. 4, s. 42

[191] Məcməuz-zəvaid, Heysəmi, c. 9, s. 134, hədis 14626

[192] əl-Müstədrəku ələs-səhiheyn, Hakim Nişapuri, c. 3, s. 126, hədis 4601, "Möminlərin əmiri Əlinin (r) müsəlmanlığı" babı

Birinci yol: İbn Abbasın Büreydədən nəql etdiyi hədis

Nəsai Əbdülməlik ibn Əbu Ğəniyyə sənədilə Həkəmdən, o da Səid ibn Cübeyrdən, o da İbn Abbasdan, o da Büreydədən nəql edir: *"Əli ilə birlikdə Yəmənə tərəf yola çıxdıq. Yolda mənə qarşı sərt davrandı. Səfərdən qayıtdıqda bu hərəkətlərindən Peyğəmbərə (s) şikayət etdim. Peyğəmbərin (s) üzü döndü, buyurdu: "Ey Büreydə, məgər mən möminlərə öz canlarından üstün deyiləm?" Dedim: "Bəli, ya Peyğəmbər!" Buyurdu: "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır".*[193]

Eyni sənədlə Əhməd ibn Hənbəl "Müsnəd"də və Hakim "Müstədrək"də bunu nəql ediblər. Hakim Nişapuri hədisin ardınca rəvayətin Müslimin şərtlərinə əsasən səhih olduğunu qeyd edir.[194] Albani də onu bu sözlərlə təqib edib: *"Bu, Buxari və Müslimin şərtinə əsasən, səhih hədisdir. Hakimin təkcə Müslimin şərtini qeyd etməsi qüsurdur".*[195]

İkinci yol: Büreydənin oğlunun atasından nəql etdiyi hədis

Əhməd ibn Hənbəl "Müsnəd"də Büreydənin oğluna istinadən atasından rəvayət edir: *"(Atam) Əlinin təhqir edildiyi bir məclisin yaxınlığından keçirdi. Onların yanında dayanıb dedi: "İçimdə Əliyə qarşı mənfi bir hiss var idi. Xalid ibn Vəlid də belə idi. Peyğəmbər (s) bizi Əlinin rəhbərliyi altında bir savaşa göndərdi. Biz orada qənimət əldə etdik. Əli cariyələrdən birini xüms payı olaraq özü üçün seçdi. Xalid ibn Vəlid bunu etməməsi istədi. Peyğəmbərin (s) yanına qayıtdıqda baş verənləri ona söylədim. Sonra dedim: "Əli cariyəni xüms payı olaraq özünə götürdü".*

---

[193] əs-Sünənul-kubra, Nəsai, c. 5, s. 45, hədis 8145; Əlinin (r) fəzilətləri, s. 130, "Peyğəmbərin (s) "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır" sözü" babı

[194] əl-Müstədrəku ələs-səhiheyn, c. 3, s. 119, hədis 4578, "Buxari və Müslimin Əli ibn Əbu Talibin (r) qeyd etmək̇ləri fəzilətləri" fəsli

[195] əs-Silsilətus-səhihə, Albani, c. 4, s. 249, hədis 1750

Başımı qaldırdıqda Peyğəmbərin (s) üz cizgilərinin dəyişdiyini gördüm. Buyurdu: "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır".[196]

Şüeyb Arnaut hədislə bağlı yazır: *"Buxari və Müslimin şərtinə əsasən, hədisin sənədi səhihdir".*[197] Albani isə hədisin hökmü ilə bağlı deyir: *"Bu, hər ikisinin və ya yalnız Müslimin şərtinə əsasən, sənədi səhih hədisdir. Əgər Büreydənin oğlu Abdullahdırsa, o, Buxari və Müslimin ravilərindəndir, əgər Süleymandırsa, təkcə Müslimin ravisidir".*[198]

Hakim də "Müstədrək"də Əbu Əvanə sənədilə Əməşdən eyni istinadla nəql edib. Orada deyilir: *"Mən atamla gedirdim, Əlini təhqir edən və barəsində pis sözlər danışan bir dəstə adamın yanından keçdik..."* Ardı yuxarıdakı hədislə eynidir. Hakim onun səhih olduğunu qeyd edir: *"Bu, Buxari və Müslimin şərtinə əsasən, səhih hədisdir, lakin bu mətnlə onu nəql etməyiblər".*[199] Zəhəbi də "ət-Təlxis"də onunla razılaşır.[200]

Üçüncü yol: Tavusun Büreydədən nəql etdiyi hədis

Təbərani "əl-Möcəmul-övsat" və "əl-Möcəmus-səğir"də Tavus sənədilə Büreydədən Peyğəmbərin (s) Əliyə belə buyurduğunu nəql edir: *"Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır".*[201]

Albani onun ardınca deyir: *"Ravilərinin hamısı etibarlıdır (siqədir)".*[202]

4. Möminlərin əmiri Əli ibn Əbu Talibin (ə) hədisi

"Qədir-Xum" hədisi Əli ibn Əbu Talibdən (ə) də bir neçə yolla nəql edilib. Bunu ondan Əmr ibn Səid, Zazan ibn Ömər, Əmr Zi Mər, Səid ibn Vəhəb, Zeyd ibn Yəsi, Əbdürrəhman ibn Əbu Leyla, Əbu Məryəm,

---

[196] Müsnəd, Əhməd ibn Hənbəl, c. 5, s. 358, hədis 23078, Büreydə Əsləminin hədisi
[197] Həmin mənbə, hədislərə Şüeyb Arnautun verdiyi hökmlərlə
[198] əs-Silsilətus-səhihə, Albani, c. 4, s. 249, hədis 1750
[199] əl-Müstədrəku ələs-səhiheyn, c. 2, s. 141, hədis 2589
[200] Həmin mənbə, Zəhəbinin "ət-Təlxis"dəki şərhlərilə
[201] əl-Möcəmul-övsat, Təbərani, c. 1, s. 111, hədis 346
[202] əs-Silsilətus-səhihə, Albani, c. 4, s. 249, hədis 1850

Möminlərin əmirinin (ə) məclislərində iştirak edən bir şəxs, həmçinin Təlhə ibn Musərrif Mühacir ibn Ümeyrədən və ya Ümeyrə ibn Mühacirdən, Ömər ibn Əlidən, Rəyah ibn Harisdən və başqaları nəql etmişlər. Bu rəvayət yollarına qısaca nəzər salaq:

Birinci yol: Əbdürrəhman ibn Əbu Leylanın Əli ibn Əbu Talibdən (ə) nəql etdiyi hədis

Əbu Yəla Mosuli öz "Müsnəd"ində Əbdürrəhman ibn Əbu Leyla sənədilə nəql edir: *"Əlinin Rəhbədə, Allahı oradakı camaata şahid tutub and verərək belə söylədiyini gördüm: "Peyğəmbərin (s) Qədir-Xum günü "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır" buyurduğunu eşidən şəxslərə Allahı şahid tuturam ki, ayağa qalxıb şahidlik etsinlər". Əbdürrəhman deyir: "Orada olan on iki nəfər Bədr savaşında iştirak etmiş şəxs ayağa qalxaraq şahidlik etdilər. Mən onlara baxırdım. Aralarında bir nəfər enli şalvar geyinmişdi. Dedilər: "Şahidlik edirik ki, Peyğəmbər (s) Qədir-Xum günündə belə buyurmuşdur: "Məgər mən möminlərə öz canlarından üstün, zövcələrim isə onların analarıdeyillərmi?" Biz: "Bəli, ya Peyğəmbər" -deyə cavab verdik. O zaman Peyğəmbər (s) buyurdu: "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi, onun dostunu dost, düşmənini düşmən bil".*[203]

Heysəmi "Məcməuz-zəvaid"də bunu nəql edir və deyir: *"Bunu Əbu Yəla nəql edib, raviləri etibarlıdır (siqədir)".*[204]

Həmçinin Abdullah ibn Əhməd iki sənədlə İbn Əbu Leyladan nəql edib, onu da Albani "əs-Silsilətus-səhihə" kitabında səhih hesab edib. Orada deyir: *"Abdullah ibn Əhməd (1/119) Yezid ibn Əbu Ziyad və Simak ibn Übeyd ibn Vəlid Abbasidən nəql edib. Deyirəm: bu iki rəvayət yolunun hər*

---

[203] Müsnəd, Əbu Yəla, c. 1, s. 428, hədis 568, Əli ibn Əbu Talibə istinad olunanlar

[204] Məcməuz-zəvaid, Heysəmi, c. 9, s. 130, hədis 14615, "Peyğəmbərin (s) "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır" sözü" babı

ikisi səhihdir. Şahidlik üçün ayağa qalxan on iki nəfər barədə birinci rəvayətdə "Bədr savaşında iştirak edən" sözləri qeyd edilib".[205]

İkinci yol: Ömər ibn Əlinin Möminlərin əmiri Əlidən (ə) nəql etdiyi hədis

İbn Həcər "əl-Mətalibul-aliyə" kitabında yazır: *"İshaq deyir ki, Əbu Amir Əqdi Küseyr ibn Zeydən, o da Muhəmməd ibn Ömər ibn Əlidən, o da atasından, o da Əli ibn Əbu Talibdən (r) belə buyurduğunu nəql edir: "Peyğəmbər (s) Xumda bir ağacın altına gəldi. Sonra Əlinin (r) əlindən tutub oradan çıxdı və buyurdu: "Allahın sizin Rəbbiniz olduğuna şahidlik edirsiniz?" Orada toplanmış camaat "Bəli!" deyə cavab verdi. Sonra buyurdu: "Allahın və Onun elçisinin sizə öz canınızdan üstün olduğuna, Allahın və Elçisinin sizin vəlillərinizin olduğuna şəhadət verirsiniz?" Dedilər: "Bəli!" Peyğəmbər (s) bu cavabdan sonra buyurdu: "Allah və Onun Elçisi kimə öz canından üstündürsə, bu da ona öz canından üstündür. Sizin aranızda əmanət qoyuram. Əgər ondan möhkəm yapışsanız məndən sonra əsla azmayacaqsınız: Allahın kitabı – bir ucu Onun, digər ucu da sizin əlinizdə olan bir ipdir; Və Əhli-Beytim".*

Sonra İbn Həcər deyir: *"Bu, sənədi səhih hədisdir".*[206]

Büseyri hədisə verdiyi şərhdə deyir: *"Bunu İshaq səhih sənədlə rəvayət edib".*[207]

Üçüncü yol: Səid ibn Vəhəbin Möminlərin əmiri Əlidən (ə) nəql etdiyi hədis

Əhməd ibn Hənbəl də Səid ibn Vəhəb sənədilə rəvayət edir: *"Əli (ə) Allahı camaata şahid tutdu. Səhabələrdən beş və ya altı nəfər ayağa*

---

[205] əs-Silsilətus-səhihə, Albani, c. 4, s. 249, hədis 1750

[206] əl-Mətalibul-aliyə, İbn Həcər, c. 8, s. 390-391

[207] İthaful-xeyrətil-məhəra, Büseyri, c. 9, s. 279

qalxaraq şahidlik etdilər ki, Peyğəmbər (s) belə buyurub: "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır".[208]

Heysəmi "Məcməuz-zəvaid"də rəvayəti nəql etdikdən sonra yazır: *"Bunu Əhməd rəvayət edib, sənədindəki şəxslər "Səhih"in ravilləridir".*[209]

Dördüncü yol: Ziyad ibn Əbu Ziyadın Möminlərin əmiri Əlidən (ə) nəql etdiyi hədis

Əhməd ibn Hənbəl Ziyad ibn Əbu Ziyad sənədilə nəql edir: *"Əli ibn Əbu Talibin (ə) camaata Allahı şahid tutaraq belə söylədiyini eşitdim: "Peyğəmbərin (s) Qədir-Xum günü söylədiklərini eşidən hər bir müsəlman şəxsə Allahı şahid tuturam". Bədr savaşında iştirak etmiş on iki nəfər ayağa qalxıb şahidlik etdilər".*[210]

Heysəmi "Məcməuz-zəvaid"də rəvayəti nəql etdikdən sonra yazır: *"Bunu Əhməd rəvayət edib, raviləri etibarlıdır (siqədir)".*[211]

Beşinci, altıncı və yeddinci rəvayət yolları: Əmrin, Səidin və Zeydin Möminlərin əmiri Əlidən (ə) nəql etdikləri

Bəzzar öz "Müsnəd"ində Əmr Zi Mər yolu ilə Səid ibn Vəhəbdən və Zeyd ibn Yəsidən nəql edir: *"Əlinin belə dediyini eşitdik: "Peyğəmbərin (s) Qədir-Xum günü söylədiklərini eşidən hər kəsə Allahı şahid tuturam ki, ayağa qalxsın". Bədr savaşında iştirak etmiş on üç nəfər ayağa qalxıb şahidlik etdilər ki, Peyğəmbər (s) orada belə buyurmuşdu: "Məgər mən möminlərə öz canlarından üstün deyiləm?" Oradakılar "Bəli, ya Peyğəmbər!" deyə cavab verdilər. Peyğəmbər (s) Əlinin əlindən tutaraq*

---

[208] Musnəd, Əhməd ibn Hənbəl, c. 5, s. 366, hədis 23156, Peyğəmbər səhabələrinin hədisləri

[209] Məcməuz-zəvaid, Heysəmi, c. 9, s. 130, hədis 14613

[210] Musnəd, Əhməd ibn Hənbəl, c. 1, s. 88, hədis 670, Əli ibn Əbu Talibə (r) istinad edilən hədislər

[211] Məcməuz-zəvaid, Heysəmi, c. 9, s. 133, hədis 14624, "Peyğəmbərin (s) "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır" sözü" babı

buyurdu: "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi, onun dostunu dost, düşmənini düşmən tut, onu sevəni sev, ona nifrət edənə nifrət et, ona yardım edənə yardım et, tərk edəni Sən də tərk et".[212]

Bunu ona istinadən Heysəmi də öz kitabında nəql edib. Orada deyir: *"Bunu Bəzzar rəvayət edib, sənədindəki şəxslər "Səhih"in ravilərdir. Yalnız Fitr ibn Xəlifədən savayı, o, etibarlıdır (siqədir)".*[213]

"əz-Zəvaid"də Abdullah ibn Əhməddən Həsənə istinadən nəql olunur, həmin mətndə *"onu sevəni sev, ona nifrət edənə nifrət et..."* sözləri yoxdur.[214]

Səkkizinci yol: Ümeyr ibn Sədin Möminlərin əmiri Əlidən (ə) nəql etdiyi hədis

Təbərani Ümeyr ibn Səd sənədilə rəvayət edir: *"Əli camaatı Rəhbədə toplamışdı. Mən də bunu seyr edirdim. Buyurdu: "Peyğəmbərin (s) "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır" sözünü eşidən şəxsə Allahı şahid tuturam". On səkkiz nəfər ayağa qalxaraq Peyğəmbərin (s) bunu söylədiyinə şahidlik etdilər".*[215]

Heysəmi öz kitabında bunu nəql edərək ardınca yazır: *"Bunu Təbərani "əl-Övsat"da rəvayət edib, sənədi həsəndir".*[216]

Doqquzuncu yol: Vəhəb ibn Həmzənin Möminlərin əmiri Əlidən (ə) nəql etdiyi hədis

---

[212] Musnəd, Bəzzar, c. 4, s. 34, hədis 786, Zeyd ibn Yəsinin Əlidən rəvayət etdikləri

[213] Məcməuz-zəvaid, Heysəmi, c. 9, s. 130, hədis 14614

[214] Bax: Məcməuz-zəvaid, c. 9, s. 134, hədis 14627, "Peyğəmbərin (s) "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır" sözü" babı

[215] əl-Möcəmul-övsat, Təbərani, c. 7, s. 70, hədis 6882, "Adı Muhəmməd olanlar" fəsli

[216] Məcməuz-zəvaid, Heysəmi, c. 9, s. 136, hədis 14634, "Peyğəmbərin (s) "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır" sözü" babı

Təbərani Dükeynə istinadən Vəhəb ibn Həmzədən nəql edir: *"Mədinədən Məkkəyə gedərkən Əliyə yol yoldaşı oldum. Onda bəyənmədiyim bəzi hərəkətləri gördüm. Geri qayıtdıqda ondan Peyğəmbərə (s) şikayət edəcəyimi söylədim. Qayıtdıqdan sonra Peyğəmbərlə (s) qarşılaşıb dedim: "Əlinin filan-filan hərəkətlərini gördüm". Buyurdu: "Belə şeylər söyləmə! O, məndən sonra insanların arasında sizin ən üstününüzdür".*[217]

Heysəmi "Məcməuz-zəvaid"də hədisin ardınca yazır: *"Bunu Təbərani rəvayət edib. Ravilərin arasında Dükeyn var, İbn Əbu Hatəm onun adını qeyd edib, heç kəs onun zəif olduğunu söyləməyib. Digər ravilərin hamısı etibarlıdır (siqədir)".*[218]

Onuncu yol: Zeyd ibn Ərqəmin Möminlərin əmiri Əlidən (ə) nəql etdiyi hədis

Təbərani "əl-Möcəmul-övsat"da Zeyd ibn Ərqəm sənədilə nəql edir: *"Peyğəmbərin (s) Qədir-Xum günü "Məgər mənim möminlərə öz canlarından daha üstün olduğumu bilmirsiniz?" Oradakılar "Bəli" dedikdə, "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır! İlahi, onun dostunu dost, düşmənini düşmən tut" deyə buyurduğunu eşidən şəxslərə Əli Allahı şahid tutdu. On iki nəfər ayağa qalxaraq buna şahidlik etdilər".*[219]

Heysəmi rəvayətin sənədinin hökmü barədə deyir: *"Raviləri etibarlı şəxslərdir (siqələrdir)".*[220]

Belə, bu hədis başqa yollarla da nəql olunub. Əhməd ibn Hənbəl, İbn Hibban, Nəsai və başqaları Fitrə, o da Əbu Tüfeylə, o da Möminlərin əmiri Əliyə (ə) istinadən rəvayət etmişlər.[221]

---

[217] əl-Möcəmul-kəbir, Təbərani, c. 22, s. 135, hədis 360, Vəhəb ibn Həmzə

[218] Məcməuz-zəvaid, Heysəmi, c. 9, s. 138, hədis 14641, "Peyğəmbərin (s) "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır" sözü" babı

[219] əl-Möcəmul-övsat, Təbərani, c. 2, s. 275, hədis 1966

[220] Məcməuz-zəvaid, Təbərani, c. 2, s. 132, hədis 14613, "Peyğəmbərin (s) "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır" sözü" babı

Nəsai həmçinin Hani ibn Əyyuba istinadən Əmr ibn Səiddən, o da Möminlərin əmiri Əlidən (ə) rəvayət edib.[222]

Eləcə də İbn Əbu Asim Təlhə ibn Müsərrifdən, o da Mühacir ibn Ümeyrə və ya Ümeyrə ibn Mühacirdən, o da Möminlərin əmiri Əlidən (ə) nəql edib.[223] Albani onun Mühacir ibn Ümeyrə olduğuna qərar verib.[224]

Əhməd ibn Hənbəl də Zazan ibn Ömərdən, o da Əli ibn Əbu Talibdən (ə) rəvayət edib.[225]

Həmçinin Əhməd və Təbərani Rəyah ibn Harisə istinadən Möminlərin əmiri Əlidən (ə) nəql ediblər.[226]

Burada onların hamısına qeyd etmək imkanımız yoxdur.

5. Bərra ibn Azibin hədisi

Əhməd ibn Hənbəl "Müsnəd"də Əli ibn Zeydə istinadən Ədiy ibn Sabitdən, o da Bərra ibn Azibdən nəql edir: *"Peyğəmbərlə (s) birlikdə yola çıxmışdıq, "Qədir-Xum" deyilən yerdə dayandıq. Camaat namazı üçün çağırış edildi. İki ağacın altı Peyğəmbər (s) üçün təmizləndi. Orada zöhr namazını qıldıqdan sonra Əlinin (r) əlindən tutub buyurdu: "Mənim möminlərə öz canlarından üstün olduğumu bilirsiniz?" Oradakılar "Bəli" deyə cavab verdilər. Peyğəmbər (s) təkrarən: "Mənim bütün möminlərə öz canlarından üstün olduğumu bilirsiniz?" deyə buyurdu. Yenə də "Bəli, elədir" cavabını verdilər. Bu zaman Peyğəmbər (s) Əlinin əlindən tutaraq*

---

[221] Müsnəd, Əhməd ibn Hənbəl, c. 4, s. 370, hədis 19321, Zeyd ibn Ərqəmin hədisləri; Səhih, İbn Hibban, c. 15, s. 375, hədis 6931; əs-Sünənul-kubra, Nəsai, c. s. 8478, "Əli ilə dostluğa rəğbətləndirmə, onunla düşmənçilikdən çəkindirmə" babı

[222] əs-Sünənul-kubra, Nəsai, c. 5, s. 131, hədis 8470, "Peyğəmbərin (s) "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır" sözü" babı

[223] Kitabus-sünnə, Əmr ibn Əbu Asim, s. 593, hədis 1373, "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır" babı

[224] əs-Silsilətus-səhihə, Albani, c. 4, s. 249, hədis 1750

[225] Musnəd, Əhməd ibn Hənbəl, c. 1, s. 84, hədis 641

[226] Musnəd, Əhməd ibn Hənbəl, c. 5, s. 409, hədis 23609, Əbu Əyyub Ənsarinin hədisi; əl-Möcəmul-kəbir, Təbərani, c. 4, s. 173, hədis 4053

dedi: "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi, onun dostunu dost, düşmənini düşmən bil".

Ravi deyir: "Bundan sonra Ömər onunla görüşüb dedi: "Xoş sənin halına, ey Əbu Talibin oğlu! Bütün mömin kişi və qadınların mövlası oldun!"[227]

Eyni sənədlə İbn Macə də bu rəvayəti müxtəsər olaraq nəql edib.[228] Albani rəvayətin səhih olduğunu söyləyib. Hədislə bağlı hökmündə *"Səhihdir"* deyə bildirir.[229]

Onun söylədiyi kimi, ravilər etibarlı şəxslərdir və Müslimin raviləridir. Yalnız Əli ibn Zeyddən savayı. Müslim onun hədisinə yaxın mənada olan bir rəvayəti dəlil kimi qəbul edib. Buxari də "əl-Ədəbul-mufrəd"də, eləcə də Əbu Davud, Tirmizi, Nəsai, İbn Macə ondan hədis nəql ediblər. Zəhəbi "Təzkiratul-huffaz"da onun tərcümeyi-halında yazır: *"Tirmizi deyir: "Doğru danışan şəxsdir, bəzən Peyğəmbərə (s) istinad etmədən birbaşa səhabələrdən nəql edib... Dedim: Buxari və Müslim ondan hədis nəql etməyiblər, yalnız Müslim bir hədisdə ikinci yol kimi onu göstərib".*[230]

Bu hədisi müxtəsər şəkildə İbn Əbu Asim də Əbu Harunun vasitəsilə Ədiy ibn Sabitdən, o da Bərra ibn Azibdən nəql edib. Orada belə deyilir: *"Bu mənim mövlası olduğum şəxslərin mövlasıdır və ya mənim canlarından üstün olduğum şəxslərə canlarından üstün şəxsdir".*[231]

6. İbn Abbasın hədisi

Əhməd ibn Hənbəl və Nəsai Əmr ibn Məymuna istinadən rəvayət edirlər: *"Mən İbn Abbasla bir yerdə əyləşmişdim. Bu vaxt doqquz nəfərdən ibarət bir qrup onun yanına gəlib dedilər: "Ey Əbu Abbas, ya sən bizimlə*

---

[227] Musnəd, Əhməd ibn Hənbəl, c. 4, s. 281, hədis 18502, Bərra ibn Azibin (r) hədisi

[228] Sünən, İbn Macə, c. 1, s. 43, hədis 116, Əli ibn Əbu Talibin (r) fəzilətləri

[229] Həmin mənbə, hədislərlə bağlı Albaninin verdiyi hökmlərlə

[230] Təzkiratul-huffaz, Zəhəbi, c. 1, s. 144, rəqəm 133

[231] Kitabus-sünnə, Əmr ibn Əbu Asim, s. 591, hədis 1363

birlikdə çölə çıx, ya da yanındakılar buradan ayrılsınlar". Ravi İbn Abbasın belə dediyini söyləyir: "Mən sizinlə çıxıram".

Həmin vaxt onun gözlərindəki narahatlığı yenicə aradan getmişdi.

Çölə çıxıb söhbət etməyə başladılar, onların nə barədə danışdıqlarını bilmədim. Qayıtdıqda paltarını çırpır, "Uf, tfu, elə bir şəxs haqqında pis danışırlar ki, Peyğəmbər onun haqqında buyurub: "Sabah elə bir şəxsi göndərəcəyəm ki, Allah onu heç vaxt rüsvay etməz, Allah və Rəsulu onu sevir". Hamı həmin şəxsin özü olmasını arzulamış, Peyğəmbər (s) isə "Əli haradadır?" deyə soruşmuşdu. Əlinin xəmir yoğurduğu ona bildirildikdə "Aranızda xəmir yoğuracaq başqa şəxs yoxdur?!" buyuraraq yanına çağırılmasını istəmişdi.

Əli gəldi, lakin gözləri görməyəcək qədər xəstə idi. Peyğəmbər (s) onun gözlərinə tüpürcəyini sürtdü, sonra bayrağı üç dəfə yelləyərək ona verdi. O da Səfiyyə bint Yəhyanı həmin döyüşdə əsir alaraq gətirdi...

Ravi deyir: Peyğəmbər əmisi övladlarına dedi: "Sizdən hansınız dünya və axirətdə mənim yardımçım olarsınız?" Əli onun yanında oturmuşdu. Lakin əmisi övladları imtina etdilər. Əli dedi: "Mən dünya və axirətdə sənin yardımçınam". Peyğəmbər (s) buyurdu: "Sən dünya və axirətdə mənim yardımçımsan".

Ravi deyir: Sonra aralarından başqa bir nəfərə yaxınlaşdı və buyurdu: "Sizdən hansınız dünya və axirətdə mənim yardımçım olmağa razısınız?" Yenə də imtina etdilər. Əli isə təkrarən "Mən dünya və axirətdə sənin yardımçınam" dedi. Peyğəmbər (s) buyurdu: "Sən dünya və axirətdə mənim yardımçımsan"...

Sonra buyurdu: "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır..."[232]

---

[232] Müsnəd, Əhməd ibn Hənbəl, c. 1, s. 330, hədis 3026, Abdullah ibn Abbas ibn Əbdülmüttəlibin Peyğəmbərdən (s) nəql etdikləri; əs-Sünənul-kubra, Nəsai, c. 5, s. 112, hədis 8409, Peyğəmbərin (s) Əli (r) barədə "Allah onu heç vaxt rüsvay etməz" sözü

Bunu Hakim "Müstədrək"də Əhməddən rəvayət edərək *"Sənədi səhihdir"* deyir.[233] Zəhəbi də "ət-Təlxis"də[234] onunla razılaşır. Albani də *"Onların dediyi kimidir"*[235] sözü ilə sözlərini təsdiqləyir.

Əhməd ibn Hənbəl Əbu Salehə istinadən nəql edib: *"Abdullah ibn Abbas ölüm yatağında ikən dedi: "İlahi, mən Sənə Əli ibn Əbu Talibin vilayəti ilə yaxınlaşıram".*[236]

7; 8; 9. Əbu Hüreyrənin, Əbu Səid Xudrinin və Ənəs ibn Malikin hədisləri

Təbərani "əl-Məcməul-övsat"da İsmail ibn Əmr Bəcəliyə istinadən yazır: *"Misər ibn Kidamdan, o da Təlhə ibn Musərrifdən, o da Ümeyrə ibn Səddən rəvayət edir: "Əlinin (r) minbərdən Peyğəmbər (s) səhabələrini Qədir-Xumda söylədiyi sözlərə şahidlik etməyə səslədiyini eşitdim. On iki nəfər ayağa qalxdı. Onların arasında Əbu Hüreyrə, Əbu Səid və Ənəs ibn Malik də var idi. Onlar Peyğəmbərin (s) "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi, onun dostunu dost, düşmənini düşmən bil" deyə buyurduğunu eşitdiklərinə şahidlik etdilər".*[237]

Həmçinin "əl-Möcəmus-səğir"də də bunu qeyd edib. Orada: *"Bunu Misərdən yalnız İsmail rəvayət edib"*[238] deyə bildirir. İbn Hibban onun etibarlı olduğunu söyləyib. Hafiz ibn Həcər isə "Təhzibut-təhzib"də İsmailin tərcümeyi-halında yazır: *"İbrahim ibn Ərumə onun adını qeyd edərək tərifləyir və deyir: "İsmail kimi şeyxi zay etdilər". Əbu Nəim İsfahani deyir: "Əbdan ibn Əhməd bu İsmaili İsmail ibn Abanla bərabər tuturdu".*

---

[233] əl-Müstədrəku ələs-səhiheyn, c. 3, s. 143, hədis 4652, "Möminlərin əmiri Əlinin müsəlmanlığı".

[234] Həmin mənbə, Zəhəbinin "ət-Təlxis"dəki şərhlərilə

[235] Silsilətul-əhadisis-səhihə, Albani, c. 4, s. 340

[236] Fəzailus-səhabə, Əhməd ibn Hənbəl, c. 2, s. 662, hədis 1129

[237] əl-Möcəmul-övsat, Təbərani, c. 2, s. 369, hədis 2254

[238] əl-Möcəmus-səğir, Təbərani, c. 1, s. 119, hədis 175

Deyir: "İsfahana yerləşdi, amma qədrini bilmədilər". İbn Hibban da onu "əs-Siqat"da zikr edir".[239]

Rəvayəti dəstəkləyən başqa bir cəhət onun başqa yollarla da Əbu Hüreyrədən, Əbu Səiddən və digər sahəbələrdən nəql edilməsidir.

Əbu Hüreyrənin hədisini Təbərani İkrimə ibn İbrahim Əzdiyə istinadən nəql edib: *"İdris ibn Yəzid Əvdi atasından, o da Əbu Hüreyrədən rəvayət edir ki, Peyğəmbərin (s) belə buyurduğunu eşitdi: "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi, onun dostunu dost, düşmənini düşmən tut".*[240]

Həmçinin İbn Əbu Şeybə Kufi də Şərikin vasitəsilə Əbu Yəzid Əvdidən, o da atasından nəql edir: *"Əbu Hüreyrə məscidə daxil oldu. Onun ətrafına toplaşdıq. Bir gənc onun qarşısında dayanıb dedi: "Allahı sənə şahid tuturam, Peyğəmbərin (s) "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi, onun dostunu dost, düşmənini düşmən tut" buyurduğunu eşitmisən?" Əbu Hüreyrə "Bəli" deyə cavab verdi. Gənc dedi: "Mən səndən bezaram (uzağam)! Şəhadət verirəm ki, sən onun dostunu düşmən, düşmənini isə dost tutmusan".*

Ravi deyir: "Oradakılar həmin gənci daşa basdılar".[241]

Bunu Əbu Yəla da "Müsnəd"də müxtəsər şəkildə qeyd edib.[242]

Xətib Bağdadi öz "Tarix"ində Abdullah ibn Əli ibn Muhəmməd ibn Buşran yolu ilə Əli ibn Ömər Hafizdən, o da Əbu Nəsr Həbşun ibn Musa ibn Əyyub Xəllaldan, o da Əli ibn Səid Rəmlidən, o da Zəmrə ibn Rəbiə Qüreyşidən, o da Əbu Şouzəbdən, o da Mətar Vərraqdan, o da Şəhr ibn Houşəbdən, o da Əbu Hüreyrədən rəvayət edir: *"Zil-hiccə ayının onu səkkizinci günü oruc tutan şəxsə altmış ayın orucu yazılar. Həmin gün*

---

[239] Təhzibut-təhzib, İbn Həcər, c. 1, s. 279, rəqəm 582

[240] əl-Möcəmul-övsat, Təbərani, c. 2, s. 24, hədis 1111

[241] əl-Müsənnəf, İbn Əbu Şeybə, c. 6, s. 369, hədis 32092

[242] Musnəd, Əbu Yəla Mosuli, c. 11, s. 307131, hədis 6423, Şəhr ibn Houşəbin Əbu Hüreyrədən nəql etdiyi

Qədir-Xum günüdür. O gün Peyğəmbər (s) Əli ibn Əbu Talibin əlindən tutaraq camaata səsləndi: "Məgər mən möminlərin ixtiyar sahibi deyiləm?" Camaat: "Bəli, ya Peyğəmbər!" deyə cavab verdikdə buyurdu: "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır".

Ömər ibn Xəttab dedi: "Bəh-bəh, ey Əbu Talibin oğlu! Mənim və hər bir müsəlmanın mövlası (ixtiyar sahibi) oldun!"

Uca Allah bu ayəni nazil etdi: ***"Bu gün sizin dininizi tamamladım..."***[243]

Bu rəvayətin ravilərinin hamısı etibarlı (siqə) şəxslərdir:

İbn Buşran – Xətib Bağdadi onu etibarlı (siqə) hesab edib. O, onun şeyxlərindəndir. Deyir: *"Ondan hədis yazdım, eşitdikləri səhih idi".*[244]

Əli ibn Ömər Hafiz – o, "Sünən"in müəllifi Darəqutnidir, etibarlı (siqə) şəxslərdəndir. Zəhəbi yazır: *"Əbu Bəkr Xətib deyir: "Darəqutni əsrinin, dövrünün və zamanının seçilən şəxsiyyətlərindən idi, tayı-bərabəri yoxdu. Öz vaxtının imamı idi. Hədis və ravilərin adları ilə bağlı elmlər onda sonlanırdı".*[245]

Həbşun Xəllal – o da, həmçinin etibarlı (siqə) şəxsdir. Xətib onun haqqında yazır: *"Etibarlı (siqə) şəxs idi, Bəsrənin girişində yaşayırdı".* Deyir: *"Əzhəri bizə Əli ibn Ömər Hafizdən (Darəqutnidən) belə söylədiyini xəbər verib: "Həşbun ibn Musa ibn Əyyub Xəllal doğru danışan şəxsdir".*[246]

Əli ibn Səid Rəmliyə gəldikdə, o, İbn Əbu Həmlədir. Zəhəbi onu etibarlı hesab edib. "Mizanul-itidal"da deyir: *"Onda heç bir müşkül görmürəm, eləcə də indiyədək onun barəsində mənfi fikir söyləyən bir kəsi görmədim. O, əməlisalehdir. Etibarlı olmasına baxmayaraq, altı səhih kitabda ondan hədis nəql edilməyib".*[247]

---

[243] Tarixu Bağdad, Xətib Bağdadi, c. 8, s. 289, rəqəm 4392
[244] Tarixu Bağdad, Xətib Bağdadi, c. 10, s. 14, rəqəm 5130
[245] Siyəru əlamin-nübəla, Zəhəbi, c. 16, s. 452, rəqəm 332
[246] Tarixu Bağdad, c. 8, s. 289, rəqəm 4392
[247] Mizanul-itidal, Zəhəbi, c. 3, s. 125, rəqəm 5833

İbn Həcər "Lisanul-mizan"da bunun ardınca deyir: *"Əgər etibarlı şəxsdirsə və heç kəs onun barəsində mənfi söz söyləməyibsə, bəs nə üçün onun adını "əz-Züəfa"da ("Zəiflər") qeyd edir?!"*[248]

Zəhəbi başqa bir yerdə deyir: *"Onun məsələsinə diqqətli yanaşılır. Sanki, doğru danışandır".*[249]

Zəmrə ibn Rəbiə – onun da etibarlı olduğunu söyləyiblər. Əhməd ibn Hənbəl deyir: *"Əmin, etibarlı (siqə), saleh şəxsdir. Hədisləri səlahiyyətə malikdir, Şamda ona bənzər bir şəxs yoxdur".*[250]

Abdullah ibn Şouzəb – etibarlıdır, İbn Həcər deyir: *"Bəsrədə və Şamda yaşayıb, doğru danışan və abid şəxsdir".*[251]

Mətar Vərraq – etibarlıdır, Zəhəbi onun barəsində yazır: *"İmam, zahid və düzgün şəxsdir. Əbu Rəca ibn Təhman Xorasanidir, Bəsrədə yaşayıb, Əlba ibn Əhmər Yəşkərinin qulu olub. Əməl sahibi alimlərdən idi. Quran yazırdı və bunu yaxşı bacarırdı".*[252]

Başqa bir yerdə yazır: *"Mətar Müslimin ravilərindəndir, hədisləri həsəndir".*[253]

Şəhr ibn Houşəb – o, Müslimin ravilərindəndir. Zəhəbi "Tarixul-İslam"da yazır: *"Hərb Kurmani deyir: "Əhməd ibn Hənbəldən Şəhr ibn Houşəb barədə soruşdum, "Hədisləri nə gözəldir!" deyərək onun etibarlı olduğunu bildirdi". Hənbəl Əbu Abdullahın belə söylədiyini eşitdiyini deyir: "Şəhrdə heç bir müşkül yoxdur". Tirmizi Muhəmmədin (yəni Buxarinin) belə söylədiyini deyir: "Şəhrin hədisləri həsən, məsələləri güclüdür".*[254]

---

[248] Lisanul-mizan, İbn Həcər, c. 4, s. 227, rəqəm 598
[249] Mizanul-itidal, c. 3, s. 131, rəqəm 5851
[250] əl-İləl, Əhməd ibn Hənbəl, c. 2, s. 366, rəqəm 2624
[251] Təqribut-təhzib, İbn Həcər, c. 1, s. 501, rəqəm 3398
[252] Siyəru əlamin-nübəla, Zəhəbi, c. 5, s. 452, rəqəm 202
[253] Mizanul-itidal, Zəhəbi, 4, s. 127, rəqəm 8587
[254] Tarixul-İslam, Zəhəbi, c. 6, s. 387

İcli "Mərifətus-siqat" kitabında yazır: *"Şəhr ibn Houşəb Şamlıdır, tabeundur, etibarlıdır (siqədir)".*[255]

Beləliklə, Əbu Hüreyrədən qeyd edilən kəlmələrlə nəql olunan bu hədisin sənədində heç bir müşkülü yoxdur.

Xətib Bağdadi özünün "Tarix" kitabında yer verdiyi bu hədisin şərhində deyir: *"Bu hədis Həbşunun rəvayətindən daha məşhurdur. Deyilirdi ki, o, bu hədisi yalnız özü rəvayət edib. Ancaq onu Əhməd ibn Abdullah ibn Neyri də dəstəklədi, Əli ibn Səiddən rəvayət etdi. Onu mənə Əzhəri də xəbər verib: Muhəmməd ibn Abdullah ibn Əxi Mimi, İbn Neyri kimi tanınan Əhməd ibn Abdullah ibn Əhməd ibn Abbas ibn Salim ibn Mehran, Əli ibn Səid Şami və Zəmrə ibn Rəbiə İbn Şouzəbdən, o da Mətardan, o da Şəhr ibn Houşəbdən, o da Əbu Hüreyrədən nəql edir: "Kim Zil-hiccə ayının on səkkizi oruc tutsa..." ardınca rəvayətin eynini və ya bunu bənzərini söyləyir".*[256]

Xətib Bağdadinin bu yeni sənədlə nəqli də mötəbərdir.

Əbu Səidin hədisini isə Təbərani Həfs ibn Raşid sənədilə Füzeyl ibn Məzruqdan, o da Ətiyyədən, o da Əbu Səiddən nəql edir: *"Peyğəmbər (s) buyurdu: "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır".* Ardınca Təbərani deyir: *"Bu hədisi Füseyldən yalnız Həfs ibn Raşid nəql edib".*[257]

İbn Əbu Hatəm onun tərcümeyi-halını qeyd etmiş, barəsində heç bir mənfi fikir söyləməmişdir.[258]

Ənəs ibn Malikin hədisinə gəldikdə, onu Xətib Bağdadi Həsən ibn Əli ibn Səhl Aqulinin vasitəsilə Həmədan ibn Muxtardan, Həfs ibn Übeydullah ibn Ömərdən, o da Süfyan Sovridən, o da Əli ibn Zeyddən, o da Ənəsdən nəql edib: *"Peyğəmbərin (s) belə buyurduğunu eşitdim: "Mən kimin*

---

[255] Mərifətus-siqat, İcli, s. 461, rəqəm 741

[256] Tarixu Bağdad, Xətib Bağdadi, c. 8, s. 289, rəqəm 4392, Houşəb ibn Musa ibn Əyyub

[257] əl-Möcəmul-övsat, Təbərani, c. 8, s. 213, hədis 8434, Adının ilk hərfi "M" olanlardan (adında Musa olanlar)

[258] əl-Cərhu vət-tədil, Razi, c. 3, s. 172, rəqəm 742

mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi, onun dostunu dost, düşmənini düşmən bil".[259]

10. Hubşi ibn Cünadənin hədisi

Təbərani Əbu İshaq Həmədani sənədilə nəql edir: *"Hubşi ibn Cünadənin belə söylədiyini eşitdim: "Peyğəmbərin (s) Qədir-Xum günü belə buyurduğunu eşitdim: "İlahi, mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi, onun dostunu dost, düşmənini düşmən bil, ona yardım edənə yardım və ona dəstək olana dəstək ol!"*[260]

Heysəmi "Məcməuz-zəvaid"də rəvayətin ardınca deyir: *"Bunu Təbərani rəvayət edib, raviləri etibarlıdır (siqədir)".*[261]

11. Malik ibn Hüveyrisin hədisi

Təbərani yenə də Malik ibn Hüveyris sənədilə nəql edir: *"Peyğəmbər (s) buyurdu: "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır".*[262]

Heysəmi isə rəvayətin ardınca deyir: *"Bunu Təbərani rəvayət edib, raviləri etibarlıdır (siqədir)".*[263]

12. Cəririn hədisi

Təbərani Bişr ibn Hərb sənədilə Cərirdən nəql edir: *"Peyğəmbərlə (s) birlikdə Həcci yerinə yetirdik. Bu, Vida həcci idi. Sonra "Qədir-Xum" deyilən bir yerə çatdıq. Orada camaat namazı üçün nida olundu. Mühacir və ənsar*

---

[259] Tarixu Bağdad, Xətib Bağdadi, c. 7, s. 389, rəqəm 3905

[260] əl-Möcəmul-kəbir, Təbərani, c. 4, s. ,16, hədis 3514, Hubşi ibn Cünadə Səluli

[261] Məcməuz-zəvaid, Heysəmi, c. 9, s. 132, hədis 14622, "Peyğəmbərin (s) "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır" sözü" babı

[262] əl-Möcəmul-kəbir, Təbərani, c. 19, s. 291, hədis 646, Malik ibn Hüveyris Əbu Süleyman Leysi

[263] Məcməuz-zəvaid, Heysəmi, c. 9, s. 132, hədis 14621, "Peyğəmbərin (s) "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır" sözü" babı

bir yerə toplandı. Peyğəmbəri (s) bizim aramızda ayağa qalxıb buyurdu: "Ey camaat, nəyə şahidlik edirsiniz?" Dedilər: "Şahidlik edirik ki, Allahdan başqa ilah yoxdur". Buyurdu: "Bəs sonra?" Dedilər: "Şahidlik edirik ki, Muhəmməd onun qulu və elçisidir". Peyğəmbər (s): "Bəs sizin vəliniz kimdir?" deyə soruşduqda onlar "Allah və Rəsulu bizim mövlamızdır" dedilər. Peyğəmbər (s) yenə "Vəliniz kimdir?" deyə soruşdu. Ardınca əlini Əlinin (r) qoluna vuraraq biləyindən tutdu və buyurdu: "Allah və Rəsulu kimin mövlasıdırsa, bu da onun mövlasıdır. İlahi, onun dostunu dost, düşmənini düşmən tut! İlahi, insanlardan onu sevəni Sən də sev, ona nifrət edənə Sən də nifrət et. İlahi, Yer üzündə iki saleh bəndədən sonra Səndən başqa onu həvalə edə biləcəyim bir şəxs görmürəm. Onun barəsində xeyirlərə hökm et".

Bişr belə söylədiyini deyir: "O iki salehin kim olduğunu soruşduqda "Bilmirəm" dedi".[264]

İbn Ədiy və başqaları Bişri etibarlı (siqə) hesab etmişlər. Heysəmi "Məcməuz-zəvaid"də deyir: *"Bişr ibn Hərbi İbn Mədini və bir dəstə adam zəif, İbn Ədiy isə etibarlı hesab etmişdir. O deyir: "Onun inkar olunacaq hədisini görməmişəm".*[265]

Hafiz ibn Həcər "ət-Təqrib"də yazır: *"Bişr ibn Hərb Əzdi Əbu Əmr Nədəbi, bəsrəlidir, doğru danışandır. Azca zəifliyi var".*[266]

Əhməd ibn Hənbəl deyir: *"O, hədisləri tərk edilən şəxs deyil".*[267]

---

[264] əl-Möcəmul-kəbir, Təbərani, c. 2, s. 357, hədis 2505, Bişr ibn Hərbin Cərirdən nəql etdiyi rəvayət

[265] Məcməuz-zəvaid, c. 2, s. 73, hədis 1798, Namazını yataraq və ya unudaraq ötürən şəxs barədə

[266] Təqribut-təhzib, İbn Həcər, c. 1, s. 122, rəqəm 681

[267] əl-İləlu və mərifətur-rical, Əhməd ibn Hənbəl, c. 1, s. 250, rəqəm 342

13. Əmmar ibn Yasirin atasından nəql etdiyi hədis

Təbərani Zeyd ibn Həsən sənədilə yazır: *"Əmmar ibn Yasirin belə dediyini eşitdim: "Əli ibn Əbu Talibin yanında bir dilənçi dayandı. O, həmin vaxt müticəsinə rüku edirdi. Üzüyünü çıxarıb dilənçiyə verdi. Peyğəmbər (s) gəldikdə bunu ona bildirdi. Bu zaman Peyğəmbərə (s) aşağıdakı ayə nazil oldu:* ***"Sizin haminiz ancaq Allah, Onun Peyğəmbəri və iman gətirənlərdir. O kəslər ki, namaz qılır və rükuda olduqları halda zəkat verirlər".***[268] *Peyğəmbər (s) ayəni oxuduqdan sonra buyurdu: "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi, onun dostunu dost, düşmənini düşmən tut".*[269]

Bunu İbn Əsakir də bir neçə sənədlə Əmmar ibn Yasirdən, o da atasından nəql edir: *"Peyğəmbər (s) buyurdu: "Mənə iman gətirən və məni təsdiqləyən şəxslərə Əlinin vilayətini vəsiyyət edirəm. Onun vilayətində olan mənim vilayətimdə, mənim vilayətimdə olan da Allahın vilayətindədir".*[270]

Həmçinin Heysəmi "Məcməuz-zəvaid"də nəql edərək ardınca deyir: *"Bunu Təbərani iki sənədlə nəql edib. Oradakı ravilərdən bir neçəsini zəif hesab edirəm. Amma bəziləri onların etibarlı (siqə) olduğunu söyləyib".*[271]

14. Hüzeyfə ibn Üseyd Ğəffarinin hədisi

Təbərani Zeyd ibn Həsən Ənmatinin vasitəsilə Məruf ibn Xərbuzdan, o da Əbu Tüfeyldən, o da Hüzeyfə ibn Üseyd Ğəffaridən rəvayət edir: *"Peyğəmbər (s) Vida həccindən ayrıldıqda səhabələrini vadidəki ağacların altına yaxınlaşmaqdan çəkindirdi. Sonra onlara o ağaclardan bir neçəsinin altının alaq otlardan və ağac çöplərindən təmizləmələrini buyurdu və orada namaz qıldı. Ardınca ayağa qalxaraq buyurdu: "Ey camaat, Lətif və hər*

---

[268] Maidə, 55

[269] əl-Möcəmul-övsat, Təbərani, c. 6, s. 218, hədis 623

[270] Tarixu mədinəti Dəməşq, İbn Əsakir, c. 42, s. 239, rəqəm 4933

[271] Məcməuz-zəvaid, c. 9, s. 137, hədis 1464, "Peyğəmbərin (s) "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır" sözü" babı

şeydən xəbərdar olan Allah mənə bildirib ki, hər bir peyğəmbər özündən əvvəlki peyğəmbərin ömrünü yaşayır. Zənn edirəm ki, mənim də ilahi dərgaha dəvət ediləcəyim və bu dəvətə müsbət cavab verəcəyim vaxt yaxındadır.

Mən də, siz də cavabdehsiniz. Nə deyirsiniz?"

Dedilər: "Şəhadət veririk ki, sən dini təbliğ etdin, savaşdın və bizə nəsihət etdin. Allah səni ən yaxşı mükafatla mükafatlandırsın". Buyurdu: "Şəhadət verirsinizmi ki, Allahdan başqa ilah yoxdur, Muhəmməd onun qulu və elçisidir, Cənnət və Cəhənnəm haqdır, ölüm və ölümdən sonra dirilmək haqdır, Qiyamətin qopacağına əsla şübhə yoxdur və Allah qəbirlərdə olanları dirildəcək?"

Onlar buna şəhadət verdiklərini söylədilər. Peyğəmbər (s) də "İlahi, buna şahid ol!" deyə buyurdu. Sonra dedi: "Allah mənim, mən isə möminlərin mövlasıyam. Mən möminlərə öz canlarından daha üstünəm. Mən kimin mövlasıyamsa, bu da (yəni Əli) onun mövlasıdır. İlahi, onun dostunu dost, düşmənini düşmən tut".

Ardınca buyurdu: "Ey camaat, mən sizdən ayrılacağam. Sonra siz Hovuzun başında mənim yanıma gələcəksiniz. Hovuzun sahəsi Busra[272] ilə Sənayadək[273]məsafə qədərdir. Orada göydəki ulduzların sayı qədər gümüş qədəhlər var. Mənim yanıma gəldikdə sizdən iki ağır əmanət barəsində soruşacağam. Onlarla necə rəftar edəcəyinizə diqqət edin. Böyük əmanət Allahın kitabıdır. Bir ucu Allahın, digər ucu da sizin əlinizdə olan ipdir. Ondan möhkəm yapışın, azmayın və onu heç bir şeyə dəyişməyin. (İkinci isə) itrətim olan Əhli-Beytimdir. Lətif və hər şeydən xəbər olan Allah mənə bildirib ki, onlar Hovuzun başında yanıma varid olanadək əsla bir-birlərindən ayrılmazlar".[274]

---

[272] Hazırkı Suriyanın cənubunda yerləşən şəhərdir

[273] Yəmənin paytaxtıdır

[274] əl-Möcəmul-kəbir, Təbərani, c. 3, s. 180, hədis 3052, Əbu Tüfeyl Amir ibn Vasilənin Hüzeyfə ibn Üseyddən nəql etdiyi

Bunu ondan Heysəmi də "Məcməuz-zəvaid"də rəvayət edərək deyir: *"Bunu Təbərani rəvayət edib, ravilərin arasında Zeyd ibn Həsən Ənmati var. Əbu Hatəm deyir: "Onun hədisləri inkar olunur". İbn Hibban isə onu etibarlı (siqə) sayır. Bu iki sənəddən digərinin raviləri isə etibarlı (siqə) şəxslərdir".*[275]

Tirmizi də Ənmatidən Cabirin[276] hədisini rəvayət edib və ardınca deyib: *"Bu həsən qərib hədisdir".*[277]

"Qədir-Xum" hədisinin başqa nəql yolları da var ki, mövzunu uzatmamaq üçün onlardan yan ötürük.

"Qədir-Xum" hədisinin rəvayət yolları barədə Əhli-Sünnə alimlərinin əsərləri

Təqdim edilənlərdən aydın olur ki, "Qədir-Xum" hədisi bir çox səhih, mötəbər yollarla və fərqli kəlmələrlə rəvayət olunmuşdur. Onlardan bəzilərini qeyd etməklə kifayətləndik. Belə ki, bu hədisin başqa bir çox nəql yolları da var ki, onlar barəsində Əhli-Sünnə alimləri kitablar qələmə almış və rəvayətlərin bir çoxunu səhih saymışlar. Onların bir hissəsinə nəzər salaq:

A. Muhəmməd ibn Cərir Təbəri

"Qədir-Xum" hədisinin nəql yolları barədə məxsusi bir kitab qələmə almışdır. Bu barədə Zəhəbi yazır: *"Hədisin nəql yolları barədə İbn Cəririn*

---

[275] Məcməuz-zəvaid, c. 9, s. 259, hədis 14966, "Əhli-Beytin fəzilətlərinə dair" babı

[276] Tirmizi "Sünən"də Zeyd ibn Həsən Ənmati sənədilə Cəfər ibn Muhəmməddən, o da atasından, o da Cabir ibn Abdullahdan rəvayət edir: *"Peyğəmbərin (s) Həcc vaxtının Ərəfə günü öz dəvəsinin üzərində ikən xütbə söylədiyini gördüm. Belə buyurduğunu eşitdim: "Ey camaat, sizin aranızda iki əmanət qoyuram, ondan möhkəm yapışdığınız müddətdə əsla azmayacaqsınız: Allahın kitabı və itrətim olan Əhli-Beytim".* Sünən, Tirmizi, c. 5, s. 662, hədis 3786, "Peyğəmbər (s) əhlinin fəzilətləri" fəsli

[277] Sünən, Tirmizi, c. 5, s. 662, hədis 3786, "Peyğəmbər (s) əhlinin fəzilətləri" fəsli

bir neçə cildlik kitabını gördüm. Ondan və hədisin nəql yollarının çoxluğundan dəhşətə gəldim".[278]

Başqa bir yerdə isə, Təbərinin tərcümeyi-halını qeyd edərkən yazır: *"Deyirəm: "Qədir-Xum" hədisinin nəql yollarını dörd cilddən ibarət bir kitabda toplayıb. Onun bir hissəsini gördüm. Rəvayətlərin genişliyi gözlərimi qamaşdırdı. Bu hadisənin baş verdiyinə əmin oldum".*[279]

Bunu ondan həmçinin İbn Kəsir də "əl-Bidayətu vən-nihayə" kitabında nəql edib. Təbərinin tərcümeyi-halında deyir: *"Əbu Cəfər ibn Cərir Təbəri... Onun "Qədir-Xum" hədisinin nəql yollarını cəmlədiyi iki qalın cildlik kitabını, həmçinin "Quş" hədisinin nəql yollarını topladığı kitabını gördüm".*[280]

B. Zəhəbi

O da, bu hədisin nəql yolları ilə bağlı xüsusi bir kitab qələmə almışdır. Necə ki, bunu "Təzkiratul-huffaz"da da qeyd edir: *"Quş" hədisinə gəldikdə, onun olduqca çox nəql yolu mövcuddur. Bu barədə bir kitab da yazmışam. Ancaq "Mən kimin mövlasıyam..." hədisinin nəql yolları isə çox yaxşıdır. Həmçinin onun barəsində də kitab yazmışam".*[281]

C. İbn Üqdə

"Qədir-Xum" hədisinin nəql yollarını tam ehtiva edən bir kitab yazmışdır. Sənədlərinin əksəriyyəti səhih və həsəndir. Necə ki, bunu İbn Həcər Əsqəlani özünün "Fəthul-Bari" kitabında qeyd edib: *"Mən kimin mövlasıyam..." hədisini Tirmizi və Nəsai də nəql edib. Onun rəvayət yolları*

---

[278] Təzkiratul-huffaz, Zəhəbi, c. 2, s. 713
[279] Siyəru əlamin-nübəla, Zəhəbi, c. 14, s. 277
[280] əl-Bidayətu vən-Nihayə, İbn Kəsir, c. 11, s. 167
[281] Təzkiratul-huffaz, Zəhəbi, c. 3, s. 1042

olduqca çoxdur. İbn Üqdə onları bir kitabında araşdırmışdır. Rəvayətlərin sənədlərinin çoxu səhih və həsəndir".[282]

Başqa bir yerdə isə *"Mən kimin mövlasıyam..."* hədisindən söhbət açarkən deyir: *"Əbülabbas ibn Üqdə onun nəql yollarını diqqətlə araşdırıb. Yetmiş və ya daha çox səhabədən bu hədis rəvayət olunub".*[283]

Qeyd edək ki, İbn Üqdə Zeydi məzhəbinə mənsubdur. Onun adını bu sırada çəkməyimizin məqsədi isə, "Qədir-Xum" hədisinin nəql yollarına yalnız Əhli-Sünnə alimləri deyil, digərlərinin də nəzər yetirdiklərini göstərməkdir. Bununla da yalnız sünni və şiə məzhəbləri deyil, digərlərinin də bu işdə payının olduğu aydınlaşır.

"Qədir-Xum" hədisinin mütəvatir olması barədə Əhli-Sünnə alimlərinin sözləri

"Qədir-Xum" hədisini araşdıran şəxs onun təkcə səhihliyinə deyil, həm də qəti şəkildə mütəvatir olduğuna və məzmunun Peyğəmbər (s) tərəfindən söyləndiyinə əmin olur. Bir çox Əhli-Sünnə alimi bu hədisin mütəvatir və bir çox yollarla nəql edildiyini söyləyiblər. Hətta bəziləri bundan dəhşətə də gəliblər. Necə ki, bu barədə Zəhəbinin sözlərini qeyd etdik: *"Ondan və hədisin nəql yollarının çoxluğundan dəhşətə gəldim".* Onların bir neçəsinin sözlərinə nəzər salaq:

1. Zəhəbi

İbn Kəsir "əl-Bidayətu vən-nihayə" kitabında "Qədir-Xum" hədisi barədə Zəhəbidən nəql edir: *"Hədis mütəvatirdir. Bunu Peyğəmbərin (s) söylədiyinə yəqinim var. Ancaq "İlahi, onun dostunu dost..." sözü əlavədir, sənədi güclüdür".*[284]

---

[282] Fəthul-Bari, İbn Həcər, c. 7, s. 61
[283] Təhzibut-təhzib, İbn Həcər, c. 7, s. 297
[284] əl-Bidayətu vən-nihayə, c. 5, s. 233

Həmçinin Zəhəbi hədis haqqında deyir: *"Rəvayətlərinin çoxluğu gözlərimi qamaşdırdı. Hadisənin baş verdiyinə əmin oldum".*[285]

2. Heytəmi

Heytəmi "əs-Səvaiqul-muhriqə" kitabında "Qədir-Xum" hədisindən bəhs edərkən deyir: *"Həqiqətən də, bu, səhih hədisdir, barəsində heç bir şübhə yoxdur. Tirmizi, Nəsai, Əhməd kimi bir çox alim onu öz kitablarında rəvayət etmişdir. Nəql yolları olduqca çoxdur. Bunu on altı səhabə rəvayət edib. Əhmədin bir rəvayətində isə bunu otuz səhabənin Peyğəmbərdən (s) şəxsən eşitdiyi qeyd olunur. Həmçinin Əli (ə) üçün də xilafəti günlərində səhabələr buna şahidlik ediblər. Necə ki, əvvəldə də qeyd etdik, qarşıda bir daha buna toxunacağıq. Rəvayətlərin əksəriyyətinin sənədi səhih və ya həsəndir. Onun səhihliyinə şübhə salanların sözlərinə əhəmiyyət verilməz".*[286]

3. Molla Əli Qari

Molla Əli Qari "əl-Mirqat" kitabında bu hədis barədə danışarkən deyir: *"Həqiqətən də, bu hədis səhihdir, barəsində heç bir şübhə yoxdur. Bəzi hafizlər onu mütəvatir hesab etmişlər. Belə ki, Əhmədin rəvayətində onu şəxsən Peyğəmbərdən (s) otuz səhabənin eşitdiyi və Əlinin xilafəti dövründə onun üçün şahidlik etdikləri qeyd olunur".*[287]

4. Sibt ibn Cövzi

Əbülmüzəffər Sibt ibn Cövzi Hənəfi deyir: *"Peyğəmbərin həyatını qeyd edən alimlər "Qədir-Xum" hadisəsinin Peyğəmbər (s) Vida Həccindən qayıtdıqdan sonra, Zil-hiccə ayının on səkkizində baş verdiyi barədə həmfikirdirlər. Onunla bərabər yüz iyirmi minədək səhabə, Məkkə ilə*

---

[285] Siyəru əlamin-nübəla, Zəhəbi, c. 14, s. 277

[286] əs-Səvaiqul-muhriqə, İbn Həcər Heytəmi, s. 64

[287] Mirqatul-məfatih, Molla Əli Qari, c. 9, s. 3937

Mədinənin arasında yaşayan bədəvi ərəblər də var idi. Onların hamısı Peyğəmbərlə (s) birgə Vida həccində iştirak etmiş, "Mən kimin mövlasıyamsa Əli də onun mövlasıdır" sözünü ondan eşitmişdilər. Əhməd ibn Hənbəl bunu "Müsnəd"də və "Fəzail"də nəql edib. Həmçinin bunu Tirmizi də rəvayət edib".[288]

5. Əcluni

Əcluni "Kəşful-xəfa" kitabında yazır: *"Mən kimin mövlasıyam" hədisini Təbərani, Əhməd və Ziya "əl-Muxtarə"də Zeyd ibn Ərqəmdən və otuz səhabədən rəvayət ediblər. Həmçinin "İlahi, onun dost tutanı dost tut, düşməni ilə düşmən ol" kəlmələri ilə nəql olunub. Hədis mütəvatir və ya məşhurdur".*[289]

6. Sənani

Əmir Sənani özünün "Tovzihul-əfkar" kitabında yazır: *"Mən kimin mövlasıyam..." hədisini bir çox hədis imamları nəql ediblər. Onlardan: Əhməd və Hakim İbn Abbasdan, İbn Əbu Şeybə, eləcə də Əhməd İbn Abbasın Büreydədən nəql edərək, Əhməd ibn Macə də Bərradan, Təbərani, İbn Cərir və Əbu Nəim Cundə Ənsaridən, İbn Qani də Həbəşi ibn Cünadədən. Onu nəql edən imamların sayı sayılmayacaq qədər çoxdur. Bu hədis bir dəstə səhabədən rəvayət olunub. Hədis imamları rəvayəti mütəvatir sayıblar".*[290]

7. Mühəddis Kəttani

Fəqih, hədisşünas Kəttani özünün "Nəzmul-mütənasir fil-hədisil-mütəvatir" kitabında "Qədir-Xum" hədisi barədə bəhsində deyir: *"Əhmədin rəvayətinə əsasən, bunu Peyğəmbərdən (s) otuz nəfər səhabə eşitmiş və Əlinin xilafəti dövründə onun üçün şahidlik etmişlər. Həmçinin*

---

[288] Təzkiratul-xəvass, Sibt ibn Cövzi, s. 18

[289] Kəşful-xəfa, Əcluni, c. 2, s. 274

[290] Tovzihul-əfkar, Sənani, c. 1, s. 243

onun mütəvatir olduğunu bəyan edənlərdən: "ət-Təysir"də Süyutidən nəql edən Mənavi, "əl-Məvahibul-ləduniyyə"nin şərhçisi və eləcə də "əs-Səfvə" kitabında Mənavinin özüdür".[291]

8. Şüeyb Arnaut

Şeyx Şüeyb Arnaut "Əhmədin "Müsnəd"inə yazdığı şərhdə deyir: *"Onun "Mən kimin mövlasıyam..." sözünün bir çox şahidi var ki, hədisi mütəvatir həddinə çatdırıb".*[292]

9. Albani

Albani "Qədir-Xum" hədisi barədə söhbət açaraq deyir: *"Ümumi söz budur ki, hədis onun hər iki şərtinə əsasən, səhihdir. Hədisin əvvəlinin Peyğəmbərdən (s) olduğu mütəvatirdir. Necə ki, onun sənədlərini və rəvayət yollarını araşdıran şəxsə bu tam aydın olacaq".*[293]

Və bunlardan başqa digər sözlər ki, araşdırmaq istəyən şəxsə onları tapmaq heç də çətin olmaz. Əllamə Əmini özünün "əl-Ğədir" kitabında "Qədir-Xum" hədisinin səhih və ya mütəvatir olduğunu söyləyən Əhli-Sünnə alim və şəxsiyyətlərindən qırx üç nəfərinin adını qeyd edib.[294]

Hədisin rəvayət yolları ilə bağlı bəhsdən hasil olanlar

Əhli-Sünnənin görkəmli alimlərinin sözlərindən və təqdim edilən rəvayətlərdən aydın olur ki, "Qədir-Xum" hədisi səhih, hətta mütəvatir hədislərdəndir. Buna əsasən, hədis barədə İbn Teymiyyə kimi şəkk edənlərin şübhələrinin əsassız olduğu anlaşılır. Onun sözlərini burada

---

[291] Nəzmul-mütənasir, Kəttani, s. 269
[292] Müsnəd, Əhməd ibn Hənbəl, c. 1, s. 330, Şüeyb Arnautun təhqiq və şərhlərilə
[293] əs-Silsilətus-səhihə, Albani, c. 4, s. 343
[294] əl-Ğədir, Əllamə Əmini, c. 1, s. 294

nəql etməyə zərurət görmürük. Lakin bu barədə bəzi Əhli-Sünnə alimlərinin sözlərini qeyd edəcəyik:

İbn Həcər İbn Teymiyyənin "Minhacus-sünnə" kitabı barədə deyir: *"Lakin İbn Mütəhhərin gətirdiyi bir çox hədisi məqsədli şəkildə rədd etdiyini gördüm. Onların böyük hissəsi uydurma və xəyal məhsulu olsa da, ancaq aralarında olduqca qiymətli yaxşı hədisləri də rədd etmişdir".*[295]

Başqa bir yerdə isə deyir: *"İbn Teymiyyə "Rafizi İbn Mütəhhərə rəddiyyə" kitabında mühacirlərin arasında, xüsusilə də Peyğəmbərlə (ə) Əlinin arasındakı qardaşlaşmanı inkar etmişdir. Deyir: "Qardaşlaşma bir-birlərinin arasında yaxınlaşma, qəlblərin bir-birinə bağlanması deməkdir. Mühacirlə digər mühacirin arasında qardaşlaşmanın heç bir mənası yoxdur".*

Bu sözlər qəti dəlili müqayisə ilə rədd etmək və qardaşlaşmanın hikmətindən qəflətdə olmaq deməkdir".[296]

Albani "əs-Silsilətus-səhihə" kitabında "Qədir-Xum" hədisinin səhihliyi barədə danışarkən deyir: *"Hədis barədəki sözləri araşdırarkən və səhihliyini bəyan edərkən şeyxülislam İbn Teymiyyənin hədisin ilk hissəsini zəif saydığını gördüm. Onun ardının isə ümumiyyətlə yalan olduğunu iddia edib. Düşünürəm ki, bu, hədislərin nəql yollarını araşdırmadan və onlara nəzərini dəqiqləşdirmədən hədisləri ard-arda zəif saymaq adətindən irəli gəlib. Yardım Allahdandır".*[297]

"Qədir-Xum" hədisinin dəlaləti

"Qədir-Xum" hədisinə diqqət yetirən, insaf gözü ilə baxan və obyektiv nəzər salan şəxs onun İmam Əlinin (ə) imamlığına açıq-aydın dəlalət etdiyini görəcək. Belə ki, hədisin mətnində onun Peyğəmbərdən (s) sonra imamət məqamını isbatlayacaq bir çox kəlmə və dəlalətlər mövcuddur.

---

[295] Lisanul-mizan, İbn Həcər, c. 6, s. 319
[296] Fəthul-Bari, İbn Həcər, c. 7, s. 211
[297] Silsilətul-əhadisis-səhihə, Albani, c. 4, s. 349

Lakin hədisin dəlalətində ən başlıca dəlil bu kəlmələrdən əvvəl Peyğəmbərin (s) möminlər üzərində öz vilayətinə işarə etməsidir. Hədisin əvvəli aydın şəkildə Peyğəmbərin (s) bu sözlərindəki məqsədin Uca Allahın "Əhzab" surəsində buyurduğu ***"Peyğəmbər möminlərə onların canlarından (özlərindən) daha üstündür (övladır)..."***[298] ayəsinin mənasına dəlalət etdiyini göstərir.

Həmin hədisdə qeyd olunur ki, Peyğəmbər (s) səhabələrə və müsəlmanlara belə xitab etmişdir: *"Məgər mən sizə canınızdan daha üstün (övla) deyiləmmi?"* Onlar da *"Bəli"* deyə cavab vermişlər. Bu vaxt Peyğəmbər (s) buyurmuşdur: *"Mən kimə üstünəmsə (övlayamsa) bu Əli də ona (canından) üstündür (övladır)".* Başqa bir rəvayətə görə isə belə buyurur: *"Allah mənim mövlam, mən isə bütün mömin kişi və qadınların mövlasıyam... Mən kimin mövlasıyamsa, bu da (Əli (ə) də) onun mövlasıdır".*

Başqa bir rəvayətdəki üçüncü versiyaya görə isə buyurur: *"Məgər mən möminlərə canlarından daha üstün (övla) deyiləmmi?"*

Ardıcıllıq hökmünə əsasən, hədisdəki vilayətdə məqsəd Peyğəmbərin (s) möminlər üzərindəki vilayətidir. Həmin vilayətə Uca Allahın bu sözündə də işarə edilib: ***"Peyğəmbər möminlərə onların canlarından (özlərindən) daha üstündür (övladır, vəlidir)..."***

Bu mübarək ayədə işarə edilən Peyğəmbər (s) vilayətinin mənası müsəlmanların işlərində onların özlərindən daha çox ixtiyar və haqq sahibi olmasıdır. Necə ki, bunu böyük Əhli-Sünnə təfsirçiləri də aydın şəkildə qeyd etmişlər. Təbəri bu ayənin təfsirində yazır: *"Möminlər üzərində özlərindən daha çox haqq sahibidir. Onların üzərində istədiyi kimi hökm edər. Onlarla belə rəftarı icazəlidir. Necə ki, Yunus rəvayət edir: "İbn Vəhəb bizə xəbər verib ki, İbn Zeyd deyib: "Necə ki, sən öz qulun üzərində ixtiyar sahibisən, Peyğəmbər də (s) möminlər üzərində ixtiyar sahibidir.*

[298] Əhzab, 6

Hökmü onlara nüfuz edər. Necə ki, sənin hökmün kölən üzərində keçərlidir, onun da hökmü onlar üzərində nüfuza malikdir".[299]

İbn Kəsir öz təfsirində yazır: *"Uca Allah Peyğəmbərinin (s) ümmətinə qarşı olan şəfqət və səmimiyyətini bilirdi. Ona görə də onu ümmətinə ixtiyar sahibi qərar verdi, onun hökmünü onların istəyindən üstün tutdu. Necə ki, buyurur:* ***"Amma xeyr! (Ya Rəsulum!) Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən ixtilaflarda səni hakim təyin etməyincə və verdiyi hökmlərə görə özlərində bir sıxıntı duymadan sənə tam bir itaətlə boyun əyməyincə, iman gətirmiş olmazlar"***[300].[301]

Və bu mövzuda digər təfsirlərdəki sözlər...[302]

Peyğəmbərin (s) möminlər üzərindəki vilayət və üstünlüyü onların işlərində daha çox haqq sahibliyi, itaətdə üstünlüyü və boyun əyilməsinin vacibliyi mənasındadır. Bütün bunları "Qədir-Xum" hədisində Peyğəmbər (s) Möminlərin əmiri Əli (ə) üçün də təsdiqləyir. Belə ki, İmam Əlinin (ə) möminlər üzərindəki vilayətini öz vilayətinin bir budağı qərar verir. Buyurur: *"Məgər mən möminlərə öz canlarından daha üstün (övla) deyiləm?" Onlar "Bəli" deyə cavab verdilər. Buyurdu: "Məgər mən bütün möminlərə özlərindən daha çox ixtiyar sahibi deyiləm?" Onlar yenə də "Bəli" deyə cavab verdilər. Bu cavabın ardınca Peyğəmbər (s) buyurdu: "Mən kimin mövlasıyamsa, bu da onun mövlasıdır. İlahi, onu dost tutanı dost tut, düşmən biləni Sən də düşmən bil".*[303]

---

[299] Camiul-bəyan, Təbəri, c. 20, s. 130

[300] Nisa, 65

[301] Təfsiru Quranil-əzim, İbn Kəsir, c. 3, s. 450

[302] Bax: Təfsir, Bəğəvi, c. 3, s. 507; Zadul-məsir, İbn Cövzi, s. 1114, Təfsirul-Xazin, c. 5, s. 105; Təfsirun-Nəsəfi, c. 3, s. 294; Fəthul-qədir, Şövkani, s. 1391; Səfvətut-təfasir, Sabuni, c. 2, s. 470; Şifa, Qazi İyaz, c. 1, s. 56

[303] Sünən, İbn Macə, c. 1, s. 73. Hədislərə Muhəmməd Nasir Albaninin hökm və şərhlərilə

Albaninin bu hədisə səhih hökmü verdiyini əvvəldə qeyd etdik. Orada deyirdi: *"Səhihdir".*[304]

Bu hədis başqa kəlmələrlə də varid olub: *"Peyğəmbər (s) Xumda Əlinin əlindən tutaraq buyurdu: "Ey camaat! Allahın sizin Rəbbiniz olduğuna şahidlik edirsiniz?" Oradakılar "Bəli" deyə cavab verdilər. Buyurdu: "Allahın və Rəsulunun sizə öz canınızdan daha çox ixtiyar sahibi olduğuna şahidlik edirsiniz?" Onlar yenə də "Bəli" cavabını verdikdə Peyğəmbər (s) buyurdu: "Allah və Rəsulu sizin mövlanızdır?" Toplaşanlar "Bəli" deyə təsdiq etdilər. Bu cavabın ardınca Peyğəmbər (s) buyurdu: "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır".*[305]

Albaninin bu hədisin nəql yolunun "həsən" olduğuna hökm verdiyini qeyd etmişik.[306]

Hədisdə *"Mən kimin mövlasıyam"* ibarəsinin "fa" tərtib bağlayıcısı ilə "fə haza mövlahu" deyilərək təqib olunması məhz Peyğəmbərə (s) aid vilayətin eynilə Möminlərin əmiri Əli (ə) üçün təsdiqlənməsinə aşkar dəlildir. Hədisin mətni əvvəldə Peyğəmbər (s) üçün sübuta yetmiş üstünlüklərin İmam Əliyə (ə) də şamil olduğuna dəlalət edir. Belə ki, Quran ayələrinə və təfsirçilərin sözlərinə əsasən, Peyğəmbərin (s) vilayəti ona itaət və təslimiyyət deməkdir.

Peyğəmbər (s) demək istəyirdi ki, Allahın Qurani-Kərimdə sizin üzərində təsdiqlədiyi həmin itaət və təslimiyyət vilayətim eynilə və bütün xüsusiyyətləri ilə İmam Əli (ə) üçün də qüvvədədir.

"Qədir-Xum" hədisinin məna dəlalətinin dəlilləri

"Qədir-Xum" hədisində Peyğəmbər (s) vilayəti ilə İmam Əlinin (ə) vilayətinin arasındakı bağlılığına dəlalət edən bir çox kənar dəlillər var. Onlardan ən əhəmiyyətlisi aşağıdakılardır:

---

[304] əs-Silsilətus-səhihə, Albani, c. 4, s. 343

[305] Kitabus-sünnə, İbn Əbu Asim, s. 565. Albaninin "Zilalul-cənnə" kitabı ilə

[306] Kitabus-sünnə, İbn Əbu Asim, s. 565. Albaninin "Zilalul-cənnə" kitabı ilə

1. "Ya Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil ediləni təbliğ et" ayəsinin nazil olması

Bir dəstə Əhli-Sünnə hədisşünası və hafizi ***"Ya Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil ediləni təbliğ et. Əgər (bunu) etməsən, (Allahın) risalətini (sənə həvalə etdiyi elçilik, peyğəmbərlik vəzifəsini) yerinə yetirmiş olmazsan. Allah səni insanlardan qoruyacaq. Həqiqətən, Allah kafir camaatı düz yola yönəltməz!"***[307] ayəsinin Qədir-Xum hadisəsi ərəfəsində nazil olduğu ilə bağlı rəvayətlər nəql ediblər. Daha dəqiq isə, Peyğəmbərin (s) xütbəsindən əvvəl endiyi deyilir.

İbn Əbu Hatəm öz təfsirində Əbu Səid Xudri sənədilə nəql edir: ***"Ya Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil ediləni təbliğ et"*** *ayəsi Əli ibn Əbu Talib barədə nazil oldu".*[308]

İbn Əbu Hatəm təfsirinin müqəddiməsində sənədləri ən səhih olan hədisləri nəql etdiyini bildirərək deyir: *"Bu təfsirdə sənəd baxımından ən səhih hədislərə və ən möhkəm mətnlərlə əsaslanmışam".*[309]

İbn Teymiyyə də bəzi təfsirlər barədə bəhs edərkən deyir: *"Nəql əhli təfsir imamlarından məşhur sənədlərlə rəvayət nəql edilən İbn Cüreyhin, Səid ibn Əbu Ərubənin, Əbdürrəzzaqın, Əbd ibn Həmidin, Əhmədin, İshaqın, Bəqi ibn Müxəllədin, İbn Cəririn, Təbərinin, Muhəmməd ibn Əsləm Tusinin, İbn Əbu Hatəmin, Əbu Bəkr ibn Munzirin və İslamda doğru sözləri ilə tanınan digər böyük alimlərin təfsirlərindəki rəvayətlərə etimad olunduğuna həmfikirdirlər".*[310]

Həmçinin Vahidi "Əsbabun-nuzul" kitabında bu hədisi Əbu Səid Xudriyə[311] istinadən nəql edib. Vahidi də kitabının müqəddiməsində

---

[307] Maidə, 67
[308] Təfsir, İbn Əbu Hatəm, c. 4, s. 1127
[309] Təfsir, İbn Əbu Hatəm, c. 1, s. 14
[310] Minhacus-sünnə, İbn Teymiyyə, c. 7, s. 178-179
[311] Əsbabun-nuzul, Vahidi Nişapuri, s. 105

qələmə aldığı təfsirdə yalnız səhih və həqiqət olan rəvayətləri nəql edəcəyinə iltizam verib. Belə ki, ayələrin eniş səbəbi haqqında məlumatsız olduqları halda kitab yazanlara eyham vuraraq deyir: *"Özündə eniş səbəblərini ehtiva edən bu kitabı qələmə almağa məni təhrik edən amil bu işə qol çırmalayan və Quranın eniş səbəbləri barədə bəhs edənlərə doğruları bildirmək, yalan və uydurmalardan çəkindirmək istəyimdir ki, eşitdikdən sonra bəlkə bundan çəkinərlər".* [312]

İbn Əsakir də Əbu Bəkr Vəcih ibn Tahirdən, onlar da Əbu Hamid Əzhəridən, o da Əbu Muhəmməd Muxəllədidən, o da Muhəmməd ibn İbrahim Hələvanidən, o da Həsən ibn Həmmad Səccadədən, o da Əli ibn Abisdən, o da Əməşdən və Əbu Cəhhafdan, o da Ətiyyədən, o da Əbu Səid Xudirdən eynilə bunu rəvayət edib.[313]

Onların hədisinin ravilərinin hamısı etibarlı (siqə) şəxslərdir.

– **Əbu Bəkr Vəcih ibn Tahir.** Zəhəbi onun barəsində deyir: *"Şeyx, alim, ədalətli şəxs, Xorasanın istinad mənbəyi, Zahirin qardaşı Əbu Bəkr, Şəhhami Nişapuri, Ədalət və rəvayət evinin yetirməsi".*[314]

– **Əbu Hamid Əzhəri.** Həmçinin Zəhəbi onun barəsində deyir: *"Ədalətli, istinad mənbəyi, doğru sözlü Əbu Hamid Əhməd ibn Həsən ibn Muhəmməd ibn Əzhər Əzhəri Nişapuri Şuruti. Hədisşünaslarıdandır... Ondan Tahirin oğulları Zahir və Vəcih hədis nəql ediblər..."*[315]

– **Əbu Muhəmməd Muxallədi.** Zəhəbi onun barəsində yazır: *"İmam, sadiq, istinad mənbəyi... ədalətli şeyx..."*[316]

– **Muhəmməd ibn İbrahim Hələvani.** Xətib Bağdadi deyir: *"Əbu Bəkr Hələvani, Bəlxin qazısıdır. Bağdadda məskunlaşıb, orada hədis söyləyib... Etibarlı (siqə) şəxsdir".*[317]

---

[312] Əsbabun-nuzul, Vahidi Nişapuri, s. 5
[313] Tarixu mədinəti Dəməşq, İbn Əsakir, c. 42, s. 237
[314] Siyəru əlamin-nübəla, Zəhəbi, c. 20, s. 109
[315] Siyəru əlamin-nübəla, Zəhəbi, c. 18, s. 254
[316] Siyəru əlamin-nübəla, Zəhəbi, c. 16, s. 539

– **Həsən ibn Əhməd Səccadə.** Zəhəbi onun barəsində yazır: *"Etibarlı, sünnə sahibi şəxsdir".*[318] *İbn Həcər deyir: "Onuncu təbəqədəndir, doğru danışandır".*[319]

– **Əli ibn Abis.** Əhməd ibn Hənbəl "Müsnəd"də ondan bir çox rəvayət nəql edib. Həmçinin Tirmizi də "Sünən"də[320] onun rəvayətlərinə yer verib və hədislərindən heç birini zəif saymayıb. Yalnız bəzilərinə "qəribə"dir deyib. Onun qəribəliyi isə ancaq Müslim Əvər cəhətdəndir. Belə ki, Əli ibn Abisdən hədis nəql etdikdən sonra deyir: *"Bu qəribə hədisdir, bunu yalnız Müslim Əvərdən bilirik. Müslim Əvər isə onların nəzərində güclü ravi deyil".*[321]

Eləcə də Hakim ondan "Müstədrək"də bir neçə hədis nəql edib.[322]

Mizzi "Təhzibul-kəmal"da Əli ibn Abisin tərcümeyi-halında yazır: *"Əbu Əhməd ibn Ədiy deyir: "Onun "həsən" hədisləri var".*[323]

Daraqutni də "Sünən"ində ondan hədis rəvayət edir və barəsində deyir: *"Kufəlidir, diqqətə alınır".*[324]

İbn Həcər *"diqqətə alınır"* sözünü ravilərin üçüncü ədalət mərtəbəsində yerləşdirir. Onların qüsurları ilə bağlı üç mərtəbə qeyd etdiyi kimi ədalətlərini də üç mərtəbəyə bölmüşdür. Deyir: *"Ədalət mərtəbələrinin ən aşağı dərəcəsi azacıq qüsurlara yaxın olanıdır. Onlar barədə "şeyxdir", "hədisi rəvayət edilir", "diqqətə alınır" və bu kimi sözlər deyilir. Gizli deyil ki, bunların arasında da mərtəbələr mövcuddur".*[325]

Zübeydi də "əl-Bulğə" kitabında *"diqqətə alınır"* sözünün ədalətli ravilərlə bağlı söyləndiyini deyir. Ravilərin dörd ədalət mərtəbəsini qeyd

---

317 Tarixu Bağdad, Xətib Bağdadi, c. 1, s. 415
318 əl-Kaşif, Zəhəbi, c. 1, s. 334
319 Təqribut-təhzib, İbn Həcər, c. 1, s. 202
320 Bax: Müsnəd, Əhməd ibn Hənbəl, c. 5, s. 348 və ondan sonrakı səhifə
321 Sünən, Tirmizi, c. 5, s. 304
322 Bax: əl-Müstədrəku ələs-səhiheyn, Hakim Nişapuri, c. 3, s. 112 və 381
323 Təhzibul-kəmal, Mizzi, c. 20, s. 504
324 Sualatul-Bərqani lid-Darəqutni, Bərqani, s. 52
325 Nuzhətun-nəzər, İbn Həcər, s. 141

etdikdən sonra bunu üçüncü mərtəbədə qərarlaşdırır: *"Ardınca gəlir: "Doğruluq məhəllidir", "şeyx ondan rəvayət edib", "hədisi rəvayət olunur", "diqqətə alınır", "orta səlahiyyətli hədis rəvayət edir", "yaxın hədislər söyləyir", "hədisləri yaxşıdır".*[326]

Bütün bu deyimləri eyni ədalət mərtəbəsində yerləşdirir.

Əli ibn Abisi bir dəstə şəxs isə yalnız Əlinin (ə) fəzilətlərinə dair onların "qəribə" və "inkar olunan" adlandırdıqları "Quş", "Fədək" və barəsində söhbət açdığımız ayənin nazil olması ilə bağlı "Qədir-Xum" kimi hədisləri nəql etdiyinə görə zəif hesab edib.[327]

– **Əbülcəhhaf.** Zəhəbi onun barəsində deyir: *"Əhməd və Yəhya onu etibarlı (siqə) sayıb. Əbu Hatəm deyir: "Saleh hədislidir, azdır".*[328]

– **Ətiyyə Ovfi.** Buxari "əl-Ədəbul-mufrəd"də ondan rəvayət nəql edib. Həmçinin o, Əbu Davud, Tirmizi və İbn Macənin də ravilərinin arasındadır. İbn Həcər "ət-Təqrib"də onun barəsində deyir: *"Doğru danışandır, çox xəta edir".*[329]

Mizzi Ətiyyə Ovfinin tərcümeyi-halında yazır: *"Abbas Duri Yəhya ibn Muinə istinadən deyir: "Saleh şəxsdir".*[330]

Əhməd də "Müsnəd"də onun bir çox rəvayətini nəql etmişdir.

Heysəmi orucun fəzilətləri ilə bağlı Ətiyyə Ovfidən nəql edilən hədisi rəvayət etdikdən sonra deyir: *"Bunu Əhməd rəvayət edib. Ravilərin arasında Ətiyyə ibn Səid var ki, onun barəsində fikirlər söylənib, etibarlı (siqə) sayılıb".*[331]

---

[326] Bulğətul-ədib, Zübeydi, s. 203
[327] Bax: Təhzibut-təhzib, İbn Həcər, c. 7, s. 302
[328] əl-Kaşif, Zəhəbi, c. 1, s. 381
[329] Təqribut-təhzib, İbn Həcər, c. 1, s. 678
[330] Təhzibul-kəmal, c. 2, s. 174
[331] Məcməuz-zəvaid, Heysəmi, c. 3, s. 180

Molla Əli Qari Əbu Hənifənin "Müsnəd"inə yazdığı şərhdə bəzi rəvayətlərin nəql yollarına toxunarkən deyir: *"Bu, Ətiyyə ibn Səid Ovfiyə istinadən də qeyd edilib. O, böyük tabeunlardandır".*[332]

Tirmizi öz "Sünən"ində ondan bir çox rəvayət nəql edib. Ravilərinin arasında Ətiyyə Ovfinin olduğu bəzi hədislərlə bağlı qeydlərində deyir: *"Bu, həsən, qəribə hədisdir".*[333] Həmçinin onun başqa hədislərini də "həsən" sayaraq deyir: *"Bu, həsən hədisdir".*[334] Hətta Tirmizi Ətiyyə Ovfinin ravilərindən olduğu "Cənnətin vəsfi" fəslindəki bütün hədislərin səhih olduğunu da bildirib. Orada deyir: *"Bu, həsən, səhih hədisdir".*[335]

Böyük tabeun Ətiyyə Ovfinin etibarlılığı barədə bu sözlərdən sonra bəzi mənbələrdə onun səbəbsiz və izahsız olaraq zəif hesab edilməsinin heç bir dəyəri qalmır. Çünki hədis elmi qaydalarında qeyd olunur ki, əgər bir ravi barəsində həm müsbət və həm də mənfi rəylər bildirilibsə, mənfi rəy anlaşılmaz səbəbdən və izahsızdırsa rədd edilməli, ona etina olunmamalıdır, barəsində söylənmiş müsbət rəy isə əsas götürülməlidir.

İbn Həcər deyir: *"Ravi barəsindəki mənfi rəy müsbət rəydən üstün tutulmalıdır. Bunu əksər alimlər də dəstəkləyir. Lakin mənfi rəy verdikdə bunun səbəbləri onu tanıyan şəxs tərəfindən bəyan olunmalıdır. Əgər səbəblər izah olunmasa, ədaləti isbat olunmuş şəxs barədə həmin mənfi rəylərə etina olunmaz. Həmçinin əgər mənfi rəyin səbəbləri onu tanımayan şəxs tərəfindən söylənsə, yenə də diqqətə alınmaz".*[336]

Bəlkə də Ətiyyə Ovfini etibarsızlığını iddia edənlər bunu soltanların əmrlərini inkar etdiyi və İmam Əlini (ə) söyməkdən boyun qaçırdığı üçün söyləyiblər. Əgər o, hakimə itaət edib, Həccacla razılaşaraq İmam Əlini (ə) söysəydi onların "etibarlıdır" hökmlərinə məzhər olacaqdı. İbn Həcər İbn

---

[332] Şərhu musnəd Əbu Hənifə, Molla Əli Qari, s. 292

[333] Sünən, Tirmizi, c.1, s. 296

[334] Sünən, Tirmizi, c.2, s. 32, 394; c. 3, s. 228, c. 4, s. 7, 46, 96; c. 5, s. 23, 50, 130 və 137

[335] Sünən", Tirmizi, c. 4, s. 84

[336] Nuzhətun-nəzər, İbn Həcər, s. 143

Səiddən nəql edir: *"Ətiyyə İbn Əşəslə birgə çıxdılar. Həccac Muhəmməd ibn Qasimə məktub yazaraq Ətiyyəyə Əlini söyməyi təklif etməsini, boyun qaçırdığı təqdirdə isə ona dörd yüz qamçı vurmasını və saqqalını qırxmasını söylədi. Muhəmməd ibn Qasim Ətiyyəyə bunu təklif etdikdə o, Əlini söyməkdən boyun qaçırdı. Nəticədə Həccacın onun barəsindəki hökmü tətbiq olundu. Sonra o, Xorasana tərəf yollandı. İraqda Ömər ibn Hübeyrə hakimiyyətə gələnədək Xorasanda qaldı. Həmin vaxt yenidən İraqa qayıtdı və vəfat etdiyi 111-ci ilədək orada yaşadı. İnşallah ki, etibarlı (siqə) idi, onun faydalı hədisləri var".*[337]

Həccacın Ətiyyə Ovfiyə qarşı etdikləri barədə Zəhəbi öz qeydlərində yazır: *"O (r), şiə idi, Həccac rəhm etmədi".*[338]

Deməli, İbn Əbu Hatəmin, Vahidinin, İbn Əsakirin və başqalarının bu rəvayət yolu ilə nəql etdikləri hədisin sənədi səhih, ravilərinin hamısı etibarlıdır (siqədir). Rəvayət isə ***"Ya Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil ediləni təbliğ et"*** ayəsinin Vida Həccinin ardınca, Qədir-Xumda Əli ibn Əbu Talib (ə) haqqında nazil olduğunu bildirir.

Həmçinin Sələbi də "Təbliğ" ayəsinin Qədir-Xum günü İmam Əli (ə) barəsində nazil olduğuna dair dörd fərqli yolla nəql edilmiş rəvayəti qeyd edir.[339] Onları burada təkrarlamağa ehtiyac görmürük.

Çölün ortasındakı bir vadidə bu mübarək ayənin nazil olması bir daha məsələnin əhəmiyyətini və dəyərini təsdiqləyir, Peyğəmbərdən (s) onun Qədir-Xum çölündə təbliğ olunmasını tələb edir. Belə ki, ayədən də anlaşılır ki, əgər Peyğəmbər (s) bunu insanlara çatdırmasa, sanki, o, İslamı ümumiyyətlə təbliğ etməmiş kimidir. Çünki ayənin təbliğ edilməməsi İslamın üzərində dayanıb öz varlığını sürdürəcəyi imamət və vilayət sütunun məhvi deməkdir. İmam Əlinin (ə) ümmətin rəhbərliyinə təyin edilməsi risalətin tamamilə aradan getməsinə şərait yaradacaqdı.

---

[337] Təhzibut-təhzib, İbn Həcər, c. 7, s. 201

[338] Tarixul-İslam, Zəhəbi, c. 7, s. 425

[339] Təfsir, Sələbi, c. 4, s. 92

Çünki Peyğəmbərdən (s) sonrakı ilahi imamət missiyası ümmətə həm dini və həm də siyasi-ictimai rəhbərlik vəzifəsidir.

2. "*Bu gün dininizi sizin üçün kamil etdim*" ayəsinin nazil olması

Bir dəstə Əhli-Sünnə mühəddis və hafizi ***"Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və sizin üçün din olaraq İslamı bəyənib seçdim"***[340] ayəsinin Peyğəmbərin (s) Qədir-Xum xütbəsinin ardınca nazil olduğunu qeyd ediblər. Daha dəqiqi desək, ayə Peyğəmbərin (s) Möminlərin əmiri Əlinin (ə) ümmətə rəhbərlik, vilayət və imamətini çatdırdıqdan sonra enib.

Xətib Bağdadi və başqaları səhih sənədlə Əbu Hüreyrədən nəql olunan hədisi rəvayət edirlər: *"Peyğəmbər (s) Əli ibn Əbu Talibin əlindən tutaraq "məgər mən möminlərin ixtiyar sahibi deyiləm?" deyə buyurdu. Oradakılar "Bəli, ya Peyğəmbər!" cavabını verdilər. Buyurdu: "Mən kimin ixtiyar sahibiyəmsə (mövlasıyamsa) Əli də onun ixtiyar sahibidir (mövlasıdır)". Ömər ibn Xəttab dedi: "Bəh-bəh sənə, Ey Əbu Talibin oğlu! Mənim və bütün müsəlmanların mövlası oldun". Uca Allah* ***"Bu gün dininizi sizin üçün kamil etdim"*** *ayəsini endirdi".*[341]

Bu mübarək ayənin Qədir-Xum xütbəsindən dərhal sonra nazil olması bir daha Peyğəmbərin (s) *"Mən kimin mövlasıyamsa Əli də onun mövlasıdır"* sözünün məhz özündən sonra İmam Əlinin (ə) imamlığını və xəlifəliyini təsdiqləmək üçün söylədiyini göstərir. Çünki "Qədir-Xum" hədisində ümmət üzərindəki imamət və xilafət məqamından savayı dini kamilləşdirəcək və neməti tamamlayacaq uyğun heç bir şey yoxdur. İimamət dinin qorunması, ümmətə rəhbərlik və Peyğəmbərin (s) vəfatından sonra İslam risalətinin məhvdən amanda qalması deməkdir.

---

[340] Maidə, 3

[341] Tarixu Bağdad, Xətib Bağdadi, c. 8, s. 289, Bu hədisin sənədinin səhih olması barədə əvvəldə söhbət açmışıq.

İbn Kəsirin ayənin bu səbəbdən nazil olmasına irad bildirməsi, ayənin cümə günü Ərəfatda nazil olmasını qeyd edən "Səhih"dəki rəvayətlərə zidd olmasını söyləməsi yanlışdır və elmi bəhsdən uzaq iddiadır. İradını və ona verilən cavabı sizə təqdim edirik:

İbn Kəsir öz təfsirində Ömər ibn Xəttabın "İkmal" ayəsinin cümə günü Ərəfatda nazil olması ilə bağlı rəvayətini nəql etdikdən sonra yazır: *"İbn Cərir deyir: "Deyilib ki, bu, camaatın arasında məlum bir gün deyil. Sonra da Ovfi yolu ilə İbn Abbasdan* ***"Bu gün dininizi sizin üçün kamil etdim"*** *ayəsi barədəki sözlərini qeyd edir. Bu, camaat arasında məlum bir gün deyil". Deyilib ki, bu ayə Peyğəmbərə (s) Vida həccinə gedərkən nazil olub. Əbu Cəfər Razi yolu ilə Rəbi ibn Ənəsdən də rəvayət ediblər. Deyirəm: İbn Mərdəveyh Əbu Harun Əbdi yolu ilə Əbu Səid Xudridən bu ayənin Qədir-Xum günü Peyğəmbərin (s) Əli barədə "Mən kimin mövlasıyamsa Əli də onun mövlasıdır" söylədiyi zaman nazil olduğunu nəql edib. Bunu sonra Əbu Hüreyrədən də rəvayət edib. Orada bunun Zil-hiccə ayının on səkkizi, yəni Peyğəmbər (s) Vida həccindən qayıdarkən baş verdiyi bildirilir. Nə bu və nə də digəri doğru deyil. Əksinə, barəsində şübhə olmayan düzgün rəy budur ki, cümə gününə təsadüf edən Ərəfə günü nazil olub".*[342]

Digər bir yerdə isə yazır: *"Zəmurənin İbn Şozəbdən, onun da Mətar Vərraqdan, onun da Şəhr ibn Hoşəbdən, onun da Əbu Hüreyrədən nəql etdiyi hədisə gəldikdə: "Peyğəmbər (s) Əli ibn Əbu Talibin əlindən tutaraq camaata səsləndi: "Mən kimin mövlasıyamsa Əli də onun mövlasıdır"... Uca Allah bu ayəni nazil etdi:* ***"Bu gün sizin dininizi tamamladım..."***

Əbu Hüreyrə deyir: "Zil-hiccə ayının onu səkkizinci günü oruc tutan şəxsə altmış ayın orucu yazılar. Həmin gün Qədir-Xum günüdür". Bu, ciddi şəkildə inkar ediləcək bir hədisdir, nəinki, hətta yalandır. Səbəb isə "Səhih"lərdə möminlərin əmiri Ömər ibn Xəttabdan bu ayənin cümə günü – Ərəfə

[342] Təfsir, İbn Kəsir, c. 2, s. 15

günündə nazil olması ilə bağlı rəvayətdir. Peyğəmbər (s) də həmin gün Ərəfatda idi".[343]

İbn Kəsirin səhih və etimadlı yolla sübuta yetmiş Peyğəmbər (s) sözünə qarşı hücumuna baxmayaraq, qeyd etməliyik ki, bir ayə bəzən təkrar olaraq bir neçə dəfə nazil ola bilirdi. Bunu ayənin şənini ucaltmaq, nazil olma səbəblərini artırmaq və s. kimi səbəbləri ola bilərdi. Alimlər Quran elmləri bəhslərində də bunu qeyd ediblər. Zərkəşi "əl-Bürhan" təfsirində yazır: "Bəzən bir ayə iki dəfə nazil olub. Bu, onun şənini yüksəltmək, yaxud səbəbi baş verərkən bir daha xatırlatmaq, ya da unudulmamaq məqsədi daşıyıb. Necə ki, "Fatihə" surəsi iki dəfə nazil olub – bir dəfə Məkkədə, digər dəfə isə Mədinədə".[344]

Sonra Zərkəşi öz sözlərinə dəlil olaraq bir neçə misal çəkir və "Səhih"lərdə ayələrin nazil olmasının səbəbləri barədə zikr olunmuş müxtəlif rəvayətləri, eləcə də digər mənbələrdəki hədisləri qeyd edir. Başqa bir mənbədə deyilir: *"Bunun bənzəri "Səhiheyn"də də var. Uca Allahın* ***"Səndən ruh barədə soruşurlar"*** *sözü barədə İbn Məsuddan nəql olunur ki, bu ayə bir yəhudinin Peyğəmbərdən (s) ruh haqqında sualına görə Mədinədə nazil olub. Məlumdur ki, bu, "İsra" surəsinin 85-ci ayəsidir, alimlərin yekdil rəyinə əsasən, həmin surə Məkkə surələrindəndir. Müşriklər Peyğəmbərdən (s) həmin vaxt Zülqərneyn və əshabi-Kəhf barədə də soruşmuşdular. Bunu Məkkədə, yəhudilərin təhriki ilə soruşduqları deyilir. Uca Allah da həmin sualların cavabını Quranda endirdi.*

Necə ki, "İxlas" surəsinin də həm müşriklərin Məkkədə, həm də kitab əhlinin Mədinədə verdikləri suala cavab olaraq nazil edildiyi deyilir".

Sonra deyir: *"Bütün bunların hikməti isə beladir: bir sual və ya hadisə səbəbindən ayə nazil olur. Lakin ondan əvvəl də həmin məzmunda ayələr nazil olmuşdur. Ayə də eynilə Peyğəmbərə (s) endirilərək onlara xatırlatma*

---

[343] əs-Sirətun-nəbəviyyə, İbn Kəsir, c. 4, s. 425; əl-Bidayətu vən-nihayə, c. 5, s. 233

[344] əl-Bürhan fi ulumil-Quran, Zərkəşi, c. 1, s. 54

mənası daşıyır ki, bunun məzmunu filan ayədədir... Bir ayənin nazil olma səbəbləri barədə təfsir alimlərinin müxtəlif səbəblər qeyd etməsi bu növdəndir. Xüsusilə də səhabə və tabeunların filan ayə filan səbəbdən nazil oldu dedikləri adəti məlumdur. Belə dedikdə məqsədləri həmin ayənin bu hökmə aid olmasını bildirməkdir. Çünki bu, onun nazil olma səbəblərindən sayılır".[345]

Sözümüzü təsdiqləyən digər bir fakt da "Səhih"lərdə Buxari və Müslimin müəyyən bir ayənin nazil olmasının səbəbi, zamanı və yeri ilə bağlı bir neçə fərqli rəylər qeyd etmələridir. Hətta Buxari və digərləri bir ayənin nazil olma səbəbləri barədə bəzi səhabələrin ixtilaf etdiklərinə dair rəvayətlər nəql ediblər. Buxari "Səhih"də ***"Allah ilə olan əhdlərini və andlarını ucuz bir qiymətə satanların..."***[346] ayəsinin nazil olması barədə zaman, məkan və səbəb baxımından iki fərqli fikir nəql edib:

Birinci: Əşəs ibn Qeysdən rəvayət edir: *"Bu ayə mənim barəmdə nazil oldu. Əmim oğlunun torpağında mənə məxsus bir quyu var idi. Peyğəmbər (s) buyurmuşdu..."*[347]

İkinci: Əbdürrəhman ibn Əbu Ovfidən rəvayət edir: *"Bir kişi bazarda mal satırdı. Bir müsəlmana malını satmaq üçün yalandan ondan əvvəl bu mala filan qədər pul verildiyinə dair and içdi. O səbəbdən* ***"Allah ilə olan əhdlərini və andlarını ucuz bir qiymətə satanların..."*** *ayəsi endi".*[348]

Həmçinin Buxari səhabələrin bəzi ayələrin nazil olma səbəbləri barədə ixtilafa düşdüklərini də yazır. Zeyd ibn Vəhəb yolu ilə nəql edilir: *"Rəbəzədən keçirdim. Əbuzəri (r) gördüm. Ona dedim: "Burada niyə məskunlaşmısan?" Dedi: "Şamda idim, Müaviyə ilə* ***"qızıl-gümüş toplayıb Allah yolunda xərcləməyənlər"*** *ayəsi barədə mübahisəmiz düşdü.*

---

[345] əl-Bürhan fi ulumil-Quran, c. 1, s. 54-56

[346] Ali-İmran, 77

[347] Səhih, Buxari, c. 3, s. 148, "Təfsir" kitabı, hədis 4449

[348] Səhih, Buxari, c. 3, s. 148, "Təfsir" kitabı, hədis 4450

Müaviyə onun kitab əhli barədə, mən isə eyni vaxtda həm bizim və həm də onların barəsində nazil olduğunu söylədim. Aramızda ixtilaf düşdü...”[349]

Eləcə də “Səhih”inin “Həcc” kitabında Aişə ilə Əbu Bəkr ibn Əbdürrəhmanın arasında ***“Həqiqətən, Səfa və Mərvə Allahın əlamətlərindəndir. Evi həcc və ya ümrə yolu ilə ziyarət edən şəxsin bunları təvaf etməsində heç bir günah yoxdur”***[350] ayəsi barədə fikir ayrılığı yarandığını qeyd edir.[351]

Buna əsasən, göründüyü kimi, “İkmal” ayəsinin də iki dəfə nazil ola biləcəyində heç bir problem yoxdur. Bunlardan biri Buxari və Müslimin “Səhih”lərində Ömər ibn Xəttabdan nəql etdikləri kimi Ərəfə günü, digəri isə Qədir-Xum günüdə nazil olmuşdur. Ömər ibn Xəttabın rəvayəti belədir: *“Bir yəhudi ona dedi: “Ey möminlərin əmiri, sizin kitabınızda oxuduğunuz bir ayə var ki, əgər həmin ayə bizə nazil olsaydı o günü bayram qərar verərdik”. Ömər dedi: “O hansı ayədir?” Yəhudi:* ***“Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və sizin üçün din olaraq İslamı bəyənib seçdim”*** *ayəsi”. Ömər: “Biz bu ayənin Peyğəmbərə (s) nazil olduğu zamanı və yeri bilirik. Həmin gün cümə idi və o, Ərəfatda vüquf edirdi”.*[352]

Bəlkə də Ömərin məclisində iştirak edən bu yəhudinin həmin ayəni qeyd etməkdə məqsədi Qədir-Xumu xatırlatmaq idi ki, bununla da ona və oradakı müsəlmanlara ayənin sahibinin yerində əyləşdiklərinə görə etiraz edirdi. Hətta yəhudilərin fikrinə əsasən də, barəsində ayə nazil olmuş şəxsin yerində əyləşmək əvəzinə həmin günü bayram kimi qeyd etmək lazım idi. Lakin xəlifə yəhudinin eyham vurduğu məsələdən diqqəti yayındırmaq üçün onun Ərəfatda nazil olduğunu söyləyir.

---

[349] Səhih, Buxari, c. 1, s. 397, “Zəkat” kitabı, hədis 1402

[350] Bəqərə, 158

[351] Səhih, Buxari, c. 1, s. 448-449, “Həcc” kitabı, hədis 1635; Həmçinin bax: Səhih, Müslim, c. 4, s. 69, “Həcc” kitabı, “Səfa və Mərvə arasındakı səyin bəyanı” fəsli

[352] Səhih, Buxari, c. 1, s. 16, “İman” kitabı; Səhih, Müslim, c. 4, s. 2313

Bununla bərabər, Ömər ibn Xəttabın bu rəvayəti mövzu ilə bağlı varid olmuş həmin məzmundakı digər səhih hədislərlə ziddiyyət təşkil edir. Onlardan ən əhəmiyyətlisi:

A. Təbərani İbn Ləhiə sənədilə Xalid ibn Əbu İmrandan, o da Hənəş ibn Abdullah Sənanidən, o da İbn Abbasdan nəql edir: *"Peyğəmbəriniz (s) bazar ertəsi günü doğulmuş, bazar ertəsi günü Məkkədən hicrət etmiş, Mədinəyə də həmin gündə daxil olmuş, Bədrdə də bazar ertəsi günü qalib gəlmiş, "Maidə" surəsindəki* ***"Bu gün dininizi sizin üçün kamil etdim"*** *ayəsi,.. həmin gün nazil olmuşdur".*[353]

Heysəmi də "Məcməuz-zəvaid"də nəql edərək deyir: *"Bunu Əhməd, eləcə də "əl-Möcəmul-kəbir"də Təbərani qeyd ediblər. Orada əlavə olaraq deyilir: "...Bədrdə də bazar ertəsi günü qalib gəlmiş, "Maidə" surəsindəki* ***"Bu gün dininizi sizin üçün kamil etdim"*** *ayəsi həmin gün nazil olmuşdur". Həmin rəvayətin ravilərinin arasında İbn Ləhiə var ki, o, zəif ravidir. Digər ravilər isə etibarlı (siqə) və "Səhih"in raviləridir".*[354]

Heysəminin sözünün əksinə, İbn Ləhiə etibarlı (siqə) şəxsdir. Onun rəvayətlərini Müslim öz "Səhih"ində, eləcə də Əbu Davud, Tirmizi və İbn Macə nəql ediblər.[355]

Tirmizi onun rəvayətini "həsən",[356] Hakim isə "əl-Müstədrək"də "səhih" saymış, Zəhəbi də "ət-Təlxis"də[357] onunla razılaşmışdır.

Mizzi "Təhzibul-kəmal"da yazır: *"Əbu Übeydullah Aciri həmçinin deyir: "Əbu Davuddan eşitdim ki, Əhməd ibn Hənbəlin belə dediyini eşidib: "Hədislərinin çoxluğu, qeydi və gözəl çatdırması baxımından Misirdə İbn Ləhiə kimi kim var?! Əhməd də ondan bir çox hədis nəql edib".*[358]

---

[353] əl-Möcəmul-kəbir, Təbərani, c. 12, s. 183, "İman" kitabı

[354] Məcməuz-zəvaid, Heysəmi, c. 1, s. 196

[355] Təqribut-təhzib, İbn Həcər, c. 1, s. 526

[356] Sünən, Tirmizi, c. 1, s. 29; c. 3, s. 98, 102; c. 4, s. 244

[357] əl-Müstədrəku ələs-səhiheyn, səhifələrdə Zəhəbinin "ət-Təlxis"indəki qeydlərlə, c. 1, s. 272-273

[358] Təhzibul-kəmal, Mizzi, c. 15, s. 494

İbn Həcər onun haqqında yazır: *"Əbu Əbdürrəhman Misri Qazi doğru danışan şəxsdir, yeddinci təbəqədəndir".*[359]

Başqa bir yerdə isə deyir: *"Saci Əhməd ibn Salehdən rəvayət edir: "Əbu Ləhiə etibarlı (siqə) şəxslərdəndir". İbn Şahin Əhməd ibn Salehin belə dediyini söyləyir: "İbn Ləhiə etibarlıdır (siqədir). Ondan nəql edilən hədislərdə qarışıqlıq var". Məsudi Hakimdən nəql edir: "Məqsədli şəkildə yalan danışmayıb. Kitabları yandırıldıqdan sonra yaddaşında qalanları rəvayət edib, nəticədə xətaya da yol verib".*[360]

Eyni deyir: *"Abdullah ibn Ləhiə Əhməd və Təhavinin nəzərində etibarlıdır (siqədir)".*[361]

Heysəminin özü də İbn Ləhiənin hədislərini bəzən "həsən" sayıb. Bəzi hədislərinə etdiyi qeydlərdə deyir: *"Ravilərin arasında İbn Ləhiə var ki, hədisləri həsəndir".*[362]

Beləliklə hədisin nəql yolunun etibarlı olduğu görünür və "İkmal" ayəsinin bazar ertəsi günü nazil olduğunu isbatlayır. Bu isə Ömər ibn Xəttabdan cümə günü nazil olması barədəki rəvayətlə ziddiyyət təşkil edir.

B. Müslim "Səhih"ində Tariq ibn Şihaba istinadən nəql edir: *"Bir yəhudi Ömərə dedi: "Əgər* ***"Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və sizin üçün din olaraq İslamı bəyənib seçdim"*** *ayəsi biz yəhudilərə nazil olsaydı və onun nazil olduğu günü bilsəydik, həmin günü mütləq bayram təyin edərdik". Ömər dedi: "Mən onun hansı gün, hansı saatda və Peyğəmbər (s) harada olarkən endiyini bilirəm. O, bayram gecəsi nazil olub, biz həmin vaxt Peyğəmbərlə (s) birlikdə Ərəfatda idik".*[363]

---

[359] Təqribut-təhzib, İbn Həcər, c. 1, s. 526
[360] Təhzibut-təhzib, İbn Həcər, c. 5, s. 327
[361] Umdətul-qari, Eyni, c. 7, s. 13
[362] Məcməuz-zəvaid, c. 1, s. 155; c. 4, s. 17, 20, 31, 82 və s.
[363] Səhih, Müslim, c. 4, s. 2313

Bu hədis aydın şəkildə ayənin bayram gecəsi, Peyğəmbər (s) Ərəfatda vüqufu tamamlayıb Müzdələfədən Minaya yola çıxarkən nazil olduğuna dəlalət edir. Bu isə Buxari və Müslimin öz "Səhih"lərində Ömərdən nəql etdikləri rəvayətə ziddir. Belə ki, orada Ömər ayənin Ərəfə günü nazil olduğunu söyləyirdi.

C. Nəsai "Sünən"də səhih sənədlə Qeys ibn Müslim yolu ilə Tariq ibn Şihabdan nəql edir: *"Bir yəhudi Ömərə dedi: "Əgər* ***"Bu gün dininizi sizin üçün kamil etdim..."*** *ayəsi biz yəhudilərə nazil olsaydı həmin günü mütləq bayram təyin edərdik". Ömər dedi: "Mən onun hansı gün nazil olduğunu bilirəm. Bu, cümə gecəsi olub. Biz də həmin vaxt Peyğəmbərlə (s) birlikdə Ərəfatda idik".*[364]

Albani "Səhih Sünən Nəsai" kitabında bu hədisi qeyd edərək deyir: *"Səhihdir".*[365]

D. Buxari "Səhih"ində Tariq ibn Şihab sənədilə nəql edir: *"Bir yəhudi Ömərə dedi: "Siz bir ayə oxuyursunuz ki, əgər o ayə biz yəhudilərə nazil olsaydı həmin günü mütləq bayram təyin edərdik". Ömər dedi: "Mən onun nə vaxt və Peyğəmbər (s) harada olarkən endiyini bilirəm. Bu, Ərəfə günü olub. Allaha and olsun ki, biz Ərəfatda idik".*

Süfyan deyir: "Cümə günü olub-olmadığına şəkk edirəm".[366]

Bu hədis Süfyan Sövrinin ayənin cümə günündə nazil olub-olmadığına şəkk etdiyini göstərir. Bu isə Ömərin ayənin cümə günü nazil olduğu iddiasına ziddir.

Cavabdan hasil olur ki, Buxari və Müslimin "Səhih"lərində ayələrin nazil olma səbəblərinin təyini ilə bağlı nəql edilən rəvayətlərin digər kitablardakı bəzi səhih rəvayətlərə müxalif olması heç də onların inkar və təkzibinə hökm etmir. Əksinə, bu, müəyyən bir ayənin nazil olma səbəblərinin, zaman və məkanlarının bir neçə ola biləcəyini göstərir.

---

[364] Sünən, Nəsai, c. 5, s. 251

[365] Səhih-Sünən Nəsai, Albani, c. 2, s. 342

[366] Səhih, Buxari, c. 3, s. 175, "Təfsir" kitabı

Bunu hər iki "Səhih"də bir ayənin nazil olma səbəbi, zamanı və məkanı haqqında fərqli rəvayətlərin mövcudluğu da təsdiqləyir.

Bundan əlavə, "İkmal" ayəsinin cümə günü və Peyğəmbər (s) Ərəfatda vüquf edərkən nazil olduğunu bildirən Ömərin rəvayəti bu ayənin fərqli zaman və məkanda nazil olduğuna dəlalət edən başqa səhih rəvayətlərin məzmunu ilə uyğun gəlmədiyi də aydınlaşdı.

3. Peyğəmbərin (s) İmam Əli (ə) üçün duası

"Qədir-Xum" hədisinin nəql yolları və kəlmələri barədə söhbətimizdə Peyğəmbərin (s) İmam Əli (ə) üçün belə dua etdiyi qeyd olundu: *"İlahi, onun dostunu dost, düşmənini düşmən tut, onu sevəni sev, ona nifrət edənə nifrət et, ona yardım edənə yardım et, tərk edəni Sən də tənha qoy!"* Heysəmi kimi bəzi rical alimlərinin bu duanı "səhih" saydıqlarını sizə bildirdik. Belə ki, Heysəmi "Məcməuz-zəvaid"də deyir: *"Bunu Bəzzar rəvayət edib. Raviləri "Səhih"in raviləridir, yalnız Fitr ibn Xəlifədən savayı. O, etibarlıdır (siqədir)".*[367]

Duanın özü də mövzunun əhəmiyyətini təsdiqləyən başqa bir amil hesab olunmalıdır. Dua Peyğəmbərə (s) məxsusdur, oradakı bəddualar da İmamın (ə) vilayət məsələsinin təkidinə və onun əhəmiyyətinin bəyanına yönəlib. Peyğəmbər (s) bu duanın vasitəsilə İmam Əliyə (ə) itaətin, ona yardımın və düşmənləri qarşısında onun yanında yer almağın vacibliyini bildirmişdir.

Dua İmama (ə), onun tərəfdarları və yardımçılarına Allahın dəstəyi, onu tənha qoyan və düşmənçilik edənlərin isə zərəri üçün edilib. Bu da İmam Əlinin (ə) vilayətinin və ona itaətin zəruriliyinin bir başqa ifadəsidir. Belə bir dua yalnız o kəslər barəsində həqiqət olar ki, onun yardım edəcək dostları və tərəfdarları, eləcə də qarşı çıxacaq düşmənləri olsun. Çünki o, özünə qarşı çıxacaq və onun rəhbərliyinə boyun

[367] Məcməuz-zəvaid, Heysəmi, c. 9, s. 130

əyməyəcək kəslərin qarşısında yardıma möhtacdır. Bütün bunlar isə yalnız ümmət üzərində xilafət, imamət və vilayət məqamına sahib olan şəxs barəsində mümkündür.

Bu duanın özü İmamın (ə) itaət, vilayət və yardımına dəvət, ona qarşı çıxmaqdan və düşmənçilikdən çəkindirmə növüdür.

Əllamə Əmininin bu barədə çox incə sözləri var. Xülasəsi belədir ki, Peyğəmbər (s) Uca Allahın əmri ilə ümmət üzərində rəhbərinin, öz vəsisinin və özündən sonrakı imamının məqamını bəyan edərkən bilirdi ki, bu məsələ həm ordunu, həm rəyəti və həm də adi camaatı da ehtiva edəcək. Eləcə də onların arasında İmam Əliyə (ə) həsəd edənlərin varlığından da xəbərdar idi. Necə ki, bu, Qurani-Kərimdə də qeyd olunurdu. Həmçinin camaatın arasında İmama (ə) nifrət bəsləyənlər, cahiliyyət dövrünün sevdası ilə düşmənçilik edən münafiqlər var idi. Eləcə də özündən sonra hakimiyyət və üstünlük tamahında olanların istək və iştahalarının artacağını da Peyğəmbər (s) bilirdi. O, Əlinin (ə) haqqını tərk edərək onların istəklərinə yardımçı ola bilməzdi ki, nəticədə təcrübəsiz və ləyaqətsiz kəslər onun üzərinə hakim kəsilsinlər.

Peyğəmbər (s) bu vəziyyəti qısaca belə ifadə edir: *"Əgər Əli ilə məsləhətləşsəniz və sizə (həmin işi) etməməyinizi söyləsə, onun hidayət olunmuş hidayətçi olduğunu görərsiniz".* Başqa kəlmələrlə: "Əgər Əlini xəlifə etsəniz və sizə nə etməyinizi söyləsə, onun hidayət olunmuş hidayətçi olduğunu görərsiniz". Peyğəmbər (s) İmam Əlinin (ə) tərəfdar və yardımçıları üçün dua, düşmənləri üçün isə bəddua etməklə xilafət məsələsini onun üçün tamamlayır. Bununla insanlar bilmədirlər ki, onun dostluğu Allahın dostluğunu, düşmənçiliyi isə Allahın qəzəb və nifrətini cəlb edir, insanı haqqa və haqq əhlinə yaxınlaşdırır.

Belə kəlmələrlə dua yalnız məqam sahibi şəxs üçün edilər. Ona görə də Allahın bir-birlərini sevmələrini vacib buyurduğu mömin fərdləri barədə bu cür ifadələr işlədilməz. Çünki onların bir-birilərinə qarşı olacaq

nifrətləri cüzi məsələ sayılacaq və qeyd edilən həddə yetişməyəcək. Belə bir dua yalnız dinin dayağı, İslamın bayrağı və ümmətin imamı olacaq şəxs üçün edilər. Ondan üz döndərmək haqqa dəstəkdən çəkinmək və İslam zəncirinin halqalarını qırmaqdır.[368]

4. Peyğəmbərin (s) dünyadan köçəcəyini camaata bildirməsi

Peyğəmbər "Qədir-Xum" hədisinin müqəddiməsində buyurur: *"Ey camaat, elə bir peyğəmbər göndərilməyib ki, özündən əvvəlki peyğəmbərdən az yaşamasın. Mənim də (ilahi dərgaha) dəvət olunmağıma və bu dəvətə müsbət cavab verəcəyim vaxta az qalıb".* Bu xəbərdən sonra onlara Möminlərin əmiri Əlinin (ə) vilayətini bəyan edir: "Mən kimin mövlasıyamsa Əli də onun mövlasıdır".

Müqəddimədəki bu sözlər bir daha aydın şəkildə Peyğəmbərin (s) özündən sonrakı xəlifəni açıqlamaq məqsədi güddüyünü və Əlinin (ə) bu vilayətinin başlanğıcının Peyğəmbərin (s) dünyadan ilahi dərgaha rehlətinin ardınca baş verəcəyini göstərir. Məna budur ki, hədisdə bəyan olunan vilayət Peyğəmbərin (s) vəfatından sonra həyata keçəcək. Belə bir vilayət isə xəlifəlik və rəhbərlikdən savayı bir şey ola bilməz. Ancaq Əhli-Sünnənin qeyd etdiyi məhəbbət, yardım və bu mənalarda olan vilayət isə Peyğəmbər (s) həyatda ikən də təsdiqini tapacaq məsələlərdəndir. Nəinki, hər bir mömin üçün təsdiqlənməli hal idi.

5. "Qədir-Xum" və "Səqaleyn" hədislərin kəlmə vəhdəti

"Qədir-Xum" hədisinin kəlmələri "Səqaleyn" hədisi ilə eynilik təşkil edir. "Qədir-Xum" hədisində Peyğəmbər (s) belə buyurduğu qeyd edildi: *"Sizin aranızda iki ağır əmanət qoyuram. Biri digərindən daha böyükdür: Allahın kitabı və itrətim olan Əhli-Beytim. Məndən sonra onlarla necə rəftar*

[368] əl-Ğadir, Əllamə Əmini, c. 1, s. 372-373

edəcəyinizə diqqət yetirin. Onlar Hovuz başında mənə qovuşanadək əsla bir-birindən ayrılmazlar".

Sonra buyurdu: *"Allah mənim, mən isə bütün möminlərin mövlasıyam". Ardınca Əlinin əlindən tutaraq buyurdu: "Mən kimin vəlisiyəmsə bu da onun vəlisidir".*

Bu sözlər Əhli-Sünnə hafizlərinin və hədisşünaslarının bir çox yollar və fərqli kəlmələrlə nəql etdikləri "Səqaleyn" hədisinin eynidir. Yalnız onlarda *"Mən kimin vəlisiyəm (mövlasıyam)..."* sözləri zikr olunmur. Müslim "Səhih"də Zeyd ibn Ərqəmə istinadən yazır: *"Bir gün Peyğəmbər (s) Məkkə ilə Mədinənin arasında yerləşən "Xum" adlanan su mənbələri yaxınlığında bizə xütbə söyləyirdi. Allaha həmd-səna dedikdən və moizə etdikdən sonra buyurdu: "Ey camaat, bilin ki, mən də bir bəşərəm, Rəbbimin elçilərinin gələcəyi və mənim də onlara müsbət cavab verəcəyim vaxt yaxındadır. Sizin aranızda iki ağır əmanət qoyuram. Onlardan birincisi Allahın kitabıdır ki, orada hidayət və nur var. Allahın kitabını götürüb ona möhkəm sarılın".*

Ardınca Allahın kitabına təşviq edərək bizi ona rəğbətləndirdi. Sonra buyurdu: "Və Əhli-Beytim. Əhli-Beytim haqqında sizi Allaha tapşırıram, Əhli-Beytim haqqında sizi Allaha tapşırıram, Əhli-Beytim haqqında sizi Allaha tapşırıram!!!"[369]

Hakim də bu hədisi Zeyd ibn Ərqəmə istinadən nəql edib. Orada deyilir: *"Peyğəmbər (s) buyurdu: "Sizin aranızda iki ağır əmanət qoyuram: Allahın kitabı və Əhli-Beytim. Onlar Hovuz başında yanıma varid olanadək əsla bir-birlərindən ayrılmazlar".*

[369] Səhih, Müslim, c. 4, s. 1873, hədis 2408, "Əli ibn Əbu Talibin (r) fəzilətləri" babı

Ardınca Hakim deyir: *"Bu, Buxari və Müslimin şərtinə əsasən səhih hədisdir, lakin bunu nəql etməyiblər".*[370] Zəhəbi də "ət-Təlxis"də onunla razılaşıb.[371]

Buna oxşar hədisi Əhməd də Əbu Səid Xudriyə istinadən nəql edib.[372]

"Səqaleyn" hədisinin məcrasına diqqət yetirdikdə Peyğəmbərin (s) "Qədir-Xum" hədisi ilə özündən sonrakı xəlifəni təyin etmək məqsədi güddüyü bir daha aydınlaşır. O, ümmətin və İslam dininin həyatında Allahın kitabının və öz Əhli-Beytinin (s) mühüm mövqeyini açıqlayır, həlak olmaqdan nicat tapmaq və Hovuz başında ona qovuşmaq üçün insanları onlara sarılmağa təşviq edir, ardınca Qurandan əsla ayrılmayan itrətinin ilk şəxsini – İmam Əlini (ə) onlar üçün rəhbər təyin edir. Əli (ə) Qurandan, Quran Əlidən, Əli də Qurandan əsla ayrılmayacaq bir şəxsdir. Peyğəmbər (s) başqa bir vaxt müsəlmanlara belə buyurub: *"Əli Quranla, Quran da Əli ilədir. Onlar Hovuz başında yanıma varid olanadək əsla bir-birindən ayrılmazlar".*[373] Hakim deyir: *"Bu, sənədi səhih hədisdir. Əbu Səid Teymi Üqeysadır, etibarlı (siqə) və əmin şəxsdir. Buxari və Müslim bunu nəql etməyiblər".*[374]

Peyğəmbər (s) ümmət üçün öz vəfatından sonra Allahın kitabını və öz itrətini əmanət qoydu. İtrətindən ilk şəxsin İmam Əli (ə) olduğunu da onlar üçün bəyan və izah etdi, əshabına ona itaəti və yardım etmələrini, Qurandan ayrılmayan əmrlərinə itaətsizlikdən çəkinməyi buyurdu.

Deməli, Peyğəmbər (s) ümmətin arasında iki xəlifə buraxdı: Allahın kitabı olan Quran susmuş xəlifə, digəri isə haqqı söyləyən Əli (ə) və özündən sonra onun nəslidir.

---

[370] əl-Müstədrək ələs-səhiheyn, Hakim Nişapuri, c. 3, s. 160, hədis 4711, "Peyğəmbər (s) ailəsinin üstünlükləri".

[371] Həmin mənbə, Zəhəbinin "ət-Təlxis"dəki qeydlərilə

[372] Müsnəd, Əhməd ibn Hənbəl, c. 3, s. 14, hədis 11119, "Əbu Səid Xudriyə istinad olunanlar".

[373] əl-Müstədrək, Hakim Nişapuri, c. 3, s. 124

[374] Həmin mənbə, c. 3, 124

6. İmam Əlinin (ə) "Qədir-Xum" hədisinə əsaslanan çağırışları

Möminlərin əmiri Əlinin (ə) Kufədəki sözləri də bizim dediklərimizi aydın şəkildə təsdiqləyir. Belə ki, o, camaatı və Peyğəmbər (s) səhabələrini bir yerə toplayaraq "Qədir-Xum" hədisini xatırlatmış və onları bunu şahid tutmuşdur. Bunu onun xilafətini inkar edən kəslərə etiraz və əleyhlərinə dəlil olaraq göstərmişdir. Əvvəldə bu hadisəni fərqli və səhih yollarla qeyd etdik.

İmam Əlinin (ə) "Qədir-Xum" hədisini öz xəlifəliyinə dəlil göstərməsi bir daha hədisin məzmununun ümmət üzərindəki xəlifəlik və rəhbərliyə dəlalət etdiyini təsdiqləyir. Əgər hədis xəlifəliyə daha çox haqqı çatdığına dəlil olmasaydı, bu zaman onun dəlil kimi təqdim etmək də doğru olmazdı, xilafətindən boyun qaçıran kəslər də onu rahatlıqla inkar və rədd edərdilər.

Bunu Hakimin "əl-Müstədrək"də İyas Zabiydən nəql etdiyi rəvayətlə də isbatlayır. İyas Zabiy atasından, o da babasından rəvayət edir ki, *"Cəməl savaşında İmam Əli (ə) ilə birlikdə idilər. Təlhə ibn Übeydullahı çağırmaq üçün məni göndərdi. Təlhə onun yanına gəldikdə buyurdu: "Allahı sənə şahid tuturam, Peyğəmbərin (s) belə buyurduğunu eşitməmisən: "Mən kimin mövlasıyamsa Əli də onun mövlasıdır. İlahi, onun dostunu dost, düşmənini düşmən tut!?" Təlhə dedi: "Bəli, eşitmişəm". İmam buyurdu: "Bəs nə üçün mənimlə savaşırsan?" Təlhə "Bunu unutmuşam" deyib çevrilib getdi".*[375]

Əgər "Qədir-Xum" hədisinin İmam Əlinin (ə) xəlifəlik və vilayət haqqına dəlaləti olmasaydı bunu sübut etmək üçün Təlhəyə həmin hədisi dəlil göstərməz, yaxud da Təlhə buna İbn Teymiyyə və ardıcılları kimi etiraz edər və hədisin xilafətlə heç bir əlaqəsinin olmadığını söyləyərdi.

---

[375] əl-Müstədrək, Hakim Nişapuri, c. 3, s. 371

“Qədir-Xum” hədisinin İmam Əlini (ə) sevməklə bağlı olduğu iddiası

“Qədir-Xum” hədisinin İmam Əlinin (ə) ümmət üzərindəki xəlifəlik və imamlığına dəlil olmasına irad bildirən Əhli-Sünnə alimlərinin ən əsas iddiaları hədisdəki vilayətdə məqsədin dostluq və məhəbbət olmasıdır. Bu mənanı dəstəkləmək üçün isə səhih və mötəbər yollarla nəql edilmiş bu rəvayətlərin heç birində zikr olunmamış bir hadisəni qeyd edirlər. Guya ki, Vida həccindən əvvəl Peyğəmbər (s) İmam Əlini (ə) kiçik bir ordunun başında Yəmənə göndərmiş və ordudakı əsgərlərin çoxu ondan şikayət etmişlər. İmam Əli (ə) Peyğəmbərin (s) Vida həccinə yola düşdüyünü eşitdikdə isə özünü Məkkəyə çatdıraraq ona qoşulur. Ardınca isə İmamın (ə) ordusu Məkkəyə yetişir. Onlar İmamdan (ə) Peyğəmbərə (s) şikayət edirlər və o da Qədir-Xum deyilən yerdə hamını toplayaraq məlum hədisi söyləyir.

Qarşıda qeyd edəcəyimiz kimi, bu rəvayətin kökü İbn Rükanəyə yetişir.

Beyhəqi “Dəlailun-nübuvvə”də İmam Əlinin (ə) ordusunun Peyğəmbərə (s) şikayət etdiklərini iki istinadla qeyd edir:

Birinci: Əbu Abbas yolu ilə İbn Əbu Ümrədən, o da İbn Rükanədən nəql edir. Bu rəvayətin sənədinin zəif və dəlalətinin aydın olmadığına baxmayaraq, “əl-İtiqad” kitabında da ordunun Məkkədə Peyğəmbərə (s) şikayət etməsinə dəlil kimi təqdim edib. Qarşıda buna da toxunacağıq.

İkinci: Əbu Səid Xudriyə istinadən nəql edib. Beyhəqi bu rəvayətin də sənədinin zəifliyinə və dəlalətinin aydın olmamasına baxmayaraq, bu dəfə həmin şikayətin Vida həccindən sonra Mədinədə baş verdiyini qeyd edir.

“Dəlailun-nübuvvə” kitabında Beyhəqi yazır: *“Əbu Abdullah bizə təkbaşına Əbu Abbasdan, o da Yəhya ibn Abdullah ibn Əbu Ümrədən, o da Yəzid ibn Təlhə ibn Yəzid ibn Rükanədən rəvayət edir: “Əli ibn Əbu Talibin (r) Yəməndə rəhbəri olduğu ordusu ona qəzəblənmişdi. Belə ki, oraya*

yetişdikdə Əli (r) onların üzərində bir nəfəri rəhbər qoyaraq Peyğəmbərin (s) yanına qayıtmışdı. Həmin şəxs də rəhbərliyindən istifadə edərək əsgərlərə (zəkatdan götürdükləri) müəyyən libaslar geyindirmişdi. Məkkəyə yaxınlaşdıqlarında Əli ibn Əbu Talib (r) onları qarşılamağa çıxdı və üzərilərindəki bu libasları görüb dedi: "Bunlar nədir?" Əsgərlər "bizə bunu filankəs geyindirmişdir" deyə cavab verdilər. Əli ibn Əbu Talib (r) onu danlayıb bu hərəkətinin səbəbini soruşdu. Ardınca onların bu libaslarını soyundurdu. Əsgərlər Peyğəmbərin (s) yanına gəldikdə məsələdən ona şikayət etdilər. Peyğəmbər (s) onları barışdırdı. Belə ki, Əli cizyə (zəkat) toplamağa göndərilmişdi".[376]

Həmçinin Beyhəqi "Dəlailun-nübuvvə"də yazır: *"Əbülhüseyn Muhəmməd ibn Hüseyn ibn Muhəmməd ibn Fəzl Qəttan bizə Bağdadda Əbu Səhl ibn Ziyad Qəttandan, o da Əbu İshaqdan, o da İsmail ibn İshaq Qazidən, o da İsmail ibn Əbu Üveysdən, o da qardaşından, o da Süleyman ibn Bilaldan, Səid ibn İshaq ibn Kəb ibn Ücrədən, o da bibisi Zeynəb bint Kəb ibn Ücrədən, o da Əbu Səid Xudridən nəql edir ki, Peyğəmbər (s) Əli ibn Əbu Talibi Yəmənə göndərmişdi. Əbu Səid deyir: "Mən də onunla birlikdə gedənlərin arasında idim. Sədəqə olaraq dəvələr götürdü. Biz də öz dəvələrimizin istirahət etməsi üçün onlara minməyi xahiş etdik. Belə ki, dəvələrimizin əldən düşdüyünü görürdük. Lakin onları bizə verməkdən imtina edib dedi: "Sizin də digər müsəlmanlar kimi ondan yalnız bir payınız var".*

Əli sədəqələri toplayıb üzərimizə bir nəfəri rəhbər təyin etdi, özü isə Həccə yetişmək üçün tələsik Yəməndən ayrıldı. Həccini başa vurduqdan sonra Peyğəmbər (s) ona buyurdu: "Əshabının yanına qayıt, onları qarşıla".

Əbu Səid deyir: *"Bizə rəhbər təyin etdiyi şəxsdən dəvələrimizə istirahət vermək üçün sədəqə götürülən dəvələrə minməyimizi xahiş etdik. O da buna icazə verdi. Əli bizi qarşıladıqda mindiyimiz dəvələrin arasında zəkatdan*

---

[376] Dəlailun-nübuvvə, Beyhəqi, c. 5, s. 395, Əbdülmüti Qələcinin şərh və təhqiqi ilə

olanları gördü və buna izn verən şəxsi məzəmmət edərək danladı. Mən öz-özümə dedim: "And olsun ki, inşallah, biz Mədinəyə qayıtdıqda onun bizə qarşı sərtliyini və yaratdığı çətinliyi Peyğəmbərə (s) xəbər verəcəyəm".

Mədinəyə gəldikdə Peyğəmbərin (s) yanına gedib edəcəyimə and içdiyim məsələni yerinə yetirmək istədim. Əbu Bəkrin Peyğəmbərin (s) yanından çıxdığını gördüm. Onunla salamlaşdıq, bir-birimizdən hal-vəziyyəti soruşduq. Məndən nə vaxt gəldiyimi soruşduqda "Dünən axşam" deyə cavab verdim. Mənimlə Peyğəmbərin (s) yanına qayıtdı, içəri girib "Səd ibn Malik ibn Şəhid gəlib" dedi. Peyğəmbər (s) "izn ver gəlsin" buyurdu. İçəri keçib Peyğəmbərə (s) salam verdim, yaxınlaşıb məni salamladı, özümün və ailəmin halını xəbər aldı. Mən də xoşhal olub cavab verdim. Sonra dedim: "Ya Peyğəmbər, Əlidən gördüyümüz bu sərtlik, pis yoldaşlıq və çətinliklər nədir?!" Peyğəmbər (s) üzünü kənara çevirdi və mən Əlinin etdiklərini bir-bir sadalamağa başladım. Sözümün ortasına yetişmişdim ki, yaxınlığımda əyləşən Peyğəmbər (s) buduma vuraraq buyurdu: "Ey Səd ibn Malik Şəhid! Yetər, qardaşın Əli barədə qalan sözlərini saxla. Allaha and olsun ki, onun Allah yolunda sərt olduğunu bilirəm".

Öz-özümə dedim: "Anan ölsün, ey Səd ibn Malik!" Həmin gündən bəri ona ikrah duymadım, gizlində və aşkarda pis yad etmədim".[377]

"əl-İtiqad" kitabında yazır: *"Vilayət" hədisinə gəldikdə, sənədi səhih də olsa, orada Peyğəmbərdən (s) sonra Əlinin vilayətinə dəlalət edəcək heç bir şey yoxdur. "əl-Fəzail" kitabında onun nəql yollarını qeyd edib, Peyğəmbərin (s) sözlərindəki məqsədi açıqlamışıq. Belə ki, onu (İmam Əlini) Yəmənə göndərmiş, ardınca ondan şikayətlər çoxalmış və etirazlar baş qaldırmışdı. Peyğəmbər (s) də "Mən kimin mövlasıyamsa Əli də onun mövlasıdır" deməklə özünə olan yaxınlığını və ona qarşı məhəbbətini xatırlatmış, onları*

[377] Dəlailun-nübuvvə, Beyhəqi, c. 5, s. 398-399, Əbdülmüti Qələcinin şərh və təhqiqi ilə

da Əliyə qarşı sevgi və dostluğa təşviq etmiş, düşmənçilikdən çəkindirmişdi".[378]

İbn Kəsir "əs-Sirətun-nəbəviyyə" və "əl-Bidayətu vən-nihayə" kitablarında Əbu Səid Xudri yolu ilə şikayətin Vida həccindən sonra Mədinədə baş verdiyini bildirən Beyhəqinin rəvayətini nəql etmiş, sənədinin səhih olduğunu söyləmişdir.

Ardınca isə İbn Rükanənin hədisini İbn İshaq, İbn Əbu Ümrə yolu ilə qeyd edib, sənədinə etiraz bildirməyib. Lakin rəvayətin məzmununu Beyhəqinin "əl-İtiqad" kitabında öz iddiasına dəlil göstərdiyi İbn Rükanənin Əbülfəzl yolu ilə nəql etdiyi rəvayətin məzmununa olduqca yaxın zikr edib.

İbn Kəsir "əs-Sirətun-nəbəviyyə"də deyir: *"Beyhəqi yazır: "Əbülhüseyn Muhəmməd Fəzl Qəttan bizə Əbu Səhl ibn Ziyad Qəttandan, o da İsmail ibn Əbu Üveysdən, o da qardaşından, o da Süleyman ibn Bilaldan, Səid ibn İshaq ibn Kəb ibn Ücrədən, o da bibisi Zeynəb bint Kəb ibn Ücrədən, o da Əbu Səid Xudridən nəql edir ki, Peyğəmbər (s) Əli ibn Əbu Talibi Yəmənə göndərmişdi. Əbu Səid deyir: "Mən də onunla birlikdə gedənlərin arasında idim. Sədəqə olaraq dəvələr götürdü. Biz də öz dəvələrimizin istirahət etməsi üçün onlara minməyi xahiş etdik. Belə ki, dəvələrimizin əldən düşdüyünü görürdük. Lakin onları bizə verməkdən imtina edib dedi: "Sizin də digər müsəlmanlar kimi ondan yalnız bir payınız var".*

Əli sədəqələri toplayıb üzərimizə bir nəfəri rəhbər təyin etdi, özü isə Həccə yetişmək üçün tələsik Yəməndən ayrıldı. Həccini başa vurduqdan sonra Peyğəmbər (s) ona buyurdu: "Əshabının yanına qayıt, onları qarşıla".

Əbu Səid deyir: "Bizə rəhbər təyin etdiyi şəxsdən dəvələrimizə istirahət vermək üçün sədəqə götürülən dəvələrə minməyimizi xahiş etdik. O da buna icazə verdi. Əli bizi qarşıladıqda mindiyimiz dəvələrin arasında zəkatdan olanları gördü və buna izn verən şəxsi məzəmmət edərək danladı. Mən öz-

---

[378] əl-İtiqad, Beyhəqi, s. 354

özümə dedim: "And olsun ki, inşallah, biz Mədinəyə qayıtdıqda onun bizə qarşı sərtliyini və yaratdığı çətinliyi Peyğəmbərə (s) xəbər verəcəyəm".

Mədinəyə gəldikdə Peyğəmbərin (s) yanına gedib edəcəyimə and içdiyimi yerinə yetirmək istədim. Əbu Bəkrin Peyğəmbərin (s) yanından çıxdığını gördüm. Onunla salamlaşdıq, bir-birimizdən hal-vəziyyəti soruşduq. Məndən nə vaxt gəldiyimi soruşduqda "Dünən axşam" deyə cavab verdim. Mənimlə Peyğəmbərin (s) yanına qayıtdı, içəri girib "Səd ibn Malik ibn Şəhid gəlib" dedi. Peyğəmbər (s) "izn ver gəlsin" buyurdu. İçəri keçib Peyğəmbərə (s) salam verdim, yaxınlaşıb məni salamladı, özümün və ailəmin halını xəbər aldı. Mən də xoşhal olub cavab verdim. Sonra dedim: "Ya Peyğəmbər, Əlidən gördüyümüz bu sərtlik, pis yoldaşlıq və çətinliklər nədir?!" Peyğəmbər (s) üzünü kənara çevirdi və mən Əlinin etdiklərini bir-bir sadalamağa başladım. Sözümün ortasına yetişmişdim ki, yaxınlığımda əyləşən Peyğəmbər buduma vuraraq buyurdu: "Ey Səd ibn Malik Şəhid! Yetər, qardaşın Əli barədə qalan sözlərini saxla. Allaha and olsun ki, onun Allah yolunda sərt olduğunu bilirəm".

Öz-özümə dedim: "Anan ölsün, ey Səd ibn Malik!" Həmin gündən bəri ona ikrah duymadım, gizlində və aşkarda pis yad etmədim".[379]

Bunun sənədi Nəsainin şərtinə əsasən yaxşıdır (ceyyiddir), altı səhih kitab sahiblərindən heç biri bunu nəql etməyiblər.

Yunus Muhəmməd ibn İshaqdan, o da Yəhya ibn Abdullah ibn Əbu Ömərdən, o da Yəzid ibn Təlhə ibn Yezid ibn Rükanədən rəvayət edir: "Əli ibn Əbu Talibin (r) Yəməndə rəhbəri olduğu ordusu ona qəzəblənmişdi. Belə ki, oraya yetişdikdə Əli (r) onların üzərində bir nəfəri rəhbər qoyaraq Peyğəmbərin (s) yanına qayıtmışdı. Həmin şəxs də rəhbərliyindən istifadə edərək əsgərlərə müəyyən libaslar geyindirmişdi. Məkkəyə yaxınlaşdıqlarında Əli ibn Əbu Talib (r) onları qarşılamağa çıxdı və

---

[379] Dəlailun-nübuvvə, Beyhəqi, c. 5, s. 398-399, Əbdülmüti Qələcinin şərh və təhqiqi ilə

üzərilərindəki bu libasları görüb dedi: "Bunlar nədir?" Əsgərlər "bizə bunu filankəs geyindirmişdir" deyə cavab verdilər. Əli ibn Əbu Talib (r) onu danlayıb bu hərəkətinin səbəbini soruşdu. Ardınca onların bu libaslarını soyundurdu. Əsgərlər Peyğəmbərin (s) yanına gəldikdə məsələdən ona şikayət etdilər. Peyğəmbər (s) onları barışdırdı. Belə ki, Əli cizyələri toplamağa göndərilmişdi".

Deyirəm: Bunun məzmunu Beyhəqinin rəvayətinin məzmunu ilə eynidir. Belə ki, Əli Həcc mərasiminə yetişmək üçün onlardan əvvəl Məkkəyə gəlmiş və özü ilə qurbanlıq heyvan gətirmiş, Peyğəmbərlə (s) birlikdə təlbiyə söyləmişdi.

Bərra ibn Azibin rəvayətində isə: "Ümrə ilə Həcci yerinə yetirmiş və qurbanlıq heyvan gətirmişəm" deyib.

Məqsəd bu idi ki, ordudakı hadisələr və onlara dəvələrini dəyişməyə izn verməməsi ilə bağlı Əlinin barəsində söz-söhbət çoxalmışdı. Naibinin sədəqədən olan libasları orduya geyindirməsindən sonra Əlinin onları çıxarmalarını əmr etməsi bu qəzəbi daha da artırmışdı. Lakin onun etdikləri üzrlü idi. Buna baxmayaraq, hacıların arasında söhbət yayılırdı. Ona görə də (doğrusunu Allah bilir!) Peyğəmbər (s) ibadət əməllərini başa vurub Vida həccindən qayıdarkən Qədir-Xum *vadisindən keçmiş, xütbə söyləmiş, Əliyə bəraət qazandıraraq şənini ucaltmış və fəzilətlərini xatırlamışdır. Bununla da bir çox insanın nəfsində özünə yer açmış söz-söhbəti aradan qaldırmışdı".*[380]

Bunlar iddianın xülasəsi və istiqamətləridir.

[380] əs-Sirətun-nəbəviyyə, İbn Kəsir, c. 4, s. 204-206

“Qədir-Xum” hədisinin İmam Əlini (ə) sevməklə bağlı olduğu iddiasının müzakirəsi

Bu iddiaya bir neçə cavab verilmişdir. Onlardan bəzilərinə müxtəsər şəkildə nəzər salaq:

Birinci müzakirə

İbn Kəsir və Beyhəqinin qeyd etdikləri səbəblərlə Qədir-Xum hadisəsi və orada söylənən “mövla” kəlməsi ilə “dost” mənasının arasında tək bir bağlılığın olması vacib deyil. Belə ki, Peyğəmbərin (s) məqsədinin həm bu şikayətləri aradan qaldırmaq, həm də onun imamət və xilafətini bəyanı etmək olmasında heç bir maneə yoxdur.

Peyğəmbərin (s) yalnız şikayətlər səbəbindən *“Mən kimin mövlasıyamsa Əli də onun mövlasıdır”* deməsi bu kəlmələri təkcə dostluq mənasına daşımır. Xüsusilə qeyd edilməlidir ki, Peyğəmbərin (s) İmam Əliyə (ə) qarşı dostluq və məhəbbəti Qədir-Xum hadisəsindən əvvəl də məlum idi, səhabələr və müsəlmanlar da bundan xəbərdar idilər. Peyğəmbər (s) bunu tam aydın şəkildə açıqlamış, Xeybər fəthində buyurduğu kimi: *“...Allah və rəsulu onu, o da Allahı və rəsulunu sevir”* deyə bəyan etmişdi. Bu sevgi səbəbindən səhabələr ona qibtə edirdilər.

Buxari “Səhih”də Sələmə ibn Əkvə yolu ilə rəvayət edir: *“Xeybər savaşı günü Əli (r) Peyğəmbərin (s) ordusundan geridə qalmışdı. Həmin gün gözlərində ağrı var idi. “Mən geridə qaldım” deyərək yola çıxdı və Peyğəmbərə (s) yetişdi. Xeybərin fəth ediləcəyi günün gecəsi idi. Peyğəmbər (s) buyurdu: “Sabah bayrağı elə bir şəxsə verəcəyəm ki (və ya dedi: elə bir şəxs götürəcək ki), Allah və rəsulu onu sevir (və ya belə buyurdu: Allahı və rəsulunu sevir). Allah ona fəthi nəsib edəcək”. Gözləri ağrıdığından bu*

şəxsin Əli olacağına ümid etmirdik. Dedilər: "Həmin şəxs Əlidir". Peyğəmbər (s) bayrağı ona verdi və o, Xeybəri fəth etdi".[381]

Həmçinin Buxari "Səhih"ində Əbu Hazib yolu ilə Səhldən rəvayət edir: *"Peyğəmbər (s) Xeybər savaşı günü buyurdu: "Sabah bayrağı elə bir şəxsə verəcəyəm ki, Allah onun əli ilə fəth nəsib edəcək. O, Allahı və rəsulunu, Allah və rəsulu da onu sevir".*

Camaat gecəni bayrağın kimə veriləcəyi fikri ilə keçirdi. Onların hamısı həmin şəxsin özləri olmasını istəyirdilər.

Peyğəmbər (s) buyurdu: "Əli haradadır?" Onun gözlərindən narahatlığı olduğu deyildi. Peyğəmbər (s) onun gözlərinə tüpürdü və dua etdi. Gözündəki narahatlıq aradan getdi, sanki, heç bir ağrısı olmamışdı. Ardınca bayrağı ona verdi".[382]

Buxarinin kitabında yer verdiyi *"O, Allahı və rəsulunu, Allah və rəsulu da onu sevir"* hədisini hələ Qədir-Xum hadisəsindən illər öncə bütün müsəlmanlar eşitmiş və əzbərləmişdilər. Belə ki:

A. Peyğəmbər (s) İmam Əli (ə) üçün bu üstün fəziləti Xeybər savaşında söyləmişdir. Həmin savaşda bütün səhabələr və müsəlmanlar iştirak edirdilər. Bu hadisə Xeybərin fəthi üçün iki ardıcıl uğursuz hücumdan sonra baş vermişdi. Səhih yollarla nəql edilmiş digər rəvayətlər buna dəlalət edir.

B. Peyğəmbər (s) İmam Əlinin (ə) bu üstünlüyünü bəyan etməzdən əvvəl müxtəsər olaraq bayrağı sabah Allahı və rəsulunu sevən, Allah və rəsulunun da onu sevdiyi bir şəxsə verəcəyini bildirir. Bu vəsfi ümumi olaraq orada iştirak edən hər bir müsəlmana şamil etmək mümkün idi. Ona görə də hər biri bayrağın özünə verilməsini arzulayırdı. Peyğəmbər

---

[381] Səhih, Buxari, c. 3, s. 1086, hədis 2812, "Peyğəmbərin (s) bayrağı haqqında deyilənlər" babı; s. 1357, hədis 3499, "Əli ibn Əbu Talib Qüreyşi Haşimi Əbülhəsənin (r) fəzilətləri" babı.

[382] Səhih, Buxari, c. 3, s. 1096, hədis 2847; s. 1357, hədis 3498, "Əli ibn Əbu Talib Qüreyşi Haşimi Əbülhəsənin (r) fəzilətləri" babı

(s) həmin müxtəsər müqəddimədən sonra İmam Əlinin (ə) həmin fəzilətini bəyan edir. Bunu Müslim "Səhih"ində Səd ibn Əbu Vəqqas yolu ilə belə nəql edir: *"Xeybər savaşı günü Peyğəmbərin (s) belə buyurduğunu eşitdim: "Bayrağı elə bir şəxsə verəcəyəm ki, o, Allahı və rəsulunu, Allah və rəsulu da onu sevir". Biz bayrağa tərəf can atırdıq. Peyğəmbər (s) "Əlini yanıma çağırın" deyə buyurdu. Onu gətirdilər, gözlərində ağrısı var idi. Peyğəmbər (s) onun gözlərinə tüpürdü, bayrağı ona verdi və Allah onun əli ilə fəthi bəxş etdi.* ***"De: "Gəlin biz də oğlanlarımızı, siz də oğlanlarınızı; biz də qadınlarımızı,.."*** *ayəsi nazil olduqda Peyğəmbər (s) Əlini, Fatiməni, Həsəni və Hüseyni çağırıb buyurdu: "İlahi, mənim əhlim (ailəm) bunlardır".*[383]

Həmçinin Əbu Hüreyrə yolu ilə nəql edir: *"Ömər ibn Xəttab dedi: "Rəhbərliyi sevmirəm, ancaq həmin gün onu (bayrağın mənə verilməsini) arzulayırdım. Çağırılmaq üçün boylanırdım. Peyğəmbər (s) isə Əli ibn Əbu Talibi çağırıb bayrağı ona verdi".*[384]

Bütün bunlar göstərir ki, Peyğəmbər (s) İmam Əli (ə) barədəki bu sözləri hər bir səhabə və müsəlmanın eşidib dərk etməsinə və anlamasına xüsusi diqqət yetirmişdir.

Bu məsələlər bir daha aydın şəkildə *"...o, Allahı və rəsulunu, Allah və rəsulu da onu sevir"* sözü ilə Allah və Peyğəmbərin (s) məhəbbət və dostluğunun Qədir-Xumdan əvvəl də İmam Əli (ə) üçün təsdiqləndiyinə dəlalət edir. Səhabələr və müsəlmanlar bunu bilir və ona qibtə edirdilər. Necə ki, bunu Müslim "Səhih"də Səd ibn Əbu Vəqqasa istinad edilən hədisdə qeyd edib: *"Müaviyə ibn Əbu Süfyan Səd ibn Əbu Vəqqasa Əlini söyməyi əmr edib dedi: "Əbu Turabı söyməyə sənə nə mane olur?" Səd dedi: "Peyğəmbərin (s) onun barəsində söylədiyi üç şeyə görə onu əsla söymərəm. Əgər onlardan biri məndə olsaydı, bu mənə qırmızı dəvələrə sahib*

---

[383] Səhih, Müslim, c. 3, s. 1433, hədis 1807, "Zi Qərəd və digər savaşlar" babı

[384] Səhih, Müslim, c. 4, s. 1871, hədis 2405, "Əli ibn Əbu Talibin (r) fəzilətləri" babı

olmaqdan daha sevimli olardı. Peyğəmbər (s) savaşlardan birinə yola düşərkən onu öz yerinə təyin etmişdi. Əli demişdi: "Ya Peyğəmbər, məni qadın və uşaqlarla birlikdə qoyub gedirsən?" Peyğəmbər (s) isə cavabında ona buyurmuşdu: "Mənə Harunun Musaya olan nisbətində olmağına razı deyilsənmi? Yalnız məndən sonra peyğəmbərlik yoxdur".

Xeybər savaşı günü isə belə buyurduğunu eşitdim: "Bayrağı elə bir şəxsə verəcəyəm ki, o, Allahı və rəsulunu, Allah və rəsulu da onu sevir". Biz bayrağı almaq üçün boynumuzu uzadırdıq. Peyğəmbər (s) isə Əlini çağırmalarını buyurdu. Əlini gətirdilər, onun gözlərində ağrı var idi. Peyğəmbər (s) onun gözlərinə tüpürüb bayrağı ona verdi və Allah fəthi nəsib etdi.

"De: "Gəlin biz də oğlanlarımızı, siz də oğlanlarınızı; biz də qadınlarımızı,.." *ayəsi nazil olduqda Peyğəmbər (s) Əlini, Fatiməni, Həsəni və Hüseyni çağırıb buyurdu: "İlahi, mənim əhlim (ailəm) bunlardır".*[385]

"Qədir-Xum" və "Bayraq" hədislərinə insaf gözü ilə baxanlar onların eyni tərzdə olmadıqlarını, hər birinin özünəməxsus məna daşıdığını görəcəklər. Birinci hədis Peyğəmbərdən (s) sonra İmam Əlinin (ə) vilayət, imamət və xilafətini isbatlayırsa, ikinci hədis Allah və Rəsulunun İmam Əliyə (ə) qarşı olan məhəbbətlərini, İmamın (ə) isə onlara olan xalis itaətini sübuta yetirir.

Hətta "Bayraq" hədisi də *"Bayrağı elə bir şəxsə verəcəyəm"* sözləri ilə İmam Əlinin (ə) imamətinə dəlalət edir. Ömər ibn Xəttabın həmin vaxtlarla bağlı dediyi *"Rəhbərliyi sevmirəm, ancaq həmin gün onu (bayrağın mənə verilməsini) arzulayırdım",* eləcə də: *"Çağırılmaq üçün boylanırdım"* sözləri bunu təsdiqləməkdədir.

Peyğəmbərin (s) Xeybər günü hədisdə qeyd edilən xüsusi diqqətlə rəhbərliyi İmam Əliyə (ə) verməsi bir daha onun imamətinə dəlalət edir.

---

[385] Səhih, Müslim, c. 4, s. 1870, hədis 2404, "Əli ibn Əbu Talibin (r) fəzilətləri" babı

Peyğəmbər (s) onun imamətinin bəyanı və ondan başqalarının iddiasının rəddi üçün nəzəri dəlillərlə bərabər əməli cəhətləri də bir yerə toplayır:

Nəzəri dəlil: Bu, Allahın və rəsulunun onu, onun da Allahı və rəsulunu sevməsidir. Bu sifət heç bir müsəlmana deyil, yalnız İmam Əliyə (ə) məxsusdur. İbn Həcər "İmam Əlinin Buxarinin "Səhih"indəki fəzilətləri" babında deyir: *"Bu babda yeddi hədis var. Onlardan birincisi Səhl ibn Sədin Xeybərin fəthi barədə hədisidir. Onun şərhi "Qəzvələr" bölümündə qeyd ediləcək. İkincisi Sələmə ibn Əkvənin eyni mənada olan hədisidir ki, onun da şərhinə həmin bölümdə toxunacağıq.*

Bu iki hədisdə Əli barədəki "Allah və rəsulu onu, o da Allahı və rəsulunu sevir" sözü ilə Peyğəmbər (s) bu məhəbbətin varlığının həqiqətini bildirir. Belə ki, bütün müsəlmanlar Allahı və rəsulunu sevməkdə Əli ilə eynidirlər. Həmin sözdə Uca Allahın bu sözünə eyham var: ***"De: "Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin..."***[386] *Sanki, (s) bu sözlər Əlinin Peyğəmbərin ardınca tam şəkildə getdiyinə işarə edərək onu Allah məhəbbətinin məzhəri olaraq vəsf edir. Ona görə də Əlini sevmək imanın, ona nifrət bəsləmək isə münafiqliyin əlaməti sayılır. Necə ki, Müslim Əlinin özündən nəql edib: "Toxumu yarıb məxluqları yaradana and olsun, Peyğəmbər (s) mənə xəbər verib ki, məni yalnız mömin sevər və ancaq münafiq mənə nifrət bəsləyər". Buna Əhmədin Ümmü Sələmə sənədilə nəql etdiyi hədis də şahidlik edir".*[387]

Əməli cəhətinə gəldikdə, onun üstünlüyü ümmətə rəhbərlik üçün hazırlanmasında və buna layiq olmasında idi. Ona görə də Uca Allah başqasının deyil, məhz onun əli ilə Xeybəri fəth etdirdi. İmam Əlinin (ə) xəlifəliyi dövründə baş qaldırmış üsyan və problemlərin səbəbi də ümmətin vəziyyətindən qaynaqlanırdı. Necə ki, ümmətlərə göndərilmiş peyğəmbərlər (ə) mübarək dəvətləri qarşılığına eyni hallarla

---

[386] Ali-İmran, 31

[387] Fəthul-Bari, İbn Həcər, c. 7, s. 57-58

üzləşmişdilər. Şübhə yoxdur ki, peyğəmbərlər (ə) ümmətə rəhbərlik üçün bütün dini və dünyəvi keyfiyyətlərə sahib idilər. Lakin buna baxmayaraq, onların böyük uğursuzluqlara düçar olduqlarını, bəzilərinin isə ümmətinin məhvi üçün Allaha dua etməyə məcbur qaldıqlarını müşahidə edirik. Onların dualları qəbul olmuş və ümmətləri zülm etdiklərinə görə həlak olmuşdular. Həmçinin İmamın (ə) xəlifəliyi dövründə qarşılaşdığı problemlər də bu qəbildəndir. Onun ilk və son səbəbi ümmətin bir hissəsinin vəziyyəti idi. Əgər ümmət bütünlüklə ona itaət etsəydi, Xeybərdə olduğu kimi, Allah onun mübarək əli ilə ümmətə dünya və axirətdə fəthi nəsib edəcəkdi.

Bəziləri bu iki məsələ barədə mübahisə edib, həmin sifətin təkcə İmama (ə) deyil, bütün möminlərə məxsus olduğunu düşünüblər. İbn Həzm deyir: *"Bu sifət hər bir müsəlman və fəzilətli şəxs üçün təsdiqlənir".*[388]

Bəziləri isə əməli cəhətdən İmam (ə) üçün burada heç də rəhbərlik keyfiyyətinin vurğulanmadığını deyirlər.

Bunlar yanlış və puç düşüncələrdir ki, hədisdən əl götürməyə səbəb ola bilməz. Belə ki, hədisin sənədi güclü, dəlaləti isə açıqdır. Sənədində heç bir şübhə yoxdur. Necə də olmasın, şiə mənbələri bir kənara dursun, Əhli-Sünnənin altı səhih kitabında müxtəlif kəlmələrlə nəql edilib.

Onun dəlaləti də Möminlərin əmiri Əlinin (ə) fəzilətini isbatlamaq üçün olduqca aydındır. Belə ki, orada iştirak edən bütün səhabələr bu xüsusiyyətdən xali idilər. Həmin səhabələrin arasında birinci, ikinci və üçüncü xəlifə də var idi.

Səhabələr bu əzəmətli məqam və ali dərəcənin özlərinə bəxş olunmaq arzusu ilə gecələdilər. Bunu Buxari və Müslimin, eləcə də "Sünən" və "Müsnəd" sahiblərinin nəql etdikləri rəvayətlərdə də görürük. Buxarinin rəvayətində deyilir: *"...Camaat gecəni bayrağın kimə veriləcəyi fikri ilə*

---

[388] əl-Fasl, İbn Həzm, c. 4, s. 243

keçirdi. Onların hamısı həmin şəxsin özləri olmasını istəyirdilər".[389] Başqa bir yerdə isə yazır: *"...Camaat gecəni bayrağın kimə veriləcəyi barədə müzakirə ilə (səs-küylə) keçirdi. Səhər açıldıqda isə hamısı Peyğəmbərin (s) yanına qaçaraq bayrağın özünə veriləcəyinə ümid etdi".*[390] Müslimin Səddən nəql etdiyi rəvayətdə isə deyilir: *"Boynumuzu ona tərəf uzadırdıq".*[391]

Əbu Hüreyrənin yuxarıdakı rəvayətində qeyd olunur: *"Ömər ibn Xəttab dedi: "Rəhbərliyi sevmirəm, ancaq həmin gün onu (bayrağın mənə verilməsini) arzulayırdım. Çağırılmaq üçün boylanırdım..."*[392]

Hədisdə qeyd olunan bu və digər bənzəri kəlmələr səhabələrin Peyğəmbərin (s) bu sözlərində yalnız böyük pay sahibi şəxsin əldə edə biləcəyi əzəmətli bir fəzilətin olduğunu anladıqlarını göstərir. Bu fəziləti əldə etmək üçün Ömər ibn Xəttab can ataraq boylanmış, həmin gün rəhbər olmağı arzulamışdı. Çünki həmin gün rəhbərlik Allahın və Peyğəmbərinin (s) sevgisi olan uca bir məqamla bərabər idi.

Səd ibn Əbu Vəqqasın Müaviyənin əmrini rədd edərək İmam Əlini (ə) söyməkdən boyun qaçırdığını yuxarıda qeyd etdik. Müaviyə ona demişdi: *"Əbu Turabı söyməyə sənə nə mane olur?" Səd dedi: "Peyğəmbərin (s) onun barəsində söylədiyi üç şeyə görə onu əsla söymərəm. Əgər onlardan biri məndə olsaydı, bu mənə qırmızı dəvələrə*[393] *sahib olmaqdan daha sevimli olardı".*[394]

Bu üç fəzilətin arasında "Bayraq" hədisini də qeyd etdi. Bu isə "Bayraq" hədisindən əshabın arzuladığı fəzilətlərin İmam Əli (ə) üçün

---

[389] Səhih, Buxari, c. 3, s. 1096, hədis 2847

[390] Səhih, Buxari, c. 3, s. 1357, hədis 3498; c. 4, s. 1542, hədis 3973. Bu kəlmələri Müslim də öz "Səhih"ində qeyd edib: c. 4, s. 1872, hədis 2406. "Əli ibn Əbu Talibin (r) fəzilətləri" babı

[391] Səhih, Müslim, c. 4, s. 1870, hədis 2404, "Əli ibn Əbu Talibin (r) fəzilətləri" babı

[392] Səhih, Müslim, c. 4, s. 1871, hədis 2405, "Əli ibn Əbu Talibin (r) fəzilətləri" babı

[393] Ərəblərin nəzərində bu, ən üstün maddi nemətdir.

[394] Səhih, Müslim, c. 4, s. 1870, hədis 2404, "Əli ibn Əbu Talibin (r) fəzilətləri" babı

təsdiqləndiyini Sədin də başa düşdüyünü göstərir. Onun fikrinə görə, belə bir fəzilətin qırmızı dəvələrlə müqayisə edilməsi mümkün deyil. Qırmızı dəvələr isə dünya mal-dövləti və sərvət mənasını verir.

Əgər səhabələr "Bayraq" hədisindən belə bir ali məqamı anlayırlarsa, İbn Həzm və onun kimilərin qeyd etdiklərinə əhəmiyyət vermək yersizdir.

İkinci müzakirə

"Məgər mən möminlərə öz canlarından üstün deyiləmmi?" sualı da Peyğəmbərin (s) *"Mən kimin mövlasıyamsa Əli də onun mövlasıdır"* sözlərindəki məqsədi bəyan edən ləfzi (sözlü) bir amildir. Cümlə daxilində belə bir güclü amil var ikən Beyhəqi, İbn Kəsir kimilərin İbn Rükanənin sənədi və dəlaləti zəif olan rəvayətinə əsaslanan xəyali amillərinə müraciət edilməz.

İbn Rükanənin rəvayətinin sənəd baxımından zəif olmasına gəldikdə, mürsəl (sənədsiz) rəvayətdir. Yəzid ibn Təlhə ibn Rükanə tebundur. İbn Həcər "əl-İsabə" kitabında yazır: *"Bu, Yəzid Muhəmməd ibn Təlhə ibn Rükanənin qardaşıdır. Tanınmış tabeundur. İbn Hibban onun adını "əs-Siqat"da etibarlı (siqə) tabeunların arasında qeyd edərək deyir: "Əbu Hüreyrədən nəql edib, Hişam ibn Əbdülməlikin hakimiyyətinin ilk vaxtlarında vəfat edib".*[395]

Ordunun Peyğəmbərə (s) şikayəti zamanı İbn Rükanənin orada iştirak etməsi mümkün deyildi. Buna əsasən, rəvayət mürsəldir. Hədis əhlinin nəzərincə mürsəl rəvayət tabeunun birbaşa Peyğəmbərə (s) istinad etdiyi rəvayətdir. Hakim Nişapuri deyir: *"Hədis şeyxləri mürsəl hədisin ravinin*

[395] əl-İsabə, İbn Həcər, c. 6, s. 562

tabeuna yetişən sənədlə nəql etdiyi rəvayət olduğu barədə ixtilaf etməmişlər. Məsələn, tabeun deyir: "Peyğəmbər buyurur".[396]

İbn Səlah "Müqəddimə"də yazır: *"Mürsəli və onun formasını müəyyən etməyə gəldikdə, ixtilaf yoxdur ki, bu, bir dəstə səhabəni görmüş, onlarla birlikdə olmuş böyük tabeunun hədisidir. Məsələn, Übeydullah ibn Ədiy ibn Xəyyar, Səid ibn Müseyyib və başqaları kimi. Belə bir tabeun "Peyğəmbər (s) buyurur" desə hədis mürsəldir. Məşhur budur ki, bütün tabeunlar bu məsələdə bərabər götürülsün".*[397]

Deməli, termin olaraq mürsəl hədis tabeunların Peyğəmbərdən (s) birbaşa rəvayət etdikləri hədislərə deyilir. Aydın məsələdir ki, tabeunun mürsəl hədisi fəqihlərin, hədis alimlərinin və digərlərinin nəzərində mütləq dəlil hesab olunmur. Nəvəvi "ət-Təqrib"də deyir: *"Alimlər böyük tabeunların "Peyğəmbər (s) filan şeyi buyurur" və ya "Filan işi etdi" sözlərinin mürsəl olduğu barədə həmfikirdirlər. Əgər rəvayətin sənədi bir və ya bir neçə tabeuna çatmadan kəsilərsə, bu barədə Hakim və digərləri deyirlər: "Belə hədis mürsəl sayılmaz. Mürsəl hədislər tabeunun Peyğəmbərdən (s) rəvayət etdiyi hədislərdir. Əgər əvvəlindən bir tabeun zikr olunmasa, bu sənədi qopuq (münqəti) hədis olacaq. Daha çox şəxsin adı zikr edilməsə isə bu həm sənədi qopuq və həm də müşkül hədis sayılacaq... Sonra, mürsəl hədis əksər mühəddislərin, şafeilərin və bir çox fəqihlkərin nəzərində zəif hədisdir".*[398]

Müslim "Səhih"inin müqəddiməsində yazır: *"Mürsəl rəvayətlər bizim və hədis elmi əhlinin sözünə əsasən, dəlil deyil".*[399]

Tirmizi "əl-İləl"də yazır: *"Əgər hədis mürsəldirsə, əksər hədis alimlərinin arasında səhih sayılmır. Bəziləri belə hədisləri zəif hesab etmişlər".*[400]

---

[396] Mərifətu ulumil-hədis, Hakim Nişapuri, s. 25
[397] Müqəddimə, İbn əs-Səlah, (İraqinin qeydlərilə), s. 71
[398] ət-Təqrib, Nəvəvi, s. 159-161
[399] Səhih, Müslim, c. 1, s. 30, Müqəddimə

“əl-Məcmu”da yazır: *“Bizim nəzərimizdə, eləcə də mühəddislərin, əksər fəqihlərin, üsul və nəzər əhlinin nəzərində mürsəl hədis dəlil kimi göstərilməz. Bunu Hakim Əbu Abdullah ibn Bəy Səid ibn Müseyyibdən, eləcə də Malik, bir dəstə hədis alimi və Hicaz fəqihləri qeyd ediblər. Əbu Hənifə və Malik deyiblər ki, Əhməd, bir çox fəqihlər və ya əksəriyyəti deyiblər: “O, dəlil göstərilə bilər”. Ğəzzali də bunu əksəriyyətin adından nəql edib. Əbu Ömər ibn Əbdülbərr və digərləri bildiriblər ki, əgər mürsəl hədis diqqətsiz və ehtiyatsız, eləcə də etibarsız (qeyri-siqə) şəxslərdən nəql edilibsə ona əməl etməyin icazəli olmadığında fikir ayrılığı yoxdur.*

Mürsəl hədisi mütləq şəkildə rədd etməyimizin dəlili budur: Əgər rəvayətdə adı çəkilən məchul şəxs varsa, bunu qəbul etmirik. Səbəb isə onun vəziyyətinin məchulluğudur. Mürsəl rəvayət bundan daha naqisdir. Belə ki, oradakı ravinin həm adı və həm də vəziyyəti bizə məchuldur. Burada mürsəl dedikdə, məqsədimiz sənədində bir və ya daha çox ravinin adı olmayan rəvayətlərdir”.[401]

İbn Həzm deyir: *“Mürsəl hədis – nəql edən ravi ilə Peyğəmbərin (s) arasında bir və ya daha çox ravinin adının qeyd edilmədiyi hədislərdir. Buna həmçinin sənədi qopuq hədis də deyilir. Belə hədis qəbul edilmir, dəlil göstərilmir. Çünki o, məchul şəxsdən rəvayət olunur”.*[402]

Bütün bunlardan aydın olur ki, tabeunun rəvayət etdiyi mürsəl hədis dəlil deyil. Bizim qeyd etdiyimiz rəvayət mürsəldir. Deməli, o da etibardan düşmüş və dəlil olmaq səlahiyyətini itirmişdir.

Həmçinin həmin rəvayətin sənədi Yəhya ibn Abdullah ibn Əbdürrəhman ibn Əbu Ümrəyə səbəbilə zəifdir. Onun barəsində hər hansı bir tərif və ya etibar yaradacaq söz deyilməyib. Bəli, İbn Hibban onun adını “əs-Siqat” kitabında qeyd edib. Lakin Əhli-Sünnənin nəzərində İbn

---

[400] əl-İləl, Tirmizi, (İbn Rəcəb Hənbəlinin Tirmizinin “əl-iləl”inə yazdığı şərhlərlə), s. 171

[401] əl-Məcmu, Nəvəvi, c. 1, s. 61

[402] əl-İhkam fi usulil-əhkam, İbn Həzm, c. 2, s. 135

Hibban ravilərin etibarlılığı barədə ciddi mövqe tutmayıb, ravilərə "siqədir" hökmü verməyə meylli olub. Bir şəxsin etibarlılığında yalnız onun nəzərinə əsaslanmaq mümkün deyil.

Eləcə də rəvayətin sənədi Muhəmməd ibn İshaq ibn Yəsar səbəbindən də zəifdir. Onun nöqsanları və tənqidi barədə çox sözlər deyilib. Bəziləri onu zəif sayaraq hədislərini rədd edib, digərləri isə onu tərifləyərək hədislərini həsən hesab ediblər.[403]

Hədisin sənədində başqa bir müşkül də mövcuddur. Bu, "əs-Sirətun-nəbəviyyə" kitabının müəllifi İbn Kəsirin ravi Muhəmməd ibn İshaqla eyni zamanda yaşadığının sübuta yetməməsidir. İbn İshaqın həyat məlumatlarının onun əli ilə yazılmasında da şəkk var. Bu kimi faktlar həmin rəvayətin puçluğunu və sənəd baxımından qüvvədən düşdüyünü sübuta yetirir.

Dəlalət baxımından rəvayətin zəifliyinə gəldikdə, qeyd edilən rəvayətdə ordunun Məkkəyə yetişdiyinə dair heç bir zahir dəlil yoxdur. Birinci rəvayətdə deyilir: *"Ordu Məkkəyə yaxınlaşdıqda Əli ibn Əbu Talib (r) onları qarşılamağa çıxdı..."* İkinci rəvayətdə: *"Onlar yaxınlaşdıqda Əli ibn Əbu Talib (r) onları qarşılamağa çıxdı, onların üzərində libasları var idi".* İki rəvayətin heç biri ordunun Məkkənin qapısına çatdığını və ya oraya daxil olduğunu bildirmir. Mümkündür ki, ordu Məkkəyə daxil olmadan Mədinəyə qayıdıb və Peyğəmbər (s) Həcdən qayıtdıqdan sonra əsgərlərlə Mədinədə görüşüb. İmam Əli (ə) də ordu ilə Qədir-Xum xütbəsindən sonra görüşmüş ola bilər ki, nəticədə ordunun rəhbərliyini yenidən öz üzərinə götürərək onlarla birlikdə Mədinəyə qayıdır. Peyğəmbər (s) isə onlardan öncə Mədinəyə qayıtmış olub.

Buna Beyhəqinin özünün "Dəlail"də Əbu Səid Xudridən səhih sənədlə nəql etdiyi rəvayət də dəlalət edir: *"Peyğəmbər (s) Əli ibn Əbu Talibi Yəmənə göndərmişdi. Əbu Səid deyir: "Mən də onunla birlikdə gedənlərin*

---

[403] Bax: Təhzibul-kəmal, Mizzi, c. 24, s. 422; Təhzibut-təhzib, İbn Həcər, c. 9, s. 38

arasında idim. Sədəqə olaraq dəvələr götürdü. Biz də öz dəvələrimizin istirahət etməsi üçün onlara minməyi xahiş etdik. Belə ki, dəvələrimizin əldən düşdüyünü görürdük. Lakin onları bizə verməkdən imtina edib dedi: "Sizin də digər müsəlmanlar kimi ondan yalnız bir payınız var".

Əli sədəqələri toplayıb üzərimizə bir nəfəri rəhbər təyin etdi, özü isə Həccə yetişmək üçün tələsik Yəməndən ayrıldı. Həccini başa vurduqdan sonra Peyğəmbər (s) ona buyurdu: "Əshabının yanına qayıt, onları qarşıla".

Əbu Səid deyir: "Bizə rəhbər təyin etdiyi şəxsdən dəvələrimizə istirahət vermək üçün sədəqə götürülən dəvələrə minməyimizi xahiş etdik. O da buna icazə verdi. Əli bizi qarşıladıqda mindiyimiz dəvələrin arasında zəkatdan olanları gördü və buna izn verən şəxsi məzəmmət edərək danladı. Mən öz-özümə dedim: "And olsun ki, inşallah, Mədinəyə qayıtdıqda onun bizə qarşı sərtliyini və yaratdığı çətinliyi Peyğəmbərə (s) xəbər verəcəyəm"

Mədinəyə gəldikdə Peyğəmbərin (s) yanına gedib edəcəyimə and içdiyimi yerinə yetirmək istədim. Əbu Bəkrin Peyğəmbərin (s) yanından çıxdığını gördüm. Onunla salamlaşdıq, bir-birimizdən hal-vəziyyəti soruşduq. Məndən nə vaxt gəldiyimi soruşduqda "Dünən axşam" deyə cavab verdim. Mənimlə Peyğəmbərin (s) yanına qayıtdı, içəri girib "Səd ibn Malik ibn Şəhid gəlib" dedi. Peyğəmbər (s) "izn ver gəlsin" buyurdu. İçəri keçib Peyğəmbərə (s) salam verdim, yaxınlaşıb məni salamladı, özümün və ailəmin halını xəbər aldı. Mən də xoşhal olub cavab verdim. Sonra dedi: "Ya Peyğəmbər, Əlidən gördüyümüz bu sərtlik, pis yoldaşlıq və çətinliklər nədir?!" Peyğəmbər (s) üzünü kənara çevirdi və mən Əlinin etdiklərini bir-bir sadalamağa başladım. Sözümün ortasına yetişmişdim ki, yaxınlığımda əyləşən Peyğəmbər buduma vuraraq buyurdu: "Ey Səd ibn Malik Şəhid! Yetər, qardaşın Əli barədə qalan sözlərini saxla. Allaha and olsun ki, onun Allah yolunda sərt olduğunu bilirəm".[404]

---

[404] Dəlailun-nübuvvə, Beyhəqi, c. 5, s. 398-399, Əbdülmüti Qələcinin şərh və təhqiqi ilə

Bu hədis şikayətin Mədinədə baş verdiyini və Peyğəmbərin (s) Qədir-Xumda bu şikayətdən əvvəl xütbə söylədiyini açıq bəyan edir.

Rəvayətin sənədi mötəbərdir. Bunu İbn Kəsir də etiraf edir. Hədisi Beyhəqinin "Dəlail"indən nəql etdikdən sonra deyir: *"Bunun sənədi yaxşıdır, Nəsainin şərtinə uyğundur".*[405]

Deməli, etibarlı şəxslərdən səhih sənədlərlə nəql edilmiş "Qədir-Xum" hədisindəki "vilayət" kəlməsinin mənası həmin cümlələrin daxilində sözlərin verdiyi mənadır, heç də Beyhəqi və İbn Kəsirin etimad etdikləri ziddiyyətli və sənədi zəif hekayələrdən yozulan məna deyil. Belə ki, "Qədir-Xum" hədisinin aydınlaşdırılması üçün İbn Rükənayə istinad edilən rəvayət sənəd və məzmun baxımından zəifdir, orada hadisənin təsvirinə və ya anlaşılmasına dəlalət edən heç bir amil yoxdur. Əksinə, əleyhinə dəlillər mövcuddur ki, bu da Əbu Səid Xudrinin şikayətin Mədinədə baş verdiyini bildirməsidir.

Bəlkə bu səbəbdən də İbn Kəsir hadisəni təsvir edərkən deyir: *"Buna görə də (Doğrusunu Allah bilir!), Peyğəmbər (s) Vida həccindən qayıtdıqda..."*[406] Deməli, özü də dediyinin doğruluğuna inanmırdı və bunu ehtimal kimi söyləyirdi.

Qəribə olan isə budur ki, Beyhəqi özünün "əl-İtiqad" kitabında Əbu Sədi Xudrinin mötəbər hədisini tərk edərək İbn Rükanənin zəif hədisinə etimad göstərib.

Bundan daha qəribəsi isə, İbn Kəsirin Beyhəqinin kitabından nəql etdiyi Əbu Səid Xudrinin həmin hədisinin səhih olduğunu özünün də qeyd etməsinə baxmayaraq, onu zikr etməməsidir. Deyir: *"Bunun sənədi yaxşıdır".* Bunun əvəzinə İbn İshaq yolu ilə İbn Rükanənin nəql etdiyi rəvayəti əsas götürür. Halbuki özü də onun sənədinin səhihliyini təsdiqləməyərək barəsində sükut edir, Beyhəqinin etimad etdiyi İbn

---

[405] əl-Bidayətu vən-nihayə, İbn Kəsir, c. 5, s. 122; əs-Sirətun-nəbəviyyə, c. 4, s. 205

[406] əl-Bidayətu vən-nihayə, İbn Kəsir, c. 5, s. 123

Rükanənin Əbülfəzl yolu ilə nəql etdiyi rəvayətlə müqayisə edərək qüvvətləndirməyə cəhd göstərir.

İbn Kəsir "əs-Sirətun-nəbəviyyə"də deyir: *"Deyirəm: Bunun məzmunu Beyhəqinin rəvayətinin məzmunu ilə eynidir. Belə ki, Əli Həcc mərasiminə yetişmək üçün onlardan əvvəl Məkkəyə gəlmiş, özü ilə qurbanlıq heyvan gətirmiş və Peyğəmbərlə (s) birlikdə təlbiyə söyləmişdi...*

Məqsəd bu idi ki, ordudakı hadisələrə və onlara dəvələrini dəyişməyə izn verməməsi ilə bağlı Əlinin barəsində söz-söhbət çoxalmışdı. Naibinin sədəqədən olan libasları orduya geyindirməsindən sonra Əlinin onları çıxarmalarını əmr etməsi bunu daha da artırmışdı. Lakin onun etdikləri üzrlü idi. Buna baxmayaraq, hacıların arasında bu barədə söz-söhbət yayılırdı. Ona görə də (doğrusunu Allah bilir!) Peyğəmbər (s) əməllərini başa vurub Vida həccindən qayıdarkən Qədir-Xum *vadisindən keçmiş, xütbə söyləmiş, Əliyə bəraət qazandıraraq şənini ucaltmış və fəzilətlərini xatırlamışdır. Bununla da bir çox insanın nəfsində özünə yer açmış söz-söhbəti aradan qaldırmışdı".*[407]

Üçüncü müzakirə

Şikayətlərin Mədinədə baş verdiyinə aydın dəlalət edən sənədi səhih rəvayətlər mövcuddur. Bu isə Peyğəmbər (s) Vida həccindən qayıtdıqdan sonra olub. Əhli-Sünnə hədisşünasları və hafizləri Peyğəmbərin hicri onuncu ilin sonlarında İmam Əlini (ə) zəkat toplamaq üçün Yəmənə göndərdiyini nəql ediblər. Bunlardan, İbn Əbu Asimin "əs-Sünnə" kitabında Əbu Səid Xudri sənədilə nəql etdiyi rəvayətdə deyilir: *"Əli dedi: "Peyğəmbərə (s) hələ torpağından təmizlənməmiş qızıllar gətirdim. (Peyğəmbər (s) onu zəkat toplamaq üçün Yəmənə göndərmişdi). Dedi: "Bunları dörd nəfərin: Əqrə ibn Habisin, Zeyd Tainin, Üyeynə ibn Hisn*

[407] əs-Sirətun-nəbəviyyə, İbn Kəsir, c. 4, s. 204-206

Fəzarinin, Əlqəmə ibn Əlasə Amirinin arasında bölüşdür". Oradakıların arasından gözləri çuxurda, alnı qabarıq və saçının önü qırxılmış bir nəfər ayağa qalxıb dedi: "Allaha and olsun ki, ədalətsizlik etdin". Peyğəmbər (s) buyurdu: "Vay olsun sənə! Mən də ədalətli olmayım, kim ədalət olsun?!"[408]

Albani hədisə hökm verərkən yazır: *"Hədis mərfu (Peyğəmbərə (s) yetişən sənədlə) səhihdir, raviləri etibarlı (siqə) şəxslərdir. Yalnız Cərrah ibn Müleyhdən savayı. O, Vəkinin oğlu Ruasidir. Müslimin ondan rəvayət nəql etməsinə baxmayaraq, onun barəsində müxtəlif fikirlər var. Hafiz "ət-Təqrib"də onun barəsində qısa şəkildə deyir: "Doğru danışandır, öz fikri də olur. Onun kimilərin rəvayətləri həsəndir, xüsusilə də ardıcıllıq nəzərə alındıqda".*[409]

Əvvəldə də qeyd etdiyimiz kimi, Beyhəqi "Dəlail"də Əbu Səid Xudri yolu ilə nəql edir: *"Peyğəmbər (s) Əli ibn Əbu Talibi Yəmənə göndərmişdi. Əbu Səid deyir: "Mən də onunla birlikdə gedənlərin arasında idim. Sədəqə olaraq dəvələr götürdü. Biz də öz dəvələrimizin istirahət etməsi üçün onlara minməyi xahiş etdik. Belə ki, dəvələrimizin əldən düşdüyünü görürdük. Lakin onları bizə verməkdən imtina edib dedi: "Sizin də digər müsəlmanlar kimi ondan yalnız bir payınız var".*

Əli sədəqələri toplayıb üzərimizə bir nəfəri rəhbər təyin etdi, özü isə Həccə yetişmək üçün tələsik Yəməndən ayrıldı. Həccini başa vurduqdan sonra Peyğəmbər (s) ona buyurdu: "Əshabının yanına qayıt, onları qarşıla".

Əbu Səid deyir: "Bizə rəhbər təyin etdiyi şəxsdən dəvələrimizə istirahət vermək üçün sədəqə götürülən dəvələrə minməyimizi xahiş etdik. O da buna icazə verdi. Əli bizi qarşıladıqda mindiyimiz dəvələrin arasında zəkatdan olanları gördü və buna izn verən şəxsi məzəmmət edərək danladı. Mən öz-

---

[408] Kitabus-sünnə, İbn Əbu Asim, (Albaninin "Zilalul-cənnəti fi təxricis-sünnə" kitabı ilə), s. 395

[409] Kitabus-sünnə, İbn Əbu Asim, (Albaninin "Zilalul-cənnəti fi təxricis-sünnə" kitabı ilə), s. 396

özümə dedim: "And olsun ki, inşallah, Mədinəyə qayıtdıqda onun bizə qarşı sərtliyini və yaratdığı çətinliyi Peyğəmbərə (s) xəbər verəcəyəm".

Mədinəyə gəldikdə Peyğəmbərin (s) yanına gedib edəcəyimə and içdiyimi yerinə yetirmək istədim. Əbu Bəkrin Peyğəmbərin (s) yanından çıxdığını gördüm. Onunla salamlaşdıq, bir-birimizdən hal-vəziyyəti soruşduq. Məndən nə vaxt gəldiyimi soruşduqda "Dünən axşam" deyə cavab verdim. Mənimlə Peyğəmbərin (s) yanına qayıtdı, içəri girib "Səd ibn Malik ibn Şəhid gəlib" dedi. Peyğəmbər (s) "izn ver gəlsin" buyurdu. İçəri keçib Peyğəmbərə (s) salam verdim, yaxınlaşıb məni salamladı, özümün və ailəmin halını xəbər aldı. Mən də xoşhal olub cavab verdim. Sonra dedi: "Ya Peyğəmbər, Əlidən gördüyümüz bu sərtlik, pis yoldaşlıq və çətinliklər nədir?!" Peyğəmbər (s) üzünü kənara çevirdi və mən Əlinin etdiklərini bir-bir sadalamağa başladım. Sözümün ortasına yetişmişdim ki, yaxınlığımda əyləşən Peyğəmbər (s) buduma vuraraq buyurdu: "Ey Səd ibn Malik Şəhid! Yetər, qardaşın Əli barədə qalan sözlərini saxla. Allaha and olsun ki, onun Allah yolunda sərt olduğunu bilirəm".

Öz-özümə dedim: "Anan ölsün, ey Səd ibn Malik!" Həmin gündən bəri ona ikrah duymadım, gizlində və aşkarda pis yad etmədim".[410]

Bu hədisin sənədi İbn Kəsirin etiraf etdiyi kimi, mötəbərdir. O, bu hədisi Beyhəqinin "Dəlail"indən nəql etdikdən sonra yazır: *"Bunun sənədi yaxşıdır, Nəsainin şərtinə uyğundur. Altı kitab müəlliflərindən heç biri rəvayət etməyiblər".*[411]

Bu hədis özündə bəzi məsələləri ehtiva edir. Onlardan ən əhəmiyyətlisi:

A. İmam Əlinin (ə) Yəmənə getməsi zəkat toplamaq məqsədi daşıyırdı. Bunun dəlili Əbu Səid Xudrinin aşağıdakı sözüdür: *"Zəkat olaraq dəvələr götürdükdə öz dəvələrimizə istirahət vermək üçün onlara minməyimizi*

---

[410] Dəlailun-nübuvvə, Beyhəqi, c. 5, s. 398-399, Əbdülmüti Qələcinin şərh və təhqiqi ilə

[411] əl-Bidayətu vən-nihayə, c. 5, s. 122; əs-Sirətun-nəbəviyyə, c. 4, s. 205

xahiş etdik..." Və: *"Bizi qarşıladıqda mindiyimiz dəvələrin arasında zəkatdan olanları gördü".*

B. Bu hədis İmam Əlinin (ə) Yəmənə ordu ilə getdiyini göstərmir, əksinə bir dəstə səhabənin onunla zəkat toplamaq üçün göndərildiyini bildirir.

C. Yəmənə bu səfəri Həcc əməllərini yerinə yetirmək üçün Peyğəmbərin (s) yola düşdüyü vaxta təsadüf edir. Nəticədə İmam Əli (ə) Həcc başlamamış Peyğəmbərə (s) yetişir və əməlləri yerinə yetirir.

D. İmamla (ə) Yəməndə olan səhabələr Məkkədə Peyğəmbərlə (s) birlikdə Həcc əməllərini yerinə yetirməyə yetişmirlər. Buna ravinin aşağıdakı sözləri dəlalət edir: *"(Əli) Həcci başa vurduqda Peyğəmbər ona buyurdu: "Əshabının yanına qayıt, onları qarşıla".*

Rəvayətdə İmamla (ə) birlikdə Yəmənə göndərilənlərin hadisəni Peyğəmbərə (s) Mədinədə söylədikləri qeyd olunur. Ravi deyir: *"Əbu Bəkrin Peyğəmbərin (s) yanından çıxdığını gördüm. Onunla salamlaşdıq, bir-birimizdən hal-vəziyyəti soruşduq. Məndən nə vaxt gəldiyimi soruşduqda "Dünən axşam" deyə cavab verdim. Mənimlə Peyğəmbərin (s) yanına qayıtdı, içəri girib "Səd ibn Malik ibn Şəhid gəlib" dedi. Peyğəmbər (s) "izn ver gəlsin" buyurdu. İçəri keçib Peyğəmbərə (s) salam verdim, yaxınlaşıb məni salamladı, özümün və ailəmin halını xəbər aldı. Mən də xoşhal olub cavab verdim".*

Əbu Bəkrin Səd ibn Maliklə salamlaşması, onunla dayanıb söhbət etməsi, Yəməndən nə vaxt qayıtdığını soruşması onların uzun müddətdən bəri görüşmədiklərinə dəlalət edir. Əgər Səd ibn Malik Vida həccində iştirak etsəydi həmin ərəfələrdə Əbu Bəkrlə də görüşmüş olardı.

Həmçinin Peyğəmbərin (s) Sədlə salamlaşaraq özü və ailəsinin hal-əhvalını soruşması da Səd ibn Maliki uzun müddətdən bəri görmədiyinə dəlalət edir. Bu isə Sədin heç də Peyğəmbərlə (s) bərabər Həcc

əməllərində və Qədir-Xum xütbəsində iştirak etmədiyinə, onunla Məkkədən Mədinəyə qayıtmadığını göstərir.

E. İmam Əli (ə) özü ilə Yəməndə olan yoldaşlarının yanına Mədinəyə qayıdarkən gəlib. Bunu rəvayətdən anlamaq olur. Belə ki, Səd ibn Malik Peyğəmbərlə (s) yalnız Mədinədə ikən görüşüb şikayətini bildirir. Həmçinin Səd deyir: *"Biz Mədinəyə gəldikdə Peyğəmbərin (s) yanına gedib edəcəyimə and içdiyimi yerinə yetirmək istədim".* Aydın olur ki, Yəməndən qayıdanlar Peyğəmbər (s) Mədinədə olarkən onun yanına gəldilər. Ravi deyir: *"Biz Mədinəyə gəldikdə..."* Buradakı *"biz"* şəxs əvəzliyi İmam Əli (ə) ilə Yəmənə göndərilən səhabələrə işarə edir. Məlum olur ki, İmamın (ə) Yəməndən qayıdan yoldaşlarını qarşılaması Qədir-Xum hadisəsindən sonra baş vermişdir. Hər iki məzhəbin yekdil rəyinə əsasən, İmam Əli (ə) Qədir-Xum hadisəsində iştirak edib. Onun Yəmən səfərindəki yoldaşlarını qarşılaması isə bu hadisədən sonra, Mədinəyə qayıdarkən baş tutub.

F. İmamın (ə) Yəmən səfərindəki yoldaşları Peyğəmbərə (s) Mədinədə, Vida həccindən qayıtdıqdan sonra şikayət ediblər. Bunun dəlili ravinin sözləridir: *"Mən öz-özümə dedim: "And olsun ki, inşallah, biz Mədinəyə qayıtdıqda onun bizə qarşı sərtliyini və yaratdığı çətinliyi Peyğəmbərə (s) xəbər verəcəyəm. Biz Mədinəyə gəldikdə Peyğəmbərin (s) yanına gedib edəcəyimə and içdiyimi yerinə yetirmək istədim".*

Ravinin *"...inşallah, biz Mədinəyə qayıtdıqda"* sözü, qeyd etdiyimiz kimi, İmamla (ə) birlikdə Yəməndə olan dəstəyə işarə edir, şikayətləri də Mədinədə gerçəkləşir.

G. İmam Əlinin (ə) səhabələrlə Yəmənə yola düşməsi və onlarla bərabər Mədinəyə qayıtması hicrətin 10-cu ilinin sonlarında baş verib. Yəni həmin ilin Zil-hiccə ayında. Zil-hiccə ayı isə miladi təqvimindəki dekabr kimi, ilin son ayıdır. Bu isə Muaz ibn Cəbəlin Yəməndə qazı olduğu vaxtlara təsadüf edir.

Nəticə: (Bu mötəbər hədisə əsasən,) Peyğəmbər hicri 10-cu ili İmam Əlini (ə) bir dəstə səhabə ilə birlikdə zəkat toplamaq üçün Yəmənə göndərib. Ardınca İmam (ə) yoldaşlarını Yəməndə qoyaraq Həcc əməllərini Peyğəmbərlə (s) birlikdə yerinə yetirmək üçün Məkkədə onlara qoşulur. Bir nəfəri də Yəməndəki dəstə üzərində rəhbər təyin edir. Onlar İmam Əlidən (ə) topladıqları zəkatdan istifadə etməyə icazə istədikdə, o: *"Sizin bundan payınız müsəlmanların payı qədərdir"* deyərək bundan imtina edir. Məkkəyə döndükdə isə öz yerinə təyin etdiyi rəhbər zəkat olaraq alınmış dəvələri istifadə etmək üçün həmin dəstə üzvlərinə verir. İmam (ə) onların yanına qayıtdıqda zəkat olan dəvələrin minildiyini görür və buna izn verən şəxsi məzəmmət edərək danlayır. Ardınca da onlarla bərabər hicri 10-cu ilin son ayında Mədinəyə qayıdır. Onunla Yəməndə olanlardan bəziləri Vida həccindən Mədinəyə qayıtmış Peyğəmbərə (s) şikayət edirlər. Peyğəmbər (s) isə onların şikayətlərinin qarşılığında buyurur: *"Yetər, qardaşın Əli barədə qalan sözlərini saxla. Allaha and olsun ki, onun Allah yolunda sərt olduğunu bilirəm".*

Bütün bunlar şikayətin Mədinədə, Vida həccindən sonra baş verdiyini göstərir.

Faktı dəstəkləyən digər bir məsələ də budur ki, Peyğəmbər (s) İmam Əlini (ə) zəkat toplamaq üçün Yəmənə yalnız bir dəfə, Vida həccindən əvvəl, hicrətin 10-cu ilində göndərmişdir. Lakin Əhli-Sünnə kitablarındakı mötəbər səhih hədislərə nəzər salan şəxs isə bunun bir neçə dəfə baş verdiyini təsəvvür edəcək:

Birinci: Yəmənliləri İslama dəvət etmək üçün; həmin vaxt İslam ordusunu bəzi Yəmən qəbilələri ilə döyüşə aparmışdı. Bunun ardınca Həmədan qəbiləsi könüllü surətdə İslamı qəbul etmişdi. Peyğəmbər (s) onlar barədə buyurmuşdu: *"Salam olsun Həmədana, salam olsun Həmədana!"*[412]

[412] Tarixul-İslam, Zəhəbi, c. 2, s. 690-691

Bu səfər əsnasına Xalid ibn Vəlidin tövsiyəsi ilə Büreydə Peyğəmbərin (s) yanına gələrək Möminlərin əmiri Əlidən (ə) şikayət etmişdi. Peyğəmbər (s) də onun şikayətini rədd edərək İmam Əlinin (ə) fəzilətlərini sadalamış, cariyə məsələsi ilə bağlı onun rəftarına haqq qazandırmışdı.

Buxari "Səhih"də Bərraya istinad edilən rəvayətdə yazır: *"Peyğəmbər bizi Xalid ibn Vəlidlə birlikdə Yəmənə göndərdi". Dedi: "Ardınca onun əvəzinə Əlini göndərib buyurdu: "Xalidin əshabından kim sənlə getmək istəsə onları özünlə götür, kim də istəsə geri qayıtsın". Mən onunla Yəmənə gedənlərin sırasında idim. Orada bir neçə döyüş zirehi qənimət götürdüm".*[413]

Sonra Buxari bu hadisəni başqa bir yöndən qeyd edir. Abdullah ibn Büreydə atasından nəql edir: *"Peyğəmbər (s) Əlini Xaliddən topladığı xümsü almaq üçün göndərdi. Mən Əliyə nifrət edirdim. Belə ki, artıq o,* ***(xüms olaraq cariyəni götürmüş, yaxınlıq etdikdən sonra)*** *qüsl də almışdı. Xalidə dedim: "Bunu görürsən?!"*

Peyğəmbərin (s) yanına qayıtdıqda bu hadisəni ona söylədim. Buyurdu: "Ey Büreydə, Əliyə nifrət edirsən?" Mən "Bəli" dedikdə buyurdu: "Ona nifrət etmə, onun xümsdəki payı bundan daha çoxdur".[414]

Zəhəbi isə Yəmənə səfəri Bərraya istinadən başqa bir yöndən nəql edib: *"Peyğəmbər (s) Xalid ibn Vəlidi Yəmən camaatını İslama dəvət etmək üçün göndərdi. Mən də Xalidlə birlikdə idim. Altı ay müddətində orada qalıb onları İslama dəvət etdik, lakin heç kim dəvətimizi qəbul etmədi. Bundan sonra Peyğəmbər (s) Əlini (r) də Yəmənə göndərdi və Xilidi əvəzləməsini əmr etdi. Xalidlə olanlardan kim istəyərsə Əli ilə qala biləcəkləri buyurdu. Mən Əli ilə birlikdə qalanların arasında idim. Bir qövmə yaxınlaşdıqda onlar bizim qarşımıza çıxdılar. Əli bizə namaz qıldırdı, biz də bir cərgədə*

---

[413] Səhih, Buxari, c. 3, s. 98, hədis 4256, "Qəzvələr" fəsli

[414] Səhih, Buxari, c. 3, s. 98, hədis 4257, "Qəzvələr" fəsli

düzüldük. Ardınca qarşımıza keçib onlara Peyğəmbərin (s) məktubunu oxudu. Həmədan əhli bütünlüklə İslamı qəbul etdi. Əli Peyğəmbərə (s) məktub yazaraq bunu ona xəbər verdi. Peyğəmbər (s) məktubu oxuyub sədcəyə qapandı, sonra başını qaldırıb buyurdu: "Salam olsun Həmədana, salam olsun Həmədana!"

Rəvayətin ardınca Zəhəbi deyir: *"Bu, səhih hədisdir, eyni sənədlə Buxari bunun bir hissəsini nəql edib".*[415]

Əhmədin "Müsnəd"ində Büreydədən nəql olunur: *"Əliyə heç kimə etmədiyim qədər nifrət edirdim. Ona qarşı nifrəti olan qüreyşli bir nəfərlə dost oldum. Həmin şəxsin göndərildiyi yerə səfərində mən də ona yoldaşlıq etdim. Bu yoldaşlığım yalnız Əliyə qarşı nifrətimizə görə idi".*

Deyir: "Orada əsirlər götürdük. Peyğəmbərə (s) məktub yazaraq xümsü götürmək üçün bir nəfər yollamasını xahiş etdik. O da Əlini göndərdi. Əsirlər gənc qızlar idilər. Əli xümsü götürüb bölüşdürdü. Sonra başı dəsmalla örtülü halda içəridən çıxdığını gördüm. Dedim: "Ey Əbülhəsən, bu nədir?" Dedi: "Əsirlərin arasındakı gənc qızı görmədinizmi?! Mən xümsü bölüşdürdükdə o mənim payıma düşdü. Ardınca Peyğəmbər (s) ailəsinin, sonra da Əli ailəsinin üzvü oldu. Bu halda da mən onunla yaxınlıq etdim".

Ravi deyir: "Yanımdakı şəxs Peyğəmbərə (s) məktub yazdı. Məktubu mənimlə göndərməsini ondan xahiş etdim. O da hadisənin şahidi kimi məni göndərdi. Mən məktubu oxuyub, "Düzdür" deyə təsdiqlədim. Peyğəmbər mənim əlimi məktubla bərabər tutub buyurdu: "Əliyə nifrət edirsən?"

Mən "Bəli" deyə cavab verdim. Peyğəmbər (s) buyurdu: "Ona nifrət etmə! Əgər sevsən daha çox sevməyə çalış. Muhəmmədin canını əlində tutana and olsun ki, Əlinin əhlinin xümsdəki payı o gənc qızdan olduqca çoxdur".[416]

---

[415] Tarixul-İslam, c. 2, s. 690-691

[416] Müsnəd, Əhməd ibn Hənbəl, c. 16, s. 483-484. Həmzə Əhməd Zeyn hədisə verdiyi hökmdə deyir: "Sənədi səhihdir"; Sünən, Nəsai, c. 5, s. 133; "Xəsaisu Möminlərin əmiri (ə)", s. 80.

Əhməd "Müsnəd"də, Nəsai isə "əs-Sünən" və "əl-Xəsais"də Büreydədən nəql edirlər (rəvayət "Müsnəd"dəndir): *"Peyğəmbər (s) iki dəstəni Yəmənə göndərdi. Onlardan birinin rəhbəri Əli ibn Əbu Talib, digərininki isə Xalid ibn Vəlid idi. Peyğəmbər (s) buyurdu: "Əgər orada görüşsəniz sizin başçınız Əli olacaq. Ayrıldıqda isə yenidən hər dəstəyə öz başçısı rəhbərlik etsin". Yəməndə Bəni-Zeyd (Zübeyd) qəbiləsi ilə rastlaşdıq. Onlar bizimlə savaşdılar, sonda müsəlmanlar müşriklərə qalib gəldilər. Əli onların əsirlərindən bir gənc qızı özü üçün seçdi.*

Büreydə deyir: Xalid ibn Vəlid hadisəni qeyd edən bir məktub yazıb mənimlə Peyğəmbərə (s) göndərdi. Mən məktubu ona çatdırdım. Məktub oxunduqda Peyğəmbərin (s) üzündən qəzəbləndiyi hiss olundu. Dedim: "Ya Peyğəmbər, Allaha sığınıram! Məni bir nəfərlə göndərdin və ona itaət etməyimi buyurdun. Mən də onun əmrinə itaət edərək məktubu sizə çatdırdım". Peyğəmbər (s) buyurdu: "Əli barədə pis danışma, o məndən, mən də ondanam. O, məndən sonra sizin vəlinizdir. Həqiqətən, o məndən, mən də ondanam. O, məndən sonra sizin vəlinizdir".[417]

Heysəmi "Məcməuz-zəvaid"də yazır: "*Bunu Əhməd, eləcə də ixtisarla Bəzzar rəvayət edib. Ravilərin arasında Əlcəh Kindi var ki, İbn Muin və başqaları onu etibarlı (siqə), bir dəstə isə zəif ravi sayıblar. Əhmədin rəvayətinin digər raviləri isə "Səhih"in ravilərdir".*[418]

Təbərani bu hədisi eyni sənədlə, lakin bir az fərqli kəlmələrlə Büreydədən nəql edib: *"Peyğəmbər Əlini Yəmənə, Xalid ibn Vəlidi isə Cəbələ başçı olaraq göndərib buyurdu: "Əgər iki dəstə birləşsə, başçınız Əli olsun". Onlar Yəməndə görüşüb birləşdilər, o vaxta qədər heç kimin əldə etmədiyi qədər qənimət topladılar. Əli xüms olaraq qənimətlərdən bir cariyə götürdü. Xalid ibn Vəlid Büreydəni çağırıb dedi: "Fürsət bil, get, onun bu hərəkətini Peyğəmbərə (s) xəbər ver". Mən Mədinəyə gəldim, məscidə girib*

---

[417] Müsnəd, Əhməd ibn Hənbəl, s. 486. Həmzə Əhməd Zeyn hədislə bağlı hökmündə deyir: "Sənədi səhihdir".

[418] Məcməuz-zəvaid, Heysəmi, c. 9, s. 128

Peyğəmbərin (s) yanına getdim. O, evində idi, qapısının qarşısında isə bir dəstə səhabə var idi. Dedilər: "Ey Büreydə, nə baş verib?" Dedim: "Xeyirdir, Allah müsəlmanlara fəth nəsib edib". Onlar "Bəs sən niyə gəlmisən?" deyə soruşduqda "Əli xümsdən özünə bir cariyə götürdü. Bunu Peyğəmbərə (s) xəbər verməyə gəlmişəm". Dedilər: "Söylə, bu hərəkəti onu Peyğəmbərin (s) gözündən salacaq".

Peyğəmbər (s) söhbəti eşidirdi, qəzəbli halda evindən çıxıb buyurdu: "Əlini bədnam etmək (ləkələmək) istəyən camaatın bu halı nədir?! (Bilin ki,) Əlini bədnam edən, məni bədnam etmişdir".[419]

Bu, Yəmən qəzvəsinin hekayəsidir. Burada Yəmənin Həmədan qəbiləsinin İslamı könüllü qəbul etdikləri, Bəni-Zeyd və ya Zübeyd qəbiləsi ilə müsəlmanların arasında döyüşün baş verdiyi və müsəlmanların onlara qalib gəldikləri qeyd olunur. Nəticədə çox sayda qənimət qazanmış və əsirlər götürmüşdülər. İmam (ə) əsirlərin arasındakı bir gənc qızı özü üçün xüms payı olaraq seçmiş, gecəni onunla keçirmişdi. Xalid ibn Vəlid məsələdən xəbər tutduqda bunu mənfur əməl hesab etmiş, məktub yazaraq Əliyə güclü nifrəti ilə seçilən Büreydənin vasitəsilə Peyğəmbərə (s) bildirmişdi. Peyğəmbər (s) məktubla tanış olduqdan sonra Büreydəni danlamış, İmam (ə) haqqında belə sözlər danışmamağını və ona nifrət etməməyi buyurmuşdu. Çünki Əlinin (ə) xümsdəki payı həmin cariyədən qat-qat artıq idi. Ardınca da onun müsəlmanlar üzərindəki vilayət məqamını bir daha bəyan edir: *"Həqiqətən, o məndən, mən də ondanam. O, məndən sonra sizin vəlinizdir".*

Müxtəlif kəlmələr və fərqli yönlərlə qeyd edilməsinə baxmayaraq, bu rəvayətlərdə Vida həccilə bağlı heç bir əlaqə görünmür, İmam Əlinin (ə) Məkkəyə gedərək Peyğəmbərə (s) qoşulduğuna işarə edilmir. Həmçinin Yəmənə gedən ordunun da Məkkəyə yola düşdüyünə toxunulmur. Buna əsasən, Qədir-Xum vadisində, şiddətli isti altında camaatı bir yerə

---

[419] əl-Möcəmul-övsat, Təbərani, c. 6, s. 162

toplayaraq xütbə söyləyib, İmam Əli (ə) barəsindəki dedi-qoduları[420] aradan qaldırmağa Peyğəmbəri (s) ordunun şikayətlərinin vadar etdiyini söyləməyin yeri yoxdur.

Bunu Təbəraninin Büreydədən nəql etdiyi rəvayətdən də açıq şəkildə anlamaq olur. Orada deyir: *"Mən Mədinəyə gəldim, məscidə girib Peyğəmbərin (s) yanına getdim. O, evində idi, qapısının qarşısında isə bir dəstə səhabə var idi".* Bu bir daha Yəmən qəzvəsinin və Büreydənin şikayətlərinin heç də Vida həccilə eyni zamana təsadüf etmədiyini isbatlayır. Bunun Qədir-Xum hadisəsi ilə də heç bir əlaqəsi yoxdur. Göründüyü kimi, şikayətlər Mədinədə edilmişdi. Peyğəmbər (s) də İmam Əlini (ə) bədnam etmək istəyənlərin cavabını elə oradaca *"(Bilin ki,) Əlini bədnam edən, məni bədnam etmişdir"* deyərək verib.

Beyhəqi, İbn Kəsir və başqalarının öz güman və iddialarında Buxari və digərlərinin səhih sənədlərlə qeyd etdikləri Büreydənin rəvayətlərinə istinad etmədiklərini görürük. Əksinə, öz iddialarını zəif, Yəmən qəzvəsi və Büreydənin şikayətləri ilə heç bir əlaqəsi olmayan rəvayətlərə istinad edərək isbatlamağa çalışırlar.

İkinci: Peyğəmbər (s) İmam Əlini (ə) yəmənlilər İslamı qəbul etdikdən sonra onların arasında qəzavət etmək üçün göndərmişdi. O da həmin məntəqədə hakimlik və qazılıq məsələlərini öhdəsinə götürmüşdü. Buna dəlalət edən çoxlu sayda rəvayətlər mövcuddur. Əhməd "Müsnəd"də Möminlərin əmirinə (ə) istinad edilən rəvayətdə yazır: *"Peyğəmbər (s) məni Yəmənə göndərdi. Dedim: "Ya Peyğəmbər, məni məndən yaşlı şəxslərə hakimlik etmək üçün göndərirsən, qəzavətlə bağlı təcrübəm yoxdur". Əlini sinəmə qoyub buyurdu: "İlahi, onun dilini sabit və qəlbini hidayət et! Ya Əli, əgər qarşında iki rəqib əyləşsə birinci tərəfi dinlədiyin kimi ikinci tərəfi də dinləmədən onların arasında hökm etmə. Buna riayət etsən hökm sənə aydın olacaq".*

---

[420] əl-Bidayətu vən-nihayə, İbn Kəsir, c. 5, s. 123

Deyir: Əli ondan sonra qəzavətdə çətinliyə düşmədi və ya heç bir məsələ barədə qəzavət etmək onun üçün çətin olmadı".[421]

Yenə Əhməd "Müsnəd"ində Möminlərin əmirindən (ə) nəql edir: *"Peyğəmbər (s) məni Yəmənə göndərdi. Dedim: "Məni məndən yaşlı insanlar üzərində hökm etməyə göndərirsiniz?" Buyurdu: "Get, Allah sənin dilin sabit və qəlbini hidayət üzərində qərar verəcək".*[422]

İbn Macə də "əs-Sünən"də Möminlərin əmirinə (ə) istinad olunan rəvayəti nəql edib: *"Peyğəmbər (s) məni Yəmənə göndərdi. Dedim: "Ya Peyğəmbər (s) mən gəncəm, qəzavət nə olduğunu bilmirəm, amma siz məni göndərirsiniz?" Əli ilə sinəmə vurub buyurdu: "İlahi, onun dilini sabit et".*

Deyir: Bundan sonra əsla iki nəfərin arasında qəzavət edərkən şəkkə düşmədim".

Albani hədislə bağlı hökm verərkən yazır: *"Səhihdir".*[423]

Bu rəvayətlərə əsasən, İmam Əli (ə) Yəmənə qəzavət etmək üçün göndərilir. Bunun da Vida həccilə heç bir əlaqəsi yoxdur. Həmçinin bu rəvayətlərdə Məkkədən, ordudan və ya İmam Əliyə (ə) qarşı hər hansı etirazdan bəhs edilmir. Rəvayətləri Beyhəqi və İbn Kəsirin "Qədir-Xum" hədisi ilə bağlı iddialarına dəlil göstərmək mümkün deyil.

İmam Əlinin (ə) oraya ikinci səfəri Yəmənin fəthindən və bir çox qəbilənin İslamı qəbul etməsindən sonra baş vermişdi. Belə ki, Peyğəmbərin (s) İmam Əlini (ə) kafirlər və müşriklərin arasında İslam şəriətinə uyğun hakimlik etməsi üçün göndərməsinin heç bir mənası olmazdı.

Buradan anlaşılır ki, Yəmən qəzvəsi İmamın (ə) yəmənlilərin arasında qəzavət etmək üçün göndərilməsindən, eləcə də Muaz ibn Cəbəlin

---

[421] Müsnəd, Əhməd ibn Hənbəl, c. 1, s. 544-545. Şeyx Əhməd Muhəmməd Şakir hədislə bağlı hökmündə deyir: "Sənədi səhihdir".

[422] Müsnəd, Əhməd ibn Hənbəl, c. 1, s. 508-559. Şeyx Əhməd Muhəmməd Şakir hədislə bağlı hökmündə deyir: "Sənədi səhihdir".

[423] Sünən, İbn Macə, c. 2, s. 520, Albaninin təhqiqi ilə

hicrətin 10-cu ilində oraya hakim təyin edilməsindən əvvəl olmuşdur. Belə ki, Muaz ibn Cəbəl Peyğəmbər (s) tərəfindən bu əhəmiyyətli iş üçün təyin edilmiş, Mədinəyə isə Peyğəmbərin (s) vəfatından sonra qayıtmışdı.

Muaz ibn Cəbəlin Yəmənə qazı göndərilməsinə Əhmədin "Müsnəd"indəki hədis dəlalət edir. Muazın özündən nəql olunur: *"Peyğəmbər (s) onu Yəmənə qazı göndərdikdə buyurdu: "Sənin yanına qəzavət etməyin üçün gəldiklərində nə edəcəksən?" Muaz dedi: "Onların arasında Allahın kitabına əsasən hökm edəcəyəm". Buyurdu: "Əgər həmin hökm Allahın kitabında olmazsa?" Dedi: "O zaman Peyğəmbərin (s) sünnəsinə əsaslanacağam". Peyğəmbər (s) yenə soruşdu: "Bəs əgər sünnədə də olmazsa?" Dedi: "Düşünüb öz rəyimlə hökm edəcəyəm". Bu cavabdan sonra Peyğəmbər (s) buyurdu: "Həmd olsun Allaha ki, Peyğəmbərini razı qalacağı şeyə nail etdi".*[424]

İbn Kəsir rəvayətin sənədi barədə deyir: *"Bu hədis "Müsnəd" və "Sünən"də yaxşı sənədlə qeyd olunub".*[425]

Hadisəyə həmçinin İbn Macənin "Sünən"də Muaz ibn Cəbəldən nəql etdiyi rəvayət də dəlalət edir: *"Peyğəmbər (s) məni Yəmənə göndərərkən buyurdu: "Yalnız bildiyin şeylərlə hökm et. Əgər hökm verməkdə çətinliyə düşsən, məsələ sənə aydın olana və ya bu barədə mənə yazıb cavab alanadək əl saxla".*[426]

Muaz ibn Cəbəlin hicrətin 10-cu ilinin sonlarında Yəmənə göndərildiyinə dəlalət edən rəvayətləri Əhməd ibn Hənbəl "Müsnəd"ində bir neçə fərqli sənədlə nəql edib. Muazdan rəvayət olunur: *"Peyğəmbər (s) onu Yəmənə göndərdikdə tövsiyələrini vermək üçün yola salmağa çıxdı. Muaz atında əyləşmiş, Peyğəmbər (s) isə onun atının yanında dayanmışdı. Tövsiyələrini bitirdikdən sonra buyurdu: "Ey Muaz, ola bilsin ki, qayıtdıqda artıq məni görməyəsən. Bəlkə də mənim məscidimin və ya qəbrimin*

---

[424] Müsnəd, Əhməd ibn Hənbəl, c. 5, s. 230
[425] Təfsir, İbn Kəsir, c. 1, s. 4
[426] Sünən, İbn Macə, c. 1, s. 21

yanından ötəcəksən". Muaz Peyğəmbərlə (s) bu ayrılığına görə ağlamağa başladı. Sonra Peyğəmbər (s) üzünü Mədinəyə tərəf tutub buyurdu: "Haradan və harada olmalarından asılı olmayaraq mənə ən yaxın şəxslər təqvalılardır".[427]

Heysəmi "Məcməuz-zəvaid"də yazır: *"Bunu Əhməd iki sənədlə nəql edib... Hər iki sənədin raviləri "Səhih"in raviləridir. Yalnız Raşid ibn Səd və Asim ibn Həmiddən savayı. Onlar etibarlı (siqə) ravilərdir".*[428]

Bu rəvayət İmam Əlinin (ə) Yəmənə Muaz ibn Cəbəldən əvvəl getdiyinə dəlalət edir, həmçinin qarşıda qeyd ediləcək rəvayətə əsasən, hicrətin 10-cu ilinin sonunda İmam Əlinin (ə) Yəməndəki zəkatları toplamaq üçün göndərildiyi vaxt Muaz ibn Cəbəlin artıq orada qazılıq etdiyini göstərir.

Üçüncü: Möminlərin əmiri Əli (ə) Yəmənə zəkatları toplamaq üçün göndərilmişdi. Həmin vaxt Muaz ibn Cəbəl artıq Yəmənin qazısı idi. Belə ki, Peyğəmbər (s) onu hicrətin 10-cu ilində Yəmənə qazı təyin etmişdi. Bu fakt İmam Əlinin (ə) Peyğəmbər (s) tərəfindən Yəmənə qəzavət üçün göndərilməsindən sonra baş verdiyinə dəlalət edir. Necə ki, həmçinin Yəmən savaşının və yəmənlilərin İslamı qəbul etməsinin də bundan əvvəl baş verdiyini göstərir.

Bu üçüncü səfərdə Peyğəmbər (s) İmam Əlini (ə) onunla yola çıxan səhabələr üzərində başçı təyin edir. İmam (ə) isə onları orada qoyaraq Vida həccinə yollanır, Peyğəmbərə (s) yetişmək üçün Məkkəyə tərəf istiqamət alır. Onunla birlikdə Yəmənə göndərilmiş səhabələr isə Peyğəmbərlə (s) yalnız Mədinədə görüşə bilirlər. Onlardan bir neçəsi Peyğəmbərə (s) İmamdan (ə) şikayət edir, Peyğəmbər isə onları bu işdən çəkindirir və Möminlərin əmirinin (ə) adını ləkələməmələrini tapşırır.

---

[427] Müsnəd, Əhməd ibn Hənbəl, c. 5, s. 253

[428] Məcməuz-zəvaid, Heysəmi, c. 9, s. 22

Ancaq Beyhəqi və İbn Kəsirin öz gümanlarını isbatlamaq üçün şikayətlərin Məkkədə baş verdiyinə dair əsaslandıqları rəvayətlərə gəldikdə, bu məsələdə onlara dəlil kimi etimad etmək mümkün deyil. Çünki sənədləri zəif, dəlalətləri isə aydın deyil. Müxtəsər şəkildə onları qeyd edək:

Vaqidi "əl-Məğazi" kitabında yazır: *"Ömər ibn Məhəmməd ibn Ömər ibn Əli mənə atasından nəql edir: "Əli (ə) qənimətləri bir yerə toplayıb onları beş hissəyə böldü...*

Əbu Sədi Xudri həmin qəzvədə onunla birlikdə olduğunu deyir. Əli bizə zəkat götürülmüş dəvələrə minməyə icazə vermədi. Əlinin (ə) əshabı Əbu Rafedən onlara zəkatdan götürülmüş libaslardan verməyi xahiş etdi. O da hərəsinə iki libas verdi. Onların Məkkəyə çatmasına az məsafə qalmışdı ki, İmam Əli (ə) onları qarşıladı, yenidən rəhbərliyi öz üzərinə götürdü. Bu zaman onlardan hər birinin üzərində iki libas və bunların da zəkatdan olduğunu anladı. Üzünü Əbu Rafeə tutub dedi: "Bu nədir?!". O isə: "Mənimlə çox mübahisə etdilər, mən də şikayət edəcəklərindən çəkindim və bunun sənin üçün əhəmiyyətsiz olacağını zənn etdim. Səndən əvvəlkilər belə etmişdilər".

İmam Əli (ə) buyurdu: "Mənim onların xahişindən imtina etdiyimi görmədinmi?! Mən onları sənə verdim və qoruyub saxlamağını əmr etdim, sən isə onlara verdin?!"

Əli (ə) paltarların onların üzərində qalmasına razılıq vermədi. Bu səbəbdən bəziləri həmin libaslarını çıxardılar.

Peyğəmbərin (s) yanına gəldikdə hadisədən ona şikayət etdilər. Peyğəmbər (s) Əlini çağırıb buyurdu: "Yoldaşların səndən nə üçün şikayət edirlər?"

Əli dedi: "Nədən şikayət edirlər? Mən onların arasında qənimət paylarını bölüşdürmüş, xümsü hesablamış, sizə təqdim etmiş və siz də bu barədə rəyinizi bildirmişsiniz. Məndən əvvəlki rəhbərlər xümsdən istəyən şəxslərə

istədiklərini veriblər. Mən isə onları sizə gətirib, sizin bu barədə rəyinizi öyrənməyi düşündüm". Peyğəmbər (s) susdu".[429]

Bu rəvayətin sənədi olduqca zəifdir. Ömər ibn Muhəmməd ibn Ömər ibn Əli məchul (naməlum) şəxsdir, Əhli-Sünnə kitablarında onun etibarlılığı və ya tərifənməsi barədə hər hansı bir qeyd yoxdur. Nəinki, onun adına mötəbər rical kitablarının heç birində rast gəlmək olmur. Rəvayət sənəd cəhətdən də mürsəldir. Muhəmməd ibn Ömər ibn Əli etibarlı və doğru danışan şəxs olsa da, altıncı təbəqəyə mənsubluğu onun ən kiçik tabeunlarla eyni dövrdə yaşadığına dəlalət edir. O, səhabələrlə və böyük tabeunlarla görüşməyib. Peyğəmbər (s) dövründə baş vermiş bir hadisəni birbaşa nəql etməsi mümkün deyil. Ona görə də İbn Həcər "ət-Təqrib"də deyir: *"Doğru danışandır, altıncı təbəqədəndir. Babasından nəql etdiyi rəvayətlər mürsəldir".*[430] Əgər babasından nəql etdikləri mürsəldirsə, o zaman özünün birbaşa Peyğəmbərdən (s) nəql etdikləri hansı hökmdə olacaq?!

Bundan əlavə, isbatlanmış tarixi hadisələrlə rəvayətin arasında ciddi ziddiyyətlər mövcuddur. Onlardan bəzisini qeyd edək:

A. Rəvayətdə Əlinin (ə) üçüncü dəfə Yəmənə savaşmaq üçün getdiyi bildirilir. Belə ki, orada deyilir: *"Üç yüz atlı ilə yola çıxdı. Onların minikləri həmin ölkəyə daxil olan ilk atlar idi. Ən yaxın məntəqəyə yetişdikdə səhabələri müxtəlif istiqamətlərə yolladı. Onlar da qənimətlər, qadın və uşaq əsirlər, davarlarla geri döndülər".*[431]

Bu, əvvəlki açıq mənalı və səhih hədislərlə ziddiyyət təşkil edir. Həmin rəvayətlər İmamın (ə) birinci dəfə Yəmənə döyüşmək üçün yollanıb geri qayıtmasının Vida həccindən əvvəl olduğunu bildirirdi. Üçüncü səfəri isə Vida həcci ilə eyni zamana təsadüf edir. Bu, hicrətin 10-cu ilinin sonuncu ayında olub. Həmin vaxt Peyğəmbər (s) onu döyüşmək üçün deyil, zəkat

---

[429] əl-Məğazi, Vaqidi, c. 3, s. 1080-1081
[430] Təqribut-təhzib, İbn Həcər, c. 2, s. 117
[431] əl-Məğazi, c. 3, s. 1079-1080

toplamaq üçün göndərmişdi. Xüsusilə də bu rəvayətdə çoxlu qənimətlərin, qadın və uşaq əsirlərin varlığı qeyd edilir. Bu isə yalnız birinci səfər zamanı müsəlmanlara Yəmənin fəthi bəxş edildikdə baş verib.

Əgər fərz etsək ki, bu Xalid ibn Vəlidlə birgə yollandıqları ilk savaşdan fərqli, başqa bir yeni savaş idi, o zaman *"Onların minikləri həmin ölkəyə (yəni Yəmənə) daxil olan ilk atlar idi"* demək mümkün olmayacaq. Belə ki, müsəlman atlıları artıq bir dəfə – Yəmən fəth edilərkən oraya daxil olmuşdular. Bu, Büreydənin Mədinədə İmam Əlidən (s) Peyğəmbərə (s) şikayət etdiyi həmin savaşdır. Həmin vaxt Yəmənin əksər qəbilələri İslamı artıq qəbul etmişdilər.

B. Ötən hissədə Yəməndəki müharibənin müsəlmanlarla Məzhic qəbiləsinin arasında baş verdiyinə dair rəvayətləri qeyd etdik. Həmçinin Məzhic qəbiləsi ilə savaşın Yəməndə ilk qəzvə olduğunu da bildirdik. Belə ki, Məzhic qəbiləsinin başçılarından olan Bəni-Zübeyd qəbiləsi Yəmən əhalisinin əsasını təşkil edirdi. Onların rəvayətlərinə əsasən, Möminlərin əmirinin (ə) ilk səfərində müsəlmanlar onlarla savaşmış, qadınlarını və uşaqlarını əsir almışdılar.

C. Rəvayətlərdə Büreydənin də həmin savaşda iştirak etdiyi bildirilir. Ravi deyir: *"Qənimətlərə məsul şəxs olaraq Büreydə ibn Hüseybi təyin etdi".* Bu isə İmam Əlinin (ə) ilk səfəri ilə uzlaşır. Çünki Büreydə həmin ordunun sıralarında idi. Peyğəmbərə (s) İmam Əlidən (ə) şikayəti də məhz o etmişdi.

D. Rəvayətdə İmam Əlinin (ə) xümsü böldüyü də qeyd edilir. Bu da yenə İmamın (ə) Yəmənə ilk səfəri ilə uyğundur. Belə ki, xümsü bölmüş, cariyə onun payına düşmüş və onunla yaxınlıq etmişdi. Bəzi səhabələr isə bunu fürsət bilərək şikayətə etmişdilər.

Bütün bunlar Vaqidinin rəvayətində İmam Əlinin (ə) Yəmənə səfərləri ilə bağlı böyük qarışıqları özündə ehtiva etdiyini göstərir.

Bu rəvayətlə bağlı digər məzmunlarda iradlar da var ki, əvvəlki rəvayətlərlə bağlı müzakirəmizdə onları qeyd etdik. Rəvayətlərin ümumi məzmununu müzakirə edərkən bir daha onlara nəzər salacağıq.

2. Muqrizi Vaqidinin yuxarıda qeyd etdiyimiz rəvayətini eyni kəlmələrlə nəql edir. Lakin rəvayətin sənəd və nəql yolunu qeyd etmir.[432] Məzmun cəhətdən Vaqidinin rəvayətinə bildirdiyimiz iradlar bu rəvayətlə də bağlı öz qüvvəsindədir. Onun sənədi mürsəldir. O rəvayətə əsaslanaraq şikayətin Məkkədə edildiyini isbatlamaq mümkün deyil.

3. İbn Əsir "Peyğəmbərin (s) zəkat məmuru olaraq göndərdiyi şəxslər" başlığı altında yazır: *"Həmin il (yəni hicrətin 10-cu ili) Peyğəmbər (s) öz məmurlarını zəkat toplamaq üçün göndərdi. Mühacir ibn Əbu Üməyyə ibn Müğeyrəni Sənaya... Əli ibn Əbu Talibi Nəcrandakı zəkat və cizyələri toplamağa göndərdi. O da toplayıb geri qayıtdı və Məkkədə Vida həccində olan Peyğəmbərə (s) qoşuldu. Onunla göndərilmiş orduya isə əsgərlərindən birini başçı təyin etdi. Həmin şəxs isə əsgərlərin hər birinə bez parçadan libas geyindirdi. Məkkəyə yaxınlaşdıqda Əli onları qarşılamağa çıxdı. Bu zaman onların üzərindəki libasları gördü və çıxarmalarını əmr etdi. Əsgərlər bundan Peyğəmbərə (s) şikayət etdilər. Peyğəmbər (s) bir xütbə söyləyərək buyurdu: "Ey camaat, Əlidən şikayət etməyin! Allaha and olsun ki, o, Allah yolunda və Allah barədə ən çox qorxan və çəkinən şəxsdir".*[433]

Bu rəvayətə bir neçə cəhətdən irad bildirmək mümkündür:

A. Rəvayət mürsəldir, sənədsizdir, dəlil göstərilmək səlahiyyətinə malik deyil. Bəlkə də İbn Əsir bunu Təbərinin "Tarix"indən nəql edib. Belə ki, İbn Əsir əksər yerlərdə Təbərinin "Tarix"ində qeyd edilənlərə əsaslanıb. Kitabının müqəddiməsində yazır: *"İlk olaraq böyük alim, imam Əbu Cəfər Təbərinin kitabından başladım. Belə ki, həmin kitab hamının*

---

[432] İmtaul-əsma, Muqrizi, c. 2, s. 96-97

[433] əl-Kamilu fit-tarix, İbn Əsir, c. 2, s. 301

istinad etdiyi əsərdir. Oradakı bütün şərhləri öz kitabımda qeyd etmişəm".[434]

Təbərinin rəvayətinin mürsəl və bəzi ravilərinin zəif olduğu üçün etibarsız sayıldığını əvvəldə qeyd etmişik.

B. Bu rəvayət bizim sözlərimizi təsdiqləyir. Belə ki, İmam Əli (ə) Yəmənə döyüşmək üçün deyil, zəkat toplamaq üçün çıxmışdı. Bu isə Vaqidi və Muqrizinin rəvayətləri ilə ziddiyyət təşkil edir.

4. Əhməd "Müsnəd"də səhih sənədlə Süleyman ibn Muhəmməd ibn Kəb ibn Ücrədən, o da bibisi Zeynəb bint Kəbdən (həmin qadın Əbu Səid Xudrinin yanında idi), o da Əbu Səid Xudridən nəql edir: *"Camaat Əlidən şikayət etdi. Bunun ardınca Peyğəmbər (s) qalxıb bizə xütbə söylədi. Belə buyurduğunu eşitdim: "Ey camaat, Əlidən şikayət etməyin! Allaha and olsun ki, o, Allah yolunda və Allah barədə ən çox qorxan və çəkinən şəxsdir".*[435]

Bu hədis sənəd cəhətdən səhihdir. Həmzə Əhməd Zeyn hədisin sənədinə hökm verərkən deyir: *"Sənədi səhihdir. Abdullah ibn Əbdürrəhman ibn Müəmmər ibn Həzm Ənsari Ömər ibn Əbdüləzizin Mədinədəki qazısıdır. Hədisi Heysəmi də rəvayət edib (9/129) və barəsində susub. Hakim isə onun səhih olduğunu bildirib (3/134). Zəhəbi də onunla razılaşıb".*[436]

Bu hədisin məzmununa bir neçə irad var:

A. Bu hədisdə hadisənin Yəməndə olduğuna dəlalət edəcək hər hansı bir işarə və ya qeyd yoxdur, İmam Əlinin (ə) həmin şəhərə döyüşmək, yaxud zəkat toplamaq üçün çıxdığına da dəlalət etmir. Eləcə də rəvayətdə ordu, döyüş, əsir qadın və ya zəkatla bağlı heç bir qeyd də mövcud deyil.

B. Rəvayətdə Peyğəmbərin (s) Vida həccinə çıxması ilə bağlı heç bir qeyd yoxdur. Eləcə də İmam Əlinin (ə) və ordusunun Məkkəyə daxil

---

[434] əl-Kamilu fit-tarix, İbn Əsir, c. 1, s. 3

[435] Müsnəd, Əhməd ibn Hənbəl, c. 10, s. 272, hədis 11756

[436] Müsnəd, Əhməd ibn Hənbəl, c. 10, s. 272, hədis 11756

olduqlarına, Peyğəmbərlə (s) görüşdüklərinə və orada İmamdan (ə) şikayət etdiklərinə də dəlalət edəcək bir işarə mövcud deyil.

Belə olduqda, şikayətlərin Məkkədə edildiyini, Peyğəmbərin də (s) İmam Əlidən (ə) şikayətləri dəf etmək üçün "Qədir-Xum" xütbəsini söylədiyini isbatlamaq üçün bu rəvayətə necə etimad etmək və dəlil göstərmək olar?!

5. Əhməd ibn Hənbəl "Müsnəd"də yazır: *"Yaqub ibn İbrahim bizə atasından, o da Muhəmməd ibn İshaqdan, o da Aban ibn Salehdən, o da Fəzl ibn Məqil ibn Sinandan, o da Abdullah ibn Niyaz Əsləmidən, o da Əmr ibn Şas Əsləmidən (Hüseybiyyədə iştirak edənlərdən idi) nəql edir: "Əli ilə birlikdə Yəmənə yola düşdük. Yolda mənə cəfa verdi. Ona qarşı qəzəbləndim. Qayıtdıqda elə məsciddəcə ondan şikayət etdim. Bu sözlərim Peyğəmbərə (s) çatdı.*

Bir gün səhər məscidə gəldim. Əshabı Peyğəmbəri (s) dövrəyə almışdı. Mən keçib əyləşənədək mənə tərəf baxışlarını sərtləşdirdi. Sonra buyurdu: "Ey Əmr, Allaha and olsun ki, mənə əziyyət etmisən". Dedim: "Ya Peyğəmbər, sənə əziyyət etməkdən Allaha sığınıram". Buyurdu: "Bəli, kim Əlini incitsə, həqiqətən, məni incitmişdir".[437]

Bu rəvayətin də sənədi mötəbərdir. Heysəmi hədisə şərhində yazır: "*Bunu Əhməd, Təbərani ixtisarla və Bəzzar isə daha müxtəsər şəkildə nəql ediblər. Əhmədin hədisinin raviləri etibarlı (siqə) şəxslərdir".*[438]

Həmzə Əhməd Zeyn də hədislə bağlı hökmündə deyir: *"Sənədi həsəndir... Bu hədisi İbn Əbu Şeybə "əl-Fəzail"də "Əlinin fəzilətləri" bölməsində (12/75, rəqəm 21107), İbn Hibban (543, rəqəm 2202) müxtəsər şəkildə nəql ediblər. Hakim hədisin səhih olduğunu bildirib (3/122) və Zəhəbi də onunla razılaşıb".*[439]

Bu rəvayətin də məzmununa iradlar var:

---

[437] Müsnəd, Əhməd ibn Hənbəl, c. 12, s. 392
[438] Məcməuz-zəvaid, Heysəmi, c. 9, s. 129
[439] Müsnəd, Əhməd ibn Hənbəl, c. 12, s. 392

A. Rəvayətdə İmam Əlinin (ə) müharibə və ya zəkat toplamaq üçün yola çıxdığına dair heç bir işarə yoxdur. Əgər İmam (ə) döyüşmək üçün yollanmışdısa, o zaman bu, Yəmənə ilk səfəridir. İlk səfərin isə Vida həcci ilə heç bir əlaqəsi yoxdur. Əgər zəkat toplamaq üçün idisə, rəvayətdə Məkkə və ya Vida həccinə heç bir vurğu mövcud deyil.

B. Əgər Əmr ibn Şas Əsləminin İmam Əli ilə (ə) Yəmənə səfəri zəkat toplamaq üçün idisə, demək bu, İmamın (ə) Yəmənə üçüncü səfəridir. Əvvəldə də qeyd etdik ki, həmin şikayətlər Məkkədə deyil, Mədinədə edilib. Bunu Əmr ibn Şas Əsləminin özü də etiraf edir: *"Qayıtdıqda elə məsciddəcə ondan şikayət etdim".* Məsciddəki məqsədi Mədinədəki Peyğəmbər (s) məscididir. Dəlil isə həmin rəvayətin "Məcməuz-zəvaid"də Heysəmi tərəfindən nəql edilən mətnidir: *"Mədinəyə gəldikdə məsciddə ondan şikayət etdim".*[440]

Bütün bunlar Yəmənə göndərilən ordunun şikayətləri ilə bağlı istinad edilə biləcək rəvayətlərdir. Hadisələrin Vida həcci zamanı Məkkədə baş verdiyinə dair dəlillərin bir hissəsi sənəd və dəlalət baxımından etibarsızdır, bəziləri isə məzmunca etimada layiq deyil.

Bunlarla bərabər, rəvayətlərin məzmununa ümumən belə cavab vermək olar: Yəməndən qayıdan ordunun Həcc mövsümündə Məkkəyə daxil olduğunu və İmam Əlidən (ə) Peyğəmbərə (s) orada şikayət etdiklərini fərz etsək belə, deyirik:

Peyğəmbər (s) camaatın arasında xütbə söyləyərək bəzi səhabələrin İmam Əlidən (ə) olan şikayətlərini rədd etmişdi. Buyurmuşdu: *"Ey camaat, Əlidən şikayət etməyin! Allaha and olsun ki, o, Allah yolunda və Allah barədə ən çox qorxan və çəkinən şəxsdir".* Necə ki, bunu Əhməd və Hakim səhih sənədlə qeyd ediblər. Peyğəmbər (s) isə həmin andaca İmam Əliyə (ə) bəraət qazandıraraq böyümədən söz-söhbətin qarşısını alıb.

---

[440] Məcməuz-zəvaid, c. 9, s. 129

Bu xütbə ilə Qədir-Xum xütbəsinin arasında böyük zaman fasiləsi olduğu görünür. Həmin müddətin iyirmi gün olmasını da ehtimal etmək mümkündür. Belə olduqda şikayətlərlə Qədir-Xum hadisənin bir-birinə bağlayacaq amil bu rəvayətlərdə mövcud deyil. O səbəbdən də "Qədir-Xum" hədisinin sözlərində Yəmən ordusunun şikayəti ilə bağlı hər hansı bir qeyd və ya işarəni görmürük. Əgər "Qədir-Xum" xütbəsi şikayətləri rədd etmək üçün söylənmişdisə, Peyğəmbər (s) mütləq həmin şikayətlərə də toxunar, sonra isə İmam Əlinin (ə) dostluq və məhəbbəti ilə bağlı fikirləri səsləndirərdi ki, camaat bəzi səhabələrin İmam Əliyə (ə) qarşı şikayətlərinin yersiz və puç olduğunu bilsin.

Dördüncü müzakirə

Hər iki rəvayət İmam Əlinin (ə) vilayətinə dəlalət edir. Onların vəhdətini və *"Mən kimin mövlasıyamsa Əli də onun mövlasıdır"* sözlərinin Yəmən ordusunun söz-söhbəti və şikayətləri səbəbindən deyildiyini fərz etsək, öz dəlalətini yenə də qorumuş olacaq. Çünki, "Qədir-Xum" hədisi əshabın şikayətlərinə cavab xarakteri daşısa belə, İmam Əlinin (ə) imamət və xilafətinə də dəlalət edir. Belə ki, bu və ya digər məsələ həmin sözlərin səbəbidir və deyilmiş sözlərdən kənarda qalır, hər hansı bir kəlam və ya hökmlə bağlılığına mane yaratmır. Hər nə iddia olunsa da cavabı Peyğəmbərin (s) bu sözləri olacaq. Həmin səbəblərin varlığı elə yoxluğu kimidir, hədisin dəlalətində heç bir şeyi dəyişməyəcək. Belə ki, "Qədir-Xum" rəvayətinin özündə bu mənaya dəlalət edən bir ləfzi amil mövcuddur ki, o da Peyğəmbərin (s) *"Məgər mən möminlərə canlarından üstün deyiləm?"* sözləridir.

Bunu Qazi Əbdülcəbbar "əl-Muğni" kitabında da bəyan edib. Orada yazır: *"Şeyximiz Əbu Hüzeyl bu hədis*[441] *barədə deyir: "Düzgünlüyü*

[441] *"Mən kimin mövlasıyam Əli də onun mövlasıdır"* hədisi

*təsdiqləndiyi təqdirdə bu hədis dində vilayət haqqına dəlalət edir". Bəzi elm əhli isə deyir: "Bir dəstə səhabə Əliyə qəzəblənmişdi. Onun barəsində söz-söhbətlər dolaşmağa başladı. Peyğəmbər (s) də onun barəsində fitnələrin peyda olacağından narahatlıq keçirərək məqam və məhəbbətini camaata bəyan etdi". Bəziləri isə hadisənin səbəbləri barədə belə deyirlər: "Əli ilə Üsamə ibn Zeydin arasında mübahisə yaranmışdı. Möminlərin əmiri ona demişdi: "Sən bu sözləri mövlana deyirsən?" Üsamə isə: "Sən mənim mövlam deyilsən, mənim mövlam Peyğəmbərdir (s)" deyə cavab vermişdi. Peyğəmbər (s) də bu sözə cavab olaraq "Mən kimin mövlasıyamsa Əli də onun mövlasıdır" deyə buyurmuşdu. Bu sözü ilə Üsamənin mübahisəsinə son vermiş, Əlinin də özü kimi mövla məqamında olduğunu bəyan etmişdi. Bəziləri də bu cür hadisənin Zeyd ibn Harisə ilə baş verdiyini söyləmiş, lakin "*Qədir-Xum*" hadisəsinin onun ölümündən sonra baş verdiyini qeyd edərək bu iddianı inkar etmişlər.*

Hədisin[442] *mənası bizim sözlərimizi təsdiqləyir. Çünki, səbəb kimi söylənən bu sözlərin hər hansı biri doğru olsa belə, xəbər həmin səbəbdən kənarda qalır, hər hansı bir kəlam və ya hökmlə bağlılığına mane yaratmır. Hər nə iddia olunsa da cavabı Peyğəmbərin (s) bu sözləri olacaq. Həmin səbəblərin varlığı elə yoxluğu kimidir. Səbəbin zikr olunması hədisin dəlalətini dəyişməyəcək".*[443]

Beşinci müzakirə

"Qədir-Xum" hədisi Allahın əmrinə əsasən söylənib, onun Yəməndən qayıdan ordu ilə heç bir əlaqəsi yoxdur. Belə ki, İmam Əlinin (ə) imamət və xilafətinin müsəlmanlara çatdırılması əmri barədə vəhy nazil olmuşdu. Necə ki, buna əvvəldə də qeyd etdiyimiz bəzi səhih rəvayətlər də işarə edir. Onlara müxtəsər şəkildə nəzər salaq:

---

[442] Həmin hədis

[443] əl-Muğni fil-imamət, Qazi Əbdülcəbbar, c. 20, q.1, s. 154

A. İbn Əbu Hatəm öz "Təfsir"ində səhih sənədlə (səhihliyini əvvəldə qeyd etmişdik) Ətiyyə Ovfidən, o da Əbu Sədi Xudridən nəql edir: ***"Ya Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil ediləni təbliğ et"*** *ayəsi Əli ibn Əbu Talib barədə nazil oldu".*[444]

B. Sələbi "Təfsir"ində ayənin nazil olması ilə bağlı dörd yolla rəvayəti nəql edərək deyir: ***"Ya Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil ediləni təbliğ et"*** *ayəsi nazil olduqda Peyğəmbər (s) İmam Əlinin (ə) əlindən tutaraq buyurdu: "Mən kimin mövlasıyamsa Əli də onun mövlasıdır".*[445]

C. Qeyd edildiyi kimi, İbn Əsakir səhih sənədlə Əbu Hüreyrədən nəql edir: *"Zil-hiccə ayının onu səkkizinci günü oruc tutan şəxsə altmış ayın orucu yazılar. Həmin gün* Qədir-Xum *günüdür. O gün Peyğəmbər (s) Əli ibn Əbu Talibin əlindən tutaraq camaata səsləndi: "Məgər mən möminlərin ixtiyar sahibi deyiləm?" Camaat: "Bəli, ya Peyğəmbər!" deyə cavab verdikdə buyurdu: "Mən kimin mövlasıyamsa Əli də onun mövlasıdır".*

Ömər ibn Xəttab dedi: "Bəh-bəh, ey Əbu Talibin oğlu! Mənim və hər bir müsəlmanın ixtiyar sahibi oldun!"

Uca Allah bu ayəni nazil etdi: ***"Bu gün sizin dininizi tamamladım..."***

Kim Rəcəb ayının iyirmi yeddisi oruc tutarsa Uca Allah ona altmış ayın orucunu yazar. Bu, Cəbrailin (ə) Peyğəmbərə (s) peyğəmbərliklə nazil olduğu ilk gündür".[446]

Rəvayətin səhih olduğunu əvvəldə qeyd etmişik.

Deməli, Qədir-Xum hadisəsi ilahi və Qurani bir hadisədir, bunu Yəmənə göndərilən ordunun kiçik bir şikayəti ilə əlaqələndirmək insafsızlıqdır. Xüsusilə qeyd edilməlidir ki, səhabələrin İmam Əlidən (ə) şikayətləri dəfələrlə olub və Peyğəmbər (s) onların hər birinə anındaca cavab verib.

---

[444] Təfsir, İbn Əbu Hatəm, c. 4, s. 1127

[445] Bax: Təfsir, Sələbi, c. 4, s. 92

[446] Tarixu Bağdad, Xətib Bağdadi, c. 8, s. 289

Bundan əlavə, Peyğəmbər (s) Qədir-Xum hadisəsində şikayət məsələsini əsla qeyd etmədi. Bunu yalnız Beyhəqi və İbn Kəsir öz fikir və düşüncələrinə əsaslanıb iddia ediblər. Lakin bu iddialarına da hər hansı elmi bir dəlil və ya səbəb göstərməyiblər.

İkinci bəhs: “Qüreyşdən olacaq on iki xəlifə” hədisi

İmamiyyə şiələri İmam Əlinin (ə) xilafət və imaməti haqqına, Peyğəmbər (s) sünnəsinə əsasən, ona itaətin vacibliyinə “On iki xəlifə” hədisini dəlil göstərirlər. Hədisin sənədində heç bir şübhə yoxdur. Nəinki, Əhli-Sünnənin digər mötəbər hədis kitablarında, hətta altı səhih hədis kitabında da bu hədis nəql edilib. Söhbət yalnız onların İmam Əlinin (ə) və Əhli-Beytinin (ə) imamətinə necə dəlil olmasından gedir. Biz hədisin nəql yollarını bir-bir qeyd edəcək, ardınca isə onun dəlaləti ilə bağlı müzakirə açacağıq.

“On iki xəlifə” hədisinin nəql yolları

Əhli-Sünnə hədisşünas və hafizləri bir çox nəql yolları və müxtəlif kəlmələrlə “On iki xəlifə” hədisini kitablarında rəvayət ediblər. Onlardan bəzilərinə nəzər salaq:

1. Cabir ibn Səmurənin hədisi

“On iki xəlifə” hədisi Cabir ibn Səmurədən bir neçə yolla nəql olunub:

Birinci yol: Həsinin Cabirdən nəql etdiyi hədis

Müslim “Səhih”də Həsin sənədilə Cabir ibn Səmurədən rəvayət edir: *“Atamla birlikdə Peyğəmbərin (s) yanına gəldik. Peyğəmbərin (s) belə buyurduğunu eşitdim: “Bu məsələ onların üzərinə on iki xəlifə gəlib keçmədikcə başa çatmaz”. Sonra mənim eşitmədiyim bəzi sözlər danışdı.*

Mən atamdan onun nə söylədiyini soruşduqda o: "Onların hamısı Qüreyşdəndir" dediyini söylədi".[447]

İkinci yol: Əbdülməlik ibn Ümeyrin Cabirdən nəql etdiyi hədis

Buxari "Səhih"də Əbdülməlik ibn Ümeyr sənədilə Cabir ibn Səmurədən nəql edir: *"Peyğəmbərin (s) belə buyurduğunu eşitdim: "On iki əmir olacaq". Ardınca mənim eşitmədiyim bəzi sözlər dedi. Atam dedi: "Buyurdu ki, onların hamısı Qüreyşdəndir".*[448]

Həmçinin Müslim "Səhih"ində rəvayət edir: *"Peyğəmbərin (s) belə buyurduğunu eşitdim: "İnsanların üzərinə on iki xəlifə gəlib-getmədikcə işləri ötüb keçməz". Sonra Peyğəmbər (s) mənim eşitmədiyim bəzi sözlər söylədi. Atamdan Peyğəmbərin (s) nə barədə danışdığını soruşduqda dedi: "Onların hamısı Qüreyşdəndir" buyurdu".*[449]

Bunu Əhməd də nəql edib: *"Bu iş on iki əmir başçı olmadıqca aradan getməyəcək. Onların hamısı Qüreyşdəndir".*[450] Albani və Şüeyb Arnaut hədisin sənədinin səhih olduğunu bildiriblər.[451]

Üçüncü yol: Simak ibn Hərbin Cabirdən nəql etdiyi hədis

Yenə də Müslim "Səhih"ində Simak ibn Hərb yolu ilə Cabir ibn Səmurənin belə dediyini rəvayət edir: *"Peyğəmbərin (s) belə buyurduğunu eşitdim: "Üzərinizdə on iki xəlifə olduqca İslam qüdrətli qalacaq". Sonra*

---

[447] Səhih, Müslim, c. 3, s. 1452, hədis 1821, "İnsanlar Qüreyşə və Qüreyşdən olan xəlifələrə tabe olmalıdır" babı

[448] Səhih, Buxari, c. 6, s. 2624, hədis 6796. "Xələf" babı

[449] Səhih, Müslim, c. 3, s. 1452, hədis 1821, "İnsanlar Qüreyşə və Qüreyşdən olan xəlifələrə tabe olmalıdır" babı

[450] Müsnəd, Əhməd ibn Hənbəl, c. 5, s. 97, hədis 20961

[451] əs-Sisilətus-səhihə, Albani, c. 1, s. 719, hədis 376; Müsnəd, Əhməd ibn Hənbəl, c. 5, s. 97, hədis 20961, Şüeyb Arnautun hədislərə verdiyi hökmlərlə

bəzi sözlər söylədi, mən onları başa düşmədim. Atamdan Peyğəmbərin (s) nə söylədiyini soruşduqda dedi: "Onların hamısı Qüreyşdəndir" buyurdu".[452]

Tirmizi də "Sünən"də Əbdülməlikin öncəki hədisinə bənzər kəlmələrlə nəql edir və ardınca deyir: *"Bu, həsən, səhih hədisdir".*[453]

Dördüncü yol: Şəbinin Cabirdən nəql etdiyi rəvayət

Müslim "Səhih"də İbn Ovn sənədilə Şəbidən, o da Cabir ibn Səmurədən nəql edir: *"Atamla bərabər Peyğəmbərin (s) yanına getdim. Onun belə buyurduğunu eşitdim: "On iki xəlifələr müddətində bu din qüvvətli və qüdrətli olaraq qalacaq". Sonra bəzi sözlər söylədi ki, camaat mənə eşitməyə imkan vermədi. Atamdan Peyğəmbərin (s) nə söylədiyini soruşduqda dedi: "Onların hamısı Qüreyşdəndir" buyurdu".*[454]

Bunu Əhməd də "Müsnəd"də nəql edir. Orada əlavə olaraq bu sözlər yer alır: *"Camaatın bəzisi qalxır, bəziləri otururdu..."*[455] Hədisin ardınca Şüeyb Arnaut deyir: *"Müslimin şərtinə əsasən, sənədi səhihdir, raviləri etibarlı (siqə) və Şeyxeynin raviləridir. Süleym ibn Əxzərdən savayı. O, təkcə Müslimin ravilərindəndir".*[456]

Həmçinin Mücalid yolu ilə Şəbidən, o da Cabir ibn Səmurədən nəql edir: *"On iki padşah rəhbər olduqca bu iş qüdrətli və aşkar olaraq qalacaq. Onların hamısı..." Camaatın danışmağa və səs-küy salmağa başladığı üçün "Onların hamısı..." sözündən sonra nə dediyini eşitmədim. Atama dedim:*

---

[452] Səhih, Müslim, c. 3, s. 1452, hədis 1821, "İnsanlar Qüreyşə və Qüreyşdən olan xəlifələrə tabe olmalıdır" babı

[453] Sünən, Tirmizi, c. 4, s. 501, hədis 2223, "Xəlifələr barədə rəvayətlər" babı

[454] Səhih, Müslim, c. 3, s. 1452, hədis 1821, "İnsanlar Qüreyşə və Qüreyşdən olan xəlifələrə tabe olmalıdır" babı

[455] Müsnəd, Əhməd ibn Hənbəl, c. 5, s. 99, hədis 20976

[456] Müsnəd, Əhməd ibn Hənbəl, c. 5, s. 99, hədis 20976, Şüeyb Arnautun hədislərə verdiyi hökmlərlə

"Atacan, "Onların hamısı" sözündən sonra nə buyurdu?" Atam dedi: "Onların hamısı Qüreyşdəndir".[457]

Yenə də Müslim "Səhih"də Davud ibn Əbu Hind yolu ilə Şəbidən, o da Cabir ibn Səmurədən nəql edir: *"On iki xəlifələr müddətində bu din qüvvətli və qüdrətli olaraq qalacaq". Sonra bəzi sözlər söylədi ki, anlaya bilmədim. Atamdan Peyğəmbərin (s) nə söylədiyini soruşduqda dedi: "Onların hamısı Qüreyşdəndir" buyurdu".*[458]

Təbərani isə Qətadə yolu ilə Şəbidən, o da Cabir ibn Səmurədən nəql edir: *"Atamla birlikdə Peyğəmbərin (s) yanında idik. Buyurdu: "Bu ümmətin on iki hamisi olacaq ki, onlardan üz döndərənlər belə onlara zərər verə bilməyəcəklər". Sonra Peyğəmbər (s) pıçıltı ilə bəzi sözlər söylədi, eşidə bilmədim. Atama dedim: "Peyğəmbərin (s) pıçıldadığı sözlər nə idi?" Dedi: "Onların hamısı Qüreyşdəndir" deyə buyurdu".*[459]

Beşinci yol: Amir ibn Səd ibn Əbu Vəqqasın Cabirdən nəql etdiyi hədis

Müslim "Səhih"ində Mühacir ibn Mismar yolu ilə Amir ibn Səd ibn Əbu Vəqqasdan nəql edir: *"Cabir ibn Səmurəyə qulluqçum Nafi ilə məktub göndərib Peyğəmbərdən (s) eşitdiyi sözlər barədə mənə məlumat verməsini istədim. Cavabında mənə yazdı: "Cümə gününün axşamı Əsləminin rəcm olunduğu gün Peyğəmbərin (s) belə buyurduğunu eşitdim: "Bu din Qiyamət saatınadək aradan getməz və həmin vaxtadək üzərinizdə on iki xəlifə olacaq. Onların hamısı Qüreyşdəndir".*[460]

---

[457] Müsnəd, Əhməd ibn Hənbəl, c. 5, s. 99, hədis 20974

[458] Səhih, Müslim, c. 3, s. 1452, hədis 1821, "İnsanlar Qüreyşə və Qüreyşdən olan xəlifələrə tabe olmalıdır" babı

[459] əl-Möcəmul-kəbir, Təbərani, c. 2, s. 196, hədis 1794, Amir Şəbinin Cabir ibn Səmurədən nəql etdikləri babı

[460] Səhih, Müslim, c. 3, s. 1453, hədis 1822

Əbu Davud "Sünən"də Davudun vasitəsilə Amirdən, o da Cabir ibn Səmurədən nəql edir: *"Peyğəmbərin (s) belə buyurduğunu eşitdim: "Bu din üzərinizdə on iki xəlifə olduğu müddətdə qüvvətli olaraq qalacaq".*

Ravi deyir: Camaat təkbir söylədi, səs-küy qalxdı. Peyğəmbər (s) həmin vaxt yavaş səslə nə isə söylədi. Atama dedim: "Atacan, o nə söylədi?" Atam da cavabında "Onların hamısı Qüreyşdəndir" buyurdu" dedi".[461]

Albani hədisin səhih olduğunu qeyd edir.[462]

Əhməd də Həmmad ibn Üsamənin vasitəsilə Mücaliddən, o da Amirdən, o da Cabir ibn Səmurə Sivaidən rəvayət edir: *"Peyğəmbərin (s) Vida həccində belə buyurduğunu eşitdim: "Bu din ona qarşı çıxanlar üzərində qalib olacaq. Ta ki, ümmətim üzərinə on iki xəlifə gəlib keçməyənədək nə onun müxalifi və nə də ondan ayrılanlar əsla dinə zərər verə bilməyəcəklər". Sonra bəzi sözlər söylədi ki, onları anlamadım. Atamdan Peyğəmbərin (s) nə söylədiyini soruşduqda "Onların hamısı Qüreyşdəndir" buyurduğunu bildirdi".*[463]

Təbərani də Əbu Üsamə yolu ilə Mücaliddən, o da Şəbidən, o da Cabirdən[464] bunu nəql edib.

Həmçinin Əhməd İbn Nümeyr yolu ilə Mücaliddən, o da Amirdən, o da Cabir ibn Səmurə Sivaidən rəvayət edir: *"Peyğəmbərin (s) Vida həccində belə buyurduğunu eşitdim..."* Davamı Həmmadın hədisi kimidir. Lakin burada əlavə olaraq bunlar qeyd edilir: *"Atam Peyğəmbərə (s) məndən*

---

[461] Sünən, Əbu Davud, c. 2, s. 508, hədis 4280, "Mehdi" fəsli

[462] Sünən, Əbu Davud, c. 2, s. 508, hədis 4280, "Mehdi" fəsli, hədislərə Albaninin verdiyi hökmlərlə

[463] Müsnəd, Əhməd ibn Hənbəl, c. 5, s. 87, hədis 20833, Cabir ibn Səmurənin hədisləri

[464] əl-Möcəmul-kəbir, Təbərani, c. 2, s. 196, hədis 1796, Amir Şəbinin Cabir ibn Səmurədən nəql etdikləri

daha yaxın əyləşmişdi. Dedim: "Atacan, Peyğəmbərin (s) yavaşca söylədikləri nə idi?" Dedi: "Onların hamısı Qüreyşdəndir" buyurdu".[465]

Altıncı yol: Əbu Xalidin Cabirdən nəql etdikləri

Əbu Davud Mərvan ibn Müaviyə yolu ilə İsmail ibn Əbu Xaliddən, o da atasından, o da Cabir ibn Səmurədən nəql edir: *"Peyğəmbərin (s) belə buyurduğunu eşitdim: "Üzərinizdə on iki xəlifə olduqca din aradan getməyəcək. Ümmət onların ətrafına cəm olacaq". Sonra bəzi sözlər söylədi, mən onları başa düşmədim. Atamdan Peyğəmbərin (s) nə söylədiyini soruşduqda dedi: "Onların hamısı Qüreyşdəndir" buyurdu".*[466]

Bu hədisin ravilərindən olan Əbu Xalid Valibi Əbu Davudun, Tirmizinin və İbn Macənin ravilərindəndir. Əbu Hatəm, İbn Hibban və Zəhəbi onun etibarlı (siqə) olduğunu söyləyiblər. Tirmizi onun ravisi olduğu hədislərə səhih hökmü verib. Hafiz ibn Həcər "Təhzibut-təhzib"də yazır: *"Əbu Xalid Valibi Kufi, adı Hörmüzdür, İbn Abbasdan, Cabir ibn Səmurədən, Əbu Hüreyrədən, Məymunədən hədis rəvayət edib... Əbu Hatəm deyir: "Hədisləri səlahiyyətlidir". İbn Hibban da onu "əs-Siqat"da qeyd edib".*[467]

Zəhəbi "əl-Kaşif"də yazır: *"Əbu Xalid Valibi Hörmüz... O, Cabir ibn Səmurədən və İbn Abbasdan, Əməş və Fitr isə ondan rəvayət nəql edib. Doğru danışan şəxsdir".*[468]

Bu rəvayəti Təbərani də İbrahim ibn Həmid yolu ilə İbn Əbu Xaliddən, o da atasından, o da Cabir ibn Səmurədən nəql edib.[469]

---

[465] Müsnəd, Əhməd ibn Hənbəl, c. 5, s. 87, hədis 20836, Cabir ibn Səmurənin hədisləri

[466] Sünən, Əbu Davud, c. 2, s. 508, hədis 4279, "Mehdi" fəsli

[467] Təhzibut-təhzib, İbn Həcər, c. 12, s. 90, rəqəm 320

[468] əl-Kaşifu fi mərifəti mən ləhu vivayətun fil-kutubus-sittə, c. 2, s. 422, rəqəm 6601

[469] əl-Möcəmul-kəbir, Təbərani, c. 2, s. 207, hədis 1849, Əbu Xalid Vabilinin Cabir ibn Səmurədən nəql etdikləri

Yeddinci yol: Əsvəd ibn Səid Həmədaninin Cabirdən nəql etdiyi hədis

Əhməd və Əbu Davud Züheyr yolu ilə Ziyad ibn Xeysəmədən, o da Əsvəd ibn Səid Həmədanidən, o da Cabir ibn Səmurədən rəvayət edirlər: *"Peyğəmbərin (s) belə buyurduğunu eşitdim: "Məndən sonra on iki xəlifə olacaq. Onların hamısı Qüreyşdəndir".*

Deyir: Sonra evinə qayıtdı, qüreyşlilər onun yanına gəlib dedilər: "Bəs sonra nə olacaq?" Peyğəmbər (s) buyurdu: "Sonra hərc-mərclik olacaq".[470]

Albani hədisin ardınca yazır: *"Bu, sənədi həsən hədisdir, raviləri etibarlıdır (siqədir), Əsvəddən savayı hamısı Müslimin raviləridir. Əsvəd isə "ət-Təqrib" və "əl-Xülasə"də qeyd edildiyi kimi, doğru danışan şəxsdir".*[471]

Bunu İbn Hibban "Səhih"ində[472] də nəql edib. Şüeyb Arnaut hədisin ardınca deyir: *"Səhih hədisdir".*[473]

Hədis başqa yollarla da nəql olunub. Təbərani Əta ibn Əbu Məymunəyə istinadən Cabir ibn Səmurədən[474] və digər yollarla nəql edib. Lakin onları burada qeyd edərək araşdırmaq söhbətimizi uzadacaq.

2. Əbu Cüheyfənin hədisi

Təbərani Ovn ibn Əbu Cüheyfənin vasitəsilə atasından rəvayət edir: *"Əmimlə birlikdə Peyğəmbərin (s) yanında idik. O, xütbə söyləyərkən buyurdu: "Ümmətimin məsələləri üzərilərində on iki xəlifə olduğu müddətcə xeyirli olacaq". Sonra səsini aşağı salıb nə isə söylədi. Mən qarşımda əyləşən*

---

[470] Müsnəd, Əhməd ibn Hənbəl, c. 5, s. 92, hədis 20890, Cabir ibn Səmurənin hədisləri; Sünən, Əbu Davud, c. 2, s. 508, hədis 4281, "Mehdi" fəsli

[471] Müsnəd, Əhməd ibn Hənbəl, c. 5, s. 92, hədis 20890, Cabir ibn Səmurənin hədisləri; Sünən, Əbu Davud, c. 2, s. 508, hədis 4281, "Mehdi" fəsli

[472] əs-Silsilətus-səhihə, Albani, c. 3, s. 149, hədis 1075.

[473] Həmin mənbə, hədislərə Şüeyb Arnautun hökmlərilə.

[474] əl-Möcəmul-kəbir, Təbərani, c. 2, s. 256, hədis 2073, Əta ibn Əbu Məymunənin Cabir ibn Səmurədən nəql etdikləri

əmimdən Peyğəmbərin (s) nə buyurduğunu soruşduqda "Onların hamısı Qüreyşdəndir" deyə cavab verdi".[475]

Heysəmi hədisin ardınca yazır: *"Bunu Təbərani "əl-Möcəmul-övsat"da və "kəbir"də, eləcə də Bəzzar rəvayət ediblər. Təbəraninin rəvayətinin raviləri "Səhih"in raviləridir".*[476]

3. İbn Məsudun hədisi

Əhməd və Təbərani Həmmad ibn Zeyd sənədilə Mücaliddən, o da Şəbidən, o da Məsruqdan nəql edirlər: *"Abdullah ibn Məsudun yanında əyləşmişdik. Bir nəfər ondan soruşdu: "Ey Əbu Əbdürrəhman, siz Peyğəmbərdən (s) bu ümmət üzərində neçə xəlifə olacağını soruşdunuzmu?" İbn Məsud dedi: "Mən İraqa gəldiyim vaxtdan bəri səndən başqa heç kim bu sualı verməyib! Biz Peyğəmbərdən (s) soruşduq, o isə "Bəni-İsrailin başçılarının sayı qədər – on iki xəlifə olacaq" buyurdu".*[477]

Heysəmi hədisin ardınca yazır: *"Bunu Əhməd, Əbu Yəla və Bəzzar rəvayət ediblər. Ravilərin arasında Mücalid ibn Səid var ki, Nəsai onu etibarlı (siqə), digərləri isə zəif hesab ediblər. Digər raviləri isə etibarlı (siqə) şəxslərdir".*[478]

Rəvayətin sənədini Hafiz ibn Həcər "həsən" sayıb. "Fəthul-Bari"də yazır: *"Bunu Əhməd, Bəzzar İbn Məsuda istinadən həsən sənədlə nəql ediblər ki, bu ümmətə neçə xəlifə başçılıq edəcək deyə soruşuldu..."* Ardınca hədisi qeyd edir.[479]

---

[475] əl-Möcəmul-kəbir, Təbərani, c. 22, s. 120, hədis 308, yunus ibn Əbu Yəfurun Ovn ibn Əbu Cüheyfədən nəql etdikləri; əl-Möcəmul-övsat, Təbərani, c. 6, s. 209, hədis 6211, "adı Muhəmməd olanlar" bölməsi

[476] Məzməuz-zəvaid, Heysəmi, c. 5, s. 345, hədis 8968, "Xəlifələr on ikidir" fəsli

[477] Müsnəd, Əhməd ibn Hənbəl, c. 1, s. 398, hədis 3781; əl-Möcəmul-kəbir, Təbərani, c. 10, s. 157, hədis 1031

[478] Məcməuz-zəvaid, Heysəmi, c. 5, s. 344, hədis 8967

[479] Fəthul-bari, Hafiz ibn Həcər, c. 12, s. 212

Hakim "Müstədrək"də bunu nəql edərək deyir: *"Bu kitabda Mücalidin və ona yaxınların (Allah onlara rəhm etsin!) hədislərini rəvayət edə bilmədim"*.[480] Zəhəbi isə onun barəsində "ət-Təlxis"də[481] susur.

"On iki xəlifə" hədisinin nəql yolları barədə yekun söz

Təqdim edilənlərdən aydın olur ki, "On iki xəlifə" hədisinin sənədinə şübhə yoxdur. Bu hədis qəbul edilmiş bir İslam həqiqətidir, onun Peyğəmbər (s) tərəfindən söyləndiyinə heç bir şəkk yoxdur.

Buradan da bəzilərinin On iki imam şiələrinin yəhudi təfəkküründən doğduğu, şiələrin bunu Daniyal peyğəmbərin (ə) kitabından götürdüklərinə dair sadəlövh fikirlərinin əsasının olmadığı anlaşılır. Rəvayətlərdən də göründüyü kimi, bu, təməlində həmfikir olunan bir İslam əqidəsidir. İxtilaf isə müsəlmanların əqidə ilə bağlı mətnin varlığında həmfikir olub, onun mənalarında fərqli fikirlərə düşdükləri kimi, hədisin yozumundadır. Peyğəmbərdən (s) sonra gələcək on iki xəlifə ilə bağlı mütəvatir hədisləri inkar etmək mümkün deyil. Ona görə də hər iki firqə alimləri hədisi inkar etmədən onun məzmununu yozmağa səy göstərmişlər.

"On iki xəlifə" hədisinin dəlaləti

"On iki xəlifə" hədisinin izahında İmamiyyə şiələri heç bir artıq bəhs açmağa və dərinə getməyə ehtiyac görməyiblər. Onların nəzərinə görə, həmin şəxslər Əhli-Beytin (ə) təmsil etdiyi pak itrətdir. Xüsusilə də Peyğəmbərdən (s) onlar barəsində nəql edilmiş, məsələnin isbatında heç bir tərəddüd yaratmayacaq rəvayətlər mülahizə edildikdə bu qənaətdə yəqinə çatmaq mümkündür.

---

[480] əl-Müstədrəku ələs-səhiheyn, Hakim Nişapuri, c. 4, s. 546, hədis 8529

[481] Həmin mənbə, Zəhəbinin "ət-Təlxis"dəki şərhlərilə

Hədisin izahlarına və dəlalətlərinə daxil olmazdan əvvəl mövzunun aydın və məhdud çərçivəli nöqtələrini qeyd etmək yaxşı olardı. Belə ki, on iki xəlifə barədə qeyd edilən rəvayətlər özündə həmin xəlifələrin xüsusiyyətləri, vəsfləri və fərqliliklərini ehtiva edir. Onlar mülahizə edildikdə rəvayətlərin Əhli-Beytə (ə) uyğunluğuna heç bir tərəddüd yeri və şübhə qalmır.

Bu xüsusiyyətlərdən biri xəlifələrin nə az və nə də çox olmadan, məhz on iki nəfər olmasıdır. Onların sayı İsrail oğullarının başçılarının sayı qədərdir və hamısı da Qüreyşdəndir. Hidayətə və haqq dinə uyğun rəftar edirlər. Ümmət və insanlar onların vasitəsilə xeyirlərə nail olur. Onları tərk edən və ədavət bəsləyən şəxslərin əməlləri onlara heç bir zərər verməz. İslam onlarla izzətli, qalib və Qiyamətədək baqi olacaq. Onlar Allah dininin hamiləri və qəyyumlarıdır. Varlıqları dünyanın sonunadək sürəcək. Onlar vəfat etdikdə dünya əhli hərc-mərcliyə düçar olacaq.

On iki xəlifənin vəsf olunduğu bu xüsusiyyət və keyfiyyətlər mülahizə edildikdə həmin şəxslərin Əhli-Beytə (ə) uyğunluğunda heç bir tərəddüd qalmır. On iki xəlifədən məqsədin Əhli-Beyt (ə) olduğuna tam qətilik və yəqinliklə inanmaq üçün aşağıda qısaca qeyd edəcəyimiz dəlil və amillər kifayətdir:

1. "On iki xəlifə" hədisinin məzmununun (dinin onların vasitəsilə ayaqda durması, izzət tapması və s.) daşıdığı xüsusiyyət və keyfiyyətlərə (xüsusilə də Peyğəmbərin (s) *"Kim ölsə və zəmanəsinin imamını tanımasa, cahiliyyə ölümü ilə ölmüşdür"*[482], *"Qüreyşdən iki nəfər qalsa belə bu məsələ aradan getməz"*[483] (yəni onlardan biri xəlifə olar – Tərc.), *"Yer üzü*

[482] Səhih, İbn Hibban, c. 10, s. 434. Həmçinin bax: Müsnəd, Əhməd ibn Hənbəl, c. 3, s. 446; əl-Möcəmul-kəbir, c. 19, s. 388; Sünən, Beyhəqi, c. 8, s. 156; əl-Miyar vəl-məvazinə, s. 24; əl-Möcəmul-övsat, c. 6, s. 70; Məcməuz-zəvaid, c. 5, s. 218, 224, c. 9, s. 111, 121; Müsnəd, Təyalisi, s. 259; Müsnəd, Əbu Yəla, c. 13, s. 366, hədis 7375

[483] Səhih, Müslim, c. 3, s. 1452, hədis 1820; Müsnəd, Əhməd ibn Hənbəl, c. 2, s. 29; əs-Sünənul-kubra, Beyhəqi, c. 3, s. 121; Fəthul-Bari, c. 13, s. 104; əl-Camius-sağir, c. 2, s. 756, hədis 9969 və s.

höccətsiz qalmaz"[484] hədislərini əsas götürərək) diqqət yetirən şəxs onların ümumi bir məna ətrafında birləşdiyini görəcək. Həmin xüsusiyyətlər bu on iki xəlifənin yalnız zaman baxımından ardıcıl silsilə şəkilində mövcudluğu halında mümkün ola biləcəyini göstərir. Bunlar isə Əhli-Sünnə alimlərinin izahlarının əksinə olaraq, yalnız pak itrətə (ə) uyğun gəlir. Qarşıda Əhli-Sünnənin həmin fikirlərinə toxunacağıq.

Xüsusilə də hər iki firqənin Peyğəmbərdən (s) Əhli-Beyt (ə) haqqında nəql etdikləri rəvayətlər mülahizə edildikdə bu aydın görünür: *"Mənim Əhli-Beytim yer əhli üçün bir əmin-amanlıqdır, əgər onlar aradan getsələr yer əhli də məhv olar".*[485]

2. "On iki xəlifə" hədisi qeyd edilən xəlifələrin hidayət və haqq dinə müvafiq rəftar etdiklərini bildirir. Bunu İbn Kəsir də öz "Təfsir"ində bu cür anlayıb: *"Hədisin mənası haqqın bərpası və ədalətin bərqərar olması üçün saleh on iki xəlifənin varlığını ifadə edir".*[486]

Digər təfsirləri də araşdıran şəxs bu mənalara tez-tez rast gələcək. Xüsusilə də, bu xəlifələrin silsiləvi şəkildə bir-birinin ardınca gəlməsinə dair fikirlərlə qarşılaşmaq mümkündür. Bu da bizə hədisin Əhli-Beytdən (s) savayı heç bir əyani tətbiqinin olmadığını isbatlayacaq. O, həmin Əhli-Beytdir ki, Peyğəmbər (s) onları özündən sonra hidayət olunmuş hidayətçilər qərar verib, onlardan möhkəm yapışmağı buyurub, onları Quranla bərabər tutaraq Hovuz başında ona qovuşanadək əsla bir-birlərindən ayrılmayacağını bildirib.

3. "On iki xəlifə" hədisinin ehtiva etdiyi mənalardan biri də həmin xəlifələrin dinin və ümmətin hamiləri olmasıdır *"Bu ümmətin on iki hamisi*

---

[484] Bax: Tarixu mədinəti Dəməşq, İbn Əsakir, c. 50, s. 255; əl-Mənaqib, Xəvarəzmi, s. 366; Tarix, Yaqubi, c. 2, s. 206; Yənabiul-məvəddə, c. 1, s. 89

[485] Şəvahidut-tənzil, Hakim Həskani, c. 1, s. 426; əz-Zəxairul-uqba, Təbəri, s. 17; əl-Müstədrək, Hakim, c. 2, s. 448. Orada deyir: "Sənədi səhihdir, Buxari və Müslim qeyd etməyiblər"; Tarixu mədinəti Dəməşq, c. 40, s. 20; ən-Niza vən-təxasum, Muqrizi, s. 132 və s.

[486] Təfsir, İbn Kəsir, c. 2, s. 34

olacaq". Şübhə yoxdur ki, hamilik özündə din və ümmət üzərində nəzarəti və qəyyumluğu tələb edir. Bunu isə Əhli-Beytdən (ə) savayı indiyədək heç kəs iddia etməyib. Bu, onların Qurana bərabər olmasını da tələb edir. Peyğəmbər (s) buyurur: *"Hər bir əsrdə ümmətimdə Əhli-Beytimdən olan adil şəxslər var ki, bu dindən azdırıcıların təhriflərini, batil şəxslərin uydurmalarını və cahillərin yozumlarını dəf edirlər. Bilin ki, sizin imamlarınız Allah yanındakı nümayəndələrinizdir. Kimi özünüzə nümayəndə seçdiyinizə diqqət yetirin".*[487]

4. Peyğəmbərin (ə) özündən sonrakı on iki xəlifəni İsrail oğullarının başçılarına və başqa bir hədisdə isə həzrət İsanın (ə) həvarilərinə bənzətməsi onların xüsusi bir seçimlə təyin edildiyinə dəlalət edir. Necə ki, bunu Musa peyğəmbərin (ə) qövmünün başçılarına və İsa peyğəmbərin (ə) həvarilərinə nisbətdə görürük. Bu cür təyinat həmin seçilmiş şəxslərin üzərinə böyük məsuliyyət qoyur. Hədisin ərəb mətnində istifadə olunan "nəqib – nüqəba" kəlməsi böyük rəhbər və başçı, qövmünün öndəri mənasını verir ki, bu da "onlardan xəbərdar, vəziyyətlərini araşdıran, əməllərindən məlumatlı, işlərinə müdaxilə edən, xeyirləri üçün çalışan" anlamlarını ehtiva edir. Süyuti öz "Təfsir"ində İbn Cərir ibn Rəbidən nəql edir: *"Deyir: "Nüqəba – yəni başçı".*[488] Fəxr Razi ***"On iki vəkil"***[489] ayəsinin təfsirində deyir: *"Nəqib – "məful" mənasında olan "fəil" vəznindədir. Yəni, məlumatlı olduğu üçün onları seçdi. Əsamm deyir: "Bunlar qövm üzərində nəzarətçilər, məsələlərinin istinad yerləri və xeyirli işlərinin tədbirini tökənlərdir".*[490]

---

[487] əs-Səvaiqul-muhriqə, İbn Həcər Heytəmi, s. 231
[488] əd-Durrul-mənsur, Cəlaləddin Süyuti, c. 3, s. 40
[489] Maidə" surəsi, ayə 12
[490] Təfsirul-kəbir, Fəxr Razi, c. 6, s. 188-189

Necə ki, Peyğəmbərdən (s) də nəql olunub: *"On iki xəlifə, onların hər biri hidayət və haqq dinə əsasən rəftar edərlər. Onları tərk edənlər əsla onlara zərər verə bilməzlər".*[491]

Bu, Əhli-Beytlə (ə) bağlı olan məsələdir. Necə ki, Ömərdən Peyğəmbərin (s) belə buyurduğu nəql edilib: *"Hər bir əsrdə ümmətimdə Əhli-Beytimdən olan adil şəxslər var ki, bu dindən azdırıcıların təhriflərini, batil şəxslərin uydurmalarını və cahillərin yozumlarını dəf edirlər. Bilin ki, sizin imamlarınız Allah yanındakı nümayəndələrinizdir. Kimi özünüzə nümayəndə seçdiyinizə diqqət yetirin".*[492]

Buna əsasən, Musa (ə) və İsa peyğəmbərlərin (ə) vəsiləri üçün təsdiqlənən xüsusi seçim və təyinat xüsusiyyətləri bizim Peyğəmbərimizin (s) vəsiləri üçün də təsdiqlənmiş olacaq. Bütün bunlar isə Əhli-Beytdən (ə) savayı heç kəs üçün öz təsdiqini tapmayıb.

5. "On iki xəlifə" hədisinin qeyd etdiyi digər bir xüsusiyyət Qiyamət gününədək, din ayaqda durduqca onların mövcud olmalarıdır. Bu həqiqət isə yalnız Əhli-Beyt İmamlarında (ə) təcəssüm tapır. Bunu daha aydın izah etmək üçün:

A. "Səqaleyn" hədisi: *"Sizin aranızda iki ağır əmanət qoyuram ki, məndən sonra azmayasınız. Biri digərindən daha böyükdür: Allahın kitabı səmadan yerə uzanmış bir ipdir. Və itrətim olan Əhli-Beytim. Onlar Hovuz başında mənə qovuşanadək əsla bir-birindən ayrılmazlar. Məndən sonra onlarla necə rəftar edəcəyinizə diqqət yetirin".*[493]

Allahın kitabının Əhli-Beytdən (ə) ayrılmasının Qiyamətədək inkarı pak sülalənin həmin müddətədək davam edəcəyini, Quran və din

---

[491] əl-Möcəmul-kəbir, Təbərani, c. 2, s. 196, 256; əl-Möcamul-övsat, c. 3, s. 201. Həmçinin bax: Fəthul-Bari, c. 13, s. 184

[492] əs-Səvaiqul-muhriqə, İbn Həcər Heytəmi, s. 231. Həmçinin bax: Zəxairul-uqba, Muhibbiddin Təbəri, s. 17; Yənabiul-məvəddə, Qunduzi, c. 2, s. 114

[493] "Səhih", Müslim, c. 4, s. 1873, hədis 2408; "Sünən", Tirmizi, c. 5, s. 328-329, "Müsnəd", Əhməd ibn Hənbəl, c. 3, s. 59. Və digər mənbələr. Hər iki firqə hədisin səhihliyində həmfikirdir. Bu hədisin mütəvatir həddinə yetişəcək nəql yolları var.

durduqca onların da varlıqlarını sürdürəcəyini göstərir. Əgər hər hansı bir kiçik zaman çərçivəsində Əhli-Beytin (ə) mövcud olmadığı fərz edilsə, o zaman Quranın pak itrətdən ayrılması baş verəcək. Bu isə Peyğəmbərdən (s) səhih yollarla, hər iki firqə tərəfindən nəql edilən "Səqaleyn" hədisinin inkarıdır.

B. On ikinci imamın varlığına etiqad bəsləmək; Bu, İmam Mehdi Müntəzərdir (ə.f.). O, Peyğəmbərin (s) övladlarındandır, şiə əqidəsinə əsasən, hələ də yaşayır. Bu da öz növbəsində "On iki xəlifə" hədisinin məzmunu, Qiyamət saatınadək, din mövcud olduqca onların da var olacağı xüsusiyyəti ilə tam uzlaşır. Xüsusilə də, əvvəl qeyd etdiyimiz *"Yer üzü höccətsiz qalmaz"* və *"Kim ölsə və zəmanəsinin imamını tanımasa, cahiliyyə ölümü ilə ölmüşdür"* hədisləri ilə də vəhdət təşkil edir.

6. On iki xəlifədə məqsədin Əhli-Beyt (ə) imamları olmasının dəlillərindən biri də "On iki xəlifə" hədislərinin hamısında onların Qüreyşdən – Haşim oğullarından olduqlarının vurğulanmasıdır. Belə ki, Cabir ibn Səmurənin Peyğəmbərdən (s) nəql etdiyinə əsasən o, buyurur: *"Məndən sonra on iki xəlifə var". Sonra səsi yavaşladı. Atamdan onun yavaş səslə nə buyurduğunu soruşduqda "Onların hamısı Qüreyşdəndir" buyurduğunu bildirdi".*[494]

Bəlkə də biz "Onların hamısı Haşim oğullarındandır" deyərək bunun digər rəvayətlərdən pozulması və ya həmin məclisdə baş vermiş səs-küydən raviyə aydın olmadığına görə qeyd edilmədiyini iddia etsək yanlış sayılmaz. Necə ki, həmin məclisdə iştirak etməsinə rəğmən Cabir *"Onların hamısı Qüreyşdəndir"* sözünü şəxsən Peyğəmbərdən (s) eşidə bilməmiş, yanında oturan atasından soruşmuşdu. O da yalnız *"Onların hamısı Qüreyşdəndir"* sözü ilə kifayətlənmişdi. Bəlkə bunu ona söyləyən şəxs də "Onların hamısı Haşim oğullarındandır" sözünü eşitməmişdi.

---

[494] Yənabiul-məvəddə, Qunduzi Hənəfi, c. 2, s. 315, hədis 908

Lakin oradakı camaatın qəlbində olanlar Cabir üçün həmin sözlərin eynilə qeyd edilməsinin qarşısını alıb. Yəni *"Onların hamısı Qüreyşdəndir"* sözünü ravi şəxsən birbaşa Peyğəmbərin (s) dilindən eşitməyib. Bunu Qəstəlani Buxarinin "Səhih"inə yazdığı şərhdə də bu cür anlayıb. Orada deyir: "Əbu Davud Şəbi yolu ilə Cabir ibn Səmurədən rəvayət edir: *"On iki xəlifə olduğu müddətdə bu din qüvvətli olaraq qalacaq".*

Ravi deyir: Camaat təkbir söylədi, səs-küy qalxdı..." Bəlkə də bu, Cabirin sonra deyilən sözləri eşitməməsinə səbəb olmuşdu".[495]

Ona görə də deyirik: Cabirin Peyğəmbərdən (s) nəql etdiyi rəvayət hədisin yarısıdır. Buna baş vermiş hadisənin özü və hədisin davamının Cabir üçün nəqli də şahidlik edir. Orada deyilir: *"On iki xəlifə olduğu müddətdə bu din qüvvətli olaraq qalacaq".*

Ravi deyir: Camaat təkbir söylədi, səs-küy qalxdı. Peyğəmbər (s) yavaş səslə nə isə söylədi. Atamdan Peyğəmbərin (s) nə söylədiyini soruşduqda "Onların hamısı Qüreyşdəndir" buyurduğunu bildirdi".[496]

Başqa bir hədisdə isə *"camaat mənə eşitməyə imkan vermədi"* deyə qeyd edilir.[497] Nəvəvi Müslimin "Səhih"inə yazdığı şərhində deyir: *"Bəzi sözlər söylədi ki, camaat mənə eşitməyə imkan vermədi" cümləsi, yəni eşidə bilmədim. Səbəb isə səs-küyün çoxluğudur. Bəzi nüsxələrdə isə "camaat mənə soruşmağa imkan vermədi" deyə qeyd edilir. Yəni, məni susdurub Peyğəmbərdən (s) həmin sözləri təkrarən soruşmağa qoymadılar".*[498]

Bu məna digər kəlmələrlə də varid olub: *"camaat mənə eşitməyə imkan vermədi",*[499] *"camaat səs-küy saldı",*[500] *"On iki padşah rəhbər olduqca bu iş*

---

[495] İrşadus-sari lişərhi Səhih əl-Buxari, Əhməd ibn Muhəmməd Qəstəlani, c. 15, s. 212, hədis 7222

[496] Fəthul-Bari, İbn Həcər Əsqəlani, c. 13, s. 181. Həmçinin bax: Sünən, Əbu Davud Sicistani, c. 4, s. 86, hədis 4280

[497] Səhih, Müslim, c. 3, s. 1452, hədis 1822

[498] Şərhu Səhih Müslim, Nəvəvi, c. 12, s. 203

[499] Sünən, Əbu Davud Sicistani, c. 4, s. 4, s. 86, hədis 4280; Müsnəd, Əhməd, s. 98; Tarixu Bağdad, c. 2, s. 124; c. 14, s. 396

qüdrətli və aşkar olaraq qalacaq. Onların hamısı...” Camaat danışmağa və səs-küy salmağa başladığı üçün “Onların hamısı...” sözündən sonra nə dediyini eşitmədim”.[501]

Rəvayətin tam şəkildə nəql edilmədiyini təsdiqləyən digər bir amil Qunduzi Hənəfinin Cabir ibn Səmurədən nəql etdiyi hədisdir: *“Atamla bərabər Peyğəmbərin (s) yanında ikən belə buyurduğunu eşitdim: “Məndən sonra on iki xəlifə var”. Sonra yavaş səslə nə isə söylədi. Atamdan onun nə dediyini soruşduqda “Onların hamısı Haşim oğullarındandır” buyurduğunu söylədi”. Simak ibn Hərbdən də eynilə nəql olunub”.*[502]

Buradan aydın olur ki, *“Onların hamısı Haşim oğullarındandır”* sözləri hədisdə mövcud olub. Bəlkə də Peyğəmbər (s) *“Onların hamısı Qüreyşdən – Haşim oğullarındandır”* deyə buyurub. Bunu İbn Cövzi kimi bəzi Əhli-Sünnə alimləri də belə anlayıblar. “Kəşful-müşkül”də yazır: *“Bu hədisin mənası barədə uzun bəhslər olub, zənlər irəli sürülüb və barəsində sorğu-suallar yaranıb. Lakin məqsədin nə olduğunu tam anlaya bilməmişəm. Çünki rəvayətlərin kəlmələrində fərqliliklər var və buradakı qarışıqlığın ravilər tərəfindən yarandığı şübhəsizdir”.*[503]

İbn Ərəbinin gəldiyi qənaət də bu fikri dəstəkləyir. “On iki xəlifə” hədisini əməli-tətbiqi şəkildə təfsir etməkdə aciz qalaraq deyir: *“Bəlkə də bu hədisin yalnız bir hissəsidir”.*[504] Bu da “Onların hamısı Haşim oğullarındandır” sözünün hədisdən pozulduğu versiyasını dəstəkləmiş olur.

7. Elm əhlinin yekdilliklə qəbul etdikləri fikir Əhli-Beytin (ə) müsəlmanların arasındakı əməli rəftarları və sürdükləri həyat tərzi, düşüncə, iman, ruhiyyə, nəfs və risalət cəhətindən müstəsna xüsusiyyət

---

[500] Müsnəd, Əbu Əvanə, c. 4, s. 369

[501] Müsnəd, Əhməd ibn Hənbəl, c. 5, s. 99, hədis 20974; əl-Möcəmul-kəbir, c. 2, s. 196

[502] Yənabiul-məvəddə, Qunduzi, c. 2, s. 315, hədis 908

[503] “Fəthul-Bari”dən (İbn Həcər) nəql edilərək, c. 13, s. 183

[504] Arizətul-əhvəzi fi şərhit-Tirmizi, c. 9, s. 68

və keyfiyyətlərə malik olduqlarını təsdiqləyir. Bütün bunlar insaf sahibi olan təhqiqatçını hədisi məhz onlara şamil etməyə yönəldir. Bunu Qurani-Kərimin "Məvəddə", "Dəhr", "Təthir" və s. ayələri ilə, eləcə də "Səqaleyn", "Səfinə", "Kisa" və s. hədislərin vasitəsilə də isbatlamaq mümkündür.

Bundan əlavə, onların İslam etiqad və risalətinin məfhumlarını daha dərindən anladıqlarını və tətbiq etdiklərini, dövrlərinin aparıcı şəxsləri olmasını, üzərinə qoyulan məsuliyyətləri icra etdiklərini tarixi hadisələr də sübut edir. Tarix üzərində aparılan araşdırma və çalışmalar onların üstün şəxsiyyətlərinin, keyfiyyətlərinin, elmlərinin, əxlaqi və ictimai xüsusiyyətlərinin həqiqətini aşkara çıxarır. Xüsusilə də bunu onlarla eyni dövrdə yaşamış ravilərin və tarixçilərin nəql etdikləri əsərlərdə də müşahidə edirik. Bütün bu sözlər ümumilikdə Əhli-Beytin (ə) elmdə, təqvada, əxlaqda, fəzilət və şərəfdə, ucalıq, kamal və nəsil əlaqələrinə görə imamət və xilafətə ən layiqli, müstəsna şəxslər olduğunun etirafıdır. Buna dəlil olacaq bəzi nüansları qeyd edək:

A. İmam Əlinin (ə) yaşadığı dövrdə ətrafındakılar üzərindəki üstünlüyü və onlardan ehtiyacsızlığı barədə bəlkə də nümunə göstərməyə ehtiyac yoxdur. Biz də bu barədə sözü uzatmayacaq, yalnız Əhməd ibn Hənbəlin bir sözünü nəql edəcəyik: *"Əli ibn Əbu Talib (r) barəsində deyildiyi qədər heç bir Peyğəmbər (s) səhabəsi haqqında fəzilətlər sadalanmayıb".*[505]

B. İmam Həsən və İmam Hüseynin (Allahın salamı onlara olsun!) fəzilətlərinə, İslamdakı mövqelərinə, babaları Peyğəmbərin (s) şəriətinin müdafiəsinə qalxmalarına, İslam ümmətinin islahı üçün səylərinə, dinin hədəflərindən uzaqlaşmaq cəhdləri qarşısında sipər olmalarına, daşıdıqları xüsusiyyətlərə və üstünlüklərə gəldikdə, onların yüksək şənləri və ali məqamları barədə mütəvatir həddində rəvayətlər mövcuddur. Bütün bu xüsusiyyətlər onları xilafət teatrına çevrilmiş İslam

[505] Bunu ondan Hakim "Müstədrək"də nəql edib, c. 3, s. 107

cəmiyyətində həm düşüncə və həm ictimai yönlərdən aşkar təsir qüvvəsinə çevirmişdi. Həmin dövrlərdə hakimiyyət Üməyyə oğullarının bir-birinə varisliklə ötürəcəkləri yırtıcı və quduz padşahlığa çevrilmişdi. İmam Həsən (ə) və İmam Hüseyn (ə) həmin vaxt baş verənlərin aradan qaldırılması üçün etiraz səslərini ucaltmışdı. Əhli-Sünnənin hədis mənbələrində Peyğəmbərin (s) İmam Həsən (s) haqqında belə buyurduğu nəql olunur: *"Mənim bu oğlum ağadır. Allah onun vasitəsilə müsəlmanlardan iki böyük dəstənin arasında sülh yaradacaq".*[506]

Nəvəsi İmam Hüseyn (ə) barədə isə buyurur: *"Hüseyn məndən və mən də ondanam. Allah onu sevəni sevər. Onlar nəvələrdən (əsbatdan)*[507] *iki nəvədirlər".*[508]

Bu görə də İmam Hüseyn (ə) zülmə qarşı qiyam edərək yaxşılığı əmr etdi və pislikdən çəkindirdi. Həmin dövrün hakimiyyəti tərəfindən dinin əxlaq və mənəviyyatdan sapdırıldığını görüb babası Mustafanın (s) ümmətinin islahı və haqq kəlmənin yüksəldilməsi üçün özünün və ailəsinin canını qurban verdi. Əməvilər İslamı öz zülm və günahlarının örtüyünə çevirməyə və həyasızlıqlarını ört-basdır etməyə cəhd göstərdilər. Bu səbəbdən də İmam Hüseyn (ə) Kufəyə tərəf istiqamət alarkən buyurur: *"Mən əsla şər, fəsad, zülm məqsədilə və ya təkəbbürlükdən yola çıxmıram. Yeganə məqsədim babam Muhəmmədin (s) ümmətinin islahı, yaxşılığı əmr etmək və pislikdən çəkindirməkdir".*[509]

Zəhəbi onların (ə) tərifləri və ümmət üzərindəki rəhbərlikləri ilə bağlı yazır: *"Mövlamız İmam Əli raşidi xəlifələrdəndir, onun iki oğlu Həsən və*

---

[506] Səhih, Buxari, c. 2, s. 179, hədis 2704; əs-Səvaiqul-muhriqə, s. 291 və s.

[507] "Əraf" surəsinin 160-cı ayəsinə baxın, "Əsbat" kəlməsi özündən böyük nəsillər doğulan şəxslər barədə istifadə olunur.

[508] əl-Möcəmul-kəbir, Təbərani, c. 3, s. 32, c. 22, s. 274; əl-Vamius-sağir, Süyuti, c. 1, s. 575; Feyzul-qədir, Mənavi, c. 3, s. 513; ət-Tarixul-kəbir, Buxari, c. 8, s. 415; əl-Bidayətu vən-nihayə, İbn Kəsir, c. 8, s. 224. Albani "Səhih camiis-sağir"də hədislə bağlı hökmündə yazır: Həsən hədisdir, c. 1, s. 602, hədis 3146

[509] Məqtəlul-Hüseyn, Xəvarəzmi, s. 273; əl-Fütuh, ibn Əsəm Kufi, c. 5, s. 21

Hüseyn isə Peyğəmbərin (s) nəvələri və Cənnət cavanlarının ağalarıdır. Əgər onları xəlifə təyin etsəydi belə, onlar buna layiq idilər".[510]

Onların qiyam etsələr də, etməsələr də imam olduqları sübuta yetdiyi üçün söhbəti uzatmaq istəmirik.

C. İmam Zeynəlabidinlə (ə) bağlı Malikin sözləri: "*O, ibadətinin çoxluğuna görə "Zeynəlabidin" (abidlərin bəzəyi) adlandırılıb".*[511]

D. Əbu Hənifədən "Səncə, ən fəqih şəxs kimdir?" deyə soruşulduqda deyib: *"Cəfər ibn Muhəmməddən daha fəqih bir şəxs görmədim".*[512]

E. Zəhəbi İmam Mehdi Müntəzərin tərcümeyi-halında deyir: *"Onun Muhəmmədin sonuncu höccəti və zamanın sahibi (Sahibəz-zaman) olduğunu... hazırda da diri olduğunu, qiyam edənədək də ölməyəcəyini, Yer üzü zülm və haqsızlıqla dolduğu kimi onu haqq və ədalətlə dolduracağını güman edirlər. Mövlamız Əli raşidi xəlifələrdəndir, onun iki oğlu Həsən və Hüseyn isə Peyğəmbərin (s) nəvələri və Cənnət cavanlarının ağalarıdır. Əgər onları xəlifə təyin etsəydi belə, onlar buna layiq idilər. Zeynəlabidin qədri yüksək şəxsdir, əməl sahibi alimlərin başında gəlir, imamlığa layiq şəxsdir... Həmçinin onun oğlu Əbu Cəfər Baqir də ağa, imam, fəqih olub, xəlifəliyə layiq şəxsdir. Onun oğlu Cəfər Sadiq şəni uca şəxs, elm imamıdır. Xilafətə Əbu Cəfər Mənsurdan daha çox layiq idi. Övladı Musa da qədri yüksək şəxs, yaxşı elm bilicisi və xilafətə Harundan daha layiqli insan idi... Onun oğlu Əli ibn Musa Rza da şəni yüksək, elm və bəyan sahibi, insanlara təsirə malik şəxs idi. Şəxsinin ucalığına görə Məmun onu özünə vəliəhd təyin etmişdi... Onun oğlu Muhəmməd Cavad qövmün başçılarındandır... Həmçinin onun "Hadi" ləqəbli oğlu da ali şərəf sahibiydi. Oğlu Həsən Əskəri də onun kimiydi. Allah onların hamısına mərhəmət göstərsin".*[513]

---

[510] Siyəru əlamin-nübəla, Zəhəbi, c. 13, s. 120

[511] Nurul-əbsar, Şəblənci, s. 191

[512] Siyəru əlamin-nübəla, Zəhəbi, c. 6, s. 257; Təzkiratul-huffaz, Zəhəbi, c. 1, s. 166

[513] Siyəru əlamin-nübəla, Zəhəbi, c. 13, s. 120-121

8. "On iki xəlifə" hədisindən anlaşılır ki, Peyğəmbərdən (s) sonra həmin xəlifələr tərk ediləcək və onlara qarşı ədavət alovlanacaq. Belə ki, hədisdə *"Tərk edənlər onlara heç bir zərər verə bilməzlər"* və ya *"düşmənləri onlara heç bir zərər verə bilməzlər"* sözləri yer alır.

Gizli deyil ki, ümmətdən heç kim Əhli-Beyt (ə) kimi tərk edilmədi və düşmənçilik görmədi. Bu, İmam Əlidən (ə) başlayaraq onun iki övladına, onlardan sonra Hüseynin (ə) pak sülaləsinə qarşı aşkar şəkildə sezilirdi. Peyğəmbər (s) bunu onlara qabaqcadan xəbər vermişdi: *"Biz o Əhli-Beytik ki, Uca Allah axirəti bizim üçün dünyadan üstün tutmuşdur. Əhli-Beytim məndən sonra bəlalara, məhrumiyyət və təqiblərə məruz qalacaq".*[514]

Bu isə öz növbəsində həmin xəlifələrin Əhli-Beytdən (ə) olduğuna başqa bir dəlilidir. Belə ki, İmam Əli (ə) Qədir-Xumda bütün camaatın gözü qarşısında Peyğəmbər (s) tərəfindən imam olaraq təyin edildikdən sonra tərk edildi. Bunu Peyğəmbər (s) Əlinin (ə) əlindən tutub qaldırdıqda da xəbər vermişdi: *"Bu, xeyirxahların əmiri, günahkarların qatilidir. Ona yardım edənə yardım olunar, tərk edən isə tərk edilər".*[515]

Və Peyğəmbərin (s) ona buyurduğu söz: *"Məndən sonra ümmət sənin üzərinə qalxacaq".*[516]

Eləcə də İmam Həsəni (ə) ümmət tərk edərək tək qoydu və nəticədə Müaviyə hakimiyyətə yiyələndi, onu zəhərlədərək məzlum halda şəhid etdi.

---

[514] Sünən, İbn Macə, c. 2, s. 1366, "Müstədrək"in müəllifi tərəfindən bu rəvayət dəstəklənib; əl-Müsənnəf, İbn Əbu Şeybə Kufi, c. 7, s. 527; Kitabus-sünnə, s. 619, hədis 1499; əd-Durrul-mənsur, c. 6, s. 58; Mizanul-itidal, c. 2, s. 416. Bunu orada müxtəlif yollarla nəql edir və onların heç birini zəif saymır; Siyəru əlamin-nübəla, c. 6, s. 131; Lisanul-mizan, İbn Həcər, c. 3, s. 282

[515] əl-Müstədrək, c. 3, s. 129. Müəllif hədisin ardınca deyir: "Bu səhih hədisdir, Buxari və Müslim kitablarında qeyd etməyiblər"; Tarixu Bağdad, c. 3, s. 181; Tarixu mədinəti Dəməşq, c. 15, s. 88

[516] əl-Müstədrək, c. 3, s. 142-143. Hədisi nəql etdikdən sonra deyir: *"Səhihdir".* əl-Bidayətu vən-nihayə, c. 6, s. 244; Dəlailun-nübuvvə, c. 6, s. 440; Tarixu mədinəti Dəməşq, c. 42, s. 447-448; Şərhu Nəhcül-Bəlağə, İbn Əbülhədid, c. 4, s. 107

İmam Hüseynə (ə) gəldikdə, yetmiş nəfərə yaxın əshabı istisna olmaqla, bütün ümmət onu tərk etdi, yalqız qoydu. Nəticədə onların hamısını qətlə yetirdilər, qadın və uşaqlarını əsir götürdülər, qandallanmış şəkildə əsrin zalımı, tağutu olan Yezid ibn Müaviyənin hüzuruna apardılar. Digər imamlara (ə) qarşı işlədilmiş zülmlər, təqiblər, dövrün hakimiyyətləri tərəfindən edilmiş həbslər heç kəsə gizli deyil. Onlar zəhərləndirilmiş, məhbəslərə atılmışdılar...

Onların təlimlərini və həqiqətlərini nə qədər gizlətməyə və aradan aparmağa çalışsalar da ömürlərini ən kamil şəkildə sürmüş, həmin dövrün zalım hakimiyyətlərinin İslamın hədəf və şüarlarını dəyişməyə çalışan təbliğatlarının əksinə olaraq, ümmətin islahı və tərbiyəsi üçün İslamın həqiqi xəttini qorumuşlar.

9. Həmin məclisdə baş qaldırmış saxta səs-küy və qarışıqlıq, camaatın ayağa qalxması, Peyğəmbərin (s) sözlərini oradakıların, xüsusilə də Cabirin eşitməsinin qarşısını almaq məqsədilə yaradılmış ola biləcəyi diqqət çəkən məsələdir. Çünki bu səs-küyü yaratmaqla orada söylənənlərin eşidilməsini istəməyən kəslər ona şübhə gətirmək, məsələdə başqa məqamların olduğunu iddia etməyə rəvac vermiş oldular. Mövzu ilə əlaqədar bəhsdə bu, yeganə hadisə deyildi. Həmin camaat Peyğəmbər (s) *"Bir kağız və mürəkkəb gətirin, sizin üçün bir şey yazım ki, məndən sonra əsla azmayasınız"* söyləyərkən də onun yanında səs-küy salmış və mübahisə yaratmışdılar. Həmin vaxt da bu qarışıqlıq saxta idi. Bəziləri isə *"Peyğəmbər sayıqlayır"* deyirdi. Bütün bunların hamısı onların xilafət hərisliyindən, soltanlıq və hakimiyyət sevgisindən qaynaqlanırdı. Bunu Peyğəmbər (s) öz səhabələrinə xəbər vermişdi: *"Siz rəhbərliyə hərislik göstərəcək, Qiyamət günü isə peşmanlıqla üzləşəcəksiniz. (Rəhbərlik) nə yaxşı süd verən, (Qiyamət isə) nə pis ayrılıqdır!"*[517]

[517] Səhih, Buxari, c. 4, s. 355, hədis 7148

10. İbn Məsudun hədisində isə Peyğəmbərdən (s) özündən sonrakı xəlifələrin sayı ilə bağlı soruşanların səhabələr olduğu qeyd edilir. Bu isə iki nöqtəyə diqqəti çəkir:

A. Səhabələrin Peyğəmbərdən (s) sonra camaatın üzərinə güc və zorakılıqla hakim kəsiləcək xəlifələr barədə soruşması məntiqsizdir. Çünki o, özündən sonra heç bir peyğəmbərin olmayacağı sonuncu elçidir (bu barədə başqasından soruşmaq imkanları olmayacaq – Tərc.).

Deməli, sualın Peyğəmbərin (s) özündən sonra təyin edəcəyi xəlifələr barədə olması labüddür. Həmin xəlifələr isə "Qədir-Xum", "Səqaleyn" və digər hədislərə əsasən, Əhli-Beytdir (ə). Bu, həmin dövrdə səhabələrin adət etdikləri üslubdur. Onlar Əbu Bəkr və Ömərdən də özlərindən sonrakı xəlifə barədə soruşmuşdular.

B. Peyğəmbərin (s) xəlifələrdəki məqsədi rəhbərliyə layiq və haqq sahibi olan şəxslərdir. Hədisi Müaviyə, Yezid, Mərvan və Vəlid kimilərə şamil etməyin heç bir mənası yoxdur. Onlar yer üzündə fəsad çıxarmış, İslam ümmətin taleyi ilə istədikləri kimi oynamışlar. Peyğəmbərin (s) xəlifələrdə məqsədi hakimiyyəti Uca Allah tərəfindən dəstəklənən şəxslərdir. Buna əsasən, Əbu Davudun "Sünən"inə şərh olaraq yazılmış "Ovnul-məbud" kitabında deyilir: *"Bu hədis sonrakı ədalətli xəlifələrə şamil ola bilər. Çünki həqiqi xəlifə adına yalnız onlar layiqdirlər".*[518]

11. Peyğəmbər (s) Vida həccində özündən sonrakı xəlifəni qeyd etdikdən sonra onların on iki nəfər, hamısının Qüreyşdən, Haşim oğullarından olacağını, hidayət və haqq dinə müvafiq rəftar edəcəklərini bildirir. Bəlkə də yaradılmış saxta səs-küy və qarışıqlıq səbəbindən bununla kifayətlənməyərək, Vida həccindən qayıtdıqdan sonra xütbə söyləyərək İmam Əlini (ə) həmin on iki xəlifənin birincisi olaraq təyin edir. Ardınca isə buyurdu: *"Mən özümdən sonra sizin aranızda iki xəlifə*

[518] Ovnul-məbud, Əzim Abadi, c. 11, s. 245

qoyuram: Allahın kitabı və itrətim olan Əhli-Beytim. Onlar Hovuz başında yanıma varid olanadək əsla bir-birindən ayrılmazlar".[519]

Həmin vaxt insanlar Peyğəmbərdən (s) sonrakı xəlifələrin kim olduqlarını bildilər. Bununla da camaata höccət tamamlandı ki, şəkk və şübhə qapıları bağlasın, heç kəs: "Mən eşitmədim; mənə qaranlıq qaldı; səs-küy eşitməyə qoymadı" kimi bəhanələr söyləməsin!

12. Əhli-Beytin (ə) imamətinə dəlalət edərək bir-birini təsdiqləyən çox sayda hədis var ki, bəzilərində həmin on iki xəlifə adbaad qeyd edilir. Həmin hədislərdən:

A. Həməveyni Misrinin[520] "Fəraidus-səmteyn" kitabında nəql olunur: *"Mücahiddən, o da İbn Abbasdan rəvayət edir: "Nəsəl adında bir yəhudi Peyğəmbərin (s) yanına gələrək dedi: "Ya Muhəmməd, mən səndən bir neçə şey barəsində soruşacağam... Öz vəsinin kimliyi barədə mənə xəbər ver. Çünki elə bir peyğəmbər olmayıb ki, vəsisi olmasın. Bizim peyğəmbərimiz Musa ibn İmranın vəsisi Yuşə ibn Nun idi". Peyğəmbər (s) buyurdu: "Yaxşı. Məndən sonra vəsim və xəlifəm Əli ibn Əbu Talibdir. Ondan sonra isə iki nəvəm – Həsən və Hüseyndir. Onlardan sonra Hüseynin nəslindən doqquz nəfər bir-birinin ardınca gələcək olan xeyirxahlardır".*

Yəhudi dedi: "Ya Muhəmməd, onların adını mənim üçün bir-bir say".

Peyğəmbər (s) buyurdu: "Yaxşı. Hüseynin müddəti başa çatdıqda oğlu Əlidir, ondan sonra Əlinin oğlu Muhəmməddir, Muhəmməddən sonra oğlu Cəfərdir, sonra Cəfərin oğlu Musadır, ardınca Musanın oğlu Əlidir, Əlidən

---

[519] əl-Müsənnəf, İbn Əbu Şeybə Kufi, c. 6, s. 309; Kitabus-sünnə, Əmr ibn Əbu Asim, s. 337, hədis 754, s. 629, hədis 1549; Müsnəd, Əhməd ibn Hənbəl, c. 5, s. 182; əl-Möcəmul-kəbir, c. 5, s. 153, hədis 4921, s. 154, hədis 4922; Məcməuz-zəvaid, Heysəmi, c. 1, s. 170. Müəllif hədisin ardınca yazır: *"Bunu Təbərani rəvayət edib, raviləri etibarlı (siqə) şəxslərdir"*. c. 9, s. 162-163; əl-Camius-sağir, Süyuti, c. 1, s. 402, hədis 2631; əd-Durrul-mənsur, c. 2, s. 285

[520] Zəhəbi "Təzkiratul-huffaz"da yazır: *"İmam, mühəddis, kamil şəxs, İslamın fəxri, din başçısı İbrahim ibn Muhəmməd ibn Müəyyəd ibn Həməveyh Xorasani Cüveyni, sufi şeyxi... Rəvayətlərə qarşı olduqca diqqətli idi. Gözəl qiraətə, dində ehtirama sahib idi. Saleh şəxs olub. 722-ci ildə vəfat edib".* (c. 4, s. 1506)

sonra oğlu Muhəmməddir, ardınca Muhəmmədin oğlu Əli, sonra onun oğlu Həsən və ardınca da onun oğlu Höccət ibn Həsəndir. İmamların sayı İsrail oğullarının başçılarının sayı qədər – on iki nəfərdir".[521]

B. Həməveyni həmçinin "Fəraid"də Peyğəmbərdən (s) nəql edir: *"Uca Allah mənə sizin üçün imamlarınızı, özümdən sonrakı vəsilərimi, xəlifələrimi və qaimlərimi təyin etməyi buyurub... Vəsilərim bunlardır: onlardan birincisi qardaşım, vəzirim, varisim, ümmətimin arasında xəlifəm və məndən sonra hər bir möminin vəlisi olan şəxsdir. Bu, onların birincisidir. Sonra onun oğlu Həsən, sonra digər oğlu Hüseyn, sonra da Hovuzun başında yanıma varid olana qədər Hüseynin bir-birinin ardınca doqquz övladıdır..."*[522] Həməveyni bunu bir çox başqa yerdə də müxtəlif yollar və rəvayətlərlə nəql edib. Araşdıran şəxslər onlara müraciət edə bilərlər.

C. Hafiz Əbu Muhəmməd ibn Əbülfəvaris "əl-Ərbəin"[523] kitabında bunu nəql edib.

Həmçinin Peyğəmbər (s) Əhli-Beytinin (ə) xəlifələrini adbaad zikr edib.

Ç. Əllamə Əbu Müəyyəd Müvəffəq ibn Əhməd (h.q. 568-ci ildə vəfat edib) özünün "Məqtəlul-Hüseyn"[524] kitabında xəlifələri adbaad qeyd edir.

D. Əllamə Faziluddin Muhəmməd ibn Muhəmməd ibn İshaq Həməveyni Xorasani "Minhacul-fazilin"[525] kitabında da onları qeyd edir.

E. Eləcə də Həməveyni "Durərus-səmteyn"[526] kitabında zikr edib.

---

[521] Fəraidus-səmteyn, Həməveyni, c. 2, s. 133, 134, hədis 431. Eyni kəlmələrlə Qunduzinin "Yənabiul-məvəddə" kitabında da nəql olunur, c. 3, s. 282

[522] Fəraidus-səmteyn, Həməveyni, c. 1, s. 315-317, hədis 250.

[523] əl-Ərbəin, İbn Əbülfəvaris, s. 38. Seyyid Mərəşinin "Şərhu İhqaqil-həqq" kitabından nəql edərək (c. 13, s. 59)

[524] Məqtəlul-Hüseyn, Xəvarəzmi, s. 146-147

[525] Minhacul-fazilin, Həməveyni, s. 239, Seyyid Mərəşinin "Şərhu İhqaqil-həqq" kitabından nəql edərək (c. 13, s. 68)

[526] Durərus-səmteyn, Həməveyni, s. 722, Seyyid Mərəşinin "Şərhu İhqaqil-həqq" kitabından nəql edərək (c. 4, s. 93-94)

Ə. Əllamə Şeyx İbrahim ibn Süleyman "əl-Muhəccətu əla ma fi Yənabiul-məvəddə"[527] kitabında onların adlarını Peyğəmbərə (s) istinadən nəql edir.

F. Əllamə Mövla Muhəmməd Saleh Kəşfi Hənəfi Tirmizi "əl-Mənaqibur-Rəzəviyyə"[528] kitabında qeyd edir.

Və bunu dəstəkləyəcək digər bir çox rəvayətlər mövcuddur.

Təqdim edilənlərdən hasil olur ki, Əhli-Beyt (ə) həyatın bütün sahələrində Peyğəmbərin (s) hərəkətlərini təbii şəkildə təmsil edir, düşmənlər qarşısında öz ali şəxsiyyətlərini qoruyurdu. Ümmət onların ən elmli və xilafətə ən layiq şəxslər, ən gözəl nümunə və günahdan qorunduqlarında həmfikir oldu. Çünki onlar İslam nəzəriyyəsini əməli şəkildə tətbiq etdilər. Biz İmamların (ə) həyatına nəzər saldıqda, Yer üzündə necə bir müsəlman olduqlarına və insanların arasında danışan Quran kimi yaşadıqlarına diqqət yetirdikdə belə bir ali nümunələri yalnız bəşəriyyət üçün hidayət mənbəyi olacaq vəsflərə layiq məsum şəxslərdə müşahidə edirik. Bu səbəbdən də ümmət həmin pak ailədə olan xüsusiyyət, keyfiyyət və üstünlüklərin onlardan başqa heç kimdə olmadığını yekdilliklə bəyan edib. Məruz qaldıqları zülm və təqiblərə baxmayaraq, Peyğəmbərin (s) on iki xəlifə ilə bağlı buyurduğu hədisdəki xüsusiyyətləri yenə də özlərində daşıyıblar. Lakin tamahkarlar Allahın müəyyən etdiyi mərtəbə və mənsəbdən onları uzaqlaşdırmağı özlərinə söz verdilər. Bununla kifayətlənməyib onlara qarşı insanın qəlbini ağrıdan cürbəcür zülmlərə, təqiblərə və pis rəftarlara əl atdılar. Bütün bunlarla üzləşən Əhli-Beytin (ə) yeganə "günahı" isə Allahın onları peyğəmbərlik yolunu qorumaq üçün rəhbər təyin etməsi idi. Onlar risalət mühafizəçiləri və Qurana bərabər ikinci ağır əmanət idilər.

---

[527] əl-Muhəccətu əla ma fi Yənabiul-məvəddə, Şeyx Haşim ibn Süleyman, s. 427.

[528] əl-Mənaqibul-Rəzəviyyə, Muhəmməd Saleh Tirmizi, s. 127

Buradan da aydın olur ki, on iki xəlifə ilə bağlı qeyd olunan İslamın izzəti vəsfi yalnız şiələrin İmamlarına (ə) uyğun gəlir. Əhli-Beytin (ə) ümmət arasında malik olduğu ali mövqe və əzəmətli məqam İslamın izzətini qoruyan amil idi. Bunu Əhli-Sünnə alimləri bir çox kitablarında qeyd ediblər.

İslamın varlığı, izzəti və Qiyamətədək baqi qalması Peyğəmbərin (s) üzərində daşıdığı ən mühüm vəzifələrdən idi və bu, Əhli-Beytin (ə) vasitəsilə həyata keçirildi. "Qədir-Xum", "Səqaleyn" kimi hədislər də bunu bəyan edir. Əhli-Beyt (ə) Qurana bərabər şəxslərdir, Allah yanındakı nicat, salamatlıq və izzət yalnız onlardan möhkəm yapışmaqla əldə olunur. Onların ardınca gedən şəxslər Allahın izzəti ilə izzətlənəcək və Onun razılığını qazanacaqlar.

Necə ki, Hakim "Müstədrək"də İbn Abbasdan nəql edir: *"Peyğəmbər (s) buyurdu: "Ulduzlar Yer əhli üçün məhvdən aman olduğu kimi Əhli-Beytim də ümmətim üçün ixtilaflardan amandır. Əgər ərəblərdən bir qəbilə onlara qarşı çıxsa ixtilafa düşər və İblisin ordusuna çevrilərlər".*[529]

Hakim hədisin səhih olduğunu söyləyir: *"Bu, sənədi səhih hədisdir, Buxari və Müslim nəql etməyiblər".*[530]

Eyni məzmunda bir çox mənbədə Ömərdən Peyğəmbərin (s) belə buyurduğu nəql olunur: *"Hər bir əsrdə ümmətimdə Əhli-Beytimdən olan adil şəxslər var ki, bu dindən azdırıcıların təhriflərini, batil şəxslərin uydurmalarını və cahillərin yozumlarını dəf edirlər. Bilin ki, sizin imamlarınız Allah yanındakı nümayəndələrinizdir. Kimi özünüzə nümayəndə seçdiyinizə diqqət yetirin".*[531]

İkrimə İbn Abbasdan Peyğəmbərin (s) belə buyurduğunu nəql edir: *"Kim mənim kimi yaşamaq, mənim kimi ölmək və Rəbbimin əkdiyi Ədn*

---

[529] əl-Müstədrək, Hakim, c. 3, s. 149

[530] əl-Müstədrək, Hakim, c. 3, s. 149

[531] Zəxairul-uqba, Mühyiddin Təbəri, s. 17; əs-Səvaiqul-muhriqə, İbn Həcər Heytəmi, c. 2, s. 441; Yənabiul-məvəddə, Qunduzi, c. 2, s. 439

bağlarında məskunlaşmaq istəyirsə Əlini və Əlinin dostunu özünə dost tutsun, məndən sonrakı İmamları (ə) nümunə götürsün. Belə ki, onlar mənim itrətimdirlər, torpağımdan xəlq ediliblər, fəhm və elmdən nəsib alıblar. Ümmətimdən onların fəzilətlərini inkar edənlərin və mənimlə onların arasındakı qohumluq əlaqələrini qıranların vay halına! Allah onları mənim şəfaətimə nail etməsin!"[532]

Əmmar ibn Yasirdən Peyğəmbərin (s) belə buyurduğu rəvayət olunur: *"Mənə iman gətirən və məni təsdiq edən şəxsə Əli ibn Əbu Talibin vilayətini vəsiyyət edirəm. Onun dostu mənim dostum, mənim dostum da Allahın dostudur. Onu sevən məni, məni sevən də Allahı sevmişdir. Ona nifrət edən mənə, mənə nifrət edən isə Allaha nifrət etmişdir".* Bunu Heysəmi "Məcməuz-zəvaid"də nəql edib. Orada deyir: *"Bunu Təbərani iki sənədlə rəvayət edib. Onların ikisində də zəif ravilər var, amma etibarlı (siqə) olduqları da deyilib".*[533]

İbn Əsakir "Tarixu mədinəti Diməşq" kitabında bir çox yollarla nəql edib.[534]

Vəhəb ibn Həmzədən rəvayət edilir: *"Məkkəyə gedərkən Əli ilə yol yoldaşı oldum və bu səfərdə ondan bəyənmədiyim rəftarlar gördüm. Öz-özümə dedim: "Qayıtdıqda səndən Peyğəmbərə (s) şikayət edəcəyəm". Geri döndükdə Peyğəmbərlə (s) görüşüb dedim: "Yolda Əlidən filan, filan rəftarları gördüm". Buyurdu: "Belə demə! O, məndən sonra sizin üçün insanların ən üstünüdür".*[535]

Zeyd ibn Ərqəmdən Peyğəmbərin (s) belə buyurduğu nəql olunur: *"Kim mənim kimi yaşamaq, mənim kimi ölmək, Rəbbimin Öz əli ilə əkdiyi və mənə vəd etdiyi Xuld cənnətində (və ya əbədi cənnətdə) məskunlaşmaq*

---

[532] Tarixu mədinəti Dəməşq, c. 42, s. 240; Hilyətul-övliya, Əbu Nəim İsfahani, c. 1, s. 86

[533] Məcməuz-zəvaid, Heysəmi, c. 9, s. 108-109

[534] Tarixu mədinəti Dəməşq, İbn Əsakir, c. 42, s. 239

[535] əl-Möcəmul-kəbir, c. 22, s. 135; Məcməuz-zəvaid, c. 9, s. 109; Feyzul-qədir, c. 4, s. 470-471

istəyirsə Əlini və Əlinin dostunu özünə dost tutsun. Belə ki, o, sizi əsla hidayətdən uzaqlaşdırmaz, zəlalətə aparmaz".[536] Bunu Hakim "Müstədrək"də nəql edərək deyir: *"Bu, sənədi səhih hədisdir, Buxari və Müslim kitablarında qeyd etməyiblər".*[537]

Və bunlardan başqa digər bir çox mənbələr, öz səhihliyi ilə məna və məzmun baxımından mütəvatir rəvayətlər mövcuddur. Onlara az da olsa şübhə etmək istəyənlərə sözümüz budur: Bunlar qəti və yəqinliyə fayda verən rəvayətlərdir. Bir çox fərqli yollar və kəlmələrlə müxtəlif mənbələrdə nəql olunublar. Həmin hədislər məzmun etibarı ilə biri digərini dəstəkləyir. Bu da öz növbəsində Əhli-Beyt (ə) vilayətinə möhkəm sarılmağa və onların yollarını izləməyə qəti əminlik yaradır.

Deməli, İslamın həqiqi varlığının və izzətinin qorunması Əhli-Beytin (ə) vasitəsilə, onların təqvaya, ixlasa, doğruluğa, islaha və digər mənəvi-əxlaqi təlimlərə dəvətlərini izləməklə mümkün olur. İslamın izzəti heç də onun zahirinin varlığı, şüarlarından istifadə edərək güc və zorakılıqla insanlara müsəllət olmaqda deyil. Bu səbəbdən İslam hökmləri zalım şəxslərin əlində islamiyyətdən əvvəlki quduz padşahlığa çevrilir və özündə bu dinin dəyərlərindən heç bir şeyi daşımır.

Təqdim edilənlərdən hədisdəki *"Bütün ümmət onların ətrafında cəmləşəcək"* sözlərinin cavabı aydın olur. Ancaq, halbuki ümmət Əhli-Beytin (ə) ətrafına toplaşmadı.

Hədisdəki bu cümlə yalnız Əbu Davudun "Sünən"ində qeyd olunan Əbu Xalidin Cabir ibn Səmurədən nəql etdiyi (altıncı nəql yolu) rəvayətdə varid olub. Oradakı bu sözlər digər rəvayətlərin heç birində yoxdur. Bundan əlavə, bəziləri, məsələn, Albani Əbu Xalidin rəvayətini zəif saymışlar. O, "Silsilətul-əhadisis-səhihə" kitabında yazır: *"Bu, zəif sənəddir. Əbu Xaliddən savayı bütün ravilər etibarlı (siqə) şəxslərdir. Zəhəbi*

---

536 əl-Möcəmul-kəbir, Təbərani, c. 5, s. 194

537 əl-Müstədrək, Hakim, c. 3, s. 130

deyib: "Ondan yalnız oğlu rəvayət nəql edib". Tirmizi isə onun hədisini "ət-Təqrib"də səhih sayaraq məqbul hesab edir. Yəni hədis həsənlə zəifin arasındadır... Deyirəm: Rəvayətdəki "Bütün ümmət onların ətrafında cəmləşəcək" sözləri təkcə onun hədisində nəql olunub".[538]

Rəvayətdəki bu sözlərin zəifliyini Əbu Davudun "Sünən"inə yazdığı şərhdə də qeyd edir. Hədisdən sonra yazır: *"Bütün ümmət onların ətrafında cəmləşəcək" sözlərindən savayı hədisin qalan mətni səhihdir".*[539]

Bu söz doğruya daha yaxındır. Əbu Xalidin etibarlı (siqə) ravi olduğunu, əvvəldə də qeyd etdiyimiz kimi, Əbu Hatəm, İbn Hibban və Zəhəbi bəyan ediblər. Onun rəvayətinin əvvəli belədir: *"Bu din üzərinizə on iki xəlifə rəhbər olduqca aradan getməyəcək".* Həmin cümlə digər səhih hədislərdə də eynilə varid olub.

Bəli, *"Bütün ümmət onların ətrafında cəmləşəcək"* cümləsini qəbul etmək mümkün deyil. Çünki bu yalnız bir rəvayətdə zikr olunur və bəziləri də onu zəif hesab edirlər.

Onun Peyğəmbər (s) tərəfindən söylənmədiyini dəstəkləyən amillərdən biri də həqiqətdə baş vermiş hadisələrlə uzlaşmamasıdır. Peyğəmbərdən (s) sonra ümmətin bəzilərinin ətrafına toplaşdığını görürük. Əksinə, on iki nəfərdən biri olduğu iddia edilən şəxsin ətrafında isə bütün ümmət hamılıqla toplanmır. Buna görə də "əl-Bidayətu vən-nihayə"də İbn Kəsir yazır: *"Əgər deyilsə ki, "mən yalnız ümmətin barəsində icma etdiyi şəxsi mötəbər sayıram", o zaman Əli ibn Əbu Talibi (ə) və oğlunu həmin şəxslərdən ayırmaq lazımdır. Çünki camaat hamılıqla onların ətrafında toplaşmadı. Şam əhalisi bütünlüklə ona beyət etmədi... Bu, həmçinin Mərvanın və İbn Zübeyrin hakimiyyətləri ilə bağlı da söylənə bilər. Ümmət onların da ətrafına bütünlüklə toplaşmadı".*[540]

---

[538] Silsilətul-əhadisis-səhihə, Albani, c. 1, q.2, s. 720, hədis 376

[539] Sünən, Əbu Davud, c. 2, s. 508, hədis 4279, Hədislərə Albaninin verdiyi hökmlərlə

[540] əl-Bidayətu vən-nihayə, İbn Kəsir, c. 6, s. 280

Bunu İbn Həcər Əsqəlani "Fəthul-Bari"də də etiraf edir.[541]

Bundan əlavə, ümmətin ətrafında hamılıqla cəm olduğu Müaviyə, Mərvan ibn Həkəm, Vəlid, Mərvan Himar və digərləri kimi xəlifələrdə on iki xəlifənin hidayət və haqqa uyğun rəftarı, dinin hamiləri olmaq kimi ali xüsusiyyətlərin heç biri görünməyib.

"On iki xəlifə" hədisinin dəlaləti barədə Əhli-Sünnə alimlərinin fikirləri

Peyğəmbərdən (s) sonra on iki xəlifənin gələcəyinə dair müsəlmanlar həmfikir olduqlarına görə, bir çox Əhli-Sünnə hədisşünas və təfsirçisinin bu xəlifələri müəyyən etməkdə çətinliyə düşdüklərini görürük. Belə ki, əgər onlar "On iki xəlifə" hədisinin zahirini əsas götürsələr, o zaman özlərinin xilafət barədə qəbul etdikləri məsələlərdə ziddiyyətlər yaranacaq. Çünki onlarda rəvayət edilən səhih hədisə əsasən, Peyğəmbərdən (s) sonra otuz il xilafət, ardınca isə quduz (zalım, yırtıcı) padşahlıq olacaq. Digər cəhətdən isə, rəvayətlərin sahib olduqları səhih sənədlər onları inkar etməyə imkan vermir. Ona görə də bu həqiqət ətrafında rəyləri haçalanmış və yozumları şaxələnmiş, bir-birilərinə qarşı iradlar baş qaldırmışdır. Bu səbəbdən hədislə bağlı sözlərində **"Mənə elə gəlir ki", "Deyilir ki", "Ən çox zənn edilən budur ki", "Peyğəmbərin (s) sözlərindəki məqsədi Allah bilir"** və əksər hallarda isə **"Doğrusunu Allah bilir"** kimi qeydlərə yer verməklə hədisi həqiqi hadisələrlə uzlaşdırmaqdakı çarəsizliklərini ifadə ediblər. Ən bariz sözlərindən bir neçəsini qeyd edək:

1. İbn Ərəbi deyir: *"Biz Peyğəmbərdən (s) sonrakı on iki xəlifəni saydıq. Onların Əbu Bəkr, Ömər, Osman, Əli, Həsən, Müaviyə, Yezid, Müaviyə ibn Yezid, Mərvan ibn Həkəm, Əbdülməlik ibn Mərvan, Vəlid ibn Əbdülməlik,*

[541] Fəthul-Bari, İbn Həcər, c. 13, s. 182

Süleyman, Ömər ibn Əbdüləziz, Yezid ibn Əbdülməlik, Mərvan ibn Muhəmməd ibn Mərvan, Səffah... olduğunu gördük".

Sonra deyir: *"...Onlardan on iki nəfərini saysaq siyahı Süleymanla bitəcək. Əgər zahiri say deyil, haqq xəlifəlik mənasına əsasən onları saysaq, bu zaman sayları 5-i keçməyəcək. Bunlar ilk dörd xəlifə və Ömər ibn Əbdüləzizdir. Ona görə də hədisin mənasını bilmirəm!"*[542]

2. İbn Mihləb deyir: *"Bu hədisin izahında yəqinliklə bir şey bilən insan görmədim. Bir dəstə adam onların zaman boyunca gələcəyini söyləyib, bir dəstəsi isə onların hamısının eyni vaxtda olacağını iddia edib. Ən çox zənn edilən budur ki, Peyğəmbər (s) özündən sonra baş verəcək fitnələrdən və insanların eyni vaxtda on iki xəlifənin rəhbərliyi altına düşəcəklərindən xəbər verib. Əgər məqsədi bundan fərqli bir məna olsaydı, "on iki xəlifə olacaq, filan-filan işləri görəcək" deyərdi. Bunu etmədiyi üçün həmin xəlifələrin eyni vaxta olacaqlarını anlayırıq".* [543]

Buna İbn Həcər belə şərh verib: *"Bu, Buxarinin kitabındakı rəvayətə heç bir sözlə izah verə bilməyən şəxsin sözüdür".*[544]

3. Süyuti yazır: *"On iki xəlifənin belə sıralandığını gördüm: "İlk dörd xəlifə, Həsən, Müaviyə, İbn Zübeyr, Ömər ibn Əbdüləziz. Ehtimal ki, bu səkkiz nəfərə Abbasilərin xəlifəsi Muhtədini də əlavə etmək olar. Çünki o, Abbasilərin arasında Bəni-Üməyyədən olan Ömər ibn Əbdüləziz kimi idi. Həmçinin ədalətinə görə Tahiri də qeyd etmək mümkündür. Gəlişi gözlənilən iki nəfər qaldı ki, onlardan biri Mehdidir. O, Muhəmməd peyğəmbərin (s) ailəsindən olacaq".*[545]

---

[542] "Şərhu Səhihit-Tirmizi, İbn Ərəbi, c. 9, s. 68
[543] Fəthul-Bari, İbn Həcər, c. 13, s. 182
[544] Fəthul-Bari, İbn Həcər, c. 13, s. 182
[545] Tarixu xülafa, Cəlaləddin Süyuti, c. 16

Ustad Əbu Rəyyə buna belə qeyd verib: *"Lakin ikinci gözlənilən şəxsi bəyan etmədi! Süyuti barədə "O, gecə odunçusudur" deyən şəxsə Allah rəhmət etsin!"*[546]

4. İbn Həcər isə Əbu Hüseyn ibn Münadiyə istinadən Mehdi barədə topladığı cilddə yazır: *"On iki xəlifə" hədisi barədə ehtimal olunur ki, həmin xəlifələr axır zamanda gələcək Mehdidən sonra olacaq. Danyalın kitabında belə bir qeydə rast gəlmişəm: Mehdi vəfat etdikdən sonra əvvəlcə ən böyük nəvənin övladlarından beş nəfər, ardınca da ən kiçik nəvənin övladlarından beş nəfər padşah olacaq. Sonra da onların sonuncusu xilafəti böyük nəvənin övladlarından birinə vəsiyyət edəcək, onun da ardınca oğlu xəlifə olacaq. Bununla da on iki nəfər xəlifə tamamlanır. Onlardan hər biri hidayət olunmuş imamdır".*[547]

Bəlkə də *"On iki imam nəzəriyyəsi yəhudi düşüncəsidir ki, şiələr Danyalın kitabından götürüblər"* deyən kəslərin İbn Həcər Əsqəlaninin kitabından xəbərləri yoxdur. Bu sözlərdən aydın olur ki, Əbülhüseyn ibn Münadi kimi Əhli-Sünnə alimləri "On iki xəlifə" hədisini izah etməkdən ötrü Danyalın kitabına müraciət etmişlər.

İbn Həcər isə Əbülhüseyn ibn Münadinin sözlərini rədd edərək ardınca yazır: *"İbn Münadinin qeyd etdikləri aydın deyil".*[548]

5. Nəvəvi yazır: *"Qazi İyaz "On iki nəfərdən çox xəlifə olub" deyən şəxsin sözlərinin cavabında deyir: Bu etiraz yanlışdır. Çünki Peyğəmbər (s) "Yalnız on iki xəlifə olacaq" buyurmayıb. Əksinə, "gələcək" deyib. Həmin sayda xəlifə də gəlib. Onlardan sonra xəlifələrin gəlməsi də heç bir şeyə zərər vermir... Başqa ehtimallar da var. Peyğəmbərin (s) məqsədini Allah bilir".*[549]

6. İbn Cövzi "Kəşful-müşkil"də yazır: *"Bu hədisin mənalarını uzun-uzadı araşdırdım, gümanların üzərində dayandım, barəsində bir çoxlarından*

---

[546] Əzvau əlas-sünnətil-Muhəmmədiyyə, Əbu Rəyyə, s. 235
[547] Fəthul-Bari, İbn Həcər, c. 13, s. 184
[548] Fəthul-Bari, İbn Həcər, c. 13, s. 184
[549] Şərhu Səhihil-Müslim, Nəvəvi, c. 12, s. 201-203

soruşdum, lakin məqsədin nə olduğunu təyin edə bilmədim. Çünki onun kəlmələri müxtəlifdir. Qarışıqlığın ravi tərəfindən yaradıldığına şəkkim yoxdur. Sonra onun barəsində ağlıma bir fikir gəldi...”[550]

Ardınca başqa bir rəyi qeyd edir. Onun fikrinə görə, bu, Üməyyə oğullarının xəlifələrinin sayıdır. Deyir: *“Üməyyə oğullarının birincisi Yəzid ibn Müaviyə, sonuncusu isə Mərvan ibn Himardır. Onların sayı on üçdür. Osmanla Müaviyə, eləcə də İbn Zübeyr bunlardan sayılmır. Çünki onlar səhabə olublar. Səhabə olub-olmamasındakı ixtilafa, yaxud da camaatın Abdullah ibn Zübeyr ətrafında toplandığına görə tərk edilməsi səbəbindən onların arasından Mərvan ibn Həkəmi götürsək, say tamamlanacaq”.*[551]

İbn Həcər İbn Cövzinin sözünə etiraz edərək deyir: *“İbn Cövzinin səy və arzusuna baxmayaraq... qeyri-təbiilik göz qabağındadır”.*[552]

7. Beyhəqi yazır: *“Vəlid ibn Yezid ibn Əbdülməlikin zamanınadək bu sayı qeyd edilən xüsusiyyətlərlə görürdüm. Bundan sonra böyük fitnə və hərc-mərclik aləmi bürüdü. Ardınca da Abbasi xəlifələri hakimiyyətə gəldilər. Əgər qeyd edilən xüsusiyyətləri diqqətə almasam, yaxud da hərc-mərclikdən sonra hakimiyyətə gələnləri həmin xəlifələrdən saysaq, Abbasilərdən də bu saya əlavə edilənlər oldu”.*[553]

Buna İbn Kəsir belə etiraz bildirib: *“Beyhəqinin getdiyi üslubla bir dəstə alim razılaşıb ki, qeyd edilən on iki xəlifələrdən məqsəd fasiq Vəlid ibn Yezid ibn Əbdülməlikin vaxtınadək ard-arda gəlmiş xəlifələrdir. Hədisin onun barəsində məzəmmət və təhdid ehtiva etdiyini söylədik. Bu üslubla bağlı iradlar da mövcuddur... Hər bir halda, onların sayı Ömər ibn Əbdüləzizdən əvvəl on ikidir. Bu təqdirə əsasən, Yezid ibn Müaviyə də həmin on iki xəlifənin arasına daxil olur. Ömər ibn Əbdüləziz kənarda qalır. Halbuki*

---

[550] Fəthul-Bari, İbn Həcər, c. 13, s. 183

[551] Fəthul-Bari, İbn Həcər, c. 13, s. 183

[552] Fəthul-Bari, İbn Həcər, c. 13, s. 185

[553] Bunu “əl-Bidayətu vən-nihayə” kitabında Beyhəqidən İbn Kəsir nəql edib, c. 6, s. 279

imamlar onun mədhinə bir çox sözlər söyləmiş, hətta raşidi xəlifələrindən belə saymışlar".[554]

Bunlar Əhli-Sünnə alimlərinin "On iki xəlifə" hədisinin mənası ilə bağlı sözlərinin xülasəsidir. Lakin bu qısa fikirlərin daxilindəki qeyri-təbiilik, çaşqınlıq və qarışıqlıq heç də gizli deyil. Onların heç birində dəlil və sübutdan əsər belə yoxdur, boş zəndən savayı bir şey deyil.

"On iki xəlifə" hədisinin dəlaləti barədə yekun söz

"On iki xəlifə" hədisinin Peyğəmbər (s) sözü olduğu bir həqiqətdir. Hər iki firqədən müxtəlif kəlmələrlə, mütəvatir həddində nəql edilən hədis eyni məzmuna dəlalət edir ki, bu da on iki xəlifə gəlib getmədiyi müddətcə dinin aradan getməyəcəyidir.

Əhli-Sünnə alimləri on iki xəlifənin həqiqətini praktik olaraq təfsir edə bilməyiblər. Onu başa düşməkdə və təfsirində acizliklərinin ən yaxşı dəlili izahlarda yol verdikləri qarışıqlar və üzləşdikləri çətinliklərdir. Bəzilərinin sözünə əsasən, qeyri-təbiiliyə yol verilmiş, bəziləri[555] də düzgün izahda aciz qalaraq şərhi Allaha həvalə etmişlər.

"On iki xəlifə" hədisinin daşıdığı xüsusiyyət və keyfiyyətlər zahiri həqiqətdə praktiki olaraq yalnız Əhli-Beyt imamlarına (ə) uyğun gəlir. Necə ki, "ümmətin və camaatın işlərinin islahı onlardadır", "hər biri hidayətə və haqq dinə uyğun rəftar edər" və s. kimi sifətlər də onlara şamil olur.

Elm əhlinin qənaətinə əsasən, Əhli-Beytin (ə) daşıdığı müstəsna keyfiyyətlər, elmi və əməli cəhətdən, eləcə də mənəvi və düşüncə müstəvisində bu işə layiq olmaları həmin xüsusiyyətlərin ancaq Peyğəmbər (s) ailəsinə şamil olduğu ehtimalını gücləndirir.

---

[554] əl-Bidayətu vən-nihayə, c. 6, s. 279-280

[555] Şərhu Səhihil-Müslim, Nəvəvi, c. 12, s. 203

Bütün bunlar “On iki xəlifə” hədisinin yalnız və yalnız Əhli-Beytlə (ə) uzlaşdığını göstərir.

Üçüncü bəhs: "Mənzilət" hədisi

İmamiyyə şiələri Möminlərin əmiri Əlinin (ə) imamlığına və itaətinin vacibliyinə Peyğəmbər (s) sünnəsindən bu hədisi də dəlil göstərirlər: *"(Ya Əli) Sən mənə Harunun Musaya olan nisbətindəsən, sadəcə məndən sonra peyğəmbər yoxdur".*

Bu şərif hədisin sənəd baxımından heç bir şübhəsi yoxdur, altı səhih kitabda və eləcə də digər mühüm Əhli-Sünnə hədis mənbələrində varid olub, mütəvatir hədisdir. Nəql edilmiş kəlmələrinə nəzər salaq:

"Mənzilət" hədisinin nəql yolları

Əhli-Sünnə hədisşünas və hafizləri bir çox yollar və fərqli kəlmələrlə "Mənzilət" hədisini nəql ediblər. Onlardan bəzisini qeyd edirik:

1. Səd ibn Əbu Vəqqasın hədisi

"Mənzilət" hədisi Səd ibn Əbu Vəqqasdan bir neçə rəvayət yolu ilə nəql olunub:

Birinci yol: İbrahimin Səd ibn Əbu Vəqqasdan nəql etdiyi hədis

Buxari və Müslim öz "Səhih"lərində Şəbiyə istinad etdikləri sənədlə atasından nəql edirlər (Rəvayət Buxarinin "Səhih"indəndir): *"Peyğəmbər (s) Əliyə buyurdu: "Sən mənə Harunun Musaya olan nisbətində olmana razı deyilsənmi?!"*[556]

İkinci yol: Müsəb ibn Səd ibn Əbu Vəqqasın atası Səddən nəql etdiyi hədis

[556] Səhih, Buxari, c. 3, s. 1359, hədis 3503, "Mənaqibu Əli ibn Əbu Talib Qüreyşi Haşimi, Əbülhəsən (r)"; Səhih, Müslim, c. 4, s. 1870, hədis 2404, "Əli ibn Əbu Talibin (r) fəzilətləri" babı

Buxari və Müslim yenə də Şəbi sənədilə Həkəmdən, o da Müsəbdən, o da atası Səd ibn Əbu Vəqqasdan rəvayət edir (Rəvayət Buxarinindir): *"Peyğəmbər Təbuk savaşına yola düşərkən Əlini Mədinədə öz yerinə qoydu. Əli dedi: "Məni uşaq və qadınların arasında qoyursan?!" Peyğəmbər (s) buyurdu: "Sən mənə Harunun Musaya olan nisbətində olmana razı deyilsənmi?! Sadəcə məndən sonra peyğəmbər olmayacaq".*[557]

Üçüncü yol: Amir ibn Səd ibn Əbu Vəqqasın atası Səddən nəql etdiyi hədis

Müslim "Səhih"də Səid ibn Müseyyib sənədilə Amir ibn Səd ibn Əbu Vəqqasdan, o da atasında rəvayət edir: *"Peyğəmbər (s) Əliyə buyurdu: "Sənin mənə nisbətin Harunun Musaya nisbətidir, sadəcə məndən sonra peyğəmbər yoxdur".*

Səid deyir: "Bu barədə Sədin özü ilə danışmaq istədim. Amirin mənə danışdığını ona nəql etdikdə dedi: "Bunu mən şəxsən eşitmişəm". Dedim: "Sən özün eşitmisən?" O iki barmağını qulağına qoyaraq dedi: "Bəli, əks təqdirdə bunlar kar olsun!"[558]

Həmçinin "Səhih"ində Bükeyr ibn Mismarın vasitəsilə Amir ibn Səd ibn Əbu Vəqqasdan, o da atasından nəql edib: *"Peyğəmbər (s) onu savaşlardan birinə çıxarkən öz yerinə xəlifə qoydu. Əli dedi: "Ya Peyğəmbər, məni qadın və uşaqların arasında xəlifə təyin edirsən?" Peyğəmbər (s) cavabında buyurdu: "Sən mənə Harunun Musaya olan nisbətində olmana razı deyilsənmi?! Sadəcə məndən sonra peyğəmbərlik olmayacaq".*[559]

Dördüncü yol: Əbdürrəhman ibn Sabitin Səddən nəql etdiyi hədis

---

[557] Səhih, Buxari, c. 4, s. 1602, hədis 4154, "Təbuk savaşı"; Səhih, Müslim, c. 4, s. 1870, hədis 2404, "Əli ibn Əbu Talibin (r) fəzilətləri" babı

[558] Səhih" Müslim, c. 4, s. 1870, hədis 2404, "Əli ibn Əbu Talibin (r) fəzilətləri" babı

[559] Səhih, Müslim, c. 4, s. 1870, hədis 2404, "Əli ibn Əbu Talibin (r) fəzilətləri" babı

İbn Macə "Sünən"də Musa ibn Müslim yolu ilə İbn Sabitdən (o, Əbdürrəhmandır), o da Səd ibn Əbu Vəqqasdan rəvayət edir: *"Peyğəmbərin (s) belə buyurduğunu eşitdim: "Mən kimin mövlasıyamsa Əli də onun mövlasıdır". Həmçinin belə buyurduğunu eşitdim: "Sən mənə Harunun Musaya olan nisbətindəsən, sadəcə məndən sonra peyğəmbər yoxdur". Eləcə də buyurur: "Sabah bayrağı elə bir şəxsə verəcəyəm ki, Allahı və Rəsulunu sevir".*[560]

Albani hədisin ardınca deyir: *"Səhihdir".*[561]

Beşinci yol: Aişənin Səd ibn Əbu Vəqqasdan nəql etdiyi hədis

Əhməd ibn Hənbəl Cüneyd ibn Əbdürrəhman yolu ilə Sədin qızı Aişədən, o da atasından nəql edir: *"Əli Peyğəmbərlə (s) birlikdə şəhərdən çıxıb vadinin kənarınadək gəldikdə ağlayaraq dedi: "Məni getməyənlərin arasında qoyursan?" Buyurdu: "Məgər sən mənə, peyğəmbərlikdən savayı, Harunun Musaya olan nisbətində olmağına razı deyilsən?"*[562]

Şüeyb Arnaut hədisin ardınca deyir: *"Hədisin sənədi Buxarinin şərtinə əsasən, səhihdir".*[563]

Altıncı yol: Səid ibn Müseyyibin Səd ibn Əbu Vəqqasdan nəql etdiyi hədis

Əhməd ibn Hənbəl Əli ibn Zeyd yolu ilə Səid ibn Müseyyibdən rəvayət edir: *"Səd ibn Malikə dedim: "Mən səndən bir hədis haqqında soruşmaq istəyirəm, lakin soruşmağa qorxuram". Dedi: "Ey qardaşımın oğlu, belə etmə. Əgər o barədə nə isə bildiyimi bilirsənsə soruş, qorxma". Dedim: "Səndən Peyğəmbər (s) Əlini Mədinədə öz yerinə qoyub Təbuk savaşına*

---

[560] Sünən, İbn Macə, c. 1, s. 45, hədis 121, "Əli ibn Əbu Talibin (r) fəzilətləri" babı

[561] Həmin mənbə, Albaninin hədislərə verdiyi hökmlərlə

[562] Müsnəd, Əhməd ibn Hənbəl, c. 1, s. 173, hədis 1490, "Əbu İshaq Səd ibn Əbu Vəqqasa (r) istinad olunanlar" fəsli

[563] Həmin mənbə, hədislərə Şüeyb Arnautun verdiyi hökmlərlə

gedərkən ona söylədiyi sözlər haqqında soruşmaq istəyirəm. Səd (r) dedi: "Peyğəmbər (s) Təbuka yola düşərkən Əlini (r) Mədinədə xəlifə qoydu. Əli isə onu uşaq və qadınlarla birlikdə arxada qoyub getdiyini söylədi. Peyğəmbər (s) buyurdu: "Məgər mənə Harunun Musaya olan nisbətində olmağına razı deyilsən?" Əli dedi: "Bəli, razıyam, ya Peyğəmbər!" Əli çevrilib sürətlə geri qayıtdı. Sanki, mən onun ayağının altından qalxan tozların parıltısına baxırdım". Həmmad deyir: "Əli sürətlə geri qayıtdı".[564]

Şüeyb Arnaut hədisin ardınca deyir: *"Səhihdir".*[565]

Həmçinin Müəmmər yolu ilə Qətadədən, o da Əli ibn Zeyd ibn Cədandan, onlar da İbn Müseyyibdən, o da Səd ibn Malikin oğlundan, o da atasından buna yaxın kəlmələrlə nəql edib.[566] Şüeyb Arnaut rəvayətin ardınca deyir: *"Sənədi səhih, raviləri etibarlı (siqə) və Şeyxeynin (Buxari və Müslimin) raviləridir. Yalnız Əli ibn Zeyddən savayı. O, "Sünən" sahiblərinin ravilərindəndir".*[567]

Təbərani Əli ibn Hüseynə, o da Səid ibn Müseyyibə istinadən nəql edir ki, Səd ibn Əbu Vəqqas bunu müxtəsər şəkildə ona danışıb.[568]

Eləcə də Əbu Yəla Hərb ibn Şəddad yolu ilə Səid ibn Müseyyibdən, o da Səddən nəql edib.[569] Hüseyn Səlim Əsədin hədisinin hökmü ilə bağlı yazır: *"Ravilər "Səhih"in raviləridir".*[570]

---

[564] Müsnəd, Əhməd ibn Hənbəl, c. 1, s. 170, hədis 1463, Əbu İshaq Səd ibn Əbu Vəqqasa istinad edilən hədislər

[565] Həmin mənbə. Hədisələrə Şüeyb Arnautun verdiyi hökmlərlə

[566] Müsnəd, Əhməd ibn Hənbəl, c. 1, s. 177, hədis 1532, Əbu İshaq Səd ibn Əbu Vəqqasa istinad edilən hədislər

[567] Həmin mənbə. Hədisələrə Şüeyb Arnautun verdiyi hökmlərlə.

[568] əl-Möcəmul-kəbir, Təbərani, c. 1, s. 148, hədis 333, "Qüreyş və digərlərinə ehtiram" fəsli

[569] Müsnəd, Əbu Yəla, c. 2, s. 86, hədis 738, Səd ibn Əbu Vəqqasa istinad olunanlar

[570] Həmin mənbə, hədislərə Hüseyn Səlim Əsədin verdiyi hökmlərlə

2. İbn Abbasın hədisi

Əhməd ibn Hənbəl Əmr ibn Məymuna istinadən İbn Abbasdan uzun bir hədis əsnasında belə eşitdiyini rəvayət edir: *"Peyğəmbər (s) camaatla Təbuk savaşına yollandı. Bu vaxt Əli ona dedi: "Mən də sənlə gedirəm". Peyğəmbər (s) "Xeyr" dedikdə Əli ağlamağa başladı. Buyurdu: "Məgər mənə Harunun Musaya olan nisbətində olmağına razı deyilsən? Yalnız sən peyğəmbər deyilsən. Mən bir yerə getdikdə sən mənim xəlifəmsən".*

Ravi deyir: Peyğəmbər (s) buyurdu: "Sən məndən sonra hər bir möminin vəlisisən".[571]

Heysəmi "Məcməuz-zəvaid"də hədisin ardınca yazır: *"Bunu Əhməd, Təbərani "Kəbir"də, və "Övsat"da ixtisarla rəvayət ediblər. Əhmədin rəvayətinin raviləri "Səhih"in raviləridir. Yalnız Əbu Bəlc Fəzzaridən savayı. O, etibarlıdır (siqədir), onu gücdən salan fikirlər də söylənib".*[572]

Rəvayəti Albani "Zilalul-cənnəti fi təxricis-sünnə" kitabında müxtəsər şəkildə nəql edib. Ardınca rəvayətin nəql yolunu qiymətləndirərək deyir: *"Həsəndir".*[573]

Hakim də bunu "Müstədrək"də qeyd edərək səhih olduğunu bildirir. Hədisin ardınca deyir: *"Bu, sənədi səhih hədisdir, Buxari və Müslim bu ardıcıllıqla nəql etməyiblər".*[574] Zəhəbi də "ət-Təlxis"də onunla razılaşıb. Orada deyir: *"Səhihdir".*[575]

İbn Əbu Asim "Kitabus-sünnə" də Əmr ibn Məymun sənədilə İbn Abbasdan nəql edir: *"Peyğəmbər (s) Əliyə buyurdu: "Sənin mənə nisbətin*

---

[571] Müsnəd, Əhməd ibn Hənbəl, c. 1, s. 330, hədis 3062, Abdullah ibn Abbas ibn Əbdülmüttəlibə (r) istinad edilən hədislər

[572] Məcməuz-zəvaid, Heysəmi, c. 9, s. 157, hədis 14696

[573] Zilalul-cənnəti fi təxricis-sünnə, Muhəmməd ibn Nasir Albani, c. 2, s. 337. İbn Əbu Asimin "Kitabus-sünnə" kitabı ilə birlikdə olan çapı

[574] əl-Müstədrəku ələs-səhiheyn, Hakim Nişapuri, c. 3, s. 143, "Əli ibn Əbu Tlaibin (r) müsəlmanlığı" fəsli

[575] Həmin mənbə, Zəhəbinin "ət-Təlxis"dəki şərhlərilə

Harunun Musaya olan nisbətidir. Sadəcə sən peyğəmbər deyil, mənim xəlifəmsən".[576]

Albani kitabın haşiyəsində yazır: *"Sənədi həsəndir".*[577]

Təbərani Mahmud ibn Muhəmməd Mərvəzi yolu ilə Hamid ibn Adəm Mərvəzidən, o da Cərirdən, o da Leysdən, o da Mücahiddən, o da İbn Abbasdan nəql edir: *"Peyğəmbər (s) mühacir və ənsarın arasında qardaşlıq yaratdıqda Əli ibn Əbu Taliblə onlardan heç birini qardaşlaşdırmadı. Əli qəzəbli halda çıxıb qumsallara tərəf getdi, qollarını cütlədi. Külək də onun üzərinə torpaq tökürdü. Bu vaxt Peyğəmbər (s) Əlini axtardı. Onu orada tapdıqda yumruğu ilə ayağına vurub dedi: "Qalx, doğurdan da sən Əbu Turab (torpaq atası) olmağa layiqsən. Mühacir və ənsarın arasında qardaşlıq yaradarkən sənlə onlardan heç birini qardaş etmədiyimə görə mənə qəzəblənmisən? Məgər sən mənə Harunun Musaya olan nisbətində olmağına razı deyilsən?! Lakin məndən sonra peyğəmbər yoxdur. Bil ki, səni sevən şəxs əmin-amanlıq və imanla əhatə olunar, sənə nifrət edəni isə Uca Allah cahiliyyə ölümü ilə dünyadan aparar və İslamdakı əməllərinə görə hesaba çəkər".*[578]

Bu hədisin sənədi ravilər baxımından mötəbərdir.[579]

---

[576] Kitabus-sünnə, İbn Əbu Asim, s. 551

[577] Həmin mənbə, Albaninin haşiyələrdə qeydlərilə

[578] əl-Möcəmul-kəbir, Təbərani, c. 11, s. 75, hədis 11092, Mücahidin İbn Abbasdan nəql etdikləri

[579] Bu hədisi Cərir Leysdən, o da Mücahiddən nəql edib. Bu rəvayət yolu tamdır, barəsində heç bir söz yoxdur. Çünki bunlar əhi-sünnənin ən üstün alimlərindəndir. Onların etibarlı olub-olmaması barədə danışmağa ehtiyac yoxdur. Mahmud ibn Muhəmməd Mərvəzi barədə isə Xətib Bağdadi deyir: *"Muhəmməd ibn Muxəllməd, Əbdüssəməd ibn Əli Təsti, Əbu Səhl ibn Ziyad, İsmail ibn Əli Xətbi və Əbu əli ibn Səvvaf düzgün hədislər rəvayət ediblər".* (Tarixu Bağdad, c. 13, s. 194). Həmçinin Zəhəbi onun barəsində yazır: *"Mahmud ibn Muhəmməd Mərvəzi – məşhurdur, Davud ibn Rəşiddən, Əli ibn Həcərdən və onların təbəqəsində olanlardan hədis eşidib. Onda isə "ət-Təmsi, İbn Səvvaf Təbərani düzgün hədislər nəql ediblər".* (Tarixul-İslam, c. 22, s. 309, "Həvadisul-vəfiyyat", 291-300)

Hədisin sənədindəki Hamid ibn Adəmin adını İbn hibban "əs-Siqat" ("Etibarlılar") kitabında qeyd edib (c. 8, s. 218). Hakim də "Müstədrək"də ondan hədis nəql edib (c.

Həmçinin Sələmə ibn Küheyl sənədilə Mücahiddən, o da İbn Abbasdan müxtəsər olaraq nəql edib.[580]

Bunu qısa şəkildə Heysəmi də "Məcməuz-zəvaid"də nəql edərək ardınca deyir: *"Bəzzar və Təbərani bunu nəql ediblər. Orada yalnız "Sən mənə Harunun nisbətindəsən" deyə qeyd olunub. Bəzzarın rəvayətinin raviləri "Səhih"in raviləridir. Yalnız Əbu Bəlc Kəbirdən (Fəzzaridən) savayı, o etibarlıdır (siqədir)".*[581]

Həmçinin Səid ibn Cübeyr sənədilə İbn Abbasdan rəvayət olunur: *"Peyğəmbər (s) Ümmü Sələməyə dedi: "Bu Əli ibn Əbu Talibin əti ətimdən, qanı qanımdandır. Onun mənə nisbəti Harunun Musaya olan nisbətindədir. Yalnız məndən sonra peyğəmbər olmayacaq".*[582]

Hafiz ibn Əsakir Abdullah ibn Dahir ibn Yəhya Razi sənədilə atasından, o da Əməşdən, o da Übabə Əsədidən, o da İbn Abbasdan eynilə Ümmü Sələmənin əvvəlki hədisinə uyğun rəvayət edib.[583]

Xətib Bağdadi Abdullah ibn Dahiri etibarlı (siqə) sayıb. Onun tərcümeyi-halında yazır: *"Abdullah ibn Dahir ibn Yəhya Əhməri Razi – şeyxdir, doğru danışandır".*[584]

İbn Həcər Dahirin tənqiddən uzaq olduğunu, yalnız oğlu Abdullahın tənqidilə məhdudlaşdığı etiraf edir. İbn Əsakirdən yuxarıdakı "Mənzilət" hədisini nəql etdikdən sonra deyir: *"Dahir barədə pis nə isə söyləyən bir kəs görmədim, hətta İbn Əbu Hatəm də onu qeyd etməyib. Çünki*

2, s. 58, hədis 2312). İbn Ədiy onun tərcümeyi-halında yazır: *"Etibarlı (siqələrdən) şəxslərdən nəql etdiyi hədislərdə inkar olunacaq heç bir problem görməmişəm. Yalnız zəiflərdən nəql etdikdə inkar olunar".* (əl-Kamil, c. 2, s. 461)

[580] əl-Möcəmul-kəbir, Təbərani, c. 11, s. 74, hədis 11087, "Mücahidin İbn Abbasdan nəql etdikləri" fəsli

[581] Məcməuz-zəvaid, Heysəmi, c. 9, s. 139, hədis 14645, "Əlinin (r) məqamı" fəsli

[582] əl-Möcəmul-kəbir, Təbərani, c. 12, s. 18, hədis 12341, "Səid ibn Cübeyrin İbn Abbasdan nəql etdikləri" fəsli

[583] Tarixu mədinəti Dəməşq, İbn Əsakir, c. 42, s. 42

[584] Tarixu Bağdad, Xətib Bağdadi, c. 9, s. 453

(rəvayətlərdəki) bəlaların (nöqsanların) hamısı oğlu Abdullah tərəfindəndir. Yalnız onu qeyd etməklə kifayətləniblər".[585]

3. Zeyd ibn Ərqəmin hədisi

Təbərani Ovfa istinadən Məymun Əbu Abdullahdan, o da Bərra ibn Azibdən və Zeyd ibn Ərqəmdən rəvayət edir: *"Peyğəmbər (s) savaşa yollanarkən Əliyə "Ya sən, ya da mən burada qalmalıyıq" deyərək onu döyüşə aparmadı. Camaat öz arasında onu hansısa bəyənmədi məsələyə görə döyüşə aparmadığını söyləməyə başladı. Bu sözlər Əliyə çatdıqda Peyğəmbərin (ə) yanına gedərək bunları ona xəbər verdi. Peyğəmbər (s) gülümsəyib buyurdu: "Ya Əli, sən mənə Harunun Musaya olan nisbətində olmağına razı deyilsən?! Sadəcə məndən sonra peyğəmbər yoxdur".*[586]

Heysəmi yazır: *"Bunu Təbərani iki sənədlə nəql edib. Onlardan birində Məymun və ya Abdullah Bəsri var ki, İbn Hibban onu etibarlı, bir dəstə isə zəif sayıb. Hədisin digər raviləri isə "Səhih"in raviləridir".*[587]

Təbərani həmçinin Harun ibn Səd sənədilə Məymun Əbu Abdullahdan, o da Zeyd ibn Ərqəmdən və Bərra ibn Azibdən bunu müxtəsər şəkildə nəql edib.[588]

4. Əbu Səid Xudrinin hədisi

Əhməd ibn Hənbəl Füzeyl ibn Mərzuq yolu ilə Ətiyyə Ovfidən, o da Əbu Sədi Xudridən rəvayət edir: *"Peyğəmbər (s) Əliyə buyurdu: "Sən mənə*

---

585 Lisanul-mizan, İbn Həcər, c. 2, s. 414

586 əl-Möcəmul-kəbir, Təbərani, c. 5, s. 203, hədis 5094, "Məymun Əbu Abdullahın Zeyd ibn Ərqəmdən nəql etdikləri".

587 Məcməuz-zəvaid, Heysəmi, c. 9, s. 141, hədis 14653, "Əlinin (r) məqamı" fəsli.

588 əl-Möcəmul-kəbir, Təbərani, c. 5, s. 203, hədis 5095, "Məymun Əbu Abdullahın Zeyd ibn Ərqəmdən nəql etdikləri" fəsli

Harunun Musaya olan nisbətindəsən. Sadəcə məndən sonra peyğəmbər yoxdur".[589]

Heysəmi hədisi rəvayət etdikdən sonra deyir: *"Ravilərin arasında Ətiyyə Ovfi var. İbn Muin onu etibarlı (siqə), Əhməd və bir dəstə alim isə zəif hesab etmişlər. Əhmədin rəvayətinin digər raviləri "Səhih"in raviləridir".*[590]

Onu həmçinin Muhəmməd ibn Səd də "ət-Təbəqat"da etibarlı sayıb: *"İnşallah, etibarlıdır (siqədir). Onun etibar yaradan hədisləri var".*[591]

İbn Əbu Hatəm deyir: *"Atamdan Əbu Nəzrə və Ətiyyə haqqında soruşulduqda "Əbu Nəzrə mənə daha sevimlidir" deyə cavab verdi".*[592]

Əbu Nəzrə etibarlıdır (siqədir), Əbu Hatəmin bu sözləri Ətiyyəni də etibarlı saydığına dəlalət edir. Çünki müqayisə yalnız iki şəxsin arasında aparılar, sual isə onların hansının daha etibarlı olması barədədir. Əgər Ətiyyə zəif olsaydı, o zaman müqayisə düzgün sayılmaz, cavabda da fərqli sözlər deyilərdi.

Eyni qəbildən olan sözləri Yəhya ibn Səid Qəttandan Cəbr ibn Nouf Əbu Vəddak barədə soruşulduğu zaman verdiyi cavabda da görürük: *"Əbülvəddak mənə Ətiyyədən daha sevimlidir".*[593]

Əbu Bəkr Bəzzar deyir: *"Böyük şəxsiyyətlər ondan rəvayət ediblər".*[594]

Tirmizi "Sünən"də[595] onun bir çox hədisinə "həsən" və "səhih" hökmü vermişdir. İbn Hüzeymə də "Səhih"ində[596] onun hədislərini nəql edib. Kitabını "əl-Müsnədus-səhih əl-muttəsili binəqlil-ədli ənil-ədli min ğeyri qəti fis-sənədi və la cərha fin-nəqələ" ("Ədalətli şəxslərin ədalətlilərdən nəql etdikləri, sənədində qopuqluq və ravilərində nöqsan olmayan səhih

---

589 Müsnəd, Əhməd ibn Hənbəl, c. 3, s. 32, hədis 11290

590 Məcməuz-zəvaid, Heysəmi, c. 9, s. 138, hədis 14642

591 ət-Təbəqatul-kubra, Muhəmməd ibn Səd, c. 6, s. 304

592 İbn Əbu Hatəm Razi, c. 8, s. 241

593 Tarixul-kəbir, Buxari, c. 2, s. 243; Təhzibut-təhzib, İbn Həcər, c. 2, s. 52

594 Təhzibut-təhzib, İbn Həcər, c. 7, s. 202

595 Sünən, Tirmizi, c. 1, s. 296; c. 2, s. 394; c. 3, s. 228, 317-318; c. 4, s. 7-8, 42, 46, 84, 96, 260, 261; c. 5, s. 23, 50, 137, 268, 278-279, 303, 372

596 Səhih, İbn Hüzeymə, c. 3, s. 159

istinadlı hədislər”) adlandırıb.[597] Hafiz ibn Həcər Əsqəlani deyir: *“İbn Hüzeymənin kitabındakı hədislərin hökmləri... onlar dəlil göstərilmək səlahiyyətinə malikdir. Çünki “səhih” və “həsən” dairəsindədirlər, az hissəsində belə şübhə doğuracaq illət yoxdur”.*[598]

İbn Həcər Ətiyyə barəsində deyir: *“Doğru danışandır, çox xəta edir”.*[599]

5. Cabir ibn Abdullah Ənsarinin hədisi

Əhməd ibn Hənbəl Abdullah ibn Muhəmməd ibn Əqil yolu ilə Cabir ibn Abdullahdan nəql edir: *“Peyğəmbər (s) öz yerinə Əlini qoyub yola düşmək istəyərkən Əli dedi: “Sən məni burada qoyub gedərkən camaat barəmdə nə deyəcək?” Peyğəmbər (s) buyurdu: “Mənə nisbətdə Harunun Musaya olan nisbətində olmağına razı deyilsən? Yalnız məndən sonra peyğəmbər yoxdur” və ya “məndən sonra peyğəmbər olmayacaq”.*[600]

Təbərani Simak yolu ilə Cabirdən rəvayət edir: *“Peyğəmbər (s) Əliyə (r) buyurdu: “Sənin mənə nisbətin Harunun Musaya olan nisbətidir. Yalnız məndən sonra peyğəmbər yoxdur”.*[601]

6. Əsma bint Ümeysin hədisi

Əhməd ibn Hənbəl Abdullah ibn Nümeyr yolu ilə Musa Cəhnidən, o da Fatimə bint Əlidən Əsma bint Ümeysin Peyğəmbərdən (s) belə eşitdiyini nəql edir: *“Ya Əli, sənin mənə nisbətin Harunun Musaya olan nisbətidir. Yalnız məndən sonra peyğəmbər yoxdur”.*[602]

---

[597] Bax: Səhih, İbn Hüzeymə, c. 1, s. 3; ən-Nukətu əla kitabi İbn Səlah, Hafiz ibn Həcər Əsqəlani, c. 1, s. 22

[598] ən-Nukətu əla kitabi İbn Səlah, İbn Həcər Əsqəlani, c. 1, s. 291

[599] Təqribut-təhizb, İbn Həcər, c. 1, s. 678

[600] Müsnəd, Əhməd ibn Hənbəl, c. 3, s. 338, hədis 14679, “Cabir ibn Abdullaha istinad olunanlar”.

[601] əl-Möcəmul-kəbir, Təbərani, c. 2, s. 237, hədis 2035

[602] Müsnəd, Əhməd ibn Hənbəl, c. 6, s. 438, hədis 27507

Heysəmi "Məcməuz-zəvaid"də hədisin ardınca yazır: *"Bunu Əhməd və Təbərani rəvayət ediblər. Əhmədin rəvayətinin raviləri "Səhih"in raviləridir. Yalnız Fatimə bint Əlidən savayı. O, etibarlıdır (siqədir)".*[603]

Şüeyb Arnaut da hədislə bağlı deyir: *"Sənədi səhihdir".*[604]

Bunu həmçinin Əhməd Yəhya ibn Səid yolu ilə Musa Cəhnidən yaxın kəlmələrlə nəql edib.[605] Hədisin ardınca Şüeyb Arnaut yazır: *"Sənədi səhih, raviləri etibarlıdır (siqədir). Fatimə bint Əlidən savayı hamısı "Səhih"in raviləridir. O, Əli ibn Əbu Talibin qızıdır".*[606]

7. Möminlərin əmiri Əlinin (ə) hədisi

Hakim Həkim ibn Cübeyr yolu ilə Əlinin azad edilmiş köləsi Həsən ibn Səddən, o da Möminlərin əmiri Əlidən (ə) rəvayət edir: *"Peyğəmbər (s) məni çağırdı. Mən bir söz söyləmədən məni döyüşə aparmayacağını söylədi. Ağlamağa başladım. Peyğəmbər (s) nə üçün ağladığımı soruşduqda dedim: "Ya Peyğəmbər, bir neçə səbəb məni ağlatdı. Sabah Qüreyş deyəcək ki, nə tez əmisi oğlunu arxada qoyur və tərk edir. Başqa bir səbəb də odur ki, Allah yolunda cihadda iştirak etmək istəyirəm. Çünki Uca Allah buyurur:* ***"Çünki Allah yolunda cihadda... kafirlərin qəzəbinə səbəb olan elə bir yerə onlar ayaq basmaz və düşməndən elə bir bəla, müsibət görməzlər ki, bunların müqabilində onlara yaxşı bir əməl yazılmamış olsun!"***[607] *Mən də Allahın lütfündən pay almaq istəyirəm. Peyğəmbər (s) buyurdu: "Sabah Qüreyş deyəcək ki, nə tez əmisi oğlunu arxada qoyur və tərk edir" sözünə gəldikdə, sənin üçün məndə nümunələr var. Onlar mənə sehrbaz, kahin və yalançı deyirdilər. Mənə nisbətdə Harunun Musaya olan nisbətində*

---

[603] Məcməuz-zəvaid, Heysəmi, c. 9, s. 138, hədis 14643

[604] Müsnəd, Əhməd ibn Hənbəl, c. 6, s. 438, hədis 27507, hədislərə Şüeyb Arnautun verdiyi hökmlərlə

[605] Bax: Müsnəd, Əhməd ibn Hənbəl, c. 6, s. 369, hədis 27126

[606] Həmin mənbə, hədislərə Şüeyb Arnautun verdiyi hökmlərlə

[607] Tövbə, 120

olmağına razı deyilsənmi? Yalnız məndən sonra peyğəmbər yoxdur. "Mən də Allahın lütfündən pay almaq istəyirəm" sözünə gəldikdə, bunlar bizə Yəməndən gəlmiş istiotlardır. Onları sat, (qazancından) sən və Fatimə istifadə edin ki, Allah da öz lütfündən sizə göndərsin. Mədinəyə yalnız mənim və sənin rəhbərliyin layiqdir".[608]

Hakim rəvayətin sənədinin səhih olduğunu qeyd edib: *"Bu, sənədi səhih hədisdir, Buxari və Müslim nəql etməyiblər".*[609]

"Mənzilət" hədisini Təbərani Qətadəyə istinadən Səid ibn Müseyyibdən, o da Möminlərin əmirindən (ə) rəvayət edib. Orada deyilir: *"Peyğəmbər (s) buyurdu: "Səni xəlifəm olmağın üçün burada qoyuram".*[610]

Heysəmi "Məcməuz-zəvaid"də yazır: *"Əlidən Peyğəmbərin (s) belə buyurduğu nəql olunur: "Səni xəlifəm olmağın üçün burada qoyuram". Əli dedi: "Ya Peyğəmbər, mən sənlə getmirəm?" Buyurdu: "Mənə nisbətdə Harunun Musaya olan nisbətində olmağına razı deyilsənmi? Yalnız məndən sonra peyğəmbər yoxdur".*[611]

Heysəmi hədisin ardınca deyir: *"Bunu Təbərani "əl-Möcəmul-övsat"da rəvayət edib. Raviləri "Səhih"in raviləridir".*[612]

"Mənzilət" hədisinin rəvayət yolları ilə bağlı yekun söz

"Mənzilət" hədisinin rəvayət yollarını, uyğun və fərqli kəlmələrini qısaca qeyd etdik. Aydın oldu ki, mübahisəyə meylli kəslərin onlara kəc baxması və ya sənədlərində nöqsan tutması mümkün deyil. Belə ki, hədisin səhihliyi qətidir, hətta mütəvatirdir. Söhbəti uzatmamaq üçün hədisin digər nəql yollarına nəzər salmadıq. Onların əksəriyyətini

---

[608] əl-Müstədrəku ələs-səhiheyn, Hakim Nişapuri, c. 2, s. 367, hədis 3294, "Tövbə" surəsinin təfsiri

[609] Həmin mənbə

[610] əl-Möcəmul-övsat, Təbərani, c. 4, s. 296-297, hədis 4248, "Adı Abbas olanlar".

[611] Məcməuz-zəvaid, Heysəmi, c. 9, s. 141, hədis 14650

[612] Həmin mənbə

Heysəmi "Məcməuz-zəvaid"də qeyd edib. Maraqlanan şəxslər oraya müraciət edə bilərlər.

"Mənzilət" hədisinin dəlaləti

"Mənzilət" hədisinin nəql yollarına və kəlmələrinə nəzər salan şəxs bir neçə məsələ ilə qarşılaşacaq:

1. Səid ibn Müseyyibin Amirdən nəql etdiyi rəvayət "Mənzilət" hədisinin aydın şəkildə Təbuk savaşı ərəfəsində deyil, ümumi mənada qeyd olunduğuna dəlalət edir. Onun məhz Təbuk savaşına aid edilməsi dəlilə möhtacdır. Belə ki, hədis dəfələrlə söylənilib. Necə ki, İbn Müseyyibin hədisin ardınca düşməsi, onun Peyğəmbər (s) tərəfindən söyləndiyini isbatlaması, təəccüblə Səd ibn Əbu Vəqqasa sual verməsi, Sədin də bunu şəxsən Peyğəmbərdən (s) eşitdiyini təkidlə bildirməsi, iki barmağını qulağına qoyaraq *"Bəli, əks təqdirdə bunlar kar olsun!"* söyləməsi səhabə və tabeunların bu hədisdən Möminlərin əmiri Əlinin (ə) xüsusi fəzilət və üstünlüyünün təsdiqləndiyini, digər səhabələrdən seçildiyini anladıqlarına dəlalət edir. Əgər hədisdə İmam Əliyə (ə) məxsus bir fəzilət olmasaydı İbn Müseyyib belə təkidlə onun isbatlanmasına səy göstərməzdi!

Həmçinin Bukeyr ibn Mismarın Amirdən[613] rəvayət etdiyi: *"Müaviyə ibn Əbu Süfyan Səddən "Əbu Turabı söyməyə sənə nə mane olur" deyə soruşdu"* hədisi. Bu hədis də özündə bir çox cəhətləri ehtiva edir. Onların hər biri "Mənzilət" hədisinin İmam Əlinin (ə) digər səhabələrdən əzəmətli üstünlüyünün və fərqləndirilməsinin isbatına dəlalət edir. Onların bir neçəsinə nəzər salaq:

A. Sədin cavab olaraq söylədiyi sözlər: *"Peyğəmbərin (s) Əlinin barəsində söylədiyi üç şeyə görə onu əsla söymərəm. Əgər onlardan biri*

[613] Birinci hədis, Sədin hədisi, üçüncü nəql yolu, Bukeyr ibn Mismarın Amir ibn Səd ibn Əbu Vəqqadan, onun da atasından nəql etdiyi hədis.

məndə olsaydı, bu mənə qırmızı dəvələrə yiyələnməkdən daha sevimli olardı". Bu sözlər Sədin "Mənzilət" hədisindən İmam Əliyə (ə) məxsus elə əzəmətli üstünlükləri anladığını göstərir ki, onda və digər səhabələrdə həmin xüsusiyyətlər yox idi. Həmçinin Səd bu məqamın hər hansı dünya neməti və xəzinəsi ilə müqayisə olunmayacağını düşünürdü.

B. Səd "Mənzilət" hədisini "Bayraq" və "Mübahələ" hadisələri ilə bərabər tutur. Şübhə yoxdur ki, "Bayraq" hədisində Peyğəmbərin (s) buyurduğu *"Bayrağı elə bir şəxsə verəcəyəm ki, o, Allahı və Rəsulunu, Allah və Rəsulu da onu sevir"* sözlərindən səhabələr İmam Əliyə (ə) məxsus olan əzəmətli məqam və fəzilətləri anlamışlar. Ömər ibn Xəttab həmin vaxt demişdi: *"Rəhbərliyi yalnız həmin gün çox arzulamışdım".* Həmçinin demişdi: *"Bayrağı almaq üçün başımı irəli uzadırdım".*

"Bayraq" hədisinin kəlmələri özündə Ömər və digər səhabələrin də əldə etməyi arzuladığı əzəmətli bir üstünlüyün bəyanını daşıyır ki, buna da yalnız Möminlərin əmiri Əli (ə) nail olub. O, rəhbərliyə yeganə layiq şəxs idi ki, Uca Allah da onun əli ilə Xeybəri fəth etdi. Necə ki, bu fəzilətlər "Mənzilət" hədisindən də anlaşılır. Eləcə də "Mübahələ" hədisində Peyğəmbərin (s) *"İlahi, mənim Əhli-Beytim bunlardır"* sözləri də bunu isbatlayır.

C. Hədisdə *"Yalnız məndən sonra peyğəmbərlik yoxdur"* sözləri cümləyə bitişik istisnadır. Belə ki, yalnız bunun istisna edilməsi digər xüsusiyyətlərdəki eyniliyi qorumuş olur.

Əgər iddia olunsa ki, hədisdəki bu sözlər xəbər cümləsidir və xəbər cümlələrindəki istisnalar yarımçıq olur, buna Əhmədin səhih sənədlə Sədin qızı Aişədən, onun da atasında nəql etdiyi hədislə cavab verərik: *"Əli Peyğəmbərlə (s) birlikdə şəhərdən çıxıb vadinin kənarınadək gəldikdə ağlayaraq dedi: "Məni getməyənlərin arasında qoyursan?" Buyurdu: "Məgər*

sən mənə peyğəmbərlikdən savayı Harunun Musaya olan nisbətində olmağına razı deyilsən?"[614]

Bu hədisin kəlmələri özündə olduqca mühüm nöqtələri ehtiva edir: Oradakı istisna xəbər cümləsi deyil. Bu isə ortaya atılacaq "Hədisdəki istisna xəbər cümləsidir. Xəbər cümləsinin isə cümləyə birləşmiş istisna olması mümkün deyil"[615] şübhəsinə cavabdır. Halbuki həmin şübhə kökündən əsasızdır. Çünki qəbul edilmiş qaydalara əsasən, müstəsnalar cümləyə birləşmiş olmalıdır, istər xəbəri cümlə olsun, istər olmasın.

İstisnanın birləşmiş olması halında bu, Harunun (ə) Musaya (ə) nisbətində sahib olduğu bütün məziyyətləri İmam Əli (ə) üçün də isbatlamış olur. Qarşıda imamət və xilafətin də həmin məziyyətlərdən olduğunu təqdim edəcəyik.

2. İbn Abbasdan fərqli kəlmələrlə nəql olunan rəvayət Harunun (ə) Musaya (ə) nisbətdə sahib olduğu bütün əhəmiyyətli məqam və dərəcələri: imamət, vilayət, xilafət məsələlərini isbatlayır. Qarşıda bunlara toxunacağıq. Əhli-Sünnənin bəzi alimləri də hədisin xilafət məqamının isbatında birbaşa dəlil olmasını qeyd ediblər. Onlara misal kimi təhqiqatçı Əhməd Mahmud Sübhinin sözlərini göstərmək olar. Hədisin səhihliyi barədə araşdırma apardıqdan sonra deyir: *"Şübhə yoxdur ki, hədisdəki bu kəlmələr Əlinin imamlığına böyük dəlildir, ixtilafların kökünü kəsir və hədisin dəlaləti barədə firqələrin müxtəlif yozumları qarşısına sədd çəkir".*[616]

Necə ki, Mahmud ibn Muhəmməd Mərvəzinin,[617] Sələmə ibn Küheylin,[618] İbn Abbasdan (Səid ibn Cübeyrin hədisi)[619] və Abdullah ibn

---

[614] Müsnəd, Əhməd ibn Hənbəl, c. 1, s. 173, hədis 1490, "Əbu İshaq Səd ibn Əbu Vəqqasa (r) istinad olunanlar" fəsli

[615] Muxtəsəru ət-töhfətul-isna əşəriyyə, Dəhləvi, c. 1, s. 217

[616] Nəzəriyyətul-imaməti, Əhməd Mahmud Sübhi, s. 225

[617] Həmin hədisi qeyd etmişdik: *"Peyğəmbər (s) səhabələrlə mühacir və ənsarın arasında qardaşlıq yaratdıqda Əli ibn Əbu Taliblə onlardan heç birini qardaşlaşdırmadı. ..."* (əl-Möcəmul-kəbir, c. 11, s. 75, hədis 11092)

Dahir ibn Yəhya Razinin[620] hədisləri də "Mənzilət" hədisinin Peyğəmbər (s) tərəfindən yalnız Təbuk savaşı ərəfəsində söylənmədiyini, Mədinəyə ilk dəfə daxil olan vaxtlarda da buyurulduğunu göstərir. Belə ki, qardaşlaşma hadisəsi məhz həmin zamanlarda baş vermişdi. Aydın olduğu kimi, hədisin Təbuk savaşı ilə əlaqəsi yoxdur. Əksinə, bu, müstəqil bir hədisdir.

Həmin sözlərin Təbuk ərəfəsində söylənmədiyinə dəlalət edən digər rəvayət Əsma bint Ümeysin hədisidir.[621]

Təbuk qəzvəsi ilə heç bir əlaqəsi olmayan digər Peyğəmbər (s) hədisini Süyuti "əl-Camius-sağir"də səhih sənədlə rəvayət edir: *"Buyurdu: "Əlinin mənə nisbəti Harunun Musaya nisbətidir, yalnız məndən sonra peyğəmbər yoxdur".*[622]

Bunu Albani "əl-Camiis-sağir" kitabında qeyd edərək barəsində deyir: *"Səhihdir".*[623]

Kəlmələrindən də göründüyü kimi, bu rəvayətdə Peyğəmbər (s) səhabələri ilə söhbətə başlayır. Orada həmin kəlamın Təbuk savaşı ərəfəsində söyləndiyinə dair heç bir dəlil və ya qeyd yoxdur.

Eləcə də Əhmədin Səid ibn Müseyyib yolu ilə nəql etdiyi hədisdə deyilir: *"Səd ibn Malikə dedim: "Mən səndən bir hədis haqqında soruşmaq*

---

[618] Həmin hədisi də kitabda qeyd etmişik. Mənbə: əl-Möcəmul-kəbir, Təbərani, c. 11, s. 74, hədis 11087

[619] əl-Möcəmul-kəbir, Təbərani, c. 12, s. 18, hədis 12341. *"Peyğəmbər (s) Ümmü Sələməyə dedi: "Bu Əli ibn Əbu Talibin əti ətimdən, qanı qanımdandır. Onun mənə nisbəti Harunun Musaya olan nisbətindədir. Yalnız məndən sonra peyğəmbər omlayacaq".*

[620] Tarixu mədinəti Dəməşq, İbn Əsakir, c. 42, s. 42

[621] Altıncı hədis

[622] əl-Camius-sağir, Süyuti, c. 2, s. 177

[623] Səhihu Buxari və ziyadətuh, Albani, c. 2, s. 753

istəyirəm, lakin soruşmağa qorxuram". Dedi: "Ey qardaşımın oğlu, belə etmə. Əgər o barədə nə isə bildiyimi düşünürsənsə soruş, qorxma".[624]

O, Səd ibn Malikdən Təbuk savaşı ərəfəsindəki "Mənzilət" hədisi barədə soruşur və hədisi ona danışır. Bu rəvayətin sənədinin səhihliyi barədə yuxarıda söhbət açdıq. Burada diqqət çəkən nöqtə Səid ibn Müseyyibin "Mənzilət" hədisi haqqında soruşmaq qorxusudur. Bu qorxu isə Müaviyənin həmin dövrlərdə Möminlərin əmiri Əlinin (ə) fəzilətlərinə dair hədislərə qadağa qoymasından irəli gəlirdi. Rəvayət öz növbəsində "Mənzilət" hədisinin İmam Əlinin (ə) fəzilətlərinə, hətta xəlifəliyinə sübut və dəlil olmasına Səid ibn Müseyyibin şübhə etmədiyini göstərir. Səid Səd ibn Malikin onun təhlükəsizlik cəhətindən – Müaviyə zamanında bu fəzilətləri dilə gətirənləri gözləyən pis aqibət səbəbindən danlayacağından, ya da ən azından cavab verməkdən boyun qaçıracağından qorxurdu.

3. Zeyd ibn Ərqəmin[625] hədisinin sözləri mühüm bir həqiqətin üzərinə işıq salır, İmam Əlinin (ə) Mədinədə xəlifə qoyulması ilə "Mənzilət" hədisinin dəlalətinin arasındakı əlaqəni anlamağa öz töhfəsini verir. Bu təyinat İmam Əlinin (ə) Peyğəmbərə (s) olan nisbətindən qaynaqlanır. Həmin nisbət isə hər bir cəhətdən Harunun (ə) Musaya (ə) olan nisbətinə bərabərdir. Necə ki, qarşıda izah edəcəyimiz kimi, Musa (ə) Rəbbi ilə görüşə gedərkən qardaşı Harunu qövmü üzərində xəlifə təyin etmişdi.

Həmin ərəfələrdə Mədinənin siyasi vəziyyəti də xüsusilə nəzərə alınmalıdır. Hədisdə bu həqiqəti bəyan edən kəlmələr Peyğəmbərin (s) aşağıdakı sözləridir: *"Ya sən, ya da mən burada qalmalıyıq".* Bu kəlmələr həmin vaxt İslam hökumətinin paytaxtı olan Mədinədə xüsusi bir vəziyyətin yaşandığına, Peyğəmbərin (s) oranı başsız qoymamalı olduğuna dəlalət edir. Həmçinin o ərəfələrdə Rum imperatorluğu

---

[624] Müsnəd, Əhməd ibn Hənbəl, c. 1, s. 170, hədis 1463, Əbu İshaq Səd ibn Əbu Vəqqasa istinad edilən hədislər

[625] Üçüncü hədis, Zeyd ibn Ərqəmin hədisi

tərəfindən də İslam dövlətinə qarşı mövcud olan təhlükələr nəzərdən qaçmamalıdır. Bu baxımdan Peyğəmbərin (s) şəxsən müsəlman ordusunun başında döyüşə çıxıb bölgədəki hərbi gücünü nümayiş etdirməsi də lazım idi. Döyüşün baş verəcəyi Təbukla Mədinənin arasındakı məsafənin uzaqlığı, eləcə də rumluların İslam dövlətini məhv etmək üçün Ərəb yarımadasına hazırladıqları hücum planları diqqətdən kənarda qalmamalıdır.

Eləcə də həmin il tarixdə "quraqlıq ili" kimi qalıb. Ordunun yürüşü də həmin isti yay günlərinə təsadüf edirdi. Bəzi müsəlmanlar istiyə görə getməkdən imtina edir, münafiqlər isə İslam ordusunun əsgərlərinin döyüş əzmini qıran sözlər söyləyirdilər. Qeyd olunan amillər Peyğəmbərin (s) həmin döyüşdə şəxsən iştirakını vacib edirdi. Yoxsa Rum ordusunun qarşısına belə ordu ilə çıxmaq mümkün olmazdı. Bunun digər dəlili isə Peyğəmbər (s) xəstə olarkən Üsamənin rəhbərlik etdiyi ordudakı əsgərlərin qoşun sıralarını iznsiz tərk etməsidir.

Şübhə yoxdur ki, belə bir ağır zamanda Peyğəmbər (s) ölkə paytaxtı olan Mədinədə peyğəmbər xüsusiyyətləri daşıyan, onun boşluğunu doldura biləcək və Təbuk savaşında olarkən şəhəri idarə etməyə qüdrəti çatan şəxsi təyin etməli idi. Bu ilahi məqamı Möminlərin əmiri Əlidən (ə) savayı heç bir səhabə daşıya bilməzdi. Əli (ə) "Mübahələ" ayəsinin hökmünə əsasən, Peyğəmbərin (s) özü-canı idi. Əhli-Beyti tərəfindən Peyğəmbər (s) adından danışmaq səlahiyyətini sahib yeganə şəxsdi. Necə ki, "Tövbə" surəsindəki "təbliğ" ayəsi ilə bağlı nəql edilən hədisdə də bu qeyd olunur. Cəbaril (ə) Peyğəmbərə (s) *"Sənin əvəzinə yalnız özün və ya səndən olan bir şəxs bunu yerinə yetirə bilər"* dediyi zaman (qarşıda bunu izah edəcəyik, inşallah!) Peyğəmbər (s) Əbu Bəkri geri qaytararaq İmam Əlini (ə) özünün xəlifəsi və öz adından danışmağa səlahiyyətli şəxs kimi göndərmişdi.

Bu fakt İmam Əlinin (ə) Mədinədə naib qoyulmasını İbn Ümmü Məktumun naibliyindən fərqləndiyini göstərir. Onların naibliyi belə bir mürəkkəb zamana da təsadüf etməmişdi ki, Peyğəmbərin (s) və yaxud onun vilayətini daşıya biləcək bir şəxsin Mədinədə qalmasını vacib etsin. Həmçinin onların naibliyi də Peyğəmbərin (s) yoxluğunu əvəz etmək səlahiyyətində deyildi. Lakin İmam Əlinin (ə) Mədinədəki naibliyini Peyğəmbər (s) Harunun (ə) Musaya (ə) olan nisbəti ilə uyğunlaşdıraraq ona şəri və qanuni xarakter qazandırır. Musa (ə) Rəbbi ilə minacata gedərkən Harunu (ə) öz qövmü üzərində xəlifəsi və naibi təyin etmişdi. Musa (ə) ona demişdi: ***"Sən tayfam içində mənim xəlifəm ol, (camaatı) islah etməyə çalış və (yer üzündə) fitnə-fəsad törədənlərin yolu ilə getmə!"***[626] Bu səbəbdən də Peyğəmbər (s) İmam Əlinin (ə) özünün yerinə Mədinədə qalmasının zəruriliyini bildirir, İmamın (ə) onun yanındakı məqamını Harunun (ə) Musaya (ə) olan nisbəti ilə müqayisə edir.

Peyğəmbərin (s) və ya özündən olan bir şəxsin Mədinədə qalmasının zərurətinə işıq salan dəlillərdən biri də hədisdə Peyğəmbərin (s) İmam Əlini (ə) Mədinədə qoyaraq döyüşə getməsini istehza və tənqid edən bəzi kəslərin varlığının qeyd edilməsidir. Deyirdilər: *"Camaat öz arasında onu hansısa bəyənmədi məsələyə görə döyüşə aparmadığını söyləməyə başladı".* Bu isə İmam Əlinin (ə) Peyğəmbərin (s) əvəzinə Mədinədə xəlifə təyin edilməsi ilə bağlı qarışıqlıq yaratmaq istəyən bir dəstə adamın varlığını təsdiqləyir. Onların niyyəti Peyğəmbərin (s), yəqin gücü və gözəl tədbiri ilə seçilən, qəlbi xəstə münafiqlərin qarşı çıxa bilməyəcəkləri qədər şücaətli olan İmam Əlinin (ə) Mədinədən çıxması ilə bərabər İslam hökumətini devirmək idi. Qarşıda digər hədislərə nəzər saldıqca məsələnin həqiqəti daha da aydınlaşacaq.

---

[626] Əraf, 142

4. Nəql olunan digər "Mənzilət" hədisləri kimi İmam Əlinin (ə) də nəql etdiyi hədis[627] Mədinədə Peyğəmbərin (s) xəlifəsi olaraq qalmağa ondan başqasının layiq olmadığını açıq bəyan edir. Peyğəmbər (s) buyurur: *"Belə ki, Mədinəyə yalnız mənim və sənin rəhbərliyin layiqdir".* Həmçinin Peyğəmbər (s) İmam Əlinin (ə) Mədinədəki xəlifəliyini tənə edənlərin sözlərini Qüreyşin özü barəsində söylədiyi sehrbaz, kahin və yalançı sözləri ilə müqayisə edir. Bunun müqabilində ona buyurur: *"Mənə nisbətdə Harunun Musaya olan nisbətində olmağına razı deyilsənmi? Yalnız məndən sonra peyğəmbər yoxdur".* Yəni demək istəyir ki, sənin xəlifəliyin də peyğəmbərlik kimi Allah tərəfindəndir. Qüreyşin ona qarşı tənələri isə peyğəmbərlik məqamına söylədikləri sözlər kimidir. Sadəcə Əli (ə) peyğəmbər deyil.

Buna əsasən, "Mənzilət" hədisi Harunun (ə) peyğəmbərlikdən savayı sahib olduğu bütün məqamları İmam Əli (ə) üçün isbatlamış olur. Onun sahib olduğu məqamlardan biri də Qurani-Kərimin buyurduğuna görə, xəlifəlik idi. Qarşıda buna bir daha toxunacağıq. Yəni, İmam Əlinin (ə) Mədinədə xəlifə təyin edilməsi ilə bağlı söylənən "Mənzilət" hədisi Peyğəmbər (s) həyatda ikən, ölümündən əvvəl İmamın (ə) ali ilahi xilafət məqamını təsdiqləmiş olur.

"Mənzilət" hədisinin İmam Əlinin (ə) imamlığına dəlaləti

"Mənzilət" hədisinin fəzilət və məziyyətlərinin ortaya çıxması, İmam Əlinin (ə) vilayət və xəlifəliyinə açıq-aydın dəlalət etməsi və bunun ilahi bir xilafət olduğunun aydınlaşması üçün Qurani-Kərimə əsasən, Harunun (ə) Musaya (ə) nisbətdə sahib olduğu məqamların isbatlanması labüddür. Bundan sonra isə "Mənzilət" hədisinin hökmünə görə, həmin məqamların Möminlərin əmiri Əli (ə) üçün isbatlanmasına keçəcəyik.

---

[627] Yeddinci hədis

1. Qurani-Kərimin Harun (ə) üçün təsdiqlədiyi ən böyük məqam peyğəmbərlikdir. Uca Allah Musa barəsində danışarkən buyurur: ***"Və öz mərhəmətimizdən qardaşı Harunu da bir peyğəmbər olaraq ona bəxş etdik".***[628]

Bu ayə Harunun (ə) qardaşı Musaya (ə) nisbətdə onun kimi peyğəmbərlik məqamına sahib olduğunu açıq bəyan edir.

Həmin məqam Peyğəmbər (s) tərəfindən "Mənzilət" hədisində müxtəlif tərzlərdə İmam Əli (ə) barəsində istisna edilir. Necə ki, buyurur: *"Sadəcə məndən sonra peyğəmbər yoxdur"* və ya *"Yalnız peyğəmbərlikdən savayı".* Bu kəlmələr Peyğəmbərin (ə) İmam Əlini (ə) Harunla müqayisə edərkən və onun qardaşına nisbətdə tutduğu məqamlara uyğun görərkən istisna etdiyi yeganə xüsusiyyətdir. Həmin istisnanın da Peyğəmbərin (s) buyurduğu cümləyə bitişik istisna olduğunu yuxarıda qeyd etdik.

Hədisin ümumi mənasındakı bu xüsusi peyğəmbərik istisnası Harunun (ə) sahib olduğu digər məqamların Möminlərin əmiri (ə) Əli üçün də isbatlandığına dəlalət edir. Belə ki, qeyd-şərtsiz istisna bütün mənanın əhatə olunduğunu bildirir. Bu misalda isə əhatə olunan ümumi məna Harunun (ə) Musaya (ə) nisbətdə sahib olduğu məqamlardır. Onlardan isə yalnız peyğəmbərlik istisna edilir. Seyyid Mürtəza deyir: *"Hədisin zahirinə əsasən, Harunun Musaya nisbətdə sahib olduğu məqamların hamısı onun üçün də təsdiqlənir. Çünki cümlə ümumidir və onu xüsusiləşdirəcək heç bir qeyd yoxdur. Burada yalnız ağılın gələ biləcəyi qənaət və onun da cümlədəki istisnası var. Əgər cümlə ümumi mənaya şamil olmasaydı oradan nəyisə istisna etməyin də mənası qalmazdı. Peyğəmbər (s) nübuvvəti istisna etməklə digərlərinin ümumi hökmə daxil olduğunu bildirir. Həmin ümumi nisbətlərdən də bəziləri əqlin hökmünə*

[628] Məryəm, 53

əsasən, istisna edilir, məsələn, doğma qardaşlıq, peyğəmbərliyin tələbi olan vəhy və s. bu kimi xüsusiyyətlər".[629]

İmam Əlinin (ə) Peyğəmbərlə (s) qardaşlığının məziyyət və xüsusiyyətlərinin həqiqi doğma qardaşlıq daha üstün olduğunu qarşıda qeyd edəcəyik.

Seyyid Mürtəzanın söylədiyi kimi, cümlədə başqa məna ehtimallarının olduğu təqdirdə istisnanın qeyd edilməsi hikmət sahibi şəxs tərəfindən deyildikdə bu, fikri dəqiqləşdirmə məqsədi daşıyır. Bu da istisna olunan məsələdən savayı bütün münasib fikirlərin ümumi hökmə daxil olduğuna dəlalət edir. Həmin istisna cümlədəki mənaların bütünlüklə hökmə daxil olmasını vacib edir.

Onun sözlərini təsdiqləyəcək dəlillərdən biridə budur ki, əgər hikmətli bir şəxs "Evimə Zeyddən savayı kim gəlsə, ona ehtiram göstərərəm" dedikdə, sözündəki məqsədin Zeyd başqa şəxslərə aid edilməsidir. Belə ki, əgər məqsədi bu deyildisə, o zaman sözündəki həqiqi məqsədi bəyan etməlidir.[630]

2. Harunla Musanın (ə) arasındakı xüsusi yaxınlıq və doğma qardaşlıq Qurani-Kərimin bir çox yerdə bəyan etdiyi məsələlərdir. Necə ki, Musanın (ə) dilindən buyurulur: ***"Mənim üçün bir vəzir təyin et, qardaşım Harunu".*** Bu xüsusiyyət Harunu ümumən Bəni-İsrail səhabələrindən fərqləndirən mühüm məqamlardan biridir.

İlahi məqamlara nail olmaqda qardaşlığın xüsusi yeri var. Qurani-Kərimin ayələrində bu nüans təsdiqlənir. Necə ki, Uca Allah Musanın (ə) dilindən buyurur: ***"Və mənə öz ailəmdən bir vəzir (köməkçi) ver – qardaşım Harunu! Onunla arxamı möhkəmləndir. Onu işimə ortaq et (ona da peyğəmbərlik ver) ki..."***[631] Allah-Təala da onun bu duasını qəbul

---

[629] əş-Şafi fil-imamət, Seyyid Mürtəza, c. 3, s. 5-6
[630] əş-Şafi fil-imamət, Seyyid Mürtəza, c. 3, s. 14
[631] Taha, 29-32

edir: ***"Sən və qardaşın möcüzələrimlə gedin və Məni zikr etməkdə zəiflik göstərməyin".***[632]

Şübhə yoxdur ki, Musanın (ə) Allahdan bu diləyi (qardaşına, ailə üzvlərindən biri olan Haruna (ə) vəzirlik məqamının bəxş edilməsi), Uca Allahın da onun istəyini qəbul etməsi həqiqətdə bəzi ailələrin pak əhlindən davamçıların seçilməsi qanununa və ilahi məqamların paylaşdırılma ardıcıllığına əsaslanır.

Bu qanunun nümunələri bir çox Quran ayəsində də bəyan olunur: ***"Allah Adəmi, Nuhu, İbrahim övladını və İmran ailəsini aləmlər (məxluqat, insanlar, bəşər övladı) üzərində seçilmiş (üstün) etdi. Onlar biri digərindən törəmiş bir nəsil idilər. Allah eşidəndir, biləndir!"***[633]***; "Biz İshaqı və Yaqubu Ona ata etdik. Onların hər birini hidayətə (peyğəmbərliyə) çatdırdıq. Bundan əvvəl Nuhu və onun nəslindən olan Davudu, Süleymanı, Əyyubu, Yusufu, Musanı və Harunu da hidayətə qovuşdurmuşduq. Biz yaxşı iş görənləri (yaxşılıq edənləri) belə mükafatlandırırıq. Zəkəriyyanı, Yəhyanı, İsanı, İlyası da (hidayətə çatdırdıq). Onların hamısı əməlisalehlərdən idi. Biz, həmçinin İsmaili, Əlyəsəi, Yunusu və Lutu da (hidayətə qovuşdurduq) və onları aləmlərdən (özləri ilə bir dövrdə yaşayan bütün insanlardan) üstün tutduq. Biz onların atalarından, nəsillərindən və qardaşlarından da (bir qismini hidayətə çatdırdıq). Onları seçdik və düz yola yönəltdik".***[634]

Bu ayələr ilahi məqamlara seçilməyin xüsusilə bəzi evlərə aid olduğunu, peyğəmbər ailələrinin və nəsillərinin Allah tərəfindən seçilmək və üstün tutulmaq baxımından bariz bir fəzilətə sahib olduqlarını göstərir. Həmçinin peyğəmbərlərin atabir qardaşlarında da istedad və ilahi məqamlara nail olmaq baxımından bu amil xüsusi təsirə malikdir.

---

[632] Taha, 42

[633] Ali-İmran, 33-34

[634] Ənam, 84-87

Harunun Musa ilə qardaşlığı onun peyğəmbərlik və xəlifəlik dərəcəsinə layiq olmasında əhəmiyyətli amil idi.

Qeyd etmək istədiyimiz budur: Peyğəmbərlə (s) Möminlərin əmirinin (ə) arasındakı nəsil yaxınlığı və heç bir səhabə ilə bağlanmayan qardaşlaşma bağı (qarşıda qeyd ediləcək) onun imamlıq və xəlifəlik məqamına layiq olmasında əhəmiyyətli və əsas təməldir. Necə ki, bu xüsusiyyət Harunun (ə) Musaya (ə) nisbətində də mövcud idi. Peyğəmbərlə (s) İmam Əlinin (ə) qan qohumluğu qeyd etdiyimiz ailə və nəsildən ilahi şəxsiyyətlərin seçilməsi qanunundan kənara çıxmadı.

Bəziləri Harunla (ə) Musanın (ə) nisbətini əsas götürərək Peyğəmbərlə (s) İmam Əlinin (ə) arasında qan qohumluğunun mövcudluğuna baxmayaraq, lakin doğma qardaşlığın olmadığını irad bildirirlər. Bu isə doğma qardaş olan Harunla Musanı (ə) Peyğəmbərlə (s) İmam Əlidən (ə) fərqləndirən əsas cəhətdir. Belə ki, onlar qardaş deyil, əmioğlu idilər.

Cavab budur: Peyğəmbər (s) Möminlərin əmiri Əli (ə) üçün xüsusi qardaşlığını təsdiqləmişdir. Necə ki, buna qarşıda qeyd edəcəyimiz "Qardaşlaşma" hadisəsi də dəlalət edir. Bu qardaşlıq doğma qardaşlıqdan məziyyət, xüsusiyyət və fəzilətlər cəhətindən çox-çox üstündür. İmamın (ə) Peyğəmbərə olan qan qohumluğundan əlavə, onu özünə qardaş seçməsi Harunla Musanın (ə) arasındakı qardaşlıq məqamına nail olmaq baxımından da onlara xüsusi bir imtiyaz bəxş edir.

Buna əsasən, İmam (ə) Allahın seçdiyi peyğəmbərlərin (ə) ailəsindən olmaqla yanaşı (qarşıda müvafiq rəvayətləri qeyd edəcəyik), o, həmçinin Peyğəmbərin (s) qardaşıdır.

Bir çox rəvayətlər mövcuddur ki, Peyğəmbərin İmam Əli (ə) ilə arasındakı qardaşlığa dəlalət edir. Onlardan bir neçəsinə nəzər salaq:

A. Tirmizi Cümey ibn Ümeyr sənədilə İbn Ömərdən nəql edir: *"Peyğəmbər (s) səhabələrinin arasında qardaşlıq yaratdı. Əli gözləri yaşla dolu halda gəlib dedi: "Ey Peyğəmbər, səhabələrin arasında qardaşlıq*

yaratdın, lakin məni heç kimlə qardaş etmədin". Peyğəmbər (s) buyurdu: "Sən mənim dünya və axirətdə qardaşımsan". Ardınca müəllif deyir: *"Bu, həsən qəribə hədisdir".*[635]

Tirmizinin nəzərində "həsən qəribə" hədis raviləri etibarlı (siqə) olan şəxslərin rəvayətləridir. Əhvəzi "Sünən"in şərhində deyir: *"Hafiz Əhməd ibn Əbdülmühsin Qərrafi özünün "Mötəmidun-nəbih" kitabında Əbu İsanın sözlərinə yer verərək yazır: "Bu, səhih həsən qəribə hədisdir", "bu, həsən qəribə hədisdir" sözlərindəki məqsədi rəvayətin məhdud şəkildə nəql edilməsidir. Yəni bu rəvayət yalnız bir cəhətdən nəql edilib, fərqli nəql yollarına sahib deyil. Buna baxmayaraq, raviləri etibarlı (siqə) şəxslərdir. Nəql yollarının azlığı rəvayətə zərər yetirmir və qəribçiliyə salınmasına rəvac vermir".*[636]

İbn Həcər yuxarıda qeyd olunan bu hədisi nəql etdikdən sonra deyir: *"Əgər bunu əvvəlki hədislərə əlavə etsək, o zaman hədis qüvvətlənəcək".*[637]

B. İbn Hibban Bərraya istinadən Əbu Bəkrdən Peyğəmbərin (s) Qardaşlaşma günü Əliyə (ə) belə buyurduğunu rəvayət edir: *"Məni haqq ilə göndərənə and olsun ki, səni yalnız özüm üçün seçmişəm. Sənin mənə nisbətin Harunun Musaya nisbətidir, yalnız məndən sonra peyğəmbər yoxdur. Sən mənim qardaşım və varisimsən". Əli dedi: "Ya Peyğəmbər, səndən nəyi miras aparacağam?" Buyurdu: "Əvvəlki peyğəmbərlərin miras qoyduqlarını". Əli dedi: "Bəs səndən əvvəlki peyğəmbərlər nəyi miras buraxıblar?" Peyğəmbər (s) cavabında buyurdu: "Allahın kitabını və peyğəmbərlərinin sünnəsini. Sən, Fatimə və iki oğlu Cənnətdəki qəsrimdə mənimlə birlikdəsiniz".*[638]

---

[635] Sünən, Tirmizi, c. 5,s əh.636, hədis 372, bab 21

[636] Tuhfətul-əhvəzi, Mübarəkpuri, c. 1, s. 324

[637] Fəthul-Bari, c. 7, s. 211

[638] əs-Siqat, İbn Hibban, c. 1, s. 142. Bu hədisi İbn Hibban Fəzl ibn Həbbabdan, o da Abdullah ibn Rəcadan, o da İsrail ibn Yunusdan, o da Əbu İshaq Əmr ibn Abdullah əs-Sədiidən, o da Bərra ibn Azibdən, o da Əbu Bəkrdən və o da Peyğəmbərdən (s) nəql edib.

Təbərani "əl-Möcəmul-kəbirdə" bunu Zeyd ibn Əbu Övfanın vasitəsilə nəql edib.[639]

C. Təbərani "əl-Möcəmul-övsat"da Həsən ibn Salehin əmisi Əşəsə istinadən Misər ibn Kidamdan, o da Ətiyyə Ovfidən, o da Cabir ibn Abdullahdan Peyğəmbərin (s) belə buyurduğunu nəql edir: *"Göylər yaradılmazdan min il əvvəl Cənnətin qapısında belə yazılıb: Muhəmməd (s) Allahın elçisidir, Əli Peyğəmbərin qardaşıdır".*[640]

Heysəmi "Məcməuz-zəvaid"də bunu rəvayət etdikdən sonra ardınca yazır: *"Bunu Təbərani "əl-Möcəmul-övsat"da rəvayət edib. Ravilərin arasında Həsən ibn Salehin əmisi Əşəs var ki, o, zəifdir, mən onu tanımıram".*[641]

Amma Xətib Bağdadi Əşəsi etibarlı (siqə) sayıb. Yazır: *"Həsən ibn Salehin əmisi Əşəs – Həsəndən üstün tutulur".*[642]

Bu kəlmələr eynilə Təbəraninin "əl-Möcəmul-övsat" kitabında da var.[643]

Həsən ibn Saleh etibarlı (siqə) böyük ravilərdəndir. İbn Həcər onun haqqında yazır: *"Etibarlı, fəqih və abid şəxsdir. Şiəlikdə ittiham olunub".*[644]

Əbu Xəlifə Fəzl ibn Həbbab barədə İbn Həcər yazır: *"Bəsrədə əsrinin istinad yeri olub. Qənəbidən və Müslim ibn İbrahimdən rəvayət edib, 305-ci ilədək yaşayıb. Etibarlı (siqə) və alim şəxs idi, onda hər hansı zəiflik olduğunu bilmirəm".* (Lisanul-mizan, c. 4, s. 438)

Abdullah ibn Rəca barədə Zəhəbi deyir: *"Abdullah ibn Rəca etibarlı (siqə) hafizdir, Əbu Ömər Ğudani Bəsridir".* ("Təzkiratul-huffaz", c. 1, s. 404)

İsrail ibn Yunus barədə İbn Həcər deyir: *"Etibarlıdır (siqədir), heç bir dəlil olmadan əleyhinə sözlər danışıblar".* ("Təqribut-təhzib", c. 1, s. 104)

Əbu İshaq əs-Səbii haqqında yenə İbn Həcər yazır: *"Etibarlıdır (siqədir), çox rəvayət edən və abid şəxsdir".* ("Təqribut-təhzib", c. 1, 423)

639 əl-Möcəmul-kəbir, Təbərani, c. 5, s. 220, hədis 5146, Zeyd ibn Övfa Əsləmi

640 əl-Möcəmul-övsat, Təbərani, c. 5, s. 343, "Darul-Hərəmeyn" mətbəəsinin çapı

641 Məcməuz-zəvaid, Heysəmi, c. 9, s. 111.

642 Tarixu Bağdad, Xətib Bağdadi, c. 7, s. 398

643 əl-Möcəmul-övsat, Təbərani, c. 5, s. 343, "Darul-Hərəmeyn" mətbəəsinin çapı

644 Təqribut-təhzib, İbn Həcər, c. 1, s. 161

Əgər Əşəs əmisi oğlu Həsən ibn Salehdən üstün tutulursa, onun rəvayətinin səlahiyyət və etibarlılığında heç bir şəkk ola bilməz.

Beləliklə, Xətib Bağdadi və Təbərani Əşəsi etibarlı (siqə) hesab etmişlər.

Ç. Əhməd "Müsnəd"də Rəbiə ibn Naciz sənədilə "Ev" hədisinə dair Peyğəmbərdən (s) belə rəvayət edir: *"Ey Əbdülmüttəlib oğulları! Mən sizə xüsusi, camaata isə ümumi olaraq göndərilmişəm. Bu ayədən anladığınızı anladınız. Sizdən hansınız qardaşım və yoldaşım olmaqla mənə beyət edər?"*

Onlardan heç biri ayağa qalxmadı. Mən ayağa qalxıb ona yaxınlaşdım. Həmin vaxt aralarında ən kiçiyi mən idim. Peyğəmbər (s) mənə "Əyləş" deyə buyurdu. O (s), üç dəfə sözlərini təkrarladı və mən hər üç dəfəsində ayağa qalxdım, hər dəfə də mənə "Otur" deyə buyurdu. Sonuncu – üçüncü dəfə isə əlini əlimə vurub beyətimi qəbul etdi".[645]

Heysəmi bunu "Məzməuz-zəvaid"də nəql etdikdən sonra ardınca deyir: *"Bunu Əhməd nəql edib, raviləri etibarlı şəxslərdir".*[646]

D. Təbərani "əl-Möcəmul-kəbir"də İkrimə sənədilə İbn Abbasdan rəvayət edir ki, Əli (r) Peyğəmbər (s) həyatda ikən ona deyirdi: *"Uca Allah buyurur:* ***"Əgər o, ölsə və ya öldürülsə, siz gerimi dönəcəksiniz?"***[647] *Allaha and olsun ki, Allah bizi hidayət etdikdən sonra əsla geri dönmərik. Allaha and olsun ki, əgər o, ölsə və ya öldürülsə, onun uğrunda döyüşdüyü amallar üçün mən də ölənədək döyüşəcəyəm. Allaha and olsun ki, mən onun qardaşı, dostu, əmisi oğlu və varisiyəm. Məndən çox ona haqqı çatan kim var?"*[648]

---

[645] Müsnəd, Əhməd ibn Hənbəl, c. 1, s. 159

[646] Məcməuz-zəvaid, Heysəmi, c. 8, s. 532, hədis 14109

[647] Ali-İmran, 144

[648] əl-Möcəmul-kəbir, Təbərani, c. 1, s. 107, hədis 176, Əli ibn Əbu Talibə (r) istinad edilən rəvayətlər

Heysəmi də bu rəvayəti "Məcməuz-zəvaid"də nəql edərək ardınca deyir: *"Bunu Təbərani rəvayət edib. Raviləri "Səhih"in raviləridir".*[649]

Bu və digər səhih hədislər İmam Əlinin (ə) Peyğəmbərlə (s) xüsusi qardaşlığının mövcudluğunu təsdiqləyir. Həmin qardaşlıq öz mənbəyini göylərin və Yerin yaradılışının başlanğıcından götürür, dünya və axirətdə də davam edir. Necə ki, bunu Təbəraninin rəvayətində də oxuduq. Oradan məlum olduğu kimi, İmam Əli (ə) Peyğəmbərdən (s) peyğəmbərlərin aldıqları mirası almışdır.

Bu xüsusi qardaşlıq İmamla (ə) Peyğəmbərin (s) yaradılışındakı təkvini rabitəyə əsaslanıb. Bunu bir çox rəvayət də təsdiqləyir. Hakim "Müstədrək"də Cabir ibn Abdullahdan nəql edir: *"Peyğəmbərin (s) Əliyə belə söylədiyini eşitdim: "Ya Əli, insanlar müxtəlif şəcərələrdən, mən və sən isə eyni şəcərədənik". Ardınca Peyğəmbər (s) bu ayəni oxudu:* ***"Yer üzündə bir-birinə yaxın (qonşu) qitələr, eyni su ilə sulanan üzüm bağları, əkinlər, şaxəli-şaxəsiz xurma ağacları var".***[650]

Hakim rəvayətin ardınca yazır: *"Bu, sənədi səhih hədisdir, Buxari və Müslim kitablarında qeyd etməyiblər".*[651]

Rəvayəti Qurtubi də öz "Təfsir"ində nəql edib.[652]

Deməli, bu hədisin mənası Peyğəmbərlə (s) Möminlərin əmiri Əlinin (ə) arasında yaradılışdakı qardaşlıq əlaqəsinin varlığını göstərməkdir. Yəni onların hər ikisini Uca Allah xüsusi bir mənbədən yaradıb, eyni su ilə suvarıb, digər insanların yaradılış mənbəyindən paklıq, xüsusiyyət və vəsf cəhətindən üstün qərar verib. Qeyd edilməlidir ki, bu mələkuti əlaqələrdən formalaşan qardaşlıq doğma qardaşlıqdan üstündür. Bunun üzərinə İmam Əlinin (ə) qan qohumluğu (Peyğəmbərin (s) əmisi oğlu olması), Allahın digər evlərdən üstün tutduğu nübuvvət xanədanında

---

[649] Məcməuz-zəvaid, Heysəmi, c. 9, s. 183, hədis 14756

[650] Rəd, 4

[651] əl-Müstədrək, Hakim Nişapuri, c. 2, s. 241

[652] əl-Camiul-əhkamil-Quran, Qurtubi, c. 9, s. 283

böyüməsi də əlavə olunur. Necə ki, səhih hədisdə Peyğəmbərin (s) belə buyurduğu nəql edilir: *"Uca Allah Kənanəni İsmailin övladlarından seçdi. Kənanədən Qüreyşi, Qüreyşdən Haşim oğullarını, Haşim oğullarından da məni seçdi".*[653]

Həmçinin buyurur: *"Mən Muhəmməd ibn Abdullah ibn Əbdülmüttəlibəm. Uca Allah məxluqları yaradıb məni onların ən yaxşıları qərar verdi. Sonra onları iki firqəyə bölüb mənim dəstəmi ən yaxşıları etdi. Onları da qəbilələrə böldü, qəbiləmi ən yaxşısı qərar verdi. Ardınca qəbiləmi evlərə böldü və məni ən yaxşı evdə və ən yaxşı nəsildə qərarlaşdırdı".*

Əbu İsa deyir: *"Bu, həsən hədisdir".*[654]

Məlumdur ki, İmam Əli (ə) də həmin mübarək evdən və o pak nəsildəndir.

Nəticə: İmamın (ə) Peyğəmbərə (s) olan xüsusi yaxınlıq dərəcəsi, eləcə də mövcud olan təkvini (yaradılış etibarlı ilə) qardaşlığı Harunla Musanın (ə) arasında olan doğma qardaşlıqdan daha üstün və daha fəzilətlidir. İmam Əlinin (ə) Peyğəmbərdən (s) sonra imam və xəlifə seçilməsində bu təkvini qardaşlıq və qan qohumluğu əsas rol oynmışdır.

3. Qurani-Kərimin Harun (ə) üçün təsdiqlədiyi mühüm məqamlardan biri vəzirlik məqamıdır. Belə ki, Uca Allah Musanı (ə) onun vasitəsilə qüvvətləndirmiş və dəstəkləmiş, peyğəmbərliyinin müdafiəçisi və təsdiqləyən şəxs qərar vermişdir. Uca Allah Musanın (ə) dilindən buyurur: ***"Və mənə öz ailəmdən bir vəzir (köməkçi) ver – qardaşım***

---

[653] Səhih, Müslim, c. 4, s. 1782, "Fəzail" kitabı

[654] Sünən, Tirmizi, c. 5, s. 543, Bunu Əhməd "əl-Fəzail"də rəvayət edib, c. 2, s. 937. Heysəmi deyir: *"Əhməd rəvayət edib. Raviləri "Səhih"in ravilərdir".* (Məcməuz-zəvaid, c. 8, s. 397). Albani "Mişkatul-məsabih"in şərhində yazır: *"Səhih hədisdir, Tirmizi həsən sayıb",* c. 3, s. 1604

Harunu! Onunla arxamı möhkəmləndir".[655] Allah-Təala da onun bu duasını qəbul edir: ***"Sən və qardaşın möcüzələrimlə gedin və Məni zikr etməkdə zəiflik göstərməyin".***[656] Eləcə də "Furqan" surəsindəki digər ayə: ***"Həqiqətən, Biz Musaya kitab (Tövrat) verdik və qardaşı Harunu da ona vəzir etdik".***[657] Həmçinin Musanın (ə) dilindən: ***"Qardaşım Harunun dili mənimkindən bəlağətlidir. Onu da mənimlə dediklərimi (Firon əhlinə izah edib) təsdiqləyəcək bir köməkçi göndər".***[658]

Bu möhtərəm məqam və əzəmətli fəzilət, "Mənzilət" hədisinin ümumi hökmünə əsasən, İmam Əli (ə) üçün də təsdiqlənir. Belə ki, Peyğəmbərin (s) Harunun (ə) məqamlarından yalnız peyğəmbərliyi istisna etdiyini yuxarıda vurğuladıq.

Peyğəmbər (s) bir çox yerdə İmam Əlinin (ə) özünün vəziri və köməkçisi olduğunu şəxsən bəyan edib. Sələbi "Təfsir"ində Əbuzər sənədilə rəvayət edir: *"Bir gün Peyğəmbərlə (s) birlikdə zöhr namazını qıldım. Bir dilənçi məscidə daxil oldu, lakin heç kimsə ona bir şey vermədi. Dilənçi əlini göyə qaldırıb dedi: "İlahi, şahid ol ki, mən Peyğəmbər məscidində sədəqə dilədim, lakin heç kəs mənə bir şey vermədi". Əli həmin vaxt rükuda idi. Üzük taxdığı sağ əlinin kiçik barmağını ona tərəf uzatdı. Dilənçi yaxınlaşıb barmağındakı üzüyü çıxartdı. Bütün bunlar Peyğəmbərin (s) gözü qarşısında baş verirdi. Peyğəmbər (s) namazını bitirdikdə üzünü səmaya tutub buyurdu: "İlahi, həqiqətən də, qardaşım Musa Səndən* ***"Ey Rəbbim! Köksümü açıb genişlət; işimi yüngülləşdir; dilimdəki düyünü aç ki, sözümü yaxşı anlasınlar! Və mənə öz ailəmdən bir vəzir (köməkçi) ver – Qardaşım Harunu! Onunla arxamı möhkəmləndir"***[659] *deyə diləmiş, Quranda da buyurulduğu kimi, belə cavab vermişdin:* ***"Sənin***

---

[655] Taha, 29-32
[656] Taha, 42
[657] Furqan, 35
[658] Qəsəs, 34
[659] Taha, 27-32

arxanı qardaşınla möhkəmləndirəcək, ikinizə də dəlil (möcüzə və qüdrət) verəcəyik".[660] *İlahi, mən Muhəmmədəm, Sənin peyğəmbərin və seçdiyin şəxsəm! İlahi, köksümü açıb genişlət, işimi yüngülləşdir, mənə öz ailəmdən bir vəzir (köməkçi) ver –Əlini! Onunla arxamı möhkəmləndir".*

Əbuzər deyir: "Allaha and olsun ki, Peyğəmbər (s) sözünü tamamlamamış Cəbrayıl Allah tərəfindən onun yanına göndərilib dedi: "Ya Muhəmməd, oxu!" Peyğəmbər (s) "nəyi oxuyum?" deyə soruşduqda Cəbrayıl dedi: "Bu ayəni oxu: ***"Sizin haminiz ancaq Allah, Onun Peyğəmbəri və iman gətirənlərdir. O kəslər ki, (Allaha) namaz qılır və rükuda olduqları halda zəkat (sədəqə) verirlər"***[661]***."***[662]

İmam Əlinin (ə) Peyğəmbərə (s) vəzirliyi, verdiyi dəstək, cihadı və din yolundakı savaşı heç bir şəkk və ya şübhə qəbul etməyən məlum məsələlərdir. Onun (ə) şücaət və igidliyi səmanı *"Zülfüqardan yaxşı qılınc, Əlidən yaxşı gənc yoxdur!"*[663] sədaları ilə doldurmuşdu. Peyğəmbər (s) Xeybər savaşı günü onun barəsində buyurmuşdu: *"Sabah bayrağı elə bir şəxsə verəcəyəm ki, Allah onun əli ilə fəth nəsib edəcək. O, Allahı və rəsulunu, Allah və rəsulu da onu sevir".*[664]

Aydındır ki, İmamın (ə) bu məqamı ən mühüm və ən böyük fəzilətlərdəndir, bu fəzilətləri də "Mənzilət" hədisi bir daha isbatlayır.

4. Ümmət üzərindəki xəlifəlik və rəhbərlik də Quranın Harun (ə) üçün qardaşı Musanın (ə) dili ilə isbatladığı məqamlardandır. Uca Allah kitabında buyurur: ***"Sən tayfam içində mənim xəlifəm ol, (camaatı) islah etməyə çalış və (yer üzündə) fitnə-fəsad törədənlərin yolu ilə***

---

[660] Qəsəs, 35

[661] Maidə, 55

[662] əl-Kaşifu vəl-bəyan, Sələbi, c. 4, s. 80-81. Bu hədisi, həmçinin İskafi də "Miyar vəl-muvazinə" kitabında Əsma bint Ümeysdən bir az fərqli kəlmələrlə rəvayət edib (s. 322). Eləcə də Hakim Həskani "Şəvahidut-tənzil" kitabında (c. 1, s. 478), Razi təfsirində (c. 12, s. 26), İbn Mərdəveyh "əl-Mənaqib"də (s. 293), İbn Təlhə Şafei "Mətalibus-səul"da (s. 171) və digər mənbələrdə qeyd ediblər.

[663] əl-Bidayətu vən-nihayə, İbn Kəsir, c. 7, s. 250

[664] Səhih, Buxari, c. 2, s. 251, Cihad və seyr kitabı, hədis 2955

getmə!"[665] Məlumdur ki, Harunun (ə) bu ilahi xilafəti onun həmin məqama layiqliyindən və Musanın (ə) əshabı üzərindəki üstünlüyündən doğur. Baxmayaraq ki, həmin vaxt Musadan (s) sonra ümmətin imamı və xəlifəsi olacaq Yuşa ibn Nun da həmin əshabın arasında idi.

Peyğəmbərin (s) yalnız nübuvvəti istisna etdiyi "Mənzilət" hədisinin ümumi mənası Harunun (ə) xəlifəliyi ilə İmam Əlinin (ə) də xəlifəlik haqqını isbatlayır. Belə ki, Harunun (ə) Bəni-İsrail üzərindəki xəlifəliyi Musanın (ə) dili ilə bəyan olunmuş ilahi bir təyinat idi. Peyğəmbərin (s) Təbuk savaşı öncəsi İmam Əlini (ə) Mədinədə xəlifə qoyması da belədir. O da Harunun (ə) xəlifəliyi kimi, itaəti vacib olan xəlifəlikdir və əmr sahibinə tabeçiliyi özündə ehtiva edir. Bunlar Harunla (ə) İmam Əlinin (ə) xəlifəliklərinin bənzər cəhətləridir.

Bütün bu sadaladığımız xüsusiyyətlər İmam Əlinin (ə) xəlifəliyini Peyğəmbərin (s) əvvəllər Mədinəyə təyin etdiyi naiblərdən fərqləndirən üstün cəhətlərdir.

"Mənzilət" hədisi bəhsinin nəticəsi

"Mənzilət" hədisindən aldığımız nəticələri aşağıdakı kimi sıralamaq olar:

A. "Mənzilət" hədisi təkcə Təbuk savaşı ilə bağlı söylənməyib. Bu sözlər müxtəlif məqam və zamanlarda (məsələn, "Qardaşlaşma" hadisəsində) Peyğəmbər (s) tərəfindən bəyan olunub.

B. Səhabə və tabeunlar "Mənzilət" hədisindən İmam Əli (ə) üçün onu digər səhabələrdən ayıracaq xüsusi bir məqam və fəzilətin təsdiqini anlayıblar. Həmin fəzilət bütün dünyadakı var-dövlətlə belə müqayisə edilməz.

---

[665] Əraf, 142

C. Səhih hədislərin kəlmələri Harunun (ə) Musaya (ə) nisbətdə sahib olduğu məqamları İmam Əli (ə) üçün də təsdiqləyir ki, bunlardan ən mühümləri vilayət və xilafətdir.

Ç. Həmçinin bəzi səhih hədislər Təbuk savaşı ərəfəsində İmam Əlinin (ə) Mədinədə xəlifə təyin edilməsinin onun Peyğəmbər (s) yanındakı məqamından qaynaqlandığını təsdiqləyir. Bu isə Musa (ə) Rəbbi ilə görüşmək üçün Tur dağına gedərkən Harunu (ə) ümməti üzərində rəhbər və xəlifə təyin etməsinə bərabərdir. Peyğəmbər (s) də İmam Əlini (ə) Mədinədə xəlifə qoydu. Bu İmam Əlinin (ə) özündə elçilik xüsusiyyətlərini daşımasına və sahib olduğu qüdrətə görə idi. Bütün bunlar onu İbn Ümmü Məktumun və digərlərinin Mədinədə xəlifə təyin edilməsindən fərqləndirən əsas cəhətdir. Belə ki, Təbuk savaşı ərəfəsində Mədinədə xüsusi bir vəziyyət var idi. Həmin vəziyyət Peyğəmbərin (s) İmam Əlini (ə) Mədinədə öz yerinə qoymasını zəruri etdi. Həmin təyinat Musanın (ə) Harunu (ə) öz yerinə təyin etməsi ilə eynilik təşkil edirdi.

Nəticə olaraq qeyd edək ki, İmam Əli (ə) hələ Peyğəmbərin (s) sağlığında onun qaib olduğu yerlərdə ilahi xilafətə sahib idi. Necə ki, eynilə bu məqam Musaya (ə) nisbətdə Harun (ə) üçün də mövcud idi.

D. "Mənzilət" hədislərinə əsasən, İmam Əlinin (ə) Mədinədə qalması tənə edilərkən Peyğəmbər (s) bunu Qüreyşin onun öz peyğəmbərliyini tənə etmələri ilə eyniləşdirir. Sadəcə İmam Əli (ə) peyğəmbər deyil. Bu sözlər də "Mənzilət" hədisi ilə İmamın (ə) Mədinədəki xəlifəliyinin arasındakı əlaqəni açıqlayır.

E. "Mənzilət" hədislərində İmam Əlinin (ə) qeyd edilən fəzilətləri hər bir müsəlmanın əqidəsində təsdiq və inkar cəhətindən birbaşa təsirə malikdir.

F. Bu hədis Peyğəmbərdən (s) sonra İmam Əlinin (ə) xəlifəlik haqqını təsdiqləyir. Belə ki, hədisdə Harun (ə) üçün təsdiqlənən hər bir ilahi məqam İmam (ə) üçün də sübuta yetir. Bu məqamlardan biri də Musanın

(ə) ümməti üzərindəki xəlifəliyidir. Qurani-Kərim də həmin həqiqəti açıq bəyan edir: ***"Sən tayfam içində mənim xəlifəm ol..."***[666] Digər cəhətdən, həmin məqamın Peyğəmbərin (s) vəfatından sonra İmam Əli (ə) üçün də mövcud olduğunu isbatlayır. Peyğəmbər (s) aydın şəkildə buyurur: *"Sadəcə məndən sonra peyğəmbər yoxdur", "Yalnız məndən sonra peyğəmbərlik yoxdur", "Mən yalnız sən burada xəlifəm olduğun təqdirdə yola çıxa bilərəm" və "Sadəcə məndən sonra peyğəmbər olmayacaq".* Bu barədə qarşıdakı cavablarda daha geniş izah veriləcək, inşallah.

İrad

Bəziləri, xüsusilə də vəhhabi kitab müəllifləri Harunun (ə) Musa (ə) həyatda ikən sahib olduğu xilafətlə şiələrin İmam Əli (ə) üçün iddia etdikləri xilafətin arasında fərqliliklərin olduğunu, bu cəhətdən "Mənzilət" hədisinin onun xəlifəliyinə dəlil göstərilməsinin doğru olmayacağını bildiriblər. Belə ki, Harun (ə) Musa (ə) sağ ikən dünyadan köçmüş və Musanın (ə) vəfatından sonra onun xəlifəsi olmamışdı. Bu isə o deməkdir ki, xilafət heç də Harunun məqamlarından sayılmır və Peyğəmbər (s) *"Yalnız məndən sonra peyğəmbər yoxdur"* deməklə Möminlərin əmiri Əlinin (ə) xəlifəliyini isbatlamır. Belə olduqda "Mənzilət" hədisi Peyğəmbərdən (s) sonra İmam Əlinin (ə) xəlifəlik və imamlığına dəlalətini itirir.

Cavab

Bu sözlər Peyğəmbər (s) kəlamlarını anlamaqdakı qüsurlardan, peyğəmbər və vəsilərin ilahi xilafət həqiqətini dərk etməkdəki nöqsanlardan doğur. İmamlıq və xəlifəlik anlamında "Mənzilət" hədisi bu şübhələrə aydın cavab verir. Bunun açıqlanması aşağıdakı məsələlərin izahına söykənir:

---

[666] Əraf, 142

1. Harunun (ə) xəlifəlik və imamlığı yalnız İsrail oğullarına bir müddət başçılıq etmək, onların siyasi və ictimai işlərinin idarəçiliyi ilə məşğul olmaqdan ibarət deyil ki, "Bu, Musa (ə) həyatda olan dövrdə Rəbbi ilə minacata getdiyi vaxta xas idi və əgər Musa (ə) dünyadan köçdükdən sonra Harun (ə) həyatda olsaydı onun xəlifəliyinə dəlalət etməyəcəkdi" deyilsin. Əksinə, Harunun (ə) xəlifəlik və imamlığı ilahi idi, Uca Allah da onun həmin dərəcəyə layiq olan xüsusi məziyyət və məqamlarına görə digərlərindən üstün tutmuş və seçmişdi. Sonrakı xəlifəlik Uca Allahın Musanın (ə) işinə, rəhbərliyinə və İsrail oğullarının hidayətinə şərik etdiyi Harundan (ə) başqasına layiq deyildi.

Harun (ə) Musanın (ə) peyğəmbərlik məqamına şərik olmasından əlavə, imamlıq səlahiyyətlərinə və xilafət hakimiyyətinə də şərik idi. Buna aydın Quran ayələri də dəlalət edir. Harun (ə) Uca Allahın bu sözlərinin şamil olduğu şəxsdir: ***"Biz Musaya kitab (Tövrat) vermişdik. (Ya Rəsulum!) Sən onunla (Musa ilə) görüşəcəyinə şübhə etmə. Biz onu (Tövratı, yaxud Musanı) İsrail oğullarına bir hidayət (doğru yol göstərən bir rəhbər) etmişdik. (Çətinliklərə) səbir etdikləri və ayələrimizə ürəkdən inandıqları üçün Biz onlardan (İsrail oğullarından) əmrimizlə (insanlara) haqq yolu göstərən imamlar (rəhbərlər) təyin etmişdik".***[667]

Uca Allah Harunun (ə) qardaşı ilə bərabər imamlıq səlahiyyətlərinə sahib olduğunu da açıq bəyan edir: ***"Sonra Musanı və qardaşı Harunu ayələrimizlə və açıq-aşkar bir dəlillə göndərdik".***[668] Eləcə də buyurur: ***"Həqiqətən, Biz Musaya kitab (Tövrat) verdik və qardaşı Harunu da ona vəzir (köməkçi) etdik".***[669] Həmçinin: ***"Qardaşım Harunun dili mənimkindən bəlağətlidir. Onu da mənimlə dediklərimi (Firon əhlinə izah edib) təsdiqləyəcək bir köməkçi göndər. Onların məni yalançı***

[667] Səcdə, 23-24
[668] Muminun, 45
[669] Furqan, 35

hesab edəcəklərindən qorxuram!" (Allah) buyurdu: "Sənin arxanı qardaşınla möhkəmləndirəcək, ikinizə də dəlil (möcüzə və qüdrət) verəcəyik. Onlar ayələrimiz sayəsində sizə heç bir pislik edə bilməyəcəklər. Siz də, sizə (iman gətirib) tabe olanlar da (Firona və əyanlarına) mütləq qalib gələcəksiniz!"[670]

İbn Əta bu mübarək ayənin təfsirində yazır: *"Sizin üçün xilafət siyasətini peyğəmbərlik əxlaqı ilə bir yerə cəm edəcəyəm".*[671]

Bu və digər ayələr, ümumi şəkildə, Harunun (ə) Musa (ə) ilə bərabər İsrail oğullarının itaətinin vacib olduğu imamlığına, hakimiyyətinə və vilayətinə şərik olduğunu göstərir. Bu itaət vacibliyini Harunun (ə) qövmünə söylədiyi sözlərində də müşahidə etmək olur: ***"Mənə tabe olub əmrimə itaət edin".***[672] Lakin şəriətin sahibi və Rəbbindən dini gətirən Musanın (ə) xəlifəlik və rəhbərliyi anında Harunun (ə) ümmət üzərində heç bir vilayət, imamət və xilafəti səlahiyyəti yoxdur. Həmin anlarda Musanın (ə) yanında o, yalnız güc-arxa və Musa hakimiyyətinin vəziridir.

Buna əsasən, Harun (ə) Musanın (ə) hakimiyyətində ikinci şəxs hökmündədir. Musanın (ə) qaibliyi halında, Harun (ə) var olduqca, heç bir başqa şəxs xəlifəlik edə bilməz. İstər Musanın qaibliyi Rəbbi ilə görüşməsi, ya vəfatı və ya başqa bir səbəblə əlaqədar olsun, fərq etməz. Harunun (ə) Musadan (ə) öncə dünyadan köçməsi isə qardaşının vəfatından sonra onun xəlifəliyə çatmasında bir maneə oldu.

Layiq olduğu dərəcələrə görə Rəbbi tərəfindən Haruna (ə) verilən ilahi məqamlara olan haqqı yalnız həmin məqama layiq olduğu sifət və xüsusiyyətləri itirdikdə Allahın Özü tərəfindən əlindən alına bilərdi. Əgər Musanın (ə) vəfatında sonra Harunun (ə) həyatda olduğunu və xilafət səlahiyyətlərini itirdiyini fərz etsək, o zaman bu, Musanın (ə) Rəbbi ilə görüşə gedərkən Harunu (ə) öz yerinə qoymasından doğan imamlıq

---

[670] Qəsəs, 34-35

[671] Təfsirus-Sələmi (Həqaiqut-təfsir), c. 2, s. 106

[672] Taha, 90

məqam və dərəcələrini itirdiyi kimi yozulacaq. Bu isə Allahın peyğəmbərlərindən birində naqislik baş verdiyi və camaatın arasında həmin peyğəmbərin etibarının itməsi anlamını verəcəkdi. Firqə və məzhəbindən asılı olmayaraq, bütün müsəlmanlar belə bir ehtimalı inkar edirlər. Harunun (ə) Musanın (ə) xilafət və imamətinə haqqı Musa (ə) olmadığı dövrlərdə heç bir hədd və məhdudiyyət qoyulmadan sona qədər davam edəcəkdi. Buna yalnız ölüm mane ola bilərdi ki, bu da baş verdi və o, Musa (ə) həyatda ikən dünyadan köçdü.

Bizim etiqadımıza görə, Peyğəmbərimiz (ə) də hər bir cəhəti ilə məhz bu ilahi məqamı isbatlayıb. O (s), həyatda ikən, Təbuk savaşı ərəfəsində xilafət İmam Əli (ə) üçün təsdiqlənmişdi. Həmçinin Peyğəmbərdən (s) sonra da bu xilafət onun üçün isbatlanıb, necə ki, Harun (ə) həyatda olsaydı Musadan (ə) sonra xəlifəliyə yeganə haqq sahibi idi.

2. "Mənzilət" hədisi rəvayət olunan bütün kəlmələri ilə (Musadan (ə) öncə vəfat etməsinə baxmayaraq) Harunun (ə) sahib olduğu məqamları Peyğəmbərdən (s) sonra İmam Əli (ə) üçün də aydın şəkildə təsdiqləyir. Bunu Peyğəmbərin (s) sözündən də aydın başa düşmək olur: *"Yalnız məndən sonra peyğəmbər yoxdur".* Həmçinin bu sözləri: *"Sən məndən sonra hər bir mömin üzərində xəlifəm olmadan mənim getməyim düzgün olmaz".*[673]

Mötəbər sənədlərlə nəql edilmiş "Mənzilət" hədisindəki bu sözlər öz vəfatından sonra Peyğəmbərin (s) İmam Əli (ə) üçün xilafət məqamını bəyan etmək istədiyini aydın göstərir. O (s), özündən sonra peyğəmbərliyi istisna və İmam Əlidən (ə) bu məqamı inkar etməklə bərabər, eyni zamanda özü həyatda ikən və vəfatından sonra da İmamın (ə) sahib olduğu məqamları təsdiqləmiş olur. Peyğəmbərin (s) qaibliyi və bir yerə getdiyi zamanda xəlifəlik Möminlərin əmiri (ə) üçün təsdiqlənən

[673] Müsnəd, Əhməd ibn Hənbəl, c. 1, s. 330, hədis və onun səhihliyi nəql yollarına nəzər salarkən təqdim edildi.

məqamların arasındadır. İstər Peyğəmbərin (s) qaibliyi cihad və ya istər Rəbbinin dərgahına köçmək səbəbilə baş versin. O (s) getdikdə İmam Əlinin (ə) bütün möminlər üzərində xəlifə olmaması doğru sayılmaz. Bu isə İmam Əlinin (ə) digər səhabələr üzərində sahib olduğu xüsusi məziyyətlərə və ilahi dərəcələrə görədir.

3. Əgər "Mənzilət" hədisinin Harunun (ə) vəfatından sonra sahib olduğu məqamların İmam Əli (ə) üçün təsdiqinə dəlalət etmədiyi iddia olunursa; hədis ən azından mütləq mənaya şamildir və Peyğəmbər (s) Harunun (ə) həyatda olub-olmasına heç bir qeyd vurmir. Deməli, bu, həm həyatda olan və həm də ölümündən sonrakı hallara şamildir. Hədisin onun yalnız həyatda olduğu dövrə aid edilməsi iddiasının dəlilə ehtiyacı var. Musa (ə) həyatda ikən Harunun (ə) vəfat etməsi faktı dəlil səlahiyyətində deyil.

Nəticə

Şiələr İmam Əlinin (ə) xəlifəliyinə və itaətinin vacibliyinə "Qədir-Xum", "On iki xəlifə" və "Mənzilət" hədislərini dəlil göstərməklə kifayətlənmirlər. Burada "Səqaleyn", "Bayraq", "Əlini yalnız mömin sevər və yalnız münafiq ona nifrət edər", "Tövbə" surəsinin təbliği", "Əlinin qapısından savayı məscidə açılan bütün qapıların bağlanması", "Qardaşlaşma" və "Ev"[674] hədisi" kimi digər mühüm hədislər də var. İnşallah, bəhsin sonunda onlardan bir hissəsini qeyd edəcəyik. Həmçinin Qurani-Kərimdən də İmam Əlinin (ə) imamlığına və itaətinin vacibliyinə bir sıra ayələri dəlil göstərirlər. Lakin bizim mövzumuz hazırda bununla bağlı olmadığı üçün onları burada qeyd etməyə lüzum görmürük.

İkinci fəslin nəticəsi

[674] Peyğəmbərin (s) yaxın qohumlarını İslama dəvət etməsi ilə bağlı hədis

Şiələrin İmam Əlinin (ə) imamlığına və itaətinin vacibliyinə "vəsi" kəlməsi olmadan dəlil göstərdikləri hədislərin hamısı Peyğəmbərin (s) və böyük səhabələrin dilindən nəql edilib. Onların çoxunun səhihliyi, hətta mütəvatirliyi üzərində yekdil fikir mövcuddur. Bunlara "Qədir-Xum", "On iki xəlifə", "Mənzilət" və digər hədisləri nümunə göstərmək olar. Lakin xüsusi qeyd edilməyə layiq olan mühüm məsələ budur ki, hədislərlə bağlı sözlərdə heç kim bu hədislərdə yaxından və ya uzaqdan, təsdiq və ya inkar mənasında İbn Səbanın adını çəkmir, müxaliflərdən heç biri bu hədislərin yaranmasında İbn Səbanın rol oynaması barədə ağızlarını belə açmırlar. Halbuki bu hədislər Əhli-Beytin (ə) ilahi imamətinə dair əqidəsinin əsasını təşkil edir, İmamiyyə şiələrinin Əhli-Beytin (ə) imamlıq və xilafət haqlarına, itaətlərinin vacibliyinə Quran ayələri ilə bərabər etimad etdikləri ən mühüm dəlillərdən hesab olunur. Bütün bunlar şiəliyin İbn Səba ilə bağlı olduğu iddialarının puçluğunu aydın göstərir.

Üçüncü fəsil: Abdullah ibn Səbanın “vəsilik”lə bağlı rəvayətləri və onun şəxsiyyəti

Burada üç bəhs var:

1. Şiə rəvayətlərində İbn Səbanın “vəsilik”lə bağlı rəvayətləri;
2. Sünni rəvayətlərində İbn Səbanın “vəsilik”lə bağlı rəvayətləri;
3. Abdullah ibn Səbanın şəxsiyyətinin həqiqəti.

Giriş

Bəzi tarixi məsələlər müəyyən şəxslərin istəklərinə uyğunlaşdırılmış və bununla da onların razılığının əldə edilməsi hədəflənmişdir. Zaman keçdikcə isə həmin məsələlər qəti və inkaredilməz xarakter almışdır. Onlara toxunmaq qırmızı xətti keçmək və müxtəlif ittihamlarla üzləşmək anlamını vermişdir. Lakin bu məsələlərin çoxunun tarixdə heç bir əsasının olmadığını, yaxud olduğundan artıq şişirdildiyini görürük. Bununla belə onları araşdırmaq, üzərində təhqiqat aparmaq cəzaya layiq əməl sayılıb. Belə məsələlərdən biri "vəsilik"lə bağlı rəvayətlərin İbn Səbaya nisbət verilməsi, onun uydurmaları və iddiaları olmasıdır. Halbuki əvvəldə də təqdim etdiyimiz kimi, onun rəvayətlərini Peyğəmbərin (s) dilindən nəql edilən bir çox səhih hədislər də təsdiqləyir. Məsələnin aydın olması üçün bu fəsildə İbn Səbanın dilindən nəql edilən vəsiyyətlə bağlı rəvayətləri araşdıracaq, sənəd və mətnlərini müzakirə edəcək, onun şəxsiyyəti ilə bağlı fikirlərə nəzər salacağıq:

Birinci bəhs: Şiə rəvayətlərində İbn Səbanın "vəsilik"lə bağlı rəvayətləri

Şiə mənbələrinə insafla nəzər salan şəxs tam və aydın şəkildə onlarda İbn Səbanın "vəsilik"lə bağlı hər hansı zəif və ya mürsəl rəvayətinin olmadığını görəcək. Lakin bəziləri ciddi-cəhdlə iddialarının üzərində möhkəm dayanmaqda, onun vəsilik barədə rəvayətləri uydurması iddiaları ilə şəxsiyyətinin arasında bağlılıq yaratmağa çalışmışlar. Bununla da oxucuda şiə kitablarında İbn Səba barəsində varid olan rəvayətlərin nəticəsində vəsilik əqidəsinin formalaşdığı təsəvvürü yaratmağa çalışmışlar. Halbuki qeyd etdiyimiz kimi, şiə mənbələrində onun vəsilik əqidəsi ilə bağlı bir zəif və ya mürsəl rəvayəti belə yoxdur.

Bəli, sənədi səhih bəzi hədislər var ki, Abdullah ibn Səbanın şəxsiyyəti ilə bağlıdır və vəsilik məsələsi ilə yaxından-uzaqdan əlaqəsi yoxdur.

Daha çox aydın olması üçün başqa sözlə deyirik: Şiə rəvayətlərində İbn Səbanın vəsiliklə bağlı sözlərini dəstəkləyəcək hər hansı bir zəif və ya mürsəl hədisi mövcud deyil. Ancaq Abdullah İbn Səbanın şəxsiyyəti ilə bağlı şiə mənbələrində bir çox səhih sənədli hədislər var. Həmin hədislərin bəzilərində İmam Əli (ə) ilə eyni dövrdə yaşamış bu adda şəxsin varlığından və İmamın (ə) barəsində tərəddüdündən, ondan bəzi məsələlər haqqında soruşmasından, bəzilərində isə onun yolunu azmasından, İmam Əli (ə) barəsində həddi aşmasından, onun üçün allahlıq məqamı iddia etməsindən və nəticədə İmamın (ə) onu odda yandırmasından söz açılır. Bu rəvayətləri Abdullah ibn Səbanın şəxsiyyəti ilə bağlı bəhsdə qeyd edəcəyik.

Novbəxti, Qummi və Kəşşinin nəqllərində İbn Səbanın vəsilik əqidəsini yaratdığının etirafı iddiası

Novbəxti, Qummi və Kəşşi İbn Səba barədə söhbətlərində bir dəstə elm adamından nəql edirlər ki, o, vəsilik əqidəsi barədə danışan, Möminlərin əmiri Əlinin (ə) imamətinin vacibliyini iddia edən ilk şəxs kimi məşhurlaşmışdı... Bu alimlərin sözləri şiəyə müxalif olan kəslərin (rafiziliyin kökü yəhudilikdən qaynaqlanır) sözlərinin səbəbləri kimi iddia edilib.

Lakin bəzi şiə müxalifləri heç bir dəlil və ya ağıla müvafiq sübut olmadan bu iddianın üzərində israr etmiş, İhsan Zahir kimilər onu şiəliyin yaranması ilə bağlamağa çalışmışlar.[675] Belə ki, onun sözlərində bu cür boşboğazlıqlara tez-tez rast gəlinir. Lakin vəziyyətin tam aydın olması üçün Novbəxti, Qummi və Kəşşinin sözlərini nəql edəcək, sonra onlarla bağlı fikirlərimizi bildirəcəyik:

[675] Şiə və Əhli-Beyt, İhsan Zahir, 115-ci səhifədəki haşiyə

Novbəxti özünün "Firəquş-şiə" kitabında yazır: *"İmam Əlinin (ə) əshabından olan bir dəstə elm adamı rəvayət edirlər: "Abdullah ibn Səba yəhudi idi. İslamı və İmam Əlinin (ə) vilayətini qəbul etmişdi. Hələ yəhudi olarkən Yuşa ibn Nunun Musa peyğəmbərin (ə) vəlisi olduğu barədə danışırdı. Müsəlman olduqdan və Peyğəmbərin (s) vəfatından sonra Əli (ə) barədə də həmin fikirləri yürütməyə başladı. O, İmam Əlinin (ə) imamətinə itaətin vacib olması və düşmənlərindən uzaq durmağın labüdlüyü barədə sözləri ilə məşhurlaşan, müxaliflərini ifşa edən ilk şəxsdir".*

Buna əsasən də şiə müxalifləri demişlər: "Rafiziliyin kökü yəhudilikdən qaynaqlanır".[676]

Qummi "əl-Məqalatu vəl-firəq" kitabında deyir: *"Bir dəstə elm adamı rəvayət edirlər: "Abdullah ibn Səba yəhudi idi. İslamı və İmam Əlinin (ə) vilayətini qəbul etmişdi. Hələ yəhudi olarkən Yuşa ibn Nunun Musa peyğəmbərin (ə) vəlisi olduğu barədə danışırdı. Müsəlman olduqdan və Peyğəmbərin (s) vəfatından sonra Əli (ə) barədə də həmin fikirləri yürütməyə başladı. O, İmam Əlinin (ə) imamətinə itaətin vacib olması və düşmənlərindən uzaq durmağın labüdlüyü barədə sözləri ilə məşhurlaşan, müxaliflərini ifşa və təkfir edən ilk şəxsdir".*

Buna əsasən də şiə müxalifləri demişlər: "Rafiziliyin kökü yəhudilikdən qaynaqlanır".[677]

Şeyx Tusi isə Kəşşinin belə dediyini yazır: *"Bir dəstə elm adamı rəvayət edirlər: "Abdullah ibn Səba yəhudi idi. İslamı və İmam Əlinin (ə) vilayətini qəbul etmişdi. Hələ yəhudi olarkən Yuşa ibn Nunun Musa peyğəmbərin (ə) vəlisi olduğu barədə həddi aşan sözlər danışırdı. Müsəlman olduqdan və Peyğəmbərin (s) vəfatından sonra Əli (ə) barədə də həmin fikirləri yürütməyə başladı. O, İmam Əlinin (ə) imamətinə itaətin vacib olması və*

---

[676] Firəquş-şiə, Əbülhəsən Novbəxti, s. 22

[677] əl-Məqalat vəl-firəq, Səd ibn Abdullah Qummi, s. 20

düşmənlərindən uzaq durmağın labüdlüyü barədə sözləri ilə məşhurlaşan, müxaliflərini ifşa və təkfir edən ilk şəxsdir".

Buna əsasən də şiə müxalifləri demişlər: "Şiəliyin və rafiziliyin kökü yəhudilikdən qaynaqlanır".[678]

Müzakirə

Novbəxti, Qummi və Kəşşinin sözləri təqdim olundu. Həmin sözlərdə vəsilik əqidəsinin İbn Səba tərəfindən ortaya atılmasına dəlalət edən heç bir sübut yoxdur. Bu, iki cəhətdən belədir:

Birinci cəhət: Nəql edilən sözlər kimlikləri məchul olan qeyri-şiə şəxslərdəndir

Dəlil kimi təqdim edilən bu sözlər Novbəxtinin, Qumminin və Kəşşinin fikirləri deyil. Onlar bunu qeyri-şiə olan bir dəstə elm adamından nəql edirlər. Buna onların sondakı sözləri də dəlalət edir: *"Buna əsasən də şiə müxalifləri demişlər: "Şiəliyin və rafiziliyin kökü yəhudilikdən qaynaqlanır".* Bu cəhət həmin elm adamlarının şiə olmaları ilə əsla bir yerə sığmaz. Yoxsa bir şiə öz əqidəsini belə bir ifadələrlə və bu şəkildə necə tənqid edə bilər?! Beləliklə də töhmət vurulan şəxslərin şiədən kənar əqidə sahibləri olması labüddür.

Novbəxtinin *"İmam Əlinin (ə) əshabından olan..."* sözlərinə gəldikdə, bu kəlmələrə yalnız onun sətirlərində rast gəlinir. Lakin o sözlər də həmin şəxslərin şiə olduqlarına dəlalət etmir, İmamın (ə) dövründə onun ətrafında olan bütün şəxslərə şamil olunur. Bundan əlavə, bəzi şiə alimləri "əshab" sözünü İmamlardan (ə) rəvayət nəql edən mömin, münafiq, şiə və qeyri-şiə şəxslər barədə də istifadə ediblər. Buna əsasən, İmam Əli (ə) ilə bağlı rəvayətlər nəql edən düşmən İbn Ziyadı, onun oğlu Übeydullahı və bəzi xəvaricləri Möminlərin əmirinin (ə), eləcə də düşmən

[678] İxtiyaru mərifətir-rical, c. 1, s. 324

olan Mənsur Dəvaniqini də İmam Sadiqin (ə) əshabının arasında qeyd ediblər.[679] Göründüyü kimi, bir şəxsin İmam Əlinin (ə) əshabından olması heç də həmin adamın mütləq şiə olması mənasını daşımır. Bu aydın məsələdir.

İkinci: Bu sözlər vəsiliyin İbn Səba tərəfindən ortaya atıldığına dəlalət etmir

Novbəxti və digərlərinin bir dəstə elm adamından hekayə etdikləri sözlər İbn Səbanın vəsilik əqidəsini ilk dəfə ortaya atmış şəxs olduğuna dəlalət etmir. Sözlərdəki məqsəd onun İslamı qəbul etdikdən sonra şiələrin iman gətirdikləri İmam Əlinin (ə) vilayətinə etiqad bəslədiyi, Peyğəmbərdən (s) sonra onun vəsisi, vəlisi və xəlifəsi olduğudur.

Lakin Novbəxti və digərlərinin oradakı sözlərinə əsasən, İbn Səba İmam Əli (ə) barədəki etiqadını açıq şəkildə elan və bəyan edən ilk şəxsdir. Bunu üçün İslam cəmiyyətinin iyirmi beş illik təqiyyə və qorxu altında adət etmədiyi bir üslubdan istifadə etmişdir. Əşəri Qummi deyir: *"O, Əbu Bəkri, Öməri, Osmanı və bir dəstə səhabəni açıq şəkildə tənqid edən, onlardan uzaq olduğunu bildirən ilk şəxsdir. Bunu söyləməyi ona İmam Əlinin (ə) əmr etdiyini, təyiqqənin artıq icazəli və halal olmadığını iddia edirdi".*[680]

Novbəxti deyir: *"Müsəlman olduqdan və Peyğəmbərin (s) vəfatından sonra Əli (ə) barədə də həmin fikirləri yürütməyə başladı. O, İmam Əlinin (ə) imamətinə itaətin vacib olması və düşmənlərindən uzaq durmağın labüdlüyü barədə sözləri ilə məşhurlaşan... ilk şəxsdir".*

Buna həmçinin cümlələrdə "məşhurlaşan", "açıq şəkildə bəyan edən (yayan)", "ifşa edən" kimi mənfi sözləri də şahidlik edir. Belə ki, məşhurlaşma kəlməsi açıq-aşkar olmaq mənasını ifadə edir. Fərahidi

---

[679] Bax: Rical, Şeyx Tusi, s. 9

[680] əl-Məqalatu vəl-firəq, s. 20

özünün "əl-Eyn" kitabında yazır: *"Şöhrət – bir şeyin mənfi mənada camaatın arasında məşhurlaşmasıdır..."*[681] Müəlliflərin bu sözlərində vəsilik əqidəsini ilk yaradan şəxsin İbn Səba olduğuna dəlalət edən fikirləri haradadır?!

Bütün bunlarla bərabər nəzərdən qaçmamalıdır ki, həmin elm adamlarından nəql edilənlər şiə alimlərinin icmasına əsasən, həqiqətdən uzaqdır. Məgər adsız-sənədsiz, məchul şəxslərdən nəql edilən bu kimi sözlər şiə alimlərinin (ayə və sünnədəki qəti dəlillərlə isbatlanmış – tərc.) icması qarşısında hansısa dəyərə sahib ola bilərmi?!

İkinci bəhs: Sünni rəvayətlərində İbn Səbanın vəsiliklə bağlı rəvayətləri

Bəlkə də Abdullah ibn Səbanın şəxsiyyəti, İslam tarixindəki bəzi hadisələrdə rolu və "vəsilik"lə bağlı sözlərini araşdırmaq üçün ən münasib üslub Əhli-Sünnə mənbələrindəki hədisləri, onunla bağlı xəbərləri iki şəkildə təhqiq etməkdir: bunlardan biri onun "vəsilik"lə bağlı sözlərini bəyan edən hədislər, digəri isə onun şəxsiyyətini həqiqətini açıqlayan, İslam tarixindəki hadisələrdə, xüsusilə də Osmanın dövründə baş qaldıran qiyamdakı iştirakını qeyd edən rəvayətlərdir. Bu, bir rəvayətin digərinə qarışmaması üçün faydalı olacaq. Belə ki, bəziləri qəsdən və ya düşünmədən bu iki fərqli anlamda olan rəvayətləri "vəsilik" məfhumunu İbn Səba ilə əlaqələndirmək üçün bir-birinə qarışdırmışlar.

Buna əsasən, əvvəldə birinci dəstə rəvayətləri müzakirə edəcək, digər dəstə rəvayətlərə isə, inşallah üçüncü bəhsdə nəzər salacağıq.

"Vəsilik" məfhumun formalaşmasında İbn Səbanın rolunu bəyan edən Əhli-Sünnə rəvayətləri

[681] Kitabul-eyn, c. 3, s. 400; Lisanul-ərəb, c. 1, s. 246

Əhli-Sünnə hədisşünas və hafizlərinin İbn Səbadan vəsiliklə bağlı nəql etdikləri rəvayətlərin hamısının sənədi Seyf ibn Ömərə yetişir. Təbəri öz "Tarix"ində İbn Səbanın tərcümeyi-halını təfsilatı ilə məhz ondan nəql edir: *"Bunu mənə Səriy yazdı: "Şüeybdən, o da Seyfdən, o da Ətiyyədən, o da Yəzid Fəqəsidən nəql edir: "Abdullah ibn Səba Səna əhlindən olan yəhudi idi. Anası Sevdadır. İbn Səba Osmanın zamanında İslamı qəbul etdi. Sonra müsəlman torpaqlarını şəhər-şəhər gəzərək əhalini azdırmağa səy göstərdi. Əvvəlcə Hicaza, sonra Bəsrəyə, Kufəyə və Şama getdi. Şam əhlindən heç kəsi inandırmağa qüdrəti çatmadı. Onu şəhərdən çıxardılar, oradan Misirə getdi. Onların arasında dolaşır və belə deyirdi: "Təəccüb edirəm o kəsə ki, İsanın qayıdacağına gümanı olduğu halda Muhəmmədin qayıdacağını inkar edir. Halbuki Uca Allah buyurur:* ***"Quranı sənə vacib buyuran (Allah) qayıdacağın yerə səni yenə də qaytaracaq".***[682] *Muhəmməd qayıtmağa İsadan daha layiqdir". Misirlilər də onun bu sözünü qəbul etdilər. Rəcət barədə fikirlərin əsası qoyuldu və onlar buna etiqad bəsləməyə başladılar. Bundan sonra onlara dedi: "Min nəbi olmuş, hər nəbinin də vəsisi olmuşdur. Əli də Muhəmmədin vəsisidir". Sonra deyirdi: "Muhəmməd peyğəmbərlərin, Əli isə vəsilərin sonuncusudur". Yenə də deyirdi: "Peyğəmbərin (s) vəsiyyətini icra etməyəndən daha zalım kim ola bilər! Peyğəmbərin vəsisi Əli qalxıb ümmətin işlərini öz öhdəsinə götürdü". Onlara deyirdi: "Osman xilafəti haqsız əldə etdi. Bu (Əli) isə Peyğəmbərin (s) vəsisidir. Ona (Osmana) qarşı qalxın, hərəkətə keçin, başçılarınızı tənqid etməyə başlayın, yaxşılığı əmr edib pislikdən çəkindirin, camaatı özünüzə tərəf çağırın və bu məsələyə cəlb edin".*

Öz çağırışçılarını ətrafa göndərdi, şəhərlərdə fəsad törədənlərlə məktublaşdı, həmçinin gizlində də camaata öz fikirlərini təlqin etdilər. Onlar da yaxşılığı əmr edib pislikdən çəkindirmək üçün hərəkətə keçdilər, şəhərlərə Osmanın nöqsanları ilə bağlı məktublar göndərdilər, qardaşları

---

[682] Qəsəs, 85

da onlara müvafiq cavablar yazdılar. Hər bir şəhərin əhalisi etdikləri barədə digər şəhərlərə məlumat verirdi. Onlar da həmin məlumatları camaata oxuyurdular. Sonda həmin söhbətlər Mədinəyə yetişdi, daha geniş ərazilərə yayıldı. Onların məqsədləri zahirdə göstərdikləri, gizlədikləri də açıqda söylədikləri deyildi. Mədinə əhli digər şəhərlərin əhalisi barədə deyirdi: "Biz onların düçar olduqlarından amandayıq". Mədinə əhlinə hər tərəfdən belə xəbərlər gəlirdi. Muhəmməd və Təlhə onları bir yerə topladı. Dedilər: "Osmanın yanına gedin". Onlar (Osmanın yanına gedib) dedilər: "Ey möminlərin əmiri, camaatdan bizə çatan xəbərlər sənə də çatıbmı?" Dedi: "Xeyr, Allaha and olsun ki, mənə ancaq hər şeyin qaydasında olması ilə bağlı məlumatlar çatıb". Onlar baş verənlər barədə məlumat verdilər. Osman dedi: "Siz mənim şəriklərim və möminlərin şahidlərisiniz, mənə məsləhət verin". Dedilər: "Məsləhətimiz budur ki, etibar etdiyin şəxsləri həmin şəhərlərə göndər, onlar sənə düzgün xəbərlər çatdırsınlar". Muhəmməd ibn Məsləməni Kufəyə, Üsamə ibn Zeydi Bəsrəyə, Əmmar ibn Yasiri Misirə və Abdullah ibn Ömari də Şama göndərdi. Onların hamısı Əmmardan öncə Mədinəyə qayıtdı. Dedilər: "Ey camaat, biz heç nəyi inkar etmirik, həmçinin bunu nə alim və nə də avam müsəlmanlar inkar etmirlər". Dedilər: "İşlər müsəlmanların əlindədir, başçıları onların arasında ədalətlə rəftar edir, lakin onlara qarşı qiyama qalxıblar". Camaat səbirsizliklə Əmmarı gözləməyə başladı, onun başına nə isə gəldiyini düşündülər. Bu vaxt gözlənilmədə Abdullah ibn Səd ibn Əbu Sorhun məktubu onlara çatdırıldı. Həmin məktubda Əmmarın Misirdə qiyam qaldırmış şəxslərə qoşulduğu, camaatın da onun ətrafına toplandığı bildirilirdi. Onun ətrafına toplananlardan bəziləri bunlar idi: Abdullah ibn Sevda, Xalid ibn Mülcəm, Sevdan ibn Həmran, Kənanə ibn Bişr..."[683]

Müzakirə

[683] Tarix, Təbəri, c. 3, s. 378-379

Yuxarıda qeyd edilən rəvayətin tam aydın olması üçün onu sənəd və mətn cəhətindən araşdıracağıq ki, tarixi və əqidəvi material cəhətindən dəlil olma və istinad edilmə səlahiyyətini müəyyən edək.

Hədisin sənədi

Bu hədisin sənədindəki zəiflik aşkardır. Çünki:

1. Şüeyb ibn İbrahim məchul şəxsdir. Zəhəbi yazır: *"Seyfin ondan yazdığı rəvayətə gəldikdə, o, məchuldur".*[684] Həmçinin İbn Həcər "Lisanul-mizan"da[685] və İbn Ədiy "əl-Kamil"də yazır: *"Bu Şüeyb ibn İbrahimin hədis və rəvayətləri var. O, bunlarla tanınmır. Ondan nəql edilən rəvayət və hədislər çox deyil, bəziləri də inkar olunur. Belə ki, hədis və rəvayətlərində sələf (özündən əvvəlki saleh) şəxslərə qarşı mənfi fikirlər yer alır".*[686]

2. Seyf ibn Ömər – o, zəif ravidir. Mizzi "Təhzibul-kəmal"da yazır: *"Abbas Duri Yəhya ibn Muindən nəql edir: "Hədisləri zəifdir". Əbu Cəfər Həzrəmi Yəhya ibn Muinə istinadən deyir: "Ondan bir xeyir yoxdur". Əbu Hatəm deyir: "Hədisləri tərk olunur. Hədisləri Vaqidinin hədislərinə oxşayır". Əbu Davud deyir: "Bəzi hədisləri məşhurdur, əsas hissəsi isə inkar olunur və əhəmiyyət verilməz. O, təsdiqdən çox zəifliyə yaxındır". Əbu Hatəm ibn Hibban deyir: "Möhkəm ravilərdən uydurma rəvayətlər nəql edib". Deyir: "Dedilər: O, hədis uydururdu".*[687]

Amma bəzən onun barəsində söylənən "Onun ancaq rəvayətləri zəif sayılıb, tarixdə isə etimad olunan,[688] xəbərlərdən məlumatlı şəxsdir"[689] sözlərə cavab budur:

İhsan Zahirin mənsub olduğu məktəbin qəbul etdiyi qaydalara əsasən, tarixi mətnlərə də hədis və rəvayətlərin tələbləri tətbiq olunur. Onlar bu

---

[684] Mizanul-itidal, c. 2, s. 275
[685] Lisanul-mizan, c. 3, s. 145
[686] əl-Kamil, c. 4, s. 4
[687] Təhzibul-kəmal, Mizzi, c. 12, s. 326-327
[688] Bax: Təqribut-təhzib, İbn Həcər, c. 1, s. 408
[689] Bax: Mizanul-itidal, Zəhəbi, c. 2, s. 255

qaydaya ilə Vaqidi, Kəlbi və Əbu Mixnəf kimi bir çox tarixçini zəif sayıb, onlardan nəql olunan xəbərləri qəbul etməyiblər. Belə ki, onları nəqldə zəif ravilər sayılıblar. Halbuki həmin şəxslər böyük tarixçilərdən hesab olunurlar.[690]

Müasir tədqiqatçı Həsən Fərhan deyir: *"Tarixdə etimad olunan şəxsdir" kimi sözlərdə məqsəd onun etibarlılığı deyil. İbn Həcər Seyf ibn Ömər, Əli ibn Kəlbi və hədisləri tərk olunan digər şəxslər barədə bu sözləri işlədib. Hafizin sözlərinə əsasən, onlara etibarlı (siqə) olduqlarına görə deyil, tarixi materialları topladıqlarına və tarixlə maraqlandıqlarına görə böyük tarixçilər kimi etimad olunub. Bu səbəbdən də Hafizin özünün də şəxsən Seyfi və Kəlbini tarixi rəvayətlərdə zəif saydığını görürük. Halbuki onu "Nəsil məlumatlarında etimadlı" adlandırıb".*[691]

Başqa yerdə deyir: *"Seyf ibn Ömari etibarlı sayan bəzilərinin əsaslandığı iki nəzər də var ki... Bilin ki, bunlar Zəhəbinin "Məlumatlı və arif şəxs idi" və Hafiz ibn Həcərin "Tarixdə etimad olunan şəxsdir" sözləridir. Həqiqət budur ki, Zəhəbi həmin sözləri Seyfdən başqa yalançı ravilər barədə də deyib. O, "Ədəbiyyatdan məlumatlı şəxsdir", "Nəsillərlə bağlı məlumatlı şəxsdir", "Xəbərlərdən məlumatlı şəxsdir" kimi sözlərdən çox istifadə edib. Baxmayaraq ki, özü onları digər yerdə yalançılıq və zəifliklə vəsf edib! Sübut isə budur ki, o, kitablarının bir çox yerində Seyfi zəif sayıb. "Mövhumatçı" sözünü yalnız zəiflikləri aydın və çox olanlar barədə istifadə edib.*

Həmçinin Hafiz ibn Həcərin də "əl-İsabə"də və digər kitablarda Seyfdən tarixi rəvayət nəql etdiyini görürük. Hafizin məqsədi (Doğrusunu Allah bilir!) Seyfi tarixi məsələlərdə etimadlı şeyx bilməsidir. Necə ki, Kəlbini nəsillərlə bağlı məlumatlarda etimadlı şəxs kimi qəbul edirdi. Halbuki hər ikisini də yalançılıqda ittiham edərək zəif sayırdı.

---

[690] Bax: Təhzibul-kəmal, c. 26, s. 180-195

[691] Nəhvu inqazut-tarixil-İslami, s. 60

Əgər Hafizin Seyf ibn Öməri etibarlı saydığını fərz etsək, o zaman Seyfin yaşadığı dövrə yaxın yaşamış və hədislərini araşdırmış onlarla hədisşünasın sözlərini nə edək?! Onlar Seyfi sonrakı və müasir alimlərdən daha yaxşı tanıyırdılar. Halbuki biz keçmişdəki alimlərin sözlərinin doğru olduğunu təsdiqləyirik. Onlar Seyfi hədisləri tərk olunan, yalançı (kəzzab), nə tarixdə və nə də rəvayətlərdə etimad edilməyəcək şəxs kimi tanıyırdılar! Onun rəvayətlərini, digər tarixçilərin rəvayətləri bir kənara dursun, bir-birləri ilə müqayisə etmək kifayətdir ki, aralarındakı böyük ziddiyyətləri görək. Bəs səhih hədislərin mətnlərinə olan ziddiyyətlərlə nə edək?!"[692]

Hədisin məzmunu

Hədisin məzmunu dəlil olacaq səviyyədə deyil. Səbəb isə onların mövzularının (başlıq və ya abzaslarının) arasındakı dağınıqlıq, ziddiyyət və qopuqluqdur. Bütün bunlar onların uydurma olmasına dəlalət edir. Əvvəldə ravinin İbn Səbanın hərəkətlərini geniş təsvir etdiyini, müxtəlif şəhərlərdə səhabə və tabeunları özünə tərəf çağıraraq camaatı Osmana qarşı üsyan qaldırmağa çağırdığını və buna nail olduğunu görürük. Ardınca isə birbaşa xilafətin mərkəzində baş verən hadisələrin nəqlinə keçir, İbn Səbanın hərəkətlərindən tam məlumatlı olmayan Osmanın dialoqlarını qeyd edir.

Bundan sonra isə üçüncü hadisəni təsvir edərək misirlilərin Osmanın Misirə göndərdiyi Əmmarın ətrafına toplaşmasını, bu xəbərin Abdullah ibn Səd ibn Əbu Sorh tərəfindən yazılan məktubda sürətlə Osmana çatdırılmasını və hadisələrdən xəbər verildiyindən söz açır.

Bir sual yaranır: "Əgər şəhərlərdə baş verən hər kiçik və böyük xəbəri Osmana belə sürətlə çatdıracaq valiləri var idisə (ki, Misirdəki üsyan və qısa səfəri müddətində misirlilərin Əmmarın ətrafında toplanmasını belə sürətlə ona xəbər verdilər), bəs necə ola bilər ki, ravinin geniş təsvir

[692] Nəhvu inqazit-tarixil-İslami, s. 84-85

etdiyi kimi, İbn Səbanın şəhər-şəhər gəzərək törətdiyi əməlləri, camaatı Osmanın üzərinə qaldırmasını ona xəbər vermədilər?!

Həmçinin bir yəhudi şəxs müsəlman cəmiyyətində bu cür müvəffəqiyyətlə dinin təməlini qoyulmasında iştirak etmiş, cürbəcür əzablara sinə gərmiş, adları səbr, iman və möhkəmlikdə dillər əzbəri olmuş böyük səhabələri üsyan üçün necə ayağa qaldıra bildi?! Nəticədə şəhərlərdə hakimiyyətlər devrildi və üsyanlar Osmanın qətli ilə yekunlaşdı!

Üçüncü bəhs: Abdullah ibn Səbanın şəxsiyyətinin həqiqəti

Abdullah ibn Səba məsələsində müzakirənin əsas mövzusu onun İslam cəmiyyətindəki hadisələrə bu həcmdə və belə təsir edə biləcək şəxsiyyətə sahib olması, düşüncələri qəribə bir şəkildə dəyişməyi, bir çox böyük səhabə və müsəlmanın arasında yeni bir əqidəni formalaşdırmağı bacarmasıdır.

İxtilafı kökü bundadır. Yoxsa Abdullah ibn Səba adlı bir şəxsin olub-olmamasının isbat və inkarının heç bir əhəmiyyəti yoxdur. Ancaq bəziləri İbn Səbanın varlığını təsdiqləyən alimlərin sözləri ilə onun həyatının əhatə etdiyi bu geniş dövrü təsdiqlədiklərini güman etmişlər. Halbuki həmin alimlər yalnız İbn Səba adlı şəxsin varlığını təsdiq etmişlər. Ancaq onun geniş zamanı əhatə edən əməllərini yalnız Seyf ibn Ömərə istinad edilən rəvayətlərlə məhdudlaşdırıblar ki, həmin məlumatları da Təbəri öz “Tarix”ində nəql edir (həmin rəvayəti yuxarıda sizə təqdim etdik).

İbn Səbanın şəxsiyyəti barədə ixtilaf

Müsəlman alim və mütəfəkkirlərinin yazılarında Abdullah ibn Səbanın qaranlıq şəxsiyyəti və ona nisbət verilənlər geniş yer tutur. Alimlərin arasında onunla bağlı müxtəlif yönlərdən fərqli fikirlər irəli sürülüb. Bəzilərinin onun bir şəxs kimi ümumiyyətlə mövcud olub-olmadığı,

bəzilər şəxsiyyəti, bəziləri meydana çıxma tarixi və bəziləri də İslam tarixindəki hadisələrdə oynadığı rolla bağlı ixtilaflı fikirlər səsləndiriblər. İmkan daxilində müxtəsər şəkildə İbn Səba barədəki müxtəlif yönlərdən ortaya atılan ixtilaf və ziddiyyətli məqamları qeyd edəcək ki, oxucu az da olsa onun qaranlıq şəxsiyyəti barədə fikirlərlə tanış olsun:

Birinci: İbn Səbanın şəxs kimi var olub-olmadığı barədə ziddiyyət

Müsəlman alimləri İbn Səba adlı şəxsin mövcudluğu barədə ixtilaf ediblər. Bəziləri belə bir şəxsin mövcud olduğunu təsdiqləmiş, digərləri isə inkar etmişlər. Onların sözlərindən bəzilərinə nəzər salaq:

1. İbn Səba adlı şəxsin varlığını inkar edən Əhli-Sünnə alimləri

A. Dr. Taha Hüseyn: *"İbn Səba və onun yoldaşları ilə bağlı məsələ uydurma və saxtadır. Bu, son zamanlarda şiə ilə digərlərinin arasında İslam firqələri ilə bağlı yaranmış ixtilafdan doğub. Məqsəd isə şiə məzhəbinin təməlinə yəhudi ünsürü daxil etməklə onlara hiylə qurmaq və məzəmmət etməkdir".*[693]

B. Dr. Əli Sami Nəşşar: *"Ehtimal ki, Abdullah ibn Səbanın şəxsiyyəti uydurmadır. Yaxud da Əmmar ibn Yasirin şəxsinin rəmzi xarakteridir. Həmçinin Abdullah ibn Səba adının Əmmar üçün bir örtük rolunu oynaması da ehtimal edilə bilər".*[694]

C. Dr. Hamid Həfni Davud: *"Bəlkə də tədqiqatçıların nəzərindən qaçan və məsələni onlar üçün gizli saxlayan, onların anlamasına mane olan bu böyük tarixi xəta Abdullah ibn Səba barədə saxta nağıllarla şiə alimlərinə atdıqları iftiralardır..."*[695]

---

[693] Əliyyun və bənuh, c. 2, s. 24, 12-ci çap, "Darul-məarif", Qahirə.

[694] Nəşətul-fikril-fəlsəfi, c. 2, s. 39, VIII çap, "Məarif" nəşriyyat evi, Qahirə.

[695] Seyyid Əskərinin "Abdullah ibn Səba" kitabının müqəddiməsindən, c. 1, s. 17.

Ç. Dr. Muhəmməd Kamil Hüseyn: *"İbn Səba ilə bağlı Misir hekayələri, oradakı əhalinin arasında şiəliyi yayması uydurmaları daha çox xurafatlara yaxındır".*[696]

D. Əbdüləziz Hələbi: *"İbn Səba xəyali bir şəxsiyyətdir, mövcud olmayıb. Əgər bu adda bir şəxs olubsa da, əsla Seyfin, eləcə də siyasi və etiqadi cəhətdən digər firqələrin kitablarındakı ravilərin ona istinad edə biləcəyi dövrdə yaşamayıb... İbn Səba kimi bir şəxsin yaşayacağı dövrdə belə böyük fitnələr çıxarması, İslam tarixinin və cəmiyyətinin məcrasında dəyişiklik etməsinə tarixçilərin diqqətsizliyi onun sonrakı əsrlərdə yalandan uydurulduğunun dəlilidir".*[697]

Bəzi tədqiqatçılar İbn Səbanın şəxsiyyətinin mövcudluğunu inkar edən başqa alimlərin adlarını da qeyd ediblər. Onlardan: Dr.Cavad Əli, Dr.Muhəmməd İmarə, Dr.Abdullah Samərai və başqalarının adlarını sadalamaq olar.[698]

2. İbn Səba adlı şəxsin varlığını inkar edən şiə alimləri

A. Şeyx Muhəmməd Hüseyn Kaşiful-Ğita: *"Belə söyləyənlərin fikri heç də yanlış kimi görünmür: "Abdullah ibn Səba, Bəni-Amirin məcnunu, Əbu Hilal və bu kimi şəxslərin, boşboğaz və həyasızların xurafi uydurmalardır..."*[699]

B. Seyyid Mürtəza Əskəri onun mövcud olmamasının, bu şəxsin Seyf ibn Ömərin uydurduğu əfsanə və xurafatdan qaynaqlandığının isbatına dair "Abdullah ibn Səba" adlı kitab yazmışdır.[700]

---

[696] Fi ədəbi Mısra əl-Fatimiyyə, s.7, I çap, m.1970-ci il, "Darul-fikril-ərəbi" nəşriyyat evi

[697] "Abdullah ibn Səba – Dirasətun lir-rəvayatit-tarixiyyəti ən dovrihi fil-fitnə, s. 73.

[698] Bax: Sidqun-nəbə fi bəyani həqiqəti Abdullah ibn Səba, Əbu Abdullah Zəhəbi, c. 1, s. 26-27.

[699] Əsluş-şiəti və usuluhə, s. 179-181

[700] Bax: Abdullah ibn Səba, c. 2, s. 219. Orada deyir: "Bu kitabın birinci cildində Seyif ibn Ömərin uydurduğu güman edilən Abdullah ibn Səba barədə sözlərimizi qeyd etdik..."

C. Muhəmməd Cavad Muğniyə: *"Seyf ibn Ömər Peyğəmbər (s) üçün mövcud olmayan səhabələr... tabeun və qeyri-tabeunlar uydurub, onların adından saxta hədis və rəvayətlər nəql edib. Onlar üçün şəxsiyyət, ad və əlaqəli olduqları hadisələr uydururdu. Bu əfsanə şəxslərdən biri də Abdullah ibn Səbadır ki, heç bir məlumata sahib olmayan kəslər də həmin sözlərə əsaslanaraq şiəliyi ona nisbət verib, nifaq, iftira, cəhalət dolu və yanlış sözlər söyləyiblər..."*[701]

Ç. Seyyid Xoi: *"Abdullah ibn Səba və onunla bağlı üsyan hekayələri yalançı və saxtakar Seyf ibn Ömərin uydurduğu bir əfsanədir..."*[702]

D. Seyyid Əllamə Təbatəbai Seyf və Şüeybin xəbərlərini, eləcə də İbn Sevdanın Əbuzər təsir göstərərək Müaviyəyə qarşı çıxmağa təhrik etməsi rəvayətlərini nəql etdikdən sonra deyir: *"Bu ikisi (Seyf və Şüeyb) ondan hədis nəql ediblər. Osmanla bağlı əsas hadisələr də onlardan rəvayət olunub. Hər ikisi məşhur yalançı və saxtakar olublar. Rical alimləri onları kitablarında qeyd edərək barələrində mənfi sözlər söyləyiblər. Onlar uydurduqları şəxsi Abdullah ibn Səba adı ilə tanıdıblar. İbn Səbanın adından yaydıqları bütün hədislər bu iki nəfərdə (Seyf və Şüeybdə) bitir. Geniş axtarış aparan təhqiqatçılar İbn Sevdanın (İbn Səbanın) heç bir əsası olmayan, uydurma və xürafi şəxsiyyət olduğu qənaətinə gəliblər..."*[703]

3. Abdullah ibn Səbanın mövcudluğunu təsdiqləyən alimlər

Bir dəstə alim isə Abdullah ibn Səba adlı bir şəxsin mövcud olduğunu təsdiqləyib. Onlardan: "Əhvalur-rical"da[704] Cüzcani, "əl-Məarif"də[705] Qüteybə, "Ənsabul-əşraf"da[706] Bəlazuri, Təbəri öz "Tarix"ində,[707]

---

[701] Seyyid Mürtəza Əskərinin "Abdullah ibn Səba" adlı kitabının müqəddiməsindən nəql edilərək; c. 1, s. 12

[702] Möcəmu ricalil-hədis, c. 11, s. 207

[703] əl-Mizan fi təfsiril-Quran, c. 9, s. 260

[704] Əhvalur-rical, s. 38

[705] əl-Məarif, s. 267

[706] Ənsabul-əşraf, c. 3, s. 382

“Məqalatul-islamiyyin”də[708] Əbülhəsən Əşəri, “əl-Faslu fil-miləl vən-nihəl”də[709] İbn Həzm, “əl-Miləl vən-nihəl”də[710] Şəhristani, “Tarix”də İbn Əsakir,[711] “Məcmuul-fətava”da[712] İbn Teymiyyə və başqalarını qeyd etmək olar.

Şiə alimlərindən isə “Firəquş-şiə”də[713] Novbəxti, “əl-Məqalatu vəl-firəq”də[714] Əşəri Qummi, Kəşşi və Şeyx Tusi öz “Rical”larında,[715] “Xüləsatul-əqval”da[716] Əllamə Hilli və digərləri onun mövcud olduğunu təsdiqləyiblər.

Nəticə: Bu şəxsin mövcud olub-olmaması barədə alim və mütəfəkkirlərin bir-birinə zidd fikirləri var. Onun varlığı barədə yekdil rəy yoxdur. Alimlərdən bəziləri onun mövcudluğunu təsdiqləmiş, bəziləri isə inkar etmişlər. Həmçinin bəzi şəxslər tərəfindən müəyyən məqsədlərlə bir çox adda şəxslərin uydurulduğu, onlara bəzi hadisə və rəvayətlərin istinad edildiyi faktları da bu iddiaları dəstəkləyir.

İkinci: İbn Səbanın şəxsindəki ziddiyyətlər

Tarix alimləri İbn Səbanın şəxsiyyətinə dair olduqca məhdud çərçivə cızıblar. Belə ki, onun şəxsi kimliyi, yaşadığı şəhəri və mənsub olduğu qəbiləsi, nisbət verildiyi ata və anası, İslamdan əvvəl mənsub olduğu din barədə də yekdil fikrə gələ bilməyiblər. Bütün bu ixtilaflar İbn Səba haqqında təhqiqat aparan şəxslər qarşısında böyük müşküllərə yol açıb. Belə ki, onun şəxsiyyəti ilə bağlı məlumatları aydın şəkildə açıqlaya və ya

---

[707] Tarixut-Təbəri, c. 4, s. 283, 326, 331, 340, 349, 398, 493-494, 505
[708] Məqalutul-islamiyyin, c. 1, s. 85
[709] əl-Faslu fil-miləl vən-nihəl, c. 4, s. 186
[710] əl-Miləlu vən-nihəl, c. 2, s. 116, 155
[711] Tarixu mədinəti Dəməşq, c. 29, s. 3
[712] Məcmuu əl-fətava, c. 4, s. 435; c. 28, s. 483
[713] Firəquş-şiə, s. 21
[714] əl-Məqalatu vəl-firəq, s. 20
[715] İxtiyaru mərifətir-rical, Şeyx Tusi, c. 1, s. 333; Rical, Şeyx Tusi, s. 75
[716] Xülasətul-əqval, s. 372

qəti olaraq isbatlaya bilməmişlər. Aşağıda bu ixtilafların bir neçəsinə nəzər salacağıq:

1. İbn Səbanın şəxsiyyəti ilə bağlı ixtilaflar

İbn Səbanın şəxsiyyəti ilə bağlı müxtəlif fikirlər irəli sürülüb. İbn Səba və İbn Sevdanın eyni, yaxud iki fərqli şəxs olmasında fikirlər haçalanıb. Bir dəstə alim onların iki ayrı şəxs olduğunu bildirib. Onlardan İbn Əbdülrəbbih, İsfərayini və Bağdadini misal göstərmək olar. İbn Əbdülrəbbih deyir: *"...onlardan Abdullah ibn Səbanı Sabata, Adullah ibn Sevdanı isə Xazərə sürgün etdi".*[717]

İsfərayini deyir: *"İbn Sevda Əli vəfat etdikdən sonra Abdullah ibn Səbanın sözləri ilə razılaşdı".*[718]

Bağdadi deyir: *"Əli Abdullah ibn Səbanın və İbn Sevdanın öldürülməsindən qorxaraq onları Mədainə göndərdi".*[719]

Bəziləri də onları vahid bir şəxs hesab ediblər. Onların sırasına Təbərini, Zəhəbini, Muqrizini və İbn Əsakiri daxil etmək olar. Muqrizi deyir: *"İbn Sevda kimi tanınan Abdullah ibn Vəhəb ibn İbn Səba".*[720]

2. İbn Səbanın mənsub olduğu qəbilə ilə bağlı ixtilaf

İbn Səbanın mənsub olduğu qəbiləyə dair yekdil fikir irəli sürülməyib. Bu barədə bir çox iddialar var. Onlardan ən mühümləri:

Birinci iddia: İbn Səbanın mənsub olduğu qəbilə Hümeyrdir. Bu rəy bir çoxlarına məxsusdur. İbn Həzm deyir: *"Ğali (həddi aşıb küfrə düşən) firqələrin ikinci qismi Allahdan başqasına uluhiyyət məqamı nisbət*

---

[717] əl-Əqdul-fərid, c. 2, s. 241

[718] ət-Təbsiru fid-din, s. 108

[719] əl-Fərqu bəynəl-firəq, s. 235

[720] əl-Xututul-Muqriziyyə, c. 2, s. 356. Həmçinin bax: Tarix, Təbəri, c. 4, s. 326-327; Tarixul-İslam, Zəhəbi, c. 2, s. 122; Tarixu mədinəti Dəməşq, İbn Əsakir, c. 29, s. 8

verənlərdir. Onların ilki Abdullah ibn Səbanın mənsub olduğu Hümeyri qəbiləsidir".[721]

İkinci iddia: İbn Səba Həmədan qəbiləsindədir. Bu söz də bir dəstə alimə aiddir ki, onların arasında Bəlazurini və Əşəri Qumminin adlarını qeyd etmək olar.[722]

Üçüncü iddia: İbn Səba Qurani-Kərimdə qeyd edilən Səba əhlindəndir, Yərub ibn Qəhtan Yəşcəbin oğludur. Yəşcəbin oğlu da Səbadır. Səbanın əsl adı Əbdüşşəmsdir. Atasından sonra Yəmənin padşahı olub. Çoxlu savaşlarda iştirak edib, əsirlər götürüb. Ona görə də Səba (Əsir götürən) adlandırılıb. Özündən əvvəl heç kəs bu addan istifadə edilməyib. Ondan sonra isə övladlarına verilib.[723]

3. İbn Səbanın yaşadığı ölkə barədə ixtilaf

İbn Səbanın nisbət verildiyi ölkə barədə də yekdil fikir yoxdur. Bu barədə fərqli sözlər qeyd ediblər ki, onlardan ən əhəmiyyətliləri bunlardır:

Birinci rəy: İbn Səba Hirə əhlindəndir. Bu, bir dəstə alimin sözüdür. Əbdülqahir Bağdadi yazır: *"Abdullah ibn Sevdanın əsli Hirə yəhudilərindəndir. Sonradan İslamı qəbul edib".*[724]

İkinci rəy: İbn Səba Yəməndəndir. Bu söz də bir dəstə alimin fikridir ki, onlardan biri də Təbəridir. O, deyir: *"Abdullah ibn Səba (Yəmənin indiki paytaxtı) Səna əhalisindən olan yəhudi idi".*[725]

Həmçinin İbn Əsakir deyir: *"Səbailiyin nisbət verildiyi Abdullah ibn Səba... əsli Yəmən əhlindəndir, yəhudi idi".*[726]

---

[721] əl-Faslu fil-miləli vəl-Əhva, İbn Həzm, c. 5, s. 46

[722] Bax: Ənsabul-əşraf, Bəlazuri, c. 5, s. 240; əl-Məqalatu vəl-firəq, Əşəri Qummi, s. 20

[723] Qəlaidul-cəmman, Qalqəşəndi, s. 39

[724] əl-Fərqu bəynəl-firəq, s. 235

[725] Tarix, Təbəri, c. 4, s. 340

[726] Tarixu mədinəti Dəməşq, İbn Əsakir, c. 29, s. 3

Üçüncü rəy: İbn Səbanın əsli yunandır. Bu söz isə "əl-Bidayətu vən-nihayə"də İbn Kəsirə məxsusdur. Deyir: *"Əsli yunan idi. İslamı qəbul etdi, həm sözlü, həm də əməli bidətlər ortaya çıxardı".*[727]

4. İbn Səbanın atasının kimliyi ilə bağlı ixtilaf

İbn Səbanın atası barədə də ixtilaf mövcuddur və müxtəlif fikirlər səsləndirilib:

Birinci fikir: İbn Səba ata cəhətindən Vəhəbə nisbət verilib. Bu fikir aralarında Bəlazurinin,[728] Əşəri Qumminin,[729] Zəhəbinin[730] və Muqrizinin[731] də olduğu bir dəstə alimə məxsusdur.

İkinci fikir: İbn Səbanın atası Hərbdir. Bu fikir isə aralarında Cahizin də olduğu bir dəstə şəxsə məxsusdur. Zəhr ibn Qeysin rəvayətini nəql etdiyi əsnada yazır: *"Əli ibn Əbu Talib (Kərrəmallahu vəchəh) vurulduqdan sonra Mədainə gəldim. İbn Sevda məni qarşıladı. O, Hərbin oğludur..."*[732]

Üçüncü fikir: İbn Səbanın atası Səbadır. Bu fikir isə İbn Qüteybəyə,[733] Əbülhəsən Əşəriyə,[734] Şəhristaniyə,[735] İbn Həcərə[736] və bir dəstə alimə məxsusdur.

Nəticə: İbn Səbanın şəxsiyyəti ilə bağlı tarix, məzhəb və rical alimlərinin arasındakı bu böyük ixtilaf və qarışıqlıqlar həmin şəxsin kimliyi ilə bağlı dəqiq və qəti bir məlumatın olmadığını göstərir.

---

[727] əl-Bidayətu vən-nihayə, İbn Kəsir, c. 7, s. 190
[728] Ənsabul-əşraf, Bəlazuri, c. 5, s. 240
[729] əl-Məqalatu vəl-firəq, Əşəri Qummi, s. 20
[730] əl-Muşətbəhu fir-rical, Zəhəbi, c. 1, s. 346
[731] əl-Xututul-Muqriziyyə, Muqrizi, c. 2,s əh.356
[732] əl-Bəyanu vət-təbəyyun, Cahiz, c. 3, s. 81
[733] əl-Məarif, s. 622
[734] Məqalatul-İslamiyyin, c. 1, s. 86
[735] əl-Miləlu vən-nihəl, c. 1, s. 173
[736] Lisanul-mizan, c. 3, s. 290

Üçüncü: İbn Səbanın ortaya çıxması və İslamı qəbul etməsi tarixində ixtilaf

Təbərinin Seyf ibn Ömərdən nəql etdiyi İbn Səbanın müsəlmanlar arasına qatılması ilə bağlı rəvayətlərində də ixtilaflar var. Həmin Seyfin sözlərindən bir qismini sizə təqdim edirik:

Birinci fikir: İbn Səba hicri 34-cü ildə Bəsrədə İslamı qəbul edib. Öz hərəkatına da oradan başlayıb, Kufəyə çatıb, sonra Misirə keçib, ardınca da bütün şəhərlərə yayıb.

Təbəri hicri 34-cü ilin hadisələrini nəql edərkən Seyfdən, o da Ətiyyədən, o da Yəzid ibn Fəqəsidən rəvayət edir: *"İbn Sevda gəldikdə onun (yəni Hükeym ibn Cəbələnin) yanına getdi. Bir neçə nəfər də onun ətrafına toplandı. Onlara sakitcə nəyisə başa saldı. Ətrafına toplaşanlar sözlərini qəbul edib onu öz başçıları olaraq gördülər. İbn Amir onun yanına adam göndərib kim olduğunu xəbər aldı. O isə İslama rəğbət bəsləyən kitab əhlinə mənsubu bir şəxs olduğunu bildirdi. Ondan şəhəri tərk etməsini tələb etdi. İbn Sevda Kufəyə üz tutdu. Sonra oradan da çıxarıldı. Misirdə qərarlaşıb kənardakı dostları ilə yazışırdı".*[737]

İkinci fikir: İbn Səba hicri 35-ci ildə müsəlman olmuşdur. Öz hərəkatına ilk dəfə ortaya çıxdığı Hicazda başlayıb. Oradan Kufəyə, sonra Şama, Misirə və digər şəhərlərə keçib. Təbəri hicri 35-ci ilin hadisələrini qeyd edərkən Seyfdən, o da Ətiyyədən, o da Yəzif Fəqəsidən nəql edib: *"Abdullah ibn Səba Səna əhlindən olan yəhudi idi. Anası Sevdadır. İbn Səba Osmanın zamanında İslamı qəbul etdi. Sonra müsəlman torpaqlarını şəhər-şəhər gəzərək əhalisini azdırmağa çalışdı. Əvvəlcə Hicaza, sonra Bəsrəyə, Kufəyə və Şama getdi. Şam əhlindən heç kəsi inandırmağa qüdrəti çatmadı. Onu şəhərdən çıxardılar, oradan Misirə getdi. Onların arasında dolaşıb..."*[738]

---

[737] Tarix, Təbəri, c. 3, s. 368

[738] Tarix, Təbəri, c. 3, s. 378-379

Üçüncü fikir: İbn Səba hicrətin 30-cu ili müsəlmanların arasına qatılmışdır. Həmin vaxt o, Əbuzər kimi böyük səhabələrə təsir göstərməyi bacarmış və çağırışlarının əlamətləri ilk dəfə Şamda zahir olmuşdu. Təbəri yazır: *"Həmin ildə (yəni hicri 30-cu il) Əbuzərlə Müaviyənin arasında baş verənləri, Müaviyənin onu Şamdan çıxarıb Mədinəyə göndərdiyini danışırdı, buna bir çox səbəb göstərirdi ki, onları burada qeyd etmək istəmədim.*

Amma bu məsələdə Müaviyəni haqlı bilənlər var idi. Onlar baş vermiş hadisəni qeyd ediblər. Bunu mənə Səriy yazıb: "Şüeyb Seyfdən, o da Ətiyyədən, o da Yəzid Fəqəsidən rəvayət edir: "İbn Sevda Şama gəldikdə Əbuzərlə görüşdü. Dedi: "Ey Əbuzər, Müaviyənin sözlərinə təəccüb etmirsən? O deyir: "Mal-dövlət Allahındır". Bəli, hər bir şey Allahındır. Lakin o, sanki, bununla müsəlmanlara çatacaq pulun qarşısını kəsmək və onların adlarını bu paydan silmək istəyir".

Əbuzər Müaviyənin yanına gedərək dedi: "Müsəlmanların malını Allah malı adlandırmağa səni nə vadar edir?.."[739]

Bu rəvayətdən anlaşılır ki, İbn Səba müsəlman idi və onun digərlər insanlar kənara dursun, hətta Əbuzər kimi böyük səhabələr üzərində böyük təsir gücü var idi. Şamdakı etirazları və islahat çağırışlarını da o başlatmışdı.

Nəticə: İbn Səbanın İslamı qəbul etməsi, şəxsiyyəti və müsəlmanların arasında peyda olması tarixini şərh edənlərin sözlərinin arasında aydın bir qarışıqlıq var. Bu isə həmin rəvayətlərin böyük hissəsinin uydurma olduğu fikrini gücləndirir.

Dördüncü: Abdullah ibn Səbanın İslam tarixində rol oynadığı dövrün müddəti barədə ixtilaflar

---

[739] Tarix, Təbəri, c. 3, s. 378-379

İbn Səbanın tarixdə aktiv rol aldığı müddət barədə də fikir ayrılıqları mövcuddur. Hər iki firqə mənsublarının bu barədəki sözlərindən bəzilərinə nəzər salaq:

Əhli-Sünnə alimlərinin sözləri

Əhli-Sünnə mənbələrinə diqqət yetirdikdə məqamla bağlı iki nəzərin var olduğunu görürük:

Birinci nəzər: Bu, Seyf ibn Ömərdən nəql edilən rəvayətlərdir. Həmin rəvayətlərdə onun şəxsiyyəti böyüdülür, İslam tarixində baş vermiş hadisələrdə ki rolu şişirdilir, müsəlmanların ictimai, siyasi, hətta etiqadi məsələlərinə təsirindən söz açılır. Bu rəvayətlərdən bir hissəsini yuxarıda qeyd etdik. O səbəbdən burada yenidən təkrarlamağa lüzum görmürük. Eləcə də bəzi hədis hafizlərinin, rical alimlərinin Seyf ibn Öməri zəif saydıqları barədə sözlərini də təqdim etdik. Onların sözlərində Seyfin zəif olması yekdilliklə vurğulanır. Buna əsasən, hər hansı bir məsələnin, xüsusilə də etiqadi məsələnin təsdiq və ya inkarında ona etimad etmək mümkün deyil.

İkinci nəzər: Bu, Seyf ibn Ömərdən deyil, fərqli bir yolla nəql edilmiş rəvayətlərdir. Həmin rəvayətlərdə isə İbn Səbanın heç də geniş bir dövrü ehtiva etmədiyi, Allahı və Peyğəmbərini (s) inkar edən bir yalançı olduğu, Möminlərin əmiri Əli (ə) barəsində ğüluvv etdiyi (ğulatlıq etdiyi, həddi aşdığı) bildirilir. Həmin hədisləri sizə təqdim edirik:

1. Əbu Yəla Mosulinin "Müsnəd"ində Əbu Cüllasın rəvayətində Möminlərin əmiri Əlinin (ə) Abdullah Səbaiyə belə dediyini eşitdiyini qeyd olunur: *"Vay olsun sənə! O (Peyğəmbər), mənə camaatdan gizlətdiyi heç bir şey barədə xəbər verməyib".* Həmçinin ondan belə eşitdiyini deyir: *"Qiyamət saatınadək otuz kəzzab (böyük yalançı) olacaq, həqiqətən də, sən onlardan birisən".*[740]

---

[740] Müsnəd, Əbu Yəla Mosuli, c. 1, s. 349-350

2. İbn Əsakir "Tarix"ində Əmmar Dəhəni sənədilə Əbu Tüfeylin belə söylədiyini nəql edir: *"Əli minbərdə ikən Müseyyib ibn Nəcbə yaxaladığı şəxsi (yəni İbn Sevdanı) gətirdi. Əli dedi: "O nə edib?" Dedi: "Allaha və Peyğəmbərinə yalan isnad edir".*[741]

3. Həmçinin İbn Əsakir "Tarix" əsərində Sələməyə istinadən Əbu Zəradan İmam Əlinin (ə) belə söylədiyini nəql edir: *"Mənim bu qara şiddətli (yandırıcı) odla nə işim var?!"*[742]

4. Yenə də İbn Əsakir "Tarix" kitabında yazır: *"Əbu Muhəmməd ibn Tavus və Əbu Yəla Həmzə ibn Həsən ibn Müfərric bizə xəbər verirlər ki, Əbülqasim ibn Əbüləla Əbu Muhəmməd ibn Əbu Nəsrdən, o da Xeysəmə ibn Süleymandan, o da Əhməd ibn Züheyr ibn Hərbdən, o da Əmr ibn Mərzuqdan, o da Şöbədən, o da Sələmə ibn Küheyldən, o da Zeyd ibn Vəhəbdən Əli ibn Əbu Talibin belə dediyini rəvayət edir: "Mənim bu qara şiddətli odla nə işim var?!" Yəni Abdullah ibn Səba ilə. O, Əbu Bəkr və Ömər haqqında nalayiq sözlər danışırdı".*[743]

5. Həmçinin İbn Əsakir yazır: *"Hüceyyə ibn Ədiy Kindi Möminlərin əmiri Əlinin (ə) minbərdən belə buyurduğunu gördü: "Allaha və Peyğəmbərinə yalan istinad edən bu qara oddan məni kim müdafiə edər? (Yəni İbn Sevdadan). Əgər qan iddiası ilə üzərimə qalxan bu güruh olmasaydı bunları topa buludlara çevirərdim".*[744]

Bunlar Seyf ibn Ömər yolu ilə nəql edilməyən, Abdullah ibn Səbanın qeyd edildiyi əsas rəvayətlərdir.

Rəvayətlərin sənədinə və onlarda Abdullah ibn Səbanın kimliyinə aydınlıq gətirilmədiyinə göz yumasaq, bunlara ümumi şəkildə irad bildirmək mümkündür: həmin rəvayətlər İmam Əli (ə) ilə eyni zamanda

---

741 Tarixu mədinəti Dəməşq, İbn Əsakir, c. 29, s. 7
742 Tarixu mədinəti Dəməşq, İbn Əsakir, c. 29, s. 7
743 Tarixu mədinəti Dəməşq, İbn Əsakir, c. 29, s. 7-8
744 Tarixu mədinəti Dəməşq, İbn Əsakir, c. 29, s. 8

yaşamış Abdullah ibn Səba adlı bir şəxsin mövcudluğundan başqa heç bir şeyə dəlalət etmir. Bu şəxs isə Allahı və Peyğəmbərini (s) inkar edirdi.

Şiə alimlərinin sözləri

İbn Səbanın şəxsiyyəti ilə bağlı varid olmuş rəvayətlərin bəziləri Abdullah ibn Səba adlı bir şəxsin mövcudluğuna, İmam Əli (ə) ilə eyni dövrdə yaşamasına, müəyyən vaxtlarda İmamın (ə) yanına gəlib-getdiyinə, müəyyən suallar soruşduğuna dəlalət edir. Bəziləri isə onun dönüklüyünü və İmam Əli (ə) barəsindəki fikirlərində həddi aşdığını, hətta ona uluhiyyət nisbət verdiyini bildirir. Nəticədə İmam (ə) onu odda yandırır. Həmin rəvayətləri sizə təqdim edirik:

1. Şeyx Səduq və Şeyx Tusi Əbu Bəsir sənədilə İmam Sadiqdən (ə), o da atalarından (ə) nəql edirlər ki, İmam Əli (ə) buyurub: *"Namazınızı qurtardıqda əllərinizi səmaya qaldırın və dua edin". İbn Səba dedi: "Ey Möminlərin əmiri, məgər Uca Allah hər yerdə deyil?" İmam (ə) "Bəli" deyə cavab verdi. İbn Səba sözünə davam edərək soruşdu: "Bəs onda nə üçün əllərimizi səmaya qaldıraq?" Buyurdu: "Məgər Quranda* ***"Göydə də ruziniz və vəd olunduğunuz şey var!"***[745] *buyurulduğunu oxumamısan? Ruzi öz mənbəyindən savayı haradan istənilər?! Ruzinin və Allahın vəd etdiklərinin mənbəyi səmadır".*[746]

2. Kəşşi öz "Rical"ında Abdullah ibn Sinan sənədilə onun atasından İmam Muhəmməd Baqirin (ə) belə buyurduğunu nəql edir: *"Abdullah ibn Səba peyğəmbərlik iddiası edir, Möminlərin əmiri Əlinin (ə) isə Allah olduğunu (Allah bu iddiadan pak və münəzzəhdir) düşünürdü. Bu xəbər İmam Əliyə (ə) yetişdikdə onu çağırıb iddiaları ilə bağlı sual verdi. O da iddialarını təsdiqləyərək dedi: "Bəli, sən Allahsan. Qəlbimə düşüb ki, sən Allah, mən isə peyğəmbərəm". İmam (ə) ona dedi: "Vay olsun sənə! Şeytan*

---

[745] Zariyat, 22

[746] İləluş-şəraye, Şeyx Səduq, c. 2,s əh.344; Təhzibul-əhkam, Şeyx Tusi, c. 2, s. 322

belə sənə gülür. Anan mataməndə ağlasın, bundan əl çək və tövbə et". Bundan imtina etdikdə onu bir müddət həbsə atdı. Lakin yenə də tövbə etmədi. Sonda onu odda yandırdı. İmam (ə) buyururdu: "Onu Şeytan şövqləndirmiş və qəlbinə belə düşüncələr atmışdı".[747]

3. Həmçinin Kəşşi yazır: *"Abdullah ibn Sinan İmam Sadiqin (ə) belə buyurduğunu nəql edir: "Əhli-beyt siddiqlərdir (doğru danışan və doğruları təsdiqləyənlərdir). Lakin bizə yalan istinad edən kəzzablardan, öz yalanları ilə camaatın gözündəki dürüstlüyümüzü aradan aparmağa çalışanlardan da xali deyilik. Peyğəmbər (s) danışıqda və əməldə insanların ən dürüstü idi. Müseyləmə isə onu təkzib edirdi. Möminlərin əmiri Əli (ə) Peyğəmbərdən (s) sonra Allahın məxluqlarının ən dürüstü idi. Onun dürüstlüyünə xələl gətirməyə çalışan, doğrularını təkzib edən və Allaha yalan iftiralar atan isə Abdullah ibn Səba idi".*[748]

4. Yenə də Kəşşi "Rical"ında yazır: *"Hişam ibn Salim İmam Sadiqin (ə) öz səhabələrinə Abdullah ibn Səba, onun İmam Əliyə (ə) rübubiyyət istinad etməsi haqqında danışdığını eşitdi. Buyururdu: "Bunu iddia etdikdə Möminlərin əmiri (ə) onu tövbəyə dəvət etdi. Lakin o, bundan boyun qaçırdı. Sonda onu odda yandırdı".*[749]

5. Kəşşi həmçinin "Rical"ında yazır: *"Əbu Həmzə Somali Əli ibn Hüseynin (ə) belə buyurduğunu nəql edir: "Bizə yalan istinad edənlərə Allah lənət etsin! Mən Abdullah ibn Səbanı xatırladım, bədənimdəki tüklər dik-dik durdu. O, haqqı olmayan böyük bir şeyi iddia etmişdi. Allah ona lənət etsin! Allaha and olsun ki, Əli (ə) Allahın saleh bəndəsi, Peyğəmbərin (s) qardaşı olub. Allah tərəfindən əldə etdiyi hər bir şeyi Allaha və Peyğəmbərinə olan itaəti ilə qazanıb. Peyğəmbər də (s) həmçinin nail olduqlarını Allah qarşısındakı mütiliyi ilə əldə edib".*[750]

---

[747] İxtiyaru mərifətir-rical, c. 1, s. 323
[748] İxtiyaru mərifətir-rical, c. 1, s. 323
[749] İxtiyaru mərifətir-rical, c. 1, s. 324
[750] İxtiyaru mərifətir-rical, c. 1, s. 324

Nəticə: Bunlar şiə mənbələrində Abdullah ibn Səba ilə bağlı Əhli-Beytdən (ə) nəql olunan əsas hədislərdir.

Sənədlərinə göz yumsaq, onlara ümumi şəkildə belə irad bildirmək olar: Rəvayətlər ancaq Abdullah ibn Səba adlı bir şəxsin varlığına dəlalət edir. O, İmam Əli (ə) ilə eyni dövrdə yaşamış, İmamın (ə) barəsində həddi aşmış, onun üçün ilahlıq iddiası etmiş, Möminlərin əmiri (ə) tərəfindən tövbəyə çağırılmış, tövbə etmədikdə isə odda yandırılmışdır. Məsələ bununla bitir.

Beşinci: İbn Səbanın aqibəti və bu barədə ixtilaflar

İbn Səbanın aqibəti ilə bağlı rəvayətlər iki əsas qismə bölünür:

Birinci qisim: Möminlərin əmiri (ə) onu odda yandırdı; bu rəvayətlər əsasən şiə mənbələrində nəql edilib. Onları yuxarıda qeyd etdiyimiz üçün burada təkrarlamırıq.

İkinci qisim: Möminlərin əmiri (ə) onu Mədainə sürgün etdi. Buna dəlalət edən rəvayətlər isə Əhli-Sünnə mənbələrində qeyd olunub. Onlardan:

1. İbn Həcər "Lisanul-mizan"da Zeyd ibn Vəhəbdən nəql edir: *"Süveyd ibn Ğəfələ Əlinin xilafəti dövründə onun yanına gedib dedi: "Mən bir neçə nəfərin yanından keçirdim. Onlar Əbu Bəkr və Ömari pisliklərlə yad edir və bunu onlara sənin öyrətdiyini söyləyirdilər".*

Onlardan biri Abdullah ibn Səba idi. O, belə sözləri açıq söyləyən ilk şəxsdir.

Əli dedi: "Mənim bu qara xəbislə nə işim!" Sonra dedi: "Allaha pənah! Mən o ikisi barədə yalnız xoş sözlər öyrədirəm".

Sonra Abdullah ibn Səbanı ardınca adam göndərib onu Mədainə sürgün etdi. Buyurdu: "Əsla mənimlə eyni şəhərdə məskunlaşma".

Sonra minbərə qalxdı, camaat ətrafına toplandıqda o ikisi barədə uzun-uzadı tərif dolu sözlər söylədi. Sonda dedi: "Bilin və agah olun, məni o ikisindən üstün tutduğunuz barədə sizlərdən mənə xəbərlər çatmasın. Əks təqdirdə həmin şəxsi iftira atan şəxs hökmü ilə qamçıladacağam".[751]

2. İbn Əsakir öz "Tarix"ində Səbata istinadən yazır: *"Əliyə İbn Sevdanın Əbu Bəkr və Ömər haqqında alçaldıcı sözlər danışdığı xəbər verildi. Onu çağırıb qılıncına əl atdı. Yaxud ravi deyir: "Öldürmək istədi". Sonra onu danlayıb dedi: "Əsla mənim yaşadığım şəhərdə məskunlaşma!"*

Ravi deyir: "Onu Mədainə sürgün etdi".[752]

3. İbn Əsakir yenə də "Tarix"ində Cabirə istinadən yazır: *"Əliyə beyət olunduqdan sonra camaata xütbə söylədi. Abdullah ibn Səba ona yaxınlaşıb dedi: "Sən "Dəbbətül-ərz"sən". Əli dedi: "Allahdan qorx!" Abdullah dedi: "Sən mələksən". Bu dəfə də Əli "Allahdan qorx!" deyə cavab verdi. Abdullah yenə dedi: "Məxluqları sən yaratmış, onlara sən ruzi vermişsən". Əli onun öldürülməsi əmrini verdi. Rafizilər toplaşıb dedilər: "Onu burax və Mədainə yolla. Əgər Mədinədə onu öldürsən tərəfdarları və əshabı üzərimizə qalxacaq". Əli onu Mədainə sürgün etdi..."*[753]

4. İbn Əbülhədid İmam Əlinin (ə) bir dəstə ğulatı yandırma hekayəsini İbn Abbasa istinadən qeyd edir: *"Aralarında Abdullah ibn Abbasın da olduğu Əlinin əshabından bir dəstə adam Abdullah ibn Səba haqqında şəfaətçi olub dedilər: "Ey Möminlərin əmiri, o, artıq tövbə etmişdir, onu əfv et". İmam (ə) onu Kufədə qalmaması şərti ilə azad etdi. Abdullah ibn Səba hara getməli olduğunu soruşduqda Əli "Mədainə!" deyə cavab verdi. Ardınca onu həmin şəhərə göndərdi..."*[754]

---

751 Lisanul-mizan, c. 3, s. 290
752 Tarixu mədinəti Dəməşq, c. 29, s. 9
753 Tarixu mədinəti Dəməşq, c. 29, s. 9
754 Şərhu Nəhcül-Bəlağə, c. 5, s. 6

Nəticə: İbn Səbanın aqibətini qeyd edən rəvayətlər iki əsas hissəyə bölünür:

Birinci: İmam Əli (ə) barədə ğulatlıq etdiyi üçün İmam (ə) onu odda yandırdı. Bu rəvayətlər şiə mənbələrində nəql edilib.

İkinci: Əbu Bəkr və Ömər haqqında söylədiyi təhqirlərə görə İmam Əli (ə) onu Mədainə sürgün etdi. Bunlar isə əhil-sünnə mənbələrində nəql ediliblər.

Rəvayətlərdəki fərqliliklərə əsasən, alimlərin sözlərindəki ziddiyyətlər barizdir.

Üçüncü fəslin nəticəsi

İbn Səbanın "vəsilik" iddiasını ortaya atması və Osmana qarşı üsyanda başlıca rol oynaması haqqında rəvayətlər Əhli-Sünnə mənbələrində yalnız Seyf ibn Ömər yolu ilə nəql olunub. Həmin rəvayətlərə Təbəri öz "Tarix"ində yer verib. Sənədində Şüeyb və Seyfin varlığı səbəbilə onlar zəifdir və əvvəldə də qeyd etdiyimiz kimi, məzmun cəhətindən dağınıqdır.

Şiə mənbələrində İbn Səbanın vəsiliklə bağlı zəif və ya mürsəl bir rəvayəti belə yoxdur.

Bəli, orada sənədi səhih olan bəzi rəvayətlər mövcuddur. Lakin onlar Abdullah ibn Səbanın yalnız şəxsiyyəti ilə bağlıdır və vəsiliklə yaxından-uzaqdan əlaqəsi yoxdur.

Novbəxti, Qummi və Kəşşinin dəlil kimi təqdim edilən sözləri isə bir dəstə qeyri-şiə elm adamından nəql olunub. Orada da İbn Səbanın ilk dəfə vəsiliklə bağlı fikirləri ortaya atan şəxs olmasına heç bir dəlalət yoxdur. Həmin mətnlərdən anlaşılır ki, İslamı qəbul etdikdən sonra İbn Səba da şiələr kimi İmam Əlinin (ə) imamlığına, Peyğəmbərdən (s) sonra onun vəsi və xəlifə olduğuna iman bəsləmişdir. Eləcə də bu əqidəsini açıq şəkildə elan edən ilk şəxsin o olduğu bildirilir. Bu məqsədi üçün İslam

cəmiyyətinin ötən iyirmi beş illik təqiyyə və qorxu dövründə adət etmədiyi üslubdan istifadə etmişdir.

Bütün bunlar məsələ ilə bağlı şiənin nəzərlərinə və alimlərinin icmasına zidd olan bir dəstə elm adamından nəql edilir. Məgər məchul şəxslərdən istinadsız nəql edilən belə sözlər şiə alimlərinin icma və nəzərləri ilə müqayisə oluna bilərmi?!

Həmçinin təqdim edilənlərdən aydın olur ki, Abdullah ibn Səbanın mövcudluğu və şəxsiyyəti, eləcə də İslam tarixindəki hadisələrin cərəyanında oynadığı rol barədə ixtilaf və ziddiyyətlər onların bir çoxunun yalan, uydurma və saxta olduğunu göstərir.

Dördüncü fəsil: Qəti dini dəlillərin məzhəblərin yaranması ilə əlaqəsi və şiəliyin meydana çıxma tarixi

Giriş

Qeyd edildi ki, şiəliyin meydana gəlməsi birbaşa qəti dini dəlillərlə bağlıdır. Şiəliyin həqiqətini və ortaya çıxma tarixini bilmək istəyən şəxs dəlillərə əsaslanaraq onun əqidəsini və yaranma tarixini təhqiq etməlidir. Ötən bəhslərdə istər "vəsilik" kəlməsi ilə və istər də bu kəlmə istifadə edilmədən Əhli-Beytin (ə) imaməti barədə qeyd edilmiş hədislərin kiçik bir hissəsini qeyd etdik. Həmin rəvayətlərin sənədində və ya mətnində Abdullah ibn Səbaya heç bir işarə yox idi. Bu rəvayətləri nəql edən şiə və Əhli-Sünnə alimlərinin qeyd və şərhlərində belə onun adı hallanmamışdı.

Həmin rəvayət və hədislərə diqqət yetirən, üzərində düşünən hər bir insaflı şəxs Əhli-Beyt (ə) şiəliyinin ortaya çıxmasının həqiqətdə İslamın var olması ilə bərabər təşəkkül tapdığını, onun təməlinin isə Qurani-Kərim və Peyğəmbər (s) sünnəsi olduğunu görəcək.

İslam məzhəblərinin ortaya çıxması

Aydındır ki, Peyğəmbərin (s) dövründə müsəlmanlar vahid bir ümmət idilər və heç bir məzhəb anlayışı yox idi. Məzhəblər Peyğəmbərin (s) vəfatından sonra xilafət barədəki ziddiyyətlərin yaranması ilə ortaya çıxmış və müsəlmanların arasında parçalanma yaşanmışdı. Bütün bunlar isə Allah elçisinin (s) pak cəsədinin yuyulub kəfənlənməsi və dəfni hələ başa çatmamış baş vermişdi. Səqifədə toplananlar bu parçalanmanın əməli təməlini formalaşdırdı. Həmçinin iki hissəyə ayrılmış cəmiyyət bir-birinə qarşı fərqli üslublardan istifadə etdi.

İki hissəyə ayrılmış cəmiyyətin bir tərəfi Peyğəmbərin (s) xilafəti məsələsində qəti dini dəlillərə əsasən, Möminlərin əmiri Əlinin (ə) xəlifə olduğuna etiqad etmişlər. Buna Haşim oğulları, Miqdad, Salman, Əbuzər Ğəffari və bir dəstə digər böyük səhabələr iman bəsləmişlər.

Digərləri isə onun (İmam Əlinin) xəlifəliyinə dair heç bir dəlilin olmadığına, xilafət məsələsinin müsəlmanların özlərinə həvalə edildiyinə və öz aralarından xəlifə seçib beyət etməli olduqlarını düşünmüşlər. Buna Əbu Bəkr, Ömər, Osman, Əbu Übeydə Cərrah, Əbdürrəhman ibn Ovf və digər səhabələr etiqad bəsləmişlər.

Bu məsələni Səqifə hadisəsini qeyd edən böyük Əhli-Sünnə hədisşünas və hafizlərinin nəql etdikləri rəvayətlər də təsdiqləyir. Buxari "Səhih"ində Ömər ibn Xəttaba istinad edilən rəvayətdə yazır: *"Sizlərdən bəzilərinin belə dediyi xəbəri mənə çatıb: "Allaha and olsun, əgər Ömər ölsə filankəsə beyət edəcəyik". Heç kəs belə qürrələnməsin və deməsin ki, Əbu Bəkrə də beyət qəfildən, məşvərətsiz oldu və baş tutdu. Bəli, Əbu Bəkrə beyət, həqiqətən də, o cür olub. Amma, Allah onun şərindən qorudu. Sizlərdən heç kimin boynu Əbu Bəkrə əyildiyi kimi başqasına əyilmədi. Kim müsəlmanlarla məşvərət etmədən bir kəsə beyət etsə o da, beyət edilən də aldadılmışdır. Kim birinə məşvərətsiz beyət etsə, beyət edənin də, beyət olunanın da beyəti düzgün deyil. Onlar öldürüləcəklər.*

Peyğəmbər (s) vəfat etdikdə Ənsarın bizə müxalif olduğundan xəbər tutduq. Onlar öz başçıları ilə Bəni-Saidənin Səqifəsində toplanmışdılar. Əli ibn Əbu Talib, Zübeyr ibn Əvvam və onlarla birlikdə olanlar da bizə qarşı çıxdılar. Mühacirlər isə Əbu Bəkrin yanında toplaşdılar.

Əbu Bəkrə dedim: "Ey Əbu Bəkr, gəl ənsardan olan qardaşlarımızın yanına gedək". Biz onların yanına yollandıq. Oraya yaxınlaşdıqda aralarından iki saleh şəxsə rastladıq. Onlar camaatın məsələni gizli müzakirə etdiklərini bildirdilər.

Dedilər: "Ey mühacirlər, hara gedirsiniz?" Dedik: "Ənsardan olan qardaşlarımızın yanına".

Dedilər: "Onların yanına getmək borcunuz deyil. Öz işinizlə məşğul olun".

Dedim: "Allaha and olsun ki, onların yanına gedəcəyik".

Yola davam edib Bəni-Saidə Səqifəsinə çatdıq. Onların qarşısında əbasına bürünmüş bir kişi var idi. Bu kişinin kim olduğunu soruşdum. Onun Səd ibn Übadə olduğunu söylədilər. Ona nə olduğunu, nə üçün əbasına büründüyünü xəbər aldıqda azca soyuqladığını bildirdilər. Biz onlarla əyləşdik. Bir nəfər qalxıb kəlimeyi-şəhadət söylədi, Allaha layiqli şəkildə həmd-səna dedi və buyurdu: "Biz Allahın yardımçıları (ənsarı), İslam ordusuyuq, siz mühacirlər isə kiçik bir dəstəsiniz. Sizdən bəzi adamlar bizi olduğumuz məqamdan düşürmək və xilafəti əlimizdən almaq istəyir".

Onlar öz üstünlüklərini qeyd edib sözlərini bitirdikdə mən danışmaq istədim. Allaha and olsun ki, o zaman çox xoşuma gələn gözəl sözlər fikirləşmişdim və Əbu Bəkrdən öncə özüm danışmaq istəyirdim. Mən danışmaq istəyəndə Əbu Bəkr tələsməməyimi dedi. Onu qəzəbləndirmək istəmədim. O məndən daha həlim və daha səlis nitqli idi. Allaha and olsun, mənim fikirləşdiyim sözlərin hamısını və ondan da gözəlini söylədi. Belə olan təqdirdə mən artıq susdum. Sonra Əbu Bəkr sözünə davam edərək dedi: "Siz dediyiniz xeyirli işlərə layiqlisiniz. Lakin bu iş (xəlifəlik) Qüreyşlilərə məxsus olaraq qalacaq. Onlar ərəblərin arasında ən gözəl nəsəbə və məkana (Kəbəyə) sahibdirlər. Mən sizin üçün bu iki nəfərdən birini (yəni, Əbu Übeydəni və Öməri) təklif edirəm. Siz hansını istəyirsiniz ona da beyət edin. O, bizim ikimizin arasında oturmuşdu, birdən mənim və Əbu Übeydənin əlindən tutdu. Onun dediklərinin içərisində yalnız bu sözlər mənə ağır gəldi. Allaha and olsun, aralarında Əbu Bəkr olan bir camaata başçılıq edib günaha batmaqdansa, öz istəyimlə başımın vurulması mənə daha xoşdur".

Ənsardan biri dedi: "Biz İslamın yardımçıları (ənsarı) və böyük bir hissəsiyik. Ey qüreyşlilər, bizdən bir rəhbər, sizdən də bir rəhbər olsun".

Səslər yüksəldi, ortalıq bir-birinə qarışdı. İxtilaf düşəcəyindən qorxdum və dedim: "Ey Əbu Bəkr, əlini uzat". Əbu Bəkr əlini uzatdıqda mən və mühacirlər ona beyət etdik. Sonra ənsar da ona beyət etdi. Səd ibn Übadə izdihamdan ayaqlar altında qaldı.

Onlardan bir nəfər dedi: "Səd ibn Übadəni öldürdünüz".

Mən: "Allah Səd ibn Übadəni öldürsün!" dedim.

Sonra Ömər deyir: "Allaha and olsun, orada Əbu Bəkrə beyət etməkdən daha üstün bir nəticəyə gələ bilmədik. Öz aramızdan bir nəfərə beyət etməmiş oradan ayrılmağa qorxduq. Qorxduq ki, insanlar kiməsə beyət olunmadığını görüb bizdən sonra öz aralarından birinə beyət edərlər. Belə olan təqdirdə biz ya onlarla bərabər istəmədiyimiz adama beyət etməli, yaxud onlara müxalif olub fitnə-fəsada qapı açmalıydıq. Kim, müsəlmanlarla məsləhətləşmədən bir insana beyət edərsə, onları döyüşə cürətləndirməmək üçün o və ona beyət edənlər qətlə yetirilər".[755]

Bu dəlil Peyğəmbər (s) xilafəti barədə müsəlmanların arasında ixtilafın yaşandığını, Zübeyr və bir dəstə mühacirin Səqifə xəlifəsini inkar etdiyini, Əhli-Beytin (ə) ətrafına cəmləşdiklərini və Möminlərin əmiri Əlinin (ə) bayrağı altında toplandıqlarını aydın göstərir: *"Əli ibn Əbu Talib, Zübeyr ibn Əvvam və onlarla birlikdə olanlar da bizə qarşı çıxdılar. Mühacirlər isə Əbu Bəkrin yanında toplaşdılar".*

Bir dəstə mühacir Səqifə camaatının müqabilində Əhli-Beytin (ə) yolunu tutaraq onların hidayəti istiqamətində hərəkət etməyi, Möminlərin əmiri Əlinin (ə) bayrağı altında durmağı üstün tutdu. Hədis buna açıq şəkildə dəlalət edir. Bunu İbn Əbu Şeybənin "əl-Müsənnəf"də Əsləm Qüreyşiyə istinadən nəql etdiyi rəvayət də təsdiqləyir. Orada Zübeyr və bir dəstə mühacirin Peyğəmbər ailəsinin (ə) evinə toplaşdığı,

[755] Səhih, Buxari, c. 6, s. 2503, hədis 6442, fəsil 16

məsələ ilə bağlı onlara müraciət etdikləri, nəticədə Peyğəmbərin (s) canının bir parçası olan Fatimə (ə) təhdid edilərək: *"Ey Peyğəmbərin qızı,... Əgər bu kəslər yenə də sənin yanına toplaşsalar, evinin onlarla birgə yandırılmasını əmr edəcəyəm"* deyildi.

"Ömər oradan ayrıldıqdan sonra onlar yenə də gəldilər. Fatimə dedi: "Bilirsiniz, Ömər indicə bura gəlmişdi. Allaha and içdi ki, əgər siz bura qayıtsanız sizinlə birgə evi yandıracaq. Allaha and olsun ki, söz verdiyini edəcək. Çıxıb gedin, özünüz məşvərət edin, mənim yanıma qayıtmayın..."[756]

Deməli, Səqifə beyəti yeni bir İslam məzhəbinin yaranmasının rəsmi elanı idi və bir İslam firqəsi kimi ortaya çıxdı. Ona beyət edənlər bu gün Əhli-Sünnə kimi tanınan məzhəbin təməlini təşkil etdilər. Bu beyəti və onun qanuniliyini inkar edənlər, həmin məsələdə Əhli-Beytin (ə) tərəfində duranlar, xilafətin onların haqqı olduğunu, onlardan yalnız zülm yolu ilə qəsb edildiyini düşünənlər isə bu gün şiə kimi tanınan məzhəbin əsasını formalaşdırırlar.

Əbu Bəkrin xəlifəliyində Ömərin rolu

Buxarinin yuxarıdakı hədisinin ehtiva etdiyi mövzudakı əsas nüanslardan biri Əbu Bəkrin xəlifə seçilməsində Ömərin özünün göstərdiyi səyləri aydın bəyan etməsidir. İxtilafın çıxması və ənsarın özlərindən bir şəxsə beyət edəcəkləri qorxusu Öməri Əbu Bəkrə beyət etməyə vadar edən iki əsas amildir. Buna onun özünün sözləri də şahidlik edir: *"İxtilaf düşəcəyindən qorxdum və dedim: "Ey Əbu Bəkr, əlini uzat". Əbu Bəkr əlini uzatdıqda mən və mühacirlər ona beyət etdik... Qorxduq ki, insanlar kimməsə beyət olunmadığını görüb bizdən sonra öz aralarından birinə beyət edərlər".*

---

[756] əl-Müsənnəf, İbn Əbu Şeybə, c. 8, s. 582 (c. 7, s. 432)

Bunu Buxarinin "Səhih"indən Aişə sənədilə nəql etdiyi digər rəvayət də təsdiqləyir: *"Ömər camaata hədə-qorxu gəlirdi. Belə ki, onların arasında nifaq var idi".*[757]

Bunlar Əbu Bəkrin xəlifə seçilməsi məsələsində Ömərin cürbəcür təhdid və zorakılıq yollarından istifadə etməkdən çəkinmədiyini göstərir. Aişə həmin sözlərində iki əsas məsələyə toxunur:

Birinci: Hədə-qorxu

Aişənin *"Ömər camaata hədə-qorxu gəlirdi..."* sözləri; Ömərin Əbu Bəkri xəlifə təyin etmək üçün qeyri-adi yollara əl atmışdır. Bu, camaatın qəlbinə qorxu salmaq və onlara hədə-qorxu gəlməkdir.

Bunu İbn Əbu Şeybə Kufinin (vəfatı: h.q 235) "əl-Müsənnəf"də Zəbid sənədilə nəql etdiyi rəvayət də təsdiqləyir: *"Əbu Bəkrin vəfatı yaxınlaşdıqda Öməri özündən sonra xəlifə təyin etdi. Deyir: "Camaat dedi: "Üzərimizə kobud və qəddar bir kəsi xəlifə təyin edirsən?! Bizə hakim kəsilsə daha da kobud və qəddar olacaq. Onu xəlifə təyin etdiyinə görə Rəbbinin hüzurunda nə cavab verəcəksən?"*[758]

Həmçinin "Tarixu-Mədinə"də,[759] eləcə də Qazi Əbu Yusuf "əl-Xərrac"da[760] və İbn Əsakir isə "Tarixu mədinəti Diməşq"də[761] bu rəvayəti qeyd ediblər.

Xəlifəliyin Ömərə ötürülməsindən səhabələrin keçirdikləri qorxu xilafəti Əbu Bəkrə təslim etmək üçün onun istifadə etdiyi zorakılıq üslublarından, onda müşahidə etdikləri kobudluq, sərtlik və qəddarlıqdan qaynaqlanırdı. Əbu Cəfər İskafi (vəfatı: h.q 220) yazır: *"Sonra Ömərə beyət olundu. Bunu ona Əbu Bəkr hazırladı. Necə ki, vaxtilə Ömər Əbu Bəkr üçün*

---

[757] Səhih, Buxari, c. 3, s. 1341, hədis 3468, fəsil 5
[758] əl-Müsənnəfu fil-əhadis vəl-asar, İbn Əbu Şeybə Kufi, c. 6, s. 358; c. 7, s. 434
[759] Tarixul-Mədinə, İbn Şəbbə Nəmiri, c. 2, s. 671
[760] əl-Xərrac, Əbu Yusuf, s. 11
[761] Tarixu mədinəti Dəməşq, c. 30, s. 413

xilafət məsələsini hazırlamışdı... Müsəlmanlar isə bu təyinata ikrah duyur və qəzəblərini bildirdilər. Onlar deyirdilər: "Kobud və qəddar bir kəsi bizə rəhbər təyin etdin".[762]

İkinci: Nifaq

Aişənin *"Belə ki, onların arasında nifaq var idi"* sözləri Əbu Bəkrə beyət edilməsi məsələsində camaatın arasında nifaq xüsusiyyətinin olduğuna dəlalət edir.

Burada nifaqdan məqsəd Möminlərin əmirinə (ə) qarşı olan nifrətdir. Buna Müslimin "Səhih"ində İmam Əli (ə) yolu ilə nəql etdiyi hədis də dəlalət edir: *"Toxumu yaran, məxluqları yaradana and olsun ki, Peyğəmbər (s) mömindən başqasının məni sevməyəcəyini və münafiqdən başqasının da nifrət bəsləməyəcəyini mənə söylədi".*[763]

Əhməd ibn Hənbəl "Müsnəd"də Möminlərin əmirindən (ə) nəql edir: *"Peyğəmbər (s) mənə bildirdi: "Səni yalnız mömin sevər və münafiqdən başqası sənə nifrət etməz".*[764]

Tirmizi "Sünən"də bu hədisin ardınca yazır: *"Bu, həsən səhih hədisdir".*[765]

Heysəmi "Məcməuz-zəvaid"də rəvayətin ardınca yazır: *"Bunu Təbərani "əl-Möcəmul-övsat"da rəvayət edib. Raviləri etibarlı (siqə) şəxslərdir".*[766]

İbn Həcər "Fəthul-Bari"də rəvayəti nəql etdikdən sonra yazır: *"Əhməddə Ümmü Sələmədən bu rəvayəti təsdiqləyən dəlil var".*[767]

Camaatın Möminlərin əmiri Əlini (ə) görməzdən gələrək Əbu Bəkrə beyət etmələri Aişənin yuxarıdakı hədisdə işarə etdiyi həmin nifaqdır. Şübhə yoxdur ki, hər bir ağıl sahibi Peyğəmbərin (s) *"Əlini yalnız mömin*

---

[762] əl-Miyaru vəl-muvazinə, s. 47
[763] Səhih, Müslim, c. 1, s. 61
[764] Müsnəd, Əhməd ibn Hənbəl, c. 1, s. 95, s. 128
[765] Sünən, Tirmizi, c. 5, s. 306
[766] Məcməuz-zəvaid, Heysəmi, c. 9, s. 133
[767] Fəthul-Bari, c. 7, s. 58

sevər və yalnız münafiq ona nifrət bəsləyər" sözündən İmamın (ə) əzəmətli fəzilətini anlayır. O, imanı nifaqdan ayıran bir meyardır.

Səqifə beyətindəki vəziyyət

Buxarinin "Səqifə beyəti" hədisinə diqqət yetirən şəxs bunun qısa bir müddətdə, ani bir qərarla, qarışıqlıq salınmış məclisdə baş verdiyinin şahidi olacaq. Necə ki, bu, rəvayətdəki sözlərdən də anlaşılır: *"Səslər yüksəldi, ortalıq bir-birinə qarışdı. İxtilaf düşəcəyindən qorxdum və dedim: "Ey Əbu Bəkr, əlini uzat". Əbu Bəkr əlini uzatdıqda mən və mühacirlər ona beyət etdik... Səd ibn Übadə izdihamdan ayaqlar altında qaldı.*

Onlardan bir nəfər dedi: "Səd ibn Übadəni öldürdünüz".

Mən: "Allah Səd ibn Übadəni öldürsün!" dedim".

Səqifə beyətində baş verən qarışıqlıq həmin vaxt anidən yaranan bir hal deyildi. Onun təməli hələ Peyğəmbər (s) zamanında Səqifə əhlindən olan həmin mühacirlər tərəfindən qoyulmuş və toxumları səpilmişdi.

Bu mühacir dəstəsi Səqifədə ənsarın toplantısına müdaxilə etdi, dəvət olunmadan oraya gəldi və savaşla nəticələnə biləcək ani bir qərar verdi.

Həmin bu mühacir dəstəsi Peyğəmbərin (s) ölümü ilə nəticələnən xəstəliyi vaxtı da ondan icazəsiz məclisə gəlmiş, səs-küy qaldırmışdı. Peyğəmbər (s) isə onları yanından qovmuş, İmam Əlidən (ə) savayı hamısını Üsamənin ordusuna qoşaraq döyüşə göndərmişdi. Həmin dəstə isə Peyğəmbərin (s) ordudan yayınmamaqla bağlı təkidli sözlərinə rəğmən[768] başçıları Üsamə ibn Zeydə etiraz etmiş[769] və geri qayıtmışdı. Halbuki Peyğəmbər (s) Üsamənin ordusundan ayrılanları lənətləmişdi.[770]

---

[768] Zəhəbi "Tarix"ində Hişam ibn Ürvə sənədilə onun atasında rəvayət edir: *"Peyğəmbər (s) xəstəliyi vaxtı buyurdu: "Üsamənin ordusuna qatılın".* (c. 3, s. 19)

[769] Buxari və Müslim "Səhih"lərində Abdullah ibn Ömərdən rəvayət edirlər: *"Bir ordu təşkil edib Üsamə ibn Zeydi ona başçı təyin etdi. Camaat onun rəhbərliyinə etiraz etdi. Peyğəmbər (s) qalxıb camaata buyurdu: "Siz əvvəllər onun atasının da rəhbərliyinə etiraz edirdiniz. Allaha and içirəm, onun atası rəhbərliyə layiq və mənim üçün ən sevimli*

Bu dəstə şəxs Peyğəmbərin (s) əmrindən çıxdı, Mədinəni tərk etməməkdə və hadisələrin mərkəzində qalmaqda israr etdi,[771] inadkarlıqla və həyasızcasına Peyğəmbərin (s) qarşısında etiraz etdi. Bundan əvvəl də ona qarşı çıxaraq ümməti zəlalətdən qorumaq üçün vəsiyyət yazmasına mane olmuş, ona qarşı üsyan qaldırmışdılar. Onlardan biri Peyğəmbərin (s) artıq ölüm acıları çəkdiyini, kimisə sayıqladığını... iddia etmişdi.

Bununla da Peyğəmbərin (s) məclisinə qarışıqlıq saldılar, səs-küy qaldırdılar və münaqişə yaratdılar, vəsiyyət yazmasına mane oldular, ümməti hidayətdən və düzgün yoldan məhrum etdilər. Nəticədə Peyğəmbər (s) onları məclisdən qovdu. Əshabın yaxşıları ümmətin üzərinə çökən müsibətin həcmini anlayırdı. Qəlblərindəki məyusluğu sakitləşdirməyə göz yaşlarından savayı heç nəyə sahib deyildilər. Amma nə olsun, məhv olan da əleyhindəki dəlillərlə məhv oldu, diri qalan da dəlillərə əsasən nicat tapdı.

Müslim "Səhih"də İbn Abbasa istinad olunan rəvayəti nəql edir: *"Peyğəmbərin (s) yanında aralarında Ömər ibn Xəttabın da olduğu bir dəstə*

şəxslərdən idi. Həqiqətən, bu da atasından sonra mənim üçün ən sevimli şəxslərdəndir". (Səhih, Buxari, c. 5, s. 145; Səhih, Müslim, c. 5, s. 341, "Zeyd ibn Harisənin fəzilətləri")

[770] Şəhristani Peyğəmbərin (s) xəstəliyi vaxtı səhabələr arasında ilk münaqişəni qeyd etdikdən və Buxarinin yuxarıdakı hədisini nəql etdikdən sonra yazır: *"Onun xəstəliyi dövründə baş verən ikinci münaqişə: Üsamənin ordusunu təşkil edərək "Üsamənin ordusundan ayrılanlara Allah lənət eləsin" buyurdu. Bir dəstə şəxs "Peyğəmbərin (s) əmrini yerinə yetirmək bizə vacibdir" dedi. Üsamə Mədinədən hərəkətə başladı. Bir dəstə adam dedi: "Peyğəmbərin (s) xəstəliyi şiddətlənib. Qəlbimiz bu ayrılığa və bu hala tab gətirməyəcək. Səbr edib məsələnin nə ilə bitəcəyini gözləyək".* (əl-Miləlu vən-nihəl, c. 1, s. 23)

[771] Zəhəbi "Tarix"ində yazır: *"Peyğəmbər (s) xəstəlindiyi günlərdə buyurdu: "Hamınız Üsamənin ordusuna qatılın". Üsamə ordu ilə Mədinədən çıxıb Curfa yetişdi. Fatimə bint Qeys onun ardınca adam göndərərək dedi: "Tələsmə, Peyğəmbərin (s) vəziyyəti ağırdır". O, ayrıldıqda Peyğəmbər (s) dünyadan köçdü".* (Tarixul-İslam, c. 3, s. 19)

Bu, olduqca qəribədir! Necə mümkündür ki, Peyğəmbərin (s) əmrinə üsyan edərək bir qadının sözlərinə itaət olunsun?!

adam var idi. Buyurdu: "Yazı yazacaq şey (qələm, kağız) gətirin, sizə elə bir şey yazım ki, ondan sonra heç zəlalətə düşməyəsiniz". Ömər dedi: "Peyğəmbərin xəstəliyi ağırlaşıb. (Ay camaat!) Sizin əlinizdə Allahın Kitabı var! O bizə yetər!"

Evdə toplaşanlar mübahisə etməyə başladılar, sözləri bir-birinə qarışdı. Onlardan bəzisi "Gəlin, Peyğəmbər (s) sizin üçün ondan sonra əsla azmayacağınız bir şey yazsın" deyir, bəzisi isə Ömərin dediyini təkrarlayırdı. Peyğəmbərin (s) hüzurunda səs-küy qalxıb ara qarışdıqda buyurdu: "Qalxın (gedin)!"

Übeydullah İbn Abbasın belə dediyini söyləyir: "Peyğəmbərin (s) yazmağına mane olmaq, mübahisə edib səs-küy salmaq nə böyük bədbəxtlikdir".[772]

Həmçinin Buxari "Səhih"də İbn Abbas sənədilə rəvayət edir: *"Peyğəmbərin (son xəstəliyində) ağrısı şiddətlənincə: "Yazı yazacaq şey gətirin, sizə elə bir şey yazım ki, ondan sonra heç zəlalətə düşməyəsiniz" buyurdu. Ömər dedi: "Peyğəmbərin xəstəliyi ağırlaşıb. Bizim əlimizdə Allahın Kitabı var! O bizə yetər!"*

Bunun üzərinə oradakı səhabələr ixtilafa düşdülər, sözləri bir-birinə qarışdı. Peyğəmbər (s) buyurdu: "Yanımdan çıxın, mənim yanımda mübahisə etmək olmaz".

İbn Abbas otaqdan çıxıb dedi: "Peyğəmbərin (s) yazmasına mane olmaq nə böyük bədbəxtlikdir".[773]

Həmçinin "Səhih"ində yenə də İbn Abbasdan nəql olunur: *"Cümə axşamı günü... o necə gün idi?!" O, göz yaşları daşları boyayacaq qədər ağladı. Dedi: "Cümə axşamı günü Peyğəmbərin (s) vəziyyəti ağırlaşdı. Buyurdu: "Bir kağız gətirin, sizin üçün məndən sonra əsla azmayacağınız bir yazı yazım". Mübahisə etdilər. Hərçənd Peyğəmbərin (s) hüzurunda*

---

[772] Səhih, Müslim, c. 5, s. 76; Səhih, Buxari, c. 7, s. 9, Kitabul-mərza, "Xəstənin "Çıxın yanımdan" sözü" babı, c. 8, s. 161; Müsnəd, Əhməd ibn Hənbəl, c. 1, s. 336

[773] Səhih, Buxari, c. 1, s. 37; c. 8, s. 161

mübahisə etmək olmazdı. Dedilər: "Peyğəmbər (s) sayıqlayır". Peyğəmbər (s) də buyurdu: "Mənim yanımdan çıxın..."[774]

Özünün müxtəlif kəlmələri ilə *"Bir kağız gətirin sizin üçün məndən sonra əsla azmayacağınız bir yazı yazım"* hədisi Peyğəmbərdən (s) sonra ümmətin üz-üzə qalacağı bir zəlalət qorxusunun varlığından xəbər verir. Həmin zəlalət isə Peyğəmbərin (s) ümmətini qorumaq üçün yazmaq istədiyi vəsiyyətin məzmunu ilə birbaşa bağlıdır. Şübhə yoxdur ki, həmin yazının məzmununda hidayət üçün böyük təsirə malik mövzu var idi.

Əhli-Sünnə alimləri Peyğəmbərin (s) yazmaq istədiyi sözlər barədə iki yöndən nəzər irəli sürüblər:

Birinci: Peyğəmbər (s) özündən sonrakı xəlifələrin adlarını yazmaq istəyirdi.

İkinci: Peyğəmbər (s) mühüm hökmləri bəyan edəcək sözlər yazmaq istəyirdi.

Nəvəvi yazır: *"Alimlər Peyğəmbərin (s) yazmaq istəyi sözlər barədə müxtəlif fikirlər irəli sürüblər. Deyilir: Müəyyən bir şəxsin xəlifəliyi ilə bağlı yazmaq istəyib ki, arada mübahisə və fitnə yaranmasın. Həmçinin deyilib: Mühüm ehkamları xülasə şəkildə yazmaq istəyib ki, onlar barəsində mübahisə yaşanmasın, qətiliyi üzərində yekdillik hasil olsun".*[775]

Eyni deyir: *"Alimlər Peyğəmbərin (s) yazmaq istədikləri barədə fərqli fikirlər söyləyiblər. Xəttabi deyir: İki ehtimal var. Bunlardan biri özündən sonrakı rəhbəri qeyd etmək istəməsidir ki, Cəməl və Siffin kimi böyük fitnələri aradan qaldırsın. Həmçinin deyilib: Mühüm hökmləri bəyan etmək istəyib ki, onların qətiliyi barədə yekdillik hasil olsun".*[776]

Bu iki cəhətin arasında ziddiyyət yoxdur. Onları bir sözlə də cəmləmək mümkündür: Peyğəmbər (s) həmin yazıda hər iki məsələni qeyd etmək

---

[774] Səhih, Buxari, c. 4, s. 31; c. 4, s. 65, ("Yəhudilərin Ərəb yarımadasından çıxarılması" babı); c. 5, s. 137, "Peyğəmbərin (s) xəstəliyi və vəfatı" babı

[775] Şərhu Müslim, Nənəvi, c. 11, s. 90

[776] Umdətul-qari, c. 2, s. 171

istəyib, həm özündən sonrakı xəlifəni və həm də bəyan etmək istədiyi mühüm hökmləri yazmağa çalışıb.

Birinci – Peyğəmbərin (s) müəyyən bir şəxsi özündən sonra xəlifə təyin etməsi – variantını Əhli-Sünnənin böyük hədisşünas və hafizlərinin fərqli kəlmə və çoxsaylı yollarla rəvayət etdikləri "Səqaleyn" hədisi də təsdiqləyir. Bunu Müslim "Səhih"ində,[777] Əhməd ibn Hənbəl "Müsnəd"ində,[778] Tirmizi "Sünən"də, Nəsai "əs-Sünənul-kubra",[779] "Fəzailus-səhabə"[780] və "Xəsaisu Əmiril-muminin (ə)"də[781] Zeyd ibn Ərqəmdən nəql ediblər. Biz Tirmizinin kitabından rəvayət edirik: *"Peyğəmbər (s) buyurdu: "Mən sizin aranızda əmanət qoyuram ki, ondan möhkəm yapışdığınız müddətdə məndən sonra əsla azmayacaqsınız. Biri digərindən böyükdür. Allahın kitabı – göydən yerə uzadılmış bir ipdir. Və itrətim olan Əhli-Beytim. Onlar Hovuz başında yanıma varid olanadək əsla bir-birindən ayrılmazlar. Məndən sonra onlarla necə rəftar edəcəyinə diqqət yetirin".*[782]

Bunu Əhməd ibn Hənbəl "Müsnəd"də, İbn Əbu Şeybə "əl-Müsnnəf"də[783] və digərləri də Zeyd ibn Sabitdən rəvayət ediblər. (Rəvayət Əhmədin kitabındandır:) *"Peyğəmbər (s) buyurdu: "Mən sizin aranızda iki xəlifə qoyuram: Allahın kitabı və Əhli-Beytim". Onlar Hovuz başında yanıma varid olanadək əsla bir-birindən ayrılmazlar".*[784]

Əbu Səid Xudriyə istinadən isə yenə də Əhməd ibn Hənbəl "Müsnəd"də, İbn Əbu Şeybə "əl-Müsənnəf"də,[785] Əbu Yəla Mosuli öz

---

[777] Səhih, Müslim, c. 7, s. 122-123; c. 7, s. 123
[778] Müsnəd, Əhməd ibn Hənbəl, c. 4, s. 366-367; c. 4, s. 371
[779] əs-Sünənul-kubra, Nəsai, c. 5, s. 51
[780] Fəzailus-səhabə, Nəsai, s. 22
[781] Xəsaisu Əmiril-muminin (ə), Nəsai, s. 93
[782] Sünən, Tirmizi, c. 5, s. 329
[783] əl-Müsənnəf, İbn Əbu Şeybə, c. 7, s. 418
[784] Müsnəd, Əhməd ibn Hənbəl, c. 5, s. 189-190
[785] əl-Müsənnəf, İbn Əbu Şeybə, c. 7, s. 176

“Müsnəd”ində[786] nəql ediblər. (Rəvayət Əhmədindir:) *“Peyğəmbər (s) buyurdu: “Mən sizin aranızda iki ağır əmanət buraxıram. Biri digərindən daha böyükdür. Allahın kitabı səmadan yerə uzanmış bir ipdir. Və itrətim olan Əhli-Beytim. Onlar Hovuz başında yanıma varid olanadək əsla bir-birindən ayrılmazlar”.*[787]

Bu hədisdən Quran və Əhli-Beytə (ə) möhkəm sarılmağın insanı zəlalətdən qoruyacağı anlaşılır. Təqdim edilən “Cümə axşamı bədbəxtçiliyi” hədisində Peyğəmbərin (s) ümmətini zəlalətdən qorumaq üçün bir şey yazmaq istədiyi, lakin bəzi səhabələrin ümməti bundan məhrum etdiyi qeyd olunur. Bununla da “Cümə axşamı bədbəxtliyi” hədisindəki zəlalətdən qorunmanın “Səqaleyn” hədisindəki zəlalətə düşməmək üçün əmanət buraxılan Quran və Əhli-Beytə (ə) sarılmaq olduğunu düşünmək mümkündür.

Başqa sözlə: Peyğəmbər (s) “Səqaleyn” hədisində ümmət üçün zəlalətdən qorunmağın yollarını açıqladı. Bu, Qurani-Kərim və pak Əhli-Beytə sarılmaqdır. Həmçinin “Cümə axşamı bədbəxtliyi” hədisində bir daha ümmət üçün onları zəlalətdən qoruyacaq şeyləri bəyan etmək istədi. Lakin buna maneə yaradıldı. Bu zaman bir neçə ehtimal ortaya çıxır:

Birinci: Peyğəmbər (s) “Səqaleyn” hədisini bir daha yazılı şəkildə təsdiqləmək istədi;

İkinci: Peyğəmbər “Səqaleyn” hədisinin məzmununu nəsx və ləğv etmək istədi;

Üçüncü: Peyğəmbər (s) “Səqaleyn” hədisindəki Quran və Əhli-Beytdən (ə) başqa bir zəlalətdən qoruyucunu bəyan etmək istədi;

Dördüncü: Peyğəmbər (s) “Səqaleyn” hədisindəki Quran və Əhli-Beyti (ə) bir-birindən ayırmaq istədi.

Birincidən savayı bütün ehtimallar puçdur.

---

[786] Müsnəd, Əbu Yəla Mosuli, c. 2, s. 297-298; c. 2, s. 303

[787] Müsnəd, Əhməd ibn Hənbəl, c. 3, s. 14

İkinci ehtimalın batilliyinə gəldikdə, bu aydındır. “Səqaleyn” Quran və pak Əhli-Beytdən (ə) ibarətdir. Heç kəs Peyğəmbərin (s) Quranı nəsx və ləğv etdiyini iddia edə bilməz. Çünki bu, sonuncu elçinin peyğəmbərliyinin ləğvi demək olar.

Üçüncü ehtimal, bu da aydındır. Peyğəmbərin (s) elçiliyi Qurani-Kərimin ətrafından dövr edir. Peyğəmbər (s) özünün mübarək təbliği müddətində Quranın ümmətin könlündə yer tutması üçün səy göstərmişdir. Ömrünün son vaxtlarında bundan imtina etməsi ağlasığmazdır.

Dördüncü ehtimal, xüsusilə də rəvayətlərin hamısında Peyğəmbərin (s) *“Onlar Hovuz başında yanıma varid olanadək əsla bir-birindən ayrılmazlar”* sözləri göz önünə alındıqda, açıq şəkildə səhih “Səqaleyn” hədisinin dəlalətinə ziddir.

Həmçinin “Cümə axşamı bədbəxtliyi” hədisinin dəlalətinə də müxalifdir. “Səqaleyn”i (iki ağır əmanəti) bir-birindən ayırmaq elə Ömərin sözlərinin məqsədidir: *“Allahın kitabı bizə yetər”.* Halbuki mübahisə və səs-küyün səbəbi də məhz bu söz olmuşdu. Peyğəmbərin (s) *“Yanımdan çıxın!”* deyə sərt reaksiya göstərməsi, həmçinin İbn Abbasın *“Peyğəmbərin (s) yazmağına mane olmaq nə böyük bədbəxtlikdir”* sözləri də bu iddianın inkar edildiyini bildirir.

Bu ehtimallar puç olduqda yalnız birinci ehtimal öz qüvvəsini saxlayır. Bu isə Peyğəmbərin (s) həmin kağıza “Səqaleyn” hədisinin məzmununu təsdiqləyəcək sözlər yazmaq istəməsidir. Lakin onlar yazının məzmunun nədən ibarət olacağını yəqinlə bildikləri üçün Peyğəmbərin (s) yazmasına imkan vermədilər, ona etiraz etdilər, qadağan olmasına baxmayaraq, hüzurunda səs-küy qaldırıb mübahisə yaratdılar.

Bəzi suallar

Əgər Peyğəmbər (s) həyatda ikən İmamət barədə ixtilaf var idisə, Peyğəmbərin (s) bundan əl çəkdiyini bir müsəlman necə təsəvvür edə bilər? Halbuki məsələ ümmətin arasında ixtilafa zəmin yaradırdı, hər bir kəsin özünəməxsus fikri və tutduğu yolu var idi. Lakin Peyğəmbər (s) bu fitnənin kökünü kəsmədi?!

Xüsusilə də, Peyğəmbər (s) səhabələrini görürdü, özündən sonra onların hər bir şeyi, hətta zövcələrini ələ keçirmək niyyətlərindən xəbərdar idi. Sizcə, zövcələrini ələ keçirmək haqqında düşünənlər xilafətə yiyələnməyi düşünməzlər?!

Hədisşünas və hafizlər Uca Allahın ***"Sizə Allahın Peyğəmbərini incitmək, özündən sonra onun zövcələri ilə evlənmək əsla yaraşmaz"***[788] ayəsinin Peyğəmbər (s) səhabələrindən biri haqqında nazil olduğunu qeyd etmişlər. O deyirdi: *"Əgər Peyğəmbər (s) dünyadan köçsə mən Aişə ilə evlənəcəyəm".*[789]

Bəğəvi yazır: *"Müqatil ibn Süleyman deyir: "Həmin şəxs Təlhə ibn Übeydullah idi".*[790]

Əgər Uca Allah Peyğəmbərini (s) səhabələrinin arasında baş verən belə ixtilaflardan xəbərdar edirsə, bundan daha əhəmiyyətli məsələ barədə – özündən sonra ümmətinin xilafət üstündə ixtilafından xəbərdar etməzmi?!

Fəxr Razi Uca Allahın ***"Əgər bir şeyi açıq bildirsəniz, yaxud onu (qəlbinizdə) gizli saxlasanız, (fərqi yoxdur) Allah hər şeyi biləndir!"***[791]ayəsi barədə deyir: *"Yəni əgər hal-hazırda onu incitməsəniz,*

---

[788] Əhzab, 53

[789] Bax: Təfsir, Sələbi, c. 8, s. 60; əl-Vəciz fi təfsiril-kitabil-əziz, Əbülhəsən Əli ibn Əhməd Vahidi, s. 872

[790] Təfsir, Bəğəvi, c. 3, s. 541, həmçinin bax: ət-Təfsirul-kəbir (Məfatihul-ğeyb), c. 25, s. 225

[791] Əhzab, 54

ancaq özündən sonra onu incitməyə, zövcələri ilə evlənməyə qərar versəniz, bilin ki, Allah qəlblərinizdə olanları da bilir".[792]

Uca Allah Peyğəmbərini (s) bundan xəbərdar edərək onu incitməyi haram buyurdu, lakin özündən sonra ümmətin parçalanmasına səbəb olacaq xilafət məsələsi barədə məlumat vermədi?! Əlbəttə, xəbərdar edilmək üçün bu, daha layiqli səbəbdir.

Xilafətlə bağlı çəkilmiş planları

Buxarinin Səqifə hadisəsi ilə bağlı qeyd etdiyi hədis xilafətlə bağlı müəyyən planların hazırlandığını göstərir. Bir dəstə mühacir bu məsələ üçün əvvəldən hazırlıq görmüşdü. Səqifədə toplanan ənsar üzvləri isə həmin planın ifşasına səy göstərirdilər. Bunu rəvayətdəki ənsarın sözlərindən də anlamaq olur: *"Biz Allahın yardımçıları (ənsarı), İslam ordusuyuq, siz mühacirlər isə kiçik bir dəstəsiniz. Sizdən bəzi adamlar bizi olduğumuz məqamdan düşürmək və xilafəti əlimizdən almaq istəyir".*

Ənsar adından çıxış edən bu şəxs bir dəstə mühacirlərin məclisə gəlişindən sonra Səqifə toplantısını bu sözlərlə açır. Halbuki bundan öncə kimsə bir şey söyləməmişdi. Bu isə ənsarın Səqifədə toplanmasının səbəbinin bir dəstə mühacirin xilafətlə bağlı planlarından xəbərdar olmasını göstərir. Planın bəndlərindən biri ənsarın bütünlüklə hakimiyyətdən kənarda tutulması idi. Ömər deyir: *"Biz onlarla əyləşdik. Bir nəfər qalxıb kəlimeyi-şəhadət söylədi, Allaha layiqli şəkildə həmd-səna dedi və buyurdu: "Biz Allahın yardımçıları (ənsarı), İslam ordusuyuq, siz mühacirlər isə kiçik bir dəstəsiniz. Sizdən bəzi adamlar bizi olduğumuz məqamdan düşürmək və xilafəti əlimizdən almaq istəyir".*

Əvvəlcədən hazırlanmış planın olmasına dəlalət edən rəvayətdəki digər şahid isə Ömərlə Əbu Bəkrin arasında tam həmfikirliyin olmasıdır.

---

[792] ət-Təfsirul-kəbir (Məfatihul-ğeyb), c. 25, s. 225

Ömər deyir: *"Allaha and olsun ki, o zaman çox xoşuma gələn gözəl sözlər fikirləşmişdim və Əbu Bəkrdən öncə özüm danışmaq istəyirdim. Mən danışmaq istəyəndə Əbu Bəkr tələsməməyimi dedi. Onu qəzəbləndirmək istəmədim. O məndən daha həlim və daha səlis nitqli idi. Allaha and olsun, mənim fikirləşdiyim sözlərin hamısını və ondan da gözəlini söylədi. Belə olan təqdirdə mən artıq susdum".*

Bu tam uyğunluq iki şəxsin arasında əvvəlcədən müəyyən razılaşdırmaların olduğundan xəbər verir. Belə ki, onlar öz aralarında məsələni müzakirə etmiş və müəyyən sözlər deyəcəkləri barədə razılığa gəlmişdilər. Lakin Əbu Bəkr Ömərə danışmağa imkan vermir. Belə ki, onun kobudluğundan və sərtliyindən xəbərdar idi. Onu susdurub özü danışır.

Bunu Bəlazurinin "Ənsabul-əşraf"da İbn Abbas sənədilə nəql etdiyi rəvayəti də təsdiqləyir: *"Əli ibn Əbu Talib (r) beyət etməkdən çəkindikdə Əbu Bəkr Öməri onun yanına göndərib dedi: "Onu ən sərt tərzdə yanıma gətir". Ömər onun yanına getdikdə aralarında mübahisə oldu. Əli dedi: "Ey Ömər, (xilafət dəvəsini) yaxşı sağ, çünki yarısı sənə qalacaq. Allaha and olsun ki, sənin bu gün onun rəhbərliyi üçün dəridən-qabıqdan çıxmağın, sabah onu sənə verəcəyinə görədir".*[793]

Bu sözlər İmam Əlinin (ə) həmin iki nəfəri əvvəlcədən əlbir olmaqda və Ömərin Əbu Bəkr üçün canfəşanlığının sonradan xilafətə yiyələnmək məqsədi daşımasında açıq ittiham etdiyini göstərir.

Xilafət planının sübutları

Peyğəmbərin (s) ömrünün son illərində baş vermiş tarixi hadisələrə diqqət yetirən şəxs tam əminliklə xilafətlə bağlı gizlində qurulan planlardan Peyğəmbərin (s) xəbərdar olduğu, xilafəti İslam ruhundan

[793] Ənsabul-əşraf, Bəlazuri, c. 1, s. 269

kənar vasitələrlə ələ keçirmək barədə hazırlıqların aparıldığı qənaətinə gələcək. Buna dəlalət edəcək ən əhəmiyyətli nüanslar aşağıdakılardır:

1. Mədinənin boşaldılması

Peyğəmbərin (s) xəstə olduğu və vəfatından az müddət öncə təkidlə Mədinəni səhabələrdən boşaltması və yanında yalnız başda Möminlərin əmiri Əli (ə) olmaqla bir neçə səhabəni saxlaması onun vəfatından sonra bəzi qara düşüncəli səhabələrin qurduqları məkrli planlardan xəbərdar olduğunu göstərir. O, cürbəcür yol və üslublarla onları Mədinədən uzaqlaşdırmağa və şəhəri boşaltmağa çalışırdı. Bunun üçün gördüyü ən əhəmiyyətli tədbir Üsamənin ordusunun formalaşdırılması və özünün tezliklə dünyadan köçəcəyini bildiyi halda, hamının qoşuna qatılmasını əmr etməsidir. Həmçinin ordudan ayrılmamağı təkidlə tapşırması, hətta ayrılan şəxsləri lənətləməsi də buna dəlalət edir. Lakin bu israrına baxmayaraq, bəziləri getməməyə inad etmiş, Mədinədən çıxmamağa çalışmış, ordudan yayınaraq hadisələrin mərkəzinə yaxın olmağa səy göstərmişlər.

Buxari və Müslim "Səhih"lərində və Əhməd ibn Hənbəl "Müsnəd"də Abdullah ibn Ömər sənədilə Üsamənin ordusundan yayınanlarla bağlı belə rəvayət edirlər (Rəvayət Buxarinindir): *"Bir ordu təşkil edib Üsamə ibn Zeydi ona başçı qoydu. Camaat onun rəhbərliyinə etiraz etdi. Peyğəmbər (s) qalxıb camaata buyurdu: "Siz əvvəllər onun atasının da rəhbərliyinə etiraz edirdiniz. Allaha and içirəm, onun atası rəhbərliyə layiq və mənim üçün ən sevimli şəxslərdən idi. Həqiqətən, bu da atasından sonra mənim üçün ən sevimli şəxslərdəndir".*[794]

Zəhəbi "Tarixul-İslam"da Hişam ibn Ürvə yolu ilə onun atasından rəvayət edir: *"Hamınız Üsamənin ordusuna qatılın". Üsamə ordu ilə*

[794] Səhih, Buxari, c. 5, s. 145; c. 4, s. 213, "Zeydin fəzilətləri" babı; c. 5, s. 84, "Zeydin döyüşü" babı; c. 8, s. 117; Səhih, Müslim, c. 7, s. 131; Müsnəd, Əhməd ibn Hənbəl, c. 2, s. 20

Mədinədən çıxıb Curfa yetişdi. Fatimə bint Qeys onun ardınca adam göndərərək dedi: "Tələsmə, Peyğəmbərin (s) vəziyyəti ağırdır". O, ayrıldıqda Peyğəmbər (s) dünyadan köçdü".[795]

Həqiqətən də, bu, olduqca qəribədir. Ordudakılar Peyğəmbərin (s) əmrinə qarşı çıxaraq Fatimə bint Qeysin sözlərinə necə itaət edə bilərlər?!

Şəhristani Peyğəmbərin (s) xəstəliyi vaxtı səhabələrin arasında ilk münaqişəni ("Cümə axşamı bədbəxtliyi") qeyd etdikdən sonra yazır: *"Onun xəstəliyi dövründə baş verən ikinci münaqişə: Üsamənin ordusunu təşkil edərək "Üsamənin ordusundan ayrılanlara Allah lənət etsin!" deyə buyurdu. Bir dəstə şəxs "Peyğəmbərin (s) əmrini yerinə yetirmək bizə vacibdir" dedi. Üsamə Mədinədən hərəkətə başladı. Bəziləri dedi: "Peyğəmbərin (s) xəstəliyi şiddətlənib. Qəlbimiz bu ayrılığa və bu hala tab gətirməyəcək. Səbr edib məsələnin nə ilə bitəcəyini gözləyək"*.[796]

Qəribədir ki, onlar qəlblərinin Peyğəmbərin (s) ayrılığına dözməyəcəyini iddia etdikləri halda xəstəliyinin ağırlığına baxmayaraq, ona etiraz etmiş və qarşı çıxmışdılar. Lakin onların qəlbləri Peyğəmbərin (s) pak cəsədini bir tərəfdə tərk edərək Bəni-Saidə Səqifəsinə gedib xilafət üstə mübahisə etməyi rəva bildi!

2. Peyğəmbərin (s) qadağası

Bəzi səhabələr Peyğəmbərin (s) xilafətlə bağlı qəti qərarı bəyan etməsinə hər bir vasitə ilə mane olmağa çalışırdılar. O, hər dəfə qarşıdakı mübahisələrin şərindən, hakimiyyət üstündə bir-birinin qanını axıtmaqdan çəkindirmək üçün məsələni ümmətə ərz etmək istədikdə onların arasına həyəcan, ixtilaf və təfriqə düşürdü. Bu yaradılan maneələrə aşağıdakılar dəlalət edir:

---

[795] Tarixul-İslam, Zəhəbi, c. 3, s. 19; ət-Təbəqatul-kubra, İbn Səd, c. 4, s. 67

[796] əl-Miləlu vən-nihəl, Şəhristani, c. 1, s. 23. Həmçinin bax: Şərhul-Məvaqif, Qazi Cürcani, c. 8, s. 376 və ardı

A. Peyğəmbərin (s) vəsiyyət yazmasına mane olmaları

Peyğəmbər (s) xəstələndiyi zaman ümmətin özündən sonra əsla azğınlığa düşməməsi məqsədilə vəsiyyət yazması üçün ona bir kağız və mürəkkəb gətirmələrini buyurdu. Lakin bəzi səhabələr Peyğəmbərin əmrinin yerinə yetirilməsinə mane oldular və azğınlıqdan, ixtilafdan və təfriqədən qoruyacaq vəsiyyətin yazılmasından ümməti məhrum etdilər.

Müslim "Səhih"də İbn Abbas sənədilə rəvayət edir: *"Cümə axşamı günü... o necə gün idi?! Onun göz yaşlarının yanağında mirvari kimi bir-birinin ardınca düzüldüyünü gördüm. Buyurdu: "Mənə bir kağız və mürəkkəb gətirin ki, sizin üçün ondan sonra əsla azmayacağınız bir yazı yazım". Dedilər: "Həqiqətən də, Peyğəmbər (s) sayıqlayır".*[797]

Müslim və Buxarinin "Səhih"lərində və Əhmədin "Müsnəd"ində həmin mübahisənin Ömər ibn Xəttab tərəfindən Peyğəmbərə (s) edilən etirazdan sonra baş qaldırdığını açıq bəyan edən rəvayətlər var. Ömər Allahın kitabının varlığı səbəbindən Peyğəmbərin (s) ümməti zəlalətdən qoruyacaq yazısına ehtiyac olmadığını iddia etmişdi. Oradakılar isə həmin vaxt iki dəstəyə ayrılaraq bir hissəsi Peyğəmbərin (s), digəri isə Ömər ibn Xəttabın sözlərini dəstəkləmişdi. Necə ki, İbn Abbasın hədisində deyilir (rəvayət Buxarinindir): *"Peyğəmbərin (son xəstəliyində) ağrısı şiddətlənincə: "Yazı yazacaq şey gətirin, sizə elə bir şey yazım ki, ondan sonra heç zəlalətə düşməyəsiniz" buyurdu. Ömər dedi: "Peyğəmbərin xəstəliyi ağırlaşıb. Bizim əlimizdə Allahın Kitabı var! O bizə yetər!"*

Bunun üzərinə oradakı səhabələr ixtilafa düşdülər, sözləri bir-birinə qarışdı. Peyğəmbər (s) buyurdu: "Yanımdan çıxın, mənim yanımda mübahisə etmək olmaz".

---

[797] Səhih, Müslim, c. 5, s. 76; Səhih, Buxari, c. 4, s. 65. Səid ibn Cübeyr həmin cümə axşamı günündəki bədbəxtlikdən sonra İbn Abbasın belə dediyini eşitdiyini söyləyir: *"...Onlar mübahisə etdilər, halbuki Peyğəmbərin (s) yanında mübahisə etmək olmazdı. Dedilər: "Bu nə sayıqlayır?! Siz başa düşürsünüz onu?" Peyğəmbər (s) onlardan oranı tərk etmələrini tələb etdi..."*

İbn Abbas otaqdan çıxıb dedi: "Peyğəmbərin (s) yazmasına mane olmaq nə böyük bədbəxtlikdir!"[798]

Əvvəldə Nəvəvinin və Eyninin Peyğəmbərin (s) yazmaq istədikləri barədə fikirlərini təqdim etdik. Onların fikrinə əsasən, o, müəyyən bir şəxsi xəlifə təyin etmək istəyirdi ki, ixtilaf və fitnə yaranmasın. Peyğəmbərin (s) mühüm hökmləri bəyan edəcək sözlər yazmaq istədiyi ehtimalına gəlincə, bildirdik ki, qəribə də olsa, lakin qeyd edilən məsələlərlə birlikdə olmasında ziddiyyət yoxdur.

B. Səs-küy qaldıraraq Peyğəmbərin (s) sözlərinin eşidilməsinə maneə yaratmaq

Bəzi səhabələr Peyğəmbərin (s) özündən sonrakı xəlifə ilə bağlı çıxışları zamanı düşünülmüş bir şəkildə səs-küy qaldırmağa çalışırdılar. Bu səs-küy və qarışıqlıq Peyğəmbərin (s) hüzurunda baş verirdi. Hər dəfə bu məsələyə giriş verdikdə ortaya qarışıqlıq salınırdı. Necə ki, "On iki xəlifə" hədisində də bunu müşahidə edirik: *"Peyğəmbər (s) nə isə söylədi, camaatın səs-küyündən eşitmədim. Atamdan onun nə söylədiyini soruşduqda "Onların hamısı Qüreyşdəndir" deyə buyurduğunu bildirdi".*[799]

Bir az fərqli kəlmələrlə Müslimin "Səhih"ində nəql olunur: *"...Sonra bəzi sözlər söylədi, mən onları başa düşmədim. Atamdan Peyğəmbərin (s) nə söylədiyini soruşduqda dedi: "Onların hamısı Qüreyşdəndir" buyurdu".*[800]

Üçüncü: *"...Sonra bəzi sözlər söylədi ki, onları eşitmədim. Atamdan soruşduqda dedi: "Onların hamısı Qüreyşdəndir" buyurdu".*[801]

---

[798] Səhih, Buxari, c. 1, s. 37; Müsnəd, Əhməd ibn Hənbəl, c. 1, s. 324. Müslimin "Səhih"indəki rəvayətdə isə (c. 5, s. 76) Ömərin həmin sözlərindən sonra deyilir: "*Evdə toplaşanlar mübahisə etməyə başladılar, sözləri bir-birinə qarışdı. Onlarda bəzisi "Gəlin, Peyğəmbər (s) sizin üçün ondan sonra əsla azmayacağınız bir şey yazsın" deyir, bəzisi isə Ömərin dediyini təkrarlayırdı. Peyğəmbərin (s) hüzurunda səs-küy qalxıb ara qarışdıqda buyurdu: "Qalxın (gedin)!.."*

[799] Səhih, Müslim, c. 5, s. 3-4; c. 6, s. 3-4; Səhih, Buxari, c. 8, s. 127, "Əhkam" kitabı; "Müsnəd", Əhməd ibn Hənbəl, c. 5, s. 87

[800] Səhih, Müslim, c. 6, s. 3

"Müsnəd"də isə dördüncü fərqli kəlmələrlə belə nəql olunur: *"...Sonra bəzi sözlər söylədi, mən onları anlamadım. Atamdan Peyğəmbərin (s) nə söylədiyini soruşduqda dedi: "Onların hamısı Qüreyşdəndir" buyurdu".*[802]

"...Camaatın səs-küyündən eşitmədim", "mən onları başa düşmədim", "onları eşitmədim" və *"mən onları anlamadım"* kimi sözlərin hər biri Peyğəmbərin (s) sözlərinin ətrafdakılara qaranlıq qalması üçün bir dəstə adamın ciddi cəhd göstərdiyinə dəlalət edir. Peyğəmbər (s) hər dəfə özündən sonrakı xəlifə məsələsi ilə bağlı sözə başladıqda bu səslər Peyğəmbərin (s) səsini batırırdı. Lakin görünən odur ki, bu səslər heç də xaotik və ya təbii deyildi, əksinə, əvvəlcədən planlaşdırılmış və hazırlanmış ssenari əsasında, öyrədilmiş və intizamlı şəkildə dəqiq icra edilirdi. Belə ki, nəticədə Peyğəmbərə (s) həmin məsələ ilə bağlı fikrini çatdırmağa imkan vermirdi.

3. Beyətdə tələskənlik

Beyət məsələsinin əvvəlcədən planlaşdırılmış olmasına şahidlik edən dəlillərdən biri də Ömərin Əbu Bəkr üçün beyət toplamağa tələsməsidir. Belə ki, Peyğəmbərin (s) ölümündən xəbər tutduqları anda ara vermədən xəlifəlik məsələsini ortaya atdılar. Əhməd ibn Hənbəlin "Müsnəd"ində Yəzid ibn Babənusdan rəvayət olunur: *"Məscidə çıxdı, Ömər camaata xitabən belə deyirdi: "Uca Allah münafiqləri yox edənədək Peyğəmbər (s) ölməyəcək". Əbu Bəkr sözə başlayıb Allaha həmd-səna etdikdən sonra dedi: "Uca Allah buyurur:* ***"Şübhəsiz ki, sən də öləcəksən, onlar da öləcəklər!.."****, ta ki, ayəni sona qədər oxudu. Ardınca* ***"Muhəmməd ancaq bir peyğəmbərdir. Ondan əvvəl də peyğəmbərlər gəlib-getmişlər. Əgər o, ölsə və ya öldürülsə, siz gerimi dönəcəksiniz?"*** *ayəsini də sona qədər tilavət etdi. Dedi: "Kim Allaha ibadət edirdisə, bilsin ki, Allah ölməzdir. Kim*

---

[801] Səhih, Buxari, c. 8, s. 128, "Əhkam" kitabı

[802] Müsnəd, Əhməd ibn Hənbəl, c. 5, s. 87

Muhəmmədə ibadət edirdisə, o, artıq ölmüşdür". Ömər dedi: "Bunlar Allahın kitabındadır? Orada olduğunu bilmirdim". Sonra dedi: "Ey camaat, bu, Əbu Bəkrdir, müsəlmanların ən yaşlısıdır, ona beyət edin..."[803]

Rəvayətdə Ömərin bu məsələni qabartmağa tələsdiyini aydın görürük. O, söz sahibi müsəlmanlarla heç bir məşvərət aparmadan Əbu Bəkrə beyət tələb edir. Bu hadisə Peyğəmbər (s) məscidində, Əbu Bəkrin Peyğəmbərin (s) ölüm xəbərini elan etdiyi anda baş verir. Lakin Ömərin bu çağırışına orada iştirak edənlərdən heç biri qoşulmadı.

Beyət toplamağa tələsdiyinə şahidlik edən dəlillərdən biri də Peyğəmbər (s) dövründə hər bir məsələdə öndə olan İmam Əlinin (ə), Peyğəmbərin (s) əmisi Abbasın, eləcə də Bəni-Haşim üzvlərinin, Qüreyşin öndə gedənlərinin və böyük səhabələrin beyət üçün təklif edilməməsidir. Buxarinin bir rəvayətində Ömərin belə dediyini qeyd olunur: *"Allahın peyğəmbəri (s) vəfat etdikdə ənsarın bizə qarşı çıxaraq Bəni-Saidənin Səqifəsində toplandıqlarından xəbər tutduq. Əli, Zübeyr və onlarla birlikdə olanlar da bizə qarşı idilər".*[804] Buradakı *"bizə qarşı çıxaraq"* sözünə diqqət yetirin.

4. Gizlilik

Xilafət məsələsi ilə bağlı əvvəlcədən plan və tədbirlərin görüldüyünə şahidlik edən dəlillərdən biri də Bəni-Saidə əhlinin ortaya çıxardıqları sirdir. Buna Buxarinin "Səhih"ində nəql olunan rəvayətdəki sözlər dəlalət edir: *"Onlara yaxınlaşdıqda aralarından iki saleh şəxsə rastladıq. Onlar camaatın məsələni gizli müzakirə etdiklərini bildirdilər".*[805]

Rəvayətdəki *"gizli müzakirə etdikləri"* sözləri həmin dəstənin toplandıqlarını və müzakirə etdikləri məsələni gizlədiklərindən xəbər verir.

---

[803] Müsnəd, Əhməd ibn Hənbəl, c. 6, s. 219-220

[804] Səhih, Buxari, c. 8, s. 26, "Küfr və riddə əhli ilə savaşanlar" kitabı

[805] Səhih, Buxari, c. 8, s. 27

Bu toplantının iddia olunduğu kimi, ənsar tərəfindən birinə beyət edilməsi məqsədilə keçirildiyinə dəlil yoxdur. Əksinə, Buxarinin təqdim etdiyi rəvayətdən bu toplantının kimdənsə beyət alınması üçün keçirilmədiyi məlum olur. Onlar Peyğəmbərin (s) vəfatından sonrakı vəziyyəti və məqamlarına yönəlmiş təhdidləri müzakirə etmək üçün bir yerə yığışmışdılar. Ona görə də həmin iki saleh şəxs Əbu Bəkr və Öməri bu toplantıdan yayındırmağa çalışdılar: *"Dedilər: "Onların yanına getmək borcunuz deyil. Öz işinizlə məşğul olun".*[806]

Rəvayətdəki bu sözlər orada adi bir toplantının keçirilmədiyini göstərir. Oradakılar başqalarının haqqına qarşı təcavüz olunduğuna görə və yaranmış təhlükə səbəbindən bir yerə toplaşmışdılar. Hətta o iki saleh şəxsin nəsihətindən də anlaşılır ki, onlardan məsələyə müdaxilə etmələrini də istəmirlər: *"Öz işinizlə məşğul olun".*

Lakin, Ömərin "iki saleh" kimi vəsf etdiyi şəxslər niyə Əbu Bəkr və Öməri yayındırmağa çalışdı? Onların məqsədlərini haradan bilirdi?!

Həmin təhlükəli anda Səqifə toplantısında verilən qərara və Əhməd ibn Hənbəlin "Müsnəd"ində Aişə yolu ilə nəql edilən rəvayətə əsasən,[807] məscidindəki uğursuz dəvətdən sonra Ömər Mədinə əhlini Əbu Bəkrə beyət etməyə çağırmağa başladı.

5. Qədir-Xum **hadisəsinin əhəmiyyəti**

Peyğəmbərin (s) "Qədir-Xum" hədisindən əvvəl söylədiyi müqəddimə sözlər, müsəlmanları günortanın yandırıcı istisi altında çöldə bir yerə toplaması, bütün hacıların onlara qoşulması üçün gözləməsi, öndə olanları geri çağırması, hər bir kəsin onu görməsini və eşitməsini təmin edilməsinə göstərdiyi diqqət, Qədir kimi bir vadini bu məsələ üçün seçməsi, onun üçün dəvə yəhərlərindən minbər qurulması, Əlinin (ə)

---

[806] Səhih, Buxari, c. 8, s. 27

[807] Müsnəd, Əhməd ibn Hənbəl, c. 6, s. 220

biləyindən tutaraq qoltuğunun altındakı ağlıq görünənədək yuxarı qaldırması... məsələyə verdiyi əhəmiyyətin göstəricisidir. Peyğəmbərin (s) göstərdiyi bu həssaslıq məsələ ilə bağlı bəzilərinin qaranlıq planlarının varlığından xəbər verir. O, bu vasitələrlə məkrli planlara fürsət verməmək üçün bütün müsəlmanlara açıq və rəsmi şəkildə özündən sonra onların xəlifəsinin kimliyini bəyan etmişdir.

Əhməd ibn Hənbəl Zeyd ibn Ərqəmə istinadən rəvayət edir: *"Biz Cöhfdə idik. Peyğəmbər (s) günorta vaxtı Əlinin əlindən tutmuş halda qarşımızda dayanıb buyurdu: "Ey camaat, məgər mənim möminlərə öz canlarından üstün olduğumu bilmirsiniz?" Onlar "Bəli" deyə cavab verdilər. Buyurdu: "Mən kimin mövlasıyamsa (kimə canından üstünəmsə) Əli də onun mövlasıdır..."*[808]

İbn Əsakir Cabir ibn Abdullaha istinadən nəql edir: *"Cöhfdə* – Qədir-Xum*da idik. Orada Cüheynə, Müzeynə, Ğıfar... qəbilələrindən bir çox adam var idi..."*[809]

"Qədir-Xum" hədisini ötən bəhslərdə geniş müzakirə etmişdik.

Nəticə: Vəfatından əvvəl Mədinəni boşaltmaq üçün Peyğəmbərin (s) atdığı addımlar, yanında yalnız bir neçə şəxslə İmam Əlini (ə) saxlaması, ümməti zəlalətdən qoruyacaq yazını yazmasına yaradılan maneə, xilafət barədə söhbət açdıqda səs-küylərin qalxması və aranın qarışması, Peyğəmbərdən (s) sonra tələsik beyət alınması, Səqifədəki gizli toplantı və Qədir-Xum hadisəsinin əhəmiyyəti – bütün bunlar Peyğəmbərdən (s) sonra xilafətlə bağlı plan və hazırlıqların olduğuna dəlalət edir.

Dördüncü fəslin nəticəsi

---

[808] Müsnəd, Əhməd ibn Hənbəl, c. 4, s. 368, hədis 19298, Zeyd ibn Ərqəmin hədisi
[809] Tarixu mədinəti Dəməşq, c. 42, s. 225

Şiəliyin yaranma tarixi və onun həqiqətini dərk etmək yalnız Əhli-Beytin (ə) fəzilətləri, üstünlükləri, Allahın kitabı ilə bərabər onlara da möhkəm sarılmaq və imamətlərinə iman bəsləmək barədə təqdim edilən qəti dəlil və rəvayətləri anlamaqla mümkündür. Həmin dəlillərə insaf gözü ilə diqqətli nəzər salan şəxs Əhli-Beyt (ə) tərəfdarlığının (şiəliyinin) və onun həqiqətinin tarixinə vaqif ola bilər. Belə ki, şiəlik İslamın ortaya çıxması ilə birlikdə yaranmış, əsasını Quran və Peyğəmbər (s) sünnəsindən götürmüşdür.

Peyğəmbərin (s) dövründə müsəlmanlar vahid bir ümmət idilər və heç bir məzhəb anlayışı yox idi. Məzhəblər Peyğəmbərin (s) vəfatından sonra xilafət barədəki ziddiyyətlərin yaranması ilə ortaya çıxmış və müsəlmanların arasında parçalanma yaşanmışdı. Səqifə beyəti isə bu parçalanmanın əməli təməlini təşkil etmişdir. Həmin beyət ümmətin arasındakı məzhəbləşməyə rəsmi xarakter qazandırmışdı. Bu parçalanmanın işartıları hələ Peyğəmbərin (s) həyatda olduğu vaxtlardan görünməyə başlamışdı. Lakin onun Rəbbi dərgahına rəhlətinin ardınca əyani surətdə formalaşdı. Peyğəmbər (s) özündən sonra ümmətin bəlalarından və baş verəcək parçalanmalarından, ortaya çıxacaq ixtilaflarından xəbərdar idi.

Beşinci fəsil: Nicat tapmış firqə

Burada iki bəhs var:

1. İxtilaf düşəcəyi barədə hədislər;

2. Nicat tapan firqənin əlamətləri ilə bağlı hədislər.

Giriş

Camaatın arasındakı ixtilaf və ziddiyyətlərin mövcudluğunun inkarı mümkünsüz bir həqiqət olduğunu əvvəldə qeyd etdik. Bu ixtilaflar bəşər övladının Yer üzünə gəldiyi və ilk insan cəmiyyətinin qurulduğu anlardan baş qaldırıb. Nəbi və rəsulların göndərilməsi, səmavi kitabların nazil edilməsi ümmətlərin arasındakı bu ixtilafları yalnız məhdudlaşdırmaq və barəsində ixtilafda olduqları məsələləri bəyan etmək məqsədi daşıyıb: ***"İnsanlar tək bir ümmət idi. Allah onlara müjdə verən və xəbərdarlıq edən (əzabla qorxudan) peyğəmbərlər göndərdi, insanların arasındakı ixtilafları ayırd etmək üçün O, peyğəmbərlərlə birlikdə haqq olan kitab nazil etdi".***[810]

Lakin özlərinə elm gəldikdən sonra din və səmavi kitab əhli də öz aralarında ixtilafa düşdülər, dinlərini təhrif etdilər, dəyişdilər, parça-parça olub firqələrə bölündülər: ***"Halbuki özlərinə aşkar dəlillər gəldikdən sonra aralarındakı kin (və həsəd) üzündən (dində) ixtilafda düşənlər kitab əhlindən başqası deyildi".***[811]

---

[810] Bəqərə, 213

[811] Bəqərə, 213

Ümmətin ixtilafı

İslam ümməti də bu tarixi qanunauyğunluqdan kənarda qalmadı: *"Sizdən əvvəlki ümmətlərin adətlərini qarış-qarış, addım-addım izləyəcək, hətta girdikləri kərtənkələ yuvalarına da girəcəksiniz".*[812] Bu ixtilaflar zaman keçdikcə ümmətin fərdlərinin arasında, hətta Peyğəmbərin (s) hüzurunda, gözü önündə və eşitdiyi vaxtlarda da baş qaldırmağa başladı. Buxari öz "Səhih"ində Əbu Müleykə sənədilə nəql edir: *"Az qalmışdı ki, iki xeyirli səhabə həlak olsunlar. Peyğəmbərin (s) yanına Bəni-Təmimdən qonaqlar gəldikləri vaxt onun hüzurunda səslərini qaldırdılar. Biri (Ömər) Bəni-Məcaşidən olan Əqrə ibn Habisi, digəri isə (Əbu Bəkr) adını unutduğum başqa bir nəfəri vali təyin etməyi Peyğəmbərə (s) işarə etdi.*

Əbu Bəkir Ömərə dedi: "Mənim fikrimin əksinə getməkdən başqa məqsədin yoxdur".

Ömər cavabında dedi: "Sənin fikrinə qarşı çıxmaq istəmədim".

Bununla da səslərini qaldıraraq mübahisə etdilər..."[813]

Həmçinin "Səhih"ində Cabir ibn Abdullah sənədilə rəvayət edir: *"Savaş üçün səfərə çıxmışdıq... Mühacirlərdən bir nəfər ənsardan olan şəxsə arxadan təpiklə vurdu. Bundan qəzəblənən həmin adam dedi: "Ey Ənsar, yardıma gəlin!" Mühacirlərdən olan adam da "Ey mühacirlər, yardıma gəlin!" deyə səsləndi. Bunu eşidən Peyğəmbər (s) buyurdu: "Bu cahiliyyə çağırışı nədir?!"*

Dedilər: "Ya Peyğəmbər, mühacirlərdən bir nəfər ənsardan olan şəxsə arxadan təpiklə vurdu".

Peyğəmbər (s) buyurdu: "Belə şeyləri tərk edin!"[814]

Aralarındakı ixtilaf bununla bitmir. Onlar Peyğəmbərə (s) etiraz edir, üzünə cavab qaytarır, bir çox yerdə əmrlərinə itaət etmirdilər. Halbuki

---

[812] Səhih, Müslim, c. 8, s. 57

[813] Səhih, Buxari, c. 4, s. 1833

[814] Səhih, Buxari, c. 4, s. 1861

Peyğəmbərin (s) ömrünün sonları olduğuna görə artıq İslam onların qəlbində yer tapmalı, Peyğəmbərin (s) şəxsiyyətinin, sözlərinin və əmrlərinin məqamı onlar üçün aydınlaşmalı idi. Müslim öz "Səhih"ində Cabir ibn Abdullah Ənsariyə istinadla nəql edir: *"Peyğəmbər fəth ilinin Ramazan ayında oruc tutub Məkkəyə tərəf yola çıxdı. Kiraul-ğamimə yetişdilər. Camaat oruc tuturdular. Peyğəmbər (s) bir stəkan su istədi. Stəkanı əlində camaatın görə biləcəyi həddə qaldırdı və ardınca suyu içdi. Ona dedilər: "Bəziləri oruc tutublar (onların qabağında içmə)". Peyğəmbər (s) buyurdu: "Onlar üsyankardırlar, onlar üsyankardırlar!"*[815]

Həmçinin Müslim "Səhih"də Aişənin belə dediyini nəql edir: *"Zil-hiccədən dörd və ya beş gün keçmişdi. Peyğəmbər (s) mənim yanıma gəldi. Olduqca qəzəbli idi. Dedim: "Ya Peyğəmbər, səni qəzəbləndirəni Allah Cəhənnəmə salar!" Buyurdu: "Nə baş verir, mən camaata əmr edirəm, onlar isə icrasında tərəddüd edirlər".*[816]

Əbu Yəla öz "Müsnəd" kitabında Bərraya istinad etdiyi hədisi nəql edir: *"Səhabələr Peyğəmbərlə (s) bərabər Həcc üçün ehram bağladılar. Məkkəyə yetişdikdə Peyğəmbər (s) buyurdu: "Həccinizin niyyətini Ümrəyə dəyişin". Səhabələr dedilər: "Ya Peyğəmbər, biz Həcc üçün ehram bağlamışıq, onu niyə Ümrəyə dəyişək?!"*

Buyurdu: "Sizə əmr etdiyimi dinləyib yerinə yetirin".

Onlar Peyğəmbərə (s) cavab qaytarmağa başladılar və o, qəzəblənib getdi. Sonra Aişənin evinə daxil oldu. Aişə onun üzündəki qəzəbi görüb dedi: "Səni qəzəbləndirənə Allah qəzəblənsin!"

Peyğəmbər (s) buyurdu: "Niyə də qəzəblənməyim, mən onlara əmr edirəm, onlar isə tabe olmurlar".[817]

Heysəmi "Məcməuz-zəvaid"də deyir: *"Bunu Əbu Yəla rəvayət edib, rəvayətinin sənədindəki ravilər "Səhih"in raviləridir".*[818]

---

[815] Səhih Müslim, c. 3, s. 785
[816] Səhih Müslim, c. 2, s. 780
[817] Səhih Müslim, c. 3, s. 233

Səhabələrin arasındakı ən pis, ən şiddətli və ən faciəvi ixtilaflar Peyğəmbərinin (s) ömrünün sonlarında, ölüm yatağında ikən, onun gözü önündə də baş verirdi. Belə ki, səhabələrdən kağız və qələm istədi ki, onların özündən sonra yanlışlıq və azğınlıqdan amanda qalmaları üçün bir şeylər yazsın. Həmin vaxt bu fikri dəstəkləyənlərlə ona etiraz edənlərin arasında mübahisə yarandı və səs-küy qalxdı. Peyğəmbərin (s) ehtiramını qorumadı, onun vəziyyətini belə nəzərə almadılar. Bu da Peyğəmbərin (s) onları məclisindən qovması ilə nəticələndi. Buxari İbn Abbasa qədər çatan bir sənədlə nəql edir: *"Peyğəmbərin (son xəstəliyində) ağrısı şiddətlənincə: "Yazı yazacaq şey gətirin, sizə elə bir şey yazım ki, ondan sonra heç zəlalətə düşməyəsiniz" buyurdu. Ömər dedi: "Peyğəmbərin xəstəliyi ağırlaşıb. Bizim əlimizdə Allahın Kitabı var! O bizə yetər!"*

Oradakı səhabələr ixtilafa düşdülər, sözləri bir-birinə qarışdı. Peyğəmbər (s) buyurdu: "Yanımdan çıxın, mənim yanımda mübahisə etmək olmaz".

İbn Abbas otaqdan çıxıb dedi: "Peyğəmbərin (s) yazmasına mane olmaq nə böyük bədbəxtlikdir".[819]

Bu və onlarla digər güclü dəlillər ümmətin arasındakı ixtilaf və fikir ayrılığının Peyğəmbərin (s) onların arasında olduğu dövrlərdə belə baş verdiyini isbatlayır. Lakin bu ixtilaflar inkişaf edib daha da böyümək üçün münasib mühit və zaman axtarırdı. Həmin münasib mühit Peyğəmbərin (s) vəfatı ilə yaranmış oldu. Halbuki Peyğəmbər (s) həyatda ikən onun ali şəxsiyyəti və məqamı bu ixtilafları beşiyində boğur, genişlənərək ciddi xarakter almasını önləyirdi. Onun vəfatından sonra ümmət məhz bu xüsusiyyətini itirdi. Rəbbinin dərgahına getdiyi andan İslam ümməti üzərində fitnə və ixtilaf küləkləri əsməyə başladı, düşüncə, əqidə, ictimai və siyasi mövzularda vəziyyət dəyişdi. Halbuki Peyğəmbər öz ciddi səyi,

---

[818] Məcməuz-zəvaid, Heysəmi, c. 3, s. 525

[819] Səhih, Buxari, c. 1, s. 54

cihadı, ailəsindən və səhabələrindən verdiyi qurbanların hesabına onun təməllərini atmış və üzərində bina ucaltmışdı.

Peyğəmbərin (s) ölümü ümmətin arasındakı ilk ixtilaf mövzusu oldu. Bəziləri bu aşkar və heç bir dəlilə ehtiyacı olmayan həqiqəti inkar etdilər. Bağdadi "əl-Fərqu beynəl-firəq" kitabında deyir: *"Onların arasında yaranan ilk ixtilaf Peyğəmbərin (s) ölümü ilə bağlı idi. Bir dəstə güman edirdi ki, o, ölməyib. Uca Allah İsa Məsihi (ə) səmaya qaldırdığı kimi onu da səmaya qaldırıb. Bundan sonrakı ixtilaf isə onun dəfn ediləcəyi yerlə bağlı ortaya çıxdı... Sonra da imamət barədə fikir ayrılığına düşdülər".*[820]

Bu kimi ixtilaflar İslam ümmətinin arasında yayılmağa başladı. Zaman keçdikcə İslam dövlətinin ərazisi genişləndi, ixtilaflar bir səviyyədə qalmayıb gah dinin təməl və əsas məsələlərində, gah da ona bağlı cüzi məsələlərdə özünü göstərməyə başladı. Müsəlmanların vəhdətinə ən çox zərər yetirən isə əqidə məsələlərindəki ixtilaflar oldu. Belə fikir ayrılıqları İslam ümməti tarixinin lap əvvəllərində özünü göstərdi. Nəticədə təməl və əsas mövzularda yaranan ixtilaflar fikir və rəy fərqliliyinə, zamanla İslam cəmiyyətinin şəklinin dəyişməsinə səbəb oldu. Bu da Peyğəmbər (s) dövründəki vahid və güclü İslam ümmətini rəy və istiqamətlərdə bir çox dəstə və camaatlara böldü, firqə, təriqət və əqidə məzhəblərinin yaranması üçün toxumlar səpdi.

Hicrətin dördüncü ilinin alimlərindən olan Muhəmməd ibn Cərir Təbəri ümmətin vəhdətini parçalayan fikir və rəyləri toplayaraq deyir: *"Peyğəmbərin (s) vəfatından sonrakı əsrlərdə bir çox hadisələr baş verdi... Peyğəmbərdən (s) sonra ümmətin ixtilaf etdiyi ilk məsələ aralarında ən fəzilətlinin, imamətə daha çox haqq sahibinin və xəlifəliyə daha layiqli olanın kimliyi barədə idi. Ardınca bəndələrin əməlləri, itaət və üsyanları mövzusunda, bunların Allahın qəza və qədəri, yaxud özlərinə həvalə olunmuş ixtiyari məsələlər olduğunda ixtilaf etdilər. Həmçinin iman barədə*

[820] əl-Fərqu beynəl-firəq, Əbdül-Qahir ibn Tahir ibn Muhəmməd Bağdadi, s. 13

də fikir ayrılığına düşdülər. Bunun əməl və ya əməlsiz söz olduğunda, artıb azaldığında, yaxud sabit qaldığı barədəki fikirlərində ortaq nöqtəyə gələ bilmədilər. Eləcə də Quranın məxluq olub-olmaması, möminlərin Qiyamət günü öz Rəblərini görəcəkləri barədə ziddiyyətli nəzərlər yürütdülər..."[821]

İslam mirası ilə bağlı, xüsusilə də tarix və hədis mənbələri üzərində araşdırma aparan şəxs ümmətin arasındakı ixtilafa, parçalanmaya, məzhəblərə ayrılmaya və bir-birini lənətləməyə səbəb olan ən əsas amilin imamət mövzusundakı mübahisələr olduğunu görəcək. Şəhristani "əl-Miləlu vən-nihəl"də yazır: *"İslamda qılınc rəhbərlik üçün qaldırıldığı kimi heç bir başqa dini qaydalara görə qaldırılmayıb".*[822]

İxtilaflar barədə hədislər

Vəfatından sonra ümmətin bu təhlükəli parçalanma ilə üzləşəcəyini Peyğəmbərin (s) xəbər verdiyi səhih hədislərdə mövcuddur. Əhməd ibn Hənbəl "Müsnəd"də Əbu Səid Xudri sənədilə nəql edir: *"Peyğəmbər (s) buyurdu: "Ümmətim iki hissəyə bölünəcək. Dindən dönən biri onların arasında parçalanma yaradacaq ki, iki dəstədən haqqa yaxın olanı onu qətlə yetirəcək".*[823]

Qazi Nüman Məğribi "Şərhul-əxbar"da əlavə olaraq yazır: *"Xudriyə deyildi: "Onları Əli öldürdü?" Dedi: "Onun Allaha və Rəsuluna onlardan daha yaxın şəxs olmasına heç bir maneə (şübhə) yoxdur".*[824]

Hakim "Müstədrək"də "Elm" bölməsində Muhəmməd ibn Əmr ibn Əlqəmə sənədilə Əbu Sələmədən, o da Əbu Hüreyrədən nəql edir: *"Peyğəmbər (s) buyurdu: "Yəhudilər yetmiş bir (və ya yetmiş iki) firqəyə*

---

[821] Sarihus-sünnə, Təbəri, s. 17

[822] əl-Miləlu vən-nihəl, Şəhristani, c. 1, s. 24

[823] Müsnəd, Əhməd ibn Hənbəl, c. 3, s. 25. Bunu həmçinin Nəsai "əs-Sünənul-kubra"da (c. 5, s. 158), Əbu Yəla Mosuli öz "Müsnəd"ində (c. 2, s. 499) və İbn Kəsir "əl-Bidayətu vən-nihayə"də (c. 7, s. 309) nəql ediblər.

[824] Şərhul-əxbar, c. 2, s. 39, "İslam nəşrləri" müəssisəsi, Qum

bölündülər. Nəsranilər də yetmiş bir (və ya yetmiş iki) dəstəyə ayrıldılar. Mənim ümmətim isə yetmiş üç firqəyə parçalanacaq".[825]

Hakim Nişapuri hədisi səhih hesab edərək yazır: *"Bu, Müslimin şərtinə əsasən, səhih hədisdir, kitablarında nəql etməyiblər. Hədisin digər dəlilləri də var".*[826]

Həmçinin "əl-İman" kitabında da nəql edərək deyir: *"Bu, əsli (mənbəyi) çox olan hədisdir".*[827]

Əhməd ibn Hənbəl "Müsnəd"də Əbu Amir Abdullah ibn Lühey sənədilə rəvayət edir: *"Müaviyə ibn Əbu Süfyanla Həccə getmişdik. Məkkəyə gəldikdə zöhr namazını qılmağa başladı. Sonra dedi: "Peyğəmbər (s) buyurub: "Kitab əhli öz dinlərində yetmiş iki məzhəbə ayrıldılar. Bu ümmət isə yetmiş üç məzhəbə bölünəcək. Birindən savayı onların hamısı cəhənnəm odundadır. O bir dənə isə camaatdır. Ümmətim arasından onlara (digər məzhəblərə) it sahibinə bağlandığı kimi bağlananlar olacaq. Hər bir irqdən və dildən insanlar onların arasına qatılacaq. Ey ərəblər, Allaha and olsun ki, əgər Peyğəmbərinizin (s) sizə gətirdiyinə sahib çıxmasanız digərləri ona sahib çıxmaqda sizdən daha layiq olacaqlar".*[828]

---

[825] əl-Müstədrəku ələs-səhiheyn, c. 1, s. 128, "Elm" kitabı. İbn Hibban da "Səhih"ində onunla razılaşıb (c. 7, s. 62, hədis 6731). Həmçinin Əbu Yəla Mosuli "Müsnəd"ində bunu nəql edib (Əbu Hüreyrəyə istinad olunanlar, L: 541-542). Həmçinin İbn Əbu Asim "Kitabus-sünnə"də (c. 1, s. 33, hədis 19, bab 66), Mərvəzi "əs-Sünnə"də (s. 17), Aciri "əş-Şəriə"də (s. 15, "Ümmətin parçalanması" babı), Əbdülqahir "əl-Firəq"də (s. 6) və İbn Cövzi "ət-Təlbis"də (s. 18) qeyd edib.

[826] əl-Müstədrəku ələs-səhiheyn, c. 1, s. 128

[827] əl-Müstədrəku ələs-səhiheyn, c. 1, s. 6

[828] Müsnəd, Əhməd ibn Hənbəl, c. 4, s. 102. Bunu Hakim Nişapuri "Müstədrək"də (c. 1, s. 128) Əbu Hüreyrənin hədisindən sonra qeyd edərək deyir: *"Bu sənədlər onu dəlilə çevirir".* Həmçinin Əbu Davud "Sünən"də (c. 5, s. 5, hədis 34), "Kitabus-sünnə"də, Darəmi "Sünən"ində (c. 2, s. 158, hədis 16), Aciri "əş-Şəriə"də (s. 18), İbn Əbu Asim "Sünnə"də (c. 1, s. 7, hədis 1), Təbərani "əl-Möcəmul-kəbir"də (c. 19, s. 376-377), Beyhəqi "Dəlailun-nübuvvə"də (c. 6, s. 541), İbn Bəttə Ükbəri "əl-İbanə"də (c. 1, s. 221-223, rəqəm 245-247) qeyd ediblər.

Və bu məzmunda digər rəvayətlər...[829]

Buxarinin "Səhih"ində Zuhriyə istinadən Zil-Xüveysirə hadisəsi və onun Peyğəmbərə (s) "Ədalətli ol!" sözləri, Ömərin Peyğəmbərdən (s) onun boynunu vurmaq üçün izn istəməsi ilə bağlı nəql etdiyi rəvayət də ümmətin parçalanacağına dəlalət edir. Orada deyilir: *"Onu burax, onun elə yoldaşları var ki, sizdən hər biriniz onların namazlarına və oruclarına baxdıqda öz namaz və oruclarınızı dəyərsiz sayarsınız. Onlar Quran oxuyarlar, lakin oxuduqları boğazlarınızdan aşağı keçməz. Ox yaydan çıxdığı kimi onlar da dindən çıxarlar... bir müddət sonra camaatın arasından bir firqə kimi ayrılarlar".*[830]

Bu hədislər Peyğəmbərin (s) özündən sonra ümmətin firqələrə parçalanacağını tam əminliklə bildiyinə açıq dəlalət edir. Bu dəlillərə qarşı ortaya atılan iradlara cavab vermək niyyətində deyilik. Məsələn, deyilə bilər ki, Peyğəmbər (s) ümmətin parçalanacağını bilirdisə, o zaman nə üçün həmin fitnənin kökünü kəsmək üçün addım atmadı?

Şübhə yoxdur ki, bu sualların cavabı bizi bəhsimizin əvvəlinə qaytaracaq. Ona görə də burada ondan yan keçir, lakin mövzu ilə bağlı digər məsələyə keçid alırıq. Məsələ bundan ibarətdir: Peyğəmbərdən (s) ümmətin firqələrə bölünəcəyi ilə bağlı varid olmuş o səhih hədislər onlardan birindən savayı hamısının hidayət yolundan üz döndərdiyini göstərir. Həmin o yeganə firqə də Qiyamət günü nicat tapacaq firqədir. Necə ki, bunu Əhməd ibn Hənbəlin rəvayət etdiyi hədisdən də oxuduq: *"Bu ümmət isə yetmiş üç məzhəbə bölünəcək. Birindən savayı onların hamısı cəhənnəm odundadır".*

---

[829] Əhli-Sünnənin böyük hədisşünas və alimləri ümmətin yetmişdən artıq firqəyə bölünəcəyi ilə bağlı fərqli kəlmələr və rəvayət yolları ilə görkəmli səhabələrdən hədislər nəql ediblər. Burada onları sadalamaq istəmirik. Çünki araşdırmaq istəyən şəxsə onları tapmaq elə də çətinlik təşkil etməyəcək.

[830] Səhih, Buxari, c. 4, s. 178-179, "Mənaqib" kitabı, İslamda nübuvvət əlamətləri" babı

2. Nicat tapan firqənin əlamətləri ilə bağlı hədislər

Hər iki məzhəbin hədis hafizləri və raviləri Peyğəmbərdən (s) nicat tapacaq firqənin əlamətlərini müəyyənləşdirən bir çox hədislər nəql etmişlər. Burada onlardan bir hissəsini qeyd edəcəyik:

1. Səqaleyndən möhkəm yapışmağın vacibliyi ilə bağlı hədis

Tirmizi Əbu Səid Xudri və Zeyd ibn Ərqəm sənədilə rəvayət edir: *"Peyğəmbər (s) buyurdu: "Sizin aranızda əmanət qoyuram ki, ondan möhkəm yapışdığınız müddətdə məndən sonra əsla azmayacaqsınız. Onlardan biri digərindən daha böyükdür. Allahın kitabı səmadan yerə uzanmış bir ipdir. Və itrətim olan Əhli-Beytim. Onlar Hovuz başında mənə qovuşanadək əsla bir-birindən ayrılmazlar. Məndən sonra onlarla necə rəftar edəcəyinizə diqqət yetirin".*[831]

Hakim "Müstədrək"də bunu nəql edərək səhih olduğunu bildirib. Deyir: *"Bu, Buxari və Müslimin şərtinə əsasən, səhih hədisdir. Onu tam şəkildə nəql etməyiblər".*[832] Albani də "Səhihul-camiis-sağir"də hədisin səhih olduğunu bildirib.[833]

Buna yaxın kəlmələrlə Əhməd ibn Hənbəl Əbu Səid Xudridən nəql edib: *"Peyğəmbər (s) buyurdu: "Mən sizin aranızda iki ağır əmanət buraxıram. Biri digərindən daha böyükdür. Allahın kitabı səmadan yerə uzanmış bir ipdir. Və itrətim olan Əhli-Beytim. Onlar Hovuz başında yanıma varid olanadək əsla bir-birindən ayrılmazlar".*[834]

Müslim də öz "Səhih"ində Zeyd ibn Ərqəmə istinadən nəql edib: *"Bir gün Peyğəmbər (s) Məkkə ilə Mədinənin arasında yerləşən "Xum" adlanan su mənbələri yaxınlığında bizə xütbə söyləyirdi. Allaha həmd-səna söylədikdən və moizə etdikdən sonra buyurdu: "Ey camaat, bilin ki, mən də*

---

[831] Sünən, Tirmizi, c. 5, s. 329, Əbdürrəhman Muhəmməd Osmanın təhqiqi ilə

[832] əl-Müstədrək ələs-səhiheyn", c. 3, s. 109

[833] Səhih, Bunxari, c. 1, s. 482, hədis 1351

[834] Müsnəd, Əhməd ibn Hənbəl, c. 3, s. 14

bir bəşərəm, Rəbbimin elçilərinin gələcəyi və mənim də onlara müsbət cavab verəcəyim vaxt yaxındadır. Sizin aranızda iki ağır əmanət qoyuram. Onlardan birincisi Allahın kitabıdır ki, orada hidayət və nur var. Allahın kitabını götürüb ona möhkəm sarılın".

Ardınca Allahın kitabına təşviq edərək bizi ona rəğbətləndirdi. Sonra buyurdu: "Və Əhli-Beytim. Əhli-Beytim haqqında sizi Allaha tapşırıram, Əhli-Beytim haqqında sizi Allaha tapşırıram, Əhli-Beytim haqqında sizi Allaha tapşırıram!!!"[835]

2. "Bayraq" hədisi

Buxari "Səhih"də Sələmə ibn Əkvə yolu ilə rəvayət edir: *"Xeybər savaşı günü Əli (r) Peyğəmbərin (s) ordusundan geridə qalmışdı. Həmin gün gözlərində ağrısı var idi. "Mən geridə qaldım" deyərək yola çıxdı və Peyğəmbərə (s) yetişdi. Xeybərin fəth ediləcəyi günün gecəsi idi. Peyğəmbər (s) buyurdu: "Sabah bayrağı elə bir şəxsə verəcəyəm ki (və ya dedi: elə bir şəxs götürəcək ki), Allah və rəsulu onu sevir (və ya belə buyurdu: Allahı və rəsulunu sevir). Allah ona fəthi nəsib edəcək". Gözləri ağrıdığından bu şəxsin Əli olacağına ümid etmirdik. Dedilər: "Həmin şəxs Əlidir". Peyğəmbər (s) bayrağı ona verdi və o, Xeybəri fəth etdi".*[836]

Həmçinin Buxari "Səhih"ində Əbu Hazib yolu ilə Səhldən rəvayət edir: *"Peyğəmbər (s) Xeybər savaşı günü buyurdu: "Sabah bayrağı elə bir şəxsə verəcəyəm ki, Allah onun əli ilə fəth nəsib edəcək. O, Allahı və rəsulunu, Allah və rəsulu da onu sevir".*

Camaat gecəni bayrağın kimə veriləcəyi fikri ilə keçirdi. Onların hamısı həmin şəxsin özləri olmasını arzulayırdılar.

---

[835] Səhih, Müslim, c. 4, s. 1873, hədis 2408, "Əli ibn Əbu Talibin (r) fəzilətləri babı, c. 7, s. 122-123, "Darul-fikr" mətbəəsi, Beyrut

[836] Səhih, Buxari, c. 3, s. 1086, hədis 2812, "Peyğəmbərin (s) bayrağı haqqında deyilənlər" babı; s. 1357, hədis 3499, "Əli ibn Əbu Talib Qüreyşi Haşimi Əbülhəsənin (r) fəzilətləri" babı, c. 4, s. 12, "Cihad və seyr" kitabı, c. 4, s. 207, "Üstün əməllər" kitabı, "Mühacirələrin üstün əməlləri və fəzilətləri" babı

Peyğəmbər (s) buyurdu: "Əli haradadır?" Onun gözlərindən narahatlığı olduğu deyildi. Peyğəmbər (s) onun gözlərinə tüpürdü, onun üçün dua etdi. Gözündəki narahatlıq aradan getdi, sanki, heç bir ağrısı olmamışdı. Ardınca bayrağı ona verdi".[837]

Müslim də "Səhih"ində Amirə istinadən nəql etdiyi uzun bir hədisdə yazır: *"Peyğəmbər (s) məni Əlini çağırmaq üçün göndərdi. Onun həmin gün gözlərindən narahatlığı var idi. Peyğəmbər buyurdu: "Sabah bayrağı elə bir şəxsə verəcəyəm ki, Allahı və rəsulunu, Allah və rəsulu da onu sevir".*

Əlinin yanına gedib onu gətirdim. Gözləri ağrıdığı üçün ona yolu mən göstərirdim. Nəhayət Peyğəmbərin (s) yanına gətirdim. Peyğəmbər (s) onun gözlərinə tüpürdü və gözündəki narahatlıq aradan getdi. Ardınca bayrağı ona verdi".[838]

Bəziləri hədisdə işarə edilən məziyyətləri bütün müsəlmanlar üçün ümumiləşdirərək onun yalnız İmam Əliyə (ə) məxsus əzəmətli bir fəzilət olduğunu inkar etməyə çalışmışlar. İbn Həzm deyir: *"Bu sifət hər bir müsəlman və fəzilətli şəxs üçün təsdiqlənir".*[839]

Bu, yanlış düşüncədir. Hədisin dəlaləti Möminlərin əmiri Əlinin (ə) fəzilətini isbatlamaq üçün olduqca aydındır. Belə ki, orada iştirak edən bütün səhabələr bu xüsusiyyətdən xali idilər. Həmin səhabələrin arasında birinci, ikinci və üçüncü xəlifə də var idi.

Səhabələr bu əzəmətli məqam və ali dərəcənin özlərinə bəxş olunması arzusu ilə gecələdilər. Bunu Buxari və Müslimin, eləcə də "Sünən" və "Müsnəd" sahiblərinin nəql etdikləri rəvayətlərdə də görürük. Buxarinin rəvayətində deyilir: *"...Camaat gecəni bayrağın kimə veriləcəyi fikri ilə keçirdi. Onların hamısı həmin şəxsin özləri olmasını arzulayırdılar".*[840]

---

[837] Səhih, Buxari, c. 3, s. 1096, hədis 2847; s. 1357, hədis 3498, "Əli ibn Əbu Talib Qüreyşi Haşimi Əbülhəsənin (r) fəzilətləri" babı, c. 4, s. 20, c. 5, s. 76.

[838] Səhih, Müslim, c. 5, s. 195, c. 7, s. 120-121.

[839] əl-Fasl, İbn Həzm, c. 4, s. 243

[840] Səhih, Buxari, c. 3, s. 1096, hədis 2847

Başqa bir yerdə isə yazır: *"...Camaat gecəni bayrağın kimə veriləcəyi barədə müzakirə ilə (səs-küylə) keçirdi. Səhər açıldıqda isə hamısı Peyğəmbərin (s) yanına qaçaraq bayrağın özünə veriləcəyinə ümid etdi".*[841]

Müslimin Səddən nəql etdiyi rəvayətdə deyilir: *"Boynumuzu ona tərəf uzadırdıq".*[842]

Müslimin "Səhih"indəki başqa bir rəvayətdə isə qeyd edilir: *"Ömər ibn Xəttab dedi: "Rəhbərliyi sevmirəm, ancaq həmin gün onu (bayrağın mənə verilməsini) arzulayırdım. Çağırılmaq üçün boylanırdım..."*[843]

Hədisdə nəql edilən bu və digər bənzəri kəlmələr səhabələrin Peyğəmbərin (s) bu sözlərində yalnız böyük pay sahibi şəxsin əldə edə biləcəyi əzəmətli bir fəzilətin olduğunu anladıqlarını göstərir. Bu fəziləti əldə etmək üçün Ömər ibn Xəttab can ataraq boylanmış, məhz həmin gün rəhbər olmağı arzulamışdı. Çünki həmin gün rəhbərlik Allahın və Peyğəmbərinin (s) sevgisi olan uca bir məqamla bərabər idi.

Səd ibn Əbu Vəqqasın Müaviyənin əmrini rədd edərək İmam Əlini (ə) söyməkdən boyun qaçırdığını yuxarıda qeyd etdik. Müaviyə ona demişdi: *"Əbu Turabı söyməyə sənə nə mane olur?" Səd dedi: "Peyğəmbərin (s) onun barəsində söylədiyi üç şeyə görə əsla söymərəm. Əgər onlardan biri məndə olsaydı, bu mənə qırmızı dəvələrə*[844] *sahib olmaqdan daha sevimli olardı".*[845]

Bu üç fəzilətin arasında "Bayraq" hədisini də qeyd etdi. Bu isə Sədin də "Bayraq" hədisindən əshabın arzuladığı fəzilətlərin İmam Əli (ə) üçün təsdiqləndiyini başa düşdüyünü göstərir. Onun fikrinə görə, belə bir fəzilətin qırmızı dəvələrlə müqayisə edilməsi mümkün deyil. Qırmızı dəvələr isə dünya mal-dövləti və sərvət mənasını verir.

---

[841] Səhih, Buxari, c. 3, s. 1357, hədis 3498; c. 4, s. 1542, hədis 3973. Bu kəlmələri Müslim də öz "Səhih"ində qeyd edib: c. 4, s. 1872, hədis 2406. "Əli ibn Əbu Talibin (r) fəzilətləri" babı

[842] Səhih, Müslim, c. 4, s. 1870, hədis 2404, "Əli ibn Əbu Talibin (r) fəzilətləri" babı.

[843] Səhih, Müslim, c. 4, s. 1871, hədis 2405, "Əli ibn Əbu Talibin (r) fəzilətləri" babı

[844] Ərəblərin nəzərində bu, ən üstün maddi nemətdir.

[845] Səhih, Müslim, c. 4, s. 1870, hədis 2404, "Əli ibn Əbu Talibin (r) fəzilətləri" babı

Peyğəmbər (s) səhabələri bu hədisdən belə uca məqamın mövcudluğunu başa düşdülər. Həmçinin Əhli-Sünnə alimləri də hədisi bu cür anlamışlar. İbn Həcər deyir: *"Bu iki hədisdəki (Səhl ibn Sədin və Sələmə ibn Əkvənin hədisləri) Əli barədəki "Allah və Rəsulu onu, o da Allahı və Rəsulunu sevir" sözü ilə Peyğəmbər (s) məhəbbətin mövcudluğunun həqiqətini bildirir. Belə ki, bütün müsəlmanlar Allahı və Rəsulunu sevməkdə Əli ilə eynidirlər. Həmin sözdə Uca Allahın bu sözünə eyham var:* ***"De: "Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin..."***[846] *Sanki, (s) bu sözlər Əlinin Peyğəmbərin ardınca tam şəkildə getdiyinə işarə edərək onu Allah məhəbbətinin məzhəri olaraq vəsf edir. Ona görə də Əlini sevmək imanın, ona nifrət bəsləmək isə münafiqliyin əlaməti sayılır. Necə ki, Müslim Əlinin özündən nəql edib: "Toxumu yarıb məxluqları yaradana and olsun, Peyğəmbər (s) mənə xəbər vermişdir ki, məni yalnız mömin sevər və ancaq münafiq mənə nifrət edər". Buna Əhmədin Ümmü Sələmə sənədilə nəql etdiyi hədis də şahidlik edir".*[847]

Əgər səhabələr "Bayraq" hədisindən belə bir ali məqamı anlayırlarsa, İbn Həzm və onun kimilərin qeyd etdiklərinə əhəmiyyət vermək belə yersizdir.

3. "Səni yalnız mömin sevər, yalnız münafiq sənə nifrət bəsləyər" hədisi

Müslim "Səhih"ində İmam Əlidən (ə) nəql edir: *"Toxumu yarıb məxluqları yaradana and olsun, Peyğəmbər (s) mənə xəbər vermişdir ki, yalnız mömin məni sevər və ancaq münafiq mənə nifrət edər".*[848]

Əhməd ibn Hənbəl "Müsnəd"də Möminlərin əmirindən (ə) nəql edir: *"Peyğəmbər (s) mənə bildirdi: "Səni yalnız mömin sevər və münafiqdən başqası sənə nifrət etməz".*[849]

---

[846] Ali-İmran, 31

[847] Fəthul-Bari, İbn Həcər, c. 7, s. 57-58

[848] Səhih, Müslim, c. 1, s. 61

Tirmizi "Sünən"də bu hədisin ardınca yazır: *"Bu, həsən səhih hədisdir".*[850]

Heysəmi "Məcməuz-zəvaid"də rəvayətin ardınca yazır: *"Bunu Təbərani "əl-Möcəmul-övsat"da rəvayət edib. Raviləri etibarlı (siqə) şəxslərdir".*[851]

İbn Həcər isə "Fəthul-Bari"də rəvayəti nəql etdikdən sonra yazır: *"Əhməddə Ümmü Sələmədən bu rəvayəti təsdiqləyən dəlil var".*[852]

Ərəb dilini bilən hər bir şəxs Peyğəmbərin (s) *"Səni yalnız mömin sevər və münafiqdən başqası sənə nifrət etməz"* sözlərindən İmam Əli (ə) üçün əzəmətli fəzilətin təsdiqləndiyini anlayacaq. Əli (ə) imanı nifaqdan ayıran bir tərəzidir. Onu yalnız mömin sevir, yalnız münafiq kəs ona qarşı kin və nifrət duyur.

Bəziləri hədisə ənsarı da daxil edərək bu əzəmətli fəzilətin əhəmiyyətini azaltmağa çalışmışlar. İbn Həzm bu hədisə yazdığı şərhində deyir: *"Bu xüsusiyyətin ənsar (r) haqqında söylənməsi də düzgün olar. Belə ki, Allaha və Axirət gününə iman gətirmiş heç kəs onlara nifrət bəsləməz".*[853]

Əgər həmin xüsusiyyət bütünlükdə ənsar barəsində də isbatlansa, bu, onlar üçün də bir fəzilət sayılacaq. Beləliklə ənsar da İmam Əlinin (ə) təklikdə sahib olduğu fəziləti əldə etmiş olacaq.

Lakin ənsarla bağlı söhbətin iddiaya aşağıdakı iradları bildirmək mümkündür:

A. İbn Həzmin istinad etdiyi ənsarla bağlı rəvayətin sənədi barədə irad və etirazlar var. Onun rəvayət yolu İmamiyyə şiələrinin tələblərinə əsasən, zəifdir və dəlil olmaq səlahiyyətində deyil. Lakin biz onlara İmam Əlinin (ə) fəzilətləri ilə bağlı, onun sahib olduğu xüsusiyyət və məziyyətləri qeyd edən səhih rəvayətləri dəlil təqdim edirik.

---

[849] Müsnəd, Əhməd ibn Hənbəl, c. 1, s. 95, s. 128
[850] Sünən, Tirmizi, c. 5, s. 306
[851] Məcməuz-zəvaid, Heysəmi, c. 9, s. 133
[852] Fəthul-Bari, c. 7, s. 58
[853] əl-Fasl, İbn Həzm, c. 4, s. 244

B. “Ənsarı sevək imandan, nifrət bəsləmək nifaqdandır” hədisi İmam Əli (ə) barədə Peyğəmbərin (s) buyurduğu kəlamdan məzmun etibarı ilə fərqlənir. Ənsarı sevmək və onlara nifrətdən çəkindirməklə bağlı hədis onların Allahın və Elçisinin (s) yardımçıları olma vəsfi ilə qeyd edilir. Hədisin onlar barədəki hökmü yardımçı olmaq amilinə bağlıdır. Yəni onları sevənlərin mömin və nifrət bəsləyənlərin münafiq olmalarına hökm vermək həmin qeyddən asılıdır. Bizim özümüz də Allaha və Peyğəmbərinə (ə) yardım etmiş ənsara qarşı sevginin iman əlaməti və həmin vəsfi daşıdıqları müddətcə onlara nifrət bəsləməyin nifaq əlaməti olduğuna iman bəsləyirik. Lakin bu, heç də o demək deyil ki, biz bütün ənsarı sevməli, onların Peyğəmbərə (s) qarşı çıxmalarını və törətdikləri fasid əməlləri görməzlikdən gəlməliyik. Necə ki, əgər “Alimlərə ehtiram göstərin” deyildikdə, bu, elm sifəti ilə sıx bağlılığı olan alimlərə qarşı ehtiramın vacibliyinə hökm etmiş olur. Onlardan biri bu vəsfdən uzaqlaşsa, artıq ona ehtiram göstərmək vacib hökmünü də itirəcək.

Ancaq İmam Əli (ə) ilə bağlı buyurulmuş hədisdə vəziyyət belə deyil. Həmin hədisdə hökm Möminlərin əmirinin (ə) şəxsi ilə bağlıdır. Burada İmamdakı (ə) vəsf davam etdikcə deyil, onun özünün varlığını sevən şəxsin mömin, nifrət bəsləyənin isə münafiq olduğuna hökm olunur.

4. “Zalım (qəddar) dəstə” hədisi

Buxari “Səhih”ində İkrimədən nəql edir: *“İbn Abbas ona və Əli ibn Abdullaha dedi: Əbu Səidin yanına gedin və onun hədisini dinləyin”. Biz onun yanına getdik. O, qardaşı ilə birgə həyəti sulayırdı. Bizi görüb yanımıza gəldi, dizlərini qarnına birləşdirmiş və dirsəyini onların üstünə qoymuş vəziyyətdə oturdu, sonra dedi: “Məscid tikilərkən bir-bir kərpic daşıyırdıq. Əmmar isə kərpicləri iki-iki aparırdı. Peyğəmbər (s) onun yanına gəldi, başındakı tozu silib buyurdu: “Vay olsun Əmmarı qətlə yetirəcək*

zalım (qəddar) dəstəyə! Əmmar onları Allaha, onlar isə onu Cəhənnəmə dəvət edəcəklər".[854]

Müslim "Səhih"ində Ümmü Sələmədən,[855] Əhməd ibn Hənbəl "Müsnəd"də Əbu Səid Xudridən[856] və həmçinin Abdullah ibn Hərsdən rəvayət edirlər: *"Mən Müaviyə ilə birlikdə Siffindən qayıdırdım. Onunla Əmr ibn Asın arasında gedirdim. Abdullah ibn Əmr ibn As dedi: "Atacan, Peyğəmbərin (s) Əmmara belə dediyini eşitməmisənmi: "Ey Süməyyənin oğlu, vay olsun səni qətlə yetirəcək zalım (qəddar) dəstəyə!"? Əmr Müaviyəyə dedi: "Bunun nə dediyini eşitdin?" Müaviyə dedi: "Sən hələ də bizimlə xırdaçılıq edirsən?! Məgər onu biz öldürdük?! Əmmarın qatilləri onu buraya gətirənlərdir".*[857]

Hakim "Müstədrək"də Muhəmməd ibn Ümarə ibn Xüzeymə ibn Sabit sənədilə nəql edir: *"Atam Cəməl və Siffin savaşlarında əlində silahla iştirak etmişdi. Əmmar ibn Yasir öldürüldükdə dedi: "Peyğəmbərin (s) belə buyurduğunu eşitmişəm: "Əmmarı zalım (qəddar) bir dəstə öldürəcək".*

Ravi deyir: "Bundan sonra qılıncını çəkib öldürülənədək savaşdı".[858]

Bir az fərqli kəlmələrlə: *"Əmmar ibn Yasir qətlə yetirildikdə Xüzeymə dedi: "Artıq onun (Müaviyənin) zəlalətdə olduğu aydınlaşdı".*[859]

---

[854] Səhih, Buxari, c. 3, s. 207, "Cihad və seyr" kitabı

[855] Səhih, Müslim, c. 8, s. 186

[856] Müsnəd, Əhməd ibn Hənbəl, c. 3, s. 5; c. 5, s. 306-307

[857] Müsnəd, Əhməd ibn Hənbəl, c. 2, s. 161

[858] əl-Müstədrək ələs-səhiheyn, c. 3, s. 397. Bunu, həmçinin İbn Əsakir "Tarixu mədinəti Dəməşq" əsərində (c. 16, s. 307; c. 43, s. 471) qeyd edib. Orada deyir: *"Əmmar ibn Yasir öldürüldükdə Xüzeymə dedi: "Zəlalət tərəfi mənim üçün aydın oldu". Sonra savaşa girib öldürülənədək döyüşdü".* İbn Həcər "Fəthul-Bari"də (c. 13, s. 36), "əl-İsabə"də (c. 2, s. 240), Eyni "Ümdətul-qari"də (c. 14, s. 104), Təbərani "əl-Möcəmul-kəbir"də (c. 4, s. 85), İbn Əbdülbərr "əl-İstiab"da (c. 2, s. 448), Mizzi "təhzibul-kəmal"da (c. 21, s. 225), Bəlazuri "Ənsabul-əşraf"da (s. 313-314), Səfidi "əl-Vəfa bil-vəfayat"da (c. 13, s. 192), Xəvarəzmi "əl-Mənaqib"də (s. 191), Muhəmməd ibn Səd "ət-Təbəqatul-kubra"da (c. 3, s. 259) və İbn Əsir "Usdul-ğabə"də, (c. 4, s. 47. Orada Xüzeymənin belə dediyini nəql edilir: *"Məni öz libasımla dəfn edin. Həqiqətən də, mən ona qarşı iddiaçıyam".*) bunu nəql ediblər.

[859] əl-Müstədrəku ələs-səhiheyn, c. 3, s. 385-386

Həmçinin ondan Əmr ibn Mürrəyə yetişən sənədlə rəvayət edilib: *"Abdullah ibn Sələmənin belə dediyini eşitdim: "Əmmar ibn Yasiri Siffin savaşı günü gördüm. Uzunboy, ağsaqqal, qarabəniz şəxs idi. Nizəsini götürdü, əli titrəyirdi. Dedi: "Canım əlində olana and olsun ki, bu nizə ilə Peyğəmbərin (s) yanında üç dəfə savaşmışam. Bu dördüncüsüdür. Canım əlində olana and olsun ki, əgər zərbələri ilə bizi Hicr xurma bağlarınadək geri qovsalar da bilirəm ki, biz haqq, onlar isə batildir".*

Sonra Hakim deyir: *"Buxari və Müslimin şərtinə əsasən səhihdir. Onlar nəql etməyiblər".*[860]

Başqa kəlmələrlə: *"Əminliklə bildim ki, mən haqq, onlar isə batil üzərindədilər".*[861] Həmçinin: *"Bildik ki, biz haqq, siz isə batilsiniz".*[862]

5. "Xəlvət söhbət" hədisi

Tirmizi "Sünən"də Əcləh sənədilə Əbu Zübeyrdən, o da Cabirdən rəvayət edir: *"Taif yürüşündə Peyğəmbər Əlini çağırıb onunla təkbətək gizli söhbətə başladı. Camaat "Əmisi oğlu ilə xəlvətdə söhbəti nə uzun çəkdi" deməyə başladı. Peyğəmbər (s) buyurdu: "Onunla mən deyil, Allah gizli söhbət edirdi".*

---

[860] əl-Müstədrəku ələs-səhiheyn, c. 3, s. 392. Heysəmi bunu "Məcməuz-zəvaid"də (c. 7, s. 243, c. 9, s. 294, 298), Süleyman ibn Davud Təyalisi "Müsnəd"də (s. 89), Əbu Cəfər İskafi "əl-Miyar vəl-muvazinə"də (s. 154), İbn Əbu Şeybə Kufi "Müsənnəf"də (c. 8, s. 722, 726, 727), İbn Hibban "Səhih"də (c. 15, s. 556), İbn Əbdülbərr "əl-İstiab"da (c. 3, s. 1139, 1140), İbn Əsakir "Tarixu mədinəti Dəməşq"də (c. 43, s. 362, 363, 465, 472), Mizzi "Təhzibul-kəmal"da (c. 21, s. 225), Zəhəbi "Siyəru əlamin-nübəla"da (c. 1, s. 408), Bəlazuri "Ənsabul-əşraf"da (s. 317), Yaqubi "Tarix"də (c. 2, s. 188), Təbəri "Tarix"də (c. 4, s. 27) və "əl-Muntəxab min zeylil-muzil"də (s. 16), İbn Əsir "əl-Kamilu fit-tarix"də (c. 3, s. 308-310, 310) və "əl-Bidayətu vən-nihayə"də (c. 7, s. 296), Sefidi "əl-Vafi bil-vəfayat"da (c. 22, s. 233) və Xəvarizmi "əl-Mənaqib"də (s. 195) nəql ediblər.

[861] əl-Müstədrəku ələs-səhiheyn, c. 3, s. 384

[862] əl-Müstədrəku ələs-səhiheyn, c. 3, s. 386

Tirmizi hədisin ardınca deyir: *"Bu, həsən qəribə hədisdir. Bunu yalnız Əcləhin hədisində görmüşəm. İbn Füzeyldən başqaları da bu rəvayəti Əcləhdən nəql ediblər".*[863]

İbn Əsakir yazır: *"Deyirəm: Bunu Əbu Zübeyrdən bir dəstə adam da rəvayət edib".*[864]

Zəhəbi də bunu Əmmar yolu ilə Əbu Zübeyrdən, o da Cabir ibn Abdullahdan və Əməş yolu ilə də Əbu Zübeyrdən, o da Cabirdən, eləcə də Salim ibn Əbu Həfsə və İbrahim ibn Həmmad yolu ilə Əbu Zübeyrdən, o da Cabirdən rəvayət edib.[865]

Təbərani "əl-Möcəmul-kəbir"də Salim ibn Əbu Həfsə yolu ilə Əbu Zübeyrdən, o da Cabirdən nəql edir: *"Əbu Bəkr (r) ona dedi: "Ya Peyğəmbər, bu gün Əli ilə təkbətək söhbətin olduqca uzun çəkdi. Peyğəmbər (s) buyurdu: "Onunla xəlvətdə mən deyil, Allah danışırdı".*[866]

Əbu Zübeyrin saxtakar olduğu və bəzən də tam silsiləvi istinadlarla rəvayət nəql etdiyi barədə bəzilərinin sözlərinin heç bir əsası yoxdur. Onun silsiləvi istinadla nəql etdiyi rəvayətləri Müslim öz "Səhih"ində qeyd edib.[867] Bir dəstə alim də Əbu Zübeyrin hədislərini səhih sayıb. Həmin hədislər də silsiləvi istinadla nəql edilir. Onlardan: "Mustədrək"də Hakim,[868] "ət-Təlxis"də Zəhəbi,[869] İbn Hibban "Səhih"də[870] və s.

Bundan başqa, əgər onun saxtakarlıq etdiyini (bəzi ravilərin adlarını gizlətdiyini) fərz etsək, bəzilərinin fikrinə görə onun adlarını söyləmədiyi

---

[863] Sünən, Tirmizi, c. 5, s. 303

[864] Tarixu mçədinəti Dəməşq, İbn Əsakir, c. 42, s. 315

[865] Tarixu mçədinəti Dəməşq, İbn Əsakir, c. 42, s. 315

[866] əl-Möcəmul-kəbir, Təbərani, c. 2, s. 186

[867] Bunlar yüzdən artıq hədisdir.

[868] Əbu Zübeyrin Cabirdən nəql etdiyi 40-dan artıq hədisi Buxari və Müslimin və ya onlardan birinin şərtinə əsasən, səhih saymışdır.

[869] Əbu Zübeyrin Cabirdən nəql etdiyi 30-dan artıq hədisi Buxari və Müslimin və ya onlardan birinin şərtinə əsasən, səhih saymışdır.

[870] Əbu Zübeyrin Cabirdən nəql etdiyi 80-dən artıq hədisi Buxari və Müslimin və ya onlardan birinin şərtinə əsasən, səhih saymışdır.

ravilər də etibarlı (siqə_ şəxslər olub. İbn Qeyyim deyir: *"Əbu Zübeyr – onda (ravinin adını gizlətməklə) saxtakarlıq varsa da o, ittiham olunan və ya zəif ravilərin adlarını gizlədən şəxs kimi tanınmayıb. Onun saxtakarlığı keçmişdəkilərin (sələflərin) saxtakarlığı növündəndir ki, onlar da ravilərin ittiham olunan və ya zəif şəxslər olduqları üçün ravilərin adlarını gizlətmirdilər. Məzəmmət olunan saxtakarlıq isə sonrakıların arasında geniş yayılmağa başladı".*[871]

Hədis alim və hafizləri bu rəvayəti bir çox başqa yollarla və fərqli kəlmələrlə də qeyd ediblər. Lakin məqsədimiz xülasə qeydlər olduğu üçün onları burada sadalamırıq.

Tirmizi Allahın Əli (ə) ilə xəlvətdə danışmasını açıqlayarkən deyir: *"Onunla xəlvətdə mən deyil, Allah danışırdı" sözünün mənası budur: Mənə onunla xəlvətdə danışmağı Allah əmr etmişdi".*[872]

Mübarəkpuri Tayyibidən nəql edir: *"Bu, ilahi sirr və qeybi məsələlər idi ki, Əlini onların xəzinədarı etdi. Qari deyir: "Zahir rəy budur ki, həmin məsələlər dinlə bağlı dünyəvi xəbərlər idi. Məsələn, savaşlar və s."*[873]

6. "Əlinin qarısından savayı bütün qapıların bağlanması" hədisi

Əhməd ibn Hənbəl öz "Müsnəd"ində bir çox rəvayət yolu ilə nəql edib. Onlardan biri də Zeyd ibn Ərqəmdən nəql olunan rəvayətdir: *"Bir dəstə səhabənin evinin qapısı məscidə açılırdı. Bir gün Əlidən savayı digər səhabələrin qapılarını bağlamalarını söylədilər. Camaat narazılıq etdi. Peyğəmbər (s) qalxıb Allaha həmd-səna söylədikdən sonra buyurdu: "Əlidən savayı digərlərinin evlərinin məscidə açılan qapılarını bağlamaq mənə əmr olunub. Sizin aranızda bundan narazılıq edən var. Allaha and olsun ki, mən*

---

[871] Zadul-məad, İbn Qeyyim Cövziyə, c. 5, s. 457
[872] Sünən, Tirmizi, c. 5, s. 303
[873] Tuhfətul-əhvəzi, c. 10, s. 158-159

nəyisə açıb, nəyisə bağlayan deyiləm. Ancaq mənə əmr edilib və mən də ona tabe oluram".[874]

Bunu həmçinin ondan Hakim "Müstədrək"ində nəql edib və səhih olduğunu bildirib. Hədisin ardınca deyir: *"Bu, sənədi səhih hədisdir, Buxari və Müslim kitablarında nəql etməyiblər".*[875]

7. "Qardaşlaşma" hədisi

Tirmizi Cümey ibn Ümeyr sənədilə İbn Ömərdən nəql edir: *"Peyğəmbər (s) səhabələrinin arasında qardaşlıq yaratdı. Əli gözləri yaşla dolu halda gəlib dedi: "Ya Peyğəmbər, səhabələrin arasında qardaşlıq yaratdın, lakin məni heç kimlə qardaş etmədin". Peyğəmbər (s) buyurdu: "Sən mənim dünya və axirətdə qardaşımsan".*[876]

İbn Həcər hədisi qeyd etdikdən sonra yazır: *"Bu, əvvəldə təqdim etdiyim hədislə birləşdirildikdə daha da qüvvətlənir".*[877]

"Mənzilət" hədisindən bəhs edərkən "Qardaşlaşma" hədisi barədə də söhbət açmışdıq.

8. "İlahi, o harada olsa haqqı onun ətrafında dövr etdir" hədisi

Tirmizi "Sünən"də Möminlərin əmiri Əliyə (ə) istinadla nəql edir: *"Peyğəmbər (s) buyurdu: "Allah Əliyə mərhəmət göstərsin! İlahi, o harada olsa haqqı onun ətrafında dövr etdir".*[878]

Hakim "Müstədrək"də bunu nəql edərək səhih olduğunu bildirib: *"Bu, Müslimin şərtinə əsasən, səhih hədisdir. Buxari və Müslim kitablarında qeyd etməyiblər".*[879]

---

[874] Müsnəd, Əhməd ibn Hənbəl, c. 4, s. 369
[875] əl-Müstədrəku ələs-səhiheyn, c. 3, s. 125
[876] Sünən, Tirmizi, c. 5, s. 636, hədis 372, bab 21
[877] Fəthul-Bari, c. 7, s. 211
[878] Sünən, Tirmizi, c. 5, s. 297, Əbdürrəhman Muhəmməd Osmanın təhqiqi ilə
[879] əl-Müstədrəku ələs-səhiheyn, c. 3, s. 125

Mənavinin "Feyzul-qədir"dəki sözlərinə əsasən, Süyuti "əl-Camius-sağir"də rəvayətin səhih olduğunu qeyd edib.[880]

Həmçinin bu hədisi Əbu Yəla "Müsnəd"də,[881] Təbərani "əl-Möcəmul-övsat"da,[882] İbn Əsakir "Tarixu mədinəti Diməşq"də[883] və s. kitablarda nəql ediblər.

9. "Əli Quranla, Quran da Əli ilədir" hədisi

Hakim "Müstədrək"də Əbuzərin azad edilmiş köləsi Sabitə istinadən nəql edir: *"Cəməl günü Əli (r) ilə birlikdə idim. Aişəni orada dayanan gördükdə camaata gələn fikirlər mənə də gəldi. Yalnız zöhr namazında Allah məndən bunu uzaqlaşdırdı, Möminlərin əmiri ilə birlikdə savaşa girdim. Döyüş bitdikdən sonra Mədinəyə qayıtdım, Ümmü Sələmənin yanına gedib dedim: "Allaha and olsun ki, mən səndən yemək və içmək diləməyə gəlməmişəm. Mən Əbuzərin köləsiyəm". Dedi: "Xoş gəlmişsən". Sonra bu hadisəni ona danışdım. Dedi: "Qəlblər bu cür ürkəndə sən nə edirdin?" Dedim: "Ta ki, Allah məndən bu fikirləri günorta vaxtı uzaqlaşdırdı". Dedi: "Əhsən, Peyğəmbərin (s) belə buyurduğunu eşitmişəm: "Əli Quranla, Quran da Əli ilədir. Hovuz başında mənə qovuşanadək əsla bir-biridən ayrılmazlar".*

Hakim rəvayətin səhih olduğunu bildirib: *"Bu, səhih hədisdir".*[884] Zəhəbi də "ət-Təlxis"də onun hökmü ilə razılaşıb.[885]

10. "Əli haqq ilə, haqq da Əli ilədir" hədisi

İbn Əsakir "Tarixu mədinəti Diməşq" kitabında Əbuzərin köləsi Sabit sənədilə,[886] Xətib Bağdadi "Tarixu Bağdad"da,[887] Əbu Cəfər İskafi "əl-

---

[880] Feyzul-qədir, c. 4,s əh.25
[881] Müsnəd, Əbu Yəla Mosuli, c. 1, s. 419
[882] əl-Möcəmul-övsat, c. 6, s. 95
[883] Tarixu mədinəti Dəməşq, İbn Əsakir, c. 30, s. 63, c. 42, s. 448, c. 44, s. 139
[884] əl-Müstədrəku ələs-səhiheyn, c. 3, s. 124
[885] Bax: "Müstədrək, Zəhəbinin "Təlxis"dəki haşiyələrilə, c. 3, s. 134

Miyar vəl-muvazinə”də Əmmar ibn Yasirdən rəvayət edirlər: *“Peyğəmbərin (s) belə buyurduğunu eşitdim: Əli haqq ilə, haqq da Əli ilədir. Qiyamət günü Hovuzun başında yanıma varid olanadək bir-birindən əsla ayrılmazlar”.*[888]

Heysəmi “Məcməuz-zəvaid”də Muhəmməd ibn İbrahim Teymidən nəql edir: *“Filankəs Həcc üçün Mədinəyə gəldi. Camaat onun aynına gedib salam verdilər. Səd də ora gəlib salam verdi. Sonra dedi: “Bu, haqq işimizə yardım etmir, başqalarının batili üzərindədir”.*

Deyir: Cavab verməyib bir müddət susdu.

Kişi dedi: “Sənə nə olub? Niyə danışmırsan?”

Səd: Fitnə və zülmətlər aləmi bürüyüb, mən də dəvəmə “İx, ix” deyib dizi üstə oturtmuşam.

Kişi: Mən Allahın kitabını əvvəldən axıra qədər oxumuşam, orada “ix, ix” deyə bir sözə rast gəlməmişəm.

Səd: Əgər belə deyirsənsə, mən Peyğəmbərdən (s) eşitmişəm ki, buyurub: “Əli haqq ilə, haqq Əli ilədir”.

Kişi: Bunu kimdən eşitmisən?

Səd: Ümmü Sələmənin evində söyləyib bunu.

Ravi deyir: “Adam göndərib Ümmü Sələmədən bu barədə soruşdu. Ümmü Sələmə təsdiq edərək: “Peyğəmbər (s) həmin sözləri mənim evimdə söyləyib” dedi”.

Bu cavabdan sonra kişi üzünü Sədə tutub dedi: “Əlbəttə, sən mənim yanımda indi danlanmağa daha layiqsən”. Səd bunun səbəbini soruşduqda belə cavab verdi: “Əgər bunu Peyğəmbərdən (s) mən eşitsəydim, ölənədək Əlinin xidmətçisi olardım”.

Heysəmi rəvayətin ardınca deyir: *“Bunu Bəzzar rəvayət edib. Ravilərin arasında Səd ibn Şüeyb var ki, onu tanımıram. Digər raviləri “Səhih”in*

---

[886] Tarixu mədinəti Dəməşq, c. 42, s. 449

[887] Tarixu Bağdad, c. 14, s. 322

[888] əl-Miyar vəl-muvazinə, s. 119, I çap, miladi 1981-ci il

raviləridir".[889] Şəmsəddin Cüzcani həmin ravini etibarlı (siqə) sayıb: *"Saleh, doğru danışan və şeyx idi".*[890]

11. "Səndən ayrılan məndən ayrılmışdır" hədisi

Əhməd ibn Hənbəl "Fəzailus-səhabə"də Əbuzər sənədilə rəvayət edir: *"Peyğəmbər (s) buyurdu: "Ey Əli, məndən ayrılan şəxs Allahdan uzaqlaşmışdır. Səndən uzaqlaşan da məndən ayrılmışdır".*[891]

Heysəmi də "Məcməuz-zəvaid"də bunu nəql edərək ardınca yazır: *"Bunu Bəzzar rəvayət edib, raviləri etibarlı şəxslərdir".*[892]

Hakim "Müstədrək"də rəvayət edərək səhih olduğunu deyir: *"Səhih istinadlıdır, Buxari və Müslim nəql etməyiblər".*[893]

Həmçinin İbn Əsakir "Tarixu mədinəti Diməşq"də,[894] Təbərani "əl-Möcəmul-kəbir"də,[895] Abdullah ibn Ədiy "əl-Kamil"də[896] və başqaları nəql ediblər.

12. "Haqq Əli ilədir" hədisi

Əbu Yəla öz "Müsnəd"ində Əbdürrəhman ibn Əbu Səidə istinadən onun atasından rəvayət edir: *"Əli ibn Əbu Talib yanımızdan keçdiyi anda Peyğəmbər (s) buyurdu: "Haqq bununladır, haqq bununladır".*[897]

Bunu Heysəmi "Məcməuz-zəvaid"də rəvayət edərək deyir: *"Rəvayəti Əbu Yəla nəql edib, raviləri etibarlı (siqə) şəxslərdir".*[898]

---

[889] Məcməuz-zəvaid, c. 7, s. 235-236.

[890] əl-Ğadir, Əmini, c. 3, s. 177.

[891] Fəzailus-səhabə, c. 2, s. 570.

[892] Məcməuz-zəvaid, c. 9, s. 135.

[893] əl-Müstədrəku ələs-səhiheyn, c. 3, s. 124. Mənavi "Feyzul-qədir"də (c. 4, s. 470) yazır: *"Bunu Bəzzar Əbu Zərrə istinadən nəql edib: "Peyğəmbər (s) Əliyə dedi:.."*

[894] Tarixu mədinəti Dəməşq, c. 42, s. 307

[895] əl-Möcəmul-kəbir, c. 12, s. 323

[896] əl-Kamil, c. 3, s. 83, III çap, miladi 1988-ci il, Yəhya Muxtar Ğəzavinin təhqiqi ilə, "Darul-fikr" mətbəəsi

[897] Müsnəd, Əbu Yəla, c. 2, s. 317

13. "Tövbə" surəsinin təbliği

Buxari "Səhih"ində Hümeyd ibn Əbdürrəhman yolu ilə rəvayət edir: *"...Ardınca Peyğəmbər (s) Əli ibn Əbu Talibi göndərərək "Bəraət" surəsini elan etməyi ona tapşırdı".*[899]

Əhməd ibn Hənbəl "Müsnəd"də Möminlərin əmiri (ə) yolu ilə nəql edir: *"Tövbə" surəsinin ilk on ayəsi nazil olduqda Peyğəmbər (s) Əbu Bəkri (r) çağıraraq Məkkəyə gedib ayələri oranın əhalisinə oxumağı tapşırdı. Qısa müddət sonra isə məni yanına çağıraraq buyurdu: "Əbu Bəkrə yetiş, məktubu ondan al".*

Əbu Bəkr Peyğəmbərin (s) yanına qayıdıb dedi: "Ya Peyğəmbər, mənim barəmdə nə isə nazil oldu?" Peyğəmbər (s) buyurdu: "Xeyr, lakin Cəbrail yanıma gələrək dedi: "Bunu yalnız sən özün və ya əvəzində səndən olan bir şəxs yerinə yetirə bilər".[900]

Heysəmi "Məcməuz-zəvaid"də Abdullah ibn Əhməd ibn Hənbəldən nəql edir və deyir: *"Bunu Abdullah ibn Əhməd rəvayət edib. Ravilərin arasında Muhəmməd ibn Cabir Süheymi var ki, o, zəif ravidir, amma etibarlı da sayılıb".*[901]

Həmçinin Əbu Bəkr yolu ilə nəql edilib: *"Peyğəmbər (s) buyurdu: "Yalnız mənim və ya özümdən bir şəxsin təbliğ etməsi mənə əmr olundu".*[902]

Ona istinadən Heysəmi də "Məcməuz-zəvaid"də nəql edir və deyir: *"Bunu Əhməd rəvayət edib, raviləri etibarlı (siqə) şəxslərdir".*[903]

Eləcə də Nəsai "Sünən"də Səd yolu ilə rəvayət edir: *"Peyğəmbər (s) Əbu Bəkri "Bəraət" surəsinin təbliği üçün göndərdi. Yolun bir hissəsini qət etmişdi ki, ardınca Əlini göndərdi. Əli ayələri ondan alıb özü yola davam*

---

[898] Məcməuz-zəvaid, Heysəmi, c. 7, s. 235
[899] Səhih, Buxari, c. 5, s. 202
[900] Müsnəd, Əhməd ibn Hənbəl, c. 1, s. 151
[901] Məcməuz-zəvaid, Heysəmi, c. 7, s. 29
[902] Müsnəd, Əhməd ibn Hənbəl, c. 1, s. 3
[903] Məcməuz-zəvaid, Heysəmi, c. 3, s. 239

etdi. Əbu Bəkr bundan narahatlıq keçirdi. Dedi: "Peyğəmbər (s) buyurdu ki, bunu yalnız özüm və ya əvəzimə məndən olan bir şəxs yerinə yetirə bilər".[904]

Tirmizi də "Sünən"də Ənəs ibn Malik yolu ilə nəql edir: *"Peyğəmbər (s) "Bəraət" surəsini Əbu Bəkrlə göndərdi. Sonra onu geri çağırıb buyurdu: "Əhlimdən olan şəxslərdən başqa bunu heç kim təbliğ edə bilməz". Sonra Əlini çağırıb ayələri ona verdi".*

Tirmizi deyir: *"Bu, Ənəsin həsən qəribə hədislərindəndir".*[905]

İbn Həcər deyir: *"Əlinin Məkkəyə göndərildiyi bir çox rəvayət yolları ilə sübuta yetib. Təbəri Əbu Saleh yolu ilə Əlidən nəql edir: "Peyğəmbər (s) Əbu Bəkri "Bəraət" surəsi ilə Məkkə əhalisinin yanına göndərdi. Sonra isə məni onun ardınca göndərdi. Mən ona yetişib ayələri aldım. Əbu Bəkr (Peyğəmbərdən) nə baş verdiyini soruşduqda o, buyurdu: "Xeyirdir... Mənim adımdan yalnız mən və ya məndən olan bir şəxs təbliğ edə bilər".*

Bunun eynisi Əmr ibn Ətiyyə yolu ilə onun atasından Əbu Səid Xudriyə istinadən nəql olunub. Və həmçinin Əmri yolu ilə Nafidən, o da İbn Ömərdən rəvayət edib.

Tirmizi Muqsimin hədisində bunu İbn Abbasdan daha geniş mətnlə nəql edib.

Təbərani isə Əbu Rafidən eyni hədisi rəvayət edir, ancaq oradakı əlavədə belə deyilir: "Cəbrail nazil olaraq dedi: "Bunu sənin adından yalnız özün və ya səndən olan bir şəxs yerinə yetirə bilər".

Tirmizi bunu rəvayət edərək hədisin həsən olduğunu bildirib. Əhməd də Ənəsin hədisini nəql edir: "Peyğəmbər (s) "Bəraət" surəsini Əbu Bəkrlə göndərdi. Sonra Əlini çağırıb ayələri ona verdi və buyurdu: "Bunu əhlimdən olan şəxslərdən başqası mənim əvəzimə yerinə yetirə bilməz..."

Səid ibn Mənsur, Tirmizi, Nəsai və Təbəri Əbu İshaq yolu ilə Zeyd ibn Yuseydən nəql edirlər: "Əlidən orada nə yazıldığını soruşdum. Dedi: "Orada

---

[904] əs-Sünənul-kubra, Nəsai, c. 5, s. 129

[905] Sünən, Tirmizi, c. 4, s. 339

deyilirdi ki, Cənnətə mömindən başqası daxil olmayacaq, Kəbə lüt şəkildə təvaf edilməməlidir, bu ildən etibarən müsəlmanlarla müşriklər Həcc üçün birlikdə toplaşa bilməzlər, kimdən əhd alınmışdısa müddəti bitənədək qüvvədədir, əhd bağlanmayanların isə dörd ay müddətləri var".[906]

14. "Sizin aranızda Əhli-Beytimin məsəli Nuhun gəmisi kimidir" hədisi

Əhməd ibn Hənbəl "Fəzailus-səhabə"də Hənəş Kinaniyə istinadən rəvayət edir: *"Əbuzərin Kəbənin qapısından yapışaraq belə dediyini eşitdim: "Məni tanıyan tanıyır, kim tanımırsa bilsin ki, mən Əbuzərəm. Peyğəmbərin (s) belə buyurduğunu eşitmişəm: "Bilin və agah olun ki, Əhli-Beytimin sizin aranızda məsəli Nuhun gəmisinin məsəli kimidir. Ona minən nicat tapar, kənarda qalan isə həlak olar".*[907]

Hakim "Müstədrək"də Yunus ibn Bükeyr yolu ilə Müfəzzəl ibn Salehdən, o da Əbu İshaqdan, o da Hənəş Kinanidən nəql edərək deyir: *"Müslimin şərtinə əsasən, səhih hədisdir. Buxari və Müslim nəql etməyiblər".*[908] "ət-Təlxis"də Zəhəbi onun sözlərinin ardınca yazır: *"Müfəzzəldən yalnız Tirmizi rəvayət edib. Onu zəif biliblər".*[909]

Həmçinin "Müstədrək"də Muhəmməd ibn İsmail Əhməsi yolu ilə Müfəzzəl ibn Salehdən, o da Əbu İshaqdan, o da Hənəş Kinanidən[910] nəql edib, Zəhəbi "ət-Təlxis"də yazıb: *"Müfəzzəl ibn Saleh zəifdir".*[911]

---

[906] Fətuhul-Bari, İbn Həcər, c. 8, s. 239.

[907] Fəzaiuls-səhabə, Əhməd ibn Hənbəl, c. 2, s. 785, I çap, miladi 1983-cü il, Dr.Vəsiyullah Muhəmməd Abbasın təhqiqi ilə, "ər-Risalə" müəssisəsinin nəşri, Beyrut

[908] əl-Müstədrəku ələs-səhiheyn, c. 2, s. 343

[909] əl-Müstədrəku ələs-səhiheyn, c. 2, s. 373, hədis 3312, Zəhəbinin "ət-Təlxis"dəki qeydlərilə

[910] əl-Müstədrəku ələs-səhiheyn, c. 3, s. 163, hədis 4720, Zəhəbinin "ət-Təlxis"dəki qeydlərilə

[911] əl-Müstədrəku ələs-səhiheyn, c. 3, s. 163, hədis 4720, Zəhəbinin "ət-Təlxis"dəki qeydlərilə

Müfəzzəl ibn Saleh Tirmizinin ravilərindəndir. Bunu yuxarıdakı sözlərində Zəhəbi və "Təhzibut-təhzib"də İbn Həcər də qeyd ediblər.[912]

Əbu Hatəm, İbn Ədiy kimi bəzi rical alimləri Müfəzzəl ibn Saleh və Müfəzzəl ibn Abdullahın eyni şəxs olduğu qənaətinə gəliblər. Necə ki, bunu İbn Həcər də "Təqribut-təhizb"də etiraf edərək deyir: *"Müfəzzəl ibn Abdullah Kufi... Əbu Hatəm deyir: "Bu İbn Salehdir. Bəziləri onun atasının adında xətaya yol veriblər".*[913]

Başqa bir yerdə isə yazır: *"Müfəzzəl ibn Abdullah Kufi... İbn Ədiy onun Müfəzzəl ibn Saleh olduğunu, Süveyd ibn Səidin onun atasının adı ilə bağlı xəta etdiyini güman edib. Sonra isə Süveyd yolu ilə ondan hədislər rəvayət edərək onu belə adlandırıb. Ardınca başqa yollarla rəvayət nəql edərək deyir: Müfəzzəl ibn Salehdən..."*[914]

Müfəzzəl ibn Abdullah İbn Macənin ravilərindəndir.[915] İbn Hibban onu etibarlı saymış, "Lisanul-mizan"da da İbn Həcər bunu qeyd edib: *"Müfəzzəl ibn Abdullah Kufi – Əbu İshaqdan, o da Süveyd ibn Səiddən rəvayət edib. İbn Hibban onu etibarlı (siqə) sayıb".*[916]

Zəhəbinin Müfəzzəl ibn Saleh barəsində yuxarıdakı iki fikri qarışıqdır. *"Onu zəif biliblər"* sözü şəxsən Zəhəbinin onun barəsində susduğunu göstərir. Əgər özü də onu zəif hesab etsəydi bunu vurğulayardı. Xüsusilə də qeyd etmək lazımdır ki, o, Əhli-Beytin (ə) fəzilətlərinə dair rəvayəti olan raviləri zəif hesab etməyə tələsənlərdəndir. Eynilə *"Onu zəif biliblər"* sözlərini "əl-Kaşif"də, Müfəzzəlin tərcümeyi-halında da qeyd edib.[917]

Bəli, lakin ikinci "zəifdir" sözü aydın şəkildə onun fikrini ifadə edir.

Mümkündür ki, bu qarışıqlığın səbəbi hədisin mətni ilə bağlıdır. Belə ki, hər iki mənbəki hədisin sözlərində fərqliliklər var. Yunus ibn Bükeyrin

---

[912] Təhzibut-təhzib, İbn Həcər, c. 10, s. 243
[913] Təqribut-təhzib, İbn Həcər, c. 2, s. 208
[914] Təhzibut-təhzib, c. 10, s. 243
[915] Təhzibut-təhzib, c. 10, s. 243
[916] Lisanul-mizan, İbn Həcər, c. 7, s. 396
[917] əl-Kaşifu fi mərifəti mən ləhu rivayətun fi kutubis-sittə, Zəhəbi, c. 2, s. 289

rəvayətində deyilir: *"Əbuzərin Kəbənin qapısından tutaraq belə dediyini eşitdim: "Ey camaat, kim məni tanıyırsa, mən elə onların tanıdığı şəxsəm, kim tanımırsa bilsin ki, mən Əbuzərəm. Peyğəmbərin (s) belə buyurduğunu eşitmişəm: "Əhli-Beytimin sizin aranızda məsəli Nuhun gəmisinin məsəli kimidir. Ona minən nicat tapar, kənarda qalan isə qərq olar".*[918]

Məhz bu rəvayətlə bağlı Zəhəbi Müfəzzəlin *"Onu zəif biliblər"* sözünə hədəf olub.

Muhəmməd ibn İsmail Əhməsi yolu ilə nəql edilən rəvayətdə isə deyilir: *"Əbuzərin Kəbənin qapısından yapışaraq belə dediyini eşitdim: "Məni tanıyan tanıyır, kim tanımırsa bilsin ki, mən Əbuzərəm. Peyğəmbərin (s) belə buyurduğunu eşitmişəm: "Bilin və agah olun ki, Əhli-Beytimin sizin aranızda məsəli Nuhun gəmisinin məsəli kimidir. Ona minən nicat tapar, kənarda qalan isə həlak olar".*[919]

Bu isə Zəhəbinin Müfəzzəl barədə *"zəifdir"* dediyi hədisdir.

Məlumdur ki, Muhəmməd ibn İsmail yolu ilə nəql olunan bu rəvayət Əhli-Beytdən (s) başqasının yolu ilə gedənlərin zəlalət və həlakına aydın şəkildə dəlalət edir.

Buxari və Əbu Hatəmin Müfəzzəli, öz gümanlarına əsasən, hədislərində inkar olunan fikirlərin varlığı cəhətindən zəif saymalarına gəldikdə isə, Mizzi "Təhzibul-kəmal"da yazır: *"Müfəzzəl ibn Saleh Əsədi, Əbu Cümeylə, Əbu Əli olduğu da deyilib, kufəli tacirdir... Əbu Hatəm və Buxari deyirlər: "Hədisləri inkar olunur".*[920]

İbn Ədiy onların sözlərinin ardınca Müfəzzəlin bir neçə hədisini qeyd edir və deyir: *"Onun yalnız Həsən ibn Əlidən olan hədisinin inkar edildiyini gördüm, digərlərinin düzgün olduğunu düşünürəm".*[921]

---

[918] əl-Müstədrəku ələs-səhiheyn, c. 2, s. 343

[919] əl-Müstədrəku ələs-səhiheyn, c. 3, s. 163, hədis 4720

[920] Təhzibul-kəmal, Mizzi, c. 28, s. 410

[921] Bunu ondan "Mizanul-itidal"da Zəhəbi (c. 4, s. 167) və "Təhzibut-təhzib"də İbn Həcər (c. 10, s. 243) nəql ediblər.

İbn Həcər də "Təhzibut-təhzib"də bu sözlərin ardınca yazır: *"Yəni Həsən ibn Əlinin hədisi: "Cabir yanıma gəlib dedi: "Mənim üçün qarnını aç..."*[922]

İbn Həcərin bu sözləri yanlışdır. Aydındır ki, o, Əbu Hüreyrənin Peyğəmbərin (s) nəvəsi Həsən ibn Əlinin qarnını öpdüyünü gördüyü, özünün də Peyğəmbər (s) öpən yerdən öpməsini istədiyi Ümeyr ibn İshaqın hədisi ilə Cabir Ənsarinin İmam Baqirin (ə) qarnını öpməsi və ona babası Peyğəmbərin (s) salamını çatdırması hədisini dəyişik salıb.

Bu iki hədis Müfəzzəl ibn Salehin hədislərinin inkarına dəlil göstərilmək səlahiyyətində deyil. Çünki Ümeyr ibn İshaqın hədisinin sənədi səhihdir. Cabir Ənsarinin hədisi isə bundan başqa rəvayət yolu ilə də nəql edilib.

Əhməd ibn Hənbəl "Müsnəd"də İbn Ovn yolu ilə Ümeyr ibn İshaqdan nəql edir: *"Əbu Hüreyrənin Həsən ibn Əli ilə rastlaşıb belə dediyini gördüm: "Qarnını aç ki, onu öpüm. Belə ki, Peyğəmbərin (s) həmin yerdən öpdüyünü görmüşəm". Ravi deyir: "Həsən ibn Əli qarnını açdı və Əbu Hüreyrə həmin yerdən öpdü".*[923]

Başqa kəlmələrlə: *"Əbu Hüreynənin Həsən ibn Əli ilə görüşdükdə belə dediyini eşitdim: "Mənim üçün qarnını aç, belə ki, Peyğəmbərin (s) oradan öpdüyünü görmüşəm". Həsən ibn Əli qarnını açdı və o da öpdü".*[924]

Heysəmi "Məzməuz-zəvaid"də hədisi rəvayət edərək deyir: *"Bunu Əhməd və Təbərani rəvayət ediblər. Lakin orada deyilir: "Qarnını açdı və əlini göbəyinə qoydu". Hər iki rəvayətin raviləri "Səhih"in raviləridir. Yalnız Ümeyr ibn İshaqdan savayı, o, etibarlı (siqə) şəxsdir".*[925]

Zeyləi "Nəsbur-rayə"də yazır: *"On səkkizinci hədis: "Həsən ibn Əli göbəyini açdı və Əbu Hüreyrə onun göbəyini öpdü".*

---

[922] Təhzibut-təhzib, İbn Həcər, c. 10, s. 243
[923] Müsnəd, Əhməd ibn Hənbəl, c. 2, s. 428
[924] Müsnəd, Əhməd ibn Hənbəl, c. 2, s. 488
[925] Məcməuz-zəvaid, Heysəmi, c. 9, s. 177

Deyirəm: "Bunu Əhməd "Müsnəd"də, İbn Hibban "Səhih"də və Beyhəqi "Sünən"də İbn Ovndan, o da Ümeyr ibn İshaqdan nəql edib: "Həsən ibn Əli ilə Mədinənin küçələrində gəzirdik..." Həmçinin İbn Əbu Şeybə "Müsnəd"ində İbn Hibban yolu ilə Şərikdən, o da İbn Ovndan bunu nəql edib. Eləcə də Əhmədin sənədinə görə: İsmail bizə İbn Ovndan nəql edib".[926]

Təbərani "əl-Möcəmul-övsat"da Süveyd ibn Səid yolu ilə Müfəzzəl ibn Salehdən, o da Aban ibn Təğlibdən, o da Əbu Cəfər Muhəmməd ibn Əli ibn Hüseyndən rəvayət edir: *"Cabir ibn Abdullah yanıma gəlib dedi: "Qarnını aç". Mən qarnımın üzərini açdım. Cabir onu öpüb dedi: "Peyğəmbər (s) salamını sənə çatdırmamı mənə buyurub".*[927]

Həmçinin İbn Əsakir də Süveyd ibn Səid yolu ilə Müfəzzəl ibn Abdullahdan, o da Aban ibn Təğlibdən, o da Muhəmməd ibn Əlidən (ə) nəql edir: *"Cabir ibn Abdullah yanıma gəlib dedi: "Qarnını aç". Mən qarnımın üzərini açdım. Cabir onu öpüb dedi: "Peyğəmbər (s) sənə salam söyləməmi buyurmuşdur".*

Başqa bir yerdə də bu sənədlə Muhəmməd ibn Əli ibn Hüseyn ibn Möminlərin əmiri Əlidən nəql edir: *"Həsən ibn Əli dedi: "Cabir ibn Abdullah yanıma gəlib..."*[928] Hədisi qeyd etdikdən sonra ardınca yazır: *"Əbu Əhməd dedi: "İbn Teyyib bizə belə xəbər verdi ki, Süveyd dedi: Müfəzzəl ibn Abdullah... O, Müfəzzəl ibn Saleh Əbu Cümeylədir. Əbu Əhməd deyir: "Mən tanımıram". Bunu Müfəzzəldən başqaları da Abandan rəvayət ediblər. İbn Əsakir deyir: "Belə deyib, Həsəni də əlavə edib".*[929]

İbn Əsakirin *"Həsəni də əlavə"* edib sözlərinin mənası yoxdur. Çünki *"Cabir ibn Abdullah yanıma gəlib qarnımı açmağımı istədi... Cabir onu öpüb dedi: "Peyğəmbər (s) salamını sənə çatdırmamı mənə buyurub"* sözlərinə zidd olaraq, İmam Həsənin (ə) babası Peyğəmbərin (s) qucağında

---

[926] Nəsbur-rayə, Zeyləi, c. 6, s. 131-132
[927] əl-Möcəmul-övsat, Təbərani, c. 6, s. 13-14
[928] Tarixu mədinəti Dəməşq, c. 54, s. 275
[929] Tarixu mədinəti Dəməşq, c. 54, s. 275-276

böyüdüyü və Əbu Hüreyrənin hədisinə əsasən, qarnını öpdüyü aydın və məlum məsələdir.

Deməli, Süveyd hədisi Müfəzzəl ibn Saleh və Müfəzzəl ibn Abdullah yolu ilə nəql edib.

Onun məqsədinin Müfəzzəl ibn Saleh olması ilə bağlı Əhmədin sözlərinə gəlincə, bu, bir daha Əbu Hatəm və İbn Ədiyin Müfəzzəl ibn Salehlə Müfəzzəl ibn Abdullahın eyni şəxs olmasını təsdiqləyir.

İbn Hibbanın isə Müfəzzəl ibn Abdullahı etibarlı (siqə) şəxs saydığını yuxarıda qeyd etdik.

Ravinin bu iki şəxsi səhv salması uzaq fikirdir. Necə ki, bunu onun sözlərindən də görürük: *"İbn Teyyib bizə belə xəbər verdi ki, Süveyd dedi: Müfəzzəl ibn Abdullah..."* Bu, İbn Teyyibin həmin sözü Süveyddən eşitdiyinə təkidini göstərir. Belə ki, o, İbn Salehdən deyil, İbn Abdullahdan rəvayət edir. Lakin Əbu Əhməd onun sözləri üzərində "ictihad" edərək məqsədin İbn Saleh olduğunu yazır. Bu yersizdir. Çünki Süveydin onların hər ikisindən rəvayət nəql etdiyi məlum məsələdir. Əbu Hatəm və İbn Ədiyin onların iki fərqli şəxs deyil, eyni şəxs olduğu barədə sözləri də diqqətdən kənarda qalmamalıdır.

Peyğəmbərin (s) salamının çatdırılması başqa nəql yolları ilə də rəvayət edilib. İbn Əsakir "Tarix"ində Əbdürrəhman ibn Küseyr sənədilə Cəfər ibn Muhəmməddən (ə) nəql edir: *"Əbu Cəfər Muhəmməd ibn Əli dedi: "Babam Hüseyn ibn Əli məni qucağında oturdub dedi: "Peyğəmbər (s) sənə salam söyləmişdir".*[930]

Həmçinin Muhəmməd Cəhni sənədilə Əbu Xübeyrdən rəvayət edir: *"Cabir ibn Abdullahın yanında idik. Əli ibn Hüseyn oğlu ilə birlikdə içəri daxil oldu. Cabir dedi: "Ey Peyğəmbər övladı, bu kimdir?" O, "Oğlum Muhəmməddir" deyə cavab verdi. Cabir onu qucaqlayaraq ağladı. Sonra*

[930] Tarixu mədinəti Dəməşq, c. 54, s. 275

dedi: "Əcəlim yaxınlaşıb, ey Muhəmməd, Peyğəmbər (s) sənə salam söyləmişdir..."[931]

Eləcə də buna yaxın kəlmələrlə Süfyan ibn Üyeynə sənədilə Əbu Zübeyrdən rəvayət olunur: *"Cabir ibn Abdullahın yanında idik. Artıq gözləri tutulmuş, özü də qocalmışdı. Əli ibn Hüseyn onun yanına daxil oldu. Yanında oğlu Muhəmməd də var idi... Cabir dedi: "Bu kimdir?" Əli ibn Hüseyn buyurdu: "Muhəmməddir, oğlumdur". Cabir onu qucaqlayıb ağladı və dedi: "Ey Muhəmməd, Peyğəmbər (s) sənə salam deyir..." Cabir bu hadisədən sonra on gündən az yaşayıb vəfat etdi".*[932]

Beləliklə, Müfəzzəl ibn Salehi zəif sayanlar onun hədislərinin inkar olunduğunu öz gümanlarına əsasən iddia ediblər. Lakin onun inkar olunma səbəblərini təqdim etməkdə çaşqınlığa düşüblər.

Buna görə də İbn Ədiy kimi bəzi rical alimləri də onun zəifliyini və hədislərinin inkar olunmasının müəyyənləşdirilməsində özlərini çətin vəziyyətə salıblar. Belə ki, İbn Ədiy onun hədislərinin inkarının səbəbinin Həsən ibn Əli ilə bağlı hədisdən qaynaqlandığını güman edib.

Halbuki, təqdim etdiyimiz kimi, həmin hədis Müfəzzəldən savayı başqa səhih yollarla da nəql edilib. Nəinki, bu hədis heç Müfəzzəl yolu ilə rəvayət olunmayıb. Müfəzzəlin hədisindəki "Həsən dedi" sözləri də İbn Əsakirin əlavəsidir.

Eləcə də İbn Həcər Həsən ibn Əlinin (ə) hədisini İbn Ədiyin sözləri ilə şərh edərkən də bunu görürük: *"Cabir yanıma gəlib dedi: "Mənim üçün qarnını aç..."*

Belə ki, hədis Muhəmməd ibn Əli (ə) barədə nəql olunub. Ravinin onun sözlərinin birində "Həsən dedi" söyləməsi İbn Əsakirin əlavəsindən irəli gəlib.

---

[931] Tarixu mədinəti Dəməşq, c. 54, s. 276

[932] Tarixu mədinəti Dəməşq, c. 54, s. 276

Bundan əlavə, Cabirin hədisi və Peyğəmbərin (s) salamını İmam Muhəmməd Baqirə (ə) çatdırması Müfəzzəl ibn Salehdən savayı başqa yollarla da nəql olunub:

1. Süveyd ibn Səid Müfəzzəl ibn Abdullahdan, o da Aban ibn Təğlibdən, o da Muhəmməd ibn Əli ibn Hüseyn ibn Əlidən (ə);

2. Əbdürəhman ibn Küseyr Cəfər ibn Muhəmməddən (ə), o da Əbu Cəfər Muhəmməd ibn Əli ibn Hüseyn ibn Əlidən (ə), o da Hüseyn ibn Möminlərin əmiri Əlidən (ə);

3. Muhəməd Cəhnidən, o da Əbu Xübeyrdən, o da Cabirdən;

4. Süfyan ibn Üyeynədən, o da Əbu Zübeyrdən, o da Cabirdən.

Müfəzzəlin hədislərinin inkar olunmasını düşünmələri olduqca qəribədir. Halbuki bu inkara heç bir dəlil göstərə bilmirlər. Əhli-Beytin (ə) fəzilətlərinə dair hədis nəql edənlərdən birini inkar etdiklərində həmin hədisin başqaları tərəfindən də nəql olunduğunu görürük!

Buna görə də Zəhəbi "Gəmi" hədisinin Müfəzzəlin ən çox inkar edilən hədislərindən olduğunu güman edib. İbn Ədiyin "Onun yalnız Həsən ibn Əlidən olan hədisinin inkar edildiyini gördüm, digərlərinin düzgün olduğunu düşünürəm" sözlərinin ardınca Zəhəbi yazır: "Deyirəm: *"Nuhun gəmisi" hədisi ən çox inkar olunan hədisdir".*[933]

Zəhəbinin bu addımı olduqca qəribədir və özünə ziddir. Bir tərəfdən "Gəmi" hədisi Müfəzzələ görə zəifdir, digər tərəfdən isə "Gəmi" hədisinə görə Müfəzzəlin rəvayətləri etibarsızdır?!

Digər cəhətdən, onun bir hədisinin inkar olunması digər hədislərinin də inkar edilməsinə rəvac vermir. Xüsusilə də, İbn Ədiy Müfəzzəlin İmam Həsəndən (ə) rəvayət etdiyi hədisdən savayı digərlərinin düzgün olduğunu bildirir. Biz İmam Həsən (ə) rəvayəti ilə bağlı onun və İbn Həcərin xətaya yol verdiyini, həmin hədisin səhih olduğunu, əksinə, Müfəzzəlin onu rəvayət etmədiyini yuxarıda bəyan etdik. Həmçinin

[933] Mizanul-itidal, Zəhəbi, c. 4, s. 167.

həmin hədisin Cabirdən savayı fərqli yollarla nəql edildiyini sübuta yetirdik.

"Gəmi" hədisini təsdiqləyən dəlillərdən biri də İbn Əbu Şeybənin Abdullah ibn Haris yolu ilə Əlidən (ə) nəql etdiyi rəvayətdir: *"Bizim bu ümmətin arasındakı məsələmiz Nuhun gəmisinə və Bəni-İsrailin Hittə qapısına bənzəyir".*[934]

"Gəmi" hədisinin səhihliyinə həmçinin bir çox Əhli-Sünnə alimlərinin sözləri də şahidlik edir. İbn Həcər Heytəmi "əs-Səvaiq"də hədisi nəql edərək deyir: *"Bu, bir çox yollarla nəql edilib, biri digərini təsdiqləyir".*[935]

Hafiz Səxavi "İsticlau irtiqail-ğuraf bihubbi əqrəbair-rasul və zəviş-şərif" kitabında yazır: *"Bu nəql yollarının biri digərini gücləndirir".*[936]

Buna şahidlik edən digər amil isə Əbuzər, İbn Abbas, Əbu Səid Xudri, Abdullah ibn Zübeyr və s. kimi bir dəstə böyük səhabə tərəfindən nəql edilməsidir. Heysəmi "Məzməuz-zəvaid"də hədisin nəql yollarından və müxtəlif mətnlərindən bir hissəsini qeyd edib: *"Əbuzər deyir: "Peyğəmbər (s) buyurur: "Əhli-Beytimin məsəli Nuhun gəmisinin məsəli kimidir. Ona minən nicat tapar, kənarda qalan isə qərq olar. Bizimlə axır zamanda döyüşənlər Dəccalla birlikdə savaşmış kimidirlər". Bunu Bəzzar və Təbərani (hər üç kitabında) rəvayət ediblər. Bəzzarın rəvayətinin sənədində Həsən ibn Əbu Cəfər Cifri, Təbəraninin rəvayətinin sənədində isə Abdullah ibn Dahir var ki, hər ikisi hədisləri tərk edilən şəxslərdir.*

İbn Abbasdan nəql olunur: "Peyğəmbər (s) buyurdu: "Əhli-Beytimin məsəli Nuhun gəmisi timsalındadır. Ona minən nicat tapar, kənarda qalan isə boğular". Bunu da Bəzzar və Təbərani nəql ediblər. Sənədində Həsən ibn Əbu Cəfər var ki, hədisləri tərk olunur.

---

[934] əl-Müsənnəf, İbn Əbu Şeybə, c. 7, s. 503.

[935] əs-Səvaiqul-muhriqə, İbn Həcər Heytəmi, s. 352.

[936] İsticlau irtiqail-ğuraf bihubbi əqrəbair-rasul və zəviş-şərif, Hafiz Səxavi, c. 2, s. 484

Abdullah ibn Zübeyrdən rəvayət olunur: "Peyğəmbər (s) buyurdu: "Əhli-Beytimin məsəli Nuhun gəmisi kimidir. Ona minən salamat qalar, tərk edən isə qərq olar".

Bunu Bəzzar nəql edib. Sənədində İbn Ləhiə var ki, hədislərində zəiflik hiss olunur.

Əbu Səid Xudridən rəvayət olunur: "Peyğəmbər (s) buyurur: "Əhli-Beytimin sizin aranızda məsəli Nuhun gəmisinin məsəli kimidir. Ona minən nicat tapar, kənarda qalan isə qərq olar. Həmçinin Əhli-Beytimin sizin aranızda məsəli Bəni-İsrailin Hittə qarısının məsəli kimidir. Ora daxil olan bağışlanar".

Bunu Təbərani "əl-Möcəmus-sağır" və "əl-Möcəmul-övsat"da nəql edib. Onun sənədində bir neçə nəfər var ki, onları tanımıram".[937]

Bu rəvayət yollarının zəif hesab edilməsi yersizdir:

Həsən ibn Əbu Cəfər Cifri – Mizzi "Təhzibul-kəmal"da onun barəsində deyir: *"Müslim ibn İbrahim deyir: "Həsən ibn Əbu Cəfər bizə nəql etdi. O, insanların ən yaxşılarından idi". Əbu Bəkr ibn Əbüləsvəd deyir: "Dayım Əbdürrəhman ibn Mehdidən "əl-Əsnaf" kitabını dinləyirdim. Kitabında bir dəstə adamın hədislərini tərk etmişdi. Onlardan: Həsən ibn Əbu Cəfər... Bir neçə aydan sonra onun yanına gedəndə mənə "ər-Riqaq" kitabını göstərdi. Oradan mənə Həsən ibn Əbu Cəfərin hədisini oxudu. Dedim: "Dayıcan, məgər sən onun hədislərini tənqid və tərk etməmişdin?" Dedi: "Bəli, onun barəsində fikirləşdim. Düşündüm ki, əgər Qiyamət günü qalxıb yaxamdan yapışsa və desə: "Ya Rəbbim, Əbdürrəhman ibn Mehdidən məni niyə ədalətsiz hesab etdiyini soruş!" Rəbbimin hüzurunda cavab verməyə heç bir dəlilim olmayacaq. Ona görə də hədislərini nəql etməyə başladım".*

Əbu Əhməd ibn Ədiy deyir: "Həsən ibn Əbu Cəfərin səlahiyyətli hədisləri var. O, qəribə hədislər nəql edib. Xüsusilə də Muhəmməd ibn Cəhadədən nəql

---

[937] Məzməuz-zəvaid, Heysəmi, c. 9, s. 168

etdikləri qəribədir. Onun böyük bir nüsxəsi var. Bunları da Munzir ibn Vəlid Carudi atasından, o da Həsəndən rəvayət edib. Həmin nüsxəni də Həsən ibn Əbu Cəfərdən Əbu Cabir Muhəmməd ibn Əbdülməlik Məkki rəvayət edib. Əbu Cəhadədən savayı digər qeyd etmədiyim düzgün, səlahiyyətli rəvayətləri də var. O, mənim nəzərimdə yalan istinad edilməyəcək şəxslərdəndir, doğru danışandır. Necə ki, Əmr ibn Əli də bunu deyir. Bəlkə də onun inkar edilən hədisləri uydurulmuş və xəyal məhsullarıdır".[938]

Deməli, Cifri doğru danışan şəxsdir, lakin bəzi hədisləri inkar olunub. Bu isə onu mütləq şəkildə zəiflətmir və bütün hədislərini dəlil olmaqdan çıxarmır. Halbuki biz onun inkar olunan hədislərinin məhz Əhli-Beytin (ə) fəzilətləri barədə olduğuna əsla şəkk etmirik.

Abdullah ibn Dahir – Xətib Bağdadi "Tarix"ində onun tərcümeyi-halını qeyd edir: *"Abdullah ibn Dahir ibn Yəhya Əbu Süleyman. Əbu Yəhya Razi olduğu da deyilib. Əhməri kimi tanınır. Bağdada gəlmiş, orada hədis söyləmişdir... Əbülhəsən ibn Furatın kitabında onun xətti ilə yazılmış bu sözləri oxudum: Muhəmməd ibn Abbas Hərəvi bizə xəbər verir ki, Yaqub ibn İshaq ibn Mahmud Fəqih bizə Saleh ibn Muhəmməd Əsədidən nəql edir: "Abdullah ibn Dahir ibn Yəhya Əhməri Razi doğru danışan şeyxdir". Dedim: "Deyilir ki, onun atası Dahirin adı Muhəmməddir. Dahir isə onun ləqəbidir".*[939]

Zəhəbi "Mizanul-itidal"da onun barəsində yazır: *"İbn Ədiy deyir: "Onun rəvayət etdikləri ümumən Əlinin fəzilətləri barədədir. O, buna görə də ittiham olunur". Dedim: "Allah Əlini yalan və batil tərifəlayiq xüsusiyyətlərdən ehtiyacsız edib".*[940]

İbn Həcər də "Lisanul-mizan"da İbn Ədiy və Zəhəbinin sözlərini də qeyd edərək Xətib Bağdadinin fikirlərinə yer verib: *"Xətib deyir: Dahir atasının ləqəbidir, adı isə Muhəmməddir. Saleh ibn Muhəmməd onun*

---

[938] Təhzibul-kəmal, Mizzi, c. 6, s. 76

[939] Tarixu Bağdad, Xətib Bağdadi, c. 9, s. 459-460

[940] Mizanul-itidaz, Zəhəbi, c. 2, s. 417

barəsində deyib: "O, doğru danışan şeyxdir". Deyirəm: "Ola bilər ki, hədislərindəki illətlər başqaları səbəbindəndir".[941]

Deməli, İbn Dahir doğru danışan şəxsdir. Müşkil isə onun hədislərinin ümumən Möminlərin əmiri Əlinin (ə) fəzilətlərinə dair olmasındadır.

İbn Ləhiəyə gəldikdə, Mizzi "Təhzibul-kəmal"da Ruh ibn Saleh barədə deyir: *"İbn Ləhiə yetmiş iki tabeun görüb".*[942]

Əbu Übeyd Acariyə istinadən isə yazır: *"Əbu Davud Əhməd ibn Hənbəlin belə dediyini eşitdiyini söyləyir: "Misirdə Əbu Ləhiə kimi çox və yaxşı tərzdə hədis deyən, qeyd edən kim var?!" Əhməd özü də ondan bir çox hədis nəql etmişdir..."*

Cəfər ibn Muhəmməd Fəryabi deyir: "Əshabımızdan bəziləri Qüteybənin belə dediyini eşitdiklərini söyləyirlər: "Əhməd ibn Hənbəl mənə dedi: "Sənin Əbu Ləhiədən nəql etdiyin hədislərin səhihdir".[943]

Həmçinin deyir: *"Həsən ibn Əli Xəllal Zeyd ibn Hübabdan Süfyan Sovrinin belə dediyini eşitdiyini nəql edir: "Əbu Ləhiədə kök, bizdə isə budaqlarıdır (və ya: Əbu Ləhiədə üsul, bizdə isə fürudur)". Həmçinin eşitdim: "Əbu Ləhiə ilə görüşmək üçün Həcdə hacılara qoşuldum". Əli ibn Əbdürrəhman ibn Müğeyrə Muhəmməd ibn Müaviyəyə istinadən deyir: "Əbdürrəhman ibn Mehdinin belə dediyini eşitdim: "Əbu Ləhiədən yüz əlli hədis eşitmək müqabilində diyə kimi cərimə ödəməyə də hazıram". Əbu Tahir ibn Sorh deyir: "İbn Vəhəbin belə dediyini eşitdim: "Bir şəxs kişidən onun danışdığı hədis haqqında soruşub dedi: "Ey Əbu Muhəmməd, bunu sənə kim danışıb?" Kişi dedi: "Allaha and olsun ki, bunu mənə doğru danışan, əməlisaleh Abdullah ibn Ləhiə danışıb". Əbu Tahir dedi: "Onun bu cür and içdiyini əsla eşitməmişdim".*

Başqa bir rəvayətdə isə deyilir ki, bunu soruşan Əli ibn Məbədin qardaşı İsmail ibn Məbəd idi".

---

[941] Lisanul-mizan, İbn Həcər, c. 3, s. 283
[942] Təhzibul-kəmal, Mizzi, c. 15, s. 490
[943] Təhzibul-kəmal, Mizzi, c. 15, 494

Hənbəl ibn İshaq ibn Hənbəl Əhməd ibn Hənbələ istinadən deyir: "İbn Ləhiə İbn Vəhəbdən daha gözəl qiraətə sahibdir".

Nəsai isə Süleyman ibn Əşəsə (o, Əbu Davuddur) istinadən Əhmədin belə söylədiyini deyir: "Hədis çoxluğunda, qeyd etməkdə və gözəl tərzdə söyləməkdə Misirdə Əbu Ləhiəyə oxşayan kim var?!" Həmçinin Əhmədin belə dediyini eşidib: "Misirdə İbn Ləhiədən savayı (yaxşı) hədis danışan yoxdur".[944]

Təbəraninin Əbu Səid Xudridən nəql etdiyi rəvayətdə Heysəminin tanımadığı ravilərə gəlincə, rəvayətin raviləri bunlardır: **Muhəmməd ibn Əbdüləziz ibn Muhəmməd ibn Rəbiə Kilabi** bizə **Əbdürrəhman ibn Əbu Həmmaddan**, o da **Əbu Sələmə Saiğdən**, o da **Ətiyyədən**, o da **Əbu Səid Xudridən** rəvayət edir...[945]

Muhəmməd ibn Əbdüləziz Kilabi – Zəhəbi "Tarixul-İslam"da onun barəsində yazır: *"Muhəmməd ibn Əbdüləziz ibn Rəbiə, Əbu Müleyk Kilabi Kufi. Əbu Küreybdən və başqalarından rəvayət nəql edib. Ondan isə Əbu Bəkr Şafei, Əbu Bəkr İsmaili və bir dəstə ravi hədis rəvayət edib. Təkcə Dəraqutni onu etibarlı (siqə) hesab edib. O, məşhur Muhəmməd ibn*

---

[944] Təhzibul-kəmal, Mizzi, c. 15, 495-496

[945] Təbərani "əl-Məcəmul-övsat"da yazır: "Muhəmməd ibn Əbdüləziz ibn Muhəmməd ibn Rəbiə Kilabi atasından, o da Əbdürrəhman ibn Əbu Həmmaddan, o da Əbu Sələmə əs-Saiğdən, o da Ətiyyədən, o da Əbu Səid Xudridən bizə rəvayət edir: "Peyğəmbərin (s) belə buyurduğunu eşitdim: *"Əhli-Beytimin sizin aranızda məsəli Nuhun gəmisinin məsəli kimidir. Ona minən nicat tapar, kənarda qalan isə qərq olar. Həmçinin Əhli-Beytimin sizin aranızda məsəli Bəni-İsrailin Hittə qarısının məsəli kimidir. Ora daxil olan bağışlanar".* (c. 6, s. 85)

"əl-Möcəmus-səğir"də yazır: Muhəmməd ibn Əbdüləziz ibn Rəbiə Kilabi Əbu Müleyk Kufidən, Əbdürrəhman ibn Əbu Həmmad Muqriidən, o da Əbu Sələmə Saiğdən, o da Ətiyyədən, o da Əbu Səid Xudridən bizə Peyğəmbərin (s) belə buyurduğunu eşitdiyini rəvayət edirlər: *"Əhli-Beytimin sizin aranızda məsəli Nuhun gəmisinin məsəli kimidir. Ona minən nicat tapar, kənarda qalan isə qərq olar. Həmçinin Əhli-Beytimin sizin aranızda məsəli Bəni-İsrailin Hittə qarısının məsəli kimidir. Ora daxil olan bağışlanar".* (c. 2, s. 22)

Rəbiədir. Onun təbəqəsində olan ravi Vəkidir. Əbu Müleykdən Qəzvinin şeyxləri rəvayət nəql ediblər".[946]

Əbdüləziz ibn Muhəmməd ibn Rəbiə Kilabi – o, Muhəmməd ibn Əbdüləziz Kilabinin atasıdır. Heç bir rical alimi onun barəsində tənqid və ya məzəmmət xarakterli sözlər işlətməyib.

Əbdürrəhman ibn Əbu Həmmad – Rical tənqidçiləri onun adını qeyd etsələr də zəif saymayıblar. Zəhəbi deyir: *"Əbdürrəhman ibn Əbu Həmmad Təmimi Kufi Muqrii, atasının adı Şükeyldir, künyəsi Əbu Muhəmməddir. Həmzəyə (onun əshabından öndə gedənlərindən idi), Əbu Bəkr ibn Əyyaşa hədis danışmış, Nafidən, Şeyban Nəhəvidən və İsa ibn Ömərdən rəvayət etmiş, İsrail ibn Yunusdan, Yəhya ibn Sələmə ibn Küheyldən, Fitr ibn Xəlifədən və bir dəstə adamdan hədis eşitmişdir. Ondan isə Həsən ibn Cami, Muhəmməd ibn Hüneyd, İshaq ibn Həccac, Muhəmməd ibn İsa, Harun ibn Hatəm, Muhəmməd ibn Heysəm və digərləri nəql etmişlər".*[947]

Əbu Sələmə Saiğ barədə Acari yazır: *"Əbu Davuddan Əbu Sələmə Saiğ haqqında soruşdum və Vəkinin ondan hədis nəql etdiyini bildirdim. Dedi: "Onun haqqında yaxşılıqdan başqa bir şey eşitməmişəm".*[948]

İbn Hibban onun adını "əs-Siqat"da qeyd edib: *"Sələmə Saiğ – Əta ibn Əbu Rəbahdan rəvayət edib. Ondan isə Vəki ibn Cərrah hədis nəql edib".*[949]

Təbəraninin rəvayətindən Heysəminin tanımayacağı yalnız **Ətiyyə** və **Xudri** qaldı. Xudri Peyğəmbər (s) səhabəsidir, onu tanımamaq mümkün deyil. Ətiyyədən isə Heysəmi belə özünün "Məzməuz-zəvaid"ində çoxlu hədislər rəvayət edib. Bir çox yerdə onun barəsində deyib: *"Orada Ətiyyə Ovfi var ki, zəifdir. Amma etibarlı (siqə) də sayılıb".*[950] Bəzi yerlərdə də

---

[946] Tarixul-İslam, Zəhəbi, c. 22, s. 277
[947] Tarixul-İslam, Zəhəbi, c. 14, s. 229
[948] Sualatul-Acari li Əbu Davud, Süleyman ibn Əşəs, c. 1, s. 303
[949] əs-Siqat, İbn Hibban, c. 6, s. 401
[950] Məzməuz-zəvaid, Heysəmi, c. 4, s. 59, 72, 282; c. 5. s. 132

yazıb: *"Orada Ətiyyə Ovfi var ki, zəifdir. İbn Muin onu etibarlı (siqə) sayıb".*[951]

Bəlkə Əhli-Sünnə rical alimləri də raviləri ədalətdən düşürmək barədə Əbdürrəhman ibn Mehdi kimi dərindən fikirləşsəydilər[952] öz qərarlarını yenidən nəzərdən keçirər və bu ravilər haqqındakı hökmlərini dəyişərdilər.

15. "Əhli-Beytin yer əhlinin əmin-amanlığıdır" hədisi

Əhməd ibn Hənbəl "Fəzailus-səhabə"də Möminlərin əmiri Əliyə (ə) istinad edilən hədisi rəvayət edir: *"Peyğəmbər (s) buyurdu: "Ulduzlar səma əhlinin əmin-amanlığıdır. Onlar aradan getsələr səma əhli də məhv olar. Əhli-Beytim isə yer əhlinin əmin-amanlığıdır. Əgər Əhli-Beytim aradan getsə yer əhalisi də yox olar".*[953]

Bunu Hakim "Müstədrək"də Əta sənədilə İbn Abbasdan (r) nəql edib: *"Peyğəmbər (s) buyurdu: "Ulduzlar yer əhli üçün qərq olmaqdan, Əhli-Beytim isə ümmətim üçün ixtilafdan amanlıqdır. Əgər bir ərəb qəbiləsi onlara qarşı çıxıb ixtilaf salsa İblisin ordusuna (dəstəsinə) çevrilərlər".* Sonra Hakim deyir: *"Bu, sənədi səhih hədisdir, Buxari və Müslim qeyd etməyiblər".*[954]

İbn Həcər Heytəmi "əs-Səvaiqul-muhriqə"də[955] hədisin səhih olduğunu bildirib. "Camius-sağir"də isə Süyuti ona həsən hökmü verib.[956]

Səmhudi "Cəvahirul-əqdeyn"də "Səqaleyn" hədisini qeyd edərkən deyir: *"Qiyamət saatınadək hər bir zamanda Əhli-Beytdən və pak itrətdən*

---

[951] Məzməuz-zəvaid, Heysəmi, c. 7, s. 314; c. 8, s. 79, 106; c. 9. s. 109

[952] Həsən ibn Əbu Cəfər barədə "Düşündüm ki, əgər Qiyamət günü qalxıb yaxamdan yapışsa və desə: "Ya Rəbbim, Əbdürrəhman ibn Mehdidən məni niyə ədalətsiz hesab etdiyini soruş!" Rəbbimin hüzurunda cavab verməyə heç bir dəlilim olmayacaq" demiş və hədislərini nəql etmişdi.

[953] Fəzailus-səhabə, Əhməd ibn Hənbəl, c. 2, s. 671, I çap, miladi 1983

[954] əl-Müstədrək, c. 2, s. 488; c. 3, s. 149; c. 3, s. 457

[955] əs-Səvaiqul-muhriqə, İbn Həcər Heytəmi, s. 351

[956] Bax: Feyxul-qədir, Mənavi, c. 6, s. 377-378

möhkəm yapışılmalı bir şəxsin olduğu buradan anlaşılır və ona möhkəm sarılmaq buyurulur. Necə ki, Allahın kitabı da belədir. Ona görə də (qarşıda qeyd edəcəyimiz kimi) onlar Yer əhli üçün əmin-amanlıq səbəbidirlər. Əgər onlar aradan getsələr Yer əhalisi də məhv olar".[957]

Həmçinin Təbərani "əl-Möcəmul-kəbir"də[958] hədisi nəql edir, Heysəmi də "Məzməuz-zəvaid"də onun ardınca yazır: *"Bunu Təbərani rəvayət edib, ravilərin arasında Musa ibn Übeydə Rəbəzi var ki, hədisləri tərk olunur".*[959]

Lakin hal heç də onun qeyd etdiyi kimi deyil. O, İbn Macənin ravilərindəndir,[960] İbn Səd onun etibarlı (siqə) olduğunu bildirib. Zəhəbi onun tərcümeyi-halında yazır: *"İbn Səd deyir: "Etibarlıdır, (təkbaşına) höccət deyil". Yaqub ibn Şeybə deyir: "Doğru danışandır, hədisləri olduqca zəifdir". Abbas Duri Zeyd ibn Hübabdan nəql edir: "Rəbəzədə Musa ibn Übeydənin yanında idik. Biz ayrıldıqdan sonra xəstələndi və vəfat etdi. Onun qəbrini ziyarət üçün getdik. Yanımda dostum da var idi. Onun qəbrindən müşk ətri gəlirdi. Dostuma dedim: "Bu iyi hiss edirsən?" Həmin gün Rəbəzədə nə müşk, nə də ənbər var idi".*

Onu zəif sayanların isə Abdullah ibn Dinardan nəql etdiyi inkar olunan hədisi səbəb kimi göstərirlər. Razinin "əl-Cərhu vət-tədil" kitabında Yəhya ibn Muinə istinadən yazılır: *"Musa ibn Übeydənin hədisləri Abdullah ibn Dinardan nəql etdiyi inkar olunan hədislərə görə zəif hesab edilib".*

Həmçinin Rövyani onun hədislərini "Müsnəd"ində,[961] Müttəqi Hindi "Kənzul-ümmal"da[962] və başqaları nəql ediblər.

16. "əd-Dar" (Ev) hədisi

---

[957] Cəvahirul-əqdeyn, Səmhudi, s. 259
[958] əl-Möcəmul-kəbir, Təbərani, c. 7, s. 22
[959] Məcməuz-zəvaid, Heysəmi, c. 9, s. 174
[960] Təhzibut-təhzib, İbn Həcər, c. 3, s. 174
[961] Müsnəd, Rövyani, c. 2, s. 285
[962] Kənzul-ümmal, Müttəqi Hindi, c. 12, s. 102

Təbərani "Tarix"ində Abdullah ibn Abbas yolu ilə Möminlərin əmiri Əlidən (ə) rəvayət edir: ***"Yaxın qohumlarını qorxut"*** *ayəsi nazil olduqda Peyğəmbər (s) məni çağırıb buyurdu: "Ya Əli, Uca Allah mənə yaxın əqrabamı qorxutmağı (xəbərdar etməyimi) əmr etdi...*

Peyğəmbər (s) qohumlarına dedi: "Ey Əbdülmüttəlib oğulları, ərəblərin arasında öz qövmünə mənim gətirdiklərimdən üstün bir şey gətirən şəxs tanımıram. Mən sizə dünya və axirət xeyirlərini gətirmişəm. Uca Allah da sizi buna dəvət etməyimi buyurub. Sizdən hansınız bu işdə mənə vəzirlik edərək qardaşım, vəsim və aranızda xəlifəm olmağa razıdır?" (İmam Əli) dedi: "Qohumlarının hamısı bundan imtina etdilər. Mən aralarında yaşca ən kiçik, gözünün ağı qarasından daha çox, qarnı böyük və ayaqları ən incə olmağıma baxmayaraq dedim: "Ey Allahın Peyğəmbəri, bu işdə sənin köməkçin mən olaram". Əlini boynumun arxasına qoydu və buyurdu: "Həqiqətən, bu mənim qardaşım, vəsim və məndən sonra sizin aranızdakı xəlifəmdir. Onun sözlərini eşidib itaət edin".[963]

Sələbinin təfsirində deyilir: *"Bunu üç dəfə təkrarladı. Hər dəfəsində onlar susdular. Əli dedi: "Mən". Peyğəmbər (s) "(Bəli) sənsən!" buyurdu".*[964]

Əhməd ibn Hənbəl bunu "Müsnəd"də müxtəsər şəkildə İbad ibn Abdullah Əsədi yolu ilə nəql edib.[965]

Bütün bunlar Əhli-Sünnənin səhih hədis mənbələrində nicat tapacaq firqə ilə bağlı nəql edilən ən mühüm dəlillərdir. Onların hamısı Əhli-Beytin oxu ətrafında dövr edir. Şübhə yoxdur ki, öz dinində ehtiyatlı olmaq istəyən müsəlman bir şəxs Möminlərin əmiri Əlini (ə) izləməlidir. Belə ki, onun imamlığı, başqalarından fərqli olaraq, ümmətin arasında icma nöqtəsidir. Onun fəzilət və tərifəlayiq xüsusiyyətlərindən qeyd etdiklərimiz də Əhli-Sünnənin əsas mənbələrindən nəql edildi. Şiə

---

[963] Tarix, Təbəri, c. 2, s. 62-63

[964] Təfsir, Sələbi, c. 7, s. 182

[965] Müsnəd, Əhməd ibn Hənbəl, c. 1, s. 111

mənbələrində qeyd olunan fəzilətlərinə gəldikdə isə, bu, tam başqa bir mövzunun söhbətidir.

Biz olduqca təəccüb edirik ki, camaatın din və dünyəvi məsələlərini öyrənmələri, hidayətləri ilə düzgün yola yönəlmələri və hidayətdən möhkəm yapışmaları üçün Peyğəmbər (s) Əhli-Beyti (ə) barədə bundan əlavə daha nə söyləməlidir?!

Son

Bu bəhsdən son nəticə olaraq belə qənaətə gəlirik ki, şiəliyin tarixi möhkəm şəkildə qəti dəlillərə bağlı və onunla əlaqəli bir məsələdir. Şiəliyin həqiqətini bilmək və onun meydana çıxma tarixini öyrənmək istəyən şəxs həmin qəti dəlillərin ortaya qoyduğu əqidəni və onun tarixini öyrənməlidir.

Böyük səhabələr tərəfindən Peyğəmbərin (s) dilindən bir çox səhih və əhəmiyyətli şərif hədislər nəql olunub ki, orada özündən sonrakı xəlifə və hətta onların sayları da açıqlanıb.

Bir çox böyük səhabənin dilindən, xüsusilə də "vəsilik" kəlməsindən istifadə edilməklə Peyğəmbərdən (s) sonrakı xəlifə barədə mühüm səhih rəvayətlər nəql olunub. Bu da həmin məfhumun Peyğəmbər (s) tərəfindən bəyan edilən İslamın köklü anlayışlarından biri olduğuna dəlalət edir. Bunu böyük səhabələr İslamın nurunun görünməyə başladığı ilk anlardan etibarən nəql ediblər. Əhli-Sünnə alimləri də bu barədə fikirlərini bildirmiş, lakin onlardan heç biri sənəd və dəlalət cəhətindən bunların Abdullah ibn Səba ilə əlaqəsinin olduğunu söyləməmişlər. Deməli, "vəsilik" əqidəsinin İbn Səbanın uydurması olduğu iddiası haqdan və insafdan uzaqdır.

Əhli-Sünnə yolu ilə nəql edilən rəvayətlərin heç birində İbn Səbanın "vəsilik" əqidəsini uydurması, İslam tarixindəki hadisələrdə, xüsusilə də Osmanın fitnəsində əsas rol alması barədə qeydlər yoxdur. Bunu yalnız

Təbəri öz “Tarix”ində Seyf ibn Ömər yolu ilə rəvayət edir ki, həmin rəvayətlərin sənədi ravilər Şüeyb və Seyfə görə, eləcə də mətnlərindəki qarışıqlığa və uyğunsuzluqlara görə zəifdir.

Şiə mənbələrində İbn Səbanın “vəsilik”lə bağlı sənədi zəif və ya mürsəl də olsa bir rəvayətinə belə rastlaşmaq mümkün deyil. Bəli, bəzi səhih rəvayətlər var ki, İbn Səbanın şəxsiyyətindən bəhs edir. Lakin onlarda vəsilik məsələsini uydurduğu iddiaları ilə heç bir əlaqə yoxdur.

Qarşı tərəfin Novbəxti, Qummi və Kəşşi yolu ilə şiə alimlərindən dəlil göstərdikləri sözlər isə düzgün deyil. Belə ki, onların sözləri qeyri-şiə elm əhlindən nəql edilir və şiə alimlərinin yekdilliklə həmfikir olduqları məsələlərə ziddir. Həmin sözlər yalnız İbn Səbanın İslamı qəbul etdikdən sonra şiələrin etiqad bəslədikləri İmam Əlinin (ə) vilayətinə iman gətirməsi, onun Peyğəmbər (s) vəsisi və xəlifəsi olduğunu təsdiqləməsidir. O, bu əqidəsini açıq izhar və elan edən ilk şəxs olmuşdur. Bunu üçün isə təqiyyə və qorxu ilə keçmiş iyirmi beş illik İslam cəmiyyətinin adət etmədiyi qəribə yol və üslublardan istifadə etmişdir.

Həmçinin Abdullah ibn Səbanın bir şəxs kimi varlığı barədə də ixtilaflar və ziddiyyətli məqamlar mövcuddur. Bu ziddiyyətlər həm onun şəxsiyyətində və həm də İslam tarixində oynadığı rolun həcmində özünü aydın büruzə verir.

Bəzi dəlillərdə isə Peyğəmbərdən (s) sonrakı xəlifənin müəyyən edilməsi ilə bağlı “vəsi” kəlməsinin istifadə olunmur. Bunların hamısı Peyğəmbərin (s) və böyük səhabələrin dilindən nəql edilən rəvayətlərdir. Onların əksəriyyətinin səhihliyinin, hətta bəzilərinin mütəvatirliyi barədə yekdil fikir var. Bunlara misal olaraq *“Mən kimin mövlasıyam Əli də onun mövlasıdır”, “On iki xəlifə”, “Mənzilət”* və s. kimi hədisləri göstərmək mümkündür. Heç bir alim bu hədislərin şərhlərində həmin rəvayətlərdə İbn Səbanın nə təsdiq və nə də inkar cəhətindən rolu olduğunu qeyd etməyib. Qarşı tərəfdən heç kim Əhli-Beytin (ə) ilahi imamət məqamını

iqrar edən şiənin əqidəsinin əsasını təşkil edən bu rəvayət və dəlillərdə İbn Səbanın hər hansı bir iştirakını vurğulamayıb. Halbuki bu rəvayətlər İmamiyyə şiələrinin şərif ayələrlə yanaşı Əhli-Beytin (ə) imamətinə və onlara itaətin vacibliyinə şahid göstərdikləri ən güclü dəlillərdir.

Şiəliyin yaranma tarixi və onun həqiqətini dərk etmək yalnız Əhli-Beytin (ə) fəzilətləri, üstünlükləri, Allahın kitabı ilə bərabər onlara da möhkəm sarılmaq və imamətlərinə iman bəsləmək barədə təqdim edilən (həm vəsilik kəlməsi ilə və həm də vəsilik kəlməsi istifadə edilmədən nəql olunan) qəti dəlil və rəvayətləri anlamaqla mümkündür. Həmin dəlillərə insaf gözü ilə diqqətli nəzər salan şəxs Əhli-Beyt (ə) tərəfdarlığının (şiəliyinin) və onun həqiqətinin tarixinə vaqif ola bilər. Belə ki, şiəlik İslamın ortaya çıxması ilə birlikdə yaranmış, əsasını Quran və Peyğəmbər (s) sünnəsindən götürmüşdür.

Peyğəmbərin (s) dövründə müsəlmanlar vahid bir ümmət idilər və heç bir məzhəb anlayışı yox idi. Məzhəblər Peyğəmbərin (s) vəfatından sonra xilafət barədəki ziddiyyətlərin yaranması ilə ortaya çıxmış və müsəlmanların arasında parçalanma yaşanmışdı. Səqifə beyəti isə bu parçalanmanın əməli təməlini formalaşdırdı. Həmin beyət ümmətin arasındakı məzhəbləşməyə rəsmi xarakter qazandırdı.

Məlumdur və məşhur faktdır ki, Bəni-Haşimdən savayı Miqdad, Salman və Əbuzər, Əmmar ibn Yasir (Allah onlardan razı olsun!) kimi bir çox böyük səhabə Peyğəmbərin (s) vəfatından əvvəl və sonra Əhli-Beytin (ə) vəsiliyinə etiqad bəsləyirdilər. Onlar Peyğəmbərin (s) həyatda olduğu dövrdən etibarən şiəliyin ilk tumurcuqları idilər və bu, özündə heç bir məzhəb xarakteri daşımırdı. Məzhəb şəklində isə Peyğəmbərin (s) vəfatından sonra, Səqifə əhlinin müqabilində formalaşmağa başladı.

Bunu Əbu Hamət Sicistaninin sözləri də təsdiqləyir: *"Peyğəmbər (s) zamanında şiə kəlməsi bu dörd səhabənin ləqəbi idi: Salman Farisi, Əbuzər Ğəffari, Miqdad ibn Əsvəd və Əmmar ibn Yasir".*[966]

Həmçinin Əbu Hamət Razidən nəql olunur: *"İslamda meydana çıxan ilk ad şiədir. Bu, dörd səhabənin ləqəbi idi. Onlar: Əbuzər, Salman, Əmmar və Miqdaddır. Hətta Siffin savaşı dövrlərində də belə idi. Onlar Əlinin (r) ən yaxın dostları kimi məşhurlaşmışdılar".*[967]

Bunu təsdiqləyən digər bir fakt isə Əhli-Sünnə alimlərinin şiəyə tərif verdikləri zaman Abdullah ibn Səbaya yaxından-uzaqdan heç bir işarə etmədikləridir. Halbuki onlar hər bir firqə barədə söhbət açdıqda onun təsisçisinin adını da qeyd edirlər. Şəhristani deyir: *"Şiələr Əliyə xüsusi olaraq tərəfdarlıq edənlərdir. Onlar qəti dini dəlillərlə Əlinin imam, xəlifə və vəsi olduğunu söyləyirlər".*[968]

İbn Əsir deyir: *"Bu ad Əlini (r) dost tutduğu güman edilən şəxslər və Əhli-Beyti barədə əsasən istifadə edilib, ta ki, onlar üçün xüsusi bir ada çevrilib".*[969]

İci deyir: *"İslamın ilk firqələrindən ikincisi şiə məzhəbidir, yəni Əlinin tərəfdarları. Onlar Əlinin Peyğəmbərdən (s) sonra qəti dini dəlillərlə imam olduğunu söyləyirlər".*[970]

İbn Xəldun deyir: *"Şiə sözü lüğəti mənada yoldaş və tərəfdara deyilir. Keçmiş və indiki fəqih və kəlam alimlərinin nəzərində isə Əli və övladlarının (r) tərəfdarlarına deyilən addır".*[971] Başqa bir yerdə isə deyir:

---

[966] əz-Zinət, Sicistani, Əbu Hatəm Səhl ibn Muhəmməd, c. 3. bunu Əllamə Seyyid Muhsin Əmin "Kəşfuz-zunun"dan nəql edib. Həmçinin bax: Əyanuş-şiə, c. 1, s. 18-19

[967] Bunu ondan Xunsari "Rovzatul-cənnat"da (s. 88) nəql edib.

[968] əl-Miləlu vən-nihəl, c. 1, s. 145

[969] ən-Nihayətu fi ğaribil-hədis, c. 2, s. 518

[970] əl-Məvaqif, c. 3, s. 678

[971] Tarix, İbn Xəldun, c. 1, s. 196

"Səhabələrdən bir dəstəsi Əlinin tərəfdarları (şiələri) idilər və onu (xəlifəliyə) digərlərindən daha çox haqq sahibi bilirdilər".[972]

Əbdülhəlim Cundi deyir: *"Həmin müsəlmanlar (şiələr) Əlinin (r) və övladlarının (r) imamətini, öndərliyini söyləyir, onların tərəfdarları və tabeçiləri olmaları ilə seçilirlər. Bəlkə də İbn Həzmin tərifi bunu tam şəkildə bəyan edib. O deyir: "Kim Əlinin Peyğəmbərdən (s) sonra məxluqların ən fəzilətlisi, imamətə daha çox haqq sahibi, həmçinin övladlarının Əlidən sonra imam olduqlarını söyləyərsə, o, şiədir. Qeyd etdiklərimizə qarşı çıxanlar isə şiə sayılmırlar".*[973]

Eləcə də müasir alimlər də bunu etiraf edirlər. Doktor Sübhi Saleh deyir: *"Peyğəmbər (s) dövründə belə, səhabələrin arasında Əlinin şiələri var idi. Onlardan: Əbuzər Ğəffari, Miqdad ibn Əsvəd, Cabir ibn Abdullah, Übey ibn Kəb, Əbu Tüfeyl Ömər ibn Vailə, Abbas ibn Əbdülmüttəlib və bütün Əbdülmüttəlib övladları, Əmmar ibn Yasir, Əbu Əyyub Ənsari".*[974]

Bəli, Səqifə beyəti ümmətin arasında məzhəblərin yaranmasına rəsmi start verdi. Belə ki, Peyğəmbər (s) xilafətinin təyin, beyət və ya şura yolu ilə formalaşmasının əsası qoyuldu. Bu da müsəlmanların arasında şiə və sünniliyin bir-birindən ayrılmasının təməlini təşkil etdi. Şiələr xəlifənin qəti dini dəlillərlə təyin edildiyinə, beyətin yalnız bunun ümmət tərəfindən əyani təzahürü olduğuna əsaslandılar. Əhli-Sünnə isə xəlifə təyinində əsas meyar kimi beyət və şuranı önə çəkdilər, bir dəstə böyük səhabə qarşısında bəziləri rəhbərlik iddiası etdilər.

Bu parçalanmanın işartıları hələ Peyğəmbərin (s) həyatda olduğu vaxtlardan görünməyə başlamışdı. Lakin onun Rəbbi dərgahına rehlətinin ardınca əyani surətdə qarşıya çıxdı.

Peyğəmbər (s) özündən sonra ümmətin başına gələcək bəlalardan və baş verəcək parçalanmalardan, ortaya çıxacaq ixtilaflardan xəbərdar idi.

---

[972] Tarix, İbn Xəldun, c. 3, s. 364

[973] əl-İmamus-Sadiq (ə), Əbdülhəlim Cundi, s. 32

[974] ən-Nuzumul-İslamiyyə, s. 96

Peyğəmbər (s) bu təhlükələrdən agah olduğu üçün ümmətə xəbərdarlıq etdi. Ümumi olaraq deyilə bilər ki, vəfatından sonra ona qarşı çıxmaq həyatda ikən qarşı çıxmaq kimidir. Peyğəmbərin (s) ümmətin arasında olması səbəbindən həyatda ikən ona qarşı çıxmaq zəlalətə səbəb olmurdu (çünki özü bunun qarşısını alırdı). Lakin vəfatından sonra ona qarşı çıxmaq zəlalət və axirətdə odla nəticələnəcəkdi.

Ümmətin firqələrə bölünəcəyi ilə bağlı bir çox səhih sənədli rəvayətlər mövcuddur. Onlarda yalnız bir firqənin hidayət üzərində olacağı, digərlərinin isə zəlalətə uğrayacaqları bildirilir.

Həmçinin nicat tapacaq o yeganə firqənin əlamətləri də bir çox hədislərdə vurğulanıb ki, nicat tapan da, həlak olan da açıq dəlillər qarşısında aqibəti ilə üzləşsin. Bu əlamətlərin hamısı isə Əhli-Beytə (ə) işarə edir. Onlar elmi yaşadıb cəhaləti məhv edənlərdir. Verdikləri hökmlər elmlərindən, susmaları isə məntiqlərindəndir. Zahirləri batinlərindən qaynaqlanır. Dinə qarşı çıxmaz və onun barəsində ixtilafa düşməzlər. Bütün bunlar onların dürüst şahidləri və susmuş natiqləridir.

Yeddinci bab: Əhli-Beyt (ə) və Osman ibn Əffan

Burada üç fəsil var:

Birinci: Osmanın rəftar və davranışları;

İkinci: İhsan Zahirin iddialarının təhlil və müzakirəsi;

Üçüncü: Kürəkənlik və adqoymanın dəlil göstərilməsinin müzakirəsi.

İhsan Zahirin iddiasının müzakirəsi

İhsan Zahir Əhli-Beytlə (ə) Osmanın arasında dünya və axirətdə güclü və səmimi əlaqələrin olduğunu iddia etmişdir: **"Osman ibn Əffan Peyğəmbərin (s) kürəkəni, dünya və axirətdə sevdiyi şəxsdir. Eləcə də Əhli-Beytin (ə) sevimlisi, onların əmisi və bibisi oğlu, yaxınlarıdır. Onlar Osmanı, o da onları sevirdi... "O, qohumluqda Peyğəmbərə (s) ən yaxın şəxsdir, onların ikisinin (Əbu Bəkr və Ömərin) nail olmadıqları kürəkənliyi (Osman) əldə etmişdi".**[975]

Bu iddialarına isə Peyğəmbərə (s) kürəkənliyini, İmam Əlinin (ə) Fatimə (s.ə.) ilə evliliyinə göstərdiyi köməkliyi, Əhli-Beytin (ə) dilindən onun ünvanına söylənmiş tərifləri, İmamın (ə) ona beyətini, xilafəti dövründə Haşimilərin onun vəzifələrə təyinatlarını qəbul etmələrini, bayrağı altında savaşdıqlarını, qənimətlərdən pay götürdüklərini, hədiyyələrini aldıqlarını və çətin anlarında onu müdafiə etdiklərini dəlil göstərir.[976]

---

[975] Şiə və Əhli-Beyt, İhsan Zahir, s. 150

[976] İhsan Zahir deyir: **"Peyğəmbərin (s) Əliyə yalnız bir qızını – Fatiməni verməsi, onu kürəkəni edib qohumluq yaratması Əli üçün fəxr olaraq kifayətdir. Bunun nəticəsində şiələr Əlinin Peyğəmbərdən sonra imamət və xilafətə layiq ən əfzəl şəxs olduğunu deyirlər. Bəs o zaman Peyğəmbərin (s) iki qızı ilə ard-arda evlənən şəxsin vəziyyəti necə olmalıdır?! Osmanın onların evliyi üçün xərclədikləri, əşyalarını hazırladığı, kəbinində şahidlərdən biri olduğu ona fəxr olaraq yetərlidir...**

Bütün bunlardan sonra şəkk və ya şübhə edən bir kəs Əlinin ondan əfzəl, ən elmli, Osmanın bilmədiyi gizli məsələlərdən agah bir şəxs olduğunu söyləyə bilərmi?! Yaxud qohumluq baxımından o, Osmandan Peyğəmbərə (s) daha yaxındır?! Yoxsa o, cahilləri məlumatlı, korları isə görən edirdi?! Bütün bunlar Əlinin (r) etirafından və şahidliyindən sonra da iddia ediləcək?! Halbuki Peyğəmbər (s) onu özünün qəlbi nisbətində olduğunu bildirmişdi. Necə ki, rəvayət olunur...

Əli mühacir və ənsarın icmasının baş tutduğuna əsasən, onun imamlıq və xəlifəliyini qanuni sayır, onun xəlifəliyinin Allahın razılığı ilə baş verdiyini düşünürdü. Bütün bunlardan sonra (istər hazır, istər qaib olan) heç kəsin onun beyətini rədd və ya inkar etməyə ixtiyarı yox idi. Necə bunu Əli özü də Müaviyə ibn Əbu Süfyana cavab olaraq söylədiyi xütbələrinin birində qeyd edir... Əli onun xalis və vəfalı dostlarından idi, ona nəsihətlər verir, məşvərət edirdi.

Bütün bu sözlərinə də şiə kitablarından olduğunu iddia etdiyi mənbələrdən "dəlillər" təqdim edir. Cavab ardıcıllığına əsasən, qarşıda onları qeyd edəcəyik.

Giriş

Sübut olunmuş faktdır ki, Əhli-Beyt (ə) özündən başqasının xəlifəliyinin düzgün olmadığına etiqad bəsləyirdi. Necə ki, Osman da öz əməlləri ilə xəlifəliyinin batilliyini söyləyənlərin sözlərini təsdiqləyir. Bu iki məsələ Əhli-Sünnə və Şiə alimlərinin arasında müzakirə mövzusu olan mühüm kəlam bəhslərindəndir. Burada həmin mövzulara və bəhslərə daxil olmağı düşünmürük. Həmçinin İhsan Zahirin iddialarını müzakirə edərkən söylədiklərimizi də burada təkrarlamaq istəmirik. Biz yalnız Əhli-Beytlə (ə) Osmanın əlaqələrindəki uçurumun həcmini qeyd etməklə kifayətlənəcəyik. Əhli-Sünnə yolu ilə nəql edilmiş bir çox mötəbər rəvayətlər aydın şəkildə Osmanın rəftarlarında səhabə və tabeunlar tərəfindən ona qarşı üsyana səbəb olacaq böyük yanlışların mövcudluğunu göstərir. Nəticədə o, öz evində bir aydan artıq müddətdə mühasirədə qalmış, sonra qətlə yetirilərək cəsədi zibilliyə atılmışdı və üç gün dəfn edilmədən eləcə qalmışdı. Bundan sonra isə onu müsəlman

---

Bəzən də siddiq və faruqun xilafətləri dönəmində olduğu kimi qəzavətlərdə yardım edirdi...

Necə ki, Haşimilər də onun vəzifə təyinatlarını qəbul edir... bayrağı altında savaşırdılar... Onlara qənimətlər hədiyyə edir, onlara cariyə və xidmətçilər verirdi...

Ona görə də üsyançılar tərəfindən mühasirəyə alındıqda Əli iki oğlunu – Həsən və Hüseyni onun köməyinə göndərdi... Əli əmisi oğlu Abdullah ibn Abbasa onun qapısında dayanmağı tapşırmışdı... Necə ki, əlinin özü də ilk anlardan etibarən onu müdafiə edənlərin sırasında idi... Yalnız uzun müddət onu əli və dili ilə müdafiə etdikdən, artıq bunun fayda verməyəcəyini gördükdən sonra kənara çəkildi... Belə ki, Osman onu müdafiə etməkdən çəkindirmişdi... Osmanı gecə ikən dəfn edib, namazını qılanlar da məhz o və ailəsi oldu... Əhli-Beyt onu sevdiyi üçün qızlarını onun oğlanları ilə evləndirdi... övladlarına onun adını verdi..." (Şiə və Əhli-Beyt, s. 134-150)

qəbiristanlığında dəfn etməyi qadağan etmişdilər ki, nəticədə yəhudi qəbiristanlığında basdırılmışdı. Qarşıda bunları geniş qeyd edəcəyik.

Həmçinin Əhli-Sünnə mənbələrində mötəbər yollarla nəql edilmiş rəvayətlərdə Əhli-Beytin (ə) Osmanın qərar və rəftarlarını tənqid etdikləri, nəinki özlərinə, habelə digərlərinə qarşı pis rəftarından duyduqları nifrət qeyd olunur.

Osmanın rəftarlarını və Əhli-Beytlə (ə) münasibətlərini təhqiq edən bir şəxsin Əhli-Beytin (ə) ondan razı olduqlarını iddia etməsi mümkün deyil. Belə ki, belə bir iddiaya şahid və dəlil göstərmək olduqca müşkül məsələdir.

Əvvəldə də qeyd etdiyimiz kimi, iddianın dəyəri onunla təqdim edilən dəlillərdən asılıdır. Dəlilsiz iddia fikir, nəzər və zəndən savayı bir şey deyil. Belə bir iddia haqqı isbat etməyə və ya batili aradan aparmağa yararsızdır. İhsan Zahirin öz iddialarına təqdim etdiyi dəlillər də bu qəbildəndir. Onların heç bir şeyə dəlil olmaq səlahiyyəti yoxdur. Belə ki, onun dəlilləri ya xəbəri-vahidlər, ya sənədi zəif rəvayətlər, ya qeyri-şiə mənbələri, ya isbat olunmamış, saxta, yalan məlumatlar, yaxud da iddiadan daha xüsusi və ya ondan uzaq dəlillərdir. Yaxud da nadir və tərk edilmiş sözlərdir.

Cavabların aydın olması üçün mövzular barədə üç fəsil çərçivəsində bəhs edəcəyik. Bunlar aşağıdakılardan ibarətdir:

Birinci: Osmanın rəftar və davranışları;

İkinci: İhsan Zahirin iddialarının təhlil və müzakirəsi;

Üçüncü: Kürəkənlik və adqoymanın dəlil göstərilməsinin müzakirəsi.

Birinci fəsil: Osmanın rəftar və davranışları

Müqəddimə

Osman ibn Əffanın on iki il davam edən xilafəti müddətinə insafla nəzər salan şəxs onun İslam tarixində ən çətin və ən zorakı mərhələ olduğunu görəcək. Əvvəlki dövrlərdən fərqli olaraq həmin müddətdə xilafət artıq sülalə səltənətinə çevrilməyə doğru gedirdi. Hakimiyyətə xəlifəyə yaxın adamlar və qohumları gətirilir, Peyğəmbərin (s) böyük səhabələrindən olan təqva əhli və ədalətli şəxslər ümmətin idarəçiliyindən uzaqlaşdırılırdı.

Özündən sonra bu mərhələ Osmanın Müaviyə ibn Əbu Süfyan kimi yaxınlarının əli ilə məqsədə çatdı, Müaviyə Peyğəmbər (s) xilafətinə göz dikərək quruluşu xilafətdən qəddar və quduz padşahlığa çevirdi. Tirmizi Səid ibn Cəhman yolu ilə "Sünən"də Səfinədən belə rəvayət edir: *"Peyğəmbər (s) buyurdu: "Ümmətimin arasında otuz il xilafət, sonra isə padşahlıq olacaq". Sonra Səfinə mənə dedi: "Əbu Bəkrin, Ömərin, Osmanın və Əlinin xəlifəliklərini hesabladıqda bunların otuz il sürdüyünü görürük". Səid ona dedi: "Bəni-Üməyyə onlarda xilafət olduğunu güman edir". Dedi: "Bəni-Zərqa yalan söyləyir. Onlar padşahların ən pisləridir".*[977]

Albani hədisə verdiyi hökmdə deyir: *"Səhihdir".*[978]

Müaviyə özünün fasiq oğlu Yezidi vəliəhd təyin etdi. Bu isə Peyğəmbərin (s) nəvəsinin Bəni-Üməyyə tərəfindən qətlə yetirilməsi, ailəsinin xəcil tərzdə əsir götürülməsi, Peyğəmbər (s) şəhəri Mədinəyə hücum, səhabələrinin öldürülməsi, Mədinə qadınlarının Yezid əsgərləri üçün üç gün boyunca halal elan olunması, nəticədə minlərlə kəbindən kənar uşağın dünyaya gəlməsi, Kəbənin mancanaqlardan atılan daşlarla dağıdılması və Əməvi ailəsinin insanın qanını donduracaq sair bu kimi əməlləri ilə dolu yeni qara bir səhifənin başlanğıcı oldu. Hafiz ibn Həcər

---

[977] Sünən, Tirmizi, c. 4, s. 503, hədis 2226, bab 47

[978] Həmin mənbə, hədislərə Albaninin verdiyi hökmlərlə

deyir: *"Mədinə əhalisi Yezidə olan beyətlərini geri götürdü. Yezid də onların üzərinə ordu göndərdi. Mədinədə Hirrə döyüşü oldu. Həmin döyüşdə bir çox Peyğəmbər (s) səhabəsi və tabeun qətlə yetirildi. Mədinə Şam ordusuna halal elan edildi. Ardınca ordu Abdullah ibn Zübeyrlə savaşmaq üçün Məkkəyə tərəf üz tutdu. Məkkəni mühasirəyə aldılar. Mancanaqdan atılan alovlu daşlarla onu dağıdıb yandırdılar".*[979]

Bəni-Üməyyənin rəhbərliyə gətirilməsi

Osman İslam dövlət vəzifələrinə öz qohumlarını, Bəni-Üməyyə və Bəni-Muitdən olan yaxınlarını təyin edir, Peyğəmbərin (s) böyük səhabələrini vəzifədən uzaqlaşdırırdı. İbn Səd "ət-Təbəqat"da Zuhri sənədilə nəql edir: *"Osman hakimiyyətə gəldikdə on iki il xəlifəlik etdi. İlk altı ildə camaatın ondan narazılığı yox idi. Qüreyş onu Ömər ibn Xəttabdan daha çox sevirdi. Çünki Ömər onlara qarşı sərt idi. Osman xəlifə olduqda isə mülayim davranıb onlara yaxınlaşdı. Sonrakı altı ildə isə yavaş-yavaş onlardan uzaqlaşdı, öz qohumlarını və ailəsini vəzifələrə təyin etməyə başladı. Misirin xümsünü Mərvana, beytul-malın idarəçiliyini qohumlarına həvalə etdi. Bunu Allahın əmr etdiyi sileyi-rəhm (qohumlarla xoş əlaqələr qurmaq) kimi yozdu. Pullardan mənimsəyir, beytul-malı sağa-sola xərcləyir və deyirdi: "Əbu Bəkr və Ömər öz paylarına düşənlərdən imtina etmişdilər. Mən isə onu götürür və yaxınlarımın arasında da bölürəm". Camaat onun bu iddialarını rədd etməyə başladı".*[980]

Bəlazuri bunu həmçinin Zuhri sənədilə "Ənsabul-əşraf"da[981] qeyd edir: *"Osmanı ittiham edənlərdən biri də Səd ibn Əbu Vəqqas idi. O, Sədi vəzifədən kənarlaşdırıb Vəlid ibn Əqəbəni onun əvəzinə təyin etdi".*[982]

---

[979] Təcilul-munfiəti bizəvaidi ricalil-əimmətil-ərbəə, İbn Həcər Əsqəlani, s. 453

[980] ət-Təbəqatul-kubra, İbn Səd, c. 3, s. 64; Ənsabul-əşraf, Bəlazuri, c. 6, s. 133

[981] Hafiz ibn Həcər "Lisanul-mizan"da Bəlazurinin tərcümeyi-halında yazır: *"Əhməd ibn yəhya ibn Cabir ibn Davud Bəlazuri – bir neçə kitabın müəllifidir. İbn Səddən, Dulabidən, Əffandan, Şeyban ibn Fərruxdan, İbn Mədinidən rəvayət eşidib.*

Həmçinin Abbas ibn Hişam yolu ilə onun atasından, o da Əbu Mixnəf və Muhəmməd ibn Səddən, o da Muhəmməd ibn Ömər Vaqididən rəvayət edir: *"Ömər ibn Xəttab vəsiyyətində bildirdi ki, təyin etdiyi məmurlar ondan sonra bir il də öz vəzifələrində qalsınlar, Səd ibn Əbu Vəqqas Kufəyə, Əbu Musa Əşəri Bəsrəyə təyin edilsinlər. Osman hakimiyyətə gəldikdə Müğeyrə ibn Şöbəni Kufə valiliyindən çıxarıb yerinə Sədi təyin etdi. Bir ildən sonra isə onu da çıxarıb yerinə anabir qardaşı olan Vəlid ibn Əqəbə ibn Əbu Muit ibn Əbu Əmr ibn Üməyyəni qoydu. O, Kufəyə daxil olduqda Səd dedi: "Ey Əbu Vəhəb, başçı olaraq gəlmisən, yoxsa ziyarətçi?" Dedi: "Xeyr, başçı olaraq gəlmişəm".*

Səd: Bilmirəm, səndən sonra mən də havalanmışam?

Vəlid: Nə sən axmaqlamısan, nə də mən səndən daha zəkalı olmuşam. Lakin hakimiyyətə gələn bir dəstə hər şeyi ələ almaqdadır.

Səd: Fikrimcə, sən doğru söyləyirsən.

Camaat isə Osmanın bu əvəzləməsinin yanlışlığından danışırdı.

Həmçinin mülayim və savadı Peyğəmbər (s) səhabəsi Əbu İshaqı vəzifədən çıxarıb əvəzinə fasiq, açıq-aydın günah edən axmaq qardaşını təyin etdi. Bu təyinat camaatı qəzəbləndirdi. Vəlid də Əşərinin çıxarılmasını istəyirdi. Osman Əbu Musa Əşərini və onun məmurlarını Bəsrədən çıxardı, əvəzinə dayısının oğlu Abdullah ibn Amir ibn Küreyzi təyin etdi. Əli ibn Əbu Talib, Təlhə və Zübeyr ona dedilər: "Məgər Ömər sənə Muit ailəsini və

Ondan isə Muhəmməd ibn Xələf, Vəki Qazi, Yaqub ibn Nüeym, Əhməd ibn Əmmar, Yəhya ibn Nədim və başqalrı nəql ediblər. İbn Əsakir deyir: "Onun ədəbiyyatçı və ravi olduğu, Məmunu tərifladiyi, Mütəvəkkillə oturub-durduğu, Mötəmidin xilafəti dövründə öldüyü xəbəri mənə çatıb... Şair idi, bir çox şeirləri var, farsdan ərəbə çevirirdi". Yaqut "Möcəmul-üdəba"da deyir: "Səvvaf onu Mütəvəkkilin yaxınları sırasında qeyd edib. Babası Cabir Misirin əmiri Xüseybin xidmətçisi idi. Alim, fəzilətli nəsəbə malik... şəxs idi". (c. 1, s. 322, rəqəm 982)

[982] Ənsabul-əşraf, Bəlazuri, c. 6, s. 208-209

Üməyyə oğullarını camaatın rəhbərliyinə gətirməməni vəsiyyət etmədi?" Osman isə onlara heç bir cavab vermədi".[983]

"əl-İstiab"da Vəlid ibn Əqəbənin tərcümeyi-halında yazılır: *"Sonra Osman Səd ibn Əbu Vəqqası vəzifədən çıxarıb əvəzinə Vəlidi Kufəyə təyin etdi. Vəlid Sədin yanına gəldikdə Səd ona dedi: "Allaha and olsun ki, bilmirəm sən daha zəkalı olmusan, yoxsa biz havalanmışıq".*

Vəlid: Ey Əbu İshaq, narahat olma! Bunu edən rəhbərdir ki, sübhdə biriləri ilə səhər yeməyi yeyir, axşam isə başqaları ilə şam edir.

Səd: Allaha and olsun, düşünürəm ki, siz bunu şahlığa çevirməkdəsiniz.

Cəfər ibn Süleyman Hişam ibn Həssandan, o da İbn Sirindən rəvayət edir: "Vəlid ibn Əqəbə Kufəyə vali olaraq gəldikdə İbn Məsud onun yanına gedib dedi: "Niyə gəlmisən?" Vəlid dedi: "Sizə başçı təyin olunmuşam". İbn Məsud bunu eşidib təəccüblə dedi: "Bilmirəm, sən bizdən sonra düzəlmisən, yoxsa camaat korlanıb?!"

Onun mənfi və iyrənc halı, qəbih əməlləri ilə bağlı məlumatlar var. Allah bizi və onu bağışlasın".[984]

Bəlazuri Zuhri yolu ilə Səid ibn Müseyyibdən nəql edir: *"Osman hakimiyyətə gəldikdə Peyğəmbər (s) səhabələrindən bir dəstəsi onun rəhbərliyini bəyənmədi. Çünki Osman öz qohum-əqrabasını çox sevdiyi üçün qohumbazlıq edirdi. Camaata on iki il rəhbərlik etdi. Təyin etdiyi valilərin əksəriyyəti Peyğəmbərə (s) səhabə olmayan Üməyyə oğullarından idi. Səhabələr onun təyin etdiyi məmurlardan şikayətlər edirdi. Osman isə onlardan razı olduğunu bildirərək vəzifədə saxlayırdı. Hakimiyyətdə sonuncu altı ilinə qədəm qoyduqda əmisi oğullarını vəzifəyə gətirməyə başladı. Abdullah ibn Səd ibn Əbu Sorhu Misirə təyin etdi. Orada iki illik rəhbərliyi ərzində misirlilər Osmanın yanına gələrək onun zülmlərindən şikayət etməyə başladılar.*

---

[983] Ənsabul-əşraf, Bəlazuri, c. 6, s. 138-139

[984] əl-İstiabu fi mərifətil-əshab, İbn Əbdülbərr, c. 4, s. 1554

Osman tərəfindən Abdullah ibn Məsuda, Əbuzərə və Əmmar ibn Yasirə qarşı pis rəftarlar olmuşdu. Bu səbəbdən Hüzeyl, Bəni-Zəhrə, Bəni-Ğəffar qəbilələri və onların müttəfiqlərinin qəlbində Əbuzərlə bağlı pis rəftarına görə qəzəb var idi. Bəni-Məxzum qəbiləsi də Əmmarın vəziyyətinə görə qəzəblənmişdi. Misirlilər gəlib İbn Əbu Sorhdan şikayət etdikdə Osman onu təhdid edəcək bir məktub yazdı. O isə Osmanın xəbərdarlıqlarını nəzərə almaqdan imtina etdi, ondan şikayət edənlərdən bəzilərini döydürüb öldürtdü. Misirdən yeddi yüz nəfərlik bir dəstə Mədinəyə tərəf yola çıxdı. Namaz vaxtı məscidə daxil olub səhabələrə İbn Əbu Sorhun etdiklərini xəbər verdilər. Təlhə Osmanın yanına gedib onunla sərt danışdı. Aişə də onun yanına adam göndərərək misirlilərlə ədalətlə davranmasını tələb etdi. Əli ibn Əbu Talib şikayətə gələnlərin adından Osmanın yanına gedib dedi: "Camaat səndən bir valinin yerinə başqasını təyin etməyini istəyir. Ondan qan qisasını tələb edirlər. Onu vəzifədən çıxar, aralarında hökm ver. Əgər camaat haqlıdırsa, ədalətli rəftar et". Osman dedi: "Bir nəfər seçin, sizə onu başçı təyin edim". Camaat Muhəmməd ibn Əbu Bəkrə işarə edib dedilər: "Bizə Muhəmməd ibn Əbu Bəkri vali təyin et". Misirdəki valisinə məktub yazıb mühacir və ənsardan bir dəstəni də şikayətə gəlmiş misirlilərlə bərabər oraya göndərdi ki, İbn Əbu Sorhla aralarında baş verənləri araşdırsınlar".[985]

Göründüyü kimi, Osman Ömərin Üməyyə və Muiti oğullarını hakimiyyətə gətirməməklə bağlı vəsiyyətinə əhəmiyyət vermədi. Hətta İbn Abbasın rəvayətində Osman bunu edəcəyi təqdirdə onun öldürülməsini arzulayır. "Tarixu mədinəti Diməşq"də İbn Abbasdan Ömərin belə dediyi nəql olunur: *"Ömər dedi: "Əgər xəlifəliyə layiq birini tapa bilsəm..." Dedim: "Bəs Osman?" Ömər dedi: "Oh, oh! Qohumlarını başına yığacaq". Sonra əlavə etdi: "Əgər onu təyin etsəm bütün Bəni-Üməyyəni başçı təyin edəcək, Muit oğullarını camaata rəhbər qoyacaq.*

[985] Ənsabul-əşraf, Bəlazuri, c. 6, s. 134-135. Bax: əs-Siqat, İbn Hibban, c. 2, s. 256

Allaha and olsun ki, onu xəlifə təyin etsəm bunu edəcək. Vallah, əgər bunu etsə, ərəblər üsyana qalxıb onu öldürəcəklər".[986]

Dövlət idarəçiliyində ilk növbədə yardım istəməli olduğu böyük səhabələr və görkəmli müsəlmanlar kənarda tutuldu, onlara əhəmiyyət verilmədi. Əvəzində barəsində Qurani-Kərimdə ***"Bir fasiq sizə xəbər gətirdikdə..."***[987] və ***"Heç möminlə fasiq eyni ola bilərmi?!"***[988] ayələri nazil olmuş[989] fasiq, şərabxor, sərxoşluğunun şiddətindən mehraba qusan, namazların rükətlərini artıq qılan Vəlid ibn Əqəbə Kufəyə vali təyin edildi. Buxarinin "Səhih"ində Abdullah ibn Ədiyə istinadən rəvayət olunur: *"...Vəlid ibn Əqəbə ilə bağlı camaatın narazılıqları artdı... Deyir: "Vəlidə qırx qamçı hədd cəzası vuruldu".*[990]

Əhməd ibn Hənbəl "Müsnəd"də Həzin ibn Munzir ibn Hərs ibn Vələdən nəql edir: *"Vəlid ibn Əqəbə sübh vaxtı camaata dörd rəkət namaz qıldırdı, sonra üzünü onlara çevirib: "İstəyirsəniz daha da artırım?" dedi".*[991]

Peyğəmbərin (s) qovduğu şəxsin Mədinəyə qaytarılması

Osman əmisi Həkəm ibn Əbülası Mədinəyə qaytardı. O, Peyğəmbərin (s) qovub Mədinədən sürgün etdiyi və "zəhərli cüzam" adlandırdığı kəsdir. Osman ilk iki xəlifədən də onun qaytarılmasını xahiş etmişdi. Lakin onlar bu xahişi rədd etmişdilər. İbn Qüteybə yazır: *"Həkəm ibn*

---

[986] Tarixu mədinəti Dəməşq, İbn Əsakir, c. 44, s. 438-439

[987] Hücurat, 6

[988] Səcdə, 18

[989] Bax: Təfsir, Mücahid, c. 2, s. 606; Təfsir, Müqatil ibn Süleyman, c. 3, s. 259-260; Təfsirul-Quran, Əbdürrəzzaq Sənani, c. 3, s. 231; Camiul-bəyan, İbn Cərir Təbəri, c. 26, s. 160-162; Təfsir, İbn Əbu Hatəm Razi, c. 10, s. 3303; Əhkamul-Quran, Cəssas, c. 3, s. 529; Təfsirus-Səmərqəndi, Əbülleys Səmərqəndi, c. 3, s. 308; Təfsiru İbn Zəmnin, Əbu Abdullah Muhəmməd ibn Abdullah ibn Əbu Zəmnin, c. 4, s. 261; Təfsir, Sələbi, c. 9, s. 77; Əsbabun-nuzulil-ayat, Vahidi Nişapuri, s. 261-262; Təfsir, Vahidi, c. 2, s. 1016-1017; Təfsir, Səmani, c. 5, s. 217 və s. Əhli-Sünnə alimlərinin təfsirləri

[990] Səhih, Buxari, c. 4, s. 245

[991] Müsnəd, Əhməd ibn Hənbəl, c. 1, s. 144

Əbülas – Peyğəmbərin (s) qovub sürgün etdiyi şəxsdir... Peyğəmbərin (s) onu qovmasının səbəbi onun sirlərini faş etməsi idi. Peyğəmbər (s) Həkəm ibn Əbülası lənətləyərək Vəcc vadisinə sürgün etdi. Peyğəmbər (s) yaşadığı müddətdə, eləcə də Əbu Bəkr və Ömərin xilafəti dövrlərində o, sürgündə qaldı. Sonra Osman onu geri çağırdı və yüz min dirhəm hədiyyə etdi".[992]

Zəhəbi "Siyəru ələmin-nübəla"da Həkəm ibn Əbülasın tərcümeyi-halında yazır: *"Camaat əmisi Həkəmə göstərdiyi mərhəmətə görə möminlərin əmiri Osmana qarşı qəzəbləndi. Belə ki, o, Həkəmi himayə edərək Mədinəyə qaytarmış, ona yüz min dirhəm vermişdi".*[993]

Bəlazurinin "Ənsabul-əşraf"ında deyilir: *"Həkəm ibn Əbülas ibn Üməyyə – Osman ibn Əffan ibn Əbülas ibn Üməyyənin əmisidir. Peyğəmbərin (s) qonşusu idi. Olduqca pis qonşuluq edib, İslama görə onu incidib. Məkkənin fəthindən sonra Mədinəyə gəlib. Dininə görə Peyğəmbərə (s) nifrət edirdi. Onun arxasında gedir, arxada istehzalı hərəkətlər edir, təqlid edib ələ salır, burnunu və ağzını dartır, namaz qıldıqda arxasında dayanaraq barmaqları ilə ona işarə edirdi. Bu rəftarları əsnasında ağıl xəstəliyinə düçar oldu. Bir gün Peyğəmbər (s) xanımlarından birinin evində ikən onları güdməyə başladı. Peyğəmbər (s) bunu hiss edib çölə çıxdı və buyurdu: "Bu lənətlənmiş zəhərli cüzamdan məni kim qoruyar!" Sonra isə buyurdu: "Nə sən, nə də sənin övladın mənimlə bir şəhərdə yaşamayın". Onların hamısını Taifə göndərdi".*

Peyğəmbər (s) vəfat etdikdən sonra Osman Əbu Bəkrin yanına gələrək əmisinin geri qaytarmasını ondan xahiş etdi. Əbu Bəkr isə imtina edib dedi: "Mən Peyğəmbərin (s) sürgün etdiyi bir şəxsi himayə edə bilmərəm". Ömər hakimiyyətə gəldikdə ona da eyni xahişlə müraciət etdi, lakin o da Əbu Bəkrin söylədiyi cavabı verdi. Osman özü xəlifə olduqda onları Mədinəyə qaytarıb dedi: "Peyğəmbərlə onlar barəsində söhbət etmiş və geri

---

[992] əl-Məarif, s. 353

[993] Siyəru-ələmin-nübəla, Zəhəbi, c. 2, s. 108

qaytarmasını diləmişdim. Buna izn verəcəyini söyləmişdi. Lakin bu sözünü həyata keçirmədən vəfat etdi". Müsəlmanlar isə onları Mədinəyə qaytarmasını təqdir etmədilər".[994]

İbn Əsakir öz "Tarix"ində Şəbi yolu ilə Abdullah ibn Zübeyrin minbərdən belə dediyini nəql edir: *"Bu Beytul-haramın və möhtərəm şəhərin Rəbbinə and olsun ki, Həkəm ibn Əbülas və övladları Peyğəmbərin (s) dili ilə lənətlənmiş kəslərdir".*[995]

Bəzzarın "Müsnəd"ində isə bu kəlmələrlə qeyd edilir: *"Bu Evin Rəbbinə and olsun ki, Allah Həkəmi və ondan doğulanları Peyğəmbərinin (s) dili ilə lənətləmişdir".*[996]

Zəhəbi rəvayətin ardınca *"Sənədi səhihdir"* deyir.[997]

Albani Bəzarın hədisini qeyd etdikdən sonra yazır: *"Deyirəm: Bu da sənədi səhih rəvayətdir, raviləri etibarlı (siqə), Şeyx Bəzzardan (Əhməd ibn Mənsur ibn Səyyar) savayı hamısı Buxari və Müslimin raviləridir. O, etibarlı (siqə) şəxsdir. Bəzzarın sözlərindən anlaşıldığı kimi, bunu yalnız o nəql etməyib. Həmin sözləri həmçinin Muhəmməd ibn Füzeyl də İsmaildən, o da Şəbidən, o da İbn Zübeyrdən rəvayət edib. Ona görə də Hafiz Zəhəbi "Tarixul-İslam"da geniş söz açmadan "Sənədi səhihdir" deyir. "əs-Seyr" kitabında isə onun barəsində susur. Ona heç kimin sözü də lazım deyil!"*[998]

Əbu Yəla "Müsnəd"ində Əbu Hüreyrə sənədilə rəvayət edir: *"Peyğəmbər (s) yuxusunda Həkəm övladlaırnın onun minbərinə qalxıb-düşdüklərini gördü. Yuxudan narahat halda oyandı. Dedi: "Nə məsələdir, Həkəm övladlarının meymun kimi minbərimə dırmandıqlarını görürəm?!" Bundan sonra Peyğəmbərin (s) ölənədək gülümsədiyini görən olmadı".*[999]

---

994 Ənsabul-əşraf, Bəlazuri, c. 6, s. 135

995 Tarixu mədinəti Dəməşq, İbn Əsakir, c. 57, s. 271

996 Müsnəd, Bəzzar, c. 4, s. 59

997 Tarixul-İslam, Zəhəbi, c. 3, s. 368

998 Sisilətul-əhadisis-səhihə, c. 7, s. 3240

999 Müsnəd, Əbu Yəla, c. 11, s. 348; əl-Müstədrəku ələs-səhiheyn, Hakim Nişapuri, c. 4, s. 480

Bunu ondan "Məcməuz-zəvaid"də Heysəmi də nəql edib. Orada deyir: *"Əbu Yəla rəvayət edib, Musəb ibn Abdullah ibn Zübeyrdən savayı ravilərin hamısı "Səhih"in raviləridir. Müsəb etibarlı (siqə) şəxsdir".*[1000]

Hakim "Müstədrək"də yenə də Əbu Hüreyrə yolu ilə bunu nəql edərək səhih olduğunu bildirir. Rəvayətin ardınca yazır: *"Bu, Buxari və Müslimin şərtinə əsasən, səhih hədisdir, lakin onu nəql etməyiblər". Zəhəbi də "ət-Təlxis"də onunla razılaşıb, lakin yalnız Müslimin şərtinə əsasən, səhih olduğunu bildirib.*[1001]

Əhməd və Bəzzar Abdullah ibn Əmr yolu ilə nəql edirlər (rəvayət Bəzzarındır): *"Peyğəmbərin (s) yanında idim. Buyurdu: "İndi sizin yanınıza lənətlənmiş kəs gələcək"... Biz qorxu içində qapıya baxdığımız bir vaxtda Həkəm ibn Əbülas içəri daxil oldu".*[1002]

Heysəmi bunu "Məcməuz-zəvaid"də nəql edərək ardınca deyir: *"Bunu Əhməd rəvayət edib, raviləri "Səhih"in raviləridir".*[1003]

Həmçinin Albani də qeyd edərək yazır: *"Bu, Müslimin şərtinə əsasən, istinadı səhih hədisdir".*[1004]

Həkəmin tərcümeyi-halını yazan bəzi hafizlərin onun barəsindəki bu hədisləri qeyd etməmələrinə Albaninin təəccübü

Həkəmin tərcümeyi-halını yazan bəzi hafizlərin onun tənqidilə bağlı səhih hədislərin olmasına baxmayaraq, qeyd etməmələri Albanini belə təəccübləndirib. Bu yerdə onun sözlərinin əhəmiyyətini nəzərə alıb onları qeyd edirik. "Silsilətul-əhadisis-səhihə"də yuxarıdakı hədislərin müxtəlif mətnlərini qeyd etdikdən və səhih olduğuna hökm verdikdən sonra yazır: *"Bəli, mən Həkəmin tərcümeyi-halını yazan bəzi hafizlərin onun barəsində*

[1000] Məcməuz-zəvaid, Heysəmi, c. 5, s. 244
[1001] əl-Müstədrəku ələs-səhiheyn, Zəhəbinin "ət-Təlxis"dəki şərhləri ilə, c. 4, s. 480
[1002] Müsnəd, Əhməd ibn Hənbəl, c. 2, s. 163; Müsnədul-Bəzzar, Bəzzar, c. 6, s. 344
[1003] Məcməuz-zəvaid, Heysəmi, c. 1, s. 112
[1004] Silsilətul-əhadisis-səhihə, Albani, c. 7, s. 324

nəql olunmuş səhih hədisləri nəql etməmələrinə olduqca təəccüb edirəm. Bu, səhabə qorxusundandır, yoxsa Osman ibn Əffanın əmisi olduğuna görədir?! Yoxsa onların barəsində heç bir danlağın qəbul edilməyəcəyini Allah buyurub?! Yaxud da bu, onların hakimiyyəti dövründə baş verib ki, onlar barəsində belə hədisləri qeyd etməyə və haqqı bəyan etməyə mane olub?!

Məsələn, İbn Əsir "Usdul-ğabə"də yazır: "Onun lənətlənməsi və lənətlənməməsi barədə çoxlu hədislər nəql olunub. Onları qeyd etməyə ehtiyac yoxdur. Lakin qəti olan budur ki, Peyğəmbərin (s) onun bəyənmədiyi əməllərinə dözməsi və göz yumması, əlbəttə ki, ilahi bir əmrə görə idi".

Bundan daha qəribəsi isə, İbn Həcər onun uzun tərcümeyi-halının əvvəlini belə başlayır: "İbn Səkən yazır: "Deyilir ki, Peyğəmbər (s) ona bəddua etmişdi. Lakin bu isbat olunmayıb". Susur və ardınca bir söz demir. Əksinə, davamında bir çox rəvayətlər nəql edir ki, burada onun əleyhinə dualar yer alır. Onlardan bəzisinin zəif olduğunu mən "əz-Zəifə" kitabında qeyd etmişəm. Lakin o, onların hamısı barədə susaraq, bəzilərinin zəif olduğunu söyləyir. Sonda isə Aişənin hədisini nəql edir ki, Mərvana Peyğəmbərin (s) onun atasını lənətlədiyini bildirir. Mərvan həmin vaxt atasının sülbündə idi. Lakin bunun doğruluğunu bəyan etmək əvəzinə Buxarinin rəvayətindəki ziddiyyətə diqqət yönəldir. Ardınca isə deyir: "Deyirəm: Buxarinin kitabında bu hadisə həmin əlavə qeyd edilmədən varid olub".

Mən isə deyirəm: Ardınca deyilən bu sözün heç bir dəyəri yoxdur. O, bu əlavənin sənədinin səhih olduğunu bilir. Məgər bu əlavə Buxarinin ravilərindən nəql edilmirmi?! Yalnız bununla bitmir. Əvvəldə təqdim etdiyimiz kimi, bunun səhih dəlilləri də mövcuddur. Onun dəlil olduğuna yalnız bu sözlər kifayət edir! Hədisin şərhinin sonunda isə deyir: "Ümmətimin həlakı Qüreyşdən olan bir şəhvətpərəstin əlilədir" (Fəthul-Bari, c. 13, s. 11).

"Mərvanın atası Həkəmin və ondan doğulacaq övladların lənətləndiyi barədə hədislər mövcuddur. Onları Təbərani və digərləri qeyd etmişlər. Əksəriyyəti barədə söz deyilə bilsə də, bəziləri "yaxşı"dır. Bəlkə də qeyd etdikləri şəhvətpərəst də buna aid edilir".

Bütün bunlardan daha təəccüblüsü "Tarix" kitabında Həkəmin tərcümeyi-halında Zəhəbinin göstərdiyi ehtiyat və tərəddüddür (c. 2, s. 96): "Onun lənətləndiyi barədə "inkar olunan" hədislər var. "İnkar olunan" hədisləri dəlil göstərmək icazəli deyil".

Belə deyir. Halbuki bir səhifə sonra Şəbinin İbn Zübeyrdən əvvəldə də qeyd etdiyimiz sənədi səhih rəvayətini nəql edir!"[1005]

Allahın malına qarşı qəsbkarlıq

Osmanın hakimiyyət dövrü beytül-maldan zəif və miskinlərə ayrılmış payın xəlifənin yaxınlarına xərclənməsinə və bunu sayəsində onların milyonlara sahib olmasına da şahidlik edib. Bəlazuri "Ənsabul-əşraf"da Əbu Mixnəf Vaqidi yolu ilə nəql edir: *"Camaat Osmanın Səid ibn Asa yüz min dirhəm hədiyyə verməsini narazılıqla qarşıladı. Bu barədə onunla Əli, Zübeyr, Təlhə, Səd və Əbdürrəhman ibn Ovf söhbət etdilər. O dedi: "O, mənim qohumum və yaxınımdır". Dedilər: "Məgər Əbu Bəkr və Ömərin yaxınları və qohumları yox idi?!" Dedi: "Əbu Bəkr və Ömər yaxın və qohumlarına pay ayırmaq istəmədi, amma mən bunu edirəm". Dedilər: "Allaha and olsun, onların rəhbərliyi sənin rəhbərliyindən bizə daha sevimlidir". Dedi: "Güc və qüvvət yalnız Allaha məxsusdur!"*[1006]

Həmçinin Əta yolu ilə İbn Abbasdan nəql edir: *"Osmana qarşı camaatın narazılığının səbəblərindən biri də Həkəm ibn Əbülası xümsdən artıq*

[1005] əs-Silsilətus-səhihə, Albani, c. 13, s. 43, bab 3240

[1006] Ənsabul-əşraf, Bəlazuri, c. 6, s. 137

qalanları toplamağa məmur etməsi, həmin miqdar üç yüz min dirhəmə yetişdikdə məbləği ona bağışlaması oldu".[1007]

Səhabələrin Osmanın maliyyə siyasətinə etirazı

Osmanın qəbuledilməz maliyyə siyasəti Peyğəmbərin (s) bir çox böyük səhabəsinin ona qarşı qəzəblənməsinə səbəb oldu. Əmmar ibn Yasir onu fəqir və miskinlərin pulunu öz qohumlarına xərcləməkdə ittiham etdi. Bəlazurinin "Ənsabul-əşraf"ında yazılır: *"Mədinənin beytul-malında bir səbət var idi ki, içində bəzək əşyaları və cəvahirlər toplanmışdı. Osman oradakı bəzək əşyalarından götürüb ailəsinə verdi. Camaat buna görə onu danladı, onunla sərt danışıb qəzəbləndirdilər. O, qalxıb xütbə söyləyərək dedi: "Camaat (götürmək) istəmirsə, biz bu qənimətlərdən öz ehtiyacımız miqdarını götürürük". Əli dedi: "Sən onu götürməklə onları bundan məhrum edirsən". Əmmar ibn Yasir də sözə qarışıb dedi: "Allahı şahid tuturam ki, mən onlardan pay almaq istəyənlər ilk şəxslərdənəm". Osman dedi: "Ey yekə qarının oğlu, mənə qarşı cürətlənirsən?! Onu yaxalayın!" Onu yaxalayıb Osmanın otağına apardılar. Huşunu itirənədək onu döydü. Sonra onu çıxarıb Peyğəmbərin (s) zövcəsi Ümmü Sələmənin evinə gətirdilər. Halsızlıqdan zöhr, əsr və məğrib namazlarını qıla bilmədi. Özünə gəldikdə dəstəmaz alıb namaz qıldı və dedi: "Həmd olsun Allaha! Bu, Allaha görə əziyyət çəkdiyimiz ilk gün deyil".*[1008]

Necə ki, Əbuzər Ğəffari də Əməvilərin beytül-mala müdaxilələrinə etiraz etmişdi. Bəlazuri yazır: *"Osman Mərvan ibn Həkəmə müəyyən şeyləri verdikdən sonra Haris ibn Həkəm ibn Əbülasa üç yüz min dirhəm və Zeyd ibn Sabit Ənsariyə də yüz min dirhəm verdi. Əbuzər bunları götürüb saxlayanların ağır əzabla üzləşəcəklərini söyləyir və Uca Allahın bu sözlərini tilavət edirdi:* ***"Qızıl-gümüş yığıb onu Allah yolunda***

[1007] Ənsabul-əşraf, Bəlazuri, c. 6, s. 137
[1008] Ənsabul-əşraf, Bəlazuri, c. 6, s. 161-162

xərcləməyənləri şiddətli bir əzabla müjdələ!"[1009] *Mərvan ibn Həkəm onun sözlərini Osmana çatdırdı. Osman Əbuzərin yanına adam göndərib ona bu işdən çəkinməsi ilə bağlı xəbərdarlıq etdi. Əbuzər dedi: "Osman mənə Allahın kitabını oxumağı qadağan edir və Allahın əmrini tərk etməm üçün məni qınayır? Allaha and olsun ki, Osmanın qəzəbini qazanmaqla da olsa Allahın razılığını əldə etmək Osmanı razı salmaqla Onun qəzəbini cəlb etməkdən mənə daha sevimli və daha xoşdur". Bununla Osmanı qəzəbləndirdi, o isə çətinliklə səbr edərək ondan əl çəkdi.*

Bir gün Osman dedi: "İmamın beytül-maldan götürməsi icazəlidirmi?" Kəbul-Əhbar dedi: "Bunun heç bir eybi yoxdur". Əbuzər isə dedi: "Ey yəhudinin oğlu! Dinimizi bizə sən öyrədəcəksən?!" Osman dedi: "Sən mənə və əshabıma nə çox əziyyət edirsən. Get dəftərxanana!"

Ordunun dəftərxanası Şamda idi. O, yalnız Həcc vaxtı gəlir, Osmandan Peyğəmbərin (s) qəbrinin yanına getmək üçün izn alır, o da izn verirdi. Dəftərxananın Şamda olmasının səbəbi isə tikintinin Sələyə yetişdiyini gördükdə Osmana belə deməsi idi: "Peyğəmbərdən (s) eşitmişəm ki buyurub: "Tikinti Sələyə yetişdikdə qaçın". Bu zaman Şama gedərək orada dəftərxana qurmağa izn vermişdi.

Əbuzər Müaviyənin də əməllərinə etiraz edirdi. Müaviyə ona üç yüz dinar göndərdikdə Əbuzər dedi: "Əgər bu, məni məhrum etdiyiniz bu ilin payıdırsa, onu qəbul edərəm, əgər mükafatdırsa, buna ehtiyacım yoxdur".

Həbib ibn Məsləmə də ona iki yüz dinar göndərdi. Əbuzər: "Mənə pul göndərdikdə özünü məndən aşağı hiss etmədinmi?" deyib pulu geri qaytardı.

Müaviyə Dəməşqdə bir saray tikdirmişdi. Əbuzər ona dedi: "Ey Müaviyə, əgər bu evi Allahın malından ayırıb tikdirmisənsə bu, xəyanətdir. Əgər öz pulunla tikmisənsə bu, israfdır". Müaviyə susdu.

[1009] Tövbə, 34

Əbuzər deyirdi: "Allaha and olsun ki, məmurlar mənim bilmədiyim şeylər edirlər. Bunlar Allahın kitabında və Peyğəmbərinin sünnəsində yoxdur. Mən haqqın axsadığını, batilin isə həyat qazandığını, doğru danışanın təkzib olunduğunu, qorxmadan tamahkarlıq edildiyini, hər bir şeyə özlərini haqlı bildiklərini görürəm".

Həbib ibn Məsləmə Müaviyəyə dedi: "Əbuzər Şamı sənin üzərinə qaldıracaq. Əgər ehtiyac varsa, təbdir gör". Müaviyə bu barədə Osmana yazdı. Cavabında Osman ona belə yazdı: "Cündəbi mənim yanıma ən sərt və narahat minikdə göndər". Müaviyə onu gecə-gündüz istirahət etmədən yol gedən bir şəxslə Mədinəyə göndərdi. Əbuzər Mədinəyə yetişdikdə dedi: "Uşaq-muşağı vəzifəyə gətirir, himayə edir və tüləqaların övladlarını yanına toplayır". Osman onun yanına adam göndərib dedi: "Buradan haraya istəyirsən çıx get".

Əbuzər: Məkkəyə.

Osman: Xeyr.

Əbuzər: Beytül-müqəddəsə.

Osman: Xeyr.

Əbuzər: Kufəyə və ya Bəsrəyə.

Osman: Xeyr. Mən səni Rəbəzəyə göndərəcəyəm.

Onu Rəbəzə çölünə göndərdi və ölənədək orada qaldı".[1010]

Səhabə ehtiramının tapdanması

Osman Bəni-Üməyyə və Bəni-Muitdən olan qohumlarını vəzifəyə gətirmək və Allahın malını mənimsəməklə kifayətlənməyərək Peyğəmbərin (s) öndə gedən səhabələrini də danlayırdı. Belə ki, onlardan çoxu Osmanın hakimiyyəti dövründə möhnətdə yaşayır və böyük

[1010] Ənsabul-əşraf, Bəlazuri, c. 6, s. 166-167

bəlalarla üzləşirdilər. Əbuzər, Abdullah ibn Məsud və Əmmar ibn Yasir kimi bəzi səhabələr təhqir və ehtiramsızlıqla da qarşılaşırdılar.

Əbuzər Ğəffari

Bəlazuri "Ənsab"da Bəkr ibn Heysəm yolu ilə Əbdürrəzzaqdan, o da Müəmmərdən, o da Qətadədən rəvayət edir: *"Əbuzər Osmanın xoşuna gəlməyən bəzi sözlər söylədi və Osman onun sözlərini təkzib etdi. Əbuzər dedi: "Peyğəmbərin (s) "Əbuzər kimi bir doğru danışan şəxsi Yer üzərində daşımamış, göylər üzərini örtməmişdir" sözlərindən sonra kiminsə məni təkzib edəcəyini əsla güman etməzdim".*

Sonra Osman onu Rəbəzəyə sürgün etdi. Əbuzər deyirdi: "Həqiqət mənim üçün bir dost belə saxlamadı". Rəbəzəyə getdikdə dedi: "Osman məni hicrətdən sonra bədəviyə çevirdi".

Deyir: "Əli Əbuzəri yola salmağa çıxdı. Mərvan isə buna mane olmağa çalışdı. Əli əlindəki qamçı ilə Mərvanın atının qulaqları arasına bir zərbə endirdi. Bu barədə Osmanla Əlinin arasında mübahisə yaşandı. Osman dedi: "Mənim nəzərimdə sən ondan əfzəl deyilsən!" Bir-birini yanlışlıqda ittiham etdilər. Camaat Osmanın sözlərini təqdir etmədi. Onların arasına girib ayırdılar".[1011]

Əmmar ibn Yasir

Bəlazuri yenə də "Ənsab"da Bəkr ibn Heysəm yolu ilə Əbdürrəzzaqdan, o da Müəmmərdən, o da Qətadədən nəql edir: *"Həmçinin rəvayət olunur ki, Əbuzərin Rəbəzədə öldüyü Osmana xəbəri çatdıqda dedi: "Allah ona rəhmət etsin!" Əmmar ibn Yasir bunu eşidib dedi: "Bəli, bizim ona qarşı etdiklərimizə görə Allah rəhmət etsin". Osman dedi:* ***"Ey atasının alətini dişləyən!*** *Onu sürgün etməyimə peşman olduğumumu düşünürsən?"*

[1011] Ənsabul-əşraf, Bəlazuri, c. 6, s. 168-169

Onu Mədinədən uzaqlaşdırmağı əmr etdi. Əmmar çıxmağa hazırlaşarkən Bəni-Məxzum qəbiləsindən bir neçə şəxs gələrək Əlidən Osmanla bu barədə danışmasını xahiş etdilər. Əli Osmana dedi: "Ey Osman, Allahdan qorx, sən müsəlmanlardan saleh bir şəxsi sürgün etdin, o da orada öldü. Sən yenə də buna bənzər bir iş tutmaq istəyirsən?!"

Aralarında mübahisə düşdü, Osman dedi: "Sən sürgün edilməyə ondan daha layiqsən". Əli dedi: "Əgər bacarırsansa, cəhd et". Mühacirlər oraya toplaşıb dedilər: "Əgər sənə qarşı sərt danışan hər bir kəsi sürgün edəcəksənsə, bu iş qəbuledilməzdir". Bundan sonra Osman Əmmarı sürgün etməkdən əl çəkdi".[1012]

"əl-İstiab"da isə deyilir: *"Əmmar və atası ilə Bəni-Məxzumun arasında and və dostluq var idi. Bu səbəbdən Osmanın Əmmarı döydüyü, qarnını yardığı, qabırğasını qırdığı və onu sürgün etmək istədiyi xəbəri onlara yetişdikdə bir yerə toplaşıb dedilər: "Allaha and olsun, əgər o ölsə, Osmanı öldürəcəyik".*[1013]

Abdullah ibn Məsud

Bəlazuri "Ənsabul-əşraf"da Əbu Mixnəf və Əvanə yolu ilə sənədli şəkildə rəvayət edir: *"Abdullah ibn Məsud beytül-mal xəzinəsinin açarlarını Vəlid ibn Əqəbənin üzərinə atıb dedi: "Kim yeniliklər (bidətlər) etsə, Allah da ona münasibətini dəyişər. Sizin dostunuzun isə artıq yeniliklər etdiyini görürük. Səd ibn Əbu Vəqqas kimisini vəzifədən çıxarıb yerinə Vəlidi təyin edir. Peyğəmbər (s) heç vaxt tərk edilməyəcək sözlər söyləmişdi: "Ən düzgün sözlər Allahın kitabındadır, ən yaxşı yol Muhəmmədin (s) yoludur, ən pis işlər yeniliklərdir, hər bir yenilik bidətdir, hər bir bidət isə zəlalətdir, bütün zəlalətlərin aqibəti isə Cəhənnəm odudur".*

[1012] Ənsabul-əşraf, Bəlazuri, c. 6, s. 168-169

[1013] əl-İstiabu fi mərifətil-əshab, İbn Əbdülbərr, c. 3, s. 1136

Vəlid məktub yazaraq onun bu sözlərini Osmana xəbər verdi, Abdullahın ona eyib tutduğunu, məzəmmət etdiyin bildirdi. Osman isə cavabında onu şəhərdən uzaqlaşdırmasını söylədi. Bu qərar Kufə əhlinin arasında yayıldı. Əhali onlara Allahdan çəkinməyi və Qurana tabe olmağı tövsiyə etdi. Onlar Abdullah ibn Məsuda dedilər: "Allah sənə xeyirli mükafat versin! Sən bizim cahillərimizi savadlandırdın, alimlərimizi sabitqədəm etdin, bizə Quran oxutdurdun və dini anlatdın. Sən nə gözəl müsəlman qardaşsan! Nə yaxşı dostsan!"

Sonra onunla vidalaşıb ayrıldılar.

İbn Məsud Mədinəyə gəldi. Həmin vaxt Osman Peyğəmbərin (s) minbəri üzərində oturub xütbə söyləyirdi. Osman onu gördükdə dedi: "Sizin yanınıza öz yeməyini tapdayıb onun üzərinə batıran rəzil heyvan gəlib". İbn Məsud dedi: "Mən heç də sənin vəsf etdiyin biri deyiləm. Ancaq mən Bədr savaşında və Rizvan beyətində iştirak etmiş Peyğəmbər (s) səhabəsiyəm".

Bu vaxt Aişə Osmana səslənərək dedi: "Sən Peyğəmbərin (s) səhabəsinə bu cür sözlər söyləyirsən?!"

Osman onun zorla məsciddən çıxarılmasına göstəriş verdi. Abdullah ibn Zəmə ibn Əsvəd ibn Mətləb ibn Əsəd ibn Əbdülüzza ibn Qusey onu yerə çırpdı. Deyilir ki, Osmanın üç xidmətçisi onu qaranlıq bir yerə aparıb orada boyunlarının üzərinə qaldırıb yerə vurdular. Bu vaxt onun qabırğası sındı. Əli dedi: "Ey Osman! Vəlid ibn Əqəbənin sözünə görə Peyğəmbər (s) səhabəsi ilə belə rəftar edirsən?!" Osman dedi: "Vəlidin sözünə görə bunu etmədim. Zübeyd ibn Salt Kindini Kufəyə göndərdim. İbn Məsud ona Osmanın qanın halal olduğunu söylədi". Əli dedi: "Zübeyddən başqa bir etibarlı şəxsi niyə göndərmədin?.."

Əli İbn Məsudu götürüb evinə apardı. İbn Məsud Mədinədə qaldı, Osman ona Mədinədən kənara çıxmağa izn vermədi. O, Şamdakı qərargaha getmək istədikdə Osman bunu ona qadağan etdi. Mərvan Osmana dedi: "İbn Məsud İraqı sənin üzərinə qaldırdı, indi də Şamı qaldırmasını istəyirsən?"

O, Osmanın qətlindən iki il əvvəl vəfat etdi və həmin vaxtadək Mədinədən çıxmadı. Mədinədə üç il yaşadı. Bəziləri onun Səd ibn Əbu Vəqqasın evində qaldığını söyləyirlər.

Abdullah ibn Məsudun ölümünə səbəb olan xəstəliyi vaxtı Osman ona baş çəkməyə gəldi. Dedi: "Nədən şikayətin var?"

İbn Məsud: Günahlarımdan.

Osman: Nə isə istəyirsən?

İbn Məsud: Rəbbimin rəhmətini.

Osman: Sənin üçün təbib sağırım?

İbn Məsud: Məni elə Təbib xəstələndirib.

Osman: Payının ayrılmasına göstəriş verimmi?

İbn Məsud: Mənim ona ehtiyacım olduqda məhrum etdin, indi ona ehtiyacım yoxdur.

Osman: Övladlarına qalar.

İbn Məsud: Onların ruzisi Allahın boynundadır.

Osman: Ey Əbu Əbdürrəhman, mənim üçün bağışlanma dilə.

İbn Məsud: Allahdan haqqımı səndən almasını diləyirəm.

Sonra Osmanın onun cənazə namazında iştirak etməməsini vəsiyyət etdi, Osmandan xəbərsiz Bəqidə dəfn edildi. Osman xəbər tutduqda "Məni bundan məhrum etdiniz!" deyib qəzəbləndi. Əmmar ibn Yasir dedi: "Sənin onun üçün namaz qılmamağını vəsiyyət etmişdi".

Zübeyr isə dedi:

Ölümdən sonra mənim üçün ağı deyəcəyini bilirəm,
Halbuki mən həyatda ikən payımı mənə rəva görmədin!

İbn Məsud mal və övladları barədə Zübeyrə vəsiyyət etmişdi. Zübeyr onun vəfatından sonra övladlarına məxsus payı almaq üçün Osmanla mübahisə etdi.

İbn Məsud onun cənazə namazının Əmmar ibn Yasirin qılmasını vəsiyyət etdiyindən bir dəstə adam vəsisinin Əmmar olduğunu güman etdi. Lakin Zübeyrin onun vəsisi olduğu sübuta yetmişdir".[1014]

Həmçinin həmin kitabda qeyd edilir ki, Vəlid Kufəyə gəldikdə *"İbn Məsud beytül-mala məsul şəxs idi. Ondan borc aldı. Belə ki, valilər bəzən beytül-maldan borc götürür, sonra da onu yerinə qaytarırdılar. İbn Məsud Vəlidin istədiyi miqdarı ona verdi. Bir müddət sonra isə borcu geri istədi. Vəlid də bunu Osmana yazıb xəbər verdi. Osman Abdullah ibn Məsuda belə bir məzmunda məktub göndərdi: "Sən bizim xəzinədarımızsan, Vəlidin götürdüyü pulu ondan tələb etmə".*

Abdullah ibn Məsud beytül-mal xəzinəsinin açarlarını Vəlidin üzərinə atıb dedi: "Mən müsəlmanların xəzinədarı olduğumu düşünürdüm. Əgər sizin şəxsi xəzinədarınıza çevrilmişəmsə, buna ehtiyacım yoxdur". Beytül-malın açarlarını onun üzərinə atdıqdan sonra Kufədə qaldı".[1015]

İbn Şəbbə "Tarixul-Mədinə" əsərində İsmail ibn Əbu Xalid yolu ilə Amirdən nəql edir: "Osman (r) baş çəkmək üçün Abdullahın yanına gəldi. Dedi: "Bu sənin beytül-maldakı payındır, götür". İbn Məsud ona ehtiyacı olmadığını söyləyib dedi: "Lazım olduğu vaxt məni bundan məhrum etmişdin". Osman iki il onu bu paydan məhrum etmişdi".[1016]

Osmanın ən yaxın yoldaşlarından Əbdürrəhman ibn Ovf da ona etiraz edir və danlayırdı. Əhmədin "Müsnəd"ində Şəqiq sənədilə nəql olunur: *"Əbdürrəhman ibn Ovf Vəlid ibn Əqəbə ilə qarşılaşdı. Vəlid ona dedi: "Bu nədir, möminlərin əmiri Osmana cəfa etdiyini görürəm". Əbdürrəhman dedi: "Ona xəbər ver ki, Ühüd savaşında mən qaçmadım, həmçinin Bədrdə də evdə oturmadım, Ömərin sünnəsini də mən tərk etmədim..."*[1017]

[1014] Ənsabul-əşraf, Bəlazuri, c. 6, s. 146-147
[1015] Ənsabul-əşraf, Bəlazuri, c. 6, s. 140
[1016] Tarixul-Mədinə, İbn Şəbbə Nəmiri, c. 3, s. 1051-1052
[1017] Müsnəd, Əhməd ibn Hənbəl, c. 1, s. 168

Quran nüsxələrinin yandırılması

Osmanın xəlifəliyi dövründə ümmət İslamın əsas şərtlərdən birini də itirdi. Xəlifə səhabələrin əllərində olan Quran nüsxələrini cırmış, vahid nüsxə iddiası ilə onları məhv etmişdi. Bununla da həmin nüsxələrdə ayələrin təfsiri ilə bağlı Peyğəmbər (s) hədislərindən böyük bir mirası aradan aparmışdı.[1018] Hakim Nişapuri öz "Müstədrək"ində Əbu Meysərə Əmr ibn Şərhəbildən nəql edir: *"Mən namaz qıldığım vaxt bir kişi yanıma gəlib dedi: "Anan yasında ağlasın! Sən hələ də namaz qılırsan, amma Allahın kitablarının cırılıb param-parça edilməsi əmr olunub". Mən namazımı tez bitirib oturmadan evə daxil oldum. Orada da oturmadım. Mən Əşəri ilə, Hüzeyfə də İbn Məsud danışırdıq. Hüzeyfə İbn Məsuda dedi: "Bu nüsxəni onlara ver". İbn Məsud dedi: "Allaha and olsun ki, verməyəcəyəm. Onların bəzisini və yetişmiş suräni Peyğəmbər (s) şəxsən mənə oxutdurub, mən indi bunu onlara verim?! Allaha and olsun ki, vermərəm".*

Hakim hədisi səhih bilərək deyir: *"Bu, səhih hədisdir, Buxari və Müslim nəql etməyiblər".*[1019] Zəhəbi də "ət-Təlxis"də onunla razılaşıb.[1020]

Bunu İbn Əbu Şeybə "əl-Müsənnfə"də Əbu Mucliz sənədilə nəql edib. Orada deyir: *"Quranları cırdığı üçün Osmanı danladılar".*[1021]

Yaqubi öz "Tarix"ində həmin hadisəni müfəssəl şəkildə qeyd edir. Bəzi yerlərində deyir: *"Osman bütün nüsxələri toplayıb onları yazdı. Sonra topladığı nüsxələri suya salıb qaynatdı. Yandırdığı da deyilir. Bütün Quran*

[1018] Aydın məsələdir ki, səhabələr yalnız Quran ayələrini köçürməklə kifayətlənmir, Peyğəmbərdən (s) onun açıqlamalarını da öyrənirdilər. Belə ki, onlar ən kiçik və əhəmiyyətsiz sayılacaq şeylər barədə də Peyğəmbərə (s) suallar ünvanlayırdılar.

[1019] əl-Müstədrəku ələs-səhiheyn, Hakim, c. 2, s. 228; İmtaul-isma, Muzrizi, c. 4, s. 226-227

[1020] Bax: əl-Müstədrək"in haşiyəsində Zəhəbinin "ət-Təlxis"dəki qeydləri, c. 2, s. 247, hədis 2896

[1021] əl-Müsənnəf, İbn Əbu Şeybə, c. 8, s. 684

nüsxələrini belə etdi. Yalnız İbn Məsudun nüsxəsi qalmışdı. O, həmin vaxt Kufədə idi. Öz Quran nüsxəsini Abdullah ibn Amirə verməkdən imtina etdi. Osman məktub yazaraq dedi: "Onu geri çağır. Bu din yiyəsiz və ümmət özbaşına deyil". İbn Məsud Osman xütbə söyləyən vaxt məscidə daxil oldu. Osman dedi: "Pis bir heyvan yanınıza gəlib". İbn Məsud da onunla sərt tərzdə danışdı. Osman onu yaxalayıb ayaqlarından bağlamalarını tələb etdi. Bu zaman İbn Məsudun iki qabırğası sındı. Bunu gördükdə Aişə də Osmana etiraz edərək uzun müddət ona sərt sözlər ünvanladı".[1022]

Osmanın digər yenilikləri

Təqdim edilənlərdən əlavə, camaatın qəzəbinə səbəb olan digər hadisələr də var. Bunlardan:

Minada dörd rəkət namaz qıldırması

Təbəri "Tarix"ində Əbdülməlik ibn Ömər ibn Əbu Süfyan Səqəfidən, o da əmisindən nəql edir: *"Osman Minada camaata dörd rəkət namaz qıldırdı. Bir nəfər Əbdürrəhman ibn Ovfa yaxınlaşıb dedi: "Sənin qardaşına nə olub? Camaata dörd rəkət namaz qıldırdı?" Əbdürrəhman öz yoldaşları ilə iki rəkət namaz qıldı, namazı bitirib Osmanın yanına getdi və dedi: "Məgər sən burada Peyğəmbərlə (s) birlikdə iki rəkət namaz qılmamısan?!" Osman "Bəli" dedi: Bəs Əbu Bəkrlə, iki rəkət qılmırdın?*

Osman: Bəli.

Əbdürrəhman: Ömərlə də iki rəkət qılırdın, elə deyilmi?

Osman: Elədir.

Əbdürrəhman: Həmçinin öz xəlifəlik dövrünün ilk illərində də iki rəkət qılırdın.

[1022] Tarix, Yaqubi, c. 2, s. 170

Osman: Bəli. Ey Əbu Muhəmməd, mənə qulaq as. Ötən ilki Həcc mövsümündə Yəmən əhlindən bəzi hacıların və eləcə də bəzilərinin "yerli olmayan əhali üçün namaz iki rəkətdir" dedikləri mənə xəbər verilib. Onlar deyiblər ki, ancaq sizin imamınız (yerli əhalidən olmasına rəğmən) Osman da iki rəkət qılır.

Mən camaatın (ixtilaf) təhlükəsindən qorxaraq və Məkkəni özümə vətən hesab edərək dörd rəkət qılmağı düşündüm. Belə ki, bura zövcəmin yaşadığı şəhərdir. Həmçinin Taifdə mənim mülküm də var. Xəlifəliyimin ilk illərindən sonra bəzən oraya gedir və bir müddət qalıram.

Əbdürrəhman: Söylədiklərində sənin üçün heç bir üzr yoxdur. Belə ki, sən özünü Məkkədən necə hesab edə bilərsən ki, zövcən Mədinədədir, yalnız sənin istəyinə əsasən evindən çıxır və sənin istəyinə əsasən oraya qayıdır. O, sənin evində yaşayan şəxsdir. "Mənim Taifdə mülküm var" sözünə gəldikdə, sənin evinlə Taifin arasında üç gecəlik yol var. Bu səbəbdən sən Taif əhlindən də sayılmırsan. Ötən ilki Həcc mövsümündə Yəmən əhlindən bəzi hacıların və digərlərinin "Sizin imamınız Osman amma iki rəkət qılır, halbuki o buranın əhlindəndir" sözlərinə gəldikdə; Peyğəmbərə (s) vəhy nazil olurdu, onların arasında müsəlmanların sayı az idi. Əbu Bəkrin də, Ömərin də dövründə belə idi. Ancaq Ömərin dövründə İslamın ətraf ölkələrə yayılmasına baxmayaraq, o, ömrünün sonunadək yenə iki rəkət qıldı.

Osman: Bu sənin fikrindir!

Əbdürrəhman ibn Ovf çölə çıxıb İbn Məsudla qarşılaşdı. İbn Məsud dedi: "Ey Əbu Muhəmməd, bildiyi fikri dəyişdimi?" İbn Ovf "Xeyr" deyə cavab verdi. İbn Məsud özünün necə namaz qılacağını soruşduqda Əbdürrəhman dedi: "Bildiyinə əməl et". İbn Məsud qarşı çıxmağın pis olacağını söyləyib dedi: "Onun dörd rəkət qıldığını mənə xəbər verdilər. Mən də yoldaşlarımla dörd rəkət qıldım". Əbdürrəhman ibn Ovf dedi: "Mənə də onun dörd rəkət qıldığını dedilər, lakin mən yoldaşlarımla iki rəkət qıldım. Ancaq indi sənin

söylədiyini deyənlər də olacaq (yəni onunla birlikdə dörd rəkət qılacağıq)".[1023]

Göyərçinlərin boğazlanması (kəsilməsi) əmri

"Ənsabul-əşraf"da Zuhri yolu ilə Səid ibn Müseyyibdən rəvayət olunur: *"Osman xütbə söyləyərkən göyərçinlərin boğazlanmasını əmr edərək dedi: "Evlərinizdə göyərçinlər çox artıb, hər yeri batırırlar, bizim üzərimizə də düşür..." Camaat öz aralarında dedilər: "Göyərçinləri kəsməyi əmr edir, amma özü Peyğəmbərin (s) qovduğu kəsləri himayə edir".*[1024]

Qisas cəzasını tətbiq etməməsi

Osman bir çox halda Allahın hədd cəzalarını öz həvaye-nəfsinə görə müəyyən edirdi. Belə ki, Übeydullah ibn Ömər Hörmüzanı qətlə yetirməsinə baxmayaraq, ona qisas cəzasını tətbiq etməmişdi. "Ənsabul-əşraf"da deyilir: *"Osman minbərə qalxıb dedi: "Ey camaat... Übeydullah ibn Ömərin Hörmüzanı qətlə yetirməsi Allahın bir hökmüdür (qəzasıdır). Hörmüzan müsəlman şəxs idi, müsəlmanlardan savayı da onun heç bir varisi yoxdur. Sizin rəhbəriniz onu (Übeydullahı) bağışlayıb. Siz də bağışlayırsınızmı?" Camaat razılıq verdi. Əli dedi: "Fasiqi həbs et, o, böyük bir cinayət işləyib, bir müsəlmanı heç bir günahı olmadan öldürüb". Sonra üzünü Übeydullah ibn Ömərə tutub dedi: "Ey fasiq, əgər bu gün qalib gəldinsə də, səni Hörmüzana görə (sabah) öldürəcəyəm".*[1025]

Həmçinin müsəlman olduğunu iqrar edən bir qadını öldürdükdə də ona hədd cəzası tətbiq etmədi. İbn Səd Abdullah ibn Həntəb yolu ilə rəvayət edir: *"Əli Übeydullah ibn Ömərə dedi: "Əbu Luluənin qızının günahı nə idi ki, onu öldürdün?" Ravi dedi: "Osman Əli və Peyğəmbərin (s) digər böyük səhabələri ilə məsləhətləşdikdə onların rəyi Übeydullahın*

[1023] Tarix, Təbəri, c. 3, s. 322-323
[1024] Ənsabul-əşraf, Bəlazuri, c. 6, s. 136
[1025] Ənsabul-əşraf, Bəlazuri, c. 6, s. 130

öldürülməsi oldu. Lakin Əmr ibn As Osmanla danışıb onu belə hökm verməkdən çəkindirdi. Əli deyirdi: "Əgər əlimdə hakimiyyət və qüdrətim olsaydı ondan qisas alardım".[1026]

Yenə də Zuhru yolu ilə nəql olunur: *"Osman xəlifə olduqda mühacir və ənsarı çağırıb dedi: "Dində etdiyini edən bu şəxsin qətli barəsində mənə məsləhət verin". Mühacir və ənsarın rəyi yekdil oldu. Onlar Osmanı Übeydullahın öldürülməsinə təşviq etdilər. Camaatın əksəriyyəti də "Allah uzaq etsin! Oğlunu Ömərin yanına göndərmək istəyirsiniz?!" deyirdi. Bu səbəbdən səs-küy qalxdı, ixtilaf düşdü. Əmr ibn As dedi: "Ey möminlərin əmiri, bu məsələ sənin hakimiyyətə gəlişindən əvvəl olub. Bundan əl çək". Camaat da Əmr ibn Asın sözündən sonra oradan ayrıldı".*[1027]

İbn Cüreyh yolu ilə rəvayət olunur: *"Osman müsəlmanlarla məsləhətləşdikdə onlar yekdilliklə hər ikisinə (Hörmüzan və Luluənin qızı Cüfeynənin qətlinə) görə diyə verməli olması fikrinə gəldilər və Übeydullah ibn Ömərin öldürülməməsinə hökm verdilər. Hörmüzan və Cüfeynə İslamı qəbul etmiş və Ömərin onlara beytül-maldan pay ayırdığı şəxsləri idilər.*

Əli ibn Əbu Talibə beyət olunduqda o, Übeydullah ibn Ömərə qisas cəzasını tətbiq etmək istədi. Ancaq Übeydullah Şama, Müaviyə ibn Əbu Süfyanın yanına qaçdı və ta ki, Siffində qətlə yetirilənədək onun qanında qaldı".[1028]

İbn Əsir yazır: *"Deyilir: "Osman Hörmüzanı qətlə yetirdiyinə görə Übeydullahı Hörmüzanın oğlu Qəmazbana təslim etdi. Qəmazban dedi: "Camaat məni dövrəyə alıb onu bağışlamaq üçün dilə tutdular. Mən isə onu mənim əlimdən heç kəsin ala bilməyəcəyini və əgər istəsəm onu öldürəcəyimi söylədim. Onlar da bunu belə olduğunu təsdiqlədilər. Mən də artıq onu bağışladığımı söylədim".*

[1026] ət-Təbəqatul-kubra, İbn Səd, c. 5, s. 17
[1027] ət-Təbəqatul-kubra, İbn Səd, c. 5, s. 17
[1028] ət-Təbəqatul-kubra, İbn Səd, c. 5, s. 17

Alimlərdən bəziləri deyirlər: Əgər məsələ belə olmasaydı, tənqidçilər xilafətinin ilk altı ilində Osmanın ədalətli olduğunu söyləməzdilər. Əksinə, hakimiyyətinə zülm və ədalətsizliklə başladığını bildirərdilər. Çünki o, barəsində ilahi hədd tətbiq olunmalı bir şəxs haqqında hökmü icra etməmiş olardı. Əlbəttə ki, bu barədə də fərqli nəzərlər var. Belə ki, əgər Hörmüzanın oğlu Übeydullahı bağışlamışdısa, o zaman hakimiyyətə gəldikdən sonra Əlinin Übeydullahdan qisas almağa haqqı çatmazdı. Halbuki o, buna cəhd edir. Übeydullah yalnız Osman öldürülənədək orada qalır. Əli xəlifə olduqda onu öldürmək istəyir. Übeydullah qisasdan qurtulmaq üçün Müaviyənin yanına qaçır və Siffin savaşında öldürülür..."[1029]

İbn Həcər deyir: *"Onu Hörmüzanın oğlu İmadiana verdilər. O, Übeydullahdan qisas almaq istədi. Camaat bunu etməməsi üçün onu dilə tutdu. İmadian dedi: "Onu mənim əlimdən heç kəs ala bilməz". Camaat onun bu haqqını təsdiqlədi. Dedi: "Mən artıq onu bağışladım".*

Bunun doğruluğu barədə şübhə etmək olar. Belə ki, Əli hələ də Hörmüzana görə onu öldürmək istəyirdi. Bu səbəbdən Əli xəlifə olduqda Übeydullahın Şama qaçdığı deyilir. O, Siffində öldürülənədək Müaviyənin yanında idi. Onun Müaviyənin ordusunda öldürülməsində isə heç bir ixtilaf yoxdur".[1030]

Camaatı Osmana qarşı qaldıranlar

Osmanın şəriətə qarşı atdığı təhlükəli addımlar camaatın ümumi qəzəbinə səbəb olmuş, onun istefası ilə bağlı səslər yüksəlməyə başlamışdı. Osmana qarşı camaatı təhrik edənlərin başında böyük səhabələr gəlirdi. Onlardan:

Əbu Bəkrin qızı Aişə

[1029] Usdul-ğabə, İbn Əsir, c. 3, s. 343

[1030] əl-İsabə, İbn Həcər, c. 5, s. 43

Osmana qarşı camaatı təhrik edənlərin öndə gedənlərindən biri Aişə idi. Onu küfrdə ittiham edərək öldürülməsinə səsləyirdi. Təbəri "Tarix"ində Əsəd ibn Abdullah sənədilə rəvayət edir: *"Elm əhlindən əldə edilən məlumatlara əsasən, Aişə (r) Məkkədən qayıdarkən yolda Übeyd ibn Ümmü Kilabla (o, Əbd ibn Əbu Sələmədir. Anasına nisbət verilirdi) qarşılaşdı. Aişə dedi: "Orada vəziyyət necədir?"*

Übeyd: Osman (r) öldürüldü. Səkkiz nəfər qaldı.

Aişə: Sonra nə etdilər?

Übeyd: Mədinə əhli icma edərək işi ən yaxşısına götürüb, Əli ibn Əbu Talibin ətrafında yekdilliklə toplaşdılar.

Aişə: Sənin bu dediyin yoldaşına beyət ediləcəyinə kaş göy yerin üstünə çöküb düşəydi! Məni geri götürün, geri götürün!

Sonra Məkkəyə geri qayıtmışdı. Aişə belə deyirdi: "Allaha and olsun, Osman məzlum olaraq qətlə yetirildi, Allaha and olsun ki, mən onun qanının qisasını mütləq tələb edəcəyəm".

Übeyd ona dedi: "Nə üçün? Osmanın səhv işlərə əl atdığını və yolundan azdığını ilk dəfə söyləyərək "Bu axmaq uzunsaqqal qocanı öldürün, o, artıq kafir olub" deyən sən deyildinmi?"

Aişə dedi: "Onlar Osmanın tövbə etməsini istədilər, o da tövbə etdi. Amma buna baxmayaraq, geri qayıdıb öldürdülər. Mən bunları demişdim, onlar da eyni şeyləri demişdilər. Ancaq mənim sonradan dediyim sözlərim ilk dəfə söylədiklərimdən daha doğru və xeyirlidir".

İbn Ümmü Kilab ona dedi:

Rəy də səndəndir, dəyişmək də,
Külək də səndəndir, yağış da.
Rəhbərin qətlinə sən əmr verdin
Onun kafir olduğunu bizə sən söylədin.
Bizi qətlinə təşviq etdin,

Onun qətlində sənə itaət etdik.
Qatili, əmr edən şəxs yanımızdadır.
Başımızın üstündən tavan uçmadı
Günəş də, Ay da tutulmadı.
Camaat güclü bir şəxsə beyət etdi,
Yağan doluları aradan qaldıracaq,
Əyrilikləri düzəldəcək.
Savaş paltarlarını geyəcək.
Vəfalı şəxs əsla xain kimi olmayacaq.

Aişə Məkkəyə qayıtdı. Məscidin qapısına gedib Hicri-İsmailə tərəf yönəldi. Camaat onun ətrafına toplaşdıqda dedi: "Ey camaat, Osman məzlum olaraq öldürülüb. Allaha and olsun ki, onun qanının intiqamını tələb edəcəyəm!"[1031]

Halbuki Osman tənqid və ittiham edildikdə Aişə onu *"axmaq uzunsaqqal qoca"* deyə vəsf edirdi.

Başqa bir dəfə də onu *"zalım, müstəbid"* adlandırıb, camaatı ondan uzaqlaşdırmağa çağırmışdı. "Ənsabul-əşraf"da yazılır: *"Abdullah ibn Abbas Aişənin yanından keçirdi. Osman onu Həcc mərasiminə rəhbər təyin etmişdi. Aişə isə yolun üzərindəki evlərdən birində idi. Aişə dedi: "Ey İbn Abbas, Allah sənə ağıl, düşüncə və izahlar verib. Camaatı o zalım və müstəbiddən uzaqlaşdır".*[1032]

Gah da Peyğəmbərin (s) köynəyini və bir tükünü çıxarıb *"Peyğəmbərin (s) köynəyi və saçının tükü köhnəlib xarab olmamış Osman onun sünnəsini zay etdi"* deyirdi. Bəlazuri "Ənsabul-əşraf"da Abbas ibn Hişam ibn Muhəmməddən, o da Əbu Mixnəfin istinadı ilə[1033] deyir: *"Əmmara edilənlərin xəbəri Aişəyə çatdı və o, bərk qəzəbləndi. Peyğəmbərdən (s)*

[1031] Tarix, Təbəri, c. 3, s. 477; əl-Kamilu fit-tarix, İbn Əsir, c. 3, s. 206
[1032] Ənsabul-əşraf, Bəlazuri, c. 2, s. 287
[1033] "Ənsabul-əşraf"da belə deyilir.

qalan saç tüklərini, paltarlarını və başmaqlarından birini əlində çölə çıxarıb dedi: "Peyğəmbərinizin (s) sünnəsini nə tez tərk etdiniz?! Bu onun tükü, paltarı və başmağıdır ki, özündən sonra hələ də köhnəlməyib".

Osman nə dediyini bilməyəcəyi həddə çox qəzəbləndi. Məscidi səs-küy bürüdü, camaat "Sübhanallah, sübhanallah!" söyləməyə başladı".[1034]

Bunu həmçinin Zuhridən də nəql edib.[1035]

Osmanın qətlindən sonra Aişənin rəyinin dəyişməsi

İbn Əbdülbərr "əl-İstiab"da Zəhhak ibn Qeysin tərcümeyi-halında yazır (İbn Əbdülbərrin də sözlərinə əsasən, o, Əhnəf ibn Təmimi Sədidir): *"Əhnəf ağıllı, həlim xasiyyətli, dindar, zəkalı, fəsahətli və hazırcavab idi. Aişə Bəsrəyə gəldikdə onun yanına adam göndərdi. Əhnəf gəldikdə Aişə dedi: "Ey Əhnəf, vay olsun sənə! Möminlərin əmiri Osmanın qatilləri ilə savaşı tərk etdiyin üçün Allahın qabağında nə üzr gətirəcəksən?! Sayın azlığındandır, yoxsa tayfan sənə itaət etmir?" Əhnəf dedi: "Ey möminlərin anası! Qocalmamışam və hadisənin üzərindən də uzun zaman keçməyib. Bir il əvvəl sən onu pisləyir və ittiham edirdin".*

Aişə dedi: "Vay olsun, ey Əhnəf! Onlar Osmanı qab kimi sildilər və qətlə yetirdilər".

Əhnəf dedi: "Ey möminlərin anası! Əmrinə itaət edəndə razı, tərk edəndə də narazı qalırsan".[1036]

Təlhə ibn Übeydullah

Təlhə də camaatı Osmana qarşı təhrik edənlərdən biridir. Bəlazuri "Ənsabul-əşraf"da İbn Sirindən belə dediyini rəvayət edir: *"Peyğəmbər (s) səhabələrindən Osmana qarşı Təlhədən daha sərti yox idi".*[1037]

[1034] Ənsabul-əşraf, Bəlazuri, c. 2, s. 275

[1035] Ənsabul-əşraf, Bəlazuri, c. 2, s. 292

[1036] əl-İstiabu fi mərifətil-əshab, İbn Əbdülbərr, c. 2, s. 716; Usdul-ğabə, İbn Əsir, c. 1, s. 516

Yenə də "Ənsabul-əşraf"da deyilir: *"Mucəmmi ibn Cariyə Ənsari Təlhə ibn Übeydullahın yanından keçərkən Übeydullah ona dedi: "Ey Mucəmmi, yoldaşın nə edir?" Dedi: "Güman edirəm ki, onu siz öldürmüsünüz". Təlhə dedi: "Əgər öldürülsə belə, nə müqərrəb mələk dir, nə də mürsəl peyğəmbər!"*[1038]

İbn Əbu Şeybə "əl-Müsənnəf"də Hükeym ibn Cabirdən nəql edir: *"Osman mühasirəyə alındıqda Əli Təlhənin yanına gəldi. O, evində balışa söykənib oturmuşdu. Əli dedi: "Allahı sənə şahid tuturam! Camaatı möminlərin əmirindən uzaqlaşdırmasan onu öldürəcəklər". Təlhə dedi: "Xeyr, Allaha and olsun ki, Bəni-Üməyyə haqqı geri verməyənədək bunu etməyəcəyəm".*[1039]

Təlhə Osmana su verilməsini qadağan edir

Osmana su verilməsinə qadağa qoyan şəxsin də Təlhə olduğu qeyd edilib. "Ənsabul-əşraf"da deyilir: *"Əbu Mixnəf və başqaları deyirlər: "Təlhə mühasirədə saxladığı Osmana qarşı daha sərt addım ataraq ona su ötürülməsini də qadağan etdi. Əli ibn Əbu Talib bundan qəzəbləndi və qab dolu suyu ona göndərdi".*[1040]

İbn Həcər deyir: *"Yaqub ibn Süfyan səhih sənədlə Qeys ibn Əbu Hazimdən nəql edir ki, Mərvan ibn Həkəm Təlhəni atın üzərində görüb dedi: "Bu, Osmana qarşı yardım edirdi". Ox atıb onu atdan saldı. Təlhə çoxlu qan itirib öldü".*[1041]

[1037] Ənsabul-əşraf, Bəlazuri, c. 6, s. 201
[1038] Ənsabul-əşraf, Bəlazuri, c. 6, s. 292
[1039] əl-Müsənnəf, İbn Əbu Şeybə Kufi, c. 7, s. 276
[1040] əl-Müsənnəf, İbn Əbu Şeybə Kufi, c. 6, s. 188
[1041] əl-İsabə, İbn Həcər, c. 2, s. 432

Osmana qarşı camaatı təhrik edən digər səhabələr

Eləcə də Osmana qarşı camaatı təhrik edənlərin önündə böyük səhabələr də gedirdi. Onlardan biri Əbdürrəhman ibn Üdeys Bəlvi idi. Eyni onun barəsində ibn Vəzzahdan nəql edir: *"Üsyanın rəhbəri Əbdürrəhman ibn Üdeys Bəlvi idi. Osmana qarşı Misir əhlini də o cəlb etmişdi".*[1042]

İbn Əbdülbərr "əl-İstiab"da onun tərcümeyi-halında deyir: *"Əbdürrəhman ibn Üdeys Bəlvi ağac altında Peyğəmbərə (s) beyət (Rizvan beyəti) edən səhabə idi. Əbu Ömər deyir: "O, Misirdən gəlib Osmanı mühasirəyə alan və sonra da öldürən ordunun başçısı idi".*[1043]

Onlardan biri də Muhəmməd ibn Əbu Hüzeyfədir. İbn Həcər onun tərcümeyi-halında deyir: *"Muhəmməd ibn Əbu Hüzeyfə ibn Ütbə ibn Rəbiə... Vaqidi onu "Əbülqasim" künyəli şəxslərin siyahısında qeyd edir. Adı Muhəmmədir, səhabədir. Atası Əbu Hüzeyfə Yəmamədə şəhid oldu. Osman Muhəmmədi himayəsinə alıb onu tərbiyə etdi. Muhəmməd böyüdükdə Osmanın xilafəti dövründə ondan Misirə getmək üçün izn istədi. Osman izn verdi. Osmana qarşı camaatı ən çox təhrik edən şəxslərdən idi..."*[1044]

Zəhəbi onun barəsində yazır: *"Muhəmməd ibn Əbu Hüzeyfə – Əbülqasim Əbşəmi. Şərəfli şəxslərdəndir. Atası Həbəşistana hicrət etdiyi zaman dünyaya gəlib. Rəy sahibidir... Sonra isə Osmana qarşı üsyan edənlərdən oldu, Misirin rəhbərliyini ələ keçirdi".*[1045]

İbn Əbdülbərr onun barəsində deyir: *"Muhəmməd ibn Əbu Hüzeyfə Osmana qarşı camaatı ən çox təhrik edən şəxslərdən idi..."*[1046] Eləcə də, onlardan biri Əmr ibn Asdır ki, İbn Əbdül-Bərr onun barəsində deyir: *"Həmçinin (Osman) Əmr ibn Ası Misirin rəhbərliyindən uzaqlaşdırdıqdan*

[1042] Umdətul-qari, Eyni, c. 5, s. 231
[1043] əl-İstiab, İbn Əbdülbərr, c. 2, s. 840
[1044] əl-İsabə, İbn Həcər, c. 6, s. 10
[1045] Siyəru əlamin-nübəla, Zəhəbi, c. 3, s. 479-480
[1046] əl-İstiab, İbn Əbdülbərr, c. 3, s. 1369

sonra camaatı Osmanın əleyhinə var gücü ilə təhrik və təşviq etməyə başladı".[1047]

Onlardan biri də Muhəmməd ibn Əbu Bəkrdir ki, İbn Həcər onun barəsində yazır: *"Rəy sahibidir... Əli onu tərifləyirdi".*[1048]

İbn Əbdülbərr deyir: *"Əli ibn Əbu Talib Muhəmməd ibn Əbu Bəkri tərifləyir və üstün tuturdu. Çünki o, abid və ictihad sahibi idi. O, Osmanın qətlində iştirak edənlərdəndir".*[1049]

Osmanın əleyhinə camaatı qaldıran və təhrik edən bir çox digər səhabələr ki, burada onların hamısının adını qeyd etməyə imkanımız yoxdur.

Osmana qarşı ümumi narazılıq

Osmanın etdiyi bu hərəkətlər ümumi narazılığa səbəb olmuş, Aişənin, Təlhənin və bir dəstə böyük səhabənin camaatı onun əleyhinə qaldırması üsyan alovlarını qızışdırmış və "İstefa!" sədalarını yüksəltmişdi. İbn Əbu Şeybə "əl-Müsənnəf"də Əbu Səidə istinadən deyir: *"Camaat Aişənin çadırının yanında idi. Bu zaman Osman oradan keçirdi. Bu, Məkkədə olmuşdu. Əbu Səid deyir: "Məndən başqa onların hamısı Osmanı söyüb lənətlədilər. Aralarında Kufə əhlindən bir nəfər var idi. Osman vaxtilə onu mükafatlandırmışdı. Osman dedi: "Ey kufəli, sən də məni söyürsən? Mədinəyə gələrsən!" Sanki, onu təhdid edirdi. Əbu Səid deyir: "Mədinəyə gəldikdə ona Təlhə ilə görüşməsinin lazım olduğu deyildi. O, Təlhə ilə birlikdə Osmanın yanına getdi. Osman onu gördükdə dedi: "Allaha and olsun ki, sənə yüz qırmanc vurduracağam!"*

Təlhə: Allaha and olsun, vurdurmayacaqsan! O, zinakar deyil ki, yüz qırmanc vurdurasan.

Osman: Verdiklərimi geri alacağam!

[1047] əl-İstiab, İbn Əbdülbərr, c. 3, s. 1369
[1048] Təqribut-təhzib, c. 2, s. 59
[1049] əl-İstiab, İbn Əbdülbərr, c. 3, s. 1367

Təlhə: Allah əvəzində ona ruzi yetirər".[1050]

Osmanın mühasirəsi və öldürülməsi

Osmanın xilafəti Peyğəmbər (s) səhabələrinin çevriliş və hökumətdə qayda qanun yaratmaq üçün ilk qiyam və inqilabı idi. Bu inqilabda Osman qiyamçılar tərəfindən öldürüldü. Təbərinin "Tarix"ində yazılır: *"Osmanın etdiklərini gördükdə Mədinədəki Peyğəmbər (s) səhabələri ətraf məntəqələrə dağılmış səhabələrə məktub yazdılar: "Siz Allah yolunda Muhəmmədin (s) dini üçün səy göstərdiyiniz halda, ardınızdan onun dini fəsada uğradı və tərk edildi. Yanımıza gəlin, Peyğəmbərin (s) dinini bərpa edin". Uzaq yerlərdən gəlib sonda onu qətlə yetirdilər".*[1051]

İbn Əsir "Tarix" kitabında hicri 34-cü ilin hadisələrini qeyd edərkən deyir: *"Həmin ildə bir dəstə Peyğəmbər (s) səhabəsi və başqaları digər səhabələrə məktub göndərdilər: "Buraya gəlin, cihad buradadır. Camaat Osmana qarşı çox ciddidir, heç kimdən görmədikləri pislikləri ondan çəkiblər. Səhabələrdən yalnız az sayda adam: Zeyd ibn Sabit, Əbu Üseyd Saidi, Kəb ibn Malik və Həssan ibn Sabit onu müdafiə etdilər".*[1052]

Bəlazuri "Ənsabul-əşraf"da İbn Şihab Zuhri yolu ilə Səid ibn Müseyyibdən nəql edir: *"Misirlilər gəlib Abdullah ibn Səd ibn Əbu Sorhdan şikayət etdilər və Osmandan onun yerinə Muhəmməd ibn Əbu Bəkri təyin etməsini istədilər. Osman məktub yazıb onu vəzifəyə təyin etdiyini bildirdi. Bir dəstə mühacir və ənsarı onlarla bərabər Misirə göndərdi ki, İbn Əbu Sorhla aralarında baş verənlərə nəzarət etsinlər. Muhəmməd ibn Əbu Bəkr və misirlilər yola düşdülər, Mədinədən üç gecəlik yol məsafəsində uzaqlaşmışdılar ki, bir qulamın dəvənin üzərində sürətlə çapdığını gördülər. Sanki, qulam nəyinsə ardınca tələsir, yaxud kimsə onu qovurdu. Muhəmməd*

[1050] əl-Müsənnəf, İbn Əbu Şeybə, c. 7, s. 264, c. 8, s. 685
[1051] Tarix, Təbəri, c. 3, s. 400-401
[1052] əl-Kamilu fit-tarix, İbn Əsir, c. 3, s. 150-151

ibn Əbu Bəkrin yanındakılar (onu saxlayıb) nə baş verdiyini və nə üçün belə tələsdiyini, kimdən qaçdığını və ya kimi qovduğunu soruşdular. Qulam onlara gah: "Mən Möminlərin əmirinin (Osmanın) qulamıyam", gah da: "Mərvanının qulamıyam, Misirdəki valiyə məktubunu çatdırmaq üçün göndərilmişəm" dedi. Məktubun onda olub-olmadığını soruşduqlarında "Məndə deyil" deyə cavab verdi. Üzərini axtardılar, lakin heç bir şey tapmadılar. Qulamın yanında dəridən kiçik su tuluğu var idi, içi quru idi, içərisində nə isə var idi. İçindəkini çıxarmaq üçün onu silkələdilər, ancaq çıxara bilmədilər. Onu kəsdikdə içində Osmanın İbn Əbu Sorha göndərdiyi məktubu tapdılar. Muhəmməd ibn Əbu Bəkr yanındakıları, mühacir və ənsarı bir yerə toplayıb onların gözlərinin qarşısında məktubu açdı. Orada yazılmışdı: "Muhəmməd ibn Əbu Bəkr və filan-filan kəslər yanına gəlib çatdıqda onların qətli üçün bir hiylə qur, Muhəmmədin məktubunu məhv et. Əmrim sənə çatanadək işinin başında ol. Səndən şikayətə gələnləri də həbs et, inşallah".[1053]

İbn Şəbbə Nəmiri bu hadisəni "Tarixul-Mədinə" kitabında Səid ibn Müsəyyib yolu ilə müəyyən əlavələrlə qeyd edib. Orada deyilir: *"Məktubu oxuyub qorxuya düşdülər və Mədinəyə qayıtdılar. Muhəmməd məktubu yanındakı adamların möhürü ilə möhürlədi və onlardan birinə verdi.*

Mədinəyə gəldilər. Ardınca Təlhəni, Zübeyri, Əlini, Sədi və digər Peyğəmbər (s) səhabələrini bir yerə toplayıb onların hüzurunda məktubu açdılar. Yolda saxlanılmış qulamın əhvalatını danışdıqdan sonra məktubu onlara oxudular. Mədinə əhlindən Osmana qəzəblənməyən qalmadı. Onun İbn Məsuda, Əbuzərə və Əmmara qarşı etdiklərinin xatırlanması qəzəblərini daha da artırdı. Muhəmmədin əshabı onların yanına gəldi və Osmanın evini mühasirəyə aldılar. Muhəmməd ibn Əbu Bəkr Bəni-Təmimi və digərlərini də çağırtdırdı. Ona bu işdə Təlhə ibn Übeydullah yardım edirdi. Aişə (r) də Osmanı çox tənqid və təhqir edənlərdən idi.

[1053] Ənsabul-əşraf, Bəlazuri, c. 2, s. 283-285

Əli bunu görüb Təlhəni, Zübeyri, Sədi, Əmmarı və Peyğəmbərin (s) Bədrdə iştirak edən səhabələrini çağırtdı. Məktubu götürüb qulam və dəvəsi ilə birlikdə Osmanın yanına gəldi, dedi: "Bu sənin qulamındır?" Osman "Bəli" deyə cavab verdi.

Əli: Dəvə də sənindir?

Osman: Bəli.

Əli: Bu məktubu sən yazmısan?

Osman "Xeyr" deyib ardınca and içdi ki, nə onu yazıb və nə də yazılmasına göstəriş verib.

Əli (r) dedi: "Məktubdakı sənin möhüründür?"

Osman: Bəli.

Əli (r): Qulamın sənin dəvənin üzərində və üzərində sənin möhürün olan məktubla göndərilir, lakin sənin bundan xəbərin yoxdur?!

Osman yenə həmin məktubu yazmadığına və yazdırmadığına, həmin qulamı Misirə göndərmədiyinə Allaha şahid tutub and içdi.

Məktubdakı xətti tanıdılar, bu, Mərvanın xətti idi. Osmana (r) şikayət edib Mərvanı onlara verməsini tələb etdilər. Lakin Osman Mərvanı təslim etməkdən imtina etdi. (Mərvan həmin vaxt Osmanın evində gizlənmişdi). Muhəmməd ibn Əbu Bəkrin əshabı qəzəbli halda onun yanından çölə çıxdılar. Osmanın bu əməlindən olduqca narazı idilər. Bilirdilər ki, o, yalandan and içməz. Lakin bir dəstə adam dedilər: "Osman Mərvanı haqq-hesab çəkmək və məktubla bağlı məsələni izah etmək üçün bizə vermədikcə qəlbimizdə ona qarşı heç bir üzr ola bilməz. Mərvan Peyğəmbər (s) səhabələrinin öldürülməsinə hansı haqla göstəriş verə bilər?! Əgər bunu Osman yazıbsa, onu xəlifəlikdən çıxaracağıq, yox, əgər Mərvan onu Osmanın imlası ilə yazıbsa Mərvanla bağlı məsələni öz tərəfimizdən götür-qoy edə bilər".

Evlərini mühasirəyə aldılar, lakin Osman Mərvanı qətlə yetirəcəklərindən qorxub onu təhvil verməkdən imtina etdi. Camaat Osmanı mühasirədə saxlayıb su verilməsini belə qadağan etdilər".[1054]

İbn Sədin "ət-Təbəqat" və Bəlazurinin "Ənsabul-əşraf" kitablarında yazılıb (mətn "ət-Təbəqat"dandır): *"Osmanı mühasirəyə alan misirlilərin sayı altı yüz nəfər idi, başçıları Əbdürrəhman ibn Üdeys Bəlvi, Kənanə ibn Bişr ibn Əttab Kindi və Əmr ibn Həmiq Xuzai idi. Kufədən gələnlər isə iki yüz nəfərdən ibarət idilər ki, başçıları Malik Əştər Nəxəi idi. Bəsrədən gələnlərin sayı yüz nəfərdi, başçıları Hukeym ibn Cəbələ Əbdiydi".*[1055]

"əl-Kamilu fit-tarix" kitabında yazılır: "Muhəmməd ibn Əbu Bəkr və Muhəmməd ibn Əbu Hüzeyfə Misirdə camaatı Osmana qarşı təhrik edirdilər. Misirlilər beş yüz nəfərlə (min nəfər olduqları da deyilib) Mədinəyə doğru çıxdıqda onların arasında Əbdürrəhman ibn Üdeys Bəlvi və Kənanə ibn Bişr ibn Əttab Leysi, Sevdan ibn Həmran Səkuni, Quteyrə ibn Fulan Səkuni də var idi. Onların üzərində rəhbər Ğafiqi ibn Hərb Əkki idi. Kufə əhli Mədinəyə tərəf hərəkət etdikdə aralarında Zeyd ibn Sovhan Əbdi, Əştər Nəxəi, Ziyad ibn Nəzr Harisi, Abdullah ibn Əsamm Amiri olmaqla Misir əhlidən yola çıxan dəstənin sayı qədər adam var idi. Başçıları Əmr ibn Əsamm idi. Bəsrə əhlinin də sayı misirlilər qədər idi. Aralarında Hükeym ibn Cəbələ Əbdi, Züreyh ibn Abid, Bişr ibn Şüreyh Qeysi və İbn Muhtəriş var idi. Rəhbərləri Hərqus ibn Züheyr Sədi idi. Onların hamısı Şəvval ayında Mədinəyə doğru yola çıxdılar".[1056]

İbn Əbu Şeybə "əl-Müsənnəf"də Vəssaba istinadən yazır: *"Möminlərin əmiri Osman məni göndərib Əştəri çağırmağımı buyurdu. Əştər gəldikdə Osman dedi: "Ey Əştər, camaat məndən nə istəyir?" Dedi: "Üç şeydən vaz keçməyəcəklər. Ya onların qarşısında xəlifəlikdən istefa verib: "Bu da sizin*

[1054] Tarixul-Mədinə, İbn Şəbbə Nəmiri, c. 4, s. 1159-1161; Ənsabul-əşraf, c. 6, s. 184-185; əs-Siqat, İbn Həbban, c. 2, s. 256

[1055] ət-Təbəqatul-kubra, İbn Səd, c. 3, s. 71; Ənsabul-əşraf, c. 6, s. 219

[1056] əl-Kamilu fit-tarix, İbn Əsir, c. 3, s. 158-159

xilafətiniz, istədiyiniz şəxsi seçin" deyəcəksən, ya da səndən hesab sormalarına imkan yaradacaqsan. Əgər bu ikisindən boyun qaçırsan onlar səni öldürəcəklər..."[1057]

"Ənsabul-əşraf"da Osmanın mühasirəyə alınması hadisəsində deyilir: *"Osman Əlinin ardınca adam göndərdi. Əli gəldikdə dedi: "Ey Əbülhəsən, oradakı camaatın yanına get, onları Allahın kitabına və Peyğəmbərinin sünnəsinə dəvət et". Əli dedi: "Yaxşı, amma mənə Allah qarşısında qəti söz ver ki, sənin əvəzinə onların qarşısında zamin duracağım hər bir şeyi yerinə yetirəcəksən". Osman razılaşdıqda Əli ondan alınması mümkün olan ən ciddi vədi aldı. Camaatın qarşısına çıxdıqda dedilər: "Sən geri dur". Əli dedi: "Xeyr, əksinə, Allahın kitabına əsasən narazı olduğunuz məsələləri söyləyin". Sonra Osmanın verdiyi vədi onlara bildirdi. Camaat bu vədlərə zamin olub-olmadığını Əlidən soruşduqda o, "Bəli, zaminəm" dedi. Camaat razılığını bildirdi. Başçıları və möhtərəm şəxsləri Əli ilə birlikdə Osmanın yanına daxil oldular. Tələblərini söylədilər və o da hər məsələdə onların sözləri ilə razılaşdı. Camaat ondan bu sözlərini yazılı şəkildə təsdiqləməyi tələb etdi və Osman bunları bir kağızda yazdı:*

"Bismillahir-Rəhmanir-Rəhim. Bu, Allahın qulu möminlərin əmiri Osmandan mömin və müsəlmanlardan ona qəzəblənən və narazı olanlara bir əhddir ki, sizin aranızda Allahın kitabına və Peyğəmbərinin sünnəsinə uyğun rəftar edəcəyimə söz verirəm. Məhrumun haqqını verəcək, qorxuda olanı əminliyə çıxaracaq və naqislikləri aradan qaldıracaq, beytül-mala qənaət edəcəyəm. Əli ibn Əbu Talib möminlər və müsəlmanlar üçün Osmanın burada yazılanları yerinə yetirməsinə zamindir.

Şahidlər: *Zübeyr ibn Əvvam*
Təlhə ibn Übeydullah
Səd ibn Malik ibn Əbu Vəqqas
Abdullah ibn Ömər

[1057] əl-Müsənnəf, İbn Əbu Şeybə, c. 8, s. 583

Zeyd ibn Sabit

Səhl ibn Hənif

Əbu Əyyub Xalid ibn Zeyd

Zül-qəədə, otuz beşinci il.

Hər bir dəstə öz məktubunu götürüb getdi. Əli ibn Əbu Talib Osmana dedi: "Çıx, camaatın qarşısında hamının eşidəcəyi gözəl bir söhbət elə ki, onları sənə qarşı nifrətdən çəkindirsin. Qəlbində olanlara Allahı şahid tut ki, şəhər əhalisi səmimiliyinə inansın. Kufədən, Bəsrədən və ya Misirdən başqa bir dəstənin gəlməyəcəyinə əmin deyilsən. O zaman yenə "Ey Əli, onların qarşısını al" deməyəsən. Mən bunu etmədikdə "Qohumluq əlaqəni kəsdin, haqqıma laqeyd yanaşdın" demə".

Osman camaatın qarşısına çıxıb onlara müraciət etdi, etdiyi yanlışları iqrar etdi, Allahdan bağışlanma dilədi və dedi: "Peyğəmbərin (s) belə buyurduğunu eşitmişəm: "Yanlışlığa yol verən üzr istəyib tövbə etsin". Mən sizi qəzəbləndirənlərin birincisiyəm. Yanlışlığa düşdüyümdə möhtərəm şəxsləriniz yanıma gəlib öz fikirlərini bildirsinlər. Allaha and olsun ki, əgər bir kölə belə məni haqqa yönəltsə, ona tabe olaram. Allahın hökmündən savayı qəbul ediləcək şey yoxdur".

Söylədiyi xütbə camaatı sevindirdi, onun qapısının qarşısına toplaşıb sevinclərini izhar etdilər. Bu zaman Mərvan camaatın qarşısına çıxıb onları dağıtmağa başladı və dedi: "Eybəcər olub adam arasına çıxa bilməyəsəniz! Nə yığılmısınız bura! Möminlərin əmirinə mane olursunuz. Əgər sizdən birinə ehtiyacı olsa, özü çağıracaq".

Camaat dağılışıb getdi. Bu xəbər Əliyə çatdıqda qəzəbli halda Osmanın yanına gəlib dedi: "Mərvanın etdiklərindən razısan? O sənin dinini zay edir və ağlını aldatmaqla məşğuldur. Düşünürəm ki, səni pis vəziyyətə salacaq, sonra da yalnız qoyacaq. Bundan sonra narazıları səndən uzaqlaşdırmaq üçün buraya qayıtmayacağam".

Osmanın həyat yoldaşı Nailə bint Fərafəsə dedi: "Əli ibn Əbu Talibin Mərvan haqqındakı sözlərini eşitdin. O, bir daha sənin yanına qayıtmayacağını da söylədi. Sən Mərvana boyun əyirsən, halbuki camaatın nəzərində onun nə qədri və nə də qiyməti var".

Osman Əlinin ardınca adam göndərdi, yalnız bu dəfə o, gəlmədi".[1058]

Təbəri Abdullah ibn Zübeyrin vasitəsilə atasından nəql edir: *"Mədinə əhli Osmana məktub yazaraq onu tövbə etməyə çağırdılar. Ona qarşı dəlillər sadaladılar, Allahın onlara verdiyi haqları almadıqca və ya öldürmədikcə ondan əl çəkməyəcəkləri barədə Allaha and içdilər. Ölüm təhlükəsini hiss etdikdə nəsihətçiləri və ailəsini toplayıb məsləhət istəyib dedi: "Camaatın etdiklərini görürsünüz. Bundan çıxış yolu nədir?" Onlar Əli ibn Əbu Talibin yanına adam göndərib çağırmasını, ondan bu təhlükəni dəf etməsini, yardım gələnədək onları sakitləşdirməsini xahiş etməyi məsləhət bildilər. Osman dedi: "Camaat üzrü qəbul etməyəcək. Boynumda onlar ilk dəfə gələrkən üzərimə götürdüyüm əhd var. Onlara yenə söz versəm, əvvəlki sözümü yerinə yetirməyimi tələb edəcəklər".*

Mərvan ibn Həkəm dedi: "Ey möminlərin əmiri, sən güclənənə qədər onlara yaxınlaşmağın onların çoxalıb səni mühasirəyə almalarından daha yaxşıdır. Odur ki, istədiklərini ver və sənə yuxarıdan baxdıqları məsələlərdə sən onlara yuxarıdan bax. Onlar sənə qarşı çıxıblar, heç bir əhddən söz gedə bilməz".

Osman Əlinin yanına adam göndərib onu çağırtdı. Əli gəldikdə Osman dedi: "Ey Əbülhəsən! Camaatın etdiklərini görür, mənim etdiklərimi də bilirsən. Onların məni öldürməyəcəklərinə əmin deyiləm. Onları məndən uzaqlaşdır. Allaha and olsun ki, hətta qanım belə tökülsə onları narazı olduqları hər bir məsələdə razı salacağam, özümdə və başqasında olan haqlarını qaytaracağam".

[1058] Ənsabul-əşraf, c. 6, s. 179-180; Tarix, Təbəri, c. 3, s. 395-397; əl-Kamilu fit-tarix, c. 3, s. 164-166; əl-Bidayətu vən-nihayə, c. 7, s. 192-194

Əli dedi: "Camaatın sənin qətlindən çox ədalətinə ehtiyacları var. Mən razı salınmadıqca razılaşmayacaq bir dəstə insan görürəm. Onlar ilk dəfə gəldikdə sən Allah qarşısında söz verib barəsində qəzəbləndikləri bütün şeylərdən əl çəkəcəyini bildirdin, mən də onları səndən uzaqlaşdırdım. Lakin ardınca verdiyin sözlərdən heç birini tutmadın. Bu dəfə məni aldatma, mən sənin boynuna götürdüyün haqqı onlara çatdıracağam". Osman dedi: "Bəli, çatdır, Allaha and olsun ki, onlara olan vədimə vəfa edəcəyəm".

Əli camaatın qarşısına çıxıb dedi: "Ey camaat, siz haqqınızı tələb etdiniz, o sizə verildi. Osman söz verdi ki, özü və digərləri tərəfindən ədaləti bərpa edəcək, sizin bəyənmədiyiniz bütün işlərdən əl çəkəcək. Bunu qəbul edin və təsdiqləyin".

Camaat dedi: "Biz qəbul edirik. Ondan bizim üçün bir zəmanət al. Belə ki, biz onun əməlsiz boş sözlərinə əsla razı olmayacağıq".

Əli dedi: "Bu sizin haqqınızdır".

Ardınca Osmanın yanına qayıdıb bunları ona xəbər verdi. Osman dedi: "Mənimlə onların arasında möhlət olacaq bir müddət təyin et. Mən onların tələblərini bir gün ərzində yerinə yetirə bilmərəm".

Əli dedi: "Mədinədə olanlarla bağlı möhlət yoxdur. Kənarda olanlara isə əmrinin ora çatacağı müddət sənə verilən möhlətdir".

Osman: "Yaxşı, ancaq Mədinədəkiləri tənzimləmək üçün mənə üç gün vaxt ver".

Əli razılığını bildirib camaatın qarşısına çıxdı, baş tutan söhbəti onlara xəbər verdi və Osmanla onların arasında bir razılaşma yazdırdı. Razılaşmaya əsasən, üç gün müddətində qəsb edilmiş bütün haqlar geri qaytarılmalı, camaatın bəyənmədiyi məmurlar işdən çıxarılmalı idi. Ardınca camaat qarşısında məxluqlardan alına biləcək ən möhkəm and və vədi Osmandan aldı, buna mühacir və ənsarın öndə gələn şəxslərini şahid tutdu.

Camaat ondan əl çəkib verdiyi vədlərini yerinə yetirməsini gözlədi. Osman isə həmin andan döyüşə hazırlaşmağa, silah yığmağa başladı və qısa müddətdə böyük ordu topladı. Möhlət verilən üç gün başa çatdıqda o, verdiyi sözlərdən heç birini yerinə yetirməmiş, heç bir məmuru işdən çıxarmamışdı. Bu səbəbdən camaat ona qarşı üsyan etdi.

Əmr ibn Həzm Ənsari qiyam etdi, bu ərəfədə misirlilər də Zi Xəşəbə yetişmişdilər. Baş verənləri onlara xəbər verdi və onlarla birlikdə Mədinəyə gəldi. Osmanın yanına adam göndərib dedilər: "Sən etdiklərindən tövbə edib, narazı olduğumuz məsələləri həll edəcəyinə dair Allah qarşısında möhkəm əhd verdin və biz də bu vədin qarşısında buradan ayrıldıq". Osman dedi: "Bəli, mən vəd vermişdim". Onlar dedilər: "Bəs məmuruna yazıb qasidinlə göndərdiyin bu məktub nədir?!"[1059]

Yuxarıda məktubla bağlı hadisəyə toxunduq.

Osmanın dəfni

Camaatın Osmana qarşı şiddətli qəzəbinin göstəricilərindən biri də onu dəfn etmədən bir kənara atmaları, müsəlman qəbiristanlığında dəfn edilməsini qadağan etmələridir. Təbərani Malik ibn Ənəs sənədilə nəql edir: *"Osman qətlə yetirildikdən sonra üç gün dəfn olunmadan filankəs oğullarının zibilliyində atılmış halda qaldı. Aralarında babam Malik ibn Əbu Amir, Hüveytəb ibn Əbdülüzza, Hükeym ibn Hazım, Abdullah ibn Zübeyr, Aişə bint Osman olan on iki nəfər onu götürüb bir qapının üstündə daşıdılar. Yolda başı qapıya dəyərək "taq, taq" səs çıxarırdı. Beləcə Bəqi qəbiristanlığına yetişdilər. Ona cənazə namazı qalmaq üstündə ixtilaf düşdü. Sonda Hükeym ibn Hazim və ya Hüveytəb ibn Əbdülüzza (şəkk edən Əbdürrəhmandır) ona namaz qıldı.*

[1059] Tarix, Təbəri, c. 3, s. 403-404. Bax: əl-Kamilu fit-tarix, İbn Əsir, c. 3, s. 169-170

Onu dəfn etmək istədikdə isə Bəni-Mazindən bir kişi dedi: "Əgər onu müsəlmanlarla bir qəbiristanlıqda dəfn etsəniz mən bunu camaata xəbər verəcəyəm". Onlar Osmanın cəsədini Həşş Kövkəbə apardılar.."[1060]

Bunu Heysəmi də nəql edərək ardınca deyir: *"Raviləri etibarlı (siqə) şəxslərdir".*[1061]

Təbəri "Tarix"ində Əbu Büşeyr Abidi yolu ilə rəvayət edir: *"Osman (r) üç gün boyunca dəfn edilmədən açıq hava altında qaldı... Ailəsindən olan az sayda adam onun cəsədini götürüb Mədinənin kənarındakı Həşş Kövkəb deyilən yerə apardılar. Orada yəhudilər öz ölülərini dəfn edirdilər. Nəşini camaatın qarşısından apardıqda onu daşlamağa başladılar və çevirməyə cəhd göstərdilər. Xəbər Əliyə çatdıqda adam göndərib bu işdən əl çəkmələrini buyurdu. Nəhayət onu Həşş Kövkəbə aparıb dəfn etdilər.*

Müaviyə ibn Əbu Süfyan camaatın rəhbərliyini əlinə aldıqda həmin qəbiristanlığın Bəqi ilə arasındakı divarının uçurulmasına göstəriş verdi. Nəticə də Osmanın dəfn olunduğu qəbiristanlıq Bəqiyə qatıldı. Bundan sonra müsəlmanlara öz ölülərini Osmanın qəbrinin ətrafında dəfn etməyi tapşırdı və sonda ora müsəlman qəbiristanlığına çevrildi".[1062]

Həmçinin (Osmanın beytül-mal məmuru) Əbu Kərb yolu ilə nəql edir: *"Osman axşamla gecəyarısı arasında dəfn edildi. Onun cənazəsini yalnız Mərvan ibn Həkəm, üç nəfər yaxını və qızı müşayiət etdi. Qızı ağlayır, növhəsinin səsi yüksəlirdi. Camaat isə əlinə daş alaraq deyirdilər: "Axmaq uzunsaqqal qoca... axmaq uzunsaqqal qoca..." Az qalmışdı ki, onun cənazəsini belə daşqalaq etsinlər. Camaat bu dəfə də "Divardan kənara! Divardan kənara!" deyə səsləndi. Nəticədə o, qəbiristanlığın divarından çöldə dəfn edildi".*[1063]

[1060] əl-Möcəmul-kəbir, c. 1, s. 78-79

[1061] Məcməuz-zəvaid, c. 9, s. 95

[1062] Tarix, Təbəri, c. 3, s. 438; əl-Kamilu fit-tarix, c. 3, s. 180

[1063] Tarix, Təbəri, c. 3, s. 439

Osmana qarşı üsyanda Möminlərin əmiri Əlinin (ə) tutduğu mövqe

Osmana qarşı üsyanla bağlı nəql edilən dəlillərə nəzər salan şəxs aydın şəkildə Möminlərin əmiri Əlinin (ə) Osmanın əməllərini və siyasətini ittiham etdiyini, üsyançılarının öz tələblərində haqlı olduqlarını təsdiqlədiyini görəcək. Lakin o, Osmanın öldürülməsini və onunla belə rəftar edilməsini istəmirdi. İmam (ə) Osmana qarşı üsyanla bağlı mövqeyini aşağıdakı sözləri ilə ortaya qoyur: *"Seçim etdi, ancaq seçimi yanlış oldu. Siz isə səbirsizlik etdiniz. Hadisədə seçimini edənin də, səbirsizlik göstərənin də hökmü Allahın yanındadır".*[1064]

İmamın (ə) bu üsyandakı mövqeyi İslam ümmətinin vəhdətinin qorunması məsuliyyətinə əsaslanırdı. Möminlərin əmiri Əli (ə) bu yolda əlindən gələni əsirgəmədi. Belə ki, o, Peyğəmbərdən (s) sonra ümmətin mənəvi atası idi. Alusi deyir: *"Peyğəmbər (s) Əliyə (kərrəmmallahu təala vəchəhu!) dedi: "Mən və sən bu ümmətin atasıyıq". Buna Peyğəmbər (s) digər bir sözündə də işarə edir: "Qiyamət günü mənim nəsil və evlilik bağlarımdan başqa bütün nəsil və evlilik bağları qırılacaq".*[1065]

Bu hədisi Hakim "Müstədrək"ində nəql edərək səhih olduğunu bildirir: *"Bu, istinadı səhih hədisdir, Buxari və Müslim qeyd etməyiblər".*[1066]

Həmçinin Təbərani "əl-Möcəmul-kəbir"ində nəql edir, Heysəmi də "Məcməuz-zəvaid"də ondan rəvayət edərək səhih olduğunu vurğulayır: *"Bunu Təbərani nəql edib, raviləri "Səhih"in raviləridir".*[1067]

İmamın (ə) Osmanın öldürülməsinə yardım etdiyi iddialarını təkzib edən çoxsaylı rəvayətlər mövcuddur. Hakim deyir: *"Amma Möminlərin əmiri Əlinin (ə) Osmanın öldürülməsinə yardım etdiyi iddialarına gəldikdə,*

[1064] Nəhcül-Bəlağə, c. 1, s. 76, Şeyx Muhəmməd Əbdəhin təhqiq və şərhi ilə
[1065] Tarix, Təbəri, c. 22, s. 22-23
[1066] əl-Müstədrəku ələs-səhiheyn, c. 3, s. 142
[1067] Məcməuz-zəvaid, c. 4, s. 272

bu yalan və saxtadır. Belə ki, bunun əksi barədə mütəvatir həddində rəvayətlər mövcuddur".[1068]

İbn Əbu Şeybə "əl-Müsənnəf"də İbn Abbas sənədilə rəvayət edir: *"Əli üç dəfə dedi: "Osmanı mən öldürməmişəm, qətl əmrini də mən verməmişəm! Ancaq məni məğlub etdilər".*[1069] Başqa sözlə: *"Əli dedi: "Mən öldürməmişəm, onun öldürülməsini də istəmirdim".*[1070]

Həmçinin Əbu Zürarə və Əbu Abdullah (ə) sənədilə yazır: *"Əlinin belə dediyini eşitdik: "Allaha and olsun ki, onu mən öldürməmişəm, qətlində iştirak etməmişəm, əmri verməmişəm və buna razı olmamışam".*[1071]

Eləcə də Zeyd ibn Ərqəm sənədilə Səriyyədən (Zeyd ibn Ərqəmin kənizindən) rəvayət edir: *"Əli Zeyd ibn Ərqəmə baş çəkmək üçün gəldi. Yanında bir dəstə adam da var idi. Əli oradakılara dedi: "Susun və dinləyin! Allaha and olsun ki, bu gün nə barədə məndən soruşsanız sizə onun barəsində xəbər verəcəyəm". Zeyd dedi: "Allahı sənə şahid tuturam! Osmanı sənmi öldürdün?" Bir müddət susub sonra buyurdu: "Toxumu yarıb, məxluqları yaradana and olsun! Onu mən öldürməmişəm, qətl əmrini verməmişəm və bu işdən xoşhal da olmamışam".*[1072]

İbn Şəbbə Nəmirinin (vəfatı: h.q 260) "Tarixul-Mədinə"də, Bəlazurinin (vəfatı: h.q 279) "Ənsabul-əşraf"da, Təbəraninin (vəfatı: h.q 360) "əl-Möcəmul-kəbir"də, İbn Əsakirin (vəfatı: h.q 571) "Tarixu mədinəti Diməşq"də, İbn Kəsirin (vəfatı: h.q 774) "əl-Bidayətu vən-nihayə"də və başqalarının Ümeyr sənədilə nəql etdikləri rəvayət də bunu təsdiqləyir: *"Əli (r) xütbə söyləyərkən sözünü kəsdilər. O, dedi: "Həqiqətən də, mən Osmanın öldürüldüyü gün zəiflədildim". Ardınca onlar üçün bir misal çəkib buyurdu: "Bu, çəmənlikdə yaşayan üç inəklə bir şirin misalı kimidir.*

[1068] əl-Müstədrəku ələs-səhiheyn, c. 3, s. 103
[1069] əl-Müsənnəf, İbn Əbu Şeybə Kufi, c. 7, s. 517
[1070] əl-Müsənnəf, İbn Əbu Şeybə Kufi, c. 7, s. 517
[1071] əl-Müsənnəf, İbn Əbu Şeybə Kufi, c. 7, s. 517
[1072] əl-Müsənnəf, İbn Əbu Şeybə Kufi, c. 7, s. 517

İnəklərdən biri qara, digər qırmızı və ağ idi. Şir inəklərin üzərinə hücum çəkdikdə onlar bir yerə toplaşıb özlərini müdafiə edər və şiri uzaqlaşdırardılar. Bir gün şir qara və qırmızı inəklərə dedi: "Bu ağ inək bizi çəmənlikdə rüsvay edir və ləkələyir. Onu mənə verin, yeyim. Sizin rənginiz mənim rəngimlə, mənim rəngim də sizinki ilə eynidir". Bundan sonra şir həmlə edərək ağ inəyi öldürüb yedi. Bir müddət sonra qara inəyə dedi: "Bu qırmızı inək bizi çəmənlikdə ləkələyir, halbuki mənim rəngim sənincilə, sənin rəngin də mənimkilə eynidir". Qara inəyin razılığından sonra şir həmlə edərək qırmızı inəyi də öldürüb yedi. Bir müddət keçdikdən sonra şir qara inəyə yaxınlaşıb onu da yemək istədiyini söyləyir. Qara inək deyir: "İcazə ver üç dəfə uca səslə bağırım". Şir icazə verdikdə uca səslə deyir: "Bilin və agah olun ki, mən elə ağ inək yeyildiyi gün yeyilmişəm! Bilin və agah olun ki, mən elə ağ inək yeyildiyi gün yeyilmişəm! Bilin və agah olun ki, mən elə ağ inək yeyildiyi gün yeyilmişəm!"

Bunun ardınca Əli (r) buyurdu: "Bilin və agah olun ki, mən elə Osman qətlə yetirilən gün zəiflədildim".[1073]

İmam Əlinin (ə) Osmanın siyasətini tənqid etdiyinə dəlalət edən şahidlərdən biri də Bəlazurinin öz kitabında Müaviyənin məktub göndərərək İmamdan (ə) Osmanın qatillərini təslim etməsini istəməsidir. Məktub Kufədə İmamın (ə) əlinə çatdıqda camaatı məscidə toplayaraq yazılanları onlara üçün oxudu. Dedilər: *"Bizim hamımız Osmanın qatillərriyik, (çünki) hamımız onun əməllərindən bezar idik".*[1074]

Möminlərin əmiri Əli (ə) Müaviyənin bu tələbini rədd edərək onun məktubunun cavabında belə yazır: *"Osmanı yad edib camaatı onun üzərinə mənim qaldırdığımı söyləyirsən. Osman sənin də gördüklərini etdi, camaat*

[1073] Tarixul-Mədinə, İbn Şəbbə Nəmiri, c. 4, s. 1233-1234; Ənsabul-əşraf, c. 1, s. 295; əl-Möcəmul-kəbir, c. 1, s. 80; Tarixu mədinəti Dəməşq, c. 39, s. 472-473; əl-Bidayətu vən-nihayə, c. 7, s. 216

[1074] Ənsabul-əşraf, c. 3, s. 67-68

da bildiyin təhlükələrlə üzləşdi. Mən bütün bunlardan uzaqda idim. Ancaq sən məni bunda ittiham edirsən. Nədə istəyirsən ittiham et!

Öz gümanına əsasən onun qatillərini sənə təslim etməyimi tələb edirsən. Mən şəxsən onun müəyyən bir qatilini tanımıram. Axtarıb-araşdırdım, öz tərəfimdən onun qətlində ittiham və zənn edilən, sənə veriləcək bir kəsi tapa bilmədim. Əgər öz bədbəxtlik və yanlışlığından uzaqlaşsan, qatilləri güman etdiyin şəxsləri asanlıqla tanıya bilərsən. Halbuki onlar səni nə dağda və nə də düzəndə heç nəyə mükəlləf etməyiblər. Vəssalam!"[1075]

Dinəvərinin "əl-Əxbarut-tival"ında *"Bizim hamımız Osmanın qatilləriyik, (çünki) hamımız onun əməllərindən bezar idik"* deyənlərin sayının on minə yaxın silahlı şəxs olduğu bildirilir.[1076]

Möminlərin əmiri Əlinin (ə) Müaviyəyə cavabında Osmanın əməllərindən heç də razı olmadığı aydın görünür. Deyilir: *"Osman sənin də gördüklərini etdi, camaat da bildiyin təhlükələrlə üzləşdi".*

Dinəvərinin kitabındakı sözlərdə isə İmam Əlinin (ə) cavab məktubunda bu kəlmələri də yer alır: *"Xövlanlı*[1077] *mənə sənin məktubunu gətirdi. Orada Osmanla qohumluq əlaqələrimi kəsdiyimi, camaatı ona qarşı təhrik etdiyimi yazırsan. Mən bunları etməmişəm. Yalnız camaat o rəhmətliyi danlayırdı, o isə öldürülmək və öz taleyi ilə baş-başa buraxılmağın arasında qalmışdı. Mən evimdə oturdum, onun işlərindən uzaqlaşdım. Ancaq sən indi məni ittiham edirsən. Nədə istəyirsən ittiham et!*

Onun qatillərini sənə vermək məsələsinə gəldikdə, mən belə düşünmürəm. Sən bununla özün üçün bir bəraət axtarır, arzuladığın yerə yüksəlmək üçün nərdivan kimi istifadə etməyə çalışırsan. Onun qanının qisasını istəməyin də nədir?! Ömrümə and olsun, əgər öz bədbəxtlik və

[1075] Ənsabul-əşraf, c. 3, s. 68

[1076] əl-Əxbarut-tival, Dinəvəri, s. 163

[1077] Yəməndə qəbilə adıdır.

yanlışlığından uzaqlaşmasan bu səni ağır günahlara və üsyanlara sürükləyəcək. Vəssalam!"[1078]

Dinəvəri yazır: *"Əlinin əsgərlərindən iyirmi min nəfər ayrılıb uca səslə dedilər: "Biz Osmanı hamılıqla öldürmüşük!"*

Əbud-Dərda və Əbu Ümamə çıxıb sahillərə tərəf getdilər və o savaşda iştirak etmədilər".[1079]

Osmanın qətlindən sonra səhabənin mövqeyi

Bir çox rəvayətlərin də açıq şəkildə bəyan etdiyi kimi, səhabələrin Osmanın qətlindən əvvəl və sonra sabit bir mövqeyi olmuşdur. Təbərinin "Tarix"ində Siffin döyüşündə İmamın (ə) ordusunun əsgərlərindən olan Haşimlə Müaviyənin əsgərlərindən birinin arasında keçən dialoq qeyd edilir: *"Haşim dedi: "Osman ibn Əffandan sənə nə?! Onu Muhəmmədin (s) səhabələri, səhabələrinin övladları və savadlı adamlar (və ya qarilər) öldürdü. Səbəb isə onun etdiyi pis əməllər və Allahın kitabının hökmünə qarşı çıxması idi".*[1080]

Həmçinin Təbərinin "Tarix"ində Siffin savaşı günü Əmmar ibn Yasirin belə dediyi nəql edilir: *"Allahın razılığını diləyib, məqsədi mal və övlad olmayan şəxslər haradadır?!" Onun yanına bir dəstə adam gəldi. Əmmar dedi: "Ey camaat, Osmanın intiqamını tələb edən və onun məzlum halda qətlə yetirildiyini düşünənlərə qarşı bizimlə birlikdə hücuma keçin!"*[1081]

Nəsr ibn Müzahimin "Siffin" kitabında Əmmar ibn Yasirin həmin gün belə dediyi də nəql edilir: *"Ey Allah bəndələri, mənimlə birlikdə özünə zülm edənin və Allahın bəndələri üzərində Onun kitabından fərqli bir şeylə hökm verənin qanının intiqamını tələb etdiklərini iddia edən dəstənin üzərinə*

[1078] əl-Əxbarut-tival, Dinəvəri, s. 173

[1079] əl-Əxbarut-tival, Dinəvəri, s. 170

[1080] Tarix, Təbəri, c. 4, s. 30; əl-Kamilu fit-tarix, c. 3. s. 313

[1081] Tarix, Təbəri, c. 4, s. 28

gedin! Onu (Osmanı) öldürənlər saleh, zülmə nifrət bəsləyən və yaxşılıqları əmr edən şəxslərdir".[1082]

İbn Əsakir Əbdürrəhman Həmədani sənədilə rəvayət edir ki, Müaviyə Əbu Tüfeyl Amir ibn Vasiləyə dedi: *"Sən Osmanın qatillərindənsən!" Əbu Tüfeyl ona cavabında dedi: "Xeyr, lakin mən orada iştirak edib, Osmana yardım etməyənlərdənəm". Müaviyə ona niyə yardım etmədiyini soruşduqda isə Əbu Tüfeyl dedi: "Ona nə mühacirlər, nə ənsar, nə də ki sən kömək etdin".*[1083]

Zəhəbinin *"Osmanı yalnız qoyub üsyana qoşulmayan Peyğəmbər (s) səhabələri məsələnin onun öldürülməsi həddinə çatmayacağını zənn edirdilər. O qətlə yetirildikdə isə bu məsələdə onu tənha qoyduqlarına peşman oldular"*[1084] sözlərinə gəldikdə, bu, yersiz, dəlilsiz və boş bir iddiadır, səhabələrin öz mövqelərində sabit qaldıqlarını bildirən və Osmanın ölümü haqq etdiyi barədə təqdim olunan çox sayda rəvayətlərə açıq-aydın ziddir.

Osmana qarşı üsyanın xüsusiyyətləri

Osmana qarşı üsyan İslamda Səqifədən sonra ən təhlükəli hadisə, Əhli-Sünnə təbirinə əsasən isə Raşidi xilafətinin sonu idi. Buxarinin "Səhih"də Səid ibn Müseyyib sənədilə nəql etdiyi rəvayətdə bu üsyanın Bədrdə döyüşmüş son səhabələri də ağuşuna aldığı deyilir: *"İlk üsyan (fitnə) (yəni Osmanın qətli) baş verdi, Bədr əhlindən heç kəs qalmadı".*[1085]

Əhmədin "əl-İləl"də, İbn Şəbbə Nəmirinin "Tarixul-Mədinə"də İbn Müseyyibdən nəql etdikləri başqa rəvayətdə isə bütün mühacirlərin həlak

---

[1082] Vaqətu Siffin, Nəsr ibn Müzahim, s. 319
[1083] Tarixu mədinəti Dəməşq, c. 26, s. 117
[1084] Tarixul-İslam, Zəhəbi, c. 3, s. 448
[1085] Səhih, Buxari, c. 5. s. 20

olduğu bildirilir: *"Osmana qarşı üsyan baş verdikdən sonra bir dənə də olsun mühacir qalmadı".*[1086]

Üsyan Osmanın İslam dövləti idarəçiliyindəki siyasət və üslubunun, müsəlmanların dözməyəcəyi dərəcədə həssas nöqtələrə toxunmasının labüd nəticəsi idi. O, Bəni-Üməyyənin cavanlarını və fasiqlərini seçib dövlət vəzifələrinə yerləşdirir, beytül-malı onların sərəncamına verir, böyük səhabələri vəzifələrdən uzaqlaşdırır, onlardan bir çoxunun ehtiramını alçaldır, kütləvi etirazlarına əhəmiyyət vermirdi. Nəticədə camaatın səbri daşdı, Peyğəmbərin (s) böyük səhabələrinin başçılığı altında bir yerə toplaşıb Osmanın evini mühasirəyə aldılar, onu ya tələblərini yerinə yetirmək, ya xəlifəlikdən istefa vermək və ya da öldürülmək seçimi qarşısında qoydular. Osman isə onların tələblərindən heç birinə cavab vermədi və sonda qətlə yetirildi.

Haqla batilin arasında döyüşlə üsyanın fərqi

Osmanın xilafətinin sonlarında baş verən hadisələrlə Möminlərin əmiri Əlinin (ə) hakimiyyəti dövründə baş verən hadisələrin xarakterinə diqqət yetirən şəxs onların arasındakı fərqi tam aydın şəkildə sezə bilər. Təqdim edildiyi kimi, Osmanın dövründə bütün İslam əhalisinin mübtəla olduğu böyük bir üsyan (fitnə) baş vermişdi.[1087]

İbn Müseyyibin *"İlk üsyan (fitnə) baş verdikdə, Bədr əhlindən (və ya mühacirlərdən) heç kəs qalmadı"* sözləri bu üsyanda bədrlilərin və ya mühacirlərin Osmana qarşı mövqedə dayandıqlarına dəlalət edir.

Onlardan bəzilər sakitləşməyə və müsəlmanların vəhdətini qorumağa səsləyirdi. Necə ki, bunu İmam Əlinin (ə) nümunəsində müşahidə edirik.

[1086] əl-İləl, c. 3, s. 92; Tarixul-Mədinə, c. 4, s. 1274; əl-Faiqu fi ğaribil-hədis, Zəməxşəri, c. 2, s. 297

[1087] Bax: Səhih, Buxari, c. 5, s. 20; əl-İləl, Əhməd ibn Hənbəl, c. 3, s. 92; Tarixul-Mədinə, İbn Şəbbə Nəmiri, c. 4, s. 1274; əl-Faiqu fi ğaribil-hədis, Carullah Zəməxşəri, c. 2, s. 297

Təlhə, Zübeyr, Hükeym ibn Cəbələ Əbdi kimi digərləri isə fərqli mövqe tuturdular. Zəhəbi deyir: *"Hükeym ibn Cəbələ... Osman üsyanında ona qarşı qalxanlardan biri idi".*[1088] Üçüncü qrup Büreydə, Sələmə ibn Əkvə kimi Mədinədən qaçıb uzaqlaşanlar idi. İbn Hibban yazır: *"Mədinədə Osmana qarşı üsyan başladıqda Büreydə iki oğlu ilə birlikdə Mədinəni tərk edərək Bəsrəyə məskunlaşdı".*[1089] Eyni yazır: *"Sələmə ibn Əkvə Osman üsyanı vaxtı Rəbəzəyə yollandı".*[1090] Dördüncü dəstə şəxslər isə hadisələr bitənədək özlərini dəliliyə qoydular: *"Osmana qarşı inqilab başladıqda bir kişi ailəsinə dedi: "Məni dəmirlə möhkəm bağlayın, mən dəli olmuşam".*[1091]

Üsyan həqiqət təhrif edildikdə, haqla batil bir-birindən fərqləndirilmədikdə baş verir.

Bəli, Osmanın xilafətinin son illərində baş verən hadisələr bir çox səbəblərin rol oynadığı üsyan idi, burada açıq şəkildə aydın olmayan məsələlər həqiqət hesab olunmaz.

Amma İmam Əlinin (ə) xəlifəliyi dövründə baş vermiş hadisələr əsla üsyan və fitnə xarakterli deyildi. Burada haqla batil, təqva əhli olan əsgərlərlə həvaye-nəfs və şəhvət əhlinin arasında savaş gedir. Belə savaşlar hər bir dövrdə baş verir, əsla səngimir və bitmir. Və Qiyamət gününədək belə davam edəcəyi görünür.

Bu savaşda haqq tərəf müsəlmanların qanuni xəlifəsi seçilmiş İmam Əlidir (ə). O, öz əsgərlərini Allahın dininin, sonuncu Peyğəmbərin (s) şəriətinin bərqərar olması üçün döyüşə aparır. Onun bu savaşına Peyğəmbərlə (s) bir çox müharibədə çiyin-çiyinə döyüşmüş Xüzeymə ibn Sabit Zu-şəhadəteyn (iki şəhadət sahibi), Əmmar ibn Yasir və digərləri kimi səhabələr qoşulublar. Onlar Peyğəmbərlə (s) iştirak etdikləri

---

[1088] Siyəru əlamin-nübəla, Zəhəbi, c. 3, s. 531

[1089] Səhih, İbn Hibban, c. 6, s. 259; Taixu mədinəti Dəməşq. c. 27, s. 139, c. 39, s. 492

[1090] Ümdətul-qari, Eyni, c. 1. s. 163

[1091] əl-Müsənnəf, Əbdürrəzzaq Sənani, c. 11, s. 450

savaşlarda olduğu kimi, burada da şəhidlik şərbətini içməyə hazırdırlar. Ümarə ibn Xüzeymə ibn Sabitin rəvayətində deyilir: *"Xüzeymə ibn Sabit Cəməl müharibəsində idi. Lakin qılıncını qınından çıxarmadı. Sonra Siffində də iştirak etdi. Dedi: "Əmmarın (Müaviyə ordusu tərəfindən) öldürüldüyünə görə, mən əsla zəlalətdə deyiləm. Onu öldüreni görürəm. Halbuki Peyğəmbərin (s) belə buyurduğunu eşitmişəm: "(Ey Əmmar) səni azğın bir dəstə öldürəcək".*

Əmmar öldürüldükdə Xüzeymə dedi: "Onun (Əmmarın qatilinin) zəlalətdə olduğu qətiləşdi". Sonra onun qatilinə tərəf yaxınlaşdı. O, Əbu Ğadiyə Muzni idi. Onu nizə ilə vurub yerə yıxdı. Xüzeymə öldürülənədək savaşdı.

Həmin gün Əmmarın doxsan dörd yaşı var idi. O, yerə yıxıldıqda bir nəfər onun üzərinə atılıb başını kəsdi. Onu yerə yıxanla başını kəsən bir-biri ilə "mən onu öldürdüm" deyib mübahisə edirdilər. Əmr ibn As bu görüb dedi: "Allaha and olsun ki, siz cəhənnəm oduna görə bir-birinizlə mübahisə edirsiniz". O iki nəfər oradan ayrıldıqda Müaviyə Əmr ibn Asa dedi: "Bizim üçün özlərini fəda edənlərə qarşı belə rəftarını heç görməmişdim. Onlara Cəhənnəmə görə bir-birinizlə mübahisə edirsiniz dedin?" Əmr ibn As dedi: "Allaha and olsun ki, bu, belədir. Bunu sən də bilirsən! Mən bundan iyirmi il əvvəl ölməyimi arzulayardım".[1092]

Əhli-Sünnənin böyük hədisçilərindən Buxari, Müslim, Əhməd ibn Hənbəl və başqaları *"Əmmarı azğın (zalım) bir dəstə öldürəcək"* hədisini rəvayət ediblər. İkrimədən nəql olunur: *"İbn Abbas ona və Əli ibn Abdullaha dedi: Əbu Səidin yanına gedin və onun hədisini dinləyin". Biz onun yanına getdik. O, qardaşı ilə birgə həyəti sulayırdı. Bizi görüb yanımıza gəldi, dizlərini qarnına birləşdirmiş və dirsəyini onların üstünə qoymuş vəziyyətdə oturdu, sonra dedi: "Məscid tikilərkən bir-bir kərpic*

[1092] əl-Müstədrək, c. 3, s. 385-386, 397; Fəthul-bari, c. 13, s. 36; Ümdətul-qari, c. 14, s. 104; əl-Möcəmul-kəbir, c. 4, s. 85; əl-İstiab, c. 2, s. 448; Tarixu mədinəti Dəməşq, c. 16, s. 370, c. 43, s. 471 və digər mənbələr

daşıyırdıq. Əmmar isə kərpicləri iki-iki aparırdı. Peyğəmbər (s) onun yanına gəldi, başındakı tozu silib buyurdu: "Vay olsun Əmmarı qətlə yetirəcək zalım (qəddar) dəstəyə! Əmmar onları Allaha, onlar isə Cəhənnəmə dəvət edəcəklər".[1093]

Nəsr ibn Müzahim "Siffin savaşı" kitabında Zuhri sənədilə rəvayət edir: *"Həmin gün Şümr ibn Əbrəhə ibn Səbbah Həmiri oradan çıxıb Şamın savadlı adamlarının (qarilərinin) arasında Əliyə (ə) qoşuldu. Bu, Müaviyə və Əmr ibn Ası pis vəziyyətə saldı. Əmr dedi: "Ey Müaviyə, sən bu şamlılardan Muhəmmədin (s) silahdaşı, qohumluq cəhətdən ona ən yaxını, İslamda özü kimisi olmayan bir şəxsə qarşı döyüşmələrini istəyirsən? Onun döyüşlərdəki şücaəti Peyğəmbərin (s) heç bir səhabəsində olmayıb. O, sənə qarşı çox sayda Peyğəmbər səhabəsilə, onların igidləri, qariləri, şərəfliləri və İslamda öndə gedənləri ilə birlikdə çıxıb. Onlar möhtərəm və böyük şəxsiyyətlərdir..."*[1094]

Həmçinin Malik ibn Qüdamə Ərhəmi sənədilə nəql edir: *"Səid ibn Qeys Qənasiridə əshabı qarşısında çıxış edərək dedi: "Bizi buna hidayət edən Allaha həmd olsun... Allah bizə elə nemət bəxş edib ki, onun şükrünü yerinə yetirməyi, layiqincə qiymətləndirməyi bacarmarıq. Bu, Peyğəmbərin (s) ən xeyirli və seçkin səhabələrinin bizimlə birlikdə, bizim sıralarımızda olmasıdır. Bəndələrini görən Allaha and olsun ki, əgər bizim rəhbərimiz naqis bir həbəşi də olsaydı, Bədrdə iştirak etmiş yetmiş nəfərin aramızda olması bizə kifayət edərdi. Ona görə də biz buna sevinib, başımızı dik tutmalıyıq. Necə də olmasın?! Bizim başçımız Peyğəmbərin (s) əmisi oğlu, Bədrdə olmuş, dürüst, kiçik yaşlarından namaz qılan, Peyğəmbərlə (s) birlikdə çoxlu savaşlarda iştirak etmiş şəxsdir. Müaviyə isə (Məkkənin*

[1093] Səhih, Buxari, c. 3, s. 207; Səhih, Müslim, c. 8, s. 186; Müsnəd, Əhməd ibn Hənbəl, c. 3, s. 22, 5 (25), 28, 91, c. 4, s. 197, c. 5, s. 214-215, 306, 307, c. 6, s. 289, s. 300, 311, 315. Sünən, Tirmizi, c. 5, s. 333; Fəzailus-səhabə, s. 51

[1094] Vaqəətu Siffin, İbn Məzahim Munqəri, s. 222-223

fəthində) əsir düşüb qandallanmış, sonradan azad edilmiş tüləqa oğlu tüləqadır...”[1095]

Eləcə də Fəzl ibn Ədhəm sənədilə rəvayət olunur: *“Atam mənə danışıb ki, Əştər Qənasirində camaata xitab etdi. Həmin gün o qarğa kimi qara bir atın üzərində idi. Dedi: “Uca səmaları yaradan Allaha həmd olsun... Bilin ki, siz haqq, qarşınızdakılar isə batildirlər və Müaviyə ilə birlikdə vuruşurlar. Ancaq sizin yanınızda Bədr savaşında iştirak etmiş yüzə yaxın şəxs var. Onlardan başqa, Peyğəmbərin (s) bayrağı altında vuruşan səhabələr də sizinlədirlər. Müaviyənin bayrağı altındakılar çoxu vaxtı ilə müşrik olaraq Peyğəmbərə (s) qarşı vuruşanlardır. Onlara qarşı vuruşmaqda yalnız qəlbi ölmüş kəslər şəkk edər...”*[1096]

İbn Əsəm “əl-Fütuh”da Səid ibn Cübeyr yolu ilə nəql edir: *“Həmin gün Əlinin (r) tərəfində səkkiz yüz Ənsar, doqquz yüz nəfər isə ağac altında Rizvan beyətində iştirak etmiş şəxs var idi”.*[1097]

Həmçinin Həkəm ibn Üteybə yolu ilə rəvayət edir: *“Həmin gün savaşda Əli ilə birlikdə Bədrdə savaşmış səksən nəfər var idi”.*[1098]

Süleyman ibn Mehran Əməş[1099] və Əbdürrəhman ibn Əbu Bəkr[1100] yolu ilə də bunu nəql edir.

Eləcə də Müaviyənin söylədiyi sözlərin arasında bu kəlmələr də nəql olunur: *“Əlini və bizimlə döyüşünü xatırlayın. Allah sizin bildiyinizi hökm etdi. Yenə də Əli kimi bir kəsimi diləyirsiniz?!”*[1101]

Haqq cəbhəsinin müqabilində batil cəbhəsi dayanmışdı ki, Peyğəmbər (s) hələ sağlığında onları Nakisin (beyət pozanlar), Qasitin (zalımlar) və

[1095] Vaqətu Siffin, İbn Məzahim, s. 236-237

[1096] Vaqətu Siffin, İbn Məzahim Munqəri, s. 238-239

[1097] Kitabul-fütuh, Əhməd ibn Əsəm Kufi, c. 2, s. 544

[1098] Kitabul-fütuh, c. 2, s. 544; əl-Müstədrəku ələs-səhiheyn, Hakim Nişapuri, c. 3, s. 104

[1099] Kitabul-fütuh, c. 2, s. 544

[1100] Kitabul-fütuh, c. 2, s. 544

[1101] Kitabul-fütuh, c. 4, s. 338

Mariqin (haqq yolundan azmışlar) adlandırmışdı.[1102] Belə ki, onların hamısı şəriətə və qanunlara qarşı çıxmışdılar. Halbuki Uca Allahın şəriəti onlara belə bir haqq verməmişdi. Onlar haqqa qalib gəlmək üçün şər vasitələrə və şeytani üslublara əl atır, hər bir şeyi bu yolda səfərbər edirdilər.

İhsan Zahirin səhabələrə hücumu

İhsan Zahir həqiqəti batillə qarışdırmış, onu eybəcər hala salmış, yalan şahidlik və böhtanlarla hökm vermişdir. Deyir: **"Ona görə də zalım üsyankarlar tərəfindən mühasirəyə alındıqda..."[1103];** başqa bir yerdə isə yazır: **"Həddi aşmış zalım üsyankarlar ona su gətirilməsini qadağan etdikdə..."[1104]**

Onun işlətdiyi bu sözlərin və Osmanı mühasirəyə alanları zalım üsyankar kimi vəsf etməsinin səhabələrə qarşı açıq-aydın hücum olduğu heç kimə gizli deyil. Bu, heç də bütün səhabələrin ədalətli olması barədə Əhli-Sünnənin etiqadı ilə üst-üstə düşmür. Osmanın evini mühasirəyə alanların səhabələr olduğuna şübhə yoxdur. Bəli, Osmanın qətlində səhabələrin iştirak edib-etmədikləri Əhli-Sünnənin nəzərində müzakirə mövzusudur. Lakin mühasirə başqa, qətl isə başqadır. Halbuki biz onlardan bəzilərinin Osmanın qətlində iştirak etdiklərinin aydın dəlillərini də yuxarıda təqdim etmişik.

İhsan Zahirin əl atdığı bu üslub Müaviyə və Əmr ibn As tərəfindən geniş istifadə edilən bir hiylədir. Bununla həqiqətin rəngini dəyişməyə, sadəlövh və məlumatsız insanlardan haqqı gizlətməyə cəhd göstərirlər. Bəzi vaxtlar bu hiylələri nəticəsində öz məqsədlərinə nail də olublar.

[1102] Bax: əl-Müstədrək, c. 3, s. 139-140; Məcməuz-zəvaid, c. 5, s. 186, c. 6. s. 235, c. 7, s. 238; Müsnəd, Əbu Yəla Mosuli, c. 1, s. 397, c. 3, s. 194; əl-Möcəmul-övsat. c. 8, s. 213, c. 9, s. 165; əl-Möcəmul-kəbir, c. 4, s. 172, c. 10, s. 91-92; əl-İstiab, c. 3, s. 1117

[1103] Şiə və Əhli-Beyt, s. 147

[1104] Şiə və Əhli-Beyt, s. 148

Əhməd ibn Hənbəl Abdullah ibn Hərs sənədilə nəql edir: *"Mən Müaviyə ilə birlikdə Siffindən qayıdırdım. Onunla Əmr ibn Asın arasında gedirdim. Abdullah ibn Əmr ibn As dedi: "Atacan, Peyğəmbərin (s) Əmmara belə dediyini eşitməmisənmi: "Ey Süməyyənin oğlu, vay olsun səni qətlə yetirəcək zalım (azğın) dəstəyə!" Əmr Müaviyəyə dedi: "Bunun nə dediyini eşitdin?" Müaviyə dedi: "Sən hələ də bizimlə xırdaçılıq edirsən?! Məgər onu biz öldürdük?! Əmmarın qatilləri onu buraya gətirənlərdir".*[1105]

Şüeyb Arnaut hədisin hökmü ilə bağlı deyir: *"İstinadı səhihdir".*[1106]

Buna əsasən, onların təbirincə desək, raşidi xəlifələr dövründə heç də iki üsyan və fitnə baş verməmişdir. Həmin dövrlərdə Osmana qarşı üsyan, Möminlərin əmiri Əlinin (ə) xilafəti zamanında isə haqla batilin savaşı olmuşdur.

Osmana qarşı üsyan onun öldürülməsi, cəsədinin zibilliyə atılması və sonda yəhudi qəbiristanlığında dəfn edilməsi ilə başa çatdı. Ancaq haqla batilin arasındakı savaş əsla bitmədi və bitməyəcək də!

Həmin döyüşlərdə qanun və şəriətdən üz çevirmiş dəstənin qılıncları ilə haqq ordusunun cərgəsindəki şəxslərin pak qanları axıdıldı, zülm və azğınlıqları ilə bədbəxtlik yolu tutmuşların iyrənc qanları yerə töküldü.

İkinci fəsil: İhsan Zahirin iddialarının təhlil və müzakirəsi

Giriş

Qeyd etdik ki, iddianın dəyəri onunla təqdim edilən dəlil və sübutlarla ölçülür. Dəlilsiz iddia fikir, nəzər və zəndən savayı bir şey deyil. Belə bir iddia haqqı isbat etməyə və ya batili aradan aparmağa yararsızdır. Bunu Uca Allah da Öz hikmətli kitabının bir neçə yerində vurğulayıb: ***"Heç bir şey bilmir, yalnız zənnə qapılırlar. Zənn isə əsla həqiqət ola***

[1105] Müsnəd, Əhməd ibn Hənbəl, c. 2, s. 161, hədis 6499

[1106] Həmin mənbə, hədislərə Şüeyb Arnautun verdiyi hökmlərlə

bilməz!"[1107] Həmçinin buyurur: ***"Bilmədiyin bir şeyin ardınca getmə (bilmədiyin bir sözü demə). Çünki qulaq, göz və ürək – bunların hamısı (sahibinin etdiyi əməl, dediyi söz barəsində) sorğu-sual olunacaq".***[1108]

İhsan Zahir kitabında "Əhli-Beytin Zu-nureynə[1109] münasibəti" başlığı altında bir çox "dəlillər" sadalamış, onların vasitəsilə Osmanla Əhli-Beytin (ə) arasında heç bir ixtilafın olmadığını isbatlamağa çalışmışdır. Nəinki, hətta onların arasında əsl sevginin, məhəbbətin və müttəfiqliyin mövcudluğunu, şiələrin iddia etdikləri nifrətdən əsər-əlamətin olmadığını sübuta yetirməyə səy göstərmişdir. Lakin qarşıda onun göstərdiyi "dəlilləri" təhlil və müzakirə etdikdə onların bir acı belə doydurmağa yetməyəcəyini görəcəyik. Belə ki, şiəyə qarşı irad və etiraz məqamında o, şiələrin, ya da hər iki tərəfin özlərinin höccət saydıqlarını, yaxud da ən azından şiə kitablarında qeyd olunanları dəlil kimi təqdim etməli idi. Lakin İhsan Zahir bunların heç birini etməyib.

Hətta Osmanla Əhli-Beytin (ə) arasında tam xoş münasibətlərin mövcudluğuna sübut kimi təqdim etdiyi dəlilləri təhlil və müzakirə edəcəyik ki, onların İhsan Zahirin iddiasına fayda vermədiyi aydın olsun. Bunları aşağıdakı bölümlərdə nəzərdən keçirəcəyik:

1. Möminlərin əmiri Əlinin (ə) Fatimə (s.ə.) ilə evlənməsinə Osmanın yardım göstərdiyi iddiası

İhsan Zahir iddia edir ki, Osman Möminlərin əmiri Əlinin (ə) aləm qadınlarının xanımı Fatimə (s.ə.) ilə evlənməsinə köməklik göstərib və ona evlilik xərclərini verib. Buna dəlil kimi də Xəvarəzminin

---

[1107] Nəcm, 28

[1108] İsra, 36

[1109] Əhli-Sünnə Osmanı belə adlandırır. Səbəb kimi isə Peyğəmbərin (s) doğmaları olduğunu iddia etdikləri iki qızının Osmanla evləndirməsini göstərir.

“Mənaqib”inə, İrbəlinin “Kəşful-ğummə”sinə və Əllamə Məclisinin “Biharul-ənvar”ına nisbət verdiyi rəvayətləri göstərib. İhsan Zahir deyir: **“O, Əli ibn Əbu Talibə (r)... evlənməsində kömək edən şəxsdir. Onun bütün xərclərini ödəmişdi. Necə ki, bunu Əli ibn Əbu Talibin (r) özü də etiraf edir. “Peyğəmbərə (s) Fatimə ilə evlənmək istəyimi bildirdikdə mənə dedi: “Öz zirehini sat, pulunu mənə gətir ki, sənə və qızıma evliliyiniz üçün lazım olan əşyaları hazırlayım”. Əli deyir: “Zirehimi götürüb bazara yollandım. Onu Osman ibn Əffana dörd yüz dirhəmə satdım. Dirhəmləri aldım və o da zirehi götürdü. Dedi: “Ey Əbülhəsən! Bu zirehi götürməyə mən, pulları isə götürməyə sən daha çox haqq sahibi deyilsənmi?” Mən “Bəli” deyə cavab verdim. Osman dedi: “Bu zireh məndən sənə hədiyyə olsun”.**

Mən dirhəmləri və zirehi götürüb Peyğəmbərin (s) yanına gəldim, hər ikisini onun qarşısına qoydum və Osmanla aramızda baş verən söhbəti danışdım. Peyğəmbər (s) ona xeyir diləyib dualar etdi” (Mənaqib, Xəvarəzmi, s. 252-253; Kəşful-ğummə, İrbəli, c. 1, s. 359, Nəcəf çapı; Biharul-ənvar, Əllamə Məclisi, s. 39-40, İran çapı)”.[1110]

Cavab:

Xanım Fatimə (ə) ilə evləndiyi vaxt Osmanın İmama (ə) yardım etdiyinə, bütün evlilik xərclərini ödədiyinə Müvəffəq Xəvarəzmi, İrbəli və Məclisiyə nisbət verilən bu rəvayəti dəlil göstərmək, İmam Əlinin (ə) də bütün bunları etiraf etdiyini söyləmək aşağıda sadalayacağımız səbəblərə görə açıq-aydın böhtan və puç iddiadır:

Birinci: İhsan Zahirin Xəvarəzmi, İrbəli və Məclisinin adlarını sadalamaqla təqdim etdiyi bu dəlil həqiqətdə vahid bir mənbənin rəvayətidir. Həmin mənbə isə Müvəffəq Xəvarəzminin “Mənaqib”idir. “Kəşful-ğummə”də İrbəli, “Biharul-ənvar”da da Əllamə Məclisi məhz ona

[1110] Şiə və Əhli-Beyt, s. 132-134

istinad ediblər. Lakin İhsan Zahir oxucuda onların müstəqil rəvayət olduğu təsəvvürünü yaratmağa çalışıb.

İrbəli deyir: *"Mənaqib"də Ümmü Sələmədən, Salman Farisidən və Əli ibn Əbu Talibdən (ə)... "...Peyğəmbər (s) buyurdu: "Ey Əbülhəsən, indi get, öz zirehini sat, pulunu mənə gətir ki, sənə və qızım Fatiməyə evliliyiniz üçün lazım olan əşyaları hazırlayım". Əli dedi: "Mən gedib onu 400 dirhəmə Osmana satdım..."*[1111]

Əllamə Məclisi yazır: *"...Peyğəmbər (s) buyurdu: "Ey Əbülhəsən, indi get, öz zirehini sat, pulunu mənə gətir ki, sənə və qızım Fatiməyə evliliyiniz üçün lazım olan əşyaları hazırlayım". Əli dedi: "Mən gedib onu 400 dirhəmə Osmana satdım..."*[1112]

Məlumdur ki, Əxtab Xəvarəzmi kimi tanınan, hicrətin 484-cü ilində anadan olmuş, 528-ci ilində isə vəfat etmiş Hafiz Əbülmüəyyəd Müvəffəq ibn Əhməd ibn Muhəmməd Bəkri Məkki Hənəfi məzhəbinin alimlərindəndir. Əbdülqadir Qüreyşi Hənəfi (vəfatı: h.q 775-ci il) "Təbəqatul-Hənəfiyyə"[1113] kitabında onun tərcümeyi-halını qeyd edib. Xəvarəzminin Əbu Hənifənin tərifəlayiq xüsusiyyətləri ilə bağlı kitabı var. Bunu Zirkəli onun tərcümeyi-halında qeyd edib.[1114] Bunlar aydındır. Belə ki, onun tərcümeyi-halı bir çox Əhli-Sünnə kitablarında da qeyd edilib. Bundan əlavə, İmamiyyə şiə alimləri də onu Əhli-Sünnə alimi sayıblar.[1115]

Beləliklə, Müvəffəq Xəvarəzminin rəvayəti şiə üçün dəlil deyil.

İkinci: Xəvarəzminin "Mənaqib"dəki bu rəvayəti mürsəl nəql olunub. Onu öz kitabında Muhəmməd ibn Ümeyr sənədilə Əyyubdan, o da Asim

---

[1111] Kəşful-ğummə, İrbəli, c. 1, s. 363-367

[1112] Biharul-ənvar, Əllamə Məclisi, c. 43, s. 124-130

[1113] Bax: Təbəqatul-Hənəfiyyə, Əbdülqadir Qüreyşi Hənəfi, c. 3, s. 523, rəqəm 1718

[1114] Zirkili deyir: "Muhəmməd ibn Mahmud ibn Muhəmməd ibn Həsən Əbülmüəyyəd Xəvarəzmi – "İmamul-əzəm Əbu Hənifənin tərifəlayiq xüsusiyyətləri" kitabının müəllifidir". (əl-Ələm, c. 7, s. 333)

[1115] Şeyx Cəfər Kaşiful-Ğita deyir: *"Əxtab Xəvarəzmi Əhli-Sünnə alimlərindən İbn Məsuddan... rəvayət edib".* ("Kəşful-ğita", c. 1, s. 13)

Əhvaldan, o da İbn Sirindən, o da Ümmü Sələmə, Salman Farisi və Möminlərin əmiri Əlidən (ə)[1116] rəvayət edir. İbn Sirin Osmanın xilafətinin sonuna iki il qalmış dünyaya gəlib, hicrətin 110-cu ilində isə vəfat edib.[1117] Bəs o, bu yaşında Ümmü Sələmədən, Salmandan və Möminlərin əmiri Əlidən (ə) rəvayət eşidib?!

Muhəmməd ibn Ümeyr isə məchul ravidir. Mizzi yazır: *"Ondan Nəsai rəvayət nəql edib. Deyir: "Bu, (rəvayət) inkar olunur. Muhəmməd ibn Ümeyr məchul şəxsdir".*[1118] Zəhəbi deyir: *"Onu tanımıram, rəvayətləri inkar olunur. Nəsainin sözünə əsasən, o, məchuldur".*[1119]

Üçüncü: Məşhur rəy budur ki, İmam Əli (ə) aləm qadınlarının seyyidəsi ilə evlənmək üçün heç kəsdən pul almamışdır. O, Peyğəmbərin (s) göstərişinə əsasən, öz zirehini sataraq evlilik üçün lazım olan xərcləri ödəyib. Xəvarəzminin rəvayəti də bunu inkar etmir. Həmin rəvayətdə İmamın (ə) lazımi şeylərin hazırlanması məqsədilə öz zirehini satdığı bildirilir.

[1116] Müvəffəq Xəvarəzmi deyir: *"Muhəmməd ibn Ümeyr Əyyubdan, o da Asim Əhvaldan, o da İbn Sirindən, o da Ümmü Sələmə, Salman Farisi və Əli ibn Əbu Talibdən (ə) rəvayət edir: Fatimə qadınların ailə qurduğu yaşa çatdıqda... Peyğəmbərə (s) mənə dedi: "İndi get, öz zirehini sat, pulunu mənə gətir ki, sənə və qızım Fatiməyə evliliyiniz üçün lazım olan şeyləri hazırlayım". Əli deyir: "Zirehimi götürüb bazara yollandım. Onu Osman ibn Əffana dörd yüz dirhəmə satdım. Dirhəmləri aldım və o da zirehi götürdü. Dedi: "Ey Əbülhəsən! Bu zirehi götürməyə mən, pulları isə götürməyə sən daha çox haqq sahibi deyilsənmi?" Mən "Bəli" deyə cavab verdim. Osman dedi: "Bu zireh məndən sənə hədiyyə olsun".*

Mən dirhəmləri və zirehi götürüb Peyğəmbərin (s) yanına gəldim, hər ikisini onun qarşısına qoydum və Osmanla aramızda baş verən söhbəti ona danışdım. Peyğəmbər (s) ona xeyir diləyib dualar elədi". (əl-Mənaqib, Xəvarəzmi, s. 343-349)

[1117] Buxari deyir: *"Ənəs ibn Malik Ənsarinin köləsi Muhəmməd ibn Sirin Əbu Bəkr... Osmanın xilafətinin sonuna iki il qalmış dünyaya gəlib. O, qardaşı Ənəsdən böyükdür".* (Tarixus-sağir, c. 1, s. 196) İbn Hibban deyir: *"Doğumu Osmanın xilafətinin son iki ilinə təsadüf edib. Ənəs onun atası Sirinlə iyirmi min dirhəm müqabilində azad edəcəyi ilə bağlı razılığa gəlmişdi... O, hicrətin yüz iyirminci ilinin Şəvval ayında Həsəndən yüz gün sonra vəfat etdi. Bu vaxt onun 77 yaşı var idi".* (əs-Siqat, c. 5, s. 349)

[1118] Təhzibul-kəmal, Mizzi, c. 26, s. 234

[1119] Mizanul-itidal, Zəhəbi, c. 3, s. 676

Bəli, rəvayətdə həmin zirehi satdıqdan sonra Osmanın ona hədiyyə olaraq geri qaytardığı da qeyd olunur. Ancaq Osman zirehi İmamdan (ə) heç bir söz soruşmadan alır, bununla da alver baş tutur. Onların hər biri bu alverdən öz haqqını götürür. Ardınca isə Osman İmam Əlinin (ə) zirehini Fatimə ilə evlilik xərclərini ödəmək üçün satdığından xəbər tutmadan onu hədiyyə edərək geri qaytarır.

Xəvarəzminin rəvayətindən də göründüyü kimi, İmam evlilik xərclərini zirehini satmaqla ödəyir. Lakin onun bu rəvayəti zirehi ondan Osmanın aldığını qeyd edir. *"Ey Əbülhəsən! Bu zirehi götürməyə mən, pulları isə götürməyə sən daha çox haqq sahibi deyilsənmi?"* sözləri isə alverin baş tutduğunu göstərir. Artıq dirhəmlər İmamın (ə), zireh isə Osmanın mülkiyyətinə keçmişdi. Osman da zirehin satılma məqsədindən xəbəri olmadan onu İmama (ə) hədiyyə edir. Bəs İhsan Zahirin **"Onun bütün (evlilik) xərclərini ödəmişdi"** iddiası haradadır?!

2. Peyğəmbərin (s) Osmanı nikaha şahid tutması iddiası

İhsan Zahir iddia edir ki, Peyğəmbər (s) Osmanı Möminlərin əmiri Əlinin (ə) Fatimə ilə nikahına şahid təyin edib. Bu iddiasına da Xəvarəzmi, İrbəli və Əllamə Məclisiyə nisbət verdiyi rəvayəti dəlil göstərib. İhsan Zahir deyir: **"Peyğəmbər (s) Osmanı Əli ilə Fatimənin nikahına şahidlərdən biri olaraq təyin etdi. Bunu Ənəsdən rəvayət edirlər: "Peyğəmbər (s) buyurdu: "Get, Əbu Bəkri, Öməri, Osmanı... onlar qədər də Ənsardan adam çağır". Ənəs deyir: "Mən gedib onları çağırdım. Toplaşdıqda Peyğəmbər (s) buyurdu: "...Mən sizi qızım Fatiməni 400 misqal gümüş mehriyə müqabilində Əli ilə evləndirdiyimə şahid tuturam" (Kəşful-ğummə, c. 1, s. 358;**

həmçinin: əl-Mənaqib, Xəvarəzmi, s. 252; Biharul-ənvar, Məclisi, c. 10, s. 38)".[1120]

Cavab:

İhsan Zahirin Peyğəmbərin (s) Osmanı həmin izdivaca şahid təyin etməsinə dair İrbəlinin "Kəşful-ğummə"sindən göstərdiyi bu dəlil faydasızdır. Belə ki, İrbəli öz kitabında bunu yenə Müvəffəq Xəvarəzminin "Mənaqib"indən nəql edib.[1121] Məclisi də bunu İrbəliyə istinadən rəvayət edib.[1122] Bu rəvayət yenə tək bir mənbəyə sahibdir. Həmin mənbə isə Müvəffəq Xəvarəzminin "Mənaqib"idir.[1123] Əvvəldə də qeyd etdiyimiz kimi, o, Hənəfi məzhəbinin alimlərindəndir. Buna əsasən, həmin rəvayət şiəyə dəlil ola bilməz.

[1120] Şiə və Əhli-Beyt, s. 134

[1121] İrbəli deyir: *"Xəvarəzminin "Mənqaib"ində Möminlərin əmiri Əlidən (ə) rəvayət edilir: "Peyğəmbərin (s) yanına qızı üçün elçiliyə getdim... Ondan, o da Ənəsdən rəvayət edir: "Peyğəmbərin (s) yanında idim. Bu zaman ona vəhy gəldi. Özünə gəldikdə mənə buyurdu: "Ey Ənəs, bilirsənmi Cəbrail Ərşin Sahibinin hüzurundan yanıma hansı xəbərlə gəlmişdi?" Mən "Allah və Rəsulu daha yaxşı bilər" deyə cavab verdim. Buyurdu: "Mənə Fatiməni Əli ilə evləndirməyi buyurdu. Get, Əbu Bəkri, Öməri, Osmanı, Əlini, Təlhəni, Zübeyri və onların sayı qədər Ənsardan adam çağır". Mən gedib onları çağırdım. Onlar toplaşdıqda Peyğəmbər (s) buyurdu: "Həmd olsun Allaha..."* (Kəşful-ğummə, c. 1, s. 357-358)

[1122] Əllamə Məclisi yazır: *"Kəşful-ğummə"də Əlidən (ə), o da Ənəsdən rəvayət edilir: "Peyğəmbərin (s) yanında idim. Bu zaman ona vəhy gəldi. Özünə gəldikdə mənə buyurdu: "Ey Ənəs, bilirsənmi Cəbrail Ərşin Sahibinin hüzurundan yanıma hansı xəbərlə gəlmişdi?" Mən "Allah və Rəsulu daha yaxşı bilər" deyə cavab verdim. Buyurdu: "Mənə Fatiməni Əli ilə evləndirməyi buyurdu. Get, Əbu Bəkri, Öməri, Osmanı, Əlini, Təlhəni, Zübeyri və onların sayı qədər Ənsardan adam çağır". Mən gedib onları çağırdım. Onlar toplaşdıqda Peyğəmbər (s) buyurdu: "Həmd olsun Allaha..."* ("Biharul-ənvar, c. 43, s. 119)

[1123] Müvəffəq Xəvarəzmi yazır: *"Ənəs ibn Malikdən rəvayət edir: "Peyğəmbərin (s) yanında idim. Bu zaman ona vəhy gəldi. Özünə gəldikdə mənə buyurdu: "Ey Ənəs, bilirsənmi Cəbrail Ərşin Sahibinin hüzurundan yanıma hansı xəbərlə gəlmişdi?" Mən "Allah və Rəsulu daha yaxşı bilər" deyə cavab verdim. Buyurdu: "Mənə Fatiməni Əli ilə evləndirməyi buyurdu. Get, Əbu Bəkri, Öməri, Osmanı, Əlini, Təlhəni, Zübeyri və onların sayı qədər Ənsardan adam çağır". Mən gedib onları çağırdım. Onlar toplaşdıqda Peyğəmbər (s) buyurdu: "Həmd olsun Allaha ki..."* (əl-Mənaqib, s. 336)

Bundan əlavə, rəvayətin məzmunu Əhli-Sünnə fiqhinə uyğundur. Nikah zamanı şahidlik Əhli-Sünnə fiqhinə əsasən, nikahın rüknlərindən sayılır. Ona görə də şahidliyi vacib hesab edirlər. Ancaq şiənin nəzərində nikah zamanı şahidlik nə rükn, nə də şərt deyil. Sadəcə müstəhəbb əməldir. Bununla da Əbu Bəkrin və digərlərinin şahidliyi Möminlərin əmiri Əlinin (ə) evliliyində heç bir əhəmiyyətli təsirə sahib olmur.

Eləcə də Osmanın orada iştirakı xüsusi qeyd ediləcək nüans deyil. Belə ki, Peyğəmbər (s) həmçinin Təlhəni, Zübeyri və ənsarı da oraya çağırmışdı. Əgər evliliyə şahid durmaq ömrün bütün mərhələlərində razılıq və xoş əlaqələrə dəlalət etsəydi o zaman Cəməl müharibəsində Təlhə və Zübeyr İmam Əliyə (ə) qarşı mövqe tutmaz, həmin döyüşdə öldürülməzdi. Göründüyü kimi, onların bu nikaha şahidliyi heç bir fayda vermədi, İmam Əli (ə) ilə döyüşə çıxmaqdan onları çəkindirmədi. Bu əsasla, Osmanın da şahidliyi əsla razılıq və xoş əlaqələrə dəlil ola bilməz.

Şahidliyin baş tutduğu fərz olunduqda da deyilə bilər: Əbu Bəkri, Öməri və Osmanı çağıran Peyğəmbərdir (s). Bunun baş verməsi gələcəkdə onlarla İmam Əlinin (ə) arasında yaşanacaq hadisələr qarşısında bir höccət və xəbərdarlıq xarakteri daşıya bilər. Bəlkə də Peyğəmbər (s) Allahın əmri ilə baş tutmuş (halbuki İhsan Zahir bu əhəmiyyətli nüansı görməzlikdən gəlib) bu evliliyə onları şahid tutmaqla onlar qarşısındakı höccəti bir daha tamamlayır, onların qarşısında Möminlərin əmiri Əlinin (ə) və Fatimənin (s.ə.) məqamlarını izhar edir. Demək istəyir ki, siz, Allahın əmri ilə baş tutmuş bu nikaha şahid olduqdan sonra necə onlara zülm edib əziyyət verə bilərsiniz?!

Bunlar rəvayətin ravilərinin arasında saxtakar və zəiflərin[1124] mövcudluğu nəzərə alınmadıqda söyləniləcək sözlərdir. Belə ki, Həsən,

---

[1124] "Müvəffəq Xəvarəzmi deyir: *"...Muhəmməd ibn Dinar bizə Dəməşq sahilləri əhlindən, Həşim bizə yunusdan, o da Übeyddən, o da Həsəndən, o da Ənəs ibn Malikdən rəvayət edir: "Peyğəmbərin (s) yanında idim. Bu zaman ona vəhy gəldi..."* (əl-Mənaqib, s. 336)

Həşim və Muhəmməd ibn Dinar naqis ravilərdir. İbn Həcər Həsən barədə deyir: *"Çox mürsəl hədislər nəql edib, saxtakarlıq edirdi (bəzi ravilərin adlarını gizlədirdi)".*[1125] Həşim barədə deyir: *"Çox vaxt saxtakarlıq edir (bəzi ravilərin adlarını gizlədir), mürsəl nəql edirdi".*[1126] İbn Dinar barəsində isə yazır: *"Bərqani Daraqutniyə istinadən deyir: "Zəifdir". Başqa bir dəfə isə "Hədisləri tərk olunur" deyib... Üqeyli deyir: "Hədislərində uydurmalar var"... Nəsai Aişənin "Onu öpür və dilini sovururdu" hədisi ilə bağlı deyir: "Belə kəlmələrə yalnız Muhəməd ibn Dinarın rəvayətlərində rast gəlmək olur".*[1127]

3. Osmanın iman və səhabəliyinə İmam Əlinin (ə) şahidlik etməsi iddiası

İhsan Zahir iddia edir ki, İmam Əli (ə) Osmanın imanına, yaxşı səhabə olduğuna, elminə, mərifətinə və İslamda öndə gedənlərdən olmasına şahidlik edib. Bu iddiasına "Nəhcül-Bəlağə"dəki sözlərini dəlil göstərib. Deyir: **"Buna Əli ibn Əbu Talibin özü də şahidlik edir. Necə ki, Osmanın imanlı, yaxşı səhabə, özü qədər elm və mərifət sahibi, İslamda öndə gedənlərdən olduğunu bildirir. Bunları camaat onu Osmanın yanına göndərdikdə söyləyir. "Yanına gəlib dedi: "Arxamda camaat var ki, mənə (sənlə onların arasında səfir təyin ediblər) sənin və onların barəsində suallar verməyə başlayıblar. Və mən, Allaha and olsun ki, sənə nə deyəcəyimi bilmirəm..." (Nəhcül-Bəlağə, s. 234)".**[1128]

Cavab:

[1125] Təqribut-təhzib, İbn Həcər, c. 1, s. 202
[1126] Təqribut-təhzib, İbn Həcər, c. 2, s. 269
[1127] Təqribut-təhzib, İbn Həcər, c. 9, s. 137
[1128] Şiə və Əhli-Beyt, s. 140

Bu iddiaya cavab verməzdən əvvəl qeyd edək ki, xütbədəki "istəsfəruni" – yəni məni səfir təyin ediblər kəlməsini İhsan Zahir təhrif edərək "istəfsəruni" kimi təqdim edib.

Bu xütbə "Nəhcül-Bəlağə"dən əvvəl bəzi mənbələrdə nəql olunub. Bəlazuri (vəfatı: h.q 279) bunu "Ənsabul-əşraf"da[1129] Vaqididən, Təbəri (vəfatı: h.q 310) "Tarixi"ndə[1130] və digərləri qeyd ediblər.

Şeyx Müfid də "əl-Cəməl" kitabında Mədaini yolu ilə Əli ibn Salehə istinadən İbn Dəbədən nəql edib.[1131]

Buna əsasən, xütbənin kökü Əhli-Sünnə mənbəyindədir. Görünən odur ki, Şərif Rəzi (vəfatı: h.q 406) rəvayəti ya Vaqididən, ya da Mədainidən götürüb. Digər dəlil də budur ki, Şərif Rəzi "Nəhcül-Bəlağə"ni toplayarkən yalnız şiə mənbələrinə müraciət etməyib, həmçinin Əhli-Sünnə mənbələrindən də rəvayətlər nəql edib. Bu faktın özündə bəzilərinin Şərif Rəzinin "Nəhcül-Bəlağə"ni uydurduğu iddialarının da cavabı var.

[1129] Bəlazuri deyir: *"Vaqidi "əl-İsnad"da yazır: "34-cü ildə Peyğəmbərin (s) bəzi səhabələri bəzilərinə Osmanın rəftarlarından və yeniliklərindən, məmurlarından şikayət etdilər. Onlardan bir dəstəsi Mədinəyə gələrək mübarizə aparmağa qərar verdilər. Zeyd ibn Sabit, Əbu Üseyd əs-Saidi, Ənsardan olan Bəni-Sələməli Kəb ibn Malik ibn Əbu Kəb və Həssan ibn Sabit Ənsaridən savayı Peyğəmbər (s) səhabələrindən heç biri Osmanı müdafiə etmədi və barəsində deyilənləri inkar etmədilər. Mühacirlər və digərləri Əlinin yanına toplaşıb ondan Osmanla danışmasını və nəsihət etməsini istədilər. Əli onun yanına gedib dedi: "Mənim arxamda camaat var ki, sənin məsələn barədə danışırlar. Allaha and olsun ki, sənə nə deyəcəyimi bilmirəm..."* (Ənsabul-əşraf, c. 2, s. 280)

[1130] Təbəri deyir: *"Amma Vaqidi, o iddia edir ki, Abdullah ibn Muhəmməd ona atasından nəql edib: "34-cü ildə Peyğəmbərin (s) səhabələri bir-biriləri ilə məktublaşaraq dedilər: "Əgər cihad etmək istəyirsinizsə, hazırda cihad burada, bizim yanımızdadır". Osmana qarşı qalxan camaatın sayı getdikcə artırdı. Heç kimi etmədikləri kimi onu tənqid edirdilər. Peyğəmbərin (s) səhabələri onu görür, dinləyir, lakin heç kim onu çəkindirmir və müdafiə etmirdi. Yalnız bir neçə nəfərdən savayı. Bunlar da Zeyd ibn Sabit, Əbu Üseyd Saidi, Ənsardan olan Bəni-Sələməli Kəb ibn Malik ibn Əbu Kəb və Həssan ibn Sabit Ənsari idi. Camaat Əlinin yanına toplaşıb ondan Osmanla danışmasını istədilər. Əli onun yanına gedib dedi: "Mənim arxamda camaat var ki, mənimlə sənin barəndə danışırlar..."* (Tarix, Təbəri, c. 3, s. 375-376)

[1131] əl-Cəməl, Şeyx Müfid, s. 100

Rəvayətdəki söhbətin əvvəlində Osmanı özündən əvvəlki ilk iki xəlifə ilə müqayisə edir. Burada Osmanın onların rəhbərlik üslubundan yayındığına eyham var. Belə ki deyir: *"Əbu Qühafənin oğlu haqqa əməl etməkdə səndən üstün deyil, eləcə də sən heç bir xeyirdə Ömər ibn Xəttabdan geri deyilsən. Sən qohumluq baxımından Peyğəmbərə (s) onlardan daha yaxınsan.*[1132] *Onlardan fərqli olaraq sən, Peyğəmbərin (s) (iki qızının almaqla ikiqat) kürəkənisən. Onlar bu cəhətdən səni heç bir şeydə qabaqlamayıblar".*[1133]

Söhbətə bütünlüklə nəzər salan şəxs İmamın (ə) bu sözləri ilə Osmanı ciddi tənqid etdiyini görəcək. İhsan Zahir isə söhbətin yalnız əvvəlini qeyd edərək ardını kəsib atmışdır. İmam (ə) orada buyurur: *"Odur ki, öz barəndə Allahdan qorx, Allahdan qorx! Çünki Allaha and olsun ki, sən kor olub sonra görən və nadan olub sonra öyrədilən kəs deyilsən. Həqiqətən, yollar aşkar və dinin nişanələri möhkəm və bərqərardır. Bil ki, Allah yanında bəndələrin ən üstünü (haqq yola) hidayət olunmuş və (başqalarını) hidayət edən, məlum sünnəni dirildən və puç bidətləri məhv edən ədalətli və düzgün rəhbərdir. Həqiqətən, sünnələr aşkardır və onların öz nişanələri var. Həmçinin bidətlər də aşkardır və onların da öz nişanələri var. Allah yanında bəndələrin ən pisi isə özü azğın olan və başqaları onun vasitəsi ilə azğınlığa düşən, (Peyğəmbərdən) götürülmüş sünnəni öldürən və məhv olmuş bidəti dirildən zalım rəhbərdir. Mən Allahın Peyğəmbərinin (s) belə buyurduğunu eşitmişəm: "Qiyamət günü zalım rəhbəri gətirəcəklər və onun nə kömək edəni olacaq (ki, onu cəhənnəm odundan xilas etsin), nə də üzrxahı (ki,*

[1132] Osman qohumluq baxımından Əbu Bəkr və Ömərə nisbətdə Peyğəmbərə (s) daha yaxın idi. Belə ki, o, Əbdüşşəms ibn Əbdülmanafın Bəni-Üməyyə qolundandır. Əbdülmanaf isə Peyğəmbərin (s) üçüncü babasıdır. Əbu Bəkr isə Bəni-Teym ibn Mürrə qəbiləsindəndir ki, o da Peyğəmbərin (s) altınca babası olur. Ömər ibn Bəni-Ədiy ibn Kəb qəbiləsindəndir ki, o da Peyğəmbərin yeddinci babasıdır. Peyğəmbərin (s) Rüqəyyə və Ümmü Külsüm adlı iki qızı ilə evlənib (birinci vəfat etdikdə Peyğəmbər (s) onu ikinci qızı ilə evləndirdi) kürəkənliklə onlardan üstün olmasına gəldikdə, məqsəd onun iki dəfə kürəkən olmasıdır.

[1133] Tarix, Təbəri, c. 3, s. 375-376; Ənsabul-əşraf, c. 2, s. 280

əzabı ondan dəf etsin). Beləliklə, o, cəhənnəm oduna atılacaq və dəyirman fırlanan kimi onda fırlanacaq. Sonra cəhənnəmin quyusunda və dibində həbs olunaraq saxlanılacaq". Səni Allaha and verirəm ki, bu ümmətin öldürülən başçısı olmayasan. Çünki bundan əvvəl deyilirdi ki, bu ümmətdə bir rəhbər qətlə yetiriləcək və (onun öldürülməsi nəticəsində) qiyamətə kimi qan axıdılması və döyüş (qapısı) açılacaq, məsələlər onlara qarışıq gələcək, aralarında fitnə-fəsad yayılacaq və onlar haqqı batildən seçə bilməyəcəklər. Həmin fitnə-fəsadlarda çoxlu çaxnaşma törədər, haqdan əl götürərlər. Buna görə də, uzun illərdən və ömrü başa vurduqdan sonra Mərvan üçün düşmənin qarət edərək sürətlə sürdüyü dəvə kimi olma ki, səni istədiyi yerə sürsün".[1134]

İhsan Zahir bu iddiası ilə öz üzərinə Uca Allahın Qurandakı bu kəlamını götürmüş olur: ***"sözlərin yerini dəyişib təhrif edir..."***[1135]

4. Əhli-Beytin (ə) Osmanı tərifləmdikləri iddiası

İhsan Zahirin iddiasına görə, Əhli-Beyt (ə) nümayəndələri Osmanı tərifləyirdilər. Bu iddiaya isə Şeyx Səduqa, Şeyx Kuleyniyə, Əllamə Məclisiyə, İmam Həsən Əskəriyə istinad edilən təfsirə, Məsudinin "Tarix"inə nisbət verdiyi rəvayətləri dəlil göstərir. İhsan Zahir deyir: **"Peyğəmbər (s) onu (Osmanı) özünə nisbətdə qəlb kimi təqdim edir. Ondan rəvayət edilən xəbərdə deyilir: "Əbu Bəkr mənə qulaq, Ömər göz, Osman isə qəlb nisbətindədir" (Uyunu-əxbarir-Rza, c. 1, s. 303, Tehran çapı).**

Xoş Osmanın halına ki, Peyğəmbər (s) onu özünə qəlb nisbətində tutur. Bunu Peyğəmbərdən (s) nəvəsi, Cənnət qadınlarının seyyidəsi Fatimənin oğlu Hüseyn ibn Əli (Uyunu-əxbarir-Rza, c. 1, s. 303),

---

[1134] Tarix, Təbəri, c. 3, s. 375-376

[1135] Nisa, 46

eləcə də Həsən ibn Əli ("Təfsirul-Həsən Əskəri" və "Məanil-əxbar", s. 110) nəql ediblər.

Həsəndən, Hüseyndən və ataları Əli ibn Əbu Talibdən (r) savayı digər Əhli-Beyt nümayəndələri də Osmanı mədh edən sözlər işlətmişlər. Kuleyni onların nəzərində altıncı məsum imam olan Cəfər ibn Baqirdən Osmanın mədhilə, onun və yoldaşlarının Cənnətlə müjdələnməsi ilə bağlı belə rəvayət edir: "Günün əvvəlində səmadan bir carçı belə nida edər: "Həqiqətən də, Əli (ə) və şiələri qələbə çalanlardır!" Günün sonunda isə başqa bir carçı belə səslənər: "Bilin və agah olun ki, qalib gələnlər Osman və şiələridir!" (əl-Kafi fil-furu, c. 8, s. 209)

Cəfər həmçinin Osmanın Peyğəmbər (s) yanındakı məqamını, etibarını, onun əvəzinə naib olduğunu, Peyğəmbərə (s) ixlas və vəfalılığını da Osmanı digərlərindən ayıracaq məziyyətləri sadalayarkən qeyd edir. Həmçinin Osmanın əvəzinə Peyğəmbər (s) bir əlini uzadıb digərinə vurmaqla onun beyətini özü qəbul etmişdi. Bütün bunlar Hüdeybiyyə sülhü hekayəsində nəql edilir. Peyğəmbər (s) Osmanın ardınca adam göndərərək buyurdu: "Öz imanlı yoldaşlarının yanına get, Məkkənin tezliklə fəthilə bağlı onlara müjdə ver. Bu, mənə Rəbbim tərəfindən vəd olunub".

Osman yolda Aban ibn Sədlə görüşdü. Bu səbəbdən bir az yubandı. Sonra yoluna davam edib müşriklərin yanına gəldi, söylənənləri onlara xəbər verdi. Bu zaman mübahisə yarandı. Süheyl ibn Əmr Peyğəmbərin (s), Osman isə müşriklərin düşərgəsində idi. Bu vaxt Peyğəmbər (s) müsəlmanları beyətə səslədi. Bir əlini digər əlinə vuraraq Osmanın yerinə də beyət etdi. Müsəlmanlar dedilər: "Xoş olsun Osmana! O, Kəbəni təvaf etmiş, Səfa və Mərvənin arasında səy eyləmiş və ehramdan çıxmışdır". Peyğəmbər (s) buyurdu: "Xeyr, o, bunları etməyib".

Osman qayıtdıqda Peyğəmbər (s) ondan Kəbəni təvaf edib-etmədiyini soruşdu. Osman dedi: "Peyğəmbər (s) təvaf etmədən mənim təvaf etməyim doğru olmaz". Ardınca da baş verənlər haqqında danışmağa başladı" (ər-Ravzatu minəl-Kafi, c. 8, s. 325-326).

Məgər Məscidul-həramın ərazisinə daxil olub, ağası və mövlası Peyğəmbər (s) təvaf etmədiyi üçün özü də təvaf etməyən şəxsin itaət və sədaqətinə şübhə ola bilərmi?!

Buna bənzər rəvayəti Əllamə Məclisi "Həyatul-qulub"da nəql edib: "Müşriklərin Osmanı öldürdükləri xəbəri Peyğəmbərə (s) yetişdikdə: "Osmanın qatilləri ilə savaşmadan yerimdən tərpənən deyiləm" buyurub ağaca söykəndi, Osmanın əvəzinə özü-özünə beyət etdi". Ardınca da hadisəni tam şəkildə nəql edir (Həyatul-qulub, c. 2, s. 424, Tehran çapı).

Bu məzlum şəhid üçüncü rəhbərdir (ra.)".[1136]

Başqa bir yerdə isə deyir: **"Peyğəmbərin (s) əmisi oğlu Abdullah ibn Abbas deyirdi: "Allah Əbu Əmrə rəhmət etsin. Xadimlərin ən hörmətlisi, yaxşılıq edənlərin ən üstünü idi, gecələri oyaq qalar, cəhənnəm zikr edildikdə çoxlu göz yaşı tökər, hər bir möhtərəm iş üçün ayağa qalxar, bəla üz verərkən hamıdan öndə olardı, vəfalı və məğrur idi. Çətinlik zamanı ordunu təchiz edərdi. Peyğəmbər (s) onunla qohum olmuşdu" (Tarix, Məsudi, c. 3, s. 51, Misir çapı; həmçinin: Nasixut-təvarix, Mirzə Muhəmməd Təqi, c. 5, s. 144, Tehran çapı)".[1137]**

Cavab:

Bu iddia bir neçə cəhətdən batildir:

[1136] Şiə və Əhli-Beyt, s. 141-142

[1137] Şiə və Əhli-Beyt, s. 143

Birinci: İhsan Zahirin Şeyx Səduqa nisbət verdiyi *"Əbu Bəkr mənə qulaq... Osman isə qəlb nisbətindədir"* rəvayətinə kitabın əvvəlki cildlərində cavab verilib.[1138] Rəvayətin üzərində saxtakarlıq edərək mətnin əvvəlini və sonunu kəsib ki, öz iddiasına uyğunlaşdırsın. Rəvayətin tam mətnini sizə təqdim edirik:

Şeyx Səduq "Məanil-əxbar" və "Uyunu əxbarir-Rza" kitablarında Həsən ibn Əliyə istinadən Peyğəmbərin (s) belə buyurduğunu nəql edir: *"Əbu Bəkr mənə qulaq, Ömər göz, Osman isə qəlb nisbətindədir".*

Sabahı gün onun (Peyğəmbərin) yanına getdim. Yanında Möminlərin əmiri (ə), Əbu Bəkr, Ömər və Osman var idi. Dedim: "Atacan, sənin səhabələrin barədə bu sözləri söylədiyini eşitdim. Bunun mənası nədir?" Peyğəmbər (s) buyurdu: "Bəli, söyləmişəm". Sonra onlara işarə edərək sözünə davam etdi: "Onlar qulaq, göz və qəlbdirlər. Qarşıda bu vəsimin (İmam Əliyə (ə) işarə edərək) haqqı barədə soruşulacaqlar. ***"Çünki qulaq, göz və ürək – bunların hamısı*** *(sahibinin etdiyi əməl, dediyi söz barəsində)* ***sorğu-sual olunacaq".***[1139]

Sonra buyurdu: "Rəbbimin izzətinə and olsun ki, bütün ümmətim Qiyamət günü durdulacaq və onun vilayəti barədə soruşulacaq. Bu da Allahın sözüdür: ***"Onları tutub saxlayın, çünki sorğu-sual olunacaqlar!"***[1140]***".***[1141]

Rəvayətin girişini və cavabı qeyd etdikdə İhsan Zahirin dəlilinin puçluğu gün kimi aydın olur. Belə ki, Peyğəmbərin (s) bu sözləri ***"Çünki qulaq, göz və ürək – bunların hamısı*** *(sahibinin etdiyi əməl, dediyi söz barəsində)* ***sorğu-sual olunacaq"*** ayəsinə bənzəyir. Onların hər biri Möminlərin əmiri Əlinin (ə) vilayəti barədə soruşulacaq. Bu rəvayətdə

[1138] II cildə bax: Beşinci bab, birinci fəsil, "Ömərin Peyğəmbərdən (s) və Əbu Bəkrdən sonra ümmətin ən yaxşı olması iddiası".

[1139] İsra, 36

[1140] Saffat, 24

[1141] Məanil-əxbar, Şeyx Səduq, s. 387; Uyunu əxbarir-Rza (ə), Şeyx Səduq, c. 2, s. 280

Peyğəmbər (s) həmin şəxslərin İmam Əliyə (ə) qarşı çıxacaqlarına eyhamla xəbər verir. Onların hamısına Peyğəmbərin (s) *"Ümmətim Qiyamət günü dayandırılıb onun vilayəti barədə sorğu-sual olunacaq"* sözləri şamil olsa da, üçünü xüsusi qeyd edir.

İkinci: Peyğəmbərin (s) iki nəvəsi Həsən və Hüseynin (onlara salam olsun!) bunu Osman haqqında rəvayət etdikləri iddiasına gəldikdə, bu əsla doğru deyil. Kitabın haşiyəsində qeyd etdiyi mənbələrdə həmin rəvayətlərə rast gəlmədik. Halbuki ünvan olaraq "Uyunu əxbarir-Rza", "Məanil-əxbar" və "Təfsirul-Həsən Əsəkəri" kitablarını göstərmişdi! Həmçinin Əhli-Sünnə alimlərindən tərcümeyi-halları yazan müəlliflər Osman haqqında rəvayətlərdə və ya İmam Həsən və Hüseynin (ə) adlarını qeyd edərkən bunu qeyd etməyiblər.[1142]

Üçüncü: İhsan Zahirin Şeyx Kuleyniyə nisbət verib İmam Sadiqin (ə) Osmanı tərifləyinə dəlil göstərdiyi *"Günün əvvəlində səmadan bir carçı belə nida edər..."* rəvayəti də təhrif olunub. Rəvayətin mətnini sizə təqdim edirik:

Şeyx Kuleyni "əl-Kafi"də yazır: *"Muhəmməd ibn Hələbidən: "Əbu-Abdullahın (ə) belə buyurduğunu eşitdim: "Abbas oğullarının ixtilafa düşəcəkləri, səmadan nida və Qaimin zühuru mütləq baş verəcək qəti məsələlərdir". Dedim: "Nida necə olacaq?" Buyurdu: "Günün əvvəlində səmadan bir carçı belə nida edər: "Həqiqətən də, Əli (ə) və tərəfdarları qələbə çalanlardır!" Günün sonunda isə başqa bir carçı səslənər: "Bilin və agah olun ki, qalib gələnlər Osman və tərəfdarlarıdır!"*[1143]

Rəvayətdə İmam Mehdinin (ə.f.) zühur əlamətləri sadalanır. Bu qəti əlamətlərdən biri də səmadan nida ediləcəyidir. Haqq dəvətin sahibini

---

[1142] Bax: Təhzibul-kəmal, Mizzi, c. 6, s. 396, 220; Siyəru əlamin-nübəla, Zəhəbi, c. 3, s. 280, 245; Təhzibut-təhzib, İbn Həcər, c. 2, s. 299, 257

[1143] əl-Kafi, Şeyx Kuleyni, c. 8, s. 310. Bunu həmçinin Şeyx Səduq "Kəmalud-din"də (s. 652), Şeyx Tusi "əl-Ğeybə"də (s. 435), Şeyx Müfid "əl-İrşad"da (s. 371) və Əllamə Məclisi "Biharul-ənvar"da (c. 52, s. 305) rəvayət etmişdir.

açıqlayacaq həmin çağırış həqiqətdə iki dəfə səslənəcək. Birinci dəfə haqq olan İmamı bəyan edəcək. Onun ardınca isə camaatı çaşqınlığa salmaq üçün haqq imamın başqası olduğuna dair başqa bir çağırış səslənəcək.

Bu rəvayətdən görünən, səmadan iki nidanın səslənəcəyidir. Onlardan biri günün əvvəlində, digəri isə sonunda carçı tərəfindən nida olunacaq. Rəvayət bu iki nidanın mahiyyətini də açıqlayaraq birincidə Əli (ə) və şiələrinin, digərində isə Osman və tərəfdarlarının qalib olduqlarının bəyan ediləcəyini bildirir. Özü-özlüyündə rəvayətdə heç bir müşkül yoxdur. Lakin başqa bir rəvayət də var ki, bu iki nidadakı məqsədi daha aydın izah edir. Şiə alimləri Əhli-Beyt imamlarından (ə) səmadan gələn nida ilə bağlı bir çox rəvayət nəql ediblər. Onlardan:

– Şeyx Kuleyni "ər-Ravzatu minəl-Kafi"də Əbdürrəhman ibn Məsləmə Cəriri sənədilə nəql edir: *"İmam Sadiqə (ə) dedim: "Bizə "İki çığırtı (nida) olacaq" sözümüzə görə tənə vurub təkzib edirlər, deyirlər: "Onlar baş verdiyi vaxt hansının haqq, hansının isə batil olduğunu necə biləcəksiniz?" İmam (ə) bizim onlara nə cavab verdiyimizi soruşduqda mən, "heç bir cavab vermirik" dedim. Buyurdu: "Siz belə deyin: "Bu baş verdikdə ona əvvəlcədən iman bəsləyən onu təsdiq edəcək. Uca Allah buyurur:* ***"Doğru yola yönəldən kəs arxasınca gedilməyə daha çox layiqdir, yoxsa doğru yol göstərilmədikcə özü onu tapa bilməyən kəs? Sizə nə olub? Necə mühakimə yürüdürsünüz?"***[1144]

Həmçinin Davud ibn Fərqəd sənədilə rəvayət edir: *"Bir kişi bu hədisdəki "Günün əvvəlində bir carçı nida edərək "Bilin ki, filankəs ibn filankəs və onun tərəfdarları qələbə çalanlardır", sonunda isə "Bilin ki, Osman və tərəfdarları qələbə çalanlardır" sözlərini eşidib dedi: "Bunlardan hansının doğru, hansının yalan olduğunu haradan biləcəyik?" Dedi: "Bu baş verdikdə ona əvvəlcədən iman bəsləyən onu təsdiq edəcək. Uca Allah buyurur:* ***"Doğru yola yönəldən kəs arxasınca gedilməyə daha çox***

[1144] Yunus, 35

layiqdir, yoxsa doğru yol göstərilmədikcə özü onu tapa bilməyən kəs? Sizə nə olub? Necə mühakimə yürüdürsünüz?...”

– Şeyx Səduq “Kəmalud-din”də nəql edir: *“Çadırda, Əbu Cəfərin (ə) yanında əyləşmişdim. Çadırın bir tərəfini qaldırıb buyurdu: “Bizim məsələmiz günəşdən daha aydındır”. Sonra buyurdu: “Səmadan bir carçı nida edərək filan ibn filanın imam olduğunu adını çəkərək söyləyəcək. Sonra Allahın lənətinə gəlmiş İblis yerdən nida edəcək. Necə ki, Əqəbə gecəsi bunu etmişdi”.*[1145]

Həmçinin Əbu Həmzə Somali sənədilə rəvayət edir: *“Əbu Abdullaha (ə) dedim: “(Atan) Əbu Cəfər (ə) Süfyaninin ortaya çıxmasının qəti məsələ olduğunu deyirdi?” Buyurdu: “Bəli, həmçinin Abbas övladlarının ixtilafa düşəcəyi, pak nəfs sahibinin (Nəfsi-zəkiyyənin) qətli və Qaimin zühuru da baş verəcəyi qəti məsələlərdəndir”. Dedim: “Bəs bu nida necə olacaq?” Buyurdu: “Günün əvvəlində bir carçı nida edərək “Bilin ki, haqq Əli və tərəfdarları ilədir!” deyəcək. Günün axırında isə Allahın lənətinə gəlmiş İblis “Bilin ki, haqq Süfyan və tərəfdarları ilədir!” deyə car çəkəcək. Bu zaman batil əhli şübhəyə düşəcək”.*[1146]

Eləcə də Nümani “əl-Ğeybə” kitabında Zürarə ibn Əyun sənədilə rəvayət edir: *“Əbu Abdullahın (ə) belə buyurduğunu eşitdim: “Bir carçı səmadan belə nida edəcək: “Əmir filan şəxsdir!” Başqa bir carçı da “Əli və şiələri qalib olanlardır!” deyə səslənəcək”. Dedim: “Bundan sonra Mehdi ilə kim döyüşəcək?” Buyurdu: “Şeytan nida çəkəcək və Bəni-Üməyyədən olan bir nəfərin adını söyləyib “Filankəs və tərəfdarları qalib olanlardır!” deyə səslənəcək”. Mən doğru ilə yalançının necə müəyyən ediləcəyini soruşduqda buyurdu: “Bizim hədislərimizi rəvayət edən şəxslər bunu müəyyən edə*

[1145] Kəmalud-din və təmamun-niməti, Şeyx Səduq, s. 650
[1146] Kəmalud-din və təmamun-niməti, Şeyx Səduq, s. 652

biləcəklər. Onlar deyəcəklər: "Bu baş verməzdən əvvəl bildirilmişdi". Bununla bir daha özlərinin haqq və doğru olduqlarını anlayacaqlar".[1147]

Bu rəvayətlərlə həmin rəvayəti qarşılaşdırdıqda İmam Əlinin (ə) əqidə nümunəsi ilə (istiqamətilə) Osmanın nümunəsinin (istiqamətinin) bir-birinə zidd olduğu, əsla bir yerə sığmadığı aydın olur. Haqq isə (iki çağırışdan) yalnız biri ilədir.

İhsan Zahirin məqsədi nəticə vermədi. Əksinə, onun istəyinin ziddi rəvayətlərdə bəyan edildi. Belə ki, günün sonunda İblis camaatı şübhəyə salmaq üçün Osmanın tərəfdarlarının qalib olduqlarını söyləyəcək. Nidanın İblis tərəfindən səslənməsi isə Osmanın adının mənfi cəhətdən hallanmasını təsdiqləyir.

Dördüncü: İhsan Zahirin Şeyx Kuleyniyə nisbət verdiyi *"Öz imanlı yoldaşlarının yanına get, Məkkənin tezliklə fəthilə bağlı onlara müjdə ver"* rəvayəti və İmam Sadiqin (ə) Peyğəmbərin (s) yanında Osmanın məqamını açıqlaması da doğru dəlil deyil. Belə ki, rəvayət iddiadan uzaqdır. İhsan Zahir onun bir hissəsini kəsərək öz iddiasına münasib hala gətirib. Rəvayətin tam mətnini sizə təqdim edirik:

Şeyx Kuleyni "əl-Kafi"də Müaviyə ibn Əmmar sənədilə Əbu Abdullahdan (ə) nəql edir: *"Peyğəmbər Zül-qəədə ayında Hüdeybiyyə qəzvəsinə çıxdı... Peyğəmbər (s) Öməri göndərmək istəyirdi. O dedi: "Ya Peyğəmbər, mənim qohum-əqrabam azdır, onların yanındakı vəziyyətimi də bilərsən. Mən Osman ibn Əffanı göndərməyini təklif edərdim". Peyğəmbər (s) Osmanın ardınca adam göndərib buyurdu: "Öz iman yoldaşlarının yanına get, Məkkənin tezliklə fəthilə bağlı onlara müjdə ver..."*[1148]

Rəvayətdə Peyğəmbərin (s) Məkkədəki möminləri Allahın fəth vədilə müjdələməyə başqa bir şəxsi göndərmək istədiyi açıq qeyd edilir. Ömər ibn Xəttab getməmək üçün qohum-əqrabasının sayının azlığını,

---

[1147] Kitabul-ğeybə, Muhəmməd ibn İbrahim Nümani, s. 272-273

[1148] əl-Kafi, Şeyx Kuleyni, c. 8, s. 322-326

məkkəlilərin arasında nüfuzunun olmamasını səbəb göstərərək Məkkənin hakimiyyətini əlində saxlayan, şirkin başı və müşriklərin rəhbərləri olan Əməvilərin yanındakı etibarına görə Osman ibn Əffanı oraya göndərməyi təklif edir. Burada İmam Sadiqin (ə) Osmanın məqamını bəyan etməsi haradadır?!

Osmanın Kəbəni təvaf etməməsi Peyğəmbərin (s) orada olmamasından təəssüf keçirdiyinə dəlalət etmir. Bəlkə də o, əhəmiyyətsiz saydığından bunu etməyib. Hər iki iddianın sübuta ehtiyacı var.

Əgər Kəbəni təvaf etməsi vacib idisə, onu tərk etməsi heç də üzrlü sayılmaz. Əgər vacib deyildisə, İhsan Zahirin **"Məgər Məscidul-həramın ərazisinə daxil olub, ağası və mövlası Peyğəmbər (s) təvaf etmədiyi üçün özü də təvaf etməyən şəxsin itaət və sədaqətinə şübhə ola bilərmi?!"**[1149] sözü ilə Peyğəmbərin (s) orada olmamasını səbəb kimi vurğulaması da yersizdir.

Bəli, burada onun "itaətindən" üstün bir itaət var. Bir kişi Peyğəmbərin (s) canı müqabilində özünü Allaha satır. Məqsədi də yalnız Allahın razılığıdır. Öz istəyi yoxdur, öz istəklərindən Rəbbinin istəyi müqabilində imtina edib, yalnız Onun razılığını axtarır, haqqı yaşatmaq və bəşəriyyətə xoş həyat bəxş etmək istəyir. Müsəlman alimləri bir çox yerdə Möminlərin əmiri Əlinin (ə) öz canını Peyğəmbər (s) yolunda fəda etdiyini bildiriblər. Buna misal olaraq Peyğəmbərin (s) Mədinəyə doğru hicrət etdiyi gecəni göstərmək olar. Müşriklər həmin gecə Peyğəmbəri (s) xaincəsinə öldürməyə qərar vermiş, Cəbrail (ə) də bunu ona bildirmişdi. Peyğəmbər (s) İmam Əlidən (ə) onun yaşıl əbasını geyinərək yerində yatmasını istəmişdi. Bu vaxt Uca Allah aşağıdakı ayəni endirmişdi: ***"İnsanların eləsi də var ki, Allahın razılığını qazanmaq yolunda (Allah***

[1149] Şiə və Əhli-Beyt, s. 142

rizası üçün) öz canını fəda edər. Allah Öz bəndələrinə qarşı çox mehribandır!"[1150]

5. Möminlərin əmiri Əlinin (ə) Osmana beyət etdiyi iddiası

İhsan Zahir iddia edir ki, İmam (ə) Osmanın xəlifəliyini qanunu və düzgün hesab edirdi. Buna "Nəhcül-Bəlağə"dən, İbn Sədin "ət-Təbəqat"ından, Buxarinin "Səhih"indən, Şeyx Tusinin "əl-Əmali"sindəki rəvayətdən bir parçanı, İbn Əbülhədidin "Şərh"indən, "Lisanul-mulk" kimi tanınan Muhəmməd Təqinin "Nasixut-təvarix"indən dəlillər sadalayır.

[1150] Bəqərə, 207

"Yataq" və ya "Məbit" hədisi İmamın (ə) hicrət gecəsi Peyğəmbərin (s) yerinə onun yatağında uzandığı hadisə ilə bağlıdır. Bu hədis müsəlmanların üzərində həmfikir olduqları səhih hədislərdəndir. İbn Əbülhədid öz şeyxi Əbu Cəfərdən Cahizin "Mağara hadisəsi, Əbu Bəkrin Peyğəmbərlə (s) birlikdə hicrəti, yol yoldaşı olması və bu barədə Quranda ayə nazil edilməsi... Peyğəmbərin (s) yerinə onun yatağında uzanması əmri isə yalnız hədisdə qeyd olunur" sözünün inkarı məqsədilə belə nəql edir: "Bunların arasında şübhəsiz fərq var. "Məbit" hədisinin mütəvatirliyi sübuta yetib. Mütəvatir hədislə Kitabda qeyd edilən hadisənin arasında heç bir fərq yoxdur. Bunu yalnız məcnun və ya ümmətdən kənar bir kəs inkar edə bilər. Gündəlik namazların beş, qızılın zəkatının ¼, mədədən çıxan yelin dəstəmazı pozması kimi hökmlər öz təvatürlüyü ilə məlum deyillərmi?! Məgər onlar Quranın hökmlərinə müxalifdirlərmi?! Əlbəttə ki, bunu ağıllı və düzgün bir şəxs əsla iddia etməz.

Halbuki Uca Allah Quranda Əbu Bəkrin adını da açıq şəkildə çəkmir. Onun barəsində yalnız ***"yoldaşına dedi:"*** buyurur. Biz həmin şəxsin Əbu Bəkr olduğunu da məhz həmin rəvayətlərdən və tarixdən öyrənirik. Təfsir əhlinin Uca Allahın ***"...hiylə qururdular. Allah da (onların bu hiyləsinə qarşı) tədbir tökürdü. Allah (gizli hiylə quranlara, məkr edənlərə qarşı) tədbir tökənlərin ən yaxşısıdır!""*** ayəsi barədə "bu, Əli (ə) barədə nazil olub. Əli (ə) onlara hiylə qurmuşdu" dediyinin şahidi oluruq. Halbuki ayənin əvvəlindəki ***"Yadına sal ki, bir zaman kafirlər səni həbs etmək və ya öldürmək, yaxud da (Məkkədən) çıxardıb qovmaq üçün sənə qarşı hiylə qururdular. Allah da (onların bu hiyləsinə qarşı) tədbir tökürdü. Allah (gizli hiylə quranlara, məkr edənlərə qarşı) tədbir tökənlərin ən yaxşısıdır!"*** (Ənfal, 30) sözləri hicrət gecəsində nazil olub. Onların hiyləsi Qüreyşin qəlbinə qılınclarını sancmaq idi. Allah da tədbirini tökdü, Əlini Peyğəmbərin (s) yatağına yatırdı. Quranda bu iki hadisənin açıq deyil, yalnız işarə ilə qeyd edilməsində heç bir fərq yoxdur. Belə ki, Quran təfsirçilərinin hamısı ***"İnsanların eləsi də var ki, Allahın razılığını qazanmaq yolunda (Allah rizası üçün) öz canını fəda edər. Allah Öz bəndələrinə qarşı çox mehribandır!"*** ayəsinin Məbit gecəsi Peyğəmbərin (s) yatağına uzanmış Əli (ə) barədə endiyini qeyd ediblər". (Şərhu Nəhcül-Bəlağə, İbn Əbülhədid, c. 13, s. 261)

Deyir: **“Əli Osmanın imamlıq və xəlifəliyini qanuni hesab edirdi. Çünki mühacir və ənsar onun barəsində icma etmişdilər. Əli onun xəlifəliyinə Allahın razı olduğunu düşünürdü. Bütün bunlardan sonra heç kəsin ona beyətdən boyun qaçırmağa və ya rəhbərliyini inkar etməyə ixtiyarı yox idi. Necə ki, Müaviyə ibn Əbu Süfyana etiraz xarakteri daşıyan xütbəsində deyir: “Məşvərət aparmaq mühacirlərin və ənsarın haqqıdır. Onlar toplaşaraq bir nəfəri xəlifə və imam adlandırsalar, Allahın razılığı da həmin işdə olar. Əgər kimsə (xəlifədə) eyib və nöqsan tapması səbəbindən və ya bidət nəticəsində onların əmrlərindən boyun qaçırsa, onu itaət etməyə vadar edərlər. Əgər onların göstərişlərini qəbul etməsə, onunla möminlərin yolundan başqa bir yol ilə getdiyi üçün vuruşarlar. Allah (da) onu üz tutduğu şeyin öhdəsinə buraxar” (Nəhcül-Bəlağə, s. 368, Sübhinin təhqiqi ilə).**

O, müsəlmanların xəlifəsini və möminlərin əmirini seçmək üçün Ömərin təyin etdiyi altı nəfərlik şuradakı şəxslərdən biri idi. Əbdürrəhman ibn Ovf (r) mühacir və ənsarın rəy sahibləri ilə məsləhətləşdikdən, onların yekdilliklə Osmandan başqasına beyət etmək istəmədiklərini gördükdən sonra ona ilk beyət edən şəxs oldu. Ardınca isə Əli ibn Əbu Talib (r) beyət etdi. Deyir: “Osmana ilk beyət edən şəxs Əbdürrəhman ibn Ovf, sonra isə Əli ibn Əbu Talib idi” (ət-Təbəqat, İbn Səd, c. 3, s. 42; həmçinin: Buxari, “Osmana beyət” fəsli).

Bunu həmçinin Əli Mürtəza da (r) qeyd edir: “Qətlinə səbəb olan zərbə endirildikdə Ömər məni altı nəfərin altıncısı qərar verdi. Məni Şuraya daxil etdiyi üçün iştirak etdim. Müsəlmanların arasında ixtilaf salıb, cəmiyyətdə təfriqə yaratmaq istəmədim. Siz Osmana beyət edəndə mən də beyət etdim” (əl-Əmali, Tusi, c. 2, s. 18; s. 121, Nəcəf çapı).

Eləcə də deyir: "Siz mənim xəlifəliyə digərlərindən daha çox haqqımın olduğunu bilirsiniz. Lakin yalnız müsəlmanlara xoş olduğu, müsəlmanların təhlükəsizliyinin və rifahının həmin işdən asılı olduğunu bildikdə mən də özümü xoşhal hiss edirəm. Mən Rəbbimin mükafatını diləyib buna səbr etməyə hazıram" (Nəhcül-Bəlağə, s. 102).

Şiə İbn Əbülhədid öz "Şərh"ində bu sözlərin ardından Əbdürrəhman ibn Ovfun Əliyə belə dediyini yazır: "Beyət et, əgər beyət etməsən möminlərin yolundan başqa bir yolu izləmiş olacaqsan... Əli dedi: "Siz mənim xəlifəliyə digərlərindən daha çox haqqımın olduğunu bilirsiniz..." Sonra isə əlini uzadıb beyət etdi" (İbn Əbülhədid, "Şərhu Nəhcül-Bəlağə"; həmçinin "Nasixut-təvarix", c. 2, s. 449, İran çapı)".[1151]

Cavab:

Ötən bəhslərdə də qeyd etdiyimiz kimi, Əhli-Beyt (ə) Möminlərin əmirindən (ə) önə keçən şəxslərin rəhbərliyini düzgün və qanuni hesab etmirdi. Osmanın əməlləri və pis rəftarları əvvəllər onun hakimiyyətini qanuni sayanların sözlərini belə puça çıxardı. Burada həmin söhbətləri təkrarlamaq istəmirik. Lakin İmam Əlinin (ə) Osmanın hakimiyyətini qanuni saydığı barədə İhsan Zahirin iddialarını, iddiasına göstərdiyi dəlilləri təhlil və müzakirə etmək, dəlil olmaq səlahiyyətlərinə nəzər salmaq istəyirik. Bunu iki məsələ çərçivəsində edəcəyik:

A. Mühacir və ənsarın icmasının, şuranın və beyətin dəlil olması

[1151] Şiə və Əhli-Beyt, s. 143

İhsan Zahir İmam Əlinin (ə) Osmanın hakimiyyətini qanuni gördüyünə "Nəhcül-Bəlağə"dən dəlil təqdim edir.[1152] Həmin dəlilin xülasəsi budur ki, İmam (ə) cavab məktubunda Müaviyəyə mühacir və ənsarın icmasını, şura və beyəti arqument kimi təqdim edir. İddia da budur ki, İmam Əli (ə) özündən əvvəlki seçimləri qanuni hesab edirdi. Həmin məktubda deyilir: *"Əbu Bəkr, Ömər və Osmanla beyət edənlər həmin yolla mənimlə beyət edərək əhd-peyman bağladılar. Odur ki, orada* (beyətdə) *olanların ondan başqasını seçmək haqları yoxdur. Orda olmayanın da* (sənin kimilərin də) *onu qəbul etməmək haqqı yoxdur. Məşvərət aparmaq mühacirlərin və ənsarın haqqıdır. Onlar toplaşaraq bir nəfəri xəlifə və imam adlandırsalar, Allahın razılığı da həmin işdə olar. Əgər kimsə* (xəlifədə) *eyib və nöqsan tapması səbəbindən və ya bidət nəticəsində əmrlərindən boyun qaçırsa, onu itaət etməyə vadar edərlər. Əgər onların göstərişlərini qəbul etməsə, onunla möminlərin yolundan başqa bir yol ilə getdiyi üçün vuruşarlar".*[1153]

Müzakirə

Bu iddiaya cavab verməzdən əvvəl qeyd edək ki, "Nəhcül-Bəlağə" Seyyid Rəzinin ən məşhur kitabıdır. Müəllif hədis, tarix və seyr məcmuəsi deyil, ədəbiyyat xəzinəsi nümunəsi məqsədilə bu kitabı qələmə alıb. Müəllifin ilk hədəfi İmamın (ə) kəlmələrindəki gözəl fəsahət və bəlağət nümunələrini bir yerə toplamaq olmuşdur. O səbəbdən də Seyyid Rəzi həm şiə, həm də Əhli-Sünnə məzhəbinin mənbələrində İmama (ə) istinad edilən rəvayətlərdən istifadə edib, lakin sənəd və mənbələrini yazmayıb. Bəzən İmam Əlinin (ə) məktub və xütbələrindəki ən üstün dərəcədə bəlağətli hissələrini nəql edir, digər hissəsini isə tərk edirdi. Bizim müzakirə etdiyimiz bu mətn də həmin qəbildəndir. Seyyid Rəzi öz

---

[1152] İhsan Zahir deyir: **"Əli Osmanın imamlıq və xəlifəliyini qanuni hesab edirdi. Çünki mühacir və ənsar onun barəsində icma etmişdilər. Əli onun xəlifəliyinə Allahın razı olduğunu düşünürdü".** (Şiə və Əhli-Beyt, s. 143)

[1153] Nəhcül-Bəlağə, c. 3, s. 7, Şeyx Muhəmməd Əbdəhin təhqiq və şərhilə

məqsədinə uyğun parçanı kitaba yazmış, ardını isə tərk etmişdir. Ona görə də, mətni dəlil kimi təqdim etmək istəyən şəxs, Peyğəmbərə (s), İmamlara (ə) və ya səhabələrə nisbət verilən digər mətnlərdə olduğu kimi, onun əslinə müraciət etməli, sənədini araşdırmalıdır.

İhsan Zahirin "Nəhcül-Bəlağə" kitabından nəql etdiyi, Möminlərin əmiri (ə) ilə Müaviyənin arasındakı bu məktublaşmanı dəlil göstərməsi üçün Şərif Rəzinin məktubunun əslinin qeyd edildiyi mənbəyə müraciət etməsi lazım idi (əks təqdirdə bu, mürsəl rəvayət hökmündə olacaq).

Məktubun tam mətnlə qeyd olunduğu əlimizdəki ən qədim nüsxə Nəsr ibn Müzahimin (vəfatı: h.q 212) "Vaqətu Siffin" ("Siffin savaşı") kitabıdır. Ona istinadla İbn Əsakir (vəfatı: h.q 571) "Tarixu mədinəti Diməşq"də,[1154] həmçinin "İbn Qüteybə Dinəvəri (vəfatı: h.q 276) "əl-İmamtu vəs-siyasə"də,[1155] Əhməd ibn Əsəm Kufi (vəfatı: h.q 314) "Kitabul-fütuh"da[1156] və Müvəffəq Xəvarəzmi (vəfatı: h.q 568) "əl-Mənaqib"də[1157] nəql ediblər.

Nəsr ibn Müzahimin kitabına əsasən, məktubun tam mətni belədir: *"Ömər ibn Səd Ümeyr ibn Vələdən, o da Amir Şəbidən rəvayət edir ki, Əli (ə) Bəsrədən qayıtdıqda Cəriri Həmədandan çıxardı. Gəlib Kufəyə yetişdi. Müaviyənin yanına elçi göndərmək istədikdə Cərir dedi: "Müaviyənin yanına məni göndər... Əli (ə) onu göndərdi... Cərir yola düşüb Şama yetişdi, Müaviyənin yanına getdi... Əli ibn Əbu Talibin məktubunu ona verdi. Məktubda yazılırdı:*

"Rəhman və Rəhim Allahın adı ilə!

Allahın qulu Möminlərin əmiri Əlidən Müaviyə ibn Əbu Süfyana.

Sən Şamda olsan da, mənə beyət etməyin vacibdir. Çünki Əbu Bəkr, Ömər və Osmanla beyət edənlər (onları xilafətə təyin edənlər) *həmin yolla mənimlə beyət edərək əhd-peyman bağladılar. Odur ki, orada* (beyətdə)

[1154] Tarixu mədinəti Dəməşq, İbn Əsakir, c. 59, s. 128

[1155] əl-İmamətu vəs-siyasə, İbn Qüteybə Dinəvəri, c. 1, s. 84-85

[1156] Kitabul-fütuh, Əhməd ibn Əsəm Kufi, c. 2, s. 494

[1157] əl-Mənaqib, Müvəffəq Xəvarəzmi, s. 202-203

olanların ondan başqasını seçmək haqları yoxdur. Orda olmayanın da (sənin kimilərin də) *onu qəbul etməmək haqqı yoxdur. Məşvərət aparmaq mühacirlərin və ənsarın haqqıdır. Onlar toplaşaraq bir nəfəri xəlifə və imam adlandırsalar, razılıq da bunda olar. Əgər kimsə* (xəlifədə) *eyib və nöqsan tapması və ya bidət nəticəsində onların əmrlərindən boyun qaçırsa, onu itaət etməyə vadar edərlər. Əgər* (öyüd-nəsihət fayda verməsə və) *onların göstərişlərini qəbul etməsə, onunla möminlərin yolundan başqa bir yol ilə getdiyi üçün vuruşarlar. Allah* (da) *onu üz tutduğu şeyin öhdəsinə buraxar, onu Cəhənnəmə atar. Ora necə də pis yerdir!*

Həqiqətən də, Təlhə və Zübeyr mənə beyət etdikdən sonra beyətlərini pozdular. Beyətlərini pozmaları onların boyun qaçırması idi. Buna görə də onlara qarşı mübarizə apardım. Ta ki, onlar istəməsələr də, haqq qalib gəldi, Allahın əmri bərqərar oldu. Sən də müsəlmanların daxil olduqları beyəti qəbul et. Həqiqətən də, mən səni bağışlamaq istəyirəm, əks təqdirdə sən bəlalarla üzləşəcəksən. Əgər müqavimət göstərsən sənlə savaşacaq və sənə qarşı Allahdan yardım diləyəcəyəm.

Sən Osmanın qatilləri barədə söz-söhbət ortaya atmısan. Camaatın qəbul etdiyini sən də qəbul et. Sonra bir dəstəni hakim seç, sən də, onlar da (Osmanın qatilləri) də məhkəmənin qarşısına çıxın və aranızda Allahın kitabı ilə hökm olunsun.

Ey Müaviyə, ancaq sənin söylədiklərin süddən boyun qaçıran uşaq aldatmasıdır. Canıma and olsun, əgər ağlına müraciət etsən və nəfsi istəklərinə göz yumsan, görərsən ki, mən Osmanın qanı məsələsində Qüreyşin ən təmiz adamıyam.

Ey Müaviyə, bil ki, sən xilafətin halal olmadığı tüləqalardansan. Onlar şuraya heç vaxt daxil olmazlar. Mən sənə də, səndən əvvəlkilərə də Cərir ibn

Abdullahı elçi olaraq göndərdim. O, iman sahibi və hicrət etmiş şəxslərdəndir. Beyət et! Allahdan savayı güc yoxdur".[1158]

Bu məktubu dəlil göstərmək bir neçə cəhətdən batildir:

Birinci: Məktubun məzmunu bir kəsin özünə vacib bildiyini özünə qarşı istifadə etmək qəbilindəndir. İmam Əlinin (ə) sözləri Müaviyənin höccət bilib qəbul etdiyi təməllərə əsaslanmışdır. Bu, ağıl sahiblərinin də nəzərində məqbul metoddur. İmam (ə) Müaviyəyə demək istəyir ki, Şamda olsan da, mənə Mədində edilən beyətə sənin də qoşulmağın lazımdır. Necə ki, sən Şamda olduğun halda Osmana beyət edildikdə həmin beyəti qəbul etmişdin. Həmçinin Əbu Bəkr və Ömərə edilən beyətdə də sənin kimi Mədinədən kənarda yaşayan şəxslərin beyət etmələri vacib idi. Eləcə də mənim beyətim də bu cürdür. Sən Şamda olsan da, mənə beyət etməlisən.

Həmçinin Əbu Bəkrə, Ömərə və Osmana beyət edən şəxslər mənə beyət ediblər. Sən də həmin şəxslər tərəfindən ilk üç xəlifəyə edilən beyəti qanuni sayırsan. Ona görə də onların bu seçimini də qəbul etməlisən.

Sizin etiqadınıza görə, əgər bir şəxs barəsində bu cür beyət həyata keçibsə artıq nə orada iştirak edənlərin və nə də kənarda olanların boyun qaçırmağa və ya başqa seçim etməyə haqları yoxdur. Bu sözləriniz mənim barəmdə də keçərlidir, müsəlmanların icması ilə mənə beyət olunduğu halda bundan boyun qaçıra bilməzsiniz.

Siz, həmçinin (məşvərət üçün) mühacir və ənsarın şurasını vacib sayırsınız. Bütün mühacir və ənsar artıq mənə beyət edib. Ey Müaviyə, əgər hansısa eyib və ya başqa məqsədlə beyətimdən boyun qaçırsan səni həmin beyətə geri qaytarmağa vadar etmək vacibdir. Əgər bunu rədd etsən, səninlə savaşmalıyıq. Çünki sən, möminlərin yolundan kənar bir

---

[1158] Vaqətu Siffin, İbn Müzahim Munqəri, s. 27-30; əl-İmamətu vəs-siyasə, İbn Qüteybə Dinəvəri, c. 1, s. 84-85; əl-Mənaqib, Müvəffəq Xəvarəzmi, s. 202-203; Tarixu mədinəti Dəməşq, c. 59, s. 128

yol tutmuş olursan. Nəticədə Cəhənnəmə atılacaqsan ki, ora necə də pis yerdir!

İmam Əli (ə) tərəfindən söylənən bu tələblər Müaviyə və onun kimilərin özlərini bağlı bildikləri əqidə və tələblər çərçivəsindədir. Onlar bu tələblər çərçivəsində əvvəlki xəlifələrə beyət etmişdilər. İmamın (ə) istifadə etdiyi üslub tam məqbuldur. Bu, rəqibin höccət saydıqlarını özünə qarşı istifadə etmək üslubudur.

İkinci: Müaviyə Möminlərin əmiri Əlidən (ə) əvvəlkilərin xəlifəliyini doğru saydığını inkar etmir. Nəinki o, onunla eyni zamanda yaşayanlardan heç biri belə bir iddia ilə çıxış etməyiblər. Aralarında Müaviyə də olmaqla, onların hamısı yazılan bu məktubdan Müaviyənin qəbul etdiyi tələblərə əsasən, beyət etməli olduğunu anlayırlar. Belə ki, tarix və seyr müəllifləri İmamın (ə) bu məktubuna Müaviyənin cavabını da nəql ediblər. O, məktubunda əvvəlki xəlifələrin seçim qaydalarından heç bir şeyi inkar etmir.[1159]

Üçüncü: Mühacir və ənsarın qeyd edilən icması yalnız Möminlərin əmiri Əlinin (ə) xəlifə seçimində baş tutdu. Belə ki, Osmanın öldürülməsindən sonra hamılıqla ona beyət edildi. Lakin özündən əvvəlkilər xəlifə seçildiyi zaman belə bir icma yaşanmadı. Birinci xəlifəyə ilk dəfə bir neçə şəxs tərəfindən Bəni-Saidə Səqifəsində beyət olundu. Onların sayı isə barmaqların sayından artıq deyildi. İkinci xəlifənin seçimində isə ümumiyyətlə beyət hadisəsi olmadı. Birinci xəlifə onu təyin etdi. Osmanın seçimində altı nəfərlik şuranın beyəti başlıca rol oynadı. Onlardan da yalnız üçü seçimdə Osmana səs verdi. Mizzi "Təhzibul-kəmal"da Möminlərin əmiri Əlinin (ə) tərcümeyi-halında Əbu Ömərdən nəql edir: *"Osman öldürüldüyü gün Əlinin (r) xəlifəliyinə beyət olundu. Mühacir və ənsar onun beyətində icma etdilər. Ona beyətdən ümumilikdə*

[1159] Bax: Tarixu mədinəti Dəməşq, İbn Əsakir, c. 59, 133. İbn Əsakir Müaviyənin bu məktuba cavabını tam şəkildə nəql edib.

bir-iki nəfər boyun qaçırdı. Lakin Əli (r) onların üzərinə nə hücum çəkdi, nə də beyətə məcbur etdi. Onlar barəsində Əlidən (r) soruşulduqda dedi: "Onlar haqdan kənar düşən, batillə əlbir olmayan dəstədir". Başqa bir rəvayətdə isə deyilir: "Onlar haqqı tərk edib, batilə yardım etməyən kəslərdir".[1160]

"Nəhcül-Bəlağə"də İmam Əlinin (ə) dilindən özünə olunan beyət belə vəsf edilir: *"(Osmanın öldürülməsindən) sonra kaftarın boynunun tükü tək camaatın məni dövrəyə almasından başqa heç nə məni bu çətin və böyük işə vadar etmədi. Hər tərəfdən üstümə elə hücum çəkdilər ki, izdihamdan, camaatın çoxluğundan Həsən və Hüseyn ayaqlar altında qaldılar. Paltarım və əbam hər iki tərəfdən cırıldı, (beyət etmək üçün) qoyun sürüsü kimi məni dövrəyə aldılar. Mən xəlifəliyi qəbul etdikdə isə bir dəstə beyətini pozdu, bir dəstəsi beyətdən çıxdı, digər bir dəstə də itaətdən boyun qaçırdı".*[1161]

Dördüncü: Əhli-Beytin (ə) xilafətlə bağlı əqidəsi bir məktubun məzmunu ilə ziddiyyətə düşməkdən çox daha aydındır. Əhli-Beytin (ə) sözləri haqında azca məlumatı olan şəxs onların özləri barədə ilahi imamətə, peyğəmbərlikdə olduğu kimi onlara itaətin vacibliyinə, Peyğəmbərdən (s) sonra imamın təyin olunduğuna etiqad bəslədiklərini aydın görəcək. Onlar özlərinin qəti dəlillərlə hidayət imamları olduqlarına, bir dəstə adamın onların haqqını qəsb etdiklərinə, Allahın onlar üçün təyin etdiyi məqamı əllərindən aldıqlarına etiqadlı idilər. Onların nəzərinə görə, insanların beyət, şura və ya icma kimi vasitələrlə imam təyin etmək haqları yoxdur. Bunlarla bağlı Əhli-Beyt (ə) davamçıları da qarşı tərəfə Qurandan, səhih sünnədən və əqldən dəlillər təqdim edirlər. Burada həmin mövzuya girmək istəmirik. Çünki həmin mövzuya qədəm qoysaq, öz bəhsimizdən uzaqlaşmış olacağıq. Bütün bu dəlillər bir məktubun məzmunu ilə necə müqayisə oluna bilər?!

[1160] Təhzibul-kəmal, c. 20

[1161] Nəhcül-Bəlağə, İmam Əlinin (ə) "Şiqşiqiyyə" xütbəsi, c. 1, s. 35-36

Qəribədir ki, İhsan Zahir burada "Nəhcül-Bəlağə"dəki məktubun məzmunundan dəlil kimi istifadə edir, lakin həmin kitabda İmam Əlinin (ə) özündən əvvəlki xəlifələr barədəki fikirlərini görməzlikdən gəlir. Həmin fikirlərdən biri "Şiqşiqiyyə"[1162] kimi məşhur olan xütbəsindədir ki,

---

[1162] Orada İmam Əli (ə) buyurur: *"Allaha and olsun ki, Əbu Quhafənin oğlu mənim xəlifəlik üçün dəyirmanın orta qütbü kimi (elmdə və əməldə kamillik baxımından) olduğumu bildiyi halda xəlifəliyi köynək kimi ayninə geydi. Elm və maarif mənim feyz bulağımda sel tək çağlar, elm və bilik səmasında qanad çalanların heç biri mənim zirvəmə çata bilməz. Sonra xəlifəlik köynəyini soyunub, ondan kənara çəkildim. Öz işlərim barəsində fikirləşdim ki, əlsiz (ordu və tərəfdarsız) hücum edim (öz haqqımı tələb edim), yoxsa qocaları həlak edən, gəncləri solduran və qocaldan, möminlərin (fəsadın aradan qalxması üçün) ölüncəyə qədər əziyyət çəkdiyi kor qaranlığa (xalqın azğınlığına) səbr edim. Səbr etməyin ağıllı iş olduğunu görüb, gözlərimi toz, çör-çöp, boğazımı isə sümük tutduğu halda səbr etdim. Mirasımın tarac olunduğunu görürdüm.*

Birincisi (Əbu Bəkr) öz yolunun sonuna çatıb xəlifəliyi-özündən sonra İbn Xəttabın (Ömərin) boynuna atdı...

Çox heyrətamiz və təəccüblüdür ki, sağlığında xalqdan beyətinin geri götürülməsini istəyir. Ancaq ölümünə bir neçə gün qalmış xəlifəliyə Ömari vəsiyyət edir. Bu iki qarətçi xilafəti dəvənin iki döşü kimi öz aralarında böldülər. (Beləliklə, Əbu Bəkr xilafəti) hamar olmayan, sərt yerdə yerləşdirdi (Ömari özündən sonra xəlifə etdi), halbuki Ömər sərt və acıdil idi, onunla görüş əziyyət verici idi və (dini məsələlərdə) səhvləri, (verdiyi səhv fətvalara görə) etdiyi üzürxahlıqları saysız-hesabsız idi. Onunla ünsiyyət cilovunu bərk tutduqda burnunu yaralayıb dağıdan, cilovunu boş tutub, öz başına buraxdıqda isə süvarsini həlak edən dikbaş, itaətsiz dəvəyə minmək kimi idi. Allaha and olsun, onun vaxtında camaat çətinliyə düçar olaraq, səhvə yol verdi və doğru yola qədəm qoymadan haqqdan uzaqlaşdı. Mən də bu uzun müddətdə (on il altı ay) dözdüm və ağır möhnətlə, qəmlə yoldaş oldum.

Ömər də öz yolunun sonuna yetişdi, xilafət məsələsini, məni də onlardan biri güman etdiyi bir neçə adamın arasında ortaya qoydu. İlahi, təşkil olunmuş şuradan və etdikləri məşvərətdən sənə pənah gətirirəm. Camaat məni necə Əbu Bəkrə bərabər tutub, mənə şəkk-şübhə ilə yanaşdı? İş o yerə çatdı ki, o gün belə şəxslərlə (şura üzvü olan beş nəfərlə) bir sırada dayandım. Bununla belə (yenə də səbr edib şurada iştirak etdim) eniş-yoxuşlarda onların ardınca getdim (məsləhətə görə, hər yerdə onlarla razılaşdım). Beləliklə, onlardan biri paxıllıq və kininə görə haqdan əl çəkərək batil yola qədəm qoydu, başqa birisi Osmanın kürəkəni və qohumu olduğundan məndən üz döndərdi. Başqa iki nəfərinsə (Təlhə ilə Zübeyr rəzalət və alçaqlığına görə) adını çəkmək rüsvaylıqdır.

(Ömərin ölümündən sonra, onun göstərişilə yaradılan şurada) qövmün üçüncüsü (Osman) ayağa qalxdı. Yeyib bayıra getməkdən hər iki tərəfini şişirtmişdi və onun atalarının övladları da onunla əlbir idilər. Onun dolaşıq ipi çözülənə qədər iştahlı dəvə bahar otlarının hamısını yediyi kimi Allahın malını yeyirdilər. Rəftarı qətlinin tezləşməsinə, qarnının doluluğu devrilməsinə səbəb oldu.

orada İmam (ə) özündən əvvəlkilərin hakimiyyətinin düzgün olmadığını açıq bəyan edir.

Bütün bunlardan əlavə, qeyd edək ki, həmin məktubun sənədi ravi Amir Şəqbi səbəbilə zəifdir. Dördüncü babın üçüncü fəslində onun barəsində söhbət açmışıq. Oraya müraciət edə bilərsiniz.

Rəvayətin sənədindəki Nümeyr ibn Vələnin adını heç bir rical alimi qeyd etməyib (məchul şəxsdir).

Ömər ibn Səd Əsədiyə gəldikdə, onun da adını heç kəs qeyd etməyib (məchuldur).

B. Əbdürrəhman ibn Ovfun rəy əhli ilə məsləhətləşdikdən sonra beyət etməsi

---

(Osmanın öldürülməsindən) sonra kaftarın boynunun tükü tək camaatın məni dövrəyə almasından başqa heç nə məni bu çətin və böyük işə vadar etmədi. Hər tərəfdən üstümə elə hücum çəkdilər ki, izdihamdan, camaatın çoxluğundan Həsən və Hüseyn ayaq altında qaldılar. Paltarım və əbam hər iki tərəfdən cırıldı, qoyun sürüsü kimi məni dövrəyə aldılar. Beyətlərini qəbul edib xəlifəliyə başladıqda isə bir hissəsi (Təlhə, Zübeyr və başqaları) mənimlə olan beyətlərini pozdu, bir dəstə beyətdən çıxdı, bəziləri isə (Müaviyə və sair şəxslər) itaətdən çıxdılar. Sankı, müxaliflər Uca Allahın ***"Əbədi sarayı məqsədləri yer üzündə ucalıq və fitnə-fəsad törətmək olmayanlar üçün yaratdıq. Gözəl mükafat təqvalılar üçündür"*** *– deyə buyurduğunu eşitməyiblər. Bəli, Allaha and olsun, bu ayəni eşidib və əzbərləyiblər. Lakin dünya onların gözlərini qamaşdırıb və dünyanın zinəti isə onları aldatmışdır.*

Agah olun! Toxumu yaran və insanı xəlq edən Allaha and olsun, bu qədər camaat toplaşmasaydı, höccətin tamam olmasına kömək etməsəydilər, Uca Allahın zalımın doyması və məzlumun ac qalmasına razılaşmamaları üçün üləmalardan aldığı əhd olmasaydı xəlifəlik dəvəsinin yüyənini hər an onun hörgüçünün üstünə atardım, xəlifəliyin sonuna əvvəlcə verdiyim kasada su verərdim. Bilirsiniz ki, sizin bu dünyanız mənim üçün dişi keçinin asqırığı qədər dəyərsizdir.

Deyirlər, Möminlərin əmiri (ə) bu sözləri buyurduqda İraq kəndlilərindən olan bir kişi ayağa qalxaraq ona bir məktub verdi. İmam (ə) məktubu oxumağa başladı. Oxuduqdan sonra İbn Abbas dedi: "Ey Möminlərin əmiri, kaş ki, sözünü kəsdiyin yerdən nitqinə davam edəydin". İmam (ə) buyurdu: "Heyhat, ey İbn Abbas, bu sözlər səslənib, sonra yenidən öz yerində duran dəvənin şiqşiqəsi idi".

İbn Abbas dedi: "Allaha and olsun, mən heç bir sözün kəsilməsinə İmamın (ə) həmin vaxt öz sözünün istədiyi yerə çatdırmadan kəsilməsi qədər kədərlənməmişdim".

İhsan Zahir Əbdürrəhman ibn Ovfun Osmana beyətdən əvvəl mühacir və ənsarın rəy əhli ilə məsləhətləşmə apardığını dəlil göstərir. Onların Osmandan başqasına beyət etməyəcəklərini gördükdə ilk olaraq özü, ardınca da Möminlərin əmiri Əli (ə) Osmana beyət edirlər. Buna Buxarinin və İbn Sədin "ət-Təbəqat"dakı və "Nəhcül-Bəlağə"dəki rəvayətlərini, eləcə də İbn Əbülhədidin "Şərhu Nəhcül-Bəlağə"dəki sözlərini dəlil göstərir.

Cavab:

Bir neçə səbəbdən bu iddia puçdur:

Birinci: İbn Səd və Buxarinin rəvayətlərini dəlil göstərməsi olduqca təəccüblüdür. Hələ heç kəsin dəlil təqdim edərkən Buxari və İbn Sədin rəvayətlərini şiələrin qəbul etməli olduqlarını söylədiyini görməmişdik. Bunun səbəbi isə İhsan Zahirin şiə kitab və mənbələrindən öz iddiasına uyğun dəlil tapmaqda aciz qalmasıdır. Ona görə də Əhli-Sünnə mənbələrinə və ya şiə olduğu isbatlanmayan şəxslərin sözlərinə əl atıb. Halbuki şiə həmin mənbələrdən heç birini özünə dəlil hesab etmir.

İkinci: Şeyx Tusinin "əl-Əmali"sindən göstərdiyi dəlil isə bundan daha çox təəccüblüdür. Belə ki, orada İmamın (ə) altı nəfərlik şuraya daxil olmasından, özündən savayı heç kəsi xəlifəliyə layiq görmədiyi halda Osmana beyət etməsindən savayı heç bir dəlil yoxdur. İmam Əlinin (ə) daxil edildiyi bu altı nəfərlik şuranın Ömər tərəfindən təyin edildiyinə heç kəsin şübhəsi yoxdur. Lakin İhsan Zahirin iddiası budur ki, Əbdürrəhman ibn Ovf mühacir və ənsardan olan rəy əhli ilə məsləhətləşib və onların Osmandan başqasına beyət etməyəcəklərini düşünərək Osmana ilk beyət edən şəxs olmuş, ardınca da İmam Əli (ə) ona beyət etmişdir. Şeyx Tusinin "əl-Əmali"dəki rəvayəti bu iddiadan çox uzaqdır, yaxın-uzaqdan ona heç bir dəlaləti yoxdur.

Həmçinin "Şərhu Nəhcül-Bəlağə"dən göstərdiyi dəlil də bunun kimidir. Orada da ən yaxşı halda İmamın (ə) altı nəfərlik şuraya daxil olduğu və sonda Osmana beyət etdiyi bildirilir. Bəs Əbdürrəhman ibn Ovfun mühacir və ənsarın rəy əhli ilə məsləhətləşməsi, onların Osmandan başqasına beyət etmək istəməmələri, ona beyət edən ilk şəxsin Əbdürrəhman ibn Ovf, ikinci şəxsin isə Möminlərin əmiri Əli (ə) olduğu iddialarının dəlilləri haradadır?!

Şeyx Tusinin rəvayətinin mətnini sizə təqdim edirik:

Şeyx Tusi "əl-Əmali"də Haşim ibn Musahiq yolu ilə onun atasından nəql edir: *"Cəməl savaşında idim. Ordu məğlub olarkən o və aralarında Mərvanın da olduğu Qüreyşdən bir dəstə adam toplaşdılar. Bəziləri deyirdi: "Allaha and olsun ki, bu kişiyə zülm etmişik. Ondan bir pis iş zahir olmadığı halda beyətindən boyun qaçırdıq. Ardınca o bizə qələbə çaldı. Peyğəmbərdən (s) sonra hərəkətlərində ondan kəramətlisini, bağışlamaqda ondan yaxşısını görmədik. Gəlin onun yanına gedək, etdiyimiz əməllərə görə üzr istəyək.*

Onun yanına getdik. Bizdən olan adamlar sözlərini dedikdən sonra buyurdu: "Sakit olun, kifayətdir! Mən də sizlərdən biriyəm. Əgər doğru desəm məni təsdiqləyin, əgər sözlərim doğru olmasa inkar edin. Allahı sizə şahid tuturam, bilmirdiniz ki, Peyğəmbər (s) dünyadan köçəndə mən bütün insanlardan ona ən yaxını idim?"

Dedilər: "İlahi, elədir!"

– Siz isə Əbu Bəkrə beyət edib məni tərk etdiniz. Mən də sizin kimi Əbu Bəkrə beyət etdim. Müsəlmanların arasında ixtilaf salıb, cəmiyyətdə təfriqə yaratmaq istəmədim. Əbu Bəkr özündən sonra onu Ömərə həvalə etdi. Siz yenə də Peyğəmbərə (s) bütün insanlardan daha yaxın olduğumu bilirdiniz. Ömərə beyət etdiyiniz kimi mən də beyət etdim. Etdiyim beyətə də vəfa göstərdim. O, qətlə yetiriləndə məni altı nəfərin altıncısı qərar verdi. Məni Şuraya daxil etdiyi üçün iştirak etdim. (Şuranın aldığı qərara qarşı çıxaraq)

Müsəlmanların arasında ixtilaf salıb, cəmiyyətdə təfriqə yaratmaq istəmədim. Siz Osmana beyət edəndə mən də beyət etdim. Sonra siz Osmana qarşı etiraza qalxıb onu qətlə yetirdiniz. Mən o zaman evimdə oturmuşdum. Sizi çağırmadığım və məcbur etmədiyim halda yanıma gəldiniz, Əbu Bəkrə, Ömərə və Osmana beyət etdiyiniz kimi mənə də beyət etdiniz. Onlara etdiyiniz beyətlə mənə etdiyiniz beyətin arasında fərq qoymağınıza haqqınız varmı?!

– Ey Möminlərin əmiri! Saleh bəndənin dediyi kimi ol: ***"(Yusuf) dedi: "Bu gün sizə (etdiklərimizə görə) heç bir məzəmmət yoxdur. Allah sizi bağışlasın! Çünki O, rəhm edənlərin ən rəhmlisidir!".***[1163]

Mən belə deyirəm: Allah sizi bağışlasın! Çünki O, rəhm edənlərin ən rəhmlisidir! Halbuki sizin aranızda elə adam var ki, mənə əli ilə beyət etsə, arxasını çevirdikdə beyətini pozacaq (məqsədi Mərvan idi)".[1164]

Bu rəvayətdə diqqət edilməli məqam İmamın (ə) *"O qətlə yetiriləndə məni altı nəfərin altıncısı qərar verdi. Məni Şuraya daxil etdiyi üçün iştirak etdim. (Şuranın aldığı qərara qarşı çıxaraq) Müsəlmanların arasında ixtilaf salıb, cəmiyyətdə təfriqə yaratmaq istəmədim. Siz Osmana beyət edəndə mən də beyət etdim"* sözüdür. Göründüyü kimi, İmamın (ə) şuraya daxil olmasına, Osmana beyət etməsinə səbəb onun müsəlmanların arasında ixtilaf salıb, cəmiyyətdə təfriqə yaratmaq istəməməsidir. Amma rəvayətdə Əbdürrəhman ibn Ovfun Osmana beyət etməzdən əvvəl mühacir və ənsarlara məsləhətləşdiyinə dair heç bir işarə yoxdur. Bəs İhsan Zahir belə böyük bir iddiasına bu rəvayəti necə dəlil göstərir?!

Bütün bunlardan savayı, rəvayətin sənədi də zəifdir. Bu baxımdan şiələr üçün qəti dəlil hökmündə deyil. Biz dəfələrlə qeyd etmişik ki, qarşı tərəf dəlil təqdim edilərkən ya hər iki firqənin ortaq qəbul etdiyi, ya da qarşı tərəfin özünə dəlil bildiyi mənbələrə istinad edilməlidir.

[1163] Yusuf, 92

[1164] əl-Əmali, Şeyx Tusi, s. 506-507

Üçüncü: Şərif Rəzinin "Nəhcül-Bəlağə"də nəql etdiyi İmamın (ə) sözlərində İhsan Zahirin iddialarına heç bir dəlalət yoxdur. Əksinə, həmin sözlər onun əleyhinə dəlildir. Seyyid Rəzinin "Nəhcül-Bəlağə"dəki sözlərini sizə təqdim edirik: *"Camaat Osmana beyət etmək əzmində olduğu vaxt İmamın (ə) buyurduğu kəlamlarındandır: "Siz bilirsiniz ki, xəlifəliyə mən hamıdan daha çox layiqəm. Allaha and olsun, müsəlmanların işləri nizam-intizamla davam edənədək və başqasının xilafəti zamanında məndən başqasına zülm olunmayanadək xəlifəliyi (başqasına) buraxıram. Bu, (Allahın məzlumlara ata etdiyi) əcr və savabı əldə etməyə, sizin vurğunu olduğunuz dünya malına, zinətinə (başçılıq və rəhbərliyə) rəğbətim olmadığına görədir".*[1165]

Bu cümlələrdə İmam Əli (ə) Peyğəmbərdən (s) sonra özünün xəlifəliyə daha çox layiq və haqq sahibi gördüyünü, Ömərin şurası tərəfindən məzlum vəziyyətə salındığını, özünə zülm olunsa da müsəlmanların vəhdətini qorumaq üçün susduğunu, bəzilərinin isə dünya, vəzifə və məqam uğrunda mübarizə apardığını bəyan edir.

Bu cümlələrdən İhsan Zahir Əbdürrəhman ibn Ovfun mühacir və ənsarla məsləhətləşdiyini, onların Osmandan savayı heç kimə beyət etmək istəmədiklərini, birinci Əbdürrəhmanın və ardınca da İmam Əlinin (ə) Osmana beyət etdiyini necə anlayıb?! Məgər "Nəhcül-Bəlağə"dəki mətndə buna yaxın-uzaqdan hər hansı bir işarə varmı?! Hərçənd həmin mətn İhsan Zahirin iddiasına da tam ziddir.

Dördüncü: İhsan Zahirin İbn Əbülhədidin rəvayətini dəlil kimi təqdim etdiyi parça İmamla (ə) Əbdürrəhman ibn Ovfun arasında baş tutan uzun dialoqun bir hissəsidir. Həmin rəvayət də onun iddiasının əksinə dəlalət edir. Biz rəvayəti tam şəkildə nəql edəcək, ancaq İbn Əbülhədidin şəxsiyyəti barədə söz açmayacağıq. Belə ki, kitabın bir çox yerində onun

---

[1165] Nəhcül-Bəlağə, Şərif Rəzi, c. 1, s. 124, Şeyx Muhəmməd Əbdəhin təhqiq və şərhilə

şiə alimlərindən və kitabının da şiə mənbələrindən olmadığını dəfələrlə qeyd etmişik. Lakin İhsan Zahirin İslam məzhəbləri barədə cəhaləti və ya özünü cahil kimi göstərməsi səbəbindən İbn Əbülhədidi və onun kimiləri şiə kimi təqdim edir. Əhli-Sünnənin fiqhi məsələlərdə dörd firqəyə ayrıldığı hamıya məlum faktdır. Eləcə də onlar etiqadda da bir neçə qola bölünüblər ki, onlardan ən məşhurları Əşari, Mötəzilə, Maturidi və Əhli-hədisdir. Bu qollardan hər birinin istər fiqhi, istərsə də etiqadi cəhətdən özünəməxsus fikirləri mövcuddur. Necə ki, Mötəziləlilərin də Bağdad və Bəsrə qollarına ayrıldıqları da təhqiqatçılar üçün gizlin deyil. Onların ikisinin arasında əqidə fərqliliklərinə görə bir çox mübahisələr yaşanmışdır. Bağdad mötəziləliləri İmam Əlini (ə) Əbu Bəkr, Ömər və Osmandan üstün sayırdılar. Bu barədə kitabın müqəddiməsində geniş söhbət açmışıq. Oraya müraciət edə bilərsiniz.

Sübuta yetmiş faktdır ki, İbn Əbülhədid Bağdad mötəzililərindəndir. O, öz həmfikirləri kimi İmam Əlini (ə) Əbu Bəkr, Ömər və Osmandan əfzəl hesab edirdi. Görünən budur ki, belə bir faktın özü İhsan Zahirin İbn Əbülhədidi şiə saymasına kifayət edib. Ancaq bu əsla belə deyil. Çünki məzhəb və firqə alimlərinin nəzdində onların arasındakı fərq açıq-aydındır, Mötəzili məzhəbinin Əhli-Sünnənin etiqad məzhəblərindən biri olduğuna və İbn Əbülhədidin də bu məzhəbin alimlərindən sayıldığına şübhələri yoxdur. Alimlərdən heç biri Mötəzilənin şiə məzhəblərindən biri olduğunu vurğulamayıb.

Mötəzili İbn Əbülhədidin "Nəhcül-Bəlağə"nin şərhində yazdığı sözlərini sizə təqdim edirik: *"Osmana beyət etməzdən əvvəl Əlinin söylədikləri.*

Biz burada rəvayətlərə əsasən, onun şura əhli ilə söhbətlərini, onların qarşısında özünü onlardan fərqləndirən və onları kölgəsində qoyan fəzilətlərini və üstün xüsusiyyətlərini sadalamasını qeyd edəcəyik. Bunları çoxları rəvayət ediblər. Bizim səhih hesab etdiyimizə əsasən, məsələ heç də

bəzilərinin nəql etdiyi kimi deyil. Belə ki, Əbdürrəhman ibn Ovf və oradakılar Osmana beyət etdikdə Əli (ə) bu addımı atmaqda bir az əl saxlayıb dedi: "Həqiqətən də, bizim haqqımız var. Əgər bizə geri versəniz, onu götürərik. Əgər məhrum etsəniz, gecənin qaranlığı boyu dəvənin arxa tərəfinə əyləşib gözləyərik".

Tarix və seyr əhli onun bəzi sözlərini qeyd ediblər. Onların bir hissəsinə əvvəldə işarə etdik. Əli (ə) sonra onlara dedi: "Allahı sizə şahid tuturam! Sizin aranızda Peyğəmbərin (s) özü ilə arasında qardaşlıq yaratdığı şəxs varmı?! Belə ki, o, müsəlmanları bir-birlərinə, məni isə özünə qardaş etmişdi".

Dedilər: Xeyr, belə bir kəs yoxdur.

Əli (ə): Sizin aranızda məndən başqa Peyğəmbərin (s) barəsində "Mən kimin mövlasıyamsa Əli də onun mövlasıdır" söylədiyi şəxs varmı?

Dedilər: Xeyr.

Əli (ə): Sizin aranızda məndən başqa Peyğəmbərin (s) barəsində "Sənin mənə nisbətin Harunun Musaya olan nisbətidir. Sadəcə məndən sonra peyğəmbər yoxdur" buyurduğu şəxs varmı?

Şura əhli: Xeyr, yoxdur.

Əli (ə): Sizin aranızda "Bəraət (Tövbə)" surəsinin əmanət edildiyi şəxs varmı?

Şura əhli: Xeyr.

Əli (ə): Məgər bilmirsiniz ki, Peyğəmbərin (s) səhabələri onunla çıxdıqları döyüşlərdə onu tək qoyub fərarilik etdilər, lakin yalnız mən əsla qaçmadım?!

Şura əhli: Bəli, elədir.

Əli (ə): Məgər camaatın arasından ilk iman gətirən şəxsin mən olduğumu bilmirsiniz?

Şura əhli: Bəli, elədir.

Əli (ə): Hansımız Peyğəmbərə (s) qohumluqda daha yaxınıq?

Şura əhli: Əlbəttə ki, sən.

Bu vaxt Əbdürrəhman ibn Ovf onun sözünü kəsib dedi: "Ey Əli, camaat Osmandan başqasına beyət etməyəcəyini deyir. Özünü təhlükəyə salacaq addım atma".

Əli (ə) buyurdu: "Ey Əbu Təlhə, Ömər sənə nə tapşırmışdı? Camaatın birliyini pozan şəxsi öldürməyimi?"

Əbdürrəhman ibn Ovf dedi: "O zaman, beyət et! Yoxsa möminlərin yolundan fərqli bir yol izləmiş olarsan və biz də əmr olunduğumuzu sənin barəndə icra edərik".

Əli (ə) buyurdu: "Həqiqətən də, siz mənim buna hər kəsdən çox haqqım çatdığını bilirsiniz. Allaha and olsun ki,.."

Sonra əlini uzadıb beyət etdi".[1166]

Qeyd edilən hissədəki dəlil Əbdürrəhman ibn Ovfun İmam Əliyə (ə) söylədiyi *"O zaman, beyət et! Yoxsa möminlərin yolundan fərqli bir yol izləmiş olarsan və biz də əmr olunduğumuzu sənin barəndə icra edərik"* sözləridir. Bu sözlər İmamın (ə) ancaq ölümlə təhdid edildikdən sonra Osmana beyət etdiyini və beyət edənlərin sonuncusu olduğunu açıq-aydın bəyan edir. Lakin İhsan Zahir adəti üzrə saxtakarlığa əl ataraq Əbdürrəhman ibn Ovfun İmama (ə) qarşı təhdid dolu *"biz də əmr olunduğumuzu sənin barəndə icra edərik"* sözlərini kəsib atmışdır. Buna İmam (ə) öz sözlərində də işarə edir: *"Əli (ə) buyurdu: "Ey Əbu Təlhə, Ömər sənə nə tapşırmışdı? Camaatın birliyini pozan şəxsi öldürməyimi?" Əbdürrəhman ibn Ovf dedi: "O zaman, beyət et! Yoxsa möminlərin yolundan fərqli bir yol izləmiş olarsan və biz də əmr olunduğumuzu sənin barəndə icra edərik".*

Bu parçada Əbdürrəhman ibn Ovfun Osmana beyət etməzdən əvvəl mühacir və ənsarla məsləhətləşdiyinə heç bir işarə yoxdur. Mətndəki *"camaat Osmandan başqasına beyət etməyəcəyini deyir"* cümləsindəki

---

[1166] Şərhu Nəhcül-Bəlağə, İbn Əbülhədid Mötəzili, c. 6, s. 167-168

“camaat” sözünün mühacir və ənsara şamil olması üçün əlavə izahedici amilə ehtiyac var. Lakin həmin amil rəvayətdə yoxdur. Nəinki, hətta ravilərin heç bir mühacir və ənsarı zikr etmirlər ki, sonradan “camaat” sözü də onlara işarə etsin. Həmçinin əgər həmin camaat mühacir və ənsar olsaydı Əbdürrəhman ibn Ovf sözünün daha da qüvvətli olması üçün bunu xüsusilə qeyd edərdi. Osmana beyət hadisəsi və onunla bağlı söhbətlər bu kitabın ikinci cildinin dördüncü babının üçüncü fəslində geniş qeyd olunub. Oraya müraciət edin.

6. Möminlərin əmiri Əlinin (ə) Osmanın hökumətində iştirak etdiyi iddiası

İhsan Zahir iddia edir ki, Möminlərin əmiri Əli (ə) Osmanın müxlis və vəfalı adamı, onun məsləhətçisi və qazisi idi. Bu iddiasına dəlil olaraq isə Şeyx Müfidin “əl-İrşad”, Şeyx Kuleyninin “əl-Kafi”, Yaqubinin “Tarix” və Şərif Rəzinin “Nəhcül-Bəlağə” əsərindəki rəvayətləri göstərir. İhsan Zahir deyir: **“Əli Osmana vəfalı və ixlaslı idi, Əbu Bəkr və Ömərin xəlifəliyi zamanında olduğu kimi, Osmanın da məsləhətçisi və qazisi idi. Şiə hədisşünas və tarixçiləri Əlinin (r) Zu-nureynin (Osmanın) xəlifəliyi dövründə etdiyi qəzavətlər barədə xüsusi fəsillər ayırmışlar.**

Şeyx Müfid “əl-İrşad” kitabında “Osmanın xilafəti zamanı Əlinin qəzavətləri” başlığı altında Əlinin verdiyi hökmləri Osmanın həyata keçirdiyi barədə bir neçə faktı qeyd edir: “Bir qadın qoca bir kişiyə ərə gedib hamilə qaldı...” (əl-İrşad, s. 113, 122, Qum çapı)

Həmçinin: “Bir kişinin kənizi var idi və ondan övlad dünyaya gətirdi...” (əl-İrşad, s. 113)

Kuleyni öz “Səhih”ində Əbu Cəfər Muhəmməd Baqirdən belə dediyini nəql edir: “Vəlid ibn Üqbənin şərab içdiyinə dair şahidlik edildikdə...” (əl-Kafi fil-furu, c. 7, s. 215, “Şərab içənə vurulacaq cəza həddi” babı)

Yaqubi qeyd edir ki, "Vəlid Osmanın yanına gəldikdə..." (Tarix, şiə Yaqubi, c. 2, s. 165)

Bu rəftar və münasibətlər yalnız Osmanın xəlifəliyini və əmrinin nüfuzunu təsdiq edən, onu qanuni sayan, hökumətində iştirak edən şəxs tərəfindən edilə bilər".

Cavab:

Bundan əvvəldə kitabın bir neçə yerində qeyd etdik ki, Möminlərin əmiri Əlinin (ə) Əbu Bəkr, Ömər və Osmanın xilafəti illərində bəzi məsələlərdə iştirakı heç də onların hakimiyyətinə qanunilik qazandırmır, Peyğəmbər (s) xilafətinə olan haqqını aradan aparmır. Əksinə, bu faktların özü də bir cəhətdən Peyğəmbər Əhli-Beytinin (ə) həmin xilafətə daha çox haqq sahibi olduğunu təsdiqləyir. Bu faktlar Peyğəmbər (s) xəlifəliyini iddia edən həmin şəxslərin elmi kasıblıq və acizliyinə aydın şəkildə işarə edir. Belə ki, bir çox sadə məsələlər qarşısında çətinliyə düşmüş, yanlış hökmlər vermişlər ki, bu da insanların haqsız yerə qətli ilə nəticələnə bilərdi.

Digər cəhətdən də onun bu iştirakı hakimiyyətdə kimin olmasından asılı olmayaraq, müsəlmanların vəhdətinin qorunması düşüncəsindən irəli gəlirdi. Bu baxımdan hazırkı dövrdə qeyri-İslam və ya zalım dövlətlərdə də müsəlmanların vəhdətini qorumaq üçün islami təşkilat və müəssisələr yaradırlar. Belə təşkilatların mövcudluğu həmin hakimiyyətlərə əsla qanunilik donu geyindirmir. Bu zərurət müsəlmanların birliyini qorumaqdan irəli gəlir.

İmamın (ə) özündən əvvəlki xəlifələrin hakimiyyətində iştirakı özündə daşıdığı məsuliyyətdən və müsəlmanlara hamiliyindən irəli gəlirdi. Yoxsa, Peyğəmbər (s) zamanında Allah yolunda cihad eşqi, şücaəti, igidliyi, gücü və müsəlmanları qorumaqdakı fədakarlığı məşhur olduğu halda ilk üç

xəlifə dövründə heç bir fəth və savaşda iştirak etməməsi necə izah oluna bilər?!

İmam Əlinin (ə) bu məsələyə dəlalət edəcək sözlərindən bəzilərinə yuxarıda işarə etdik. Belə ki, özünün Peyğəmbər (s) xilafətinə ən çox haqq sahibi olduğuna təkid etməsinə rəğmən hakimiyyətdə iştirakının sırf müsəlmanların məsləhət və birliyini qorumaq istəyindən irəli gəldiyini bəyan edir: *"Siz bilirsiniz ki, xəlifəliyə mən hamıdan daha çox layiqəm. Allaha and olsun, müsəlmanların işləri nizam-intizamla davam edənədək və başqasının xilafəti zamanında məndən başqasına zülm olunmayanadək xəlifəliyi (başqasına) buraxıram. Bu, (Allahın məzlumlara ata etdiyi) əcr və savabı əldə etməyə, sizin vurğunu olduğunuz dünya malına, zinətinə (başçılıq və rəhbərliyə) rəğbətim olmadığına görədir".*[1167]

Həmçinin qeyd edildi ki, Əhli-Beytin (ə) İmamət nəzəriyyəsinə diqqət yetirən şəxs anlayacaq ki, qəzavətlərdəki iştirakını onların xilafətinin qanuniliyinə dəlil göstərmək əsla mümkün olmayacaq. Belə ki, İmamət nəzəriyyəsində meyar və mərkəz nöqtəsi ilahi imamətin eynilə peyğəmbərlik kimi Allah tərəfindən təyinatına və Peyğəmbərdən (s) sonra imamın müəyyən olunduğuna etiqad bəsləməkdir. İnsanların bu məsələdə şura, icma və ya beyət yolu ilə seçim haqqı yoxdur. Barəsində kifayət qədər dəlillərin olduğu məsələlərdən bir də Əhli-Beytin (ə) həmin təyin edilmiş hidayət imamları olması, bir dəstə şəxsin onların haqqını qəsb etməsi və bununla da Allahın onları təyin etdiyi məqamdan endirmələridir. Bu əqidəni açıq bəyan edən dəlillərdən biri də İmam Əlinin (ə) ümmətə Allahı şahid tutaraq Əhli-Beytin imaməti ilə bağlı Peyğəmbərin (s) əhdlərini xatırlatmasıdır.

Bunlardan biri Rəhbədə baş vermişdi. Əhməd ibn Hənbəl "Müsnəd"də Zazan ibn Ömər sənədilə nəql edir: *"Rəhbədə Əlinin* Qədir-Xum *günü*

[1167] Nəhcül-Bəlağə, Şərif Rəzi, c. 1, s. 124, Şeyx Muhəmməd Əbdəhin təhqiq və şərhilə

Peyğəmbərin (s) söylədiklərini eşidən şəxslərə Allahı şahid tutaraq şahidlik etmələrini istədiyini eşitdim. On üç nəfər ayağa qalxıb Peyğəmbərin (s) Qədir-Xum *günü "Mən kimin mövlasıyamsa Əli də onun mövlasıdır" buyurduğuna şahidlik etdilər".*[1168]

Həmçinin "Müsnəd"də Səid ibn Vəhəb və Zeyd ibn Yəsi sənədilə nəql olunur: *"Əlinin Rəhbədə camaata belə dediyini eşitdik: "Allahı sizə şahid tuturam! Kim Peyğəmbərin (s) Qədir-Xumda söylədiklərini eşitdiyinə şahidlik edib ayağa qalxar? Səid tərəfdən altı və Zeyd tərəfdən də bir o qədər adam ayağa qalxıb* Qədir-Xum *günü Peyğəmbərin (s) Əliyə belə buyurduğuna şahidlik etdilər: "Məgər Allah möminlərə canlarından övla (üstün, ixtiyar sahibi) deyilmi?" Camaat: "Bəli" deyə cavab verdi. Peyğəmbər (s) buyurdu: "Mən kimin mövlasıyamsa (ixtiyar sahibiyəmsə) Əli (ə) də onun mövlasıdır. İlahi, onun dostuna dost, düşmənina düşmən ol!"*[1169]

Eləcə də Əbdürrəhman ibn Əbu Leyla sənədilə rəvayət edir: *"Rəhbədə olarkən Əlinin (r) belə söylədiyinə şahid oldum: "Qədir-Xum günü Peyğəmbərin (s) "Mən kimin mövlasıyamsa Əli də onun mövlasıdır" sözlərini eşidən şəxslərə Allahı şahid tuturam! Ayağa qalxsınlar, şahidlik etsinlər".*

Əbdürrəhman deyir: "Bədrdə iştirak etmiş on iki nəfər ayağa qalxdı. Mən onlardan birinə baxırdım. Dedilər: "Peyğəmbərin (s) Qədir-Xum *günü belə söylədiyinə şahidlik edirik: "Məgər mən möminlərə öz canlarından üstün və zövcələrim də onların anaları deyilmi?" Dedik: "Bəli, ya Peyğəmbər!" Buyurdu: "Mən kimin mövlasıyamsa Əli də onun mövlasıdır! İlahi, onun dostuna dost, düşmənina düşmən ol".*[1170]

Nəsai "Sünən"ində Əbu Əmr sənədilə rəvayət edir: *"Rəhbədə Əlinin səhabələrə Allahı şahid tutaraq* Qədir-Xum *günü Peyğəmbərin (s) söylədiklərinə şahidlik etmələrini istədiyini eşitdim. Bir dəstə adam ayağa*

[1168] Müsnəd, Əhməd ibn Hənbəl, c. 1, s. 84
[1169] Müsnəd, Əhməd ibn Hənbəl, c. 1, s. 118
[1170] Müsnəd, Əhməd ibn Hənbəl, c. 1, s. 119

qalxıb Peyğəmbərin (s) belə buyurduğunu eşitdiklərinə şahidlik etdilər: "Mən kimin mövlasıyamsa Əli də onun mövlasıdır! İlahi, onun dostuna dost, düşmənina düşmən ol, onu sevəni sev, nifrət edənə nifrət bəslə, ona yardım edənə Sən də yardım et!"[1171]

İmam Əlinin (ə) bu şahid tutmalarından biri də Cəməl savaşı ərəfəsində Təlhə ilə söhbətində baş verir. Hakim Nişapuri "Müstədrək"də Rüfaə ibn İyas Zabiy sənədilə onun atasından, o da babasından nəql edir: "Cəməl savaşında Əli ilə birlikdə idik. Təlhə ibn Übeydullahla görüşmək üçün yanına adam göndərdi. Təlhə yanına gəldikdə dedi: "Allahı sənə şahid tuturam, Peyğəmbərin (s) "Mən kimin mövlasıyamsa Əli də onun mövlasıdır! İlahi onun dostunu dost, düşmənini düşmən tut!" buyurduğunu eşitməmisənmi?" Təlhə "Bəli, eşitmişəm" deyə cavab verdi. Bu zaman Əli dedi: "Bəs nə üçün indi mənimlə savaşırsan?" Təlhə bunu unutduğunu söyləyib üzünü çevirib getdi".[1172]

Bunu Hənəfi məzhəbindən olan Əxtab Xəvarəzmi "əl-Mənaqib"də Hakimə[1173] istinadən, İbn Əsakir "Tarix"ində[1174] və İbn Həcər "Təhzib"ində[1175] Nəsainin sənədilə nəql ediblər.

Möminlərin əmiri Əli (ə) tərəfindən Peyğəmbər (s) səhabələrinə yönəlik bu şahidtutma və andvermələr heç də öz xilafəti üçün səs qazanmaq məqsədi daşımırdı. Belə ki, həmin hadisələr artıq onun xəlifə olduğu zamanlarda baş vermişdi. Həmçinin öz hakimiyyətini qüvvətləndirmək hədəfi də güdmürdü. Çünki Peyğəmbərin (s) böyük və möhtərəm səhabələri onunla birlikdə və onun yanında idilər. Məsələnin həqiqəti ümmətə höccəti tamamlamaq, özünün Peyğəmbər (s) tərəfindən şəxsən təyin edilmiş imam olduğunu bəyan edərək isbatlamaq, camaatın

---

[1171] əs-Sünənul-kubra, Nəsai, c. 5, s. 136
[1172] əl-Müstədrəku ələs-səhiheyn, c. 3, s. 371
[1173] əl-Mənaqib, s. 182-183
[1174] Tarixu mədinəti Dəməşq, c. 25, s. 108
[1175] Təhzibut-təhzib, c. 1, s. 342

din və dünya məsələlərini ondan öyrənmələrinin vacibliyini çatdırmaq idi.

"Mən kimin mövlasıyamsa Əli də onun mövlasıdır" hədisi müsəlmanların barəsində həmfikir olduqları hədislərdəndir. İbn Həcər deyir: *"Mən kimin mövlasıyamsa Əli də onun mövlasıdır" hədisini Tirmizi və Nəsai də nəql etmişdir. Rəvayətin olduqca çox rəvayət yolu var. İbn Üqdə onun barəsində xüsusi bir kitab qələmə almışdır. Sənədlərinin əksəriyyəti səhih və həsəndir".*[1176]

Əhli-Beyt (ə) davamçıları da İlahi imamət nəzəriyyəsinə ağıl, Quran və səhih sünnədən dəlillər təqdim edirlər. Burada həmin bəhsə daxil olmaq istəmirik. Çünki bu, bizi bəhsimizdən yayındıracaq.

Şiə alimlərinin İmam Əlidən (ə) əvvəlki xəlifələrin imamlığını puç edəcək məsələləri qeyd etmələrinə gəldikdə, orada ilk üç xəlifənin rəhbərliyinin ilk anlarından etibarən yanlışlığı vurğulanır. Belə ki, əgər o xəlifələrin rəhbərlikləri qanuni idisə, onların sonrakı rəftarları və gətirdikləri yeniliklər həmin imaməti batil və ləğv etmiş olur. Amma bizim məqsədimiz başqadır. Biz burada yalnız İhsan Zahirin iddiasına əsasən, İmam Əlinin (ə) Osmana vəfalı və ixlaslı şəxs olduğunu, məsləhətlər verdiyi və onun üçün qazilik etdiyini, təqdim edilən mənbələrin dəlil olmaq səlahiyyətlərini müzakirə edirik.

A. Şeyx Müfidin "əl-İrşad"ında qeyd edilənlərin dəlil göstərilməsi

İhsan Zahirin iddiasına əsasən, İmam Əlinin (ə) Osmana vəfalı və ixlaslı şəxs olduğuna, məsləhətlər verdiyinə və onun üçün qazilik etdiyinə Şeyx Müfidin "əl-İrşad" kitabından təqdim etdiyi dəlil sənəd və məzmun baxımından səhih deyil.

Rəvayətin sənədi

[1176] Fəthul-Bari, İbn Həcər, c. 7, s. 61

“əl-İrşad”dan nəql edilən rəvayətin hər ikisi mürsəldir (sənədsizdir). Şeyx Müfid İmam Əlinin (ə) Osmanın dövründəki qəzavətlərinə işarə edərək deyir: *“Əhli-Sünnə və Şiə ravilərinin bu barədə nəql etdiklərindən: “Bir qadın qoca bir kişiyə ərə gedib hamilə qaldı. Lakin qoca onunla yaxınlıq etmədiyini və bu səbəbdən uşağın özündən olmadığını iddia etdi. Məsələ Osmana qaranlıq qaldı. Qadından evlənərkən bakirə olub-olmadığını və qocanın onun bakirəliyini pozub-pozmadığını soruşdu. Qadın da bakirə olmadığını və qocanın da onunla cinsi yaxınlıq etmədiyini bildirdi. Osman dedi: “Ona hədd cəzası tətbiq edin!” Bu zaman İmam Əli (ə) buyurdu: “Həqiqətən də, qadınlarda iki ifraz deşiyi var ki, biri sidik, digəri isə heyz qanının ifrazı üçündür. Ola bilər ki, qoca onun yalnız bədəninə toxunmaqla ehtirasını yatırıb, bu zaman onun mənisi qadının heyz kanalına düşüb və qadın da bundan hamilə qalıb”. Qocadan bu barədə soruşulduqda o, belə bir halın baş verdiyini təsdiqlədi. Bu vaxt Möminlərin əmiri Əli (ə) buyurdu: “Demək qadın məhz qocadan hamilə qalıb, uşaq da ondandır. Bunu inkar etdiyinə görə qocanı cəzalandırmaq lazımdır”.*

Osmanın bu hökmdən xoşu gəldi və onun icra edilməsinə göstəriş verdi”.

Rəvayət edirlər ki, bir kişinin kənizi var idi və ondan uşaq dünyaya gətirmişdi. Sonra onu azad edərək köləsi ilə evləndirdi. Ağası dünyasını dəyişdikdə qadın azadlıq əldə etdi. Belə ki, qadının yeni ağası artıq oğlu olmuşdu. Oğul qadının kölə ərinin ağasına çevrildi. Sonra oğlu da dünyasını dəyişdi. Qadın isə miras olaraq kölə ərinin ağasına çevrildi. Bundan sonra onlar Osmanın yanına gələrək aralarında hökm etməsini istədilər. Qadın dedi: “O, mənim köləmdir”. Kişi isə qadının onun zövcəsi olduğunu, ondan imtina etməyi düşünmədiyini bildirdi. Bu zaman Osman məsələnin qarışıq olduğunu söylədi. Möminlərin əmiri Əli (ə) bu vaxt onun yanında idi. Buyurdu: “Kişidən soruşun ki, qadının miras payına keçməsindən sonra yeni ağası olmuş bu xanımla yaxınlıq edibmi?” Qadın “Xeyr” deyə cavab verdi. İmam Əli (ə) buyurdu: “Əgər bunu etdiyini bilsəydim, kişini

cəzalandırardım... Gedin. Kişi sənin köləndir və sənin üzərində heç bir hüququ yoxdur. Əgər istəsən onu öz kölən olaraq saxlaya bilər, azad edə və ya sata bilərsən. Bütün bunlara sənin haqqın var".

Rəvayət olunur ki, Osmanın xəlifəliyi dövründə sahibi ilə müəyyən müddətdən sonra azad ediləcəyinə dair müqavilə bağlamış bir kölə zina etmişdi. O, boynunda olanın dörddə üçünü ödəmişdi. Osman İmam Əlidən (ə) ona azad qadının, yoxsa kölə cəzasının tətbiq ediləcəyini soruşdu. Bunu Zeyd ibn Sabitdən də soruşdu. O, kölə cəzasının şamil ediləcəyini söylədi. Möminlərin əmiri Əli (ə) buyurdu: "O, boynunda olanın dörddə üçünü artıq ödədiyi halda necə ona kölə cəzasına tətbiq edə bilərsiniz?" Zeyd dedi: "Əgər belə olsa, o zaman miras da hesablanmalıdır. İmam (ə) "Bəli, bu vacibdir" deyə buyurdu. Zeyd susmağa məcbur oldu. Osman isə Möminlərin əmirinin (ə) hökmünə qarşı çıxaraq Zeydin sözünə üstünlük verdi".

Və digər bunun kimi qissələr də var ki, onları qeyd etmək kitabın həcmini artıracaq və sözü uzadacaq".[1177]

Görünən odur ki, Şeyx Müfid burada Əhli-Sünnə yolu ilə nəql edilmiş rəvayətləri nəql etməkdədir, bu səbəbdən də onların sənədini qeyd etmir. Belə rəvayətləri şiəyə dəlil göstərməyin mümkün olmadığı aydın məsələdir. Bunu dəlil olaraq göstərmək istəyənlər həmin rəvayətlərin Əhli-Sünnə və şiə kitablarındakı əsl mənbələrini araşdırmalı, dəlil olmaq səlahiyyətini müəyyən etdikdən sonra istifadə etməlidirlər.

"əl-İrşad"dakı rəvayətlərin məzmununun müzakirəsi

"əl-İrşad"dakı rəvayətlərin sənədlərinə göz yumduqda belə, onun məzmununun iddiadan daha xüsusi olduğunu görürük. Belə ki, İhsan Zahirin iddiası İmam Əlinin (ə) Osmana qarşı ixlaslı və vəfalı olması, məsləhətləşməsi və onun üçün qazilik etməsidir. Halbuki birinci rəvayət qarşıya çıxan məsələyə dair Osmanın hökm verməkdə dolaşığa

[1177] əl-İrşad, Şeyx Müfid, c. 1, s. 211

düşdüyünü, onun yanlış ictihadı və hökm çıxarmaqdakı acizliyi nəticəsində qadının az qala canından olacağını açıq bəyan edir. Əgər Möminlərin əmiri Əli (ə) anındaca hökmə müdaxilə edib onun canını, qohumları, yaxınları və qəbiləsi qarşısındakı ehtiram və namusunu xilas etməsəydi baş verənləri təsəvvür etmək çətin olacaqdı. Əlidən (ə) savayı onu bu rüsvaylıqdan xilas edəcək, xəlifənin qarşısına keçib yanlış qərar verdiyini söyləyərək haqqı bərqərar edəcək başqa bir müsəlman var idimi?!

İkinci rəvayətdəki hal da bundan çox fərqlənmir. Orada da Osman hökm verməkdə aciz qaldığı vaxt İmam (ə) məsələyə müdaxilə edir, qadının düşüyü çətin vəziyyətdən qurtarır.

Belə cüzi məsələlərlə İhsan Zahirin böyük iddiası əsla sübuta yetə bilməz. Belə ki, rəvayətlərdə qeyd edilənlərin qarşısında İmam Əli (ə) öz humanizmi və müsəlmanların qorunmasına olan hərisliyi ilə əsla susa bilməzdi.

Bəli, ixlas, vəfa, məsləhət və qarşılıqlı yardımlaşmadan... xəbər verən birgəlik Möminlərin əmiri Əlinin (ə) Peyğəmbərlə (s) birgəliyi idi. İstər bu hərbi, istər idarəçilik, isə qəzavət və s. müstəvilərdə olsun, fərq etməz. Peyğəmbər (s) onunla uzun müddət xəlvətə çəkilir, söhbət edirdi. Necə ki, bunu "Xəlvət" hədisində də müşahidə etdik. Tirmizi "Sünən"ində Əcləh sənədilə Əbu Zübeyrdən, o da Cabirdən nəql edir: *"Taif yürüşündə Peyğəmbər Əlini çağırıb onunla təkbətək gizli söhbət etdi. Camaat "Əmisi oğlu ilə xəlvətdə söhbəti nə uzun çəkdi" deməyə başladı. Peyğəmbər (s) buyurdu: "Onunla mən deyil, Allah gizli söhbət edirdi"*.[1178]

Tirmizi hədisin ardınca deyir: *"Bu, həsən qəribə hədisdir. Bunu yalnız Əcləhin hədisində görmüşəm. İbn Füzeyldən başqaları da bu rəvayəti Əcləhdən nəql ediblər. "Onunla mən deyil, Allah gizli söhbət edirdi" sözünün*

[1178] Sünən, Tirmizi, c. 5, s. 303

mənası isə budur ki, onunla gizlində söhbət etməyi mənə Allah əmr etmişdir".[1179]

Bunu həmçinin Təbərani "əl-Möcəmul-kəbir"də Salim ibn Əbu Həfsə yolu ilə Əbu Zübeyrdən, o da Cabirdən nəql edib.[1180]

Peyğəmbər (s) bir yerə səfər edərkən İmam Əlini (ə) özünün naibi olaraq təyin edirdi. Necə ki, bunu "Mənzilət" hədisində görürük. Buxari "Səhih"ində və eləcə də digər Əhli-Sünnə hədis alim və hafizləri rəvayəti qeyd ediblər. Musəb ibn Səddən, o da atasından rəvayət edir: *"Peyğəmbər Təbuk savaşına yola düşərkən Əlini Mədinədə öz yerinə qoydu. Əli dedi: "Məni uşaq və qadınların arasında qoyursan?!" Peyğəmbər (s) buyurdu: "Sən mənə Harunun Musaya olan nisbətində olmana razı deyilsən?! Sadəcə məndən sonra peyğəmbər olmayacaq".*[1181]

Peyğəmbər (s) ən şiddətli və ağır döyüşlərdə Möminlərin əmiri Əlini (ə) önə keçirir, ən çətin anlarda bayrağı ona həvalə edirdi. Necə ki, bunlardan biri ilə "Bayraq" hədisində də rastlaşırıq. Buxari "Səhih"ində Səhl ibn Səd sənədilə rəvayət edir: *"Peyğəmbər (s) Xeybər savaşı günü buyurdu: "Sabah bayrağı elə bir şəxsə verəcəyəm ki, Allah onun əli ilə fəth nəsib edəcək. O, Allahı və rəsulunu, Allah və rəsulu da onu sevir".*

Camaat gecəni bayrağın kimə veriləcəyi fikri ilə keçirdi. Onların hamısı həmin şəxsin özləri olmasını arzulayırdılar.

Peyğəmbər (s) buyurdu: "Əli haradadır?". Onun gözlərindən narahatlığı olduğu deyildi. Peyğəmbər (s) onun gözlərinə tüpürdü, onun üçün dua etdi. Gözündəki narahatlıq aradan getdi, sanki, heç bir ağrısı olmamışdı. Ardınca bayrağı ona verdi..."[1182]

[1179] Sünən, Tirmizi, c. 5, s. 303

[1180] əl-Möcəmul-kəbir, Təbərani, c. 2, s. 186

[1181] Səhih, Buxari, c. 4, s. 1602, hədis 4154; Təbuk savaşı, c. 5, s. 129

[1182] Səhih, Buxari, c. 3, s. 1096, hədis 2847; s. 1357, hədis 3498, "Əli ibn Əbu Talib Qüreyşi Haşimi Əbülhəsənin (r) fəzilətləri" babı, c. 4, s. 20, c. 5, s. 76

Nəsai "Sünən"də Büreydə Əsləmi sənədilə rəvayət edir: *"Xeybərə yetişdikdə Peyğəmbər (s) Ömari bir dəstə adamla hücuma göndərdi. Ömər və yanındakılar məğlub olub geri qayıtdılar. Peyğəmbər (s) buyurdu: "Sabah bayrağı elə bir şəxsə verəcəyəm ki, Allahı və rəsulunu, Allah və rəsulu da onu sevir".*

Səhəri gün Əbu Bəkr və Ömər yenidən göndərilmələrini istəyirdilər. Peyğəmbər (s) Əlini çağırdı. Onun gözləri ağrıyırdı. Onun gözlərinə tüpürdü və camaatı onunla birlikdə döyüşə göndərdi..."[1183]

Hakim "Müstədrək"də İbn Abbas sənədilə Peyğəmbərin (s) belə buyurduğunu nəql edir: *"Elə bir şəxsi göndərəcəyəm ki, Allah onu əsla rüsvay etməyəcək. O, Allahı və rəsulunu, Allah və rəsulu da onu sevir". Hamı ona tərəf can atırdı. Peyğəmbər (s) isə Əlinin harada olduğunu soruşdu. Onun un üyütdüyünü söylədilər. Peyğəmbər (s) buyurdu: "Məgər sizdən heç kim un üyüdə bilmir?!" Əli gəldi, gözləri ağrıyırdı, az qala ümumiyyətlə görmürdü. Peyğəmbər (s) onun gözlərinə tüpürdü, sonra bayrağı üç dəfə yelləyərək ona verdi".*[1184]

Və İmamın (ə) Peyğəmbərin (s) hakimiyyəti dövrlərində onunla birlikdə iştirak etdiyi digər hadisələr...

Bəli, bu cür iştirak və birgəlik onların arasındakı ixlas, vəfa və yardımlaşma kimi digər xüsusiyyətlərdən xəbər verir, nəinki Osmanın xilafəti dövründə yanlış qərarları nəticəsində bir insanın canının mübahisə mövzusuna çevrildiyi hallardakı ani iştirakları!

B. "əl-Kafi" kitabındakı rəvayətin dəlil göstərilməsi

İhsan Zahirin iddiasına əsasən, İmam Əlinin (ə) Osmana vəfalı və ixlaslı şəxs olduğuna, məsləhətlər verdiyinə və onun üçün qazilik etdiyinə Şeyx Kuleyninin "əl-Kafi" kitabından təqdim etdiyi dəlil doğru deyil.

[1183] əs-Sünənul-kubra, Nəsai, c. 5, s. 109

[1184] əl-Müstədrəku ələs-səhiheyn, c. 3, s. 133

Rəvayət onun iddiasından tamamilə uzaqdır. Rəvayətin mətnini sizə təqdim edirik:

Kuleyni "əl-Kafi"də Zürarə sənədilə rəvayət edir: *"Əbu Cəfərin (s) belə buyurduğunu eşitdim: "Vəlid ibn Üqbənin şərab içdiyinə dair şahidlik edildikdə Osman Əliyə (ə) dedi: "Şərab içdiyini iddia edənlərlə onun arasında hökm ver. Əli (ə) ona ikili qamçı ilə qırx qamçı vurulmasını əmr etdi".*[1185]

İmamın (ə) qəzavət etməsi heç də onun Osmanın və ya digərlərin hakimiyyətləri dövründə qazı vəzifəsində olduğuna dəlalət etməz. İmam Əlinin (ə) verdiyi hökmlər heç də qazılıq vəzifəsini daşımasından irəli gəlmirdi. Belə məsələlər tarix və seyr əhlinə heç də gizli deyil. Onlar həmin hakimiyyətlərin məmurlarının, ordu başçılarının və digər dövlət işçilərinin adlarını bir-bir qeyd etmişlər. Lakin heç biri İmam Əlinin (ə) qazıların başçısı olduğunu və ya qazı vəzifəsini tutduğunu söyləməyib.

Osmanın İmam Əlidən (ə) Vəlid ibn Üqbə ilə şahidlərin arasında hökm verməsini istəməsinin səbəbi, Əhli-Sünnə alim və hədis hafizlərinin də nəql etdiklərinə əsasən, İmamın (ə) ümmətin arasında ən yaxşı qəzavət edən şəxs olmasından irəli gələ bilər. Müsəlmanların hökm məsələlərində ən yaxşı qazıya müraciət etməsi təbii haldır. Peyğəmbərin (s) hədislərindən birində buyurulur: *"Sizin ən yaxşı qəzavət edəniniz Əlidir".* İcluni "Kəşful-xufa"da yazır: *"Bəğəvi bunu "Şərhus-sünnə" və "əl-Məsabih"də Ənəsdən rəvayət edib. Buxari və İmam Əhmədin oğlu isə İbn Abbasdan bu kəlmələrlə nəql ediblər: "Ömər (r) dedi: "Ən yaxşı qarimiz Übey, ən yaxşı qazımız (qəzavət edənimiz) Əlidir..." Hakim də İbn Məsudun aşağıdakı kəlmələrlə olan rəvayətinin səhih olduğunu söyləyib: "Biz Mədinə əhlinin arasında ən yaxşı qazının Əli olduğunu söyləyirdik".*

Bunu Molla özünün "Sirə" kitabında İbn Abbasdan Peyğəmbərə (s) yetişən sənədlə rəvayət edib... Əbdürrəzzaq isə Qətadədən mürsəl olaraq

---

[1185] əl-Kafi, Şeyx Kuleyni, c. 7, s. 215

Peyğəmbərə (s) istinadla nəql edir. Orada deyilir: "Ümmətimin ən mərhəmətlisi Əbu Bəkr, Allahın əmrinin icrasında ən sərti Ömər, ən çox həyalısı Osman və ən yaxşı qazısı Əlidir..." Bu rəvayət "İbn Əbu Nəcihin "Fəvaid"ində Əbu Səid Xudridən nəql edilir. Həmçinin Bəğəvi də Ənəsə yetişən sənədlə Peyğəmbərin (s) "Ümmətin ən yaxşı qazısı Əlidir" deyə buyurduğunu rəvayət edir..."[1186]

Əhil-sünnə hafiz və hədisşünasları bir çox sənədlə Möminlərin əmiri Əlidən (ə) rəvayət edirlər: *"Peyğəmbər (s) məni Yəmənə göndərdi. Mən isə ona cavan olduğumu və qəzavətdən anlamadığımı söylədim. Peyğəmbər (s) əlini sinəmə vurub buyurdu: "İlahi, onun qəlbini hidayət et və dilini sabit qərar ver". Əli deyir: "Bundan sonra iki şəxsin arasında hökm edərkən əsla şəkkə düşmədim".*[1187]

Bu hədis həmçinin Əbu Buxturidən Əbu Davud Təyalisinin (vəfatı: h.q 204) "Müsnəd"ində,[1188] İbn Əbu Şeybənin (vəfatı: h.q 235) "əl-Müsənnəf"ində,[1189] Əhməd ibn Hənbəlin (vəfatı: h.q 241) "Müsnəd"ində,[1190] İbn Hümeydin (vəfatı: h.q 249) "Müsnəd"ində,[1191] İbn Macənin (vəfatı: h.q 273) "Sünən"ində,[1192] Nəsainin (vəfatı: h.q 303) "əs-Sünənul-kubra"[1193] və "Xəsaisu Əmiril-muminin" kitablarında,[1194] Əbu Yəla Mosulinin (vəfatı: h.q 307) "Müsnəd"ində,[1195] Hakimin (vəfatı: h.q 405) "Müstədrək"ində,[1196] Beyhəqinin (vəfatı: h.q 458) "əs-Sünənul-

---

[1186] Kəşful-xufa, İcluni, c. 1, s. 162

[1187] Sünən, İbn Macə, c. 2, s. 774; Müsnəd, Əbu Davud Təyalisi, s. 16; əs-Sünənul-kubra, Nəsai, c. 5, s. 116, əs-Sünənul-kubra, Beyhəqi, c. 10, s. 86-87

[1188] Müsnəd, Əbu Davud Təyalisi, s. 16

[1189] əl-Müsənnəf, İbn Əbu Şeybə Kufi, c. 7, s. 13, 495

[1190] Müsnəd, Əhməd ibn Hənbəl, c. 1, s. 83

[1191] əl-Muntəxəb min Musnədi Əbd ibn Hümeyd, Əbu Muhəmməd Kəssi Əbd ibn Hümeyd ibn Nəsr, c. 1, s. 61

[1192] Sünən, İbn Macə, c. 2, s. 774

[1193] əs-Sünənul-kubra, Nəsai, c. 5, s. 116

[1194] Xəsaisu Əmiril-muminin, Nəsai, s. 70

[1195] Müsnəd, Əbu Yəla Mosuli, c. 1, s. 268

[1196] əl-Müstədrək, Hakim Nişapuri, c. 3, s. 135

kubra”[1197] əsərində rəvayət edilmişdir. Hakim hədislə bağlı deyir: *“Bu, Buxari və Müslimin şərtinə əsasən, səhih hədisdir. Onlar kitablarında nəql etməyiblər”.*[1198]

Həmçinin Harisə ibn Muzrəbə istinadən Əhməd ibn Hənbəl “Müsnəd”ində,[1199] Nəsai “əs-Sünənul-kubra”da[1200] və Bəzzar da öz “Müsnəd”ində[1201] nəql ediblər.

İbn Hibban “Səhih”də İbn Abbasdan nəql edib.[1202]

Eləcə də Hənəş ibn Mütəmərə istinadən Təyalisi[1203] və Əhməd ibn Hənbəl[1204] öz “Müsnəd”lərində, Nəsai “əs-Sünənul-kubra”da,[1205] Bəzzar “Müsnəd”də,[1206] Hakim “Müstədrək”də,[1207] Beyhəqi “əs-Sünənul-kubra”da[1208] rəvayət ediblər. Hakim hədisin ardınca deyib: *“Bu, Buxari və Müslimin şərtinə əsasən, səhih hədisdir, kitablarında qeyd etməyiblər”.*[1209]

Həmçinin Əmr ibn Həbəşidən Nəsai “əs-Sünənul-kubra”da[1210] və Əbu Yəla Mosuli “Müsnəd”ində[1211] nəql ediblər.

Bəzzar “Müsnəd”ində[1212] Abdullah ibn Sələmədən rəvayət edib.

Bu çoxsaylı və fərqli nəql yolları bir digərini təsdiqləyir.

Kuleyninin rəvayətindən görünən odur ki, Osman öz kürəkəni olan Vəlid ibn Üqbəyə hədd cəzası tətbiq etməyə meylli deyildi və İmamın (ə)

[1197] əs-Sünənul-kubra, Beyhəqi, c. 10, s. 86-87
[1198] əl-Müstədrək, Hakim Nişapuri, c. 3, s. 135
[1199] Müsnəd, Əhməd ibn Hənbəl, c. 1, s. 88
[1200] əs-Sünənul-kubra, Nəsai, c. 5, s. 117
[1201] Müsnəd, Bəzzar, c. 2, s. 298
[1202] Səhih, İbn Hibban, c. 11, s. 451
[1203] Müsnəd, Əbu Davud Təyalisi, s. 19
[1204] Müsnəd, Əhməd ibn Hənbəl, c. 1, s. 77
[1205] əs-Sünənul-kubra, Nəsai, c. 5, s. 117
[1206] Müsnəd, Bəzzar, c. 2, s. 307
[1207] əl-Müstədrək, Hakim, c. 4, s. 93
[1208] əs-Sünənul-kubra, Beyhəqi, c. 10, s. 86
[1209] əl-Müstədrək, Hakim, c. 4, s. 93
[1210] əs-Sünənul-kubra, Nəsai, c. 5, s. 117
[1211] Müsnəd, Əbu Yəla Mosuli, c. 1, s. 252
[1212] Müsnəd, Bəzzar, c. 2, s. 289

ona cəzanı tətbiq etməyəcəyini düşünürdü: *"Şərab içdiyini iddia edənlərlə onun arasında hökm ver".* Halbuki şərab içənin hökmü hamıya məlumdur, onun şərab içdiyinə dair şahidlər də mövcud idi. Belə olduqda, nə üçün müsəlmanların xəlifəsi Peyğəmbər (s) sünnəsində sabit olan bir hökmü İmamın (ə) verməsini istəsin?!

C. Yaqubinin "Tarix"ində nəql edilən rəvayətin dəlil göstərilməsi

İhsan Zahirin İmam Əlinin (ə) Osmana sədaqətli və vəfalı olmasına Yaqubinin "Tarix"indən göstərdiyi dəlil doğru deyil. Belə ki, bu rəvayət də iddiadan uzaqdır. Həmin mətni tam şəkildə sizə təqdim edirik:

Yaqubi hicri 26-cı ilin hadisələrini qeyd edərkən yazır: *"Həmin il Vəlid ibn Üqbə ibn Əbu Muit Kufəyə vali təyin olundu. Sərxoş halda camaata sübh namazını dörd rəkət qıldırdı, mehraba qusdu. Sonra arxasında dayananlara baxıb "İstəyirsiniz (rəkətlərin sayını) bir az da artırım" dedi..."*

Cərir ibn Abdullah, Ədiy ibn Hatəm, Hüzeyfə ibn Yəmani və Əşəs ibn Qeys onun üzərinə atıldılar. Bu hadisə barədə Osmana məktub göndərdilər. Osman onu vəzifəsindən çıxarıb yerinə Səid ibn Ası təyin etdi. Vəlid Mədinəyə döndükdə Osman dedi: "Onu kim vuracaq?" Osmana olan qohumluğuna görə camaat bundan çəkindi. O, Osmanın anabir qardaşı idi. Əli qalxıb ona hədd cəzası vurdu. Sonra Osman onu Kəlb və Bəlqin qəbilələrindən xüms və zəkatı toplamaq üçün göndərdi".[1213]

Şərab içdiyinə görə Osmanın kürəkəni Vəlidə İmam Əlinin (ə) hədd cəzası tətbiq etməsi əsla onunla məsləhətləşdiyinə, məşvərət və qəzavət etdiyinə dəlalət etməz.

İmam (ə) Allahın buyurduğu cəzanın təxirə salınacağından, bununla də faktiki olaraq cəzaların dövlət adamları istisna olunmaqla yalnız zəif və fəqirlərə tətbiq ediləcəyindən ehtiyatlanırdı. Bu səbəblər İmamı (ə) Vəlid ibn Üqbəyə hədd cəzası vurmağa təhrik etdi. Halbuki Vəlidin Osmanla

[1213] Tarix, Yaqubi, c. 2, s. 165

qohumluğuna və qızının həyat yoldaşı olmasına görə, heç kəs Əməvi xəlifəsinin yaxın adamına cəza həddi tətbiq etməyə cürət etmirdi.

Bunlardan əlavə, Yaqubinin "Tarix" kitabı şiə mənbəyi deyil. Onun müəllifi Abbasi katibi İbn Vazeh Yaqubidir. Zirkəli onun tərcümeyi-halında yazır: *"Tarixçi, coğrafiyaçı və səyyahdır, Bağdad əhlindəndir. Babası Abbasi xəlifəsi Mənsurun dostlarından idi".*[1214] Bağdadi də onun barəsində yazır: *"Yaqubi adı ilə tanınan Abbasi katibi".*[1215]

Barəsindəki belə fikirlər onu qarşı tərəfə dəlil kimi təqdim edilmək səlahiyyətindən düşürür.

7. İmam Əlinin (ə) Osmana itaətkarlığı iddiası

İhsan Zahir iddia edir ki, İmam (ə), övladları və ümumilikdə Haşim oğulları Osmana itaətkar idilər. Bu iddiasına isə "Nəhcül-Bəlağə"də Haşim oğullarının hakimiyyətdə təmsil edildikləri, bayrağı altında savaşmaları, verdiyi hədiyyə, qənimət, xidmətçi və cariyələri qəbul etmələri ilə bağlı nəql edilən rəvayəti dəlil göstərir. Deyir: **"Əli ibn Əbu Talib, övladları və Haşim oğulları üçüncü raşidi xəlifə Osman ibn Əffana qarşı itaətkar idilər. Buna Osman... qətlə yetirildikdən sonra camaat Əliyə (r) beyət etmək istəyərkən söylədiyi sözlər də dəlalət edir. Həmin sözlər şiələrin ən müqəddəs kitabında nəql olunur: "Məndən əl çəkin, başqasını axtarın... Əgər siz məni buraxıb başqasını seçsəniz, mən də sizlərdən biri kimi, rəhbər seçdiyiniz şəxsə aranızdan ən müti və ən itaətkarı olaram" (Nəhcül-Bəlağə, s. 136, Sübhi Salehin təhqiqi ilə).**

Haşim oğullarının xilafətdə təyin olunduqları vəzifələri qəbul etmələri də buna dəlalət edir. Məsələn, Müğeyrə ibn Nofəl ibn Haris ibn Əbdülmüttəlib qazı təyin olunmuşdu ("əl-İstiab", "Usdul-ğabə",

---

[1214] əl-Əlam, c. 1, s. 95

[1215] İzahul-məknun, İsmail Paşa Bağdadi, c. 1, s. 219

“əl-İsabə” və digər mənbələr). Həmçinin Haris ibn Nofəl də həmin məmurlardan biri idi (“Təbəqat”, “əl-İsabə”). Abdullah ibn Abbasa 35-ci ildə Həcc rəhbərliyi təklif edilmiş və o, bunu qəbul etmişdi (Tarix, Yaqubi, c. 2, s. 176).

Onlar Osmanın bayrağı altında orduda döyüşmüş, kafirlərlə və İslam düşmənləri ilə müharibə üçün təchiz edilmiş orduya qatılmışlar. Məsələn, 26-cı ildə Afrikadakı müharibədə Peyğəmbərin (s) əmisi oğlu Abdullah ibn Abbas (r) iştirak etmişdi (əl-Kamil, İbn Əsir, c. 3, s. 35).

Bürqə, Trablus və Afrikadakı döyüşlərdə Əli ibn Əbu Talibin oğlanları Həsən və Hüseyn, qardaşı oğlu Abdullah ibn Cəfər ibn Əbu Talib, onların əmisi – Peyğəmbərin (s) əmisi oğlu Abdullah ibn Abbas Abdullah ibn Əbu Sorhun başçılığı altında döyüşlərdə iştirak etmişlər (Tarix, İbn Xəldun, c.2, s. 103).

Eləcə də Həsən, Hüseyn və Abdullah ibn Abbas Əməvi Səid ibn Asın rəhbərliyi altında Xorasan, Təbəristan və Cürcan müharibələrində də olmuşlar (“Tarix”, Təbəri; “əl-Kamil”, İbn Əsir; “əl-Bidayətu vən-nihayə”, “Tarix”, İbn Xəldun). Və bunlardan savayı digər savaşalar...

Osman onlara qənimətlər və hədiyyələr verir, onlara cariyə və xidmətçilər göndərirdi. Mamaqani onların nəzərində səkkizinci məsum imam olan Rzadan belə nəql edir: “Abdullah ibn Amir ibn Küreyz Xorasanı fəth etdikdə əcəm padşahı Yəzdəgird ibn Şəhriyarın iki qızını əsir götürüb onları Osman ibn Əffana göndərdi. Osman isə onların birini Həsənə, digərini isə Hüseynə bağışladı. Hər iki qız uşaq dünyaya gətirərkən öldülər (Tənqihul-məqal fi ilmir-rical, Mamaqani, c. 3, s. 80, Tehran çapı)”.[1216]

Onun sözlərinin təhlil və müzakirəsini aşağıdakı başlıqlara bölmüşük:

[1216] Şiə və Əhil-Beyt, İhsan Zahir, s. 147-148

A. "Nəhcül-Bəlağə"dən dəlil göstərilməsi

İhsan Zahir İmamın (ə) övladlarının və Haşim oğullarının Osmana qarşı müti olduqları iddiasına Seyyid Rəzinin "Nəhcül-Bəlağə" kitabından dəlil göstərir.

Cavab:

Bu iddia puç və yanlışdır. Belə ki, həmin sözlər İmam Əli (ə) tərəfindən Osman qətlə yetirildikdən sonra ona beyət etmək üçün yanına gələn Peyğəmbər (s) səhabələrinə söylənmişdir. İhsan Zahir kitabının bir neçə yerində bu sözlərdən dəlil kimi istifadə edib. Biz də həmin yerlərdə onlara cavab vermiş, "Nəhcül-Bəlağə"nin Şərif Rəzinin ən məşhur əsəri olduğunu, hədis və tarix deyil, yalnız ədəbiyyat incisi sayıldığını bildirmişik. Müəllifin həmin kitabı qələmə almaqda ümdə hədəfi oradakı fəsahət və bəlağəti çatdırmaq olub. Bu səbəbdən də Şərif Rəzi həm şiə və həm də Əhli-Sünnə mənbələrində Möminlərin əmiri Əliyə (ə) nisbət verilən sözləri toplamış və sənədlərini qeyd etməmişdir. Bəzən İmam Əlinin (ə) xütbə və məktublarında ali dərəcədə olan bəlağət nümunələrini yazmış, mətnin digər hissələrini isə tərk etmişdir. Nəql olunan rəvayət də bu qəbildəndir. Şərif Rəzi öz məqsədinə uyğun olaraq İmamın (ə) sözlərinin yalnız bir qismini nəql edib. Buna görə də, Peyğəmbərə (s), İmamlara (ə) və ya səhabələrə nisbət verilən hər bir rəvayətə tətbiq etdiyimiz kimi, bu kitabdan dəlil təqdim etmək istəyən şəxs xütbə və ya məktubların əsl mənbəyinə müraciət etməli və sənədini araşdırmalıdır.

Bu xütbənin əlimizdə olan tam şəkildə nəql olunduğu ən qədim mənbəyi Seyf ibn Ömər Zabiyin (vəfatı: h.q 200) "əl-Fitnətu və vəqətul-Cəməl" kitabıdır. Rəvayəti ondan eyni sənədlə Təbəri (vəfatı: h.q 310) öz

“Tarix”ində[1217] nəql edib. Şiə mənbələrinə gəldikdə, onlardan ən qədimi elə məhz “Nəhcül-Bəlağə”dir. Buradan da aydın olur ki, xütbənin həqiqi mənbəyi Əhli-Sünnə kitabıdır, Şərif Rəzi də məqsədinin xütbələri toplamaq olduğu üçün həmin mənbədən götürərək bunu öz kitabına daxil edib. Belə ki, öz məqsədinə qovuşmaq üçün o, şiə və Əhli-Sünnə mənbələrinin arasında fərq qoymayıb.

Sizə Seyf ibn Ömərin “əl-Fitnətu və vəqətul-Cəməl”, Təbərinin “Tarix” və Şərif Rəzinin “Nəhcül-Bəlağə” kitablarında nəql edilmiş rəvayətin tam mətnini təqdim edirik. Orada qeyd olunur ki, Osmanın öldürülməsindən sonra səhabələr beyət üçün İmam Əlinin (ə) yanına gəldikdə İmam (ə) onlara dedi: *“Məndən əl çəkib başqasını istəyin. Müxtəlif sifətləri və rəngləri olan bir işə qol qoyuruq. (Belə ki,) ürəklərin ona dözümü yoxdur və ağıllar onun yükünü çəkməyəcəklər. Üfüqləri qara bulud (zülm, sitəm və bidət) bürüyüb, aydın yol dəyişib. Bilin ki, mən sizin dəvətinizi qəbul etsəm, özümün bildiyim kimi rəftar edəcəyəm. Və danışanın sözünə, məzəmmət edənin qınağına qulaq asmayacağam. Əgər məni buraxsanız (xəlifə seçməsəniz), sizlərdən biri kimi olaram və bəlkə də sizlərin sözlərinizə daha çox qulaq asaram (və hüququnuzu qoruyaram), özünüzə vali və hakim etdiyiniz şəxsin əmrlərini daha yaxşı yerinə yetirərəm. (Buna görə də) mənim sizlərə vəzir və müşavir olmağım, əmir və hakim olmağımdan daha yaxşıdır”.*[1218]

Bu xütbəyə, söylənmə vaxtına diqqət yetirən şəxs onun məzmununu və qarşı tərəfə xəbərdarlıq mənası daşıdığını anlayacaq. İmam (ə) onları iki seçim qarşısında qoyur: ya onların beyətini qeyd etdiyi şərtlər çərçivəsində qəbul edəcək – *“Bilin ki, mən sizin dəvətinizi qəbul etsəm, özümün bildiyim kimi rəftar edəcəyəm. Və danışanın sözünə, məzəmmət*

[1217] Tarix, Təbəri, c. 3, s. 456. Həmçinin İbn Əsir də (vəfatı: h.q 276) “əl-Kamilu fit-traix” kitabında xütbəni qeyd edib (c. 3, s. 193)

[1218] əl-Fitnətu və vəqətul-Cəməl, Seyf ibn Ömər, s. 93; Tarix, Təbəri, c. 3, s. 456; Nəhcül-Bəlağə, c. 1, s. 181, xütbə 92 (91), Şeyx Muhəmməd Əbdəhin təhqiqi ilə

edənin qınağına qulaq asmayacağam"; ya da başqasına beyət edəcəkləri təqdirdə o da onlarla birgə beyət edəcək və aralarında ən müti şəxs olacaq. Bu xütbənin daşıdığı əsas məna bundan ibarətdir ki, İmam (ə) onun yanına beyət üçün gəlmiş camaata verdiyi sözlərdən və bağladığı əhdlərdən dönəcək şəxs olmadığını çatdırır, Allahın ona bəxş etdiyi elm, hikmət və ədalətlə rəhbərlik edəcəyini bildirir. Onlar ya bu şərtlərlə beyət edəcək, ya da başqa birini özlərinə rəhbər seçəcəklər ki, İmam (ə) da onların vəhdətini pozmamaq üçün həmin şəxsə beyət edəcək.

Həmin dövrdə baş verənlər İmam (ə) tərəfindən camaatın qəlbindəkilərin dəqiqliklə oxunduğunu göstərir. Möminlərin əmirinin (ə) beyəti qəbul edərkən qoyduğu bu şərtlərə və şərtlərin qarşılığında onların öz istəkləri ilə beyət etmələrinə baxmayaraq, İmamın (ə) ədaləti onlara ağır gəldi. Bəziləri İmamla (ə) olan beyətlərini pozdular, bəziləri dindən çıxdılar və bəziləri də zülmə əl atdılar. Onların hamısı da xəlifəyə qarşı ordu toplayıb müharibəyə qalxdı. ***"Məgər bizi doğru yola bir insanmı salacaq?!" – deyərək inkar edir və (haqdan) üz döndərirdilər".***[1219]

Onların barəsində Peyğəmbərin (s) İmam Əliyə (ə) buyurduğu sözlər gerçək oldu: *"Sən beyət sındıranlar, dindən dönənlər və zalımlıq edənlərlə savaşacaqsan..."* Abdullah ibn Məsudun hədisində isə deyilir: *"Əliyə nakisinlər, qasitinlər və mariqinlərlə savaşmaq əmr edildi".*[1220]

"əl-Möcəmul-kəbir"də başqa kəlmələrlə belə nəql edilir: *"Peyğəmbər (s) nakisinlər, qasitinlər və mariqinlərlə savaşmağı əmr etdi".*[1221]

Əbu Əyyub Ənsarinin hədisində isə deyilir: *"Peyğəmbər (s) Əli ibn Əbu Talibə nakisinlər, qasitinlər və mariqinlərlə savaşmağı əmr etdi".*[1222] Bir az fərqli kəlmələrlə: *"Peyğəmbərin (s) Əli ibn Əbu Talibə belə buyurduğunu*

[1219] Təğabun, 6

[1220] əl-Möcəmul-övsat, Təbərani, c. 9, s. 165; əl-Möcəmul-kəbir, c. 10, s. 92

[1221] əl-Möcəmul-kəbir, c. 10, s. 91

[1222] əl-Müstədrəku ələs-səhiheyn, Hakim Nişapuri, c. 3, s. 139

eşitdim: "Sən dəvə sahibləri, nəhrivanlılar və (Şam) yollarında nakisinlər, mariqinlər və qasitinlərlə savaşacaqsan". Əbu Əyyub Peyğəmbərə (s) dedi: "Ya Peyğəmbər, onlar kimlə savaşacaqlar?" Peyğəmbər (s) "Əli ibn Əbu Taliblə" deyə buyurdu".[1223]

Möminlərin əmiri Əlinin (ə) hədisində deyilir: *"Peyğəmbərin (s) mənə vəd verdiklərindən biri də ondan sonra ümmətin mənə qarşı qalxacağıdır".*[1224] Hakim deyir: *"Bu, sənədi səhih hədisdir, Buxari və Müslim kitablarında nəql etməyiblər".*[1225]

İbn Abbasın hədisində deyilir: *"Peyğəmbər (s) Əliyə buyurdu: "Sən məndən sonra çətinliklərlə qarşılaşacaqsan". Əli "Dinim salamat qalacaqmı?" deyə soruşduqda, Peyğəmbər (s): "Bəli, dinin salamat qalacaq" buyurdu".*[1226] Hakim hədislə bağlı deyir: *"Bu, Buxari və Müslimin şərtinə əsasən, səhih hədisdir, kitablarında qeyd etməyiblər".*[1227]

Bunlardan əlavə, mətndə İmam Əlinin (ə) övladları və ya Haşim oğulları ilə bağlı heç bir qeyd yoxdur. İmamın (ə) *"Əgər məni buraxsanız (xəlifə seçməsəniz), sizlərdən biri kimi olaram və bəlkə də sizlərin sözlərinizə daha çox qulaq asaram (və hüququnuzu qoruyaram), özünüzə vali və hakim etdiyiniz şəxsin əmrlərini daha yaxşı yerinə yetirərəm"* sözlərində isə Osmana itaətkarlığına dair işarə yoxdur. Mətndən də aydın göründüyü kimi, söhbət Osmandan sonra onların beyət edəcəkləri xəlifədən gedir. İhsan Zahirin bu mətni öz iddiasına dəlil göstərməsi qəribə deyilmi?! Əgər bu məqbuldursa, onda hər bir rəvayəti hər iddiasına dəlil göstərməsi də məqbul sayılmalıdır!

[1223] əl-Müstədrəku ələs-səhiheyn, Hakim Nişapuri, c. 3, s. 139
[1224] əl-Müstədrəku ələs-səhiheyn, Hakim Nişapuri, c. 3, s. 140
[1225] əl-Müstədrəku ələs-səhiheyn, Hakim Nişapuri, c. 3, s. 140
[1226] əl-Müstədrəku ələs-səhiheyn, Hakim Nişapuri, c. 3, s. 140
[1227] əl-Müstədrəku ələs-səhiheyn, Hakim Nişapuri, c. 3, s. 140

B. Haşim oğullarının Osman tərəfindən vəzifələrə təyin edilməsi iddiası

İhsan Zahir Haşim oğullarının hakimiyyətdə təmsil olunduqlarına Müğeyrə ibn Nofəllə Haris ibn Nofəlin qazı və Abdullah ibn Abbasın hicri 35-ci ildə Həcc rəhbəri təyin olunmalarını dəlil göstərir. Bu iddiasına "əl-İstiab", "Usdul-ğabə", "əl-İsabə", "ət-Təbəqat", Yaqubinin "Tarix"ini mənbə olaraq qeyd edir.

Cavab:

Bu iddialar bir neçə cəhətdən yanlış və puçdur:

Birinci: İhsan Zahirin sadaladığı mənbələrin hamısının Əhli-Sünnə hədis və tarix mənbələri olduğu heç kimə gizli deyil. "əl-İstiab" İbn Əbdülbərrin, "Usdul-ğabə" İbn Əsirin, "əl-İsabə" İbn Həcərin və "ət-Təbəqat" da İbn Sədin kitablarıdır və bunda heç bir fikir ayrılığı da yoxdur.

Yaqubinin "Tarix"inin şiə mənbəyi olmadığı barədə bir az əvvəl söhbət açdıq, Abbasi katibi İbn Vazeh Yaqubinin şiəliyinin sübuta yetmədiyini qeyd etdik.

İkinci: İhsan Zahirin sadaladığı mənbələrdəki mətnləri Möminlərin əmiri Əlinin (ə), övladlarının və Haşim oğullarının Osmana itaətkarlığına dəlil kimi təqdim etməsi iddiadan daha xüsusidir. Belə ki, orada yalnız Müğeyrə ibn Nofəl, Haris ibn Nofəl və Abdullah ibn Abbasın müəyyən vəzifələri qəbul etdikləri qeyd olunub. Lakin Möminlərin əmiri (ə) və övladlarının hər hansı bir vəzifəyə təyin olunduqlarına və onların da bunu qəbul etdiklərinə dair heç bir dəlil yoxdur.

Bundan əlavə, Müğeyrə, Nofəl və İbn Abbasın təyin edildikləri vəzifələri qəbul etmələrinin İmam Əli (ə) və övladları ilə əlaqəsi yoxdur. Məsələ gün kimi aydındır. Onların bu vəzifələri qəbul etmələrini İmam (ə)

və övladlarının Osmana itaətkarlığına və hakimiyyətində təmsil olunduqlarına necə dəlil göstərə bilər?!

Üçüncü: Şiənin nəzərində dəlil yalnız Əhli-Beytdir (ə). Muhəmmədin (s) ailəsi də məhz onlardır (İmam Əli, Fatimə, Həsən, Hüseyn və Hüseynin nəslindən bir-birinin ardınca gələn doqquz imam (onlara Allahın salamı və salavatı olsun!). Onların sonuncusu isə İmam Həsən Əskərinin (ə) oğlu və ümmətin hadisi olan İmam Müntəzərdir (ə.f.). Məhz bu şəxslərin sözləri, rəftarları və iqrarları şiələrə dəlildir. Onlar hidayətlə azğınlığın meyarlarıdır. Onların yolunu izləyənlər hidayətə çatmış, üz döndərənlər isə azmışdır. Bunlardan başqalarının isə, hətta Peyğəmbərin (s) yaxın qohumları olsalar da, etdikləri yaxşı və ya pis əməllərin heç birinin əhəmiyyəti yoxdur. Bu əsasla da şiələr Əhli-Beytin (ə) hidayət yolundan üz çevirdikləri üçün Peyğəmbərin (s) ən yaxın qohumların əməllərini belə inkar edə bilirlər. Məsələn, İmam Əli Hadinin (ə) oğlu və İmam Həsən Əskərinin qardaşı olan (ə) Cəfəri inkar etdikləri kimi. Şeyx Səduq və digərləri Əbu Xalid Kabili sənədilə rəvayət edirlər ki, İmam Zeynəlabidindən (ə) sonra İmam Sadiqin (ə) adı zikr edildikdə deyildi: *"Ey ağam, sizin adınız necə Sadiq qoyuldu, halbuki hamınız sadiqlərsiniz?" Buyurdu: "Atam atasından, o da Peyğəmbərdən (s) nəql edir: "Övladım Cəfər ibn Muhəmməd ibn Əli ibn Hüseyn ibn Əli ibn Əbu Talib (ə) doğulduqda onu Sadiq adlandırın. Onun beşinci nəsildəki övladının Cəfər adında oğlu olacaq. O Cəfər imamlıq iddia edəcək, Allaha qarşı çıxacaq və Ona yalan istinad edəcək. O, Allah yanında Allaha iftira atan Cəfəri-kəzzab, haqqı olmayan şeyi iddia edən, atasına qarşı çıxan və qardaşına həsəd edən kəs kimi tanınacaq..."*

Sonra İmam Zeynəlabidin (ə) şiddətlə ağlamağa başladı, ardınca buyurdu: "Cəfəri-kəzzab zəmanəsinin zalımını Allahın vəlisini axtarmağa sövq edəcək. Lakin Allah Öz vəlisini qoruyacaq, onun doğulduğundan bixəbər qalacaq. Bu addımın səbəbi isə onu öldürmək istəyi, atasından

qalacaq mirasa yiyələnməsi və özü üçün haqqı olmadığı məqamı qazanmasıdır...”[1228]

İhsan Zahir iddiasını aydınlaşdırmır. Bəlkə də bunu, adəti üzrə, oxucunu yayındırmaq məqsədilə bilərəkdən edir. Çünki şiələr bütün Haşim oğullarının sözlərinin, rəftar və iqrarlarının dəlil olduğunu iddia etməyiblər. Söz, fel və iqrarları dəlil olanlar yalnız Peyğəmbər (s) və məsum İmamlardır (ə). Əgər İhsan Zahir Osmanın hakimiyyətində onların vəzifə tutduqlarına bizi inandırmaq istəyirsə, o zaman məhz onların sözləri, fel və iqrarlarını bizə dəlil göstərsin. Şiənin nəzərində Əhli-Beyt (ə) nümayəndələrindən heç birinin əvvəlki hakimiyyətlər dövründə vəzifə tutmadıqları sübuta yetmiş faktdır. Nəinki, həmin xəlifələr Əhli-Beyti (ə) hakimiyyətdən tamamilə uzaqlaşdırmaq və təsirlərini minimuma endirmək siyasətini əsas xətt kimi götürmüşdülər.

C. Haşim oğullarının Osmanın bayrağı altında döyüşməsi

Yuxarıda da qeyd edildiyi kimi, İhsan Zahirin iddiasına görə, İmam Əli (ə), övladları və Haşim oğulları Osmanın bayrağı altında orduda döyüşmüş, kafirlərlə və İslam düşmənləri ilə müharibə üçün təchiz edilmiş orduya qatılmışlar. Belə savaşlarda iştirak edənlərin arasında İmam Həsən və Hüseynin (onlara salam olsun!) adlarını çəkir, bu iddiasında İbn Əsirin “əl-Kamil”, İbn Xəldunun və Təbərinin “Tarix”, eləcə də “əl-Bidayətu vən-nihayə” kitablarına istinad edir.

Cavab:

Bu iddia da əvvəlkilər kimi puçdur. Belə ki, İhsan Zahirin etimad etdiyi İbn Əsirin “əl-Kamil”, İbn Xəldunun və Təbərinin “Tarix”, eləcə də İbn Kəsirin “əl-Bidayətu vən-nihayə” kitablarını şiəyə dəlil olaraq göstərmək mümkün deyil. Sadalanan kitabların hamısının Əhli-Sünnənin əsas tarix

[1228] Kəmalud-din və təmamun-niməti, Şeyx Səduq, s. 319-320

mənbələri olduğuna heç kimin şübhəsi yoxdur. Əgər öz kitablarındakı rəvayətləri şiənin qəbul etməli olduğunu düşünürlərsə, o zaman öz hədis mənbələrində Osman və yoldaşlarının fəzilətinə dair uydurulmuş hədisləri də dəlil olaraq təqdim etsinlər! Halbuki insaf gözü ilə bax şəxs həmin hədislərdə onların Peyğəmbərdən (s) də üstün tutulduqlarını aydın görəcək.[1229]

Həmçinin Möminlərin əmiri Əlinin (ə) özündən əvvəlki xəlifələrin hakimiyyəti dövründə heç bir savaşda iştirak etmədiyi barədə yekdil fikir mövcuddur. Eləcə də qeyd olundu ki, sözləri nümunə, dəlil və höccət olanlar Muhəmməd (s) və ailəsidir (ə). Onun ailəsi isə Möminlərin əmiri Əli (ə), Fatimə (ə), Həsən (ə) və Hüseyndir. Bunlardan qeyrisinin yaxşı və pis əməllərinin dəlil olaraq heç bir əhəmiyyəti yoxdur. Buna bir az əvvəldə toxunduq.

Həmçinin əhi-sünnənin öz nəzərinə əsasən, səhabə və ya başqa bir kəsin fəthlərdə iştirak edib-etməməsinin həmin şəxsin Əbu Bəkr, Ömər və ya Osmanın hakimiyyətini qanuni sayıb-saymaması ilə əlaqəsi yoxdur. Belə ki, döyüşlərdəki iştirak bəzən İslamın müdafiəsi, onun mövcudluğunun qorunması, eləcə də dövlətin sərhədlərinin toxunulmazlığını təmin etmək məqsədi daşıyır. Cihad xəlifə yolunda deyil,

---

[1229] Müslim "Səhih"də Ətaya istinadən Süleyman ibn Yəsardan, o da Əbu Sələmə ibn Əbdürrəhmandan Aişənin belə dediyini rəvayət edirlər: "*Peyğəmbər (s) mənim evimdə yatağında ayaqlarının və ya baldırırın üstü açıq halda uzanmışdı. Bu vaxt Əbu Bəkr Peyğəmbərin (s) yanına girmək üçün izin istədi. Peyğəmbər (s) elə o vəziyyətdə də ona izin verdi. Əbu Bəkr sözünü deyib çıxıb getdi. Sonra Ömər izin istədi. Peyğəmbər (s) həmin vəziyyətdə ikən ona da izin verdi. Ömər də sözünü deyib çıxıb getdi.*

Sonra Osman içəri keçmək üçün izn istədi. Bu an Peyğəmbər (s) qalxıb oturdu və paltarını düzəltdi. Osman sözünü deyib çıxdı. Aişə dedi: "Ya Peyğəmbər, Əbu Bəkr və Ömər içəri keçdikdə sən yerindən tərpənmədin, vəziyyətinə əhəmiyyət vermədin. Amma Osman işəri daxil olduqda qalxıb oturdun və paltarını nizamladın". Peyğəmbər (s) buyurdu: "mələklərin həya etdiyi şəxsdən mən həya etməyimmi?!" (Səhih, Müslim, c. 7, s. 116-117, həmçinin Səid ibn As yolu ilə də nəql edib. Orada deyilir: Peyğəmbər (s) buyurdu: "Osman utancaq adamdır. Mən qorxdum ki, o vəziyyətdə ona izin versəm, istədiyini mənə deməsin". (c. 7, s. 117)

Və ağılın qəbul edə bilməyəcəyi bir çox uydurma "fəzilətlər"...

məhz Allahın əmrini yerinə yetirmək üçün bir bəndəlik vəzifəsi və Allaha yaxınlaşmaq vəsiləsidir. Bu müqəddəs vəzifənin icrası üçün bir müsəlman şəxs hətta düşmən bildiyi xəlifənin də yanında vuruşmağa hazır olar. Lakin buna dəyər verməyən kəslər orduda öz dost və yaxınları da olsa, onlarla bir cərgədə yer almaz. Mömin şəxs ən fasiq kəslə cihada çıxsa belə, fasiqlə çiyin-çiyinə olan bu cihadı onun şərəfindən heç nəyi əskiltməz, həmçinin fasiqə də heç bir üstünlük qazandırmaz. Azca düşüncəsi olan şəxslər üçün bu, aydın məsələdir. Belə kiçik nüanslardan istifadə edərək kimin üçünsə fəzilət uydurmağa yalnız bulanıq suda balıq tutmağa çalışanlar təşəbbüs göstərə bilərlər.

Bir çox səhabə fəthlərdə iştirak etməyib. Məsələn, Əhli-Sünnənin nəzərində səhabələrin fəqihi sayılan İbn Ömər. Onun adı həmin dövrlərin heç bir savaşında qeyd edilməyib. Bunu Buxari "Səhih"ində və eləcə də digər Əhli-Sünnə hədisşünasları öz kitablarında vurğulayıblar. Nafiyə istinadən rəvayət olunur: *"Bir kişi İbn Ömərin yanına gəlib dedi: "Ey Əbu Əbdürrəhman! Bir il Həccə, növbəti il Ümrəyə gedirsən. Bəs Allah yolunda cihada qatılmaqdan səni çəkindirən nədir? Sən ki, Allahın cihada olan rəğbətini bilirsən". İbn Ömər dedi: "Ey qardaşımın oğlu! İslam beş şeyin üzərində qurulub: Allaha və Peyğəmbərinə iman bəsləmək, beş vaxt namaz, Ramazan orucu, zəkat və Həcc..."*[1230]

Bəli, şiə etiqadına əsasən, əvvəldə də qeyd etdiyimiz kimi, məsumun sözü, feli və iqrarı dəlil hesab olunur. Şiənin nəzərində Əhli-Beyt imamlarının (ə) Peyğəmbər (s) xilafəti ilə ilə bağlı mövqeləri açıq-aydındır. Xəlifə yalnız Allahın təyinatı və Peyğəmbərin (s) bəyanı ilə müəyyən olunur. Onların sözləri və sürdükləri həyat tərzi də bu təyinatı bir daha təsdiqləyir. Öz rəftarları ilə onlar müsəlmanların vəhdətinin, birliyinin qorunması və zəiflərin himayə edilməsi üçün gözəl nümunələr qoymuşlar. İmamın (ə) bununla bağlı sözlərini qeyd etmişdik: *"Siz*

[1230] Səhih, Buxari, c. 5, s. 157

bilirsiniz ki, xəlifəliyə mən hamıdan daha çox layiqəm. Allaha and olsun, müsəlmanların işləri nizam-intizamla davam edənədək və digərlərinin xilafəti zamanında məndən başqasına zülm olunmayanadək xəlifəliyi (başqasına) buraxıram. Bu, (Allahın məzlumlara ata etdiyi) əcr və savabı əldə etməyə, sizin vurğunu olduğunuz dünya malına, zinətinə (başçılıq və rəhbərliyə) rəğbətim olmadığına görədir".[1231]

Əhli-Beytin (ə) bu cür rəftar üslubu şiələrin arasında sübuta yetmiş və mübahisəsiz mövzudur. Onlardan heç biri bunda şəkk etmir. Onlara (ə) nisbət verilən bəzi rəvayətlərdən bunun əksi anlaşılsa da, həmin mənalar sübuta yetmiş mövzular çərçivəsində təfsir edilir. Məsələn, bir kəs Əhli-Beytin (ə) məsumluğuna zidd mənalar daşıyan rəvayətlərin olduğunu iddia etsə, onun cavabında deyilər: onları anlamaq üçün məsumluğun dəlillərinə müraciət olunmalıdır. Belə ki, məsumluğun dəlilləri qəti və şiələrin nəzərində sübuta yetmiş məsələdir. Eləcə də Əhli-Beytin (ə) iştirak etdiyi iddia olunan fəthlərlə də bağlı məsələ bu qəbildəndir. Faktın baş verdiyi fərz olunsa belə, onu ilahi imamət dəlilləri çərçivəsində təhlil edəcək, hadisənin ilahi əmr və ya zərurət, qəti bir dəlil və ya bu kimi səbəblərdən baş verdiyinə hökm olunacaq. Onların bu addımı əsla yaşadıqları dövrün hakimiyyətinin qanuniliyinə dəlalət etməyəcək və onlara qanuni don geyindirməyəcək.

Ç. Osmanın verdiyi qənimət, hədiyyə, xidmətçi və cariyələri qəbul etdikləri iddiası

İhsan Zahir Osmanın Həsən və Hüseynə (onlara salam olsun!) ehtiram göstərib sevdiyini, hədiyyələr verdiyini, onlar üçün cariyə və xidmətçilər göndərdiyini iddia edir, bu iddiasına Mamaqaninin "Tənqihul-məqal"

[1231] Nəhcül-Bəlağə, Şərif Rəzi, c. 1, s. 124, Şeyx Muhəmməd Əbdəhin təhqiq və şərhilə

kitabından, orada Yəzdəgirdin qızlarını Osmanın Həsən və Hüseynə (ə) hədiyyə etdiyi ilə bağlı rəvayəti dəlil göstərir.[1232]

Cavab:

İhsan Zahirin Mamaqanidən nəql etdiyi rəvayətin kökü Şeyx Səduqun "Uyunu əxbarir-Rza (ə)" kitabındadır. İmam Rzadan (ə) nəql edilən həmin rəvayətin mətnini sizə təqdim edirik:

"Hakim Əbu Əli Hüseyn ibn Əhməd Beyhəqi bizə Muhəmməd ibn Yəhya Sulidən, o da Ovn ibn Kindidən, o da Səhl ibn Qasim Nuşcanidən rəvayət edir ki, İmam Rza (ə) Xorasanda olarkən ona belə buyurdu: "Bizimlə sizin aranızda nəsil qohumluğu var". Mən bunun hansı məsələ ilə bağlı olduğunu soruşduqda buyurdu: "Abdullah ibn Amir ibn Küreyz Xorasanı fəth etdikdə Yəzdəgird ibn Şəhriyarın iki qızını əsir götürüb Osman ibn Əffana göndərdi. O da qızlardan birini Həsənə, digərini isə Hüseynə hədiyyə etdi. Hər iki qız dünyaya uşaq gətirərkən öldü. Hüseynin (ə) xanımından Əli ibn Hüseyn (ə) dünyaya gəlmişdir..."[1233]

Bunu ondan Əllamə Məclisi də "Biharul-ənvar"da rəvayət edib.[1234]

Bu rəvayətin sənədi Beyhəqi, Suli, Kindi və Nuşcani səbəbindən zəifdir. Onların hamısı məchul (naməlum) ravilərdir.[1235]

[1232] İhsan Zahir deyir: **"Osman onlara qənimətlər və hədiyyələr verir, onlara cariyə və xidmətçilər göndərirdi. Mamaqani onların nəzərində səkkizinci məsum imam olan Rzadan belə nəql edir: "Abdullah ibn Amir ibn Küreyz Xorasanı fəth etdikdə əcəm padşahı Yəzdəgird ibn Şəhriyarın iki qızını əsir götürüb onları Osman ibn Əffana göndərdi. Osman isə onların birini Həsənə, digərini isə Hüseynə bağışladı. Hər iki qız uşaq dünyaya gətirərkən öldülər".** (Şiə və Əhli-Beyt, s. 145-146)

[1233] Uyunu əxbarir-Rza (ə), Şeyx Səduq, c. 1, s. 135-136

[1234] Biharul-ənvar, Əllamə Məclisi, c. 46, s. 8-9

[1235] əl-Mufidu min möcəmi ricalil-hədis, Muhəmməd Cəvahiri, s. 163, 589; Mustədərkatu ilmi ricalil-hədis, Şeyx Əli Namazi Şahrudi, c. 4, s. 182, c. 6, s. 145, c. 7, s. 369; Möcəmu ricalil-hədis, Seyyid Xoyi, c. 19, s. 42

Həmçinin hadisə bir rəvayətə əsasən Ömərin, başqa bir rəvayətə əsasən İmam Əlinin (ə) xilafəti dövründə baş verdiyini bildirən rəvayətlərlə ziddiyyət təşkil edir.

Hadisənin Ömərin xilafəti dövründə baş verdiyinə dair Nəsr ibn Müzahimin rəvayətini Səffar "Bəsairud-dərəcat"da və Kuleyni "əl-Kafi"də nəql edib. Onlar barədə kitabın ikinci cildinin beşinci babının birinci fəslində, ikinci iddia sərlövhəsi altında bəhs etmiş, sənəd və dəlalət cəhətindən zəif olduğunu bildirmişdik.

Bunun İmam Əlinin (ə) xilafəti dövründə baş verdiyini bildirən rəvayətə gəldikdə, Qazi Nüman Məğribi (vəfatı: h.q 363) "Şərhul-əxbar"da, Şeyx Müfid (vəfatı: h.q 413) "əl-İrşad"da nəql ediblər. Orada qeyd olunur ki, İmam Əli (ə) Hüreys ibn Cabir Hənəfini Məşriqə vali təyin etdi. O da Yəzdəgird ibn Şəhriyar ibn Kəsranın iki qızını İmamın (ə) hüzuruna göndərdi. Onlardan birini Hüseyn (ə) aldı və ondan Zeynəlabidin (ə) dünyaya gəldi. Digər qızı isə Muhəmməd ibn Əbu Bəkrə verdi. Ondan da Qasim ibn Muhəmməd ibn Əbu Bəkr doğuldu.[1236]

Amma hadisənin Osmanın xilafəti dövründə baş verdiyinə dair nəql olunan rəvayət Əbu Əli Hüseyn ibn Əhməd Beyhəqinin vasitəsilə nəql olunub ki, orada da ravilərin əksəriyyəti məchuldur.

İhsan Zahir adəti üzrə oxucunu yayındırmağa çalışıb. Belə ki, ötən bəhslərdə Yəzdəgirdin qızlarını Əhli-Beytə (ə) Ömərin hədiyyə etdiyini söyləmiş, burada isə Osmanın hədiyə verdiyini dəlil kimi təqdim etmişdir. Oxucu bir az diqqətli olsa Osmanın Əhli-Beytə (ə) ikramına dair İhsan Zahirin dəlil göstərməkdə necə aciz qaldığını, o səbəbdən belə bir yola əl ataraq zəif sənədli və öz iddiasına zidd məzmunlu xəbərdən başqa bir şahid tapa bilmədiyini aydın görəcək. Lakin bunda təəccüblü bir şey yoxdur. Çünki Osmanla Peyğəmbər (s) nəvələrini bir-birinə bağlayacaq

[1236] Şərhul-əxbar, Qazi Nüman Məğribi, c. 3, s. 266; əl-İrşad, Şeyx Müfid, c. 2, s. 137; Biharul-ənvar, Əllamə Məclisi, c. 46, s. 12

heç bir hadisə olmayıb. Əksinə, onların arasındakı pis münasibətin acı nəticəsi Osmanın yaxın qohumları olan Əməvilərin Kərbəlada Peyğəmbər (s) nəvələrinin başına gətirdiyi müsibətdir.

Təbərinin "Tarix"ində deyilir: *"Camaat Hüseynin qadınlarına, zinət əşyalarına və mallarına düşməncəsinə hücum çəkdi. Qadın gördükdə çiynindəki örtüyünü dartır, ona görə bir-biri ilə mübarizə aparır və götürüb qaçırdılar".*[1237]

Buxari "Səhih"də Ənəs ibn Malikə istinadən yazır: *"Hüseyn ibn Əlinin (ə) başı Übeydullah ibn Ziyada gətirilib qarşısında bir tasa qoyuldu. O, əlindəki çubuqla başı oyan-buyana çevirir və gözəlliyi barədə bəzi (çirkin) sözlər söyləyirdi". Ənəs deyir: "Hüseyn Peyğəmbərə (s) ən çox bənzəyən şəxs idi". Həmin vaxt Hüseynin başı qara rəngli vəsmə bitkisi ilə boyanmışdı".*[1238]

Tirmizi də həmçinin Ənəsə istinadən öz "Sünən"ində yazır: *"İbn Ziyadın yanında idim, Hüseynin kəsilmiş başı gətirildi. Öz çomağı ilə onun burnunu-qulağını oynadır və deyirdi: "Bunun kimi gözəl görməmişəm". Ənəs dedi: "O, insanların arasında Peyğəmbərə (s) ən çox bənzəyən şəxs idi".*[1239]

Peyğəmbərin (s) yaxınlarına qarşı bu tərz hücumlar və ehtiramlarının ayaqlar altına atılması heç də bir anın, bir günün və ya bir ilin nəticəsi deyildi. Bunu yaradan amillərdən biri də Osmanın Əhli-Beytə (ə) qarşı formalaşdırdığı münasibət idi. Onun Peyğəmbər (s) səhabələri tərəfindən qətli də xüsusən səhabələrə, ümumən isə camaata qarşı apardığı yanlış siyasətinin nəticəsi idi. Təbəri öz "Tarix"ində yazır: *"Osmanın etdiklərini gördükdə Mədinədəki Peyğəmbər (s) səhabələri ətraf məntəqələrə dağılmış səhabələrə məktub yazdılar: "Siz Allah yolunda Muhəmmədin (s) dini üçün səy göstərdiyiniz halda, ardınızdan onun dini fəsada uğradı və tərk edildi.*

[1237] Tarix, Təbəri, c. 4, s. 346
[1238] Səhih, Buxari, c. 4, s. 216
[1239] Sünən, Tirmizi, c. 5, s. 325

Yanımıza gəlin, Peyğəmbərin dinini bərpa edin". Uzaq yerlərdən gəlib nəhayət onu (Osmanı) qətlə yetirdilər".[1240]

İbn Əsir də özünün "Tarix" əsərində 34-cü hicri ilinin hadisələrini qeyd edərkən yazır: *"Həmin ildə bir dəstə Peyğəmbər (s) səhabəsi və başqaları digər səhabələrə məktub göndərdilər: "Buraya gəlin, cihad buradadır. Camaat Osmana qarşı çox ciddidir, heç kimdən görmədikləri pislikləri ondan çəkiblər. Səhabələrdən yalnız az sayda adam: Zeyd ibn Sabit, Əbu Üseyd Saidi, Kəb ibn Malik və Həssan ibn Sabit onu müdafiə etdilər".*[1241]

Bu sözləri nəzmə çəkmiş Qazi Əbu Bəkr ibn Əbu Qüreyəyə Allah rəhmət etsin:

Ey hər bir çətin və əhəmiyyətsiz
Məsələlər haqqında inadla soruşan!
Örtüyün üzərini açma!
Əgər sən meyitin üstünü açsan
Orada örtülüb gizlədilənlər
Məxmər altından təbil səsi kimi zahir olar.
Həqiqətən, cavab hazırdır.
Lakin mən onu gizlədirəm.
Əgər rəyətə əhəmiyyət verilməsə
Siyasəti xəlifənin özünə qarşı çevrilər,
Qılınclar ona düşmən kəsilər.
Başımıza heç vaxt döyülməzdi.
Ali Muhəmmədin sirlərini
İncə, lətif cümlələrlə yayardım.
Malikin və Əbu Hənifənin rəvayətlərinə
Sizin artıq ehtiyacınız qalmazdı.

[1240] Tarix, Təbəri, c. 3, s. 400-401
[1241] əl-Kamilu fit-tarix, İbn Əsir, c. 3, s. 150-151

Həqiqətdə Hüseynə, məhz
Səqifə günü müsibət toxunduğu,
Fatimənin nəyə görə gecə ikən
Dəfn edildiyi sizə göstərilər.
Onun möhtərəm evinə iki şeyxinizin
Nə üçün basqın etdiyini bilərsiniz.
Ah, Muhəmmədin qızı
Qəlb yandıran qüssə ilə öldü!

8. Əhli-Beytin (ə) Osmana sevgi və ehtiramla qarşılıq verdiyi iddiası

İhsan Zahir Osmanın İmam Həsən və İmam Hüseynə (ə) hörmət bəslədiyini, onları sevdiyini, üsyan vaxtı evi mühasirə olunduqda onların Osmanı müdafiə etdiklərini və s. iddia edərək, əsasən Əhli-Sünnə və bəzi şiə mənbələrindən dəlillər nəql edir. O, Əhli-Beytin (ə) Osmana sevgi və məhəbbətlə qarşılıq verdiyini, buna dəlil kimi isə çətin anlarında onu müdafiə etdiklərini və qətlə yetirildikdən sonra dəfn olunmasında yaxından iştirak etdiklərini bildirir. Bu sözlərinə Bəlazurinin "Ənsabul-əşraf"ından, Təbərinin "Tarix"indən, İbn Əbülhədidin və İbn Meysəm Bəhraninin "Nəhcül-Bəlağə"yə yazdıqları şərhlərindən, İbn Xəyyatın "Tarix"indən, Muhəmməd Təqinin "Nasixut-təvarix"indən, Məsudinin "Murucuz-zəhəb"indən rəvayətlər nəql edir.

Eləcə də Osmanın Peyğəmbərin (s) iki qızı ilə evli olmasını, öz oğullarını Peyğəmbər (s) ailəsinin qızları ilə evləndirməsini, Əhli-Beytin (s) öz övladlarına Osmanın adını verməsini bu sevgi və xoş münasibətə dəlil kimi göstərir.

İhsan Zahir yazır: **"Osmanın evi zalım üsyankarlar tərəfindən mühasirəyə alındıqda Əli iki oğlunu oraya göndərib dedi: "Qılınclarınızı götürüb Osmanın qapısının qarşısında dayanın, ona əl**

uzatmağa heç kəsə imkan verməyin". (Ənsabul-əşraf, Bəlazuri, c. 5, s. 68-69, Misir çapı)

Həmçinin bir çox Peyğəmbər (s) səhabəsi də öz övladlarını Osmanı camaatdan müdafiə etmək üçün göndərmişdilər. Oraya gedib qapısının qarşısını kəsənlərin arasında Əlinin əmisi Abbasın oğlu Abdullah da var idi. Həmin çətin və acılı günlərdə Osman Abdullaha Həcc ziyarətinə rəhbərliyi həvalə etdikdə o dedi: "Ey möminlərin əmiri, Allaha and olsun ki, bunlara qarşı mübarizə aparmaq mənim üçün Həccə rəhbərlik etməkdən daha xoşdur". Ancaq Osman bu işi icra etməsi üçün ona Allahı and verdi". (Tarixul-uməm vəl-muluk, 35-ci ilin hadisələri)

Həmçinin Əli Mürtəzanın (r) özü də məsələnin ilk anından etibarən onu müdafiə etmiş, özü şəxsən dəfələrlə evinin qarşısına gəlmiş, oraya toplaşan camaatı qovmuş, qardaşı oğlu Abdullah ibn Cəfər yanında ikən Osmanla görüşmüşdü". (Şərhu Nəhcül-Bəlağə, İbn Əbülhədid, c. 10, s. 581, İran çapı)

"Uzun müddət dili və əli ilə müdafiə etdikdən sonra onun yanından uzaqlaşdı" (Şərhu Nəhcül-Bəlağə, İbn Meysəm Bəhrani, c. 4, s. 345, Tehran çapı).

"Əli, dili və övladlarının vasitəsilə onu müdafiə etdi, lakin son nəticədə fayda vermədi" ("Şərhu Nəhcül-Bəlağə", İbn Əbülhədid).

Əlinin özü də bu hadisələri yad edərək deyir: "Allaha and olsun, (kömək edərək) onu elə müdafiə etdim ki, günahkar olmağımdan qorxdum" (Şərhu Nəhcül-Bəlağə, İbn Əbülhədid, c. 3, s. 286).

Belə ki, Zu-nureyn onu müdafiə etməmələrini istəmiş və demişdi: "Sizə silahlarınızı yerinə qoyub evlərinizə qayıtmağı əmr edirəm" (Tarix, Xəlifə ibn Xəyyat, c. 1, s. 151-152, İraq çapı).

"Həsən ibn Əli, Abdullah ibn Zübeyr, Muhəmməd ibn Təlhə... və onlarla bərabər ənsardan bir dəstə adamın övladı camaatın

qarşısını kəsərək Osmanı qoruyurdular. Osman isə onlara dedi: "Siz mənə yardım etməkdən azadsınız" (Şərhu Nəhcül-Bəlağə, "Osmanın mühasirəsi və sudan məhrum edilməsi" başlığı).

"Əhli-Beyt və əshabın yaralanan övladlarının arasında Həsən ibn Əli və azad etdikləri qulları Qənbər də var idi" (Ənsabul-əşraf, Bəlazuri, c. 5, s. 95; əl-Bidayətu vən-nihayə, "Osmanın qətli" başlığı).

Zalım üsyankarlar Osmanı sudan məhrum etdikdə Əli üzünü onlara tutub dedi: "Ey camaat! Sizin etdiyiniz nə möminə və nə də kafirə yaraşan hərəkətdir. Farslar və rumlar əsir götürdükləri şəxslərə su və qida verirlər. Allaha and verirəm ki, onu sudan məhrum etməyəsiniz!" Sonra Bəni-Haşim gəncləri ilə Osman üçün üç tuluq su göndərdi" (Nasixut-təvarix, c. 2, s. 531. Bunun eynisi Bəlazurinin "Ənsabul-əşraf"ında da nəql olunub (c. 5, s. 69).

Sonda Məsudinin "Tarix"indən baş vermiş faciədən bir parçanı qeyd etmək istəyirik: "Osmanı qətlə yetirmək istədikləri xəbəri Əliyə çatdıqda oğlanları Həsən və Hüseyni azad edilmiş kölələri ilə birlikdə onun yardımına göndərdi, silahları ilə qapısının qarşısında dayanıb camaatdan müdafiə etmələrini buyurdu. Zübeyr oğlu Abdullahı, Təlhə oğlu Muhəmmədi və bir çox səhabələr də övladlarını bu məqsədlə Osmanın evinin qarşısına göndərdilər. Onlar camaatı Osmanın evindən uzaqlaşdırdılar. Camaat tərəfindən oxlar atıldı, çaxnaşma düşdü. Bu vaxt Həsən və Muhəmməd ibn Təlhə yaralandı, Qənbərin başı yarıldı. Camaat Haşim və Üməyyə oğullarının onlara qarşı hərəkətə keçəcəyindən qorxdu, qapının qarşısında savaşmaqdan çəkindilər. Onların bir hissəsi (həyəti Osmanın evinə bitişik olan) ənsarlardan birinin evinə tərəf gedib hasarlarına dırmandı. Hasardan içəri aşanların arasında Muhəmməd ibn Əbu Bəkr və başqa iki nəfər var idi. Həmin vaxt Osman və zövcəsi evdə idilər, ailəsi və azad etdiyi kölələri isə

camaatla vuruşurdular. Muhəmməd ibn Əbu Bəkr[1242] saqqalından yapışıb dedi: "Ey Muhəmməd, Allaha and olsun ki, əgər atan səni indi görsəydi, bu vəziyyətin ona heç də xoş gəlməzdi". Evdən uzaqlaşdı. Digər iki nəfər isə içəri girdi, onu tapıb qətlə yetirdilər. Həmin vaxt Osman qarşısına Quran qoyub oxuyurdu. Osmanın zövcəsi dama qalxıb yüksək səslə "Möminlərin əmiri öldürüldü!" deyə car çəkdi. Həsən, Hüseyn və onlarla birlikdə evin qarşısına toplaşan Üməyyə oğulları içəri daxil oldular və Osmanın artıq canını tapşırdığını görüb ağladılar.

Bu xəbər Əliyə, Təlhəyə, Zübeyrə, mühacir və ənsara yetişdi. Əli hüznlü halda içəri girib oğlanlarına "Siz qapının qarşısında olduğunuz halda möminlərin əmiri necə qətlə yetirildi?" dedi, ardınca Həsənə sillə, Hüseynin isə sinəsinə vurdu, Muhəmməd ibn Təlhəni danlayıb Abdullah ibn Zübeyri lənətlədi" (Murucuz-zəhəb, Məsudi, c. 2, s. 344, Beyrut çapı).

O və ailəsi ilə Osmanı gecə ikən dəfn edənlərin arasında idilər. Mötəzili-şiə İbn Əbülhədidin də qeyd etdiyi kimi, Osmanın cənazə namazını da qıldılar: "Aralarında Həsən ibn Əli, İbn Zübeyr, Əbu Cəhm ibn Hüzeyfənin olduğu az sayda adam məğriblə gecəyarısı arasında onu Mədinənin Həşş-Kövkəb kimi tanınan divarlarından birinin kənarına gətirdilər. Bura Bəqi qəbiristanlığının çöl divarı idi. Orada Osmana namaz qıldılar" ("Şərhu Nəhcül-Bəlağə", şiə İbn Əbülhədid, c. 1, s. 97, İran çapı; c. 1, s. 198, Beyrut çapı).

Əhli-Beytin Osmana qarşı mehriban münasibət təzahürlərindən biri də öz qızlarını həm Osmanla, eləcə də Osmanın oğlanları ilə evləndirmələridir. Məxluqların ən xeyirlisi özünün iki qızını

[1242] Əsl mənbədə Muhəmməd ibn Əbu Bəkrin Osmanın saqqalından tutduğu qeyd edilib (tərc.)

Osmana vermiş, Əhli-Beyt isə öz övladlarına Osmanın adını qoymuşdur...”[1243]

Cavab:

İslam tarixinə, xüsusilə Osmanın xilafət dövrünə ötəri nəzər salan şəxs İhsan Zahirin həmin dövrə, Osmana qarşı üsyan və qətlə yetirilməsi hadisələrinə primitiv və səthi yanaşdığını görəcək. O, şiə mənbələri kənara dursun, hətta İslam tarixinin sonrakı gedişatına açıq-aydın təsir göstərən həmin hadisələri nəql edən əsas Əhli-Sünnə mənbələrinə belə müraciət etməmişdir. Həvaye-nəfsinə əsaslanıb hadisələri yönləndirmək istədiyi məcraya uyğun sözlərlə ifadə etmişdir. Üsyançıların Osmanı mühasirəyə alıb qətlə yetirdiklərini, səhabələrin onu müdafiə etdiklərini, Osmanın isə onu müdafiə edə bilməyəcəklərini düşünüb onları bu işdən çəkindirdiyini İslam tarixini araşdıran hansı şəxs təsdiqləyər?!

Osmana qarşı üsyan və onun qətli hadisəsi barədə rəvayətləri, həmin üsyanda Əhli-Beytin (ə) və səhabələrin mövqeyini qeyd etmişik. Burada onları təkrarlamaq istəmirik. Yalnız ardıcıllıq üzrə onun iddialarına təqdim etdiyi dəlilləri araşdıracağıq:

Birinci dəlil: Həsən (ə) və Hüseynin (ə) Osmanı müdafiə etdikləri iddiası

İhsan Zahir Osmanın çətin günlərində Əhli-Beytin (ə) onun müdafiə etdiyini, Möminlərin əmiri Əlinin (ə) Peyğəmbərin (s) nəvələrini evinin qarşısına göndərdiyini iddia edir. Bu iddiasına isə Bəlazurinin “Ənsabul-əşraf”ındakı sözlərini dəlil göstərir.[1244]

[1243] Şiə və Əhli-Beyt, İhsan Zahir, s. 147-149.

[1244] İhsan Zahir deyir: **“Osmanın evi zalım üsyankarlar tərəfindən mühasirəyə alındıqda Əli iki oğlunu oraya göndərib dedi: “Qılınclarınızı götürüb Osmanın qapısının qarşısında dayanın, ona əl uzatmağa heç kəsə imkan verməyin” (“Ənsabul-əşraf”, Bəlazuri, c. 5, s. 68-69, Misir çapı)”.** (Şiə və Əhli-Beyt, s. 147)

Müzakirə:

Birinci: Osmana qarşı üsyana qalxmış şəxsləri "zalım üsyankarlar" kimi vəsf etməsi Peyğəmbər (s) səhabələrinə qarşı açıq-aydın ehtiramsızlıqdır. Belə ki, Osmanın evini mühasirəyə alanlar səhabə idilər və bunda heç bir fikir ayrılığı yoxdur. Yalnız onu öldürən şəxslər barəsində ixtilaf mövcuddur. Təbərinin "Tarix"ində Əbdürrəhman ibn Yəsardan rəvayət olunur: *"Osmanın etdiklərini gördükdə Mədinədəki Peyğəmbər (s) səhabələri ətraf məntəqələrə dağılmış səhabələrə məktub yazdılar: "Siz Allah yolunda Muhəmmədin (s) dini üçün səy göstərdiyiniz halda, ardınızdan onun dini fəsada uğradı və tərk edildi. Yanımıza gəlin, Peyğəmbərin dinini bərpa edin". Uzaq yerlərdən gəlib nəhayət onu (Osmanı) qətlə yetirdilər".*[1245]

İbn Əsir də özünün "Tarix" əsərində 34-cü hicri ilinin hadisələrini qeyd edərkən yazır: *"Həmin ildə bir dəstə Peyğəmbər (s) səhabəsi və başqaları digər səhabələrə məktub göndərdilər: "Buraya gəlin, cihad buradadır. Camaat Osmana qarşı çox ciddidir, heç kimdən görmədikləri pislikləri ondan çəkiblər. Səhabələrdən yalnız az sayda adam: Zeyd ibn Sabit, Əbu Üseyd Saidi, Kəb ibn Malik və Həssan ibn Sabit onu müdafiə etdilər".*[1246]

Zəhəbinin "Tarixul-İslam" kitabında isə qeyd edilir: *"Osmanı yalqız qoyub üsyana qoşulmayan Peyğəmbər (s) səhabələri məsələnin onun öldürülməsi həddinə çatmayacağını zənn edirdilər. O, qətlə yetirildikdə isə bu məsələdə onu tənha qoyduqlarına peşman oldular".*[1247]

Zəhəbinin məsələnin Osmanın qətli ilə başa çatmayacağı gümanı, Osmanı tərk etdiklərinə görə sonrakı peşmanlığı səhabələr üçün üzr gətirməsi dəlilsiz bir iddiadan və havadan söylənmiş sözdən savayı bir şey deyil. Zənn isə əsla həqiqəti əvəzləyə bilməz. Əgər Zəhəbinin əlində

[1245] Tarix, Təbəri, c. 3, s. 400-401

[1246] əl-Kamilu fit-tarix, İbn Əsir, c. 3, s. 150-151

[1247] Tarixul-İslam, Zəhəbi, c. 3, s. 448

buna dair səhih bir dəlil olsaydı, bunu əldən buraxmaz və sözünün ardınca nəql edərdi.

Əksinə, Osmana qarşı qalxmış mühacir və ənsarın onun qətlindən əvvəl və sonra sabit mövqeyi olduğuna dair bir çox rəvayət və tarixi faktlar mövcuddur. Təbərinin "Tarix"ində Siffin döyüşü ilə bağlı hissədə qeyd edilir: *"Haşim ibn Ütbə Zöhri axşam vaxtı camaata səslənib dedi: "Kim Allahı və axirət yurdunu diləyirsə, mənə tərəf gəlsin!"Bir çox adam ona tərəf yürüdü. Şamlıların arasından da bir dəstə adam Əlinin ordusuna qoşulurdu....Sonra aralarında qarilərin də olduğu bir dəstə ilə döyüşə atıldı. O və yoldaşları axşamadək döyüşdülər...*

Ravi deyir: Onlar savaşdıqları vaxtda bir gənc qarşılarına çıxıb dedi:...

Hişam ibn Ütbə isə ona cavab olaraq belə söylədi: "Ey Allah bəndəsi! Sənin sözlərindən sonra mübahisə, bu döyüşdən sonra isə haqq-hesab var. Sən Allahın hüzuruna getdikdə O, sənin bu mövqeyin və məqsədin barədə mütləq soruşacaq".

Gənc dedi: "Sizinlə ona görə döyüşürəm ki, mənə sizin və dostunuzun (İmam Əlinin) namaz qılmadığını bildiriblər. Ona görə sizinlə döyüşürəm ki, dostunuz bizim xəlifəmizi öldürmüş, siz də ona yardım etmişsiniz".

Hişam dedi: "Sən Əffanın oğlu deyilsən (ki, qisas tələb edəsən)! Osmanı Muhəmmədin səhabələri, səhabələrin oğulları və camaatın qariləri öldürüblər. Osman etdiyini etdi, Kitabın hökmünə qarşı çıxdı. Ona qarşı çıxanlar isə din əhli, camaatın işlərinə nəzər yetirməkdə səndən və yoldaşlarından daha layiq olan şəxslərdir. Bu ümmətin və dinin işlərinə bir an da olsun etinasız yanaşmaram".[1248]

Həmçinin Siffin savaşında baş verən hadisələri qeyd edərək yazır: *"Həmin gün Əmmar ibn Yasir (r) dedi: "Allahın razılığını diləyənlər, mal və övlada meyl etməyənlər haradadır?!" Bir dəstə adam onun ətrafına toplaşdı. Dedi: "Ey camaat, bizimlə birlikdə Osmanın məzlum olaraq*

[1248] Tarix, Təbəri, c. 4, s. 30; Tarix, İbn Əsir, c. 3, s. 313

öldürüldüyünü və onun qisasını tələb etdiklərini iddia edən bu camaata qarşı hücuma keçin. Onlar dünyanı dadmış, onu sevmiş və ondan ləzzət alan kəslərdir. Bilirlər ki, əgər haqqa boyun əysələr bu, onlarla dünyadakı ləzzətlərinin arasında maneəyə çevriləcək..."[1249]

Nəsr ibn Müzahimin "Siffin" kitabında yazılıb: *"Əmmar ibn Yasir Siffində camaatın arasına qalxıb dedi: "Ey Allah bəndələri, özünə zülm edənin və Allahın bəndələri üzərində Onun kitabından fərqli bir şeylə hökm verənin qanının intiqamını tələb etdiklərini iddia edən dəstənin üzərinə mənimlə birlikdə gedin! Onu (Osmanı) öldürənlər saleh, zülmə nifrət bəsləyən və yaxşılıqları əmr şəxslərdir".*[1250]

İbn Əsakir Əbdürrəhman Həmədani sənədilə rəvayət edir ki, Müaviyə Əbu Tüfeyl Amir ibn Vasiləyə dedi: *"Sən Osmanın qatillərindənsən!" Əbu Tüfeyl ona belə cavab verdi: "Xeyr, lakin mən orada iştirak edib, ona yardım etməyənlərdənəm". Müaviyə ona niyə yardım etmədiyini soruşduqda isə dedi: "Ona nə mühacirlər, nə ənsar, nə də ki sən kömək etdin". Müaviyə dedi: "Onun intiqamını tələb etməyim elə ona yardımımdır". Əbu Tüfeyl gülüb dedi: "Sən və Osman?! Şair yaxşı deyib:*

Ölümümdən sonra sən mənim üçün növhə deyirsən,

Halbuki həyatda ikən mənim heç bir yükümü çəkmədin" .[1251]

Bu rəvayət, hədis və xəbərlər aydın şəkildə səhabələrin Osmanın qətlindən əvvəl də, sonra da qəti mövqelərinin olduğuna dəlalət edir. Səhabələrin etiqadına əsasən, Osman kitab və sünnəyə qarşı çıxmış, bu səbəbdən də haqlı olaraq öldürülmüşdü.

Həmçinin Aişə, Təlhə və bir dəstə böyük səhabə Osmana qarşı camaatı təhrik edənlərin önündə gedirdilər. Bu çağırış və təhriklər müsəlmanların düşüncəsinə təsir göstərmiş, Osmana qarşı onların qəlbində ikrah və nifrət yaratmışdı ki, sonda onun qətli ilə nəticələndi.

[1249] Tarix, Təbəri, c. 4, s. 27

[1250] Vaqətu Siffin, Nəsr ibn Müzahim, s. 319

[1251] Tarixu mədinəti Dəməşq, İbn Əsakir, c. 26, s. 117

Buradan aydın olur ki, Osmana qarşı təhrik edənlər, ona qarşı üsyana qalxanlar, mühasirəyə alıb qətlə yetirənlər heç də İhsan Zahirin iddia etdiyi kimi, zalım üsyankarlar deyil, Peyğəmbər (s) səhabələri olmuşlar!

İkinci: Bəlazuri Əhli-Sünnə alimlərindəndir. Onun "Ənsabul-əşraf" kitabı da Əhli-Sünnənin mühüm mənbələrindən biri sayılır. İbn Həcər "Lisanul-mizan"da onun tərcümeyi-halında yazır: *"Əhməd ibn Yəhya ibn Cabir ibn Davud Bəlazuri, kitab müəllifidir, İbn Səddən, Dulabidən, Əffandan, Şeyban ibn Fərruxdan, İbn Mədinidən rəvayətlər eşidib. Ondan isə Muhəmməd ibn Xələf, Vəki Qazi, Yaqub ibn Nüeym, Əhməd ibn Əmmar, Yəhya ibn Nədim və başqaları rəvayət eşidib nəql ediblər..."*[1252]

İbn Əsakir də öz "Tarix"ində onun tərcümeyi-halını qeyd edib: *"Əhməd ibn Yəhya ibn Cabir ibn Davud, Əbülhəsən, Əbu Cəfər və Əbu Bəkr də deyilib, Bağdadi Bəlazuri. Yazıçı, tarix kitabı müəllifidir... Bəlazurinin ədəbiyyatçı olduğu xəbəri də bizə yetişib. Yaxşı kitabları var, Məmunu mədh edib, Mütəvəkkilin yanında olub, Mötəmidin hakimiyyəti dövründə vəfat edib. Ömrünün sonunda vəsvəsəyə düçar olub".*[1253]

İhsan Zahirin bu kitabdan şiəyə dəlil göstərməsi olduqca qəribədir. Halbuki Əhli-Sünnənin bəhs qaydalarına əsasən, sənədində etibarlı sayılan bir şiə olduqda belə həmin hədis və rəvayətlər rədd olunur. Buna görə də Peyğəmbərin (s) vəsiliklə və İmam Əlini (ə) vəsi təyin etməsi ilə bağlı rəvayətlər inkar edilib. İbn Cövzi deyir: *"İyirmi dördüncü hədis: Ona (İmam Əliyə) vəsiyyətini Salman rəvayət edir. Rəvayətin dörd nəql yolu var... Dördüncü nəql Qeys ibn Minahın Salmandan rəvayət etdiyidir. Deyir: "Peyğəmbər (s) buyurdu: "Mənim vəsim Əli ibn Əbu Talibdir"... Dördüncü nəql yolundakı ravi Qeys (ibn) Minah böyük şiələrdəndir. Bu hədisə etina olunmaz".*[1254]

[1252] Lisanul-mizan, İbn Həcər Əsqəlani, c. 1, s. 322-323
[1253] Tarixu mədinəti Dəməşq, İbn Əsakir, c. 6, s. 74
[1254] əl-Movzuat, İbn Cövzi, c. 1, s. 374-376

Əhli-Sünnə rəvayətini şiəyə necə dəlil kimi göstərə bilər?! Halbuki bəhs qayda və tələblərinə əsasən, qarşı tərəfə yalnız özlərinin və məqbul saydıqları mənbələrdən dəlil təqdim edilməlidir.

Üçüncü: İhsan Zahirin Bəlazurinin "Ənsab"ından nəqlən İmam Əlinin (ə) oğlanlarına söylədiyi *"Qılınclarınızı götürüb Osmanın qapısının qarşısında dayanın, ona əl uzatmağa heç kəsə imkan verməyin"* sözünə gəldikdə, bu, uzun rəvayətin bir parçasıdır. Bəlazuri həmin mətndə Osmanın qətl hadisəsini hekayə edir. İhsan Zahirin qeyd etdiyi parçadan fərqli olaraq mətndən daha düzgün mənalar anlaşılır. Həmin mənanı qeyd etməzdən öncə Bəlazurinin kitabındakı sözləri sizə tam mətnlə təqdim edirik:

"Əbülvəlid Hişam ibn Əmmar Dimaşqı mənə Muhəmməd ibn Səmidən, o da Muhəmməd ibn Əbu Zibdən, o da İbn Şihab Zuhridən, o da Səid ibn Müseyyibdən nəql edir: "Misirlilər gəlib Abdullah ibn Səd ibn Əbu Sorhdan şikayət etdilər və Osmandan onun yerinə Muhəmməd ibn Əbu Bəkri təyin etməsini istədilər. Osman məktub yazıb onu artıq vəzifəyə təyin etdiyini bildirdi. Bir dəstə mühacir və ənsarı onlarla bərabər Misirə göndərdi ki, İbn Əbu Sorhla aralarında baş verənlərə nəzarət etsinlər. Muhəmməd ibn Əbu Bəkr və misirlilər yola düşdülər, Mədinədən üç gecəlik yol məsafəsində uzaqlaşmışdılar ki, bir qulamın dəvənin üzərində sürətlə çapdığını gördülər. Sanki, qulam nəyinsə ardınca tələsir, yaxud kimsə onu qovurdu. Muhəmməd ibn Əbu Bəkrin əshabı (onu saxlayıb) nə baş verdiyini və nə üçün tələsdiyini, kimdən qaçdığını və ya kimi qovduğunu soruşdular. Qulam onlara gah: "Mən Möminlərin əmirinin (Osmanın) qulamıyam", gah da: "Mərvanının qulamıyam, Misirdəki valiyə məktubunu çatdırmaq üçün göndərilmişəm" dedi. Məktubun onda olub-olmadığını soruşduqlarında "Məndə deyil" deyə cavab verdi. Üzərini axtardılar, lakin heç bir şey tapmadılar. Qulamın yanında dəridən kiçik su tuluğu var idi, içi quru idi, içərisində nə isə var idi. İçindəkini çıxarmaq üçün onu silkələdilər, ancaq çıxara bilmədilər. Onu

kəsdikdə içində Osmanın İbn Əbu Sorha göndərdiyi məktubu tapdılar. Muhəmməd ibn Əbu Bəkr yanındakıları, mühacir və ənsarı bir yerə toplayıb onların gözlərinin qarşısında məktubu açdı. Orada yazılmışdı: "Muhəmməd ibn Əbu Bəkr və filan-filan kəslər yanına gəlib çatdıqda onların qətli üçün bir hiylə qur, Muhəmmədin məktubunu məhv et. (Yeni) əmrim sənə çatanadək işinin başında ol. Səndən şikayətə gələnləri də həbs et, inşallah".

Məktubu oxuyub qorxuya düşdülər və Mədinəyə qayıtdılar. Muhəmməd ibn Əbu Bəkr məktubu yanındakı adamların möhürü ilə möhürlədi və adamlarından birinə verdi.

Mədinəyə gəldilər. Ardınca Təlhəni, Zübeyri, Əlini, Sədi və digər səhabələri bir yerə toplayıb onların hüzurunda məktubu açdılar. Yolda saxlanılmış qulamın əhvalatını danışdıqdan sonra məktubu onlara oxudular. Mədinə əhlindən Osmana qəzəblənməyən qalmadı. Onun İbn Məsuda, Əbuzərə və Əmmara qarşı etdiklərinin də yada düşməsi qəzəblərini daha da artırdı. Muhəmmədin (s) səhabələri onların yanına gəldi və Osmanın evini mühasirəyə aldılar. Muhəmməd ibn Əbu Bəkr Bəni-Təmimi və digərlərini də çağırtdırdı. Ona bu işdə Təlhə ibn Übeydullah yardım edirdi. Aişə (r) də onu (Osman) çox tənqid və təhqir edənlərdən biri idi.

Əli bunu görüb Təlhəni, Zübeyri, Sədi, Əmmarı və Peyğəmbərin (s) Bədrdə iştirak edən səhabələrini çağırtdı. Məktubu götürüb qulamı və dəvəsi ilə birlikdə Osmanın yanına gəldi və dedi: "Bu sənin qulamındır?" Osman "Bəli" deyə cavab verdi.

Əli: Dəvə də sənindir?

Osman: Bəli.

Əli: Bu məktubu sən yazmısan?

Osman "Xeyr" deyib ardınca and içdi ki, nə onu yazıb və nə də yazılmasına göstəriş verib.

Əli (r) dedi: "Məktubdakı sənin möhüründür?"

Osman: Bəli.

Əli (r): Qulamın sənin dəvənin üzərində və üzərində sənin möhürün olan məktubla göndərilir, lakin sənin bundan xəbərin yoxdur?!

Osman yenə həmin məktubu yazmadığına və yazdırmadığına, həmin qulamı Misirə göndərmədiyinə Allaha şahid tutub and içdi.

Məktubdakı xətti tanıdılar, bu, Mərvanın xətti idi. Osmana (r) şikayət edib Mərvanı onlara vermələrini tələb etdilər. Lakin Osman Mərvanı təslim etməkdən boyun qaçırdı. (Mərvan həmin vaxt Osmanın evində gizlənmişdi). Muhəmməd ibn Əbu Bəkrin əshabı qəzəbli halda onun yanından çölə çıxdılar. Osmanın bu işindən olduqca narazı idilər. Bilirdilər ki, o, yalandan and içməz. Lakin bir dəstə adam dedilər: "Osman Mərvanı haqq-hesab çəkmək və məktubla bağlı məsələni izah etmək üçün bizə vermədikcə qəlbimizdə ona qarşı heç bir üzr ola bilməz. Mərvan Peyğəmbər (s) səhabələrinin öldürülməsinə hansı haqla göstəriş verə bilər?! Əgər bunu Osman yazıbsa, onu xəlifəlikdən çıxaracağıq, yox, əgər Mərvan onu Osmanın imlası ilə yazıbsa Mərvanla bağlı məsələni öz tərəfimizdən götür-qoy edə bilər".

Evlərini mühasirəyə aldılar, lakin Osman Mərvanı qətlə yetirəcəklərindən qorxub onu təhvil verməkdə imtina etdi. Camaat Osmanı mühasirədə saxlayıb su verilməsini belə qadağan etdi.

Osman camaata tərəf nəzər salıb Əlinin onların arasında olub-olmadığını soruşdu. "Yox" cavabı verildikdə, bu dəfə Sədin orada olub-olmadığını xəbər aldı. Lakin Sədin də onların arasında olmadığını bildirdilər. Osman bir az susdu, sonra dedi: "Bir kəs bizə su gətirməzmi?" Bu sözlər Əlinin qulağına çatdıqda ona üç tuluq su göndərdi. Lakin az qalmışdı ki, su ona çatmasın. Belə ki, suyu ona apararkən Bəni-Haşim və Bəni-Üməyyənin xidmətçilərindən bir neçəsi yaralandı.

Əli camaatın Osmanı qətlə yetirmək istədiklərindən xəbər tutduqda dedi: "Biz Mərvanı (təhvil verməsini) istəyirik, Osmanın öldürülməsini yox!" Bu

vaxt Həsən və Hüseynə səsləndi: "Qılınclarınızı götürüb Osmanın qapısının qarşısında dayanın, ona əl uzatmağa heç kəsə imkan verməyin".

Zübeyr və Təlhə də oğlanlarını məcburən onlarla bərabər göndərdi. Həmçinin bir dəstə Peyğəmbər (s) səhabəsi də övladlarını camaatın Osmanın evinə daxil olmasının qarşısını almaq və Mərvanı ondan tələb etmək üçün oraya göndərdi.

Muhəmməd ibn Əbu Bəkr camaatın Osmana tərəf ox atdıqlarını və qapının qarşısında dayanmış Həsənin bunun nəticəsində qanına bulaşdığı, evin içində Mərvana ox dəydiyini, eləcə də Muhəmməd ibn Təlhənin yaralandığını və Əlinin qulamı Qənbərin başının yarıldığını görüb Haşim oğullarının Həsən və Hüseynin düşdükləri vəziyyətdən qəzəblənəcəklərindən və ortaya fitnə salacaqlarından qorxdu. İki nəfərin əlindən tutub onlara dedi: "Əgər Haşim oğulları buraya gəlib Həsənin üzünü qanlar içində görsələr camaatı buradan dağıdacaq, sizin tələbiniz də puç olacaq. Gəlin bizimlə hasara dırmanıb evə girək, heç kəs bilmədən onu öldürək".

Muhəmməd və yoldaşları ənsardan birinin həyətinin divarına qalxaraq Osmanın evinə düşdülər. Onun yanında kimin olduğunu heç biri bilmirdi. Çünki onlar evin damında idilər. Osmanın yanında isə həmin vaxt yalnız zövcəsi var idi. Muhəmməd ibn Əbu Bəkr dedi: "Mən sizdən əvvəl evə daxil olacağam. Yaxaladıqda siz içəri girib onu öldürün".

Muhəmməd ibn Əbu Bəkr içəri daxil olub Osmanın saqqalından yapışdıqda Osman dedi: "Ey Muhəmməd, Allaha and olsun ki, əgər atan səni indi görsəydi, bu vəziyyətin heç də ona xoş gəlməyəcəkdi".

Muhəmmədin əli titrədi. Digər iki nəfər isə içəri girdi, ona hücum çəkib qətlə yetirdilər və tələsik halda gəldikləri yoldan evi tərk etdilər. Osmanın həyat yoldaşı səs-küy qaldırdı. Lakin qapının qarşısındakı qarışıqlıq səbəbindən onun səsini eşidən olmadı. Sonra dama qalxıb "Möminlərin əmiri öldürüldü!" deyə car çəkdi. Həsən, Hüseyn və onlarla birlikdə evin qarşısında toplaşan Üməyyə oğulları içəri daxil oldular və Osmanın

zərbətləndiyini gördülər, ona tərəf əyilib ağladılar. Evdən çıxdıqda camaat içəri daxil oldu və Osmanın öldürüldüyünü gördü.

Bu xəbər Əliyə, Təlhəyə, Zübeyrə, Sədə və Mədinədə olanlara yetişdi. Hamı çölə çıxdı. Eşitdikləri xəbər onların ağlını başlarından aparmışdı. Osmanın evinə gəlib qətlə yetirildiyinin şahidi oldular.

Əli oğlanlarına dedi: "Siz qapının qarşısında olduğunuz halda möminlərin əmiri necə qətlə yetirildi?" Əlini qaldırıb Həsənə sillə, Hüseynin isə sinəsinə vurdu, Muhəmməd ibn Təlhəni danlayıb Abdullah ibn Zübeyri lənətlədi. O, qəzəbli halda evdən çıxdıqda Təlhənin baş verənlərdən məmnun olduğunu gördü. Təlhə ona dedi: "Həsən və Hüseyni niyə vurursan?!" Əli dedi: "Allahın lənəti üzərinə olsun, bundan sevinməliyəm?! Möminlərin əmiri, Peyğəmbər (s) səhabəsi, Bədrdə iştirak etmiş şəxs heç bir şahid və dəlil təqdim edilmədən öldürüldü".

Təlhə: Əgər Mərvanı təhvil versəydi öldürülməyəcəkdi.

Əli: Əgər onu sizə versəydi məhkəmə qurmadan onu qətlə yetirəcəkdiniz.

Əli evinə döndü. Peyğəmbər (s) səhabələri və camaat "Möminlərin əmiri Əlidir!" deyərək qaça-qaça onun evinə tərəf yürüdülər. Evinə girib dedilər: "Əlini uzat, sənə beyət edək. Bizim mütləq bir rəhbərimiz olmalıdır".

Əli: Bu sizin vəzifəniz deyil. Rəhbər seçmək Bədr əhlinin haqqıdır. Onlar kimə razı olsalar, xəlifə də həmin şəxs olacaq.

Bədrdə iştirak edənlərin hamısı Əlinin yanına gəlib dedilər: "Xəlifəliyə səndən daha layiqli bir kəsi görmürük. Əlini uzat, sənə beyət edək".

Əli Təlhə və Zübeyrin harada olduğunu soruşdu. Təlhə gələrək ona dili ilə, Səd isə əli ilə beyət edən ilk şəxs oldular. Əli bunu görüb minbərə qalxdı. Minbərdə ikən Təlhə də ona əlini uzadıb beyət etdi. Təlhənin barmaqları qurumuşdu, Əli bunu pis əlamət kimi yozub dedi: "Beyətini pozmağa nə münasibdir!" Sonra Zübeyr, Səd və bütün Peyğəmbər (s) səhabələri də ona beyət etdilər. Ardınca minbərdən enib camaatı, Mərvanı və Əbu Muit oğullarını çağırdı. Lakin onlar qaçdılar.

Aişə (r) ağlayaraq çölə çıxıb dedi: "Osman öldürüldü, Allah ona rəhmət etsin!"

Əmmar ibn Yasir dedi: "Sən dünən camaatı ona qarşı təhrik edirdin, bu gün isə onun üçün ağlayırsan?!"

Əli Osmanın zövcəsinin yanına gəlib dedi: "Osmanı (Allah ona mərhəmət etsin) kim öldürdü?" Qadın bilmədiyini, tanımadığı iki nəfərin evə daxil olduğunu, lakin onların üzünü gördüyünü və Muhəmməd ibn Əbu Bəkrin də onlarla birlikdə olduğunu söylədi. O və oradakı adamlar Muhəmmədin etdiklərini Əliyə bildirdilər. Əli Muhəmmədi çağırıb ondan Osmanın zövcəsinin söylədikləri barədə soruşdu. Muhəmməd dedi: "Qadın yalan söyləmir, Allaha and olsun ki, onu öldürmək məqsədilə içəri girdim, amma atamı mənə xatırlatdı. Mən də tövbə edərək evdən çıxdım. Allaha and olsun ki, onu nə yaxaladım, nə də qətlə yetirdim". Osmanın zövcəsi də Muhəmmədin sözlərini təsdiqlədi".[1255]

Bunu həmçinin İbn Şəbbə "Tarixul-Mədinə"də İbn Sümeyə, o da İbn Əbu Zibə, o da Zuhriyə və o da Səid ibn Müseyyibə istinadən nəql edib.[1256]

Rəvayətin sənədi İbn Sümey səbəbilə zəifdir. Üqeyli "əz-Züəfa"da,[1257] Əbülvəfa "əl-Mudəllisin"də[1258] onun adını qeyd edib. İbn Hibban onun barəsində yazır: *"Onun İbn Əbu Zibdən Zuhri və Səid ibn Müseyyib yolu ilə nəql etdiyi Osmanın qətli ilə bağlı xəbərə gəldikdə, heç də İbn Əbu Zibdən eşitməyib. Bunu İsmail ibn Yəhya ibn Abdullah Təmimi İbn Əbu Zibdən nəql edərkən eşidib, onun adından uydurub. İsmail də zəifdir".*[1259]

İbn Şəbbə rəvayətlə bağlı yazır: *"Bu, çoxlu yanlışları olan, sənədi inkar edilən hədisdir. İbn Əbu Zibdən rəvayət edən şəxsin kimliyi məlum deyil. İbn*

[1255] Ənsabul-əşraf, Bəlazuri, c. 2, s. 283-285

[1256] Tarixul-Mədinə, İbn Şəbbə, c. 4, s. 1303-1305

[1257] əz-Züəfa, Üqeyli, c. 4, s. 115

[1258] ət-Təbyinu li əsmail-mudəllisin, Əbülvəfa Hələbi Trablusi, s. 193.

[1259] əs-Siqat, İbn Hibban, c. 9, s. 43

Əbu Zib və ondan sonrakı ravilər isə (yəni Zuhri və Səid ibn Müseyyib) güclü ravilərdir".[1260]

Həmçinin rəvayətin bəzi yerlərindən uydurma iyi gəlir. Məsələn: *"Əlini qaldırıb Həsənə sillə, Hüseynin isə sinəsinə vurdu, Muhəmməd ibn Təlhəni danlayıb Abdullah ibn Zübeyri lənətlədi".* Möminlərin əmiri Əli (ə) əsla bu cür rəftar etməz.[1261]

[1260] Tarixul-Mədinə, İbn Şəbbə, c. 4, s. 1306

[1261] Peyğəmbər (s) söyüş və lənəti qadağan etmişdi. Buxari "Səhih"ində Peyğəmbərin (s) belə buyurduğunu rəvayət edir: *"Ey qadınlar, çoxlu sədəqə verin. Mən cəhənnəm əhlinin əksəriyyətinin qadınlar olduğunu gördüm". Qadınlar bunun səbəbini soruşduqda buyurdu: "Çünki siz çox lənət söyləyirsiniz".* (c. 1, s. 78)

Tirmizi "Sünən"də Abdullaha istinadən nəql edir: *"Peyğəmbər (s) buyurdu: "müsəlmanı söymək fasiqlik, onu öldürmək isə küfrdür". Tirmizi hədisin ardınca yazır: "Bu, həsən səhih hədisdir".* (c. 3, s. 238)

Əbu Davud öz "Sünən"ində "Lənət barədə" başlıqlı bir fəsil ayırıb. Orada Əbu Dərdadan nəql olunur: *"Peyğəmbər (s) buyurdu: "Bəndə bir şeyi lənətlədikdə həmin lənəti səmaya qalxar, ardınca səmanın qapıları bağlanar. Sonra yenidən yerə enər, sağa-sola dövr edər, mümkünü olmadıqda sahibinə üz tutar. Əgər həmin şəxs bu lənətə layiq olmazsa, o zaman onun söyləyənin özünə qayıdar".* (c. 2, s. 457)

Həmçinin ondan nəql olunur: *"Lənət söyləyənlər şəfaətçi və şahid olmayacaqlar".* (c. 2, s. 458)

Səmurə ibn Cündəb Peyğəmbərdən (s) nəql edir: *"Bir kəsi Allahın lənəti, qəzəbi və Cəhənnəm odu ilə lənətləməyin".* (c. 2, s. 458)

İbn Abbasdan rəvayət olunur: *"Bir kişi küləyi lənətləyirdi. Müslim deyir: "Peyğəmbərin (s) zamanında külək bir kişinin paltarını qaldırdı, o da küləyi lənətlədi. Peyğəmbər (s) buyurdu: "Küləyi lənətləmə! O, yalnız əmrə tabedir. Əgər kim layiq olmayan bir şeyi lənətləsə lənəti onun özünə qayıdar".* (c. 2, s. 458)

Rəvayətdə uydurma qoxusu verən başqa bir söz isə budur: *"Təlhənin barmaqları qurumuşdu, Əli bunu pis əlamət kimi qəbul edib dedi..."* Halbuki Peyğəmbər (s) əlamətlərə inanmağı qadağan etmişdi. Buxari "Səhih"ində Əbu Hüreyrə sənədilə belə rəvayət edir: *"Peyğəmbər (s) buyurdu: "Keçici xəstəlikdən, pis yozumlardan (bədbinlikdən), ziyanvericilərdən və sarılıqdan şirdən qaçdığınız kimi qaçın".* (c. 7, s. 17)

Sübuta yetmiş faktdır ki, Möminlərin əmiri Əli (ə) Allahı və Peyğəmbərinin (s) buyuruqlarını bütünlüklə yerinə yetirən şəxs idi. Buxari, Müslim və digərləri Peyğəmbərin Xeybər savaşı günü belə buyurduğunu nəql ediblər: *"Bu bayrağı sabah elə bir şəxsə verəcəyəm ki, Allah onun əli ilə fəthi nəsib edəcək. O, Allahı və Rəsulunu, Allah və Rəsulu da onu sevir".* (Səhih, Buxari, c. 5, s. 76, c. 4, s. 12, c. 4, s. 207; Səhih, Müslim, c. 5, s. 195, c. 7, s. 120, 121, 122)

İbn Həcər hədisin şərhilə bağlı deyir: "Həmin sözdə Uca Allahın bu sözünə eyham var: *"De: "Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin..."* (Ali-

Bunlardan əlavə, ümumən rəvayətdə Əhli-Beytin (ə) Osmana qarşı sevgi təzahürlərinə heç bir dəlalət yoxdur. Burada yalnız müsəlmanları qorumağa qarşı həssaslıqları görünür. Onlar məsələlərin belə yolla həll edilməsini münasib görmürdülər. O səbəbdən də güc tətbiqini rədd edərək məsələnin müsəlmanların arasında həll edilməsinə üstünlük verirdilər. Haqsız da olsa, İslam xilafətində ən yüksək vəzifəni tutan Osmanın qətlinə onların mənfi münasibəti, bunun qarşısını almaq cəhdləri Osmanı müdafiə etdikləri və sevdikləri mənasını daşımır. Onlar müsəlmanların arasındakı ixtilafların bu yolla həll edilməsinə qarşı idilər. Belə ki, Əhli-Beytin (ə) Osmanın qətlindən əvvəl və sonra da pis rəftarlarına görə tənqidlərini və ondan narazılıqlarını bildirən bir çox rəvayət nəql etmişik.[1262]

İhsan Zahirin Bəlazurinin "Ənsab"ından göstərdiyi dəlil həmin məzmundadır. Orada da Osman tənqid olunur, ancaq öldürülməsinə də razı deyillər. İhsan Zahir isə adəti üzrə mətnin bir hissəsini kəsərək qalan hissədəki əsas mətləbləri oxucudan gizlətmişdir. Rəvayətin tam mətni ilə tanış olan şəxslər üçün məsələ tamamilə aydındır. Orada deyilir: *"Əli Osmanı qətlə yetirmək istədiklərindən xəbər tutduqda dedi: "Biz Mərvanı (təhvil verməsini) istəyirik, Osmanın öldürülməsini yox!" Bu vaxt Həsən və Hüseynə səsləndi: "Qılınclarınızı götürüb Osmanın qapısının qarşısında dayanın, ona əl uzatmağa heç kəsə imkan verməyin".*

Rəvayət Möminlərin əmiri Əlinin (ə) Osmanın siyasəti ilə razı olmadığına dəlalət edir. Lakin eyni vaxtda onun öldürülməsinin də əleyhinədir. Görünən odur ki, bir çox Əhli-Sünnə alimləri buna diqqət yetiriblər. O səbəbdən də həmin rəvayəti etibarlı şəxs olmasına rəğmən İbn Süməy cəhətindən zəif sayıblar, İbn Əbu Zibin saxtakar olduğunu

---

İmran, 31) Sanki, bu sözlər Əlinin Peyğəmbərin ardınca tam şəkildə getdiyinə işarə edərək onu Allah məhəbbətinin məzhəri olaraq vəsf edir". (Fəthul-Bari, c. 7, s. 57-58)

[1262] Ənsabul-əşraf, Bəlazuri, c. 6, s. 133, 137-139, 207-209; əl-İstiabu fi mərifətil-əshab, İbn Əbdülbərr, c. 4, s. 1554; ət-Təbəqatul-kubra, İbn Səd, c. 3, s. 64

(bəzi ravilərin adlarını gizlətdiyini) iddia ediblər, bunu ondan deyil, İsmail ibn Yəhyadan eşitdiyini deyiblər, İsmailin də İbn Əbu Zibin adından uydurduğunu söyləyiblər. Sonda da İsmail ibn Yəhyanın zəif olduğunu bəyan ediblər. Necə ki, İbn Hibbanın sözlərində bunun şahidi olduq.[1263]

İbn Şəbbə Nəmirinin (vəfatı: h.q 260) "Tarixul-Mədinə", Bəlazurinin (vəfatı: h.q 279) ""Ənsabul-əşraf", Təbəraninin (vəfatı: h.q 360) "əl-Möcəmul-kəbir", İbn Əsakirin (vəfatı: h.q 571) "Tarixu mədinəti Diməşq", İbn Kəsirin (vəfatı: h.q 774) "əl-Bidayətu vən-nihayə" və s. kitablarda nəql olunan rəvayətlər də bunu təsdiqləyir. Ümeyr sənədilə rəvayət edirlər: *"Əli (r) xütbə söyləyərkən sözünü kəsdilər. O, dedi: "Həqiqətən də, mən Osmanın öldürüldüyü gün zəiflədildim". Ardınca onlar üçün bir misal çəkib buyurdu: "Bu, çəmənlikdə yaşayan üç inəklə bir şirin misalı kimidir. İnəklərdən biri qara, digər qırmızı və ağ idi. Şir inəklərin üzərinə hücum çəkdikdə onlar bir yerə toplaşıb özlərini müdafiə edər və şiri uzaqlaşdırardılar. Bir gün şir qara və qırmızı inəklərə dedi: "Bu ağ inək bizi çəmənlikdə rüsvay edir və ləkələyir. Onu mənə verin, yeyim. Sizin rənginiz mənim rəngimlə, mənim rəngim də sizinki ilə eynidir". Bundan sonra şir həmlə edərək ağ inəyi öldürüb yedi. Bir müddət sonra qara inəyə dedi: "Bu qırmızı inək bizi çəmənlikdə ləkələyir, halbuki mənim rəngim sənincilə, sənin rəngin də mənimkilə eynidir". Qara inəyin razılığından sonra şir həmlə edərək qırmızı inəyi də öldürüb yedi. Bir müddət keçdikdən sonra şir qara inəyə yaxınlaşıb onu da yemək istədiyini söyləyir. Qara inək deyir: "İcazə ver üç dəfə uca səslə bağırım". Şir icazə verdikdə uca səslə deyir: "Bilin və agah olun ki, mən elə ağ inək yeyildiyi gün yeyilmişəm! Bilin və agah olun ki, mən elə ağ inək yeyildiyi gün yeyilmişəm! Bilin və agah olun ki, mən elə ağ inək yeyildiyi gün yeyilmişəm!"*

[1263] əs-Siqat, İbn Hibban, c. 9, s. 43

Bunun ardınca Əli (r) buyurdu: "Bilin və agah olun ki, mən elə Osman qətlə yetirilən gün zəiflədildim".[1264]

Dördüncü: İhsan Zahirin Bəlazuridən nəql etdiyi **"Əhli-Beyt və əshabın yaralanan övladlarının arasında Həsən ibn Əli və azad etdikləri qulları Qənbər də var idi" ("Ənsabul-əşraf", Bəlazuri, c. 5, s. 95)"** sözləri Muhəmməd ibn Sümey sənədilə İbn Əbu Zibdən, İbn Şihab Zuhriyə istinadən Səid ibn Müseyyibdən rəvayət edilən həmin uzun xəbərin başqa bir hissəsidir.[1265]

Rəvayətin sənəd və məzmun cəhətdən zəif olduğunu qeyd etdik. Sənəd baxımından İbn Sümey səbəbilə zəifdir. Üqeyli onun adını "əz-Züəfa"da ("Zəiflər")[1266] və Əbülvəfa "əl-Mudəllisin"də[1267] zikr edib. İbn Hibban isə İbn Sümeyin həmin rəvayətdə saxtakarlıq etdiyini (bəzi ravilərin adlarını gizlətdiyini), rəvayəti İbn Əbu Zibdən deyil, İsmail ibn Yəhyadan eşitdiyini söyləyib. Ardınca da İsmailin zəif olduğunu bildirib.[1268]

Məzmununa gəldikdə, bəzi hissələrindən uydurma qoxusu gəlir. İbn Şəbbə bu rəvayəti "Tarixul-Mədinə" kitabında əvvəlki sənədlə qeyd edir və ardınca deyir: *Bu, çoxlu yanlışları olan, sənədi inkar edilən hədisdir. İbn Əbu Zibdən rəvayət edən şəxsin kimliyi məlum deyil. İbn Əbu Zib və ondan sonrakı ravilər isə (yəni Zuhri və Səid ibn Müseyyib) güclü ravilərdir".*[1269]

Gizli deyil ki, rəvayətdəki *"Muhəmməd ibn Əbu Bəkr camaatın qapının qarşısında dayanmış Həsənin qanına bulaşdığını... görüb Haşim oğullarının*

[1264] Tarixul-Mədinə, İbn Şəbbə Nəmiri, c. 4, s. 1233-1234; Ənsabul-əşraf, c. 1, s. 295; əl-Möcəmul-kəbir, c. 1, s. 80; Tarixu mədinəti Dəməşq, İbn Əsakir, c. 39, s. 472-473; əl-Bidayətu vən-nihayə, İbn Kəsir, c. 7, s. 216

[1265] Ənsabul-əşraf, Bəlazuri, c. 2, s. 284

[1266] əz-Züəfa, Üqeyli, c. 4, s. 115

[1267] ət-Təbyinu li əsmail-mudəllisin, Əbülvəfa Hələbi Trablusi, s. 193

[1268] əs-Siqat, İbn Hibban, c. 9, s. 43; İbn Hibban orada yazır: *"Onun İbn Əbu Zibdən Zuhri və Səid ibn Müseyyib yolu ilə nəql etdiyi Osmanın qətli ilə bağlı xəbərə gəldikdə, heç də İbn Əbu Zibdən eşitməyib. Bunu İsmail ibn Yəhya ibn Abdullah Təmimi İbn Əbu Zibdən nəql edərkən eşidib, onun adından uydurub. İsmail də zəifdir".*

[1269] Tarixul-Mədinə, İbn Şəbbə, c. 4, s. 1303-1305

Həsən və Hüseynin düşdükləri vəziyyətdən qəzəblənəcəklərindən və ortaya fitnə salacaqlarından qorxdu" sözləri ilə Haşim oğulları fitnəkar kimi təqdim olunur. Halbuki bu möhtərəm ailənin həyatını, ümmətin onlardan yalnız nur, səxavət, xeyirxahlıq, bərəkət və ümmətin islahı yolunda fədakarlıqlar gördüyünü nəql edən tarixi faktlar bunu təkzib edir. Bəhsə daxil olmaqla mövzudan yayınmaq istəmirik.

İkinci dəlil: İbn Abbasın Osmanı müdafiə etməsi

İhsan Zahir İbn Abbasın Osmanı müdafiə etməsini Əhli-Beytin (ə) müdafiəsi kimi təqdim edir, iddiasına Təbərinin "Tarix"indən dəlil gətirir: **"Oraya gedib qapısının qarşısını kəsənlərin arasında Əlinin əmisi Abbasın oğlu Abdullah da var idi. Həmin çətin və acılı günlərdə Osman Abdullaha Həcc ziyarətinə rəhbərliyi həvalə etdikdə o dedi: "Ey möminlərin əmiri, Allaha and olsun ki, bunlara qarşı mübarizə aparmaq mənim üçün Həccə rəhbərlik etməkdən daha xoşdur". Ancaq Osman bu işi icra etməsi üçün ona Allahı and verdi" ("Tarixul-uməm vəl-muluk", 35-ci ilin hadisələri)".**[1270]

Müzakirə

Birinci: Şiəyə dəlil və höccətin yalnız Peyğəmbər (s) və onun məsum övladlarının (ə) olduğunu əvvəldə də söylədik, onların sözlərinin, hərəkətlərinin və iqrarlarının dəlil və nümunə olduğunu bildirdik. Onlar zəlalət və hidayət meyarlarıdır. Onlardan qeyrilərinin, hətta Peyğəmbərin (s) ən yaxın qohumları olsalar belə, yaxşı və ya pis əməllərinin heç bir əhəmiyyəti yoxdur. Bu əsasla, şiələr yanlış yol tutmuş Peyğəmbər (s) ailəsinin ən yaxın qohumlarını da inkar edə bilirlər. Buna ən bariz nümunə kimi İmam Əli Hadinin (ə) oğlu Cəfərin inkarını göstərmək olar. Əvvəldə həmin məsələni qeyd etmişdik.

[1270] Şiə və Əhli-Beyt, s. 147

Xülasə, İbn Abbasın söz və hərəkətlərini şiələrə dəlil göstərmək mümkün deyil.

İkinci: Təbəri Əhli-Sünnə alimlərindəndir. Onun müəllifi olduğu "Tarix" əsəri də onların əsas tarix mənbələrindən biri sayılır. Xətib Bağdadi "Tarixu Bağdad" kitabında onun tərcümeyi-halında yazır: *"Muhəmməd ibn Cərir ibn Yezid ibn Küseyr ibn Ğalib, Əbu Cəfər Təbəri... Şeyx Əbu Bəkr deyir: "Təbəri Bağdadı özünə vətən seçmişdi və vəfat edənədək orada yaşadı. Elm imamlarından biri idi, onun sözünə əsaslanıb hökm verirdilər, mərifət və fəzilətinə görə fikirlərinə müraciət edirdilər. Öz əsrində heç kimin sahib olmadığı qədər elmə malik idi. Allahın kitabının hafizi, qiraətləri yaxşı bilən, mənalarından xəbərdar, Quran hökmlərini anlayan, sünnəni, onun yollarını, səhih və yanlışlarını, nasix və mənsuxlarını, səhabə və tabeunların sözlərini, onlardan sonrakıların hökmlərini, halal və haramları, camaatla bağlı məlumatları bilən şəxs idi. Onun "Tarixul-uməm vəl-muluk" adlı məşhur kitabı var..."*[1271]

Həmçinin Zəhəbi "Mizanul-itidal"da yazır: *"Muhəmməd ibn Cərir ibn Yezid Təbəri, böyük imam və müfəssir, Əbu Cəfər, möhtəşəm kitablar müəllifi; 310-cu ildə vəfat edib. Etibarlı, doğru danışan şəxs olub. Azca və zərər verməyəcək həddə şiəliyə meylli olub və onlarla dostluq edib. Əhməd ibn Əli Süleymani onu təhqir (tənqid) edərək deyir: "Rafizilərə uyğun rəvayətlər uydururdu". Süleymani belə deyib. Lakin bu sözləri yalançı zəndən və böhtandan savayı bir şey deyil. Əksinə, İbn Cərir etimadlı, böyük İslam alimlərindəndir. Biz onun xətadan məsum olduğunu iddia etmirik. Həmçinin puç sözlər və nəfsimizə uyğun iddialarla ona əziyyət vermək də bizə halal sayılmaz. Alimlərin bir-biriləri haqqında söylədiklərinə ehtiyatlı yanaşmalıyıq. Xüsusilə də əgər söhbət böyük imamlardan gedirsə".*[1272]

[1271] Tarixu Bağdad, Xətib Bağdadi, c. 2, s. 159-161

[1272] Mizanul-itidal, Zəhəbi, c. 3, s. 498-499

Zəhəbinin Təbəri barəsində Əhməd ibn Əli Süleymaninin iddialarını rədd etməsi onun böyük Əhli-Sünnə alimlərindən olmasının ən aydın dəlilidir.

Şiəyə dəlil göstərilərkən Əhli-Sünnənin mənbələrdən istifadə etmək düzgün sayılmır, xüsusilə də ixtilaflı mövzular barədə. Belə müzakirələrdə, kitabın əvvəlində də qeyd edildiyi kimi, xüsusi qaydalar mövcuddur. Şiələrin həmin mənbələrə əsaslanıb nəyisə sübut etməsi onu dəlil bildiyinə görə deyil, sadəcə qarşı tərəfin öz kitabından əleyhlərinə şahid göstərməsidir. Lakin şiələr həmin mənbələrdəki rəvayətləri öz əqidələrini öyrənmək üçün dəlil hesab etmirlər. Bu yanaşma təkcə şiələrdə belə deyil, Əhli-Sünnə də daxil olmaqla bütün məzhəb və cərəyanların tutduğu yoldur. Buna əsaslanaraq ravilərin arasında şiə olması səbəbindən bir çox rəvayətlər inkar olunub. Halbuki həmin ravilərin etibarlı şəxslər olduqlarını da etiraf edirdilər. Necə ki, İbn Cövzi Salmanın "vəsilik"lə bağlı rəvayətini rədd etmişdi. Ravilərin arasında yalnız Qeys ibn Minahın mövcudluğu və onun böyük şiələrdən olduğu iddiası hədisi dəyərsiz saymasına kifayət edib.[1273]

Belə olduqda, şiələrə Əhli-Sünnə mənbəyindəki sünni rəvayətini necə dəlil göstərmək olar?

Üçüncü: İhsan Zahirin Təbəridən nəql etdiyi rəvayətdəki: **"Osman üzünü toplaşanlara tutub "Ey Abdullah ibn Abbas!" deyə səsləndi. Abdullahı onun yanına çağırdılar. Osman ona Həcc ziyarətinə rəhbərliyi həvalə etdi. Abdullah həmin vaxt qapının qarşısında keşik çəkənlərdən biri idi. O dedi: "Ey möminlərin əmiri, Allaha and olsun ki, bunlara qarşı mübarizə aparmaq mənim üçün Həccə rəhbərlik etməkdən daha xoşdur"** sözlərinə gəldikdə, bunlar da Təbərinin öz "Tarix"ində qeyd etdiyi uzun rəvayətin bir parçasıdır. Həmin rəvayəti sizə təqdim edirik:

[1273] İxtiyaru mərifətir-rical, c. 1, s. 279-281

“Səriy mənə yazdı: Şüeybdən, o da Seyfdən, o da Əbu Harisə, Əbu Osman, Muhəmməd və Təlhədən nəql edir: “Üsyan yetmiş gecə, mühasirə isə qırx gecə davam etdi. Mühasirənin on səkkizinci günü ətraflardan miniklilər toplanmağa bağladı və dörd bir tərəfdən – Şamdan Həbibin, Misirdən Müaviyənin, Kufədən Qaqaənin, Bəsrədən Mücaşiin onlara qatılmaq üçün hazırlaşdıqlarını xəbər verdilər.

Bu vaxt (bir dəstə şəxs) camaatla Osmanın arasına keçdilər. Camaat Osmanı hər şeydən, hətta sudan belə məhrum etdi. Əli istədiyi vaxt onun yanına daxil olurdu. Camaat bir səbəb göstərilməsini tələb etdikdə, onlara heç bir səbəb göstərilmədi. Onlar Osmanın evinə daş atmağa başladılar, bu gecə döyüşəcəklərini söylədilər. Osman onlara səslənib Allahdan qorxmalarını və evdə başqa şəxslərin də olduğunu bildirdi. Onlar isə “Yox, Allaha and olsun! Sənə daş atan biz deyilik” deyə cavab verdilər. Osman bəs kimin daş atdığını soruşduqda onlar “Allah” dedilər.

Osman dedi: “Yalan söyləyirsiniz! Əgər Allah bizə daş atsaydı əsla hədəfdən yayınmazdı. Halbuki sizin atdıqlarınız bizdən yan keçir”. Osman yaxınlığındakı Həzm ailəsinə üzünü tutub sudan məhrum edildiklərini Əliyə xəbər verməsini, imkan olduğu təqdirdə ona su göndərməsini istədi. Onlar Təlhəyə, Zübeyrə, Aişəyə və Peyğəmbərin (s) digər xanımlarına da xəbər verdilər. Yardıma ilk gələnlər Əli və Ümmü Həbibə oldu. Əli sübhün qaranlığında gəlib dedi: “Ey camaat! Sizin etdiyiniz nə mömina və nə də kafirə yaraşan hərəkətdir. Onu su və qidadan məhrum etməyin. Farslar və rumlar əsir götürdükləri şəxslərə su və qida verirlər. Bu adam sizə müqavimət göstərmədiyi halda niyə onun mühasirəsini və qətlini halal bilirsiniz?!”

Dedilər: “Allaha and olsun ki, o, bir yaxşılıq etməyib ki, əvəzini də görsün. Biz onu yeməyə və içməyə qoymayacağıq”.

Əmmaməsini qapıya çırpıb “Sənin məndən istədiyini etdim” deyərək geri qayıtdı. Ümmü Həbibə üzərinə kiçik su tuluqları bağladığı qatırına minib

oraya gəldi. Ümmül-möminin Ümmü Həbibənin gəldiyini gördükdə qatırının üzünə zərbə vurdular. Dedi: "Bəni-Üməyyənin bu adama (Osmana) sözləri var, istəyirəm bunu ona çatdırıb fikirlərini soruşum ki, yetim uşaqların və dul qadınların malları (mirası) aradan getməsin".

Onlar yalan söylədiyini deyib üzərinə gəldilər, qatırının qayışını kəsdilər. Oradakılar özlərini yetirib qatırı tutmasaydılar, az qala yıxılıb ölmüşdü. Sonra onu evinə apardılar.

Aişə isə oradan (Mədinədən) uzaqlaşmaq məqsədilə Həcc üçün hazırlıq görməyə başladı. Qardaşının onunla gəlməsini istədikdə, o, bundan imtina etdi.

Aişə dedi: "Allaha and olsun ki, əgər onların etmək istədiklərini Allahın qarşısını alması üçün nə isə etməyi bacarsaydım, bunu edərdim".

Sonra Hənzələ gəldi, Muhəmməd ibn Əbu Bəkrin qarşısında dayanıb dedi: "Ey Muhəmməd, möminlərin anası onu müşayiət etməyini istəyir, amma sən getmirsən. Ancaq ərəbin yırtıcıları səni halal olmayan bir şeyə dəvət edir, sən də onların ardınca gedirsən?!"

Muhəmməd ibn Əbu Bəkr dedi: "Ey Teymiyyənin oğlu, bunun sənə aidiyyəti yoxdur".

Hənzələ dedi: "Ey Xəsəməli qadının oğlu, bu məsələ qarşılıqlı mübahisəyə çevrilsə Əbdülmanaf oğulları sənə üstün gələcəklər".

Sonra üzünü çevirib getdi... Kufəyə yetişdi. Aişə də misirlilərə qarşı qəzəbli halda yola düşdü. Mərvan ibn Həkəm onun yanına gəlib dedi: "Ey möminlərin anası, əgər qalıb bu adama nəzarət etsən daha yaxşı olar".

Aişə dedi: "Mənimlə də Ümmü Həbibəyə davrandıqları kimi davranmalarını, köməksiz qalmağımı istəyirsən?! Allaha and olsun ki, məsələnin sakitləşdiyini bilmədikcə, əsla, xeyr!

Əli və Ümmü Həbibəyə qarşı camaatın etdiklərinin xəbəri Təlhə və Zübeyrə çatdı. Onlar evlərində oturub çölə çıxmamağa qərar verdilər.

Osman evində qaldı. Yalnız qapıdakıların diqqətinin yayındığı vaxtlarda Həzmin ailəsi ona su ötürürdü.

Osman üzünü toplaşanlara tutub "Ey Abdullah ibn Abbas!" deyə səsləndi. Abdullahı onun yanına çağırdılar. Osman ona Həcc ziyarətinə rəhbərliyi həvalə etdi. Abdullah həmin vaxt qapının qarşısında keşik çəkənlərdən biri idi. O dedi: "Ey möminlərin əmiri, Allaha and olsun ki, bunlara qarşı mübarizə aparmaq mənim üçün Həccə rəhbərlik etməkdən daha xoşdur".

Osman getməsi üçün ona Allahı and verdi. Həmin il Həccə rəhbər olaraq İbn Abbas getdi".[1274]

İhsan Zahir bu rəvayətin sənədinin ravilər Şüeyb və Seyf səbəbindən zəif olmasına baxmayaraq, müxtəlif hissələrini bir neçə yerdə dəlil kimi təqdim edir.

Şüeyb zəif və məchul şəxsdir. İbn Ədiy onun adını "əz-Züəfa" ("Zəiflər") kitabında qeyd edir: *"Şüeyb ibn İbrahimin rəvayət və xəbərləri var. Lakin o, bununla tanınmır. Nəql etdiyi rəvayətlərin sayı azdır, bəzilərində inkar olunan məqamlar var. Belə ki, öz hədis və rəvayətlərində sələflərə qarşı tənqidi yanaşırdı".*[1275]

Zəhəbi "Mizanul-itidal"da *"Məchulluğu var"* deyir.[1276]

İbn Həcər də "Lisanul-mizan"da İbn Ədiyin yuxarıdakı, eləcə də İbn Hibbanın "əs-Siqat"dakı sözlərinə yer verir, məqsədin başqa şəxs ola biləcəyini söyləyir. Deyir: *"İbn Hibbanın "əs-Siqat"ında Şüeyb ibn İbrahimin Kufə əhlindən olduğu, Muhəmməd ibn Aban Bəlxidən, ondan isə Yaqub ibn Süfyanın rəvayət nəql etdiyini deyir. Bunun həmin şəxs olduğu ehtimal edilir. Lakin görünən odur ki, bu başqa şəxsdir".*[1277]

Seyf ibn Ömərə gəldikdə, o, zəif ravidir. Mizzi "Təhzibul-kəmal"da deyir: *"Abbas Duri Yəhya ibn Muinin belə dediyini bildirir: "Hədisləri*

[1274] Tarix, Təbəri, c. 3, s. 416-418
[1275] əl-Kamil, İbn Ədiy, c. 4, s. 4
[1276] Mizanul-itidal, Zəhəbi, c. 2, s. 275
[1277] Lisanul-mizan, İbn Həcər, c. 3, s. 145

zəifdir". Əbu Cəfər Həzrəmi də Yəhya ibn Muinə istinadən deyir: "Ondan bir xeyir yoxdur". Əbu Hatəm deyir: "Hədisləri tərk olunur, rəvayətləri Vaqidinin rəvayətlərinə bənzəyir". Əbu Davud deyir: "Hədisləri bir şey deyil". Nəsai və Daraqutni deyirlər: "Zəifdir". Əbu Əhməd ibn Ədiy deyir: "Bəzi hədisləri məşhurdur, ancaq ümumən hədisləri inkar olunur və əhəmiyyət verilmir, təsdiqdən daha çox zəifliyə yaxındır". Əbu Hatəm ibn Hibban deyir: "Baş vermiş hadisələr barədə uydurmalar rəvayət edib". Deyir: "Onun hədis uydurduğunu dedilər".[1278]

Bəzən Seyfin yalnız rəvayətlərinə görə zəif sayıldığı, tarixi hadisələrlə bağlı isə etimadlı, məlumatlı və xəbərdar şəxs olması barədə deyilənlərə gəldikdə, cavab budur ki, İhsan Zahirin mənsub olduğu məktəbin alimləri tarixi rəvayətlərə də hədis hökmü ilə yanaşılar. Buna əsasən, Vaqidi, Kəlbi, Əbu Mixnəf kimilərin böyük tarixçilər olmasına baxmayaraq, onları zəif saymış və nəql etdikləri rəvayətləri qəbul etməmişlər. Onların rəvayətləri barədə zəif hökmü verilməsi ilə əlaqədar[1279] müasir tədqiqatçı Həsən Fərhan Maliki deyir: *"Tarixdə etimadlıdır" kimi sözlərdə məqsəd onun etibarlı (siqə) olması deyil. Bu kəlməni İbn Həcər Seyf ibn Ömər, Əli ibn Kəlbi və başqa böyük tarixçilər haqqında da işlədib. İbn Həcərin məqsədi onları etibarlı (siqə) saymaq deyil, sadəcə tarixi məlumatları toplayan, maraqlanan və onları yazan böyük tarixçilərdən olduqlarını bildirməkdir. Bu səbəbdən də Hafiz ibn Həcərin özü də Seyfi tarixi rəvayətlərdə zəif hesab edir, həmçinin Kəlbini də zəif bildiyi halda "nəsil araşdırmalarında etimadlı şəxs" adlandırır".*[1280]

Başqa bir yerdə yazır: *"Seyf ibn Öməri etibarlı sayan bəzilərinin əsaslandığı iki nəzər var ki... Bilin ki, bunlar Zəhəbinin "Məlumatlı və arif şəxs idi" və Hafiz ibn Həcərin "Tarixdə etimad olunan şəxsdir" sözləridir. Həqiqət budur ki, Zəhəbi həmin sözləri Seyfdən başqa yalançı ravilər barədə*

[1278] Təhzibul-kəmal, Mizzi, c. 12, s. 326-327

[1279] Bax: Təhzibul-kəmal, c. 26, s. 180-195

[1280] Nəhvu inqazit-tarixil-İslami, Həsən Fərhan, s. 60

də deyib. O, "ədəbiyyatdan məlumatlı şəxsdir", "nəsillərlə bağlı məlumatlı şəxsdir", "xəbərlərdən məlumatlı şəxsdir" kimi sözlərdən çox istifadə edib. Baxmayaraq ki, özü onları digər yerdə yalançılıq və zəifliklə vəsf edib! Sübut isə budur ki, o, kitablarının bir çox yerində Seyfi zəif sayıb. "Mövhumatçı" sözünü yalnız zəiflikləri aydın və çox olanlar barədə istifadə edib.

Həmçinin Hafiz ibn Həcərin də "əl-İsabə"də və digər kitablarda Seyfdən tarixi rəvayət nəql etdiyini görürük. Hafizin məqsədi (Doğrusunu Allah bilir!) Seyfi tarixi məsələlərdə etimadlı şeyx bilməsidir. Necə ki, Kəlbini nəsillərlə bağlı məlumatlarda etimadlı şəxs kimi bilirdi. Halbuki hər ikisini də yalançılıqda ittiham edərək zəif sayır.

Əgər Hafizin Seyf ibn Ömari etibarlı saydığını fərz etsək, o zaman Seyfin yaşadığı dövrə yaxın yaşamış və hədislərini araşdırmış onlarla hədisşünasın sözlərini nə edək?! Onlar Seyfi sonrakı alimlərdən daha yaxşı tanıyırdılar. Halbuki biz onların sözlərinin doğru olduğunu təsdiqləyirik. Onlar Seyfi hədisləri tərk olunan, yalançı (kəzzab), nə tarixdə və nə də rəvayətlərdə etimad edilməyəcək şəxs kimi tanıyırdılar! Onun rəvayətlərini, digər tarixçilərin rəvayətləri bir kənara dursun, bir-birləri ilə müqayisə etmək kifayətdir ki, aralarındakı böyük ziddiyyətləri görək. Bəs səhih hədislərin mətnlərinə olan ziddiyyətlərlə nə edək?!"[1281]

Nəticə: İhsan Zahirin buradakı canfəşanlığına baxmayaraq, hətta özlərinin tətbiq etdikləri qaydalara əsasən, göstərdiyi dəlillərə etimad etmək olmaz. Belə olduqda, həmin rəvayətləri şiələrə necə dəlil göstərə bilər?!

Üçüncü dəlil: İmam Əlinin (ə) Osmanı müdafiə etməsi

[1281] Nəhvu inqazit-tarixil-İslami, s. 84-85

İhsan Zahir İmam Əlinin (ə) və övladlarının Osmanı müdafiə etdiyi iddiasına İbn Əbülhədidin və Meysəm Bəhraninin "Nəhcül-Bəlağə"yə yazdıqları şərhlərini, Xəlifə ibn Xəyyatın "Tarix"ini, Bəlazurinin "Ənsabul-əşraf"ını, "Nasixut-təvarix"i və Məsudinin "Tarix"ini dəlil kimi təqdim edir. O deyir: **"Həmçinin Əli Mürtəzanın (r) özü də ilk andan etibarən onu müdafiə etmiş, özü şəxsən dəfələrlə evinin qarşısına gəlmiş, oraya toplaşan camaatı qovmuş, qardaşı oğlu Abdullah ibn Cəfər yanında ikən Osmanla görüşmüşdü (Şərhu Nəhcül-Bəlağə, İbn Əbülhədid, c. 10, s. 581, İran çapı).**

"Uzun müddət dili və əli ilə müdafiə etdikdən sonra onun yanından uzaqlaşdı" (Şərhu Nəhcül-Bəlağə, İbn Meysəm Bəhrani, c. 4, s. 345, Tehran çapı).

"Əli, dili və övladlarının vasitəsilə onu müdafiə etdi, lakin son nəticədə fayda vermədi" ("Şərhu Nəhcül-Bəlağə", İbn Əbülhədid).

Əlinin özü də bu hadisələri yad edərək deyir: "Allaha and olsun, (kömək edərək) onu elə müdafiə etdim ki, günahkar olmağımdan qorxdum" (Şərhu Nəhcül-Bəlağə, İbn Əbülhədid, c. 3, s. 286).

Belə ki, Zu-nureyn onu müdafiə etməmələrini istəmiş və demişdi: "Sizə silahlarınızı yerinə qoyub evlərinizə qayıtmağı əmr edirəm" (Tarix, Xəlifə ibn Xəyyat, c.1, s. 151-152, İraq çapı).

"Həsən ibn Əli, Abdullah ibn Zübeyr, Muhəmməd ibn Təlhə... və onlarla bərabər ənsardan bir dəstə adamın övladı camaatın qarşısını kəsərək Osmanı qoruyurdular. Osman isə onlara dedi: "Siz mənə yardım etməkdən azadsınız" (Şərhu Nəhcül-Bəlağə, "Osmanın mühasirəsi və sudan məhrum edilməsi" başlığı).

"Əhli-Beyt və səhabələrin yaralanan övladlarının arasında Həsən ibn Əli və azad etdikləri qulları Qənbər də var idi" ("Ənsabul-əşraf", Bəlazuri, c. 5, s. 95; əl-Bidayətu vən-nihayə, "Osmanın qətli" başlığı).

Zalım üsyankarlar Osmanı sudan məhrum etdikdə Əli üzünü onlara tutub dedi: "Ey camaat! Sizin etdiyiniz nə möminə və nə də kafirə yaraşan hərəkətdir. Farslar və rumlar əsir götürdükləri şəxslərə su və qida verirlər. Allaha and verirəm ki, onu sudan məhrum etməyəsiniz!" Sonra Bəni-Haşim gəncləri ilə Osman üçün üç tuluq su göndərdi" (Nasixut-təvarix, c. 2, s. 531. Bunun eynisi Bəlazurinin "Ənsabul-əşraf"ında da nəql olunub (c. 5, s. 69).

Sonda Məsudinin "Tarix"indən baş vermiş faciədən bir parçanı qeyd etmək istəyirik: "Osmanı qətlə yetirmək istədikləri xəbəri Əliyə çatdıqda oğlanları Həsən və Hüseyni azad edilmiş kölələri ilə birlikdə onun yardımına göndərdi, silahları ilə qapısının qarşısında dayanıb camaatdan müdafiə etmələrini söylədi. Zübeyr oğlu Abdullahı, Təlhə oğlu Muhəmmədi və bir çox səhabələr də övladlarını bu məqsədlə Osmanın evinin qarşısına göndərdilər. Onlar camaatı Osmanın evindən uzaqlaşdırdılar. Camaat tərəfindən oxlar atıldı, çaxnaşma düşdü. Bu vaxt Həsən və Muhəmməd ibn Təlhə yaralandı, Qənbərin başı yarıldı. Camaat Haşim və Üməyyə oğullarının özlərinə qarşı hərəkətə keçəcəyindən qorxdu, qapısının qarşısında savaşmaqdan çəkindilər. Onların bir hissəsi (həyəti Osmanın evinə bitişik olan) ənsarlardan birinin evinə tərəf gedib hasarlarına dırmandılar. Hasardan içəri aşanların arasında Muhəmməd ibn Əbu Bəkr və başqa iki nəfər var idi. Həmin vaxt Osman və zövcəsi evdə idilər, ailəsi və azad etdiyi kölələri isə camaatla vuruşurdular. Muhəmməd ibn Əbu Bəkr[1282] saqqalından yapışıb dedi: "Ey Muhəmməd, Allaha and olsun ki, əgər atan səni indi görsəydi, bu vəziyyətin heç də ona xoş gəlməyəcəkdi". Evdən uzaqlaşdı. Digər iki nəfər isə içəri girdi, onu tapıb qətlə yetirdilər.

[1282] Əsl mənbədə Muhəmməd ibn Əbu Bəkrin Osmanın saqqalından tutduğu qeyd edilib (Tərc.)

Həmin vaxt Osman qarşısına Quran qoyub oxuyurdu. Osmanın zövcəsi dama qalxıb yüksək səslə "Möminlərin əmiri öldürüldü!" deyə car çəkdi. Həsən, Hüseyn və onlarla birlikdə evin qarşısında toplaşan Üməyyə oğulları içəri daxil oldular və Osmanın artıq canını tapşırdığını görüb ağladılar.

Bu xəbər Əliyə, Təlhəyə, Zübeyrə, mühacir və ənsara yetişdi. Əli hüznlü halda içəri girib oğlanlarına "Siz qapının qarşısında olduğunuz halda möminlərin əmiri necə qətlə yetirildi?" dedi, ardınca Həsənə sillə, Hüseynin isə sinəsinə vurdu, Muhəmməd ibn Təlhəni danlayıb Abdullah ibn Zübeyri lənətlədi" (Murucuz-zəhəb, Məsudi, c. 2, s. 344, Beyrut çapı).

O və ailəsi Osmanı gecə ikən dəfn edənlərin arasında idilər. Mötəzili-şiə İbn Əbülhədidin də qeyd etdiyi kimi, Osmanın cənazə namazını da qıldılar: "Aralarında Həsən ibn Əli, İbn Zübeyr, Əbu Cəhm ibn Hüzeyfənin olduğu az sayda adam məğriblə gecəyarısı arasında onu Mədinənin Həşş-Kövkəb kimi tanınan divarlarından birinin kənarına gətirdilər. Bura Bəqi qəbiristanlığının çöl divarı idi. Orada Osmana namaz qıldılar" (Şərhu Nəhcül-Bəlağə, şiə İbn Əbülhədid, c. 1, s. 97, İran çapı; c. 1, s. 198, Beyrut çapı)".[1283]

Müzakirə

İhsan Zahirin yuxarıdakı mətndə qeyd etdiyi rəvayətlərin hamısını bir iddiaya – İmam Əlinin (ə) Osmanı müdafiə etdiyinə dəlil kimi göstərib. Buna verəcəyimiz cavabı da sadalanan mənbələrə müvafiq qeyd edəcəyik.

A. İbn Əbülhədiddən nəql etdikləri

İhsan Zahirin İbn Əbülhədidin "Nəhcül-Bəlağə"yə yazdığı şərhindən nəql etdiyi dəlillər bütünlükdə İbn Əbülhədidin öz sözlərindən ibarətdir.

[1283] Şiə və Əhli-Beyt, s. 147-149

Orada "Nəhcül-Bəlağə"dən yalnız bir kəlmə yer alıb ki, o da budur: **"Allaha and olsun, (kömək edərək) onu elə müdafiə etdim ki, günahkar olmağımdan qorxdum".** İhsan Zahir sözün əvvəlini pozmuş, öz iddiasına uyğun hala salaraq dəlil kimi göstərmişdir. "Nəhcül-Bəlağə"dəki rəvayətin əsli isə belədir:

"İmam Əlinin (ə) Abdullah ibn Abbasa buyurduğu kəlamlarındandır. Abdullah, Osman mühasirədə olan zaman ondan İmama (ə) bir məktub gətirdi. Osman həmin məktubda İmam Əlidən (ə), xalqın onu xilafətə namizəd kimi irəli sürmələri hay-küyünün yatması üçün Yənbudakı malikanəsinə getməsini istəmişdi. Halbuki həmin istəyin bənzərini bundan qabaq da etmişdi. Buna görə də İmam (ə) buyurdu: "Ey Abbasın oğlu! Osman məni böyük vedrə ilə su daşıyan dəvə kimi etməkdən, (həmin dəvə kimi) gedib-gəlməyimdən başqa bir şey istəmir. (Bundan qabaq yanıma adam) göndərdi ki, (Mədinədən) çıxım. Ondan sonra (yenə adam) göndərdi ki, (ona kömək etmək üçün Yənbudan Mədinəyə) gəlim. İndi də (səni) göndərir ki, çıxım. Allaha and olsun, (kömək edərək) onu elə müdafiə etdim ki, günahkar olmağımdan qorxdum".[1284]

Bu sözlərdə Osmanı ittiham edən və üsyançıların tələblərinin haqlı olduğuna eyham vuran kəlmələr mövcuddur. O səbəbdən də İmam (ə) bundan artıq Osmanı müdafiə etdiyi təqdirdə günaha düşəcəyindən qorxurdu. Onun Osmana yardımları yalnız insani yöndən su və yemək göndərməklə, etirazçıların sözlərini ona çatdırmaqla və düşdüyü çətin vəziyyətdən çıxmaq üçün təkliflərini verməklə məhdudlaşmışdı. Lakin görünən odur ki, Osman İmam Əlinin (ə) sözlərini qulaqardına vururdu.

İhsan Zahirin İbn Əbülhədidin sözlərini nəql edərək öz iddiasına dəlil kimi onlara etimad etməsinə gəldikdə, bu sözlərin hamısı mürsəldir (sənədsizdir). Həmin iddialarında İbn Əbülhədid bir rəvayətə və ya

---

[1284] Nəhcül-Bəlağə, Şərif Rəzi, xütbə 239 (235), c. 2, s. 233, Şeyx Muhəmməd Əbdəhin təhqiq və şərhilə

mənbəyə istinad etməmişdir. İbn Əbülhədidin şəxsi fikirlərinin dəlil olmasını heç kəs iddia edə bilməz! Həmin sözləri cavabları ilə birlikdə sizə təqdim edirik:

Birinci: "O (İmam Əli), özü şəxsən dəfələrlə Osmanın evinin qarşısına gəlmiş, oraya toplaşan camaatı qovmuş, qardaşı oğlu Abdullah ibn Cəfər yanında ikən Osmanla görüşmüşdü".

Cavab: Bu sözləri İbn Əbülhədid Möminlərin əmiri Əlinin (ə) siyasətini tənqid edənlərin sözlərinə etiraz olaraq söyləyib. Həmin mətnə nəzər salaq:

İbn Əbülhədid deyir: *"Əlinin siyasətini tənqid edənlərin sözləri və onlara cavablar.*

Onun siyasətinin tənqidi bu məsələlərlə əlaqələndirilib ki... Onlardan biri də budur: "Osman mühasirədə olduğu vaxt Əli Mədinədə qalmaqda düzgün iş görməyib. O, şəhərdən çıxmalı və Bəni-Üməyyəyə Osmanın intiqamı ilə bağlı bəhanə verməməli idi. Əgər həmin vaxt Mədinədən uzaqlaşsaydı, bu zaman onların ittihamlarından da kənarda qalardı".

Cavab: Osmanın qətlindən Əlinin uzaq olması onu Bəni-Üməyyədən olan fitnə-fəsad əhlinin böhtanından amanda tutmadı. Qeybi yalnız Allah bilir. O, Mədinədə qalması ilə etirazçıların müqabilində Osmana yardım edə biləcəyini düşünürdü. Dəfələrlə Osmanın evinin qarşısına gəlmiş, oraya toplaşan camaatı qovmuş, qardaşı oğlu Abdullah ibn Cəfər yanında ikən Osmanla görüşmüşdü. Əgər Əli Mədinədə olmasaydı Osman çoxdan öldürülmüş olacaqdı. O, məsələni yubatmış və onun qətlini gecikdirmişdi. Camaat isə onun özünə qarşı nəzarətini artırmışdı. Belə ki, Osmana yardım etdiyini və qoruduğunu müşahidə edirdilər".[1285]

İbn Əbülhədidin cavab olaraq söylədiyi sözlər dəlil və sübutsuz, hüsnü-zəndən ibarətdir. Mətndə Əhli-Beytin (ə) Osmana qarşı sevgi və məhəbbət duymasına heç bir dəlalət yoxdur. Halbuki İhsan Zahir bunu

[1285] Şərhu Nəhcül-Bəlağə, İbn Əbülhədid, c. 10, s. 232-256

həmin sevgiyə və xoş münasibətə dəlil göstərmişdi. İmamın (ə) Osmanı müdafiə etməsi onun qətlinin və bundan yaranacaq fitnənin qarşısını almaqdan irəli gəlirdi. İmam Əli (ə) Osmanın siyasətini tənqid edir, lakin eyni vaxtda şiddətlə onun qətlinin əleyhinə çıxırdı.

İkinci: "Əli, dili və övladlarının vasitəsilə onu müdafiə etdi, lakin son nəticədə fayda vermədi".

Bunlar Möminlərin əmiri Əlinin (ə) Osmana qarşı çıxmış etirazçıları pis əməllərindən çəkindirmədiyi üçün tənqid edənlərin cavabında yenə də İbn Əbülhədidin söylədiyi sözlərdir. Həmin mətni sizə təqdim edirik:

İbn Əbülhədid yazır: *"Möminlərin əmiri Əli (ə) deyirdi: "(Ey Müaviyə!) Sən Osmanın qatilləri barədə söz-söhbət ortaya atmısan. Camaatın qəbul etdiyini sən də qəbul et. Sonra bir dəstəni hakim seç, sən də, onlar da (Osmanın qatilləri) də məhkəmənin qarşısına çıxın və aranızda Allahın kitabı ilə hökm olunsun".*

Cavabda bu savaşla bağlı alimlərin həmin sözlərə verdikləri şərhi qeyd etmək istəyirik:

Mötəzili alimlərimiz (r) deyirlər: Bu sözlər həqiqətdir. Çünki qan intiqamının vəlisi rəhbərə beyət etməli və onun itaətində olmalıdır. Bundan sonra da öz iddiasını onun qarşısında qaldırmalıdır. Əgər haqqa müvafiq hökm etsə onun imamətində qalmağa davam edəcək, əgər haqdan yayınsa, xəlifəliyindən imtina edəcək. Osmanın intiqamının vəliləri onun oğlanları idi. Lakin onlar Əliyə (ə) beyət etməmiş və ona itaətdən boyun qaçırmışdılar. Həmçinin Osmanın əmisi oğlu Müaviyə də beyət etməmiş, itaət göstərməmişdi. Beyət etmədən Osmanın qatillərini verməsini Əlidən (ə) tələb etmələri ona qarşı zülm və düşmənçilikdir.

Əgər desən: "Tutaq ki, Osmanın qatillərindən qisas almaq sizin qeyd etdiyiniz şərtə bağlıdır. Bəs qisas deyil, pislikdən çəkindirmək cəhətindən bu

iş vacib deyilmi? Sizin fikrinizə əsasən, o, nüfuz sahibi rəhbər idi və qatillər də onun tabeliyində idilər?

Deyərəm: Burada həmin məsələni iddia etmək doğru deyil. Çünki pislikdən çəkindirmək hadisə baş verməzdən əvvəl olmalıdır ki, pisliyin qarşısı alınsın. Pislik baş verdikdən sonra ondan çəkindirmək necə mümkün ola bilər?! Əli (ə) misirliləri və digər etirazçıları Osman qətlə yetirilməzdən əvvəl dəfələrlə bu işdən çəkindirmişdi. Əli, dili və övladlarının vasitəsilə onu müdafiə edirdi, lakin son nəticədə bunlar fayda vermədi, vəziyyət gərginləşərək Osmanın qətli ilə yekunlaşdı. Baş vermiş qətl hadisəsindən sonra isə yalnız qisas məsələsi qalır. Əgər meyitin vəliləri imama beyətdən və itaətdən boyun qaçırırsa, o zaman imamın da onun qatillərindən qisas alması vacib olmur. Çünki qisas meyitin vəlilərinin haqqıdır. İmama qarşı çıxmaqla və itaətindən boyun qaçırmaqla həmin haqqı itirmiş olurlar. Əvvəldə də demişdik ki, qisas birbaşa qətli törədən şəxsdən alınır. Müaviyənin İmamdan (ə) tələb etdiyi şəxslər isə Osmanın qətlində birbaşa iştirak etməmişdilər. Onlar Osmana qarşı etiraza qalxmış, evini mühasirəyə almış, camaatı ona qarşı qaldırmış, onu tənqid və təhdid etmişdilər. Onların arasında dama qalxmış, lakin içəri düşməyən, eləcə də içəri düşüb ancaq qətldə iştirak etməyən şəxslər də var idi. Şəriətdə bunların heç birindən qisas alınması nəzərdə tutulmur".[1286]

İbn Əbülhədidin burada qeyd etdiyi (İmamın (ə) pislikdən çəkindirməyi tərk etdiyi iddiasına) cavabı Mötəzili məktəbinin etiqad əsaslarına müvafiq idi. Necə ki, bunu özü də mətndə qeyd edir. Onların əqidəsinə əsasən, pislikdən çəkindirmək iman üsulunun beş şərtindən biridir. Cavabının xülasəsi budur ki, onların etiqadında pislikdən çəkindirmək hadisə baş verməzdən əvvəl vacibdir. İmam Əli (ə) Osmanın öldürülməsindən əvvəl camaatı bu işdən çəkindirib.

[1286] Şərhu Nəhcül-Bəlağə, İbn Əbülhədid, c. 14, s. 37-38

İbn Əbülhədidin sözlərində Əhli-Beytin (ə) Osmanı sevdiyinə dair heç bir dəlalət yoxdur. Mətndə yalnız İmam Əlinin (ə) pislikdən çəkindirmək qaydasına riayət edərək camaatı Osmanı öldürməkdən çəkindirdiyi qeyd olunur.

Yuxarıda da qeyd etdiyimiz kimi, İmam Əli (ə) Osmanın siyasətini tənqid edir, lakin eyni vaxtda şiddətlə onun qətlinin əleyhinə çıxırdı.

Üçüncü: "Həsən ibn Əli, Abdullah ibn Zübeyr, Mühəmməd ibn Təlhə... və onlarla bərabər ənsardan bir dəstə adamın övladları camaatın qarşısını kəsərək Osmanı qoruyurdular. Osman isə onlara deyirdi: "Siz mənə yardım etməkdən azadsınız".

Bu sözlər Təbərinin "Tarix"ində nəql etdiyi uzun rəvayətin bir hissəsidir. Orada Osmanın evinin mühasirəyə alınması hadisəsini silsiləvi olaraq Şüeybdən və Seyfdən rəvayət edib. Həmin rəvayəti əvvəldə qeyd etmiş və müvafiq cavabı da vermişik. İbn Əbülhədid də Təbərinin bu rəvayətinin bir parçasını "Nəhcül-Bəlağə"yə yazdığı şərhə daxil edib və özü də kitabında mətni oradan götürdüyünü vurğulayıb. Oradakı sözlərini sizə təqdim edirik:

İbn Əbülhədid yazır: *"Əbu Cəfər deyir: "Məsələ uzandıqda misirlilər onu öldürmək kimi bir cinayətlə üz-üzə qaldıqlarını, öldürməklə ona qarşı üsyan etməyin arasında artıq fərqin olmadığını anladılar. Ancaq onu sağ buraxmağın da öz həyatları üçün təhlükəli olacağından qorxdular. Bu vaxt qapıdan Osmanın evində girmək istədilər. Lakin qapı bağlandı, Həsən ibn Əli, Abdullah ibn Zübeyr, Muhəmməd ibn Təlhə, Mərvan, Səid ibn As və onlarla bərabər ənsardan bir dəstə adamın övladları camaatın qarşısını kəsərək Osmanı qorudular. Osman isə onlara dedi: "Siz mənə yardım etməkdən azadsınız". Lakin onlar imtina edərək geri qayıtmadılar".*[1287]

[1287] Şərhu Nəhcül-Bəlağə, İbn Əbülhədid, c. 2, s. 155

Təbərinin nəql etdiyi bu rəvayətin zəif olduğunu qeyd etmişik. Onun sənədindəki Şüeyb ibn İbrahim məchul (naməlum) şəxs, Seyf ibn Ömər isə zəif ravidir. Yuxarıda onlar barədə alimlərin sözlərini zikr etdik.

Bundan əlavə, rəvayətdə İhsan Zahirin iddia etdiyi Əhli-Beytin (ə) Osmana qarşı sevgi və xoş münasibətinə kiçik belə işarə yoxdur. Rəvayətinin mətnində yalnız onların Osmanın öldürülməsinə qarşı çıxmaları qeyd olunur. Əvvəldə bildirdik ki, İmam Əli (ə) Osmanın öldürülməsinə şiddətlə qarşı çıxır, amma eyni zamanda da onun siyasətini tənqid edirdi.

Dördüncü: "O və ailəsi Osmanı gecə ikən dəfn edənlərin arasında idilər. Mötəzili-şiə İbn Əbülhədidin də qeyd etdiyi kimi, Osmanın cənazə namazını da qıldılar: "Aralarında Həsən ibn Əli, İbn Zübeyr, Əbu Cəhm ibn Hüzeyfənin olduğu az sayda adam məğriblə gecəyarısı arasında onu Mədinənin Həşş-Kövkəb kimi tanınan divarlarından birinin kənarına gətirdilər. Bura Bəqi qəbiristanlığının çöl divarı idi. Orada Osmana namaz qıldılar".

Buna bir neçə cəhətdən cavab veririk:

Birinci: İhsan Zahir, öz adəti üzrə İbn Əbülhədidin sözləri üzərində saxtakarlıq edib, rəvayətdən nəql etdiyi hissənin əvvəlki cümlələrini kəsib və öz iddiasına münasib şəklə salıb. Bu sözlər Təbərinin "Tarix"ində Osmanın dəfni ilə bağlı nəql olunan rəvayətin bir parçasıdır. İbn Əbu-Hədid də həmin rəvayəti Təbərinin "Tarix"indən nəql edir və bunu mətndə də vurğulayır. Oradakı sözlərini təqdim edirik:

İbn Əbülhədid yazır: *"Əbu Cəfər deyir: "Osman cəsədi üç gün dəfn edilmədən qaldı. Sonra Həkim ibn Hizam və Cübeyr ibn Mütim Əlidən (ə) onun dəfn edilməsi üçün icazə istədi və Əli (ə) də izn verdi. Camaat bunu eşitdikdə bir dəstəsi əllərində daşlarla Osmanın cənazəsinin aparıldığı yolu*

kəsdilər. Gecəyə yaxın Osmanı dəfn etmək üçün ailəsindən az sayda adam çıxdı. Onların arasında Həsən ibn Əli, Zübeyrin oğlu və Əbu Cəhm ibn Hüzeyfə da var idi. Onu Mədinənin çöl divarlarından birinin yanına gətirdilər. Həmin yer Həşş-Kövkəb kimi tanınırdı və Bəqi qəbiristanlığının xaricində yerləşirdi. Osman üçün cənazə namazı qıldılar. Bir dəstə ənsar gəlib onun üçün namaz qılmalarına qarşı çıxdı. Əli (ə) də adam göndərib onun cənazəsini daş-qalaq etməkdən camaatı çəkindirdi. Namaza mane olmaq istəyənlər bu fikirlərindən əl çəkdilər. Osman Həşş-Kövkəbdə dəfn edildi.

Müaviyə xəlifəliyi ələ aldıqdan sonra həmin divarın uçurulmasına göstəriş verdi, oranı Bəqi qəbiristanlığına qatdı və camaata öz ölülərini Osmanın qəbrinin ətrafında basdırmağı əmr etdi. Nəhayət həmin qəbirlər müsəlmanların qəbirlərinə yetişdi".[1288]

İbn Əbülhədidin də iddia etdiyi kimi, bu sözlər Təbəriyə məxsusdur. Təbərinin həmin rəvayəti barədə isə əvvəldə söhbət açmışdıq.

İkinci: İbn Əbülhədidin Təbəriyə nisbət verdiyi bu sözlər doğru deyil. Xüsusilə də *"Onların arasında Həsən ibn Əli..."* sözləri. Təbərinin rəvayətində bu sözlər yer almayıb. Oradakı mətni sizə təqdim edirik:

Təbəri Əbu Büşeyr Abidiyə istinadən yazır: *"Osman (r) dəfn edilmədən üç gün müddətində açıq hava altında qaldı. Sonra Həkim ibn Hizam Qüreyşi, Bəni-Əsəd ibn Əbdülüzzadan bir nəfər və Cübeyr ibn Mütim ibn Ədiy ibn Nofəl ibn Əbdülmanaf Əli ilə (ə) danışıb ailəsinə Osmanı dəfn etmələrinə icazə verməsini istədilər və Əli (ə) də izn verdi. Camaat bunu eşitdikdə bir dəstəsi əllərində daşlarla Osmanın cənazəsinin aparıldığı yolu kəsdilər. Gecəyə yaxın Osmanı dəfn etmək üçün ailəsindən az sayda adam çıxıb Mədinənin çöl divarlarından birinin yanına tərəf istiqamətləndilər. Həmin yer Həşş-Kövkəb kimi tanınırdı, yəhudilər orada öz ölülərini dəfn edirdilər. Nəşini camaatın qarşısından apardıqda onu daşlamağa başladılar*

[1288] Şərhu Nəhcül-Bəlağə, İbn Əbülhədid, c. 2, s. 158

və çevirməyə cəhd göstərdilər. Xəbər Əliyə çatdıqda adam göndərib bu işdən əl çəkmələrini buyurdu. Nəhayət onu Həşş Kövkəbə aparıb dəfn etdilər.

Müaviyə ibn Əbu Süfyan camaatın rəhbərliyini əlinə aldıqda divarın uçurulmasına göstəriş verdi və ərazini Bəqi qəbiristanlığına qatdı. Bundan sonra müsəlmanlara öz ölülərini Osmanın qəbrinin ətrafında dəfn etməyi tapşırdı. Nəhayət həmin qəbirlər müsəlmanların qəbirlərinə çatdı".[1289]

Təbərinin rəvayətində İmam Həsənin (ə) və ya Əhli-Beytin (ə) başqa bir üzvünün Osmanın dəfnində iştirak etdiyinə və onun üçün namaz qıldığına dair heç bir qeyd yoxdur. Mətndə Osmanın dəfn edilmədən açıq havada üç gün qaldığı aydın ifadə olunur. Həkim ibn Hizam, Bəni-Əsəddən bir şəxs və Cübeyr ibn Mütim Möminlərin əmiri Əli (ə) ilə onun dəfni barədə söhbət etmiş, İmam da (ə) onun dəfn edilməsinə izn vermişdi. Müsəlman qəbiristanlığında dəfn olunması qadağan edildiyinə görə yaxınları onu yəhudi qəbiristanlığında dəfn etmişlər.

İbn Əbülhədidin Təbəriyə nisbət verərək yanlış nəql etdiyi bu sözlər İbn Əsirin kitabında *"Deyilib ki"* ünvanı ilə qeyd etdiyi mətnə daha yaxındır. Lakin orada İbn Əbülhədidin yazdığı *"cənazə namazı qıldılar"* sözləri yer almır. Orada deyilir: *"Onun cəsədini Mədinənin çöl divarlarından birinin yanına, Həşş-Kövkəb adlanan yerə gətirdilər. Ora Bəqi qəbiristanlığının xaricində yerləşirdi. Osman üçün namaz qılanın Cübeyr ibn Mütim, yaxud Həkim ibn Hizam və ya Mərvan olduğu deyilib".*

İbn Əsirin sözləri belədir*: "Deyilib ki, Osmanın cəsədi üç gün dəfn edilmədən qaldı. Sonra Həkim ibn Hizam Qüreyşi və Cübeyr ibn Mütim Əlidən (ə) onun dəfn edilməsi üçün icazə istədi və Əli (ə) də izn verdi. Camaat onların bu məqsədlərindən xəbər tutduqda əllərində daşlarla cənazənin aparıldığı yolu kəsdilər. Gecəyə yaxın Osmanı dəfn etmək üçün ailəsindən və digərlərində ibarət az bir dəstə adam çıxdı. Onların arasında Zübeyr, Həsən, Əbu Cəhm ibn Hüzeyfə və Mərvan var idi. Onun cəsədini*

[1289] Tarix, Təbəri, c. 3, s. 438

Mədinənin çöl divarlarından birinin yanına, Həşş-Kövkəb adlanan yerə gətirdilər. Ora Bəqi qəbiristanlığının xaricində yerləşirdi. Osmanın cənazəsinə namaz qılanın Cübeyr ibn Mütim, yaxud Həkim ibn Hizam və ya Mərvan olduğu deyilib. Bir dəstə ənsar gələrək namaz qılınmasına mane olma çalışdılar. Ancaq fitnə düşəcəyindən qorxub bu işdən əl çəkdilər.

Əliyə xəbər yetişdikdə Osmanın cənazəsinin aparıldığı yolun üzərində oturub cəsədini daşqalaq etmək istəyənlərin yanına adam göndərdi, onları bu işdən çəkindirdi. Osman Həşş-Kövkəbdə dəfn olundu.

Müaviyə xəlifəliyi ələ aldıqdan sonra həmin divarın uçurulmasına göstəriş verdi, oranı Bəqi qəbiristanlığına qatdı və camaata öz ölülərini Osmanın qəbrinin ətrafında basdırmağı əmr etdi. Nəhayət onun qəbri müsəlmanların qəbirlərinə yetişdi".[1290]

İbn Əsirin sözlərində də Osmanın üç gün dəfn edilmədən qaldığı aydın qeyd edilir, Həkim ibn Hizam Qüreyşi və Cübeyr ibn Mütim Möminlərin əmiri Əli (ə) ilə onun dəfn edilməsi barədə söhbət etdikdən sonra İmam (ə) onun dəfn olunmasına icazə verir. Osmanı dəfn etmək üçün ailəsi və aralarında Zübeyr, Həsən, Əbu Cəhm ibn Hüzeyfə və Mərvanın olduğu az bir dəstə adam çıxır. Onun üçün namaz qılanın Cübeyr ibn Mütim, yaxud Həkim ibn Hizam və ya Mərvan olduğu deyilir. Müsəlman qəbiristanlığında dəfn edilməsi qadağan olunduğuna görə Osmanı yəhudi qəbiristanlığında dəfn edirlər.

İmam Həsənlə (ə) Zübeyrin camaatla birlikdə getməsi bəlkə də yolu kəsərək cənazəni daşqalaq etmək istəyənlərin qarşısını almaq üçün idi. Belə ki, üç gün boyunca Osmanı dəfn etməyə maneə yaradanlardan birinin məhz Təlhə olduğu məlumdur. Lakin İmam Əlinin (ə) dəfnə izn verməsi Təlhənin öz mövqeyindən geri çəkilməsinə səbəb oldu. Buna baxmayaraq, o, Osmanın müsəlman qəbiristanlığında dəfn edilməsinə razılıq vermədi.

[1290] əl-Kamilu fit-tarix, İbn Əsir, c. 3, s. 180

Nəticə: İhsan Zahir İbn Əbülhədidin sözlərində saxtakarlığa yol verib, həmin sözləri Təbəridən nəql etdiyini gizlədib. Eyni vaxtda, İbn Əbülhədidin Təbəridən nəql etdikləri, xüsusilə İmam Həsənin (ə), Zübeyrin və Əbu Cəhm ibn Hüzeyfənin Osmanın ailə üzvləri ilə bərabər dəfn etmək üçün çıxdıqları sözləri düzgün deyil. Belə ki, Təbərinin mətnində bu cümlə yoxdur. Bəli, İbn Əbülhədidin nəql etdikləri İbn Əsirin "Tarix"ində yazdığı sözlərə daha yaxındır. Lakin orada da İbn Əbülhədidin söylədiyi *"cənazə namazı qıldılar"* sözləri yer almır. Həmin mətndə yalnız *"Onun üçün namaz qılanın Cübeyr ibn Mütim, yaxud Həkim ibn Hizam və ya Mərvan olduğu deyilib"* sözləri var.

Təbəri öz "Tarix"ində Osmanın dəfni ilə bağlı əsas rəvayətləri nəql edib. Onlarda İmam Əlinin (ə), İmam Həsənin (ə) və ya Əhli-Beytin (ə) digər üzvlərinin Osman üçün namaz qılması bir kənara dursun, heç dəfnində iştirak etdiklərinə dair eyham belə yoxdur. Bircə Şüeyb ibn İbrahimin Seyf ibn Ömərdən nəql etdiyi rəvayətdə bunlar qeyd edilir ki, onların da zəif ravilər olduğunu əvvəldə bildirmişik. Həmin mətni sizə təqdim edirik:

"Cəfər ibn Abdullah Muhəmmədi mənə Əmr ibn Həmmad və Əli ibn Hüseyndən nəql edirlər ki, Hüseyn ibn İsa atasından, o da Əbu Məymunədən, o da Əbu Büşeyr Abididən rəvayət edir: "Osman (r) dəfn edilmədən üç gün müddətində açıq hava altında qaldı. Sonra Həkim ibn Hizam Qüreyşi, Bəni-Əsəd ibn Əbdülüzzadan bir nəfər və Cübeyr ibn Mütim ibn Ədiy ibn Nofəl ibn Əbdülmanaf Əli (ə) əli danışıb ailəsinə Osmanı dəfn etmələrinə icazə verməsini istədilər və Əli (ə) də izn verdi. Bunu eşitdikdə bir dəstəsi adam əllərində daşlarla Osmanın cənazəsinin aparıldığı yolu kəsdilər. Gecəyə yaxın Osmanı dəfn etmək üçün ailəsindən az sayda adam çıxıb Mədinənin çöl divarlarından birinin yanına tərəf istiqamətləndilər. Həmin yer Həşş-Kövkəb kimi tanınırdı, yəhudilər orada öz ölülərini dəfn edirdilər. Nəşini

camaatın qarşısından apardıqda onu daşlamağa başladılar və çevirməyə cəhd göstərdilər. Xəbər Əliyə çatdıqda adam göndərib bu işdən əl çəkmələrini buyurdu. Nəhayət onu Həşş Kövkəbə aparıb dəfn etdilər.

Müaviyə ibn Əbu Süfyan camaatın rəhbərliyini əlinə aldıqda divarın uçurulmasına göstəriş verdi və ərazini Bəqi qəbiristanlığına qatdı. Bundan sonra müsəlmanlara öz ölülərini Osmanın qəbrinin ətrafında dəfn etməyi tapşırdı. Nəhayət həmin qəbirlər müsəlmanların qəbirlərinə çatdı".

Cəfər mənə Əmr və Əlidən nəql edir ki, onlar Həsəndən, o da atasından, o da Mücalid ibn Səid Həmədanidən, o da Yəsar ibn Əbu Kərbdən, o da atasından (Əbu Kərb Osmanın vaxtında beytül-mal məmurlarından idi) rəvayət edir: "Osman (r) axşamla gecə arası dəfn edildi. Cənazəsini yalnız Mərvan ibn Həkəm, üç yoldaşı və qızı müşayiət etdi. Qızı ağlayır, növhəsinin səsi yüksəlirdi. Camaat isə əlinə daş alaraq deyirdilər: "Axmaq uzunsaqqal qoca... axmaq uzunsaqqal qoca..." Az qalmışdı ki, onun cənazəsini belə daşqalaq etsinlər. Camaat bu dəfə də "Divardan kənara! Divardan kənara!" deyə səsləndi. Nəticədə o, Mədinənin divarından çöldə dəfn edildi".

Amma Vaqidi qeyd edir ki, Səd ibn Raşid ona Saleh ibn Keysandan rəvayət edib: "Osman (r) öldürüldü. Bir nəfər onu yəhudi qəbiristanlığındakı dərədə dəfn etmələrini söylədi. Həkim ibn Hizam isə bunun əsla olmayacağını bildirdi. Qüsey oğullarından bir nəfər tələsərək araya girdi, az qaldı ki, münaqişə yaransın. İbn Üdeys Bəlvi dedi: "Ey qoca, onun harada dəfn edilməsinin sənə nə zərəri var? Həkim ibn Hizam dedi: "Yalnız Bəqidə dəfn ediləcək. Ondan əvvəlkilər də, yoldaşları da orada dəfn olunublar".

Həkim ibn Hizam aralarında Zübeyrin də olduğu on iki nəfərlə bərabər onun cənazəsini götürdülər. Həkim ibn Hizam Osmanın cənazə namazını qıldı".

Vaqidi deyir: "Bizim nəzərimizdə Cübeyr ibn Mütimin ona namaz qıldığı sübuta yetib".

Muhəmməd ibn Ömər deyir: Zəhhak ibn Osman mənə Muxrimə ibn Süleyman Valibidən nəql edib: "Osman (r) cümə günü sübh tezdən öldürüldü. Onu həmin gün dəfn edə bilmədilər. Qürafisənin qızı Nailə[1291] Hüveytəb ibn Əbdülüzzanın, Cübeyr ibn Mütimin, Əbu Cəhm ibn Hüzeyfənin, Həkim ibn Hizamın və Nəyyar Əsləminin ardınca adam göndərdi. Lakin onlar dedilər: "Bu misirlilər qapının qarşısında olduqları halda biz onu gündüz vaxtı aparıb dəfn edə bilmərik. Axşamdan bir az keçməsini gözləyin".

Bir dəstə adam gəlib onu dəfn etmək istəyənlərlə meyitin arasına keçdilər. Əbu Cəhm dedi: "Allaha and olsun ki, meyitə yaxınlaşmağa mənə heç kəs mane ola bilməz! Ölsəm belə onu buradan aparacağam".

Onu Bəqi qəbiristanlığına apardı. Onunla bərabər Nailə də gedirdi, əlində çıraq var idi. Həmin çıraq az qala bütün Bəqini işıqlandırırdı. Osmanın qulamı da onlarla idi. Palma ağacları olan bir yerə çatdılar. Yaxınlıqdakı divarın dibində qəbir qazıb Osmanı orada dəfn etdilər. Ona Cübeyr ibn Mütim namaz qıldı.

Nailə qayıtdıqda camaatın qarşısında danışmaq istədi, lakin onu təhqir etdilər. Nailənin yanındakılar dedilər: "Biz bu azğın kütlənin onun qəbrini qazıb cəsədini çıxaracaqlarından qorxuruq". Nailə evinə qayıtdı".

Muhəmməd deyir: "Abdullah ibn Yezid Həzəli mənə Abdullah ibn Saidədən nəql edir: "Osman qətlə yetirildikdən sonra cəsədi iki gecə ortalıqda qaldı. Onu dəfn edə bilmirdilər. Sonra dörd nəfər – Həkim ibn Hizam, Cübeyr ibn Mütim, Nəyyar ibn Mukrim və Əbu Cəhm ibn Hüzeyfə onun nəşini götürdülər. Cənazə namazı qılmaq üçün Osmanın meyitini qarşılarında yerə qoyduqda ənsardan bir neçə nəfər gəlib buna mane oldular. Onların arasında Əsləm ibn Ovs ibn Bəcrə Saidi, Əbu Həyyə Mazəni də var idi. Osmanı Bəqi qəbiristanlığında dəfn etməyi onlara qadağan etdilər. Əbu Cəhm dedi: "Onu burada dəfn edin! Allahın və mələklərin

---

[1291] Osmanın həyat yoldaşı

salavatı onunladır!" Ənsardan olan adamlar isə dedilər: "Xeyr, Allaha and olsun ki, onu əsla müsəlman qəbiristanlığında dəfn etməyəcəksiniz!"

Sonda Osmanı Həşş-Kövkəbdə dəfn etdilər. Bəni-Üməyyə hakimiyyətə gəldikdə Həşş-Kövkəbi Bəqiyə qatdı. Həmin yer bu gün də Üməyyə oğullarının qəbiristanlığıdır".

Muhəmməd deyir: "Abdullah ibn Musa Məxzumi mənə bunu danışıb: "Osman öldürüldükdə onun başını bədənindən ayırmaq istədilər. Nailə və Ümmül-Bənin Osmanın üzərinə atılaraq onlara mane oldular, qışqırdılar, üzlərinə vurdular və paltarlarını yardılar. İbn Üdeys Osmanın meyitindən əl çəkmələrini tələb etdi. Sonra meyit qüslü vermədən onun cənazəsini Bəqi qəbiristanlığına apardılar. Cənazə namazı üçün müəyyən olunmuş yerdə ona namaz qılmaq istədikdə ənsar mane oldu. Ümeyr ibn Zabii yaxınlaşıb bir taxta qapının üzərinə qoyulmuş Osmanın cəsədinin üzərinə ayaqları ilə tullandı. Bu vaxt meyitin qabırğası sındı. Ümeyr deyirdi: "O, (atam) Zabiini həbsə atdırmış və o da məhbəsdə ölmüşdü".

Haris mənə İbn Səddən, o da Əbu Bəkr ibn Abdullah ibn Əbu Üveysdən, o da babasının əmisi Rəbi ibn Malik ibn Əbu Amirdən, o da atasından nəql edib: "Osman (r) qətl ediləndə onun cənazəsini daşıyanlardan biri mən idim. Cəsədini bir qapının üzərinə qoyub aparırdıq. Sürətlə hərəkət etdiyimiz üçün başı qapıya dəyib taqqıldayırdı. Dəfnlə bağlı bizim qorxumuz var idi. Onu Həşş-Kövkəbdə torpağa tələsik dəfn etdik".

Seyfə gəldikdə, Səriyin mənə yazdıqlarında Şüeybdən, o da Seyfdən, o da Əbu Harisə, Əbu Osman, Muhəmməd və Təlhədən nəql edir: "Osman qətlə yetirildikdə Nailə Əbdürrəhman ibn Üdeysin ardınca adam göndərib dedi: "Sən bunlara qohumluqda daha yaxın və işlərimi həvalə etməyə ən üstün şəxssən. Bu meyitləri götürməyə yardım et".

Əbdürrəhman ibn Üdeys onu söyüb təhqir etdi. Gecəyarısı olduqda Mərvan çıxıb Osmanın evinin qapısına gəldi. Onun ardınca Zeyd ibn Sabit, Təlhə ibn Übeydullah, Əli, Həsən, Kəb ibn Malik və əshabından bir dəstə

adam gəldilər. Cavanlar və qadınlar da tədricən cənazənin başına toplaşdılar. Osmanı dəfn etmək üçün apardılar. Mərvan ona cənazə namazı qıldı. Osmanı Bəqidə, Həşş-Kövkəbə yaxın yerdə dəfn etdilər..."[1292]

İbn Əsir öz "Tarix" əsərində Osmanın dəfni ilə bağlı Təbərinin bu sözlərinə iki qeyd əlavə edib. Orda yazır: *"Deyilib ki, Osmanın cəsədi üç gün dəfn edilmədən qaldı. Sonra Həkim ibn Hizam Qüreyşi və Cübeyr ibn Mütim Əlidən (ə) onun dəfn edilməsi üçün icazə istədi və Əli (ə) də izn verdi. Camaat onların bu məqsədlərindən xəbər tutduqda əllərində daşlarla cənazənin aparıldığı yolu kəsdilər. Gecəyə yaxın Osmanı dəfn etmək üçün ailəsindən və digərlərində ibarət az bir dəstə adam çıxdı. Onların arasında Zübeyr, Həsən, Əbu Cəhm ibn Hüzeyfə və Mərvan var idi. Onun cəsədini Mədinənin çöl divarlarından birinin yanına, Həşş-Kövkəb adlanan yerə gətirdilər. Ora Bəqi qəbiristanlığının xaricində yerləşirdi. Onun üçün namaz qılanın Cübeyr ibn Mütim, yaxud Həkim ibn Hizam və ya Mərvan olduğu deyilib. Bir dəstə ənsar gələrək onun üçün namaz qılınmasına mane olmağa çalışdılar. Ancaq fitnə düşəcəyindən qorxub bu işdən əl çəkdilər.*

Əliyə xəbər yetişdikdə Osmanın cənazəsinin aparıldığı yolun üzərində oturub cəsədini daşqalaq etmək istəyənlərin yanına adam göndərdi, onları bu işdən çəkindirdi. Osman Həşş-Kövkəbdə dəfn olundu.

Müaviyə xəlifəliyi ələ aldıqdan sonra həmin divarın uçurulmasına göstəriş verdi, oranı Bəqi qəbiristanlığına qatdı və camaata öz ölülərini Osmanın qəbrinin ətrafında basdırmağı əmr etdi. Nəhayət onun qəbri müsəlmanların qəbirlərinə yetişdi".

Həmçinin deyilib: "Bəqidə, Həşş-Kövkəbə yaxın yerdə dəfn edilib".

Eləcə də deyilib: "Onun cənazəsini Əli, Təlhə, Zeyd ibn Sabit, Kəb ibn Malik və əshabından bir dəstə adam müşayiət edib".[1293]

[1292] Tarix, Təbəri, c. 3, s. 438-441

[1293] əl-Kamilu fit-tarix, İbn Əsir, c. 3, s. 180

İbn Əsirin sadaladığı son ikinci və üçüncü fikirlər Şüeybin Seyfdən nəql etdikləridir. Görünən odur ki, birinci fikirdə söylədiyi *"Onların arasında Zübeyr, Həsən, Əbu Cəhm ibn Hüzeyfə və Mərvan var idi"* sözlərinin mənbəyi də Seyfin rəvayətidir. İmam Həsənin (ə) Osmanın cənazəsini müşayiət etdiyi yalnız Seyfin rəvayətlərində yer alıb.

İbn Əsirin belə zəif fikirləri qeyd etməsi və Təbərinin etibarlı rəvayətlərinin müqabilində bunları nəql etməsi olduqca qəribədir!

Əhli-Beyt (ə) üzvlərinin Osman üçün cənazə namazı qıldıqları Təbəri və İbn Əsirin rəvayətlərində yoxdur. Hətta Şüeybin Seyfdən nəql etdiyi rəvayətdə də onların cənazəyə namaz qıldıqları zikr olunmur. Bəli, həmin rəvayətdə İmam Əli (ə) və İmam Həsənin (ə) Osmanın cənazəsini müşayiət etdikləri deyilir. Ancaq rəvayətin raviləri olan Şüeyb və Seyfin zəif olduqları barədə fikirləri biz əvvəldə qeyd etmişik.

Bütün bunlardan Əhli-Beytin (ə) Osmana qarşı sevginə, onu dəfn etmələrinə və cənazə namazı qılmalarına dair İhsan Zahirin iddiasına göstərdiyi dəlillərin hörümçək evi qədər zəif olduğu aydınlaşır. İddialarına dəlil göstərdiyi rəvayət və xəbərlərin heç birində bunlara dəlalət edəcək işarələr yoxdur. Bəli, Seyf ibn Ömərin rəvayətində Möminlərin əmiri Əlinin (ə) və İmam Həsənin (ə) Osmanın cənazəsini müşayiət etdikləri qeyd olunur. Lakin İbn Əbülhədidin İmam Həsən (ə), Zübeyr və Əbu Cəhm ibn Hüzeyfənin Osmanın ailəsindən az sayda adamla birlikdə cənazəni müşayiət etdiyinə dair Təbəridən nəql etdiyi rəvayətin səhih olmadığını bildirdik. Həmçinin İbn Əsirin *"Deyilib ki,"* ünvanı ilə qeyd etdiyi sözlərin də məhz Seyf ibn Ömərin rəvayətlərinə əsaslandığını da vurğuladıq.

Bütün bunlardan əlavə, ən başlıcası, təqdim edilən rəvayətlərin hamısı Əhli-Sünnə mənbələridir. İbn Əbülhədidin, Təbəri və İbn Əsirin Əhli-Sünnə alimləri olduğu barədə keçmiş bəhslərimizdə geniş söhbət açmışdıq.

İhsan Zahirin Osmanın Əhli-Beyt (ə) tərəfindən dəfn edilməsi və onun üçün namaz qılmaları iddiasındakı təşvişinin heç bir faydası yoxdur. Onun şiə mənbəyi kənara dursun, hətta Əhli-Sünnə mənbəyindən iddiasına dəlil göstərməkdə acizliyinin səbəbi isə Osmanın qətlindən sonra cəsədinin üç gün dəfn edilmədən açıq hava altında qaldığında və camaat tərəfindən müsəlman qəbiristanlığında dəfn edilməsinə izn verilməməsində hər iki firqənin tarix və seyr müəlliflərinin yekdil fikir sahibi olmalarıdır.

B. İbn Meysəm Bəhraninin sözləri

İhsan Zahir İmam Əlinin (ə) Osmanı müdafiə etdiyinə və sonda məcbur qalıb bundan əl çəkdiyinə İbn Meysəm Bəhraninin "Nəhcül-Bəlağə"yə yazdığı şərhindəki bu sözləri dəlil göstərir: **"Uzun müddət dili və əli ilə müdafiə etdikdən sonra onun yanından uzaqlaşdı" ("Şərhu Nəhcül-Bəlağə", İbn Meysəm Bəhrani...)".**[1294]

Dəlil kimi təqdim etdiyi bu sözlər İbn Meysəm Bəhraninin Möminlərin əmiri Əlinin (ə) aşağıdakı sözlərinin izahında qeyd etdiyi fikirlərin bir parçasıdır: *"Ömrümə and olsun, ey Müaviyə, əgər nəfsinlə deyil, ağlınla nəzər salsan, mənim Osmanın qətlində ən təmiz şəxs olduğumu görər, sonda ondan uzaqlaşaraq bir kənara çəkildiyimi bilərsən. Ancaq sən (böhtan ataraq) məni bunda ittiham edirsən..."*[1295]

İhsan Zahir yenə də İbn Meysəm Bəhraninin sözləri üzərində saxtakarlığa əl atıb, onun sözünün əvvəlini kəsib. Həmin mətni sizə təqdim edirik:

İbn Meysəm Bəhrani İmamın (ə) yuxarıdakı sözlərinin bəyanında deyir: *"Sonra and içərək nəfsi ilə deyil, ağlı ilə nəzər salacağı təqdirdə Osmanın qanına əli bulaşmaqda onun ən təmiz şəxs olduğunu görəcəyini*

[1294] Şiə və Əhli-Beyt, s. 147

[1295] Nəhcül-Bəlağə, c. 3, s. 7. 6-cı məktub, Şeyx Muhəmməd Əbdəhin təhqiqi ilə

bildirir. Osmanın qətl edildiyi ərəfələrdə isə ondan uzaqlaşaraq bir kənara çəkilmişdi. Bu, məlum məsələdir.

Qətldə iştirak ya əməli olaraq, ya da əmr, təhrik və söz ilə baş verir. Lakin İmam Əlinin (ə) bu qətldə əməli və ya sözlü iştirakı barədə heç bir fikir nəql edilməyib. Əksinə, nəql olunur ki, İmam Əli (ə) Osmanın evində olmuş, uzun müddət əli və dili ilə onu qorumuş, artıq müdafiə etməyin mümkün olmadığını gördükdə isə oradan uzaqlaşmışdı".[1296]

Məlumdur ki, İbn Meysəm İmam Əlinin (ə) Osmanın qətli ərəfəsindəki mövqeyini məchul (naməlum) şəxslərdən nəql etməkdədir. Bunu onun mətndəki sözləri də təsdiqləyir: *"Əksinə nəql olunur ki, İmam Əli (ə) Osmanın evində olmuş, uzun müddət əli və dili ilə onu qorumuş, artıq müdafiə etməyin mümkün olmadığını gördükdə isə oradan uzaqlaşmışdı".*

İbn Meysəmin sözlərinin əsli budur. Biz indi İmam Əlinin (ə) Osmanın evində olduğunu, uzun müddət əli və dili ilə onu qoruduğunu, artıq müdafiə etməyin mümkün olmadığını gördükdə isə oradan uzaqlaşdığını söyləyən şəxsin kimliyi barədə soruşuruq, o şəxs kimdir?!

Tarix, seyr və rəvayət müəlliflərinin nəql etdiklərinə əsasən, Osmanın yanlış siyasət və əməllərinə qarşı etiraza qalxmış, evini mühasirəyə almış şəxslərin Peyğəmbər (s) səhabələri olduğunu əvvəldə bildirdik. Təbərinin "Tarix"ində Əbdürrəhman ibn Yəsardan rəvayət olunur: *"Osmanın etdiklərini gördükdə Mədinədəki Peyğəmbər (s) səhabələri ətraf məntəqələrə dağılmış səhabələrə məktub yazdılar: "Siz Allah yolunda Muhəmmədin (s) dini üçün səy göstərdiyiniz halda, ardınızdan onun dini fəsada uğradı və tərk edildi. Yanımıza gəlin, Peyğəmbərin dinini bərpa edin". Uzaq yerlərdən gəlib nəhayət Osmanı qətlə yetirdilər".*[1297]

İbn Əsir də özünün "Tarix" əsərində 34-cü hicri ilinin hadisələrini qeyd edərkən yazır: *"Həmin ildə bir dəstə Peyğəmbər (s) səhabəsi və başqaları*

[1296] Şərhu Nəhcül-Bəlağə, İbn Meysəm Bəhrani, c. 4, s. 353

[1297] Tarix, Təbəri, c. 3, s. 400-401

digər səhabələrə məktub göndərdilər: "Buraya gəlin, cihad buradadır. Camaat Osmana qarşı çox ciddidir, heç kimdən görmədikləri pislikləri ondan çəkiblər. Səhabələrdən yalnız az sayda adam: Zeyd ibn Sabit, Əbu Üseyd Saidi, Kəb ibn Malik və Həssan ibn Sabit onu müdafiə etdilər".[1298]

Zəhəbinin "Tarixul-İslam" kitabında isə qeyd edilir: *"Osmanı yalnız qoyub üsyana qoşulmayan Peyğəmbər (s) səhabələri məsələnin onun öldürülməsi həddinə çatmayacağını zənn edirdilər. O qətlə yetirildikdə isə bu məsələdə onu tənha qoyduqlarına peşman oldular".*[1299]

Aişə camaatı Osmana qarşı təhrik edənlərin önündə gedir, ona qarşı etirazlara səsləyirdi. Onu gah küfrə düşərək kafir olmaqda ittiham edir,[1300] gah da zalım və tağut kimi vəsf edərək camaatı onu müdafiə etməkdən çəkindirirdi.[1301]

Həmçinin Təlhə də bu işdə öndə gedənlərdən idi.[1302] Hətta Osmana su verilməsinin qarşısının alınmasını əmr edənin də Təlhə olduğu bildirilib.[1303]

Buradan da aydın olur ki, Osmana qarşı çıxmağa camaatı təhrik edən və etiraza qalxanlar, evini mühasirəyə alanlar, onun yanlış siyasət və rəftarlarını görüb islahat və istefa seçiminin arasında qoyanlar məhz Peyğəmbərin (s) səhabələri idi. Onların seçim təkliflərində öldürülmək təhdidi yox idi. Onlar yalnız Osmanın yaxın qohumlarını hakimiyyətdən uzaqlaşdırmasını tələb edir, evini mühasirəyə alaraq onu buna məcbur etməyə çalışırdılar.

[1298] əl-Kamilu fit-tarix, İbn Əsir, c. 3, s. 150-151

[1299] Tarixul-İslam, Zəhəbi, c. 3, s. 448

[1300] Tarix, Təbəri, c. 3,s əh.477; əl-Kamilu fit-tarix, İbn Əsir, c. 3, s. 206

[1301] Ənsabul-əşraf, Bəlazuri, c. 6, s. 193; əl-İstiabu fi mərifətil-əshab, İbn Əbdülbərr, c. 2, s. 716

[1302] Ənsabul-əşraf, Bəlazuri, c. 6, s. 192, 201; əl-Müsənnəf, İbn Əbu Şeybə, c. 7, s. 276

[1303] Ənsabul-əşraf, Bəlazuri, c. 6, s. 188; əl-İsabə, İbn Həcər, c. 2, s. 432.

İbn Əbu Şeybənin "əl-Müsənnəf" kitabında Vəssab sənədilə qeyd olunan Malik Əştərin Osmanla dialoqundakı *"Ya onların qarşısında xəlifəlikdən istefa verib: "Bu da sizin xilafətiniz, istədiyiniz şəxsi seçin" deyəcəksən, ya da səndən hesab sormalarına imkan verəcəksən. Əgər bu ikisindən boyun qaçırsan onlar səni öldürəcəklər"* [1304] sözlərinə gəldikdə, bunun Malik Əştərin hadisələrin gedişatından çıxardığı şəxsi nəticə olduğu görünür. Çünki bunu şərt kimi söyləməsi məntiqsizdir. Onların ilk təklifinin istefa olduğu görünür. Öldürməkdənsə istefa verməyə məcbur edə bilərlər. İkinci seçim isə camaatın qarşına çıxıb hesabat verməsidir. Onun sözlərindən aydın olur ki, Osmanı iki seçimin arasında qoyurlar. Bu ikisinin arasında isə öldürülmək təhdidi yoxdur.

Osmanın xəlifəliyi dövründə bir çox təhlükəli addımları ona eyib tutulurdu. Məsələn, Vəlid ibn Üqbə kimi fasiq kəsləri, öz yaxınlarını, Üməyyə və Müit oğullarını dövlət işlərinin idarəçiliyinə təyin edirdi. Vəlidi Kufəyə vali qoymuş, Peyğəmbərin (s) qovduğu Həkəm ibn Ası Mədinəyə qaytarmış, zəif və miskinlərin beytül-maldakı haqlarını özünün ən yaxın adamlarına paylamışdı. Əbuzər Ğəffari, Abdullah ibn Məsud və Əmmar Yasir kimi bir çox böyük Peyğəmbər (s) səhabəsi onun dövründə ağır möhnət və məhrumiyyətlərlə üzləşmiş, ehtiramları tapdanmışdı. Osman səhabələrin əlində olan Quran nüsxələrini toplayaraq cırmış, vahid bir Quran iddiası ilə onları məhv etmişdi. Peyğəmbər (s) səhabələrinin qəzəb və etirazına, nəticədə camaatın ümumi şəkildə onun əleyhinə qalxmasına səbəb olan bu və digər yanlış addımlara heç bir bəraət yoxdur.

Osmana hətta Təlhə və Əbdürrəhman ibn Ovf kimi ən yaxın adamları da eyib və nöqsan tuturdu. Onların hər ikisi Osmanın hakimiyyətə gəlməsində yaxından iştirak etmiş şəxslər idi. Buxari "Səhih"ində Ömərin təyin etdiyi altı nəfərlik şurada Osmana səs verməyi oradakılara

[1304] əl-Müsənnəf, İbn Əbu Şeybə, c. 8, s. 583

Əbdürrəhman ibn Ovfun təklif etdiyini, Təlhənin də seçim vaxtı öz səsini Osmana verdiyi qeyd olunur. Həmin şurada Səd ibn Əbu Vəqqas səsini Əbdürrəhman ibn Ovfa vermiş, o da həmin səsi Osmanın xeyrinə istifadə etmiş və Osmanı xəlifə seçmişdi. Rəvayətdə deyilir: *"Əbdürrəhman ibn Ovf dedi: "Aranızdan üç nəfəri seçin". Zübeyr dedi: "Mən səsimi Əliyə verirəm". Təlhə səsini Osmana, Səd isə Əbdürrəhman ibn Ovfa verdi.* İbn Ovf dedi: "*Sizin ikinizdən biriniz bu işdən imtina etsə, elə ona da xəlifəliyi verəcəyik. Öz nəfsinizə baxın və hansınız daha üstündürsə Allahını, dinini düşünüb qərar versin. Belə dedikdə Osman və Əlidən bir səs çıxmadı.*

Əbdürrəhman ibn Ovf dedi: "Siz icazə versəniz, mən ikinizdən birini seçərəm".

Hər ikisi susdu. Əbdürrəhman dedi: "Bunu mənə həvalə edirsinizmi? Allaha and olsun ki, sizin ən fəzilətlinizdən əsla yan keçməyəcəyəm!" Onlardan birinin (Əlinin) əlindən tutub dedi: "Bilirəm ki, sənin Peyğəmbərlə (s) qohumluğun var, İslamı ilk qəbul edənlərdənsən. Səni Allaha and verirəm, xilafəti sənə həvalə etsəm ədalətli olacaqsan? Osmana həvalə etsəm, ona itaət edəcəksən?"

Sonra digərinə (Osmana) yaxınlaşaraq eyni sözləri ona da söylədi.

Onlar buna söz verdikdə "Ey Osman, əlini qaldır" deyib ona beyət etdi..."[1305]

Təlhə, Səd ibn Əbu Vəqqas və Əbdürrəhman ibn Ovf Osman xəlifə seçilərkən ona həlledici səsləri vermələrinə rəğmən üsyan vaxtı ona etiraz edərək qarşı çıxanlardan idilər.

Bu mərhələlərdə İmam Əlinin (ə) mövqeyi hadisələri sakit məcrada yürütməkdən, etirazçıların tələblərini Osmana çatdırmaqdan və islahatlarla bağlı ona məsləhətlər verməkdən ibarət idi. Lakin Osman bu qanuni tələbləri rədd etdi, Möminlərin əmiri Əlinin (ə) sözlərini

[1305] Səhih, Buxari, c. 4, s. 206, "Osman ibn Əffana beyət və yekdilliklə səs verilməsi hadisəsi" babı.

dinləmədi. İmam (ə) işi belə gördükdə onun evindən uzaqlaşdı. Bəlazurinin "Ənsabul-əşraf"ında deyilir: *"Əli Osmanı qətlə yetirmək istədiklərindən xəbər tutduqda dedi: "Biz Mərvanı (təhvil verməsini) istəyirik, Osmanın öldürülməsini yox!"*[1306]

İbn Şəbbə Nəmirinin Ümeyr sənədilə nəql etdiyi sözlər də bunu təsdiqləyir: *"Əli (r) xütbə söyləyərkən sözünü kəsdilər. O, dedi: "Həqiqətən də, mən Osmanın öldürüldüyü gün zəiflədildim".*[1307]

Bəzi rəvayətlərdə İmam Əlinin (ə) hadisələrin başından etibarən Osmandan uzaqlaşdığı deyilir. İbn Əbu Şeybə "əl-Müsənnəf"də Əbu Üseyd Ənsarinin azad edilmiş köləsi Əbu Səid sənədilə Osmanın öldürməsi hadisəsini belə hekayə edir: *"Əlinin yanına gəlib dedilər: "Bu Allahın düşmənini (Osmanı) görürsənmi?! Bizim barəmizdə filan-filan əmrləri verib. Allaha and olsun ki, artıq onun qanı halaldır! Bizimlə birlikdə ona qarşı ayağa qalx".*

Əli dedi: "Xeyr, Allaha and olsun ki, sizinlə birlikdə etiraza qalxmayacağam".

Dedilər: Məgər bizə məktub yazmadın?

Əli: Xeyr, sizə əsla məktub yazmadım!

Onlar bir-birlərinə baxıb dedilər: "Siz buna görə savaşır və buna görə qəzəblənirsiniz?"

Əli Mədinədən çıxıb bir kəndə (və ya öz kəndinə) getdi, camaat da oradan ayrılıb Osmanın yanına üz tutdular..."[1308]

Bu zaman hadisələr öz məcrasını dəyişir, Osmanın üzərinə hücum çəkib onu qətlə yetirirlər. Cəsədini kənara atıb üç gün dəfn edilmədən açıq hava altında qoyurlar. Bir dəstə adam onun dəfn edilməsi üçün İmam

---

[1306] Ənsabul-əşraf, Bəlazuri, c. 2, s. 283.

[1307] Tarixul-Mədinə, İbn Şəbbə Nəmiri, c. 4, s. 1233-1234; Ənsabul-əşraf, c. 1, s. 295; əl-Möcəmul-kəbir, c. 1, s. 80; Tarixu mədinəti Dəməşq, İbn Əsakir, c. 39, s. 472-473; əl-Bidayətu vən-nihayə, İbn Kəsir, c. 7, s. 216

[1308] əl-Müsənnəf, İbn Əbu Şeybə Kufi, c. 8, s. 688

Əlidən (ə) izn istəyir və o da icazə verir. Onun ailəsindən az sayda adam cənazəni götürərək dəfn edir. Bu babın birinci fəslində hadisəni müfəssəl şəkildə qeyd etmişdik.

Nəticə

Bunlar Osmana qarşı üsyanın, bu üsyanı doğuran səbəblərin, səhabələrin, xüsusilə də Möminlərin əmiri Əlinin (ə) həmin hadisələrdə tutduğu mövqeyin xülasəsi idi. Lakin biz bu rəvayətlərin heç birində İmam Əlinin (ə) Osmanı müdafiə etdiyini və ya etirazçıların tələblərinə qarşı çıxdığını görmədik. Əksinə, İmam (ə) etirazçıların tələblərini qanuni sayır, Osmanı islahat aparmağa təşviq edirdi. Ancaq nə faydası, Osman bu tələblərə müsbət cavab verməkdən imtina etdi. Belə olduqda da işlər nəzarətdən çıxdı. İmam Əli (ə) Osmanın öldürüləcəyini anladı və bunun baş verməməsi üçün əlindən gələni etdi. Lakin camaatın qəzəbi böyük idi. Müsəlmanlar artıq öz xəlifələrinin hərəkətlərinə dözə bilmirdilər. Osman da öz əməllərinin vəbalını daşıdı.

Bundan əlavə, Əhli-Sünnə hədisşünasları bir çox yollar və fərqli kəlmələrlə İmam Əlinin (ə) Osmanın qətlində əsla əlinin olmadığını, ona yönəlmiş böhtan xarakterli ittihamlar qarşısında özünü müdafiə etdiyini aydın bəyan edirlər. Lakin onların arasında İmamın (ə) əli və dili ilə Osmanı müdafiə etdiyini üzr kimi göstərənləri görmədik!

İbn Əbu Şeybə "əl-Müsənnəf"də İbn Abbas sənədilə rəvayət edir: *"Əli üç dəfə dedi: "Osmanı mən öldürməmişəm, qətl əmrini də mən verməmişəm! Ancaq məni məğlub etdilər (və ya bunda ittiham edildim)".*[1309]

Başqa sözlə: *"Onu mən öldürməmişəm, onun öldürülməsinə də ikrah duymuşam".*[1310]

[1309] əl-Müsənnəf, İbn Əbu Şeybə Kufi, c. 7, s. 517; c. 8, s. 683

[1310] əl-Müsənnəf, İbn Əbu Şeybə Kufi, c. 7, s. 517; c. 8, s. 684

Əbu Zürarə və Əbu Abdullah (ə) sənədilə yazır: *"Əlinin belə dediyini eşitdik: "Allaha and olsun ki, onun mən öldürməmişəm, qətlində iştirak etməmişəm, əmri verməmişəm və buna razı olmamışam".*[1311]

Həmçinin "əl-Müsənnəf"də Zeyd ibn Ərqəmin kənizindən nəql edilir: *"Əli Zeyd ibn Ərqəmə baş çəkmək üçün gəldi. Yanında bir dəstə adam da var idi. Oradakılara dedi: "Susun və dinləyin! Allaha and olsun ki, bu gün nə barədə məndən soruşsanız sizə onun barəsində xəbər verəcəyəm". Zeyd dedi: "Allahı sənə şahid tuturam! Osmanı sənmi öldürdün?" Bir müddət susduqdan sonra buyurdu: "Toxumu yarıb, məxluqları yaradana and olsun! Onu mən öldürməmişəm, qətl əmrini verməmişəm və bu işdən xoşhal da olmamışam".*[1312]

Bu rəvayətlər İmam Əlinin (ə) Osmanın qətl hadisəsindən uzaq olduğunun bəyanına, özünə qarşı yönəlmiş böhtanların rədd edilməsinə ciddi əhəmiyyət verdiyini göstərir. Lakin həmin səbəblərin arasında əsla Osmana əli və dili ilə yardım göstərdiyini, onu müdafiə etdiyini söyləmir!

C. Xəlifə ibn Xəyyatdan nəql etdikləri

İhsan Zahir İmam Əlinin (ə) uzun müddət onu müdafiə etdikdən sonra məhz Osman tərəfindən yardımdan uzaqlaşdırıldığını iddia edir və sözünə Xəlifə ibn Xəyyatın "Tarix"indən dəlil göstərir. Deyir: **"Belə ki, Zu-nureyn onu müdafiə etməmələrini istəmiş və demişdi: "Sizə silahlarınızı yerinə qoyub evlərinizə qayıtmağı əmr edirəm" (Tarix, Xəlifə ibn Xəyyat, c. 1, s. 151-152, İraq çapı)".**[1313]

İhsan Zahirin ondan nəql etdiyi bu sözlər İbn Xəyyatın "Tarix" kitabında İbn Sirin sənədilə nəql olunan səhabələr tərəfindən Osmanın tərk edilməsinə dair rəvayətin bir parçasıdır. Həmin mətni sizə təqdim edirik:

[1311] əl-Müsənnəf, İbn Əbu Şeybə Kufi, c. 7, s. 517

[1312] əl-Müsənnəf, İbn Əbu Şeybə Kufi, c. 7, s. 517, c. 8, s. 684

[1313] Şiə və Əhli-Beyt, s. 147

"Əbdürrəhman ibn Mehdi deyir ki, bizə Həsin ibn Bəkr Yəhya ibn Ətiqdən, o da Muhəmməd ibn Sirindən rəvayət edir: "Həsən, Hüseyn, İbn Ömər, İbn Zübeyr və Mərvan silahları ilə Osmanın evinə daxil oldular. Osman dedi: "Silahlarınızı götürüb evlərinizə qayıtmağı və orada oturmanızı sizdən tələb edirəm".

İbn Ömər, Həsən və Hüseyn çölə çıxdılar, İbn Zübeyr və Mərvan isə dedilər: "Biz buradan getməməyə qərar vermişik".[1314]

Bunu Xəlifə ibn Xəyyatdan İbn Əsir[1315] və Zəhəbi[1316] də öz "Tarix"lərində qeyd ediblər.

Əhli-Sünnə alimləri İbn Sirinin bu rəvayətini səhabələrin Osmanı çətin anlarda tərk etdiklərinin yozumu kimi qeyd ediblər. Onlar bunu belə göstərmək üçün çox cəhd göstəriblər və bir neçə cəhətdən yozublar:

Birinci: Xəlifə ibn Xəyyatın İbn Sirin sənədilə nəql etdiyi rəvayətdəki yozum; Osman onlardan geri qayıtmağı, döyüşməməyi və evlərində oturmağı tələb edib.

Bu cəhət qəribə olması ilə bərabər həm də zəifdir. Belə ki, İbn Sirinin rəvayəti mürsəldir (sənədsizdir). İbn Sirin Osmanın xilafətinin sonuna iki il qalmış doğulub.[1317]

Həmçinin Xəlifə ibn Xəyyat barədə də fikir ayrılığı mövcuddur. Mizzi "Təhzibul-kəmal"da yazır: *"Xəlifə ibn Xəyyat ibn Xəlifə ibn Xəyyat Əsfəri, Əbu Əmr Bəsri – tanınmış hafizdir... Əbdürrəhman ibn Əbu Hatəm deyir: "Əbu Zərənin "Fəvaid"də Əsfəri gəncindən nəql etdiyi hədisə çatdı. Lakin onu bizə oxumadı, biz də onu mənfi sayıb rəvayətlərini tərk etdik".*

Əbu Hatəm deyir: "Ondan hədis rəvayət etmirəm, o, hədisdə güclü deyil. "Müsnəd"ində Əbülvəliddən üç hədis nəql edib. Mən Əbülvəlidin yanına

---

[1314] Tarix, Xəlifə ibn Xəyyat, s. 129

[1315] Tarixu mədinəti Dəməşq, İbn Əsir, c. 39, s. 391

[1316] Tarixul-İslam, Zəhəbi, c. 3, s. 452-453

[1317] ət-Tarixus-sağir, Buxari, c. 1, s. 280; ət-Tarixul-kəbir, c. 1, s. 91; Tarixu Bağdad, Xətib Bağdadi, c. 2, s. 416; Tarixu mədinəti Dəməşq, İbn Əsakir, c. 53, s. 175, 177, 182; Təhzibul-kəmal, Mizzi, c. 25, s. 353

gedib ondan bu haqda soruşdum. O, hədisləri inkar edib dedi: "Bunlar mənim hədislərim deyil". Mən onların Əsfərinin kitabında yazıldığını söylədikdə, onu tanıdığını bildirdi və qəzəbi sakitləşdi".[1318]

İbn Həcər "Təhzibut-təhzib"də yazır: *"Buxari ondan yalnız başqalarının da nəql etdikləri hədisləri rəvayət edib. Təkcə ondan nəql etdiyi hədislərin hər birinə haşiyələr yazıb. Üqeyli onun adını "əz-Züəfa"da qeyd edərək deyir: "Əli ibn Mədini ona işarə edib". Kədimi Əli ibn Mədininin bu sözlərini nəql edir: "Əgər o, hədis söyləməsəydi, bu onun üçün daha yaxşı olardı".*[1319]

Bu baxımdan İhsan Zahirin dəlil göstərdiyi rəvayətin Xəlifə ibn Xəyyatın özü cəhətindən də müşkülü var.

İbn Sirinin başqa bir mürsəl rəvayəti də var ki, Zəhəbi onu öz "Tarix"ində qeyd edib. Orada yazır: *"İbn Sirin dedi: "Həmin gün Osmanla bərabər evdə yeddi yüz nəfər adam var idi. Əgər onlara izn versəydi toplaşanları ətrafından pərəm-pərəm salardılar".*[1320]

İbn Sirinin mürsəl rəvayətlərinin səhihliyi barədə deyilənlərə gəldikdə, bunu İbn Əbdülbərr "ət-Təmhid"ində qeyd edir: *"İstər tabeun, istər başqası olsun, zəiflərdən hədis nəql etməsi ilə tanınan şəxslərin mürsəl rəvayətləri dəlil kimi götürülməz. Yalnız etibarlı şəxslərdən hədis götürməsi ilə tanınan şəxslərin mürsəl hədisləri isə məqbuldur. Səid ibn Müseyyib, Muhəmməd ibn Sirin və İbrahim Nəxəinin hədisləri səhihdir".*[1321]

Bunun cavabı: Bu qayda məqbul və icra edilən olsa da, lakin burada tətbiq edilə bilməz. Çünki İbn Sirinin bu iki mürsəl rəvayəti səhabələrin, hətta Müaviyə ibn Əbu Süfyan kimi Osmanın yaxınlarının belə onu tənha qoyduqlarını bildirən səhih rəvayət və xəbərlərlə ziddiyyət təşkil edir. Onların çoxluğu bizə sənədlərinə nəzər salmağa da məcbur etmir. Belə ki,

---

[1318] Təhzibul-kəmal, Mizzi, c. 8, s. 317
[1319] Təhzibut-təhzib, c. 3, s. 139
[1320] Tarixul-İslam, c. 3, s. 453
[1321] ət-Təmhid, İbn Əbdülbərr, c. 1, s. 30

hətta İhsan Zahirin öz nəzərində də onların bəzilərinin etibarlılığı məlumdur.

Eləcə də, İbn Sirinin mürsəl rəvayətlərinə bu qaydanın tətbiq edilməsi başqa cəhətdən də münaqişə yaradır. Belə ki, rical alimlərindən heç kimsə İbn Sirinin *"yalnız etibarlı şəxslərdən hədis götürməsi ilə tanınan şəxslər"*ə aid olduğunu söyləməyib. Baxmayaraq ki, onun özünün etibarlılığı və Əhli-Sünnə alimlərinin nəzərində yüksən şəni var.

İbn Sirinin bir çox rəvayətləri mürsəl olması səbibilə zəif hesab edilib. Albani İmran ibn Həsinin *"Xanımını boşayan, şahid tutmadan ona qayıdan və onunla yaxınlıq edən şəxs barədə soruşuldu..."* hədisi ilə bağlı şərhində deyir: *"Bunu Beyhəqi Qətadə və Yunus yolu ilə Həsən və Əyyubdan, onlar da İbn Sirindən nəql edib..."* Sonra deyir: *"Deyirəm: Bu, sənədi qopuq rəvayətdir. Belə ki, Muhəmməd ibn Sirin İmran ibn Həsindən hədis eşitməyib".*[1322]

Həmçinin İbn Sirinin başqa bir mürsəl (*"Peyğəmbər (s) gözlərini səmaya tərəf çevirirdi və bu vaxt ayə nazil oldu:* ***"O kəslər ki, öz namazlarında xuşu halında olarlar".*** *Peyğəmbər (s) həmin an başını aşağı saldı"*) hədisi barədə yazır: *"Zəifdir... mürsəldir".*[1323]

Və mürsəlliyinə görə İbn Sirinin zəif hesab edilmiş digər rəvayətləri...

Bunlardan əlavə, İbn Süməyin əvvəldə təqdim etdiyimiz, Muhəmməd ibn Əbu Bəkrlə bərabər iki nəfərin hasardan aşaraq evə daxil olduqlarını və həmin iki nəfərin Osmanı qətlə yetirdiklərini bildirən hədisində deyilirdi: *"Muhəmməd ibn Əbu Bəkr və onun iki yoldaşı ənsardan birinin qonşu divarının hasarından aşaraq Osmanın evinə daxil oldular".*[1324]

Vəssabın yuxarıda təqdim etdiyimiz hədisində isə Muhəmməd ibn Əbu Bəkrin on üç nəfər adamla Osmanın evinə hücum etdiyi qeyd olunurdu: *"Bir kişi canavar kimi gəldi, qapıdan baxıb geri qayıtdı. Sonra Muhəmməd*

[1322] İrvaul-ğalil, Albani, c. 7, s. 159-160

[1323] Muxtəsəru İrvail-ğalil fi təxrici əhadisi mənaris-səbil, Albani, c. 1, s. 71

[1324] Tarixul-Mədinə, İbn Şəbbə, c. 4, s. 1303-1305; Ənsabul-əşraf, c. 2,s əh.283-285

ibn Əbu Bəkr on üç nəfərlə birlikdə ayağa qalxıb Osmanın yanına gəldi, onun saqqalından tutdu, bir-birini təhqir etməyə başladılar. Kötük dişlərinin töküldüyünün səsini eşitdim. Muhəmməd dedi: "Nə Müaviyə, nə İbn Amir və nə də məktubların sənə kömək etmədi". Osman dedi: "Ey qardaşımın oğlu, saqqalımı burax, saqqalımı burax!"

Mən onun bir nəfəri gözləri ilə köməyə çağırdığını gördüm. O gəlib ucu uzun bir oxla başına vurdu. Dedim: "Bəs sonra nə oldu?" Dedi: "Ardınca evə daxil olub onu öldürdülər".[1325]

Bunlar az saylı mühacirlər idilər və onları dəf etmək çətin deyildi. Onların səs-küyü də Osmanın yanında qalanları qorxutmaq məqsədi daşıyırdı. Adətən bu sayda adamın bu cür əməli səs-küy qaldırmaqdan başqa bir şey deyil.

Əgər İhsan Zahir şiəyə qarşı Əhli-Sünnə mənbələrindəki sünni rəvayətlərini dəlil göstərəcəkdisə, o zaman bu kimi mürsəl və zəif rəvayətləri deyil, heç olmazsa, özlərinin mötəbər saydıqları rəvayətləri dəlil kimi irəli sürərdi. Tədqiqatçılar ixtilaflı məsələlərlə bağlı dəlil irəli sürmək qaydalarından xəbərdardırlar. Lakin şübhə yoxdur ki, İhsan Zahirin izlədiyi üslub və yol bundan tam fərqlidir. Onun təqdim etdiyi rəvayətlərin, şiələr kənara dursun, heç Əhli-Sünnənin öz arasında belə dəlil olmaq səlahiyyəti yoxdur. Buna əsasən, əgər sözümüzün oxucu nəzdində dəyəri varsa, qoy haqqı İhsan Zahirin kitablarından başqa yerlərdə də axtarsınlar. Bu adamın kitabları savadsızlığı səbəbindən insanı əsla haqqa çatdıra bilməz. Azca diqqətli olan şəxs üçün bu, gün kimi aydındır.

İkinci: Səhabələrin Osmanı tənha qoyaraq tərk etməsinə söylənən yozumlardan birinə Zəhəbi öz "Tarix"ində toxunur. Onun sözlərinə görə, səhabələr fitnə düşəcəyindən qorxurdular və məsələnin Osmanın qətli ilə

[1325] ət-Təbəqatul-kubra, c. 3, s. 72; Tarix, Xəlifə ibn Xəyyat, s. 125; əl-Müsənnəf, İbn Əbu Şeybə, c. 8, s. 583, 679; Tarix, Təbəri, c. 3, s. 404; əl-Möcəmul-kəbir, Təbərani, c. 1, s. 82. Tarixu mədinəti Dəməşq, İbn Əsakir, c. 39, s. 404-405

yekunlaşacağını ehtimal etmirdilər. Deyir: *"Onu tərk edərək tənha qoyan səhabələr fitnə yaranacağından qorxur, məsələnin onun öldürülməsi həddinə çatmayacağını zənn edirdilər".*[1326]

Bu fikir də zəifdir və heç bir dəlili yoxdur. Səhabələrin Möminlərin əmiri Əli (ə) ilə bərabər Cəməl, Nəhrivan və Siffindəki cihadını və bayrağı altında şəhadətə çatmalarına olan şövqlərini nəzərə alaraq, bunun batil iddia olduğunu söyləyə bilərik. Məgər Əhli-Sünnə etiqadına əsasən, Müaviyə, Əmr ibn As və onlar kimilər səhabə sayılmırlar? Onlar İmamın (ə) əleyhinə hər üç savaşda ordu ilə çıxmışdılar. Lakin buna baxmayaraq, Xüzeymə ibn Sabit, Əmmar ibn Yasir, Əbu Fəzalə və digər Peyğəmbər (s) səhabələrinin İmamın (ə) ordusunun sıralarında mətinlik, əzmkarlıq və fədakarlıqla döyüşdüklərini görürük. Nəsr ibn Müzahimin "Siffin savaşı" kitabında Zuhri sənədilə nəql olunur: *"Həmin gün Şümr ibn Əbrəhə ibn Səbbah Həmiri oradan çıxıb Şamın qariləri ilə birlikdə Əliyə (ə) qoşuldu. Bu, Müaviyə və Əmr ibn Ası pis vəziyyətə saldı. Əmr dedi: "Ey Müaviyə, sən bu şamlılardan Muhəmmədin (s) silahdaşı, qohumluq cəhətdən ona ən yaxını, İslamda özü kimisi olmayan bir şəxsə qarşı döyüşmələrini istəyirsən? Onun döyüşlərdəki şücaəti Peyğəmbərin (s) heç bir səhabəsində olmayıb. O, sənin qarşına çox sayda Peyğəmbər səhabəsilə, onların igidləri, qariləri, şərəfliləri və İslamda öndə gedənləri ilə birlikdə çıxıb. Onlar möhtərəm və böyük şəxsiyyətlərdir..."*[1327]

Həmçinin Malik ibn Qüdamə Ərhəmi sənədilə nəql edir: *""Səid ibn Qeys Qənasiridə əshabı qarşısında çıxış edərək dedi: "Bizi buna hidayət edən Allaha həmd olsun... Allah bizə elə nemət bəxş edib ki, onun şükrünü yerinə yetirməyi, layiqincə qiymətləndirməyi bacarmarıq. Bu, Peyğəmbərin (s) ən xeyirli və seçkin səhabələrinin bizimlə birlikdə, bizim sıralarımızda olmasıdır. Bəndələrini görən Allaha and olsun ki, əgər bizim rəhbərimiz*

[1326] Tarixul-İslam, Zəhəbi, c. 3, s. 448

[1327] Vaqəətu Siffin, İbn Məzahim Munqəri, s. 222-223

naqis bir həbəşi də olsaydı, Bədrdə iştirak etmiş yetmiş nəfərin aramızda olması bizə kifayət edərdi. Ona görə də biz buna sevinib, başımızı dik tutmalıyıq. Necə də olmasın?! Bizim başçımız Peyğəmbərin (s) əmisi oğlu, Bədrdə olmuş, dürüst, kiçik yaşlarından namaz qılan, Peyğəmbərlə (s) birlikdə çoxlu savaşlarda iştirak etmiş şəxsdir. Müaviyə isə (Məkkənin fəthində) əsir düşüb qandallanmış, sonradan azad edilmiş tüləqa oğlu tüləqadır..."[1328]

Eləcə də Fəzl ibn Ədhəm sənədilə rəvayət olunur: *"Atam mənə danışıb ki, Əştər Qənasirində camaata xitab etdi. Həmin gün o qarğa kimi qara bir atın üzərində idi. Dedi: "Uca səmaları yaradan Allaha həmd olsun... Bilin ki, siz haqq, qarşınızdakılar isə batildirlər və Müaviyə ilə birlikdə vuruşurlar. Ancaq sizin yanınızda Bədr savaşında iştirak etmiş yüzə yaxın şəxs var. Onlardan başqa, Peyğəmbərin (s) bayrağı altında vuruşan səhabələr də sizinlədirlər. Müaviyənin bayrağı altındakılar çoxu vaxtı ilə müşrik olaraq Peyğəmbərə (s) qarşı vuruşanlardır. Onlara qarşı vuruşmaqda yalnız qəlbi ölmüş kəslər şəkk edər..."*[1329]

İbn Əsəm "əl-Fütuh"da Səid ibn Cübeyr yolu ilə nəql edir: *"Həmin gün Əlinin (r) tərəfində səkkiz yüz ənsar, doqquz yüz nəfər isə ağac altındakı Rizvan beyətində iştirak etmiş şəxs var idi".*[1330]

Həmçinin Həkəm ibn Üteybə yolu ilə rəvayət edir: *"Həmin gün savaşda Əli ilə birlikdə Bədrdə savaşmış səksən nəfər var idi".*[1331]

Orada Süleyman ibn Mehran Əməşdən nəql edilir: *"Həmin gün savaşda Əli ilə birlikdə Bədrdə savaşmış səksən və Peyğəmbər (s) əshabından səkkiz yüz nəfər var idi".*[1332]

[1328] Vaqəətu Siffin, İbn Məzahim, s. 236-237

[1329] Vaqətu Siffin, İbn Məzahim Munqəri, s. 238-239

[1330] Kitabul-fütuh, Əhməd ibn Əsəm Kufi, c. 2, s. 544

[1331] Kitabul-fütuh, c. 2, s. 544; əl-Müstədrək ələs-səhiheyn, Hakim Nişapuri, c. 3, s. 104

[1332] Kitabul-fütuh, c. 2, s. 544

Əbdürrəhman ibn Əbu Bəkr yolu ilə nəql edir: *"Həmin gün savaşda Əli ilə birlikdə tabeunların seyyidi Üveys Qərani də var idi. O, Siffində Əli ibn Əbu Talibin gözləri önündə öldürüldü".*[1333]

Eləcə də Müaviyənin söylədiyi sözlərin arasında bu kəlmələr də nəql olunur: *"Əlini və bizimlə döyüşünü xatırlayın. Mühacir və ənsar da onunla bərabər idi. Allah sizin bildiyinizi hökm etdi. Yenə də Əli kimi bir kəsimi diləyirsiniz?!"*[1334]

Əgər bu səhabələrin həmin qiyamda Osmanın müdafiəsi ilə bağlı qəti mövqeləri olsaydı, o zaman Osmanın onlara izn verməsini gözləməzdilər. Belə ki, onların üzərində Osmanın beyəti *var idi* və məsələ İslamın ən yüksək vəzifəli şəxsi ilə bağlı idi. Lakin baş verənlərdən görünür ki, onun xəlifəliyinə səs verənlər belə, atdığı yanlış addımları ilə Osmanın öz imamlığını qüvvədən saldığını və puç etdiyini düşünürdülər. Ona görə də özlərini onu müdafiə etməyə borclu bilmirdilər. Əksinə, təqdim etdiyimiz dəlillərə əsasən, Osmanın evini mühasirəyə alanlar da məhz həmin səhabələr idi. Hətta onun öldürülməsindən sonra da onların mövqeyi dəyişmədi. Buna dəlalət edən bir çox tarixi rəvayət və xəbər mövcuddur. Mühacir və ənsarın Osmana qarşı qalxmış qiyamdan əvvəl və sonra sabit mövqeləri var idi, pis rəftarlarına görə öldürülməyə layiq olduğunu düşünürdülər. Təbərinin "Tarix"ində Siffin savaşı əsnasında İmam Əlinin (ə) ordusunun əsgərlərindən biri olan Haşimlə Müaviyənin əsgərlərindən birinin dialoqu nəql edilib. Orada deyilir: *Hişam dedi: "Sən Əffanın oğlu deyilsən (ki, qisasını tələb edəsən)! Osmanı Muhəmmədin səhabələri, səhabələrin oğulları və qarilər öldürüblər. Osman etdiyini etdi, Kitabın hökmünə qarşı çıxdı".*[1335]

Həmçinin Siffin savaşında Əmmar ibn Yasirin belə dediyi nəql olunur: *"Allahın razılığını diləyənlər, mal və övlada meyl etməyənlər haradadır?!"*

[1333] Kitabul-fütuh, c. 2, s. 544

[1334] Kitabul-fütuh, c. 4, s. 338

[1335] Tarix, Təbəri, c. 4, s. 30; Tarix, İbn Əsir, c. 3, s. 313

Bir dəstə adam onun ətrafına toplaşdı. Dedi: "Ey camaat, bizimlə birlikdə Osmanın məzlum olaraq öldürüldüyünü və onun qisasını tələb etdiklərini iddia edən bu camaata qarşı hücuma keçin".[1336]

Eləcə də Nəsr ibn Müzahimin "Siffin" kitabında həmin gün Əmmar ibn Yasirin belə dediyi qeyd olunur: *"Ey Allah bəndələri, mənimlə birlikdə özünə zülm edənin və Allahın bəndələri üzərində Onun kitabından fərqli bir şeylə hökm verənin qanının intiqamını tələb etdiklərini iddia edən dəstənin üzərinə gedin! Onu (Osmanı) öldürənlər saleh, zülmə nifrət bəsləyən və yaxşılığı əmr edən şəxslərdir".*[1337]

İbn Əsakir Əbdürrəhman Həmədani sənədilə rəvayət edir ki, Müaviyə Əbu Tüfeyl Amir ibn Vasiləyə dedi: *"Sən Osmanın qatillərindənsən!" Əbu Tüfeyl isə cavabında dedi: "Xeyr, lakin mən orada iştirak edib, ona yardım etməyənlərdənəm". Müaviyə ona niyə yardım etmədiyini soruşduqda isə belə cavab verdi: "Ona nə mühacirlər, nə ənsar, nə də ki, sən kömək etdin"* .[1338]

Bəli, Möminlərin əmiri Əli (ə) onun öldürülməsinə qarşı idi. Ona görə də hadisələr məcrasından çıxdıqda və camaatın məqsədindən xəbər tutduqda bunun baş verməməsi üçün səy göstərdi. Lakin, əvvəldə də qeyd etdiyimiz kimi, səyləri müsbət nəticə vermədikdə onları tərk etdi.

Burada səhabələrin Osmanı tək qoyması ilə bağlı başqa cəhətlərdən də yozumlar var ki, indi onları araşdırmaq və cavablandırmaq bizi məqsədimizdən yayındıracaq.

Ç. "Ənsabul-əşraf"dan nəql etdikləri

Osmanın çətin anlarında İmam Əlinin (ə) onu müdafiə etməsi iddiasına İhsan Zahir növbəti dəlil kimi Bəlazurinin "Ənsabul-əşraf"ına nisbət verdiyi rəvayəti göstərir. Deyir: **"Zalım üsyankarlar Osmanı**

[1336] Tarix, Təbəri, c. 4, s. 27

[1337] Vaqətu Siffin, Nəsr ibn Müzahim, s. 319

[1338] Tarixu mədinəti Dəməşq, İbn Əsakir, c. 26, s. 117

sudan məhrum etdikdə Əli üzünü onlara tutub dedi: "Ey camaat! Sizin etdiyiniz nə möminə və nə də kafirə yaraşan hərəkətdir. Farslar və rumlar əsir götürdükləri şəxslərə su və qida verirlər. Allaha and verirəm ki, onu sudan məhrum etməyəsiniz!" Sonra Bəni-Haşim gəncləri ilə Osman üçün üç tuluq su göndərdi" (Nasixut-təvarix, c. 2, s. 531. Bunun eynisi Bəlazurinin "Ənsabul-əşraf"ında da nəql olunub (c. 5, s. 69)".[1339]

Bu dəlil doğru deyil. Məsələni aydınlaşdıraq:

Osmanın evinin mühasirəyə alınması və öldürülməsi hadəsisi ilə bağlı Əhli-Sünnə mənbələrində hafiz və mühəddislər tərəfindən bir çox rəvayət nəql edilib. Onlardan:

A. Muhəmməd ibn İsa ibn Qasim ibn Sümeyin Muhəmməd ibn Əbdürrəhman ibn Əbu Zibdən, onun da Muhəmməd ibn Şihab Zuhridən, onun da Səid ibn Müseyyibdən nəql etdiyi rəvayət.

Bu rəvayəti həmçinin bir çox Əhli-Sünnə hafiz və hədisçiləri də İbn Sümeyə istinadən rəvayət ediblər. Onlardan biri Bəlazuridir ki, özünün "Ənsabul-əşraf"ında qeyd edib: *"Əbülvəlid Hişam ibn Əmmar Dimaşqi mənə Muhəmməd ibn Səmidən, o da Muhəmməd ibn Əbu Zibdən, o da İbn Şihab Zuhridən, o da Səid ibn Müseyyibdən nəql edir: "...Evlərini mühasirəyə aldılar, lakin Osman Mərvanı qətlə yetirəcəklərindən qorxub onu təhvil verməkdə imtina etdi. Camaat Osmanı mühasirədə saxlayıb su verilməsini belə qadağan etdi.*

Osman camaata tərəf nəzər salıb Əlinin onların arasında olub-olmadığını soruşdu. "Yox" cavabı verildikdə, bu dəfə Sədin orada olub-olmadığını xəbər aldı. Lakin Sədin də onların arasında olmadığını bildirdilər. Osman bir az susdu, sonra dedi: "Bir kəs bizə su gətirməzmi?" Bu sözlər Əlinin qulağına çatdıqda ona üç tuluq su göndərdi. Lakin az qalmışdı

[1339] Şiə və Əhli-Beyt, s. 148

ki, su ona çatmasın. Belə ki, suyu ona apararkən Bəni-Haşim və Bəni-Üməyyənin xidmətçilərindən bir neçəsi yaralandı...”[1340]

Əvvəldə qeyd etdiyimiz kimi, bu rəvayətin sənədi ravi İbn Sümey səbəbilə zəifdir. Məzmununda isə qarışıqlıq var.

Həmçinin rəvayət suyun Osmana böyük çətinliklə çatdırıldığını göstərir.

B. Şüeyb ibn İbrahimin Seyf ibn Ömərdən, onun da Əbu Harisə, Əbu Osman, Muhəmməd və Təlhədən nəql etdiyi rəvayət.

Bu rəvayəti də bir çox Əhli-Sünnə hafiz və mühəddisləri kitablarında Şüeyb ibn İbrahim sənədilə qeyd ediblər. Onlardan biri Təbəridir ki, öz “Tarix”ində yazır: *“Səriy mənə yazdı: Şüeybdən, o da Seyfdən, o da Əbu Harisə, Əbu Osman, Muhəmməd və Təlhədən nəql edir: “Üsyan yetmiş gecə, mühasirə isə qırx gecə davam etdi. Mühasirənin on səkkizinci günü ətraflardan miniklilər toplanmağa bağladı və dörd bir tərəfdən – Şamdan Həbibin, Misirdən Müaviyənin, Kufədən Qaqaənin, Bəsrədən Mücaşiin onlara qatılmaq üçün hazırlaşdıqlarını xəbər verdilər.*

Bu vaxt (bir dəstə adam) camaatla Osmanın arasına keçdilər. Camaat Osmanı hər şeydən, hətta sudan belə məhrum etdi... Osman yaxınlığındakı Həzm ailəsinə üzünü tutub sudan məhrum edildiklərini Əliyə xəbər verməsini, imkan olduğu təqdirdə ona su göndərməsini istədi. Onlar Təlhəyə, Zübeyrə, Aişəyə və Peyğəmbərin (s) digər xanımlarına da xəbər verdilər. Yardıma ilk gələnlər Əli və Ümmü Həbibə oldu. Əli sübhün qaranlığında gəlib dedi: “Ey camaat! Sizin etdiyiniz nə möminə və nə də kafirə yaraşan hərəkətdir. Onu su və qidadan məhrum etməyin. Farslar və rumlar əsir götürdükləri şəxslərə su və qida verirlər. Bu adam sizə müqavimət göstərmədiyi halda niyə onun mühasirəsini və qətlini halal bilirsiniz?!”

[1340] Ənsabul-əşraf, Bəlazuri, c. 2, s. 283-285

Dedilər: "Allaha and olsun ki, o bir yaxşılıq etməyib ki, əvəzini də görsün. Biz onu yeməyə və içməyə qoymayacağıq".

Əmmaməsini qapıya çırpıb "Sənin məndən istədiyini etdim" deyərək geri qayıtdı".[1341]

Əvvəldə bu rəvayəti qeyd edərkən onun sənədinin Şüeyb və Seyf səbəbindən zəif olduğunu vurğuladıq. Şüeyb məchul şəxsdir. İbn Ədiy onun adını "əz-Züəfa" ("Zəiflər") kitabında qeyd edir: *"Şüeyb ibn İbrahimin rəvayət və xəbərləri var. Lakin o, bununla tanınmır. Nəql etdiyi rəvayətlərin sayı azdır, bəzilərində inkar olunan mətləblər var. Belə ki, öz hədis və rəvayətlərində sələflərə qarşı tənqidi yanaşırdı".*[1342]

Zəhəbi və İbn Həcər isə deyirlər: *"Məchulluğu var"*.[1343]

İbn Həcər də "Lisanul-mizan"da İbn Ədiyin yuxarıdakı, eləcə də İbn Hibbanın "əs-Siqat"dakı sözlərinə yer verir, məqsədin başqa şəxs ola biləcəyini söyləyir. Deyir: *"İbn Hibbanın "əs-Siqat"ında Şüeyb ibn İbrahimin Kufə əhlindən olduğunu.. deyir. Lakin görünən odur ki, bu, başqa şəxsdir".*[1344]

Seyf ibn Ömərə gəldikdə, o, zəif ravidir. Mizzi "Təhzibul-kəmal"da deyir: *"Abbas Duri Yəhya ibn Muinin belə dediyini bildirir: "Hədisləri zəifdir". Əbu Cəfər Həzrəmi də Yəhya ibn Muinə istinadən deyir: "Ondan bir xeyir yoxdur". Əbu Hatəm deyir: "Hədisləri tərk olunur, rəvayətləri Vaqidinin rəvayətlərinə bənzəyir". Əbu Davud deyir: "Hədisləri bir şey deyil". Nəsai və Daraqutni deyirlər: "Zəifdir". Əbu Əhməd ibn Ədiy deyir: "Bəzi hədisləri məşhurdur, ancaq ümumən hədisləri inkar olunur və əhəmiyyət verilmir, təsdiqdən daha çox zəifliyə yaxındır". Əbu Hatəm ibn Hibban deyir:*

[1341] Tarix, Təbəri, c. 3, s. 416-418

[1342] əl-Kamil, İbn Ədiy, c. 4, s. 4

[1343] Mizanul-itidal, Zəhəbi, c. 2, s. 275; Lisanul-mizan, İbn Həcər, c. 3, s. 145

[1344] Lisanul-mizan, İbn Həcər, c. 3, s. 145

"Baş vermiş hadisələr barədə uydurmalar rəvayət edib". Deyir: "Onun hədis uydurduğunu dedilər".[1345]

Rəvayət İmam Əlinin (ə) böyük səy və həssaslıq göstərməsinə baxmayaraq, suyu Osmana çatdıra bilmədiyinə dəlalət edir.

İhsan Zahirin Bəlazuriyə nisbət verdiyi sözlər isə Seyf ibn Ömərin rəvayətinin bir parçasıdır. Hərçənd Bəlazuri bu rəvayəti "Ənsabul-əşraf"da nəql etməyib, orada yalnız İbn Sümeyin rəvayətinə yer verib. Yazır: *"...Evlərini mühasirəyə aldılar, lakin Osman Mərvanı qətlə yetirəcəklərindən qorxub onu təhvil verməkdən imtina etdi. Camaat Osmanı mühasirədə saxlayıb su verilməsini belə qadağan etdi.*

Osman camaata tərəf nəzər salıb Əlinin onların arasında olub-olmadığını soruşdu. "Yox" cavabı verildikdə, bu dəfə Sədin orada olub-olmadığını xəbər aldı. Lakin Sədin də onların arasında olmadığını bildirdilər. Osman bir az susdu, sonra dedi: "Bir kəs bizə su gətirməzmi?" Bu sözlər Əlinin qulağına çatdıqda ona üç tuluq su göndərdi. Lakin az qalmışdı ki, su ona çatmasın. Belə ki, suyu ona apararkən Bəni-Haşim və Bəni-Üməyyənin xidmətçilərindən bir neçəsi yaralandı".[1346]

Buradan aydın olur ki, İhsan Zahirin "Nasixut-təvarix"ə nisbət verdiyi **"Zalım üsyankarlar Osmanı sudan məhrum etdikdə Əli üzünü onlara tutub dedi: "Ey camaat!.." (Nasixut-təvarix, c. 2, s. 531)"** sözləri təhrif edərək saxtalaşdırmışdır. Belə ki, **"Zalım üsyankarlar"** kəlmələrinə Osmanın evinin mühasirəyə alınması hadisəsinin qeyd olunduğu heç bir rəvayətdə rast gəlinmir. "Lisanul-mülk" kimi tanına Muhəmməd Təqi Sipihr bu rəvayəti öz kitabında Təbərinin "Tarix"indən və Osmanın evinin mühasirəsini qeyd edən digər Əhli-Sünnə mənbələrindən nəql edib. Necə ki, bunu İbn Əbülhədid və başqaları da etmişdilər.[1347]

[1345] Təhzibul-kəmal, Mizzi, c. 12, s. 326-327

[1346] Ənsabul-əşraf, Bəlazuri, c. 2, s. 283-285

[1347] İbn Əbülhədid "Nəhcül-Bəlağə"nin şərhində yazır: *"Əbu Cəfər deyir: "Osmanın evini mühasirəyə alanlar Şam və Bəsrədən ordunun gələcəyindən qorxdular. Bu vaxt*

Bu sözlər Osmanın evinin mühasirəsi və onun öldürülməsi hadisəsini qeyd edən uzun rəvayətin bir parçasıdır. Rəvayətin iki nəql yolu var: biri İbn Sümeydən, digəri isə Seyf ibn Ömərdən nəql olunur. Lakin İhsan Zahir bunlardan başqa da nəql yolunun olduğu təəssüratını yaratmaq məqsədilə təhrif və saxtakarlığa əl atıb.

Hər iki rəvayətdə İhsan Zahirin Əhli-Beytin (ə) Osmana məhəbbətinə dair iddialarına dəlalət edəcək heç bir şey yoxdur. Belə ki, su çatdırılması bir humanist addımdır. Şübhə yoxdur ki, Osman Əhli-Beytin (ə) humanistliyindən və böyük əxlaq sahibi olduqlarından xəbərdar idi. Ona görə də sudan məhrum edildikdə ilk olaraq onların yanına adam göndərir. Əhli-Beyt də (ə) həmin möhtərəm humanistliyini göstərərək çətinliklə qarşılaşsa belə, ona su çatdırmağa səy göstərir.

Bununla da rəvayətlər Osmanın sudan məhrum edildiyi zaman İmam Əlinin (ə) humanist addım ataraq ona su apardığına dəlalət edir. İmam (ə) bunu hətta ən qatı düşmənینə qarşı da etmişdi. Siffin döyüşündə Müaviyə İmam Əlinin (ə) ordusunu sudan məhrum etmişdi. Lakin İmamın (ə) ordusu su hövzəsini əks həmlə ilə ələ keçirdikdən sonra Müaviyənin ordusuna su götürməyi qadağan etmədi. Təbərinin "Tarix"ində yazılır: *"Siffində Müaviyə və şam ordusu ilə üz-üzə gəldikdə onların artıq geniş bir təpə üzərində yerləşib suya gedən yolları əllərində saxladıqlarını gördük.*

---

camaatla Osmanın arasına keçdilər, onu hər şeydən, hətta sudan belə məhrum etdilər. Osman gizlicə Əlinin və Peyğəmbər (s) zövcələrinin yanına adam göndərib sudan məhrum edildiyini onlara xəbər verdi, imkan tapdıqda ona su gətirmələrini istədi. Əli (ə) sübhün qaranlığında gəldi, eləcə də Əbu Süfyanın qızı Ümmü Həbibə də su gətirdi. Əli (ə) camaatın qarşısında dayanaraq onları nəsihət etməyə başladı. Dedi: "Ey camaat! Sizin etdiyiniz nə möminə və nə də kafirə yaraşan hərəkət deyil. Farslar və rumlar əsir götürdükləri şəxslərə su və qida verirlər. Allaha xatir, onu su və qidadan məhrum etməyin!"

Dedilər: "Allaha and olsun ki, o bir yaxşılıq etməyir ki, əvəzini də görsün. Biz onu yeməyə və içməyə qoymayacağıq".

Onların bu məsələdə ciddi və qərarlı olduqlarını gördükdə əmmaməsini başından çıxarıb Osmanın evinə tərəf çırdı. Bununla onun xahişini yerinə yetirməyə cəhd göstərdiyini, lakin imkan verilmədiyini bildirdi və geri qayıtdı". (c. 2, s. 153-154)

Əbu Əvər Səlami yolun üzərinə atlı və piyadaları yerləşdirmişdi. Onlarla bərabər nizəli və qalxanlı əsgərlər də dayanmışdı. Bizi sudan məhrum etməyi qərara almışdılar. Bunu Möminlərin əmirinə xəbər verdikdə Səsəə ibn Suhanı yanına çağırıb dedi: "Müaviyənin yanına gedib ona de: Biz bura gəlmişik və höccəti sizə tamam etməmiş döyüşmək istəmirik... Bu belə! Digəri isə, etdiyiniz bu əməliniz – suyun qarşısını kəsməyiniz və ondan məhrum etməyinizdir. Adamlarını göndər, suyun qarşısını boşaltsınlar..."

Müaviyə yoldaşlarına dedi: "Nə düşünürsünüz?" Bu zaman Vəlid ibn Üqbə dedi: "Onlar Osmanı mühasirəyə alıb qırx gün sərin sudan, təzə yeməkdən məhrum edib, susuz qətlə yetirdikləri kimi, sən də onları sudan məhrum et!.."

Səsəə ibn Suhan onların yanından ayrılmaq istədikdə Əliyə nə cavab verməsini soruşdu. Müaviyə dedi: "Mən fikrimi bildirəcəyəm".

Allaha and olsun ki, bizi yalnız Əbu Əvərin yanına əsgərlərini göndərib suyun yolunu açması bizi sevindirərdi.

Biz gücdən düşməkdə idik. Əli hücum əmrini verdi. Bir az dincəlib onların üzərinə hücum çəkdik və qalib gəldik. Suya hövzələri bizim əlimizə keçdi. Biz onlara su verməyəcəyimizə and içdik. Bu vaxt Əli yanımıza adam göndərib ehtiyacımız qədər su götürüb düşərgəmizə qayıtmağı və suyun yolunu onlar üçün açmamızı buyurub dedi: "Artıq Uca Allah onların zülmü və üsyanları qarşısında sizi qalib edib".[1348]

Büşmən ordusuna su verməsi İmam Əlinin (ə) humanistliyinin və böyük əxlaqının göstəricisidir. Onun belə bir addımı Müaviyəyə, Osmana və ya başqa birsinə qarşı olan məhəbbətinə əsla dəlalət etməz.

D. Məsudidən nəql etdikləri

İhsan Zahir öz iddiasına bu dəfə Məsudinin "Tarix" kitabından dəlil təqdim edir. Yazır: **"Sonda Məsudinin "Tarix"indən baş vermiş**

[1348] Tarixul-uməm vəl-muluk, Təbəri, c. 3, s. 568-569

faciədən bir parçanı qeyd etmək istəyirik: "Osmanı qətlə yetirmək istədikləri xəbəri Əliyə çatdıqda oğlanları Həsən və Hüseyni azad edilmiş kölələri ilə birlikdə onun yardımına göndərdi, silahları ilə qapısının qarşısında dayanıb camaatdan müdafiə etmələrini buyurdu. Zübeyr oğlu Abdullahı, Təlhə oğlu Muhəmmədi və bir çox səhabələr də övladlarını bu məqsədlə Osmanın evinin qarşısına göndərdilər...

Əli hüznlü halda içəri girib oğlanlarına "Siz qapının qarşısında olduğunuz halda möminlərin əmiri necə qətlə yetirildi?" dedi, ardınca Həsənə sillə, Hüseynin sinəsinə vurdu, Muhəmməd ibn Təlhəni danlayıb Abdullah ibn Zübeyri lənətlədi" (Murucuz-zəhəb, Məsudi, c. 2, s. 344, Beyrut çapı)".[1349]

İhsan Zahir bu sözləri ilə Osmanın öldürülməsi hadisəsinin nəqlini yekunlaşdırmaq və oxucuların düşüncələri ilə oynamağı hədəfləyib. Belə ki, özü üçün yaratdığı qaydalara əsasən, Dinəvəri, Əbülmüəyyəd Müvəffəq ibn Əhməd Xəvarəzmi, İbn Nədim, İbn Əbülhədid, Əbülfərəc İsfahani, Məsudi, məşhur Abbasi katibi Yaqubi adı ilə tanınan Əhməd ibn Yaqub ibn Cəfər və s. Əhli-Sünnə alimlərini şiə müəllifləri kimi qələmə verir.

Məsudidən rəvayət nəql etməklə də fəsli şiə mənbələrindən olan dəlillə bitirdiyini oxucuya təlqin etməyə çalışır.

Kitabın müqəddiməsində İhsan Zahirin dəlil təqdim etmək üslubunun qüsur və nöqsanlarından söhbət açmışdıq. Əhli-Sünnə alimlərindən sayılmalarına heç kimin şübhəsi olmayan həmin müəlliflərin tərcümeyi-hallarını da qeyd etmişik.

Orada Məsudi ilə bağlı da söhbət açmış, onun Mötəzili əqidəsində olduğunu bildirmişdik. Zəhəbi öz "Tarix"ində onun tərcümeyi-halında yazır: *"Əbülhəsən Əli ibn Hüseyn ibn Əli. Onun İbn Məsudun (r) nəslindən olduğu deyilib. Bağdadlı sayılır, bir müddət Misirdə yaşamışdı. Əllamədir,*

[1349] Şiə və Əhil-Beyt, s. 148-149

qəribə, maraqlı və nadir xəbərlərin müəllifidir. "Murucuz-zəhəb" kitabı var... İbn Ərəfə Nəftəveyhdən, İbn Zəbər Qazidən və digərlərindən rəvayətlər eşidib. Ondan rəvayət eşidiləcək qədər uzun ömür yaşamayıb. Mötəzili idi. Bir çox mötəzili alim onun adını mötəzililərin arasında qeyd edərək deyib: "Ədalətli şəxslərdən idi. Bəsrəyə səfər etmiş, orada Əbu Xəlifə Cəmhi ilə görüşmüşdü. İbn Nəccar müxtəsər olaraq onun adını qeyd edib. Deyib: "Əli ibn Hüseyn ibn Əli Əbülhəsən Məsudi, Abdullah ibn Məsudun nəslindəndir..."[1350]

Həmçinin Zirkili "əl-Əlam"da,[1351] Səfədi "əl-Vafi bil-vəfayat"da[1352] və digərləri onun tərcümeyi-halını qeyd ediblər.

Məsudi şafei fəqih və müftilərindən idi. Subki onun adını "ət-Təbəqat"da qeyd edərək deyir: *"Əli ibn Hüseyn ibn Əli Məsudi, "Murucuz-zəhəb fi əxbarid-dunya" tarix kitabının, "Zəxairul-ulum" və s. kitabların müəllifidir. Əsli Bağdaddandır, bir müddət orada, ömrünün çox hissəsini isə Misirdə yaşamışdır. Xəbər toplayan, müfti, əllamə... idi. Onun əqidədə Mötəzili olduğu deyilib. 345 və ya 346-cı ildə vəfat edib".*[1353]

Deməli, tərcümeyi-halları qeyd edən Əhli-Sünnə alimlərinin nəzərində Məsudi Şafei məzhəbindən olan Mötəzilə əqidəli şəxs idi.

Bundan əlavə, İhsan Zahirin Məsudinin tarix kitabından Osmanın qətli ilə bağlı qeyd etdiyi parça oxucunu yandırmaq üçün acizanə bir addımdır. Çünki Məsudinin yazdıqları yuxarıda İbn Sümeydən nəql olunan rəvayətdəndir. Lakin İhsan Zahir bunu üçüncü müstəqil bir rəvayət kimi təqdim etməyə çalışıb.

Məsudinin (vəfatı: h.q 335) "Murucuz-zəhəb" kitabındakı rəvayəti sizə təqdim edirik: *"...Əli Osmanı qətlə yetirmək istədiklərindən xəbər tutduqda Həsən və Hüseyni səsləyib, qulamlarını və qılınclarını götürüb Osmanın*

[1350] Tarixul-İslam, Zəhəbi, c. 25, s. 340-342
[1351] əl-Əlam, c. 4, s. 277
[1352] əl-Vafi bil-vəfayat, c. 21, s. 5
[1353] Təbəqatuş-Şafeiyyə, Sübki, c. 3, s. 456

qapısının qarşısında dayanmalarını, camaatın ona əl uzatmasına imkan verməməyi buyurdu. Zübeyr oğlu Abdullahı və Təlhə də oğlu Muhəmmədi onlarla bərabər göndərdi. Həmçinin bir dəstə Peyğəmbər (s) səhabəsi də övladlarını bu məqsədlə oraya göndərdilər.

Ona tərəf ox atıldı və camaatın arasında qarışıqlıq düşdü. Həsən və Muhəmməd ibn Təlhə yaralandı, Qənbərin başı yarıldı. Haşim və Üməyyə oğullarının vəziyyətdən qəzəblənəcəklərindən qorxdular. Qapının qarşısında döyüşməkdən əl çəkdilər.

Bir neçə nəfər ənsardan birinin həyətinin divarına qalxaraq Osmanın evinə düşdü. Bunlar Muhəmməd ibn Əbu Bəkr və onunla bərabər iki nəfər idi. Osmanın yanında həmin vaxt yalnız zövcəsi və ailəsi var idi. Qulluqçuları isə qapının qarşısında idilər. Muhəmməd ibn Əbu Bəkr onun saqqalından tutdu. Osman dedi: "Ey Muhəmməd, Allaha and olsun ki, əgər atan səni indi görsəydi, bu vəziyyətin heç də ona xoş gəlməyəcəkdi".

Muhəmmədin əli titrədi və anındaca evi tərk etdi. Digər iki nəfər isə içəri girdi, onu tapıb qətlə yetirdilər. Həmin vaxt Osman qarşısındakı Quranı oxuyurdu. Osmanın həyat yoldaşı dama qalxıb "Möminlərin əmiri öldürüldü!" deyə car çəkdi. Həsən, Hüseyn və onlarla birlikdə evin qarşısına toplaşan Üməyyə oğulları içəri daxil oldular və Osmanın artıq öldüyünü görüb ağladılar.

Bu xəbər Əliyə, Təlhəyə, Zübeyrə, Sədə, Mədinədə olan mühacir və ənsara yetişdi. Onlar "İnna lillahhi və inna ileyhi raciun" deyə çölə çıxdılar. Əli içəri daxil oldu. Onu qəhr boğmuşdu. Üzünü oğlanlarına tutub dedi: "Siz qapının qarşısında olduğunuz halda möminlərin əmiri necə qətlə yetirildi?" Əlini qaldırıb Həsənə sillə, Hüseynin sinəsinə vurdu, Muhəmməd ibn Təlhəni danlayıb Abdullah ibn Zübeyri lənətlədi".[1354]

Məsudi kitabında Osmanın öldürülməsi hadisəsi ilə bağlı rəvayətin sənədini qeyd etməsə də, hadisələrin ardıcıllığı və şəxslərin adları İbn

[1354] Murucuz-zəhəb, Məsudi, c. 1, s. 311

Sümeyin rəvayəti ilə eynilik təşkil edir. Görünən odur ki, Məsudi bunu həmin rəvayətdən götürüb.

Rəvayətin sənədinin İbn Sümey səbəbindən zəif olduğunu qeyd etmişdik. Üqeyli onun adını "əz-Züəfa"da,[1355] Əbülvəfa isə "əl-Mudəllisin"də[1356] qeyd edib. İbn Hibban onun barəsində yazır: *"Onun Osmanın qətli ilə bağlı İbn Əbu Zibdən Zuhri və Səid ibn Müseyyib yolu ilə nəql etdiyi xəbərə gəldikdə, heç də İbn Əbu Zibdən eşitməyib. Bunu İsmail ibn Yəhya ibn Abdullah Təmimi İbn Əbu Zibdən nəql edərkən eşidib, onun adından uydurub. İsmail də zəifdir".*[1357]

Həmçinin bu rəvayətin məzmunu da mətnindəki qarışıqlıqlar səbəbindən zəifdir. Bunu İbn Əbu Şeybə də etiraf edir. "əl-Müsənnəf"də rəvayəti nəql etdikdən sonra deyir: *"Bu, çoxlu yanlışları olan, sənədi inkar edilən hədisdir. İbn Əbu Zibdən rəvayət edən şəxsin kimliyi məlum deyil. İbn Əbu Zib və ondan sonrakı ravilər isə (yəni Zuhri və Səid ibn Müseyyib) güclü ravilərdir".*[1358]

Əgər "rəvayətlərin məzmununun uyğunluğu onların eyni rəvayət olduğuna dəlalət etməz" deyərək etiraz olunsa, cavab budur ki, belə olduqda Məsudinin rəvayəti mürsəl (sənədsiz) qalacaq. Ona dəlalət edən rəvayət isə yalnız İbn Sümeyin nəql etdiyidir.

Beləliklə, Məsudinin Osmanın qətli ilə bağlı nəql etdikləri İbn Sümey səbəbindən zəif və ya mürsəldir. Həmçinin məzmununda da bir çox yanlışıq mövcuddur.

[1355] əz-Züəfa, Üqeyli, c. 4, s. 115

[1356] ət-Təbyinu li-əsmail-mudəllisin, Əbülvəfa Hələbi Trablusi, s. 193

[1357] əs-Siqat, İbn Hibban, c. 9, s. 43

[1358] Tarixul-Mədinə, İbn Şəbbə, c. 4, s. 1306

Üçüncü fəsil: Kürəkənlik və adqoymanın dəlil göstərilməsi

Kürəkənlik və adqoymanın sevgi və razılığa dəlil göstərilməsinin müzakirəsi

İhsan Zahir Əhli-Beytin (ə) Osmana qarşı olan sevgisinə qohumluq münasibətlərini və övladlarına verdikləri adları dəlil göstərərək deyir: **"Əhli-Beytin Osmana qarşı olan sevgisinin təzahürlərindən biri də qızlarını onunla və övladları ilə evləndirmələridir. Məxluqların ən yaxşısı (Peyğəmbər) özünün iki qızını Osmana vermişdi. Əhli-Beyt də övladlarına Osmanın adını qoymuşdu. Necə ki, Şeyx Müfid də Əli ibn Əbu Talibin (r) övladlarından birinin adının Osman olduğunu qeyd edir... ("əl-İrşad", Müfid). İsfahani onun Kərbəlada qardaşı Hüseynlə birlikdə öldürüldüyünü yazır... ("Məqatilut-talibin"... və "Tarix" Yaqubi)".**[1359]

Müzakirə

İhsan Zahir əvvəldə də Əbu Bəkr və Ömərin adlarının qoyulması ilə bağlı iddia irəli sürmüş və bunu sevgi təzahürü kimi təqdim etmişdi. Biz də müvafiq olaraq bu iddialara müfəssəl cavab vermişdik. Ona görə də Osmanla əlaqədar iddiaya geniş cavab verməyə lüzum görmürük. Təkrara yol verməmək üçün burada yalnız qohumluq və adqoymanın sevgi və razılığa dəlil göstərilməsinin yanlışlığı barədə söhbət açacağıq.

1. Kürəkənliklə sevgi və razılığın bir-birinə bağlı olmaması

Osmanın Peyğəmbərin (s) iki qızı ilə evlənməsi ilə Əhli-Beytə (ə) qarşı düşmənçiliyinin arasında vacib bir əlaqə yoxdur. Belə ki, bir şəxsin eyni vaxtda həm kürəkən və həm də düşmən olması mümkündür. Nəsil bağlılığı düşmənçiliyə bir maneə olmadığı kimi, sonradan qurulan

[1359] Şiə və Əhi-Beyt, s. 149-150

qohumluq əlaqələri də bunun qarşısını almır. Əgər Peyğəmbərin (s) əmiləri və onların övladları ilə yaxın qohumluğu ona qarşı düşmənçiliyin qarşısını almadısa, o zaman evlilik nəticəsində yaranan qohumluq əlaqələrindən danışmağa dəyməz.

Bir insan eyni vaxtda həm Peyğəmbərin (s) doğmaca əmisi, həm də ona qarşı ən qatı düşməni ola bilir. Necə ki, bunu Əbu Ləhəbin nümunəsində görürük. Uca Allah buyurur: ***"Əbu Ləhəbin əlləri qurusun, qurudu da! Ona nə mal-dövləti fayda verəcək, nə də qazandığı. O, alovlu atəşə girəcək".***[1360]

Həmçinin bir peyğəmbərin doğma övladı da ona qarşı düşmən ola bilir. Necə ki, bunu Nuhun (ə) oğlunun nümunəsində müşahidə edirik: ***"Gəmi onları dağlar kimi (yüksək) dalğaların içi ilə apardığı zaman Nuh (gəmidən) aralı olan oğlunu (Kənanı) haraylayıb dedi: "Oğlum! Bizimlə birlikdə gəmiyə min, kafirlərdən olma!" (Oğlu ona) belə cavab verdi: "Mən bir dağa sığınaram, o da məni sudan qoruyar". Nuh dedi: "Allahın rəhm etdiklərindən başqa, bu gün heç kəs (insanları) Onun əzabından qoruya bilməz!" Nəhayət, dalğa ata ilə oğulun arasına girib onları bir-birindən ayırdı və o da suya qərq edilənlərdən oldu".***[1361] Həmçinin: ***"Nuh Rəbbinə (dua ilə) müraciət edib dedi: "Ey Rəbbim! Oğlum (Kənan) mənim ailə üzvlərimdəndir. Sənin vədin, sözsüz ki, haqdır. Sən hakimlər hakimisən!" (Allah) buyurdu: "Ey Nuh! O sənin ailəndən deyil. Çünki o (küfr etməklə) pis bir iş görmüşdür. Elə isə bilmədiyin bir şeyi Məndən istəmə. Sənə cahillərdən olmamağı tövsiyə edirəm".***[1362]

Peyğəmbər bir qadında evlilik nəticəsində qohumluq əlaqəsi yaradır, amma eyni vaxtda ona qarşı düşmənə də çevrilir. Necə ki, bunu Lut və Nuh peyğəmbərlərin (ə) zövcələrinin misalında görürük: ***"Allah kafirlərə***

[1360] Məsəd, 1-3
[1361] Hud, 42-43
[1362] Hud, 45-46

Nuhun övrəti ilə Lutun övrətini misal çəkdi. Onlar Bizim qullarımızdan iki saleh bəndənin kəbini altında idilər. Onlar ərlərinə xəyanət etdilər və (Nuhla Lut) onları Allahdan (Allahın əzabından) heç vəchlə qurtara bilmədilər. Onlara: "Girin cəhənnəmə ikiniz də girənlərlə birlikdə!" -deyildi".[1363]

Bəzən də evlilik səbəbilə yaranan qohumluqda qadın mömin və Allahın dostlarından, kişi isə düşmənlərindən olur. ***"Allah iman gətirənlərə isə Fironun zövcəsini (Asiyə bint Məzahimi) misal çəkdi. O zaman: "Ey Rəbbim! Mənim üçün Öz dərgahında – Cənnətdə bir ev tik. Məni Firondan və onun əməlindən qurtar. Məni zalım qövmdən xilas et!" – demişdi".***[1364]

Bu baxımdan da Peyğəmbər (s) və ya Əhli-Beytlə (ə) aralarında nəsəb və ya səbəbi qohumluq əlaqələri olan şəxslərin onlara qarşı düşmənçilik etməyəcəklərinə heç bir zəmanət yoxdur. Necə ki, Peyğəmbərin (s) əmisi Əbu Ləhəbin iki oğlunun misalında da bunu müşahidə edirik. Onların ikisi də Peyğəmbərin (s) yaxın qohumları və kürəkənləri idilər. Lakin eyni vaxtda onun qatı düşmənlərindən sayılırdılar. Əhli-Sünnə tarix və seyf alimləri Ümmü Külsümlə Rüqəyyanın Əbu Ləhəbin oğlanları ilə evli olduqlarına dair yekdil fikirləri var.[1365]

Peyğəmbərlə (s) istər nəsli baxımından (əmi, bibi, əmi uşaqları və s. kimi), istərsə də səbəbi qohumluq (kürəkənlik, evlilik və s. kimi) əlaqələri insanı yanlış addımlardan qoruyan və ya nicat verən amildirsə, o zaman bu, Əbu Ləhəbin oğlanlarına da faydalı olmalı idi. Belə ki, onlar Peyğəmbərin (s) həm əmisi uşaqları, həm də kürəkənləri idilər. Lakin bu heç də onların düşmənçiliyinə mane olmadı.

[1363] Təhrim, 10

[1364] Təhrim, 11

[1365] Bax: ət-Təbəqatul-kubra, İbn Səd, c. 8, s. 36-37; əs-Siqat, İbn Hibban, c. 1, s. 56; Tarixu mədinəti Dəməşq, İbn Əsakir, c. 3, s. 127 və s.

Peyğəmbərin (s) qızlarını onlardan boşatdırıb (gümana əsasən,) Osmanla evləndirməsinin burada heç bir fərqi yoxdur. Belə ki, söhbət Osman və digərlərinin Peyğəmbərin (s) vəfatından sonra rəftarları və Əhli-Beytə (ə) qarşı münasibətləri barədədir. İddia olunan bu evlilik və Osmanın Peyğəmbərin (s) iki qızı ilə evlənməsi besətin ilk illərində baş vermişdi. Peyğəmbərin (s) hər iki qızı onun sağlığında dünyadan köçdülər. Osmanın isə (bir rəvayətə əsasən,) yalnız Rüqəyyadan bir övladı olmuş, həmin uşaq da kiçik yaşlarında vəfat etmişdi. Qarşıda buna bir daha toxunacağıq. Halbuki Əhli-Beytə (ə) qarşı böyük zülmlər məhz Peyğəmbərin (s) vəfatından sonra baş qaldırdı.

Əgər səbəbi qohumluq Əhli-Beytin (ə) Osmana olan sevgisinin isbatı üçün kifayət edəcəksə, o zaman bu evlilik Peyğəmbərin (s) dünyasını dəyişəndən sonra baş verən evlilik olmalı idi. Lakin belə bir hal baş verməyib. Əvvəlki evlilik münasibətləri burada fayda vermir. Faydalı olanı isə ümumiyyətlə gerçəkləşməyib.

Osmanın oğlanlarının Əhli-Beytin (ə) qızları ilə evləndirilməsi iddiası da doğru deyil. İhsan Zahirin özü də buna heç bir dəlil göstərməyib.

Xüsusilə qeyd edək ki, Peyğəmbər (s) vəfatından öncə Əhli-Beytini (ə) ümmətə vəsiyyət edib və onlara qarşı zülmdən çəkinmələrini buyurub. Müslim "Səhih"ində Zeyd ibn Ərqəm sənədilə nəql edir: *"Bir gün Peyğəmbər (s) Məkkə ilə Mədinənin arasında yerləşən "Xum" adlanan su mənbələri yaxınlığında bizə xütbə söyləyirdi. Allaha həmd-səna dedikdən və moizə etdikdən sonra buyurdu: "Ey camaat, bilin ki, mən də bir bəşərəm, Rəbbimin elçilərinin gələcəyi və mənim də onlara müsbət cavab verəcəyim vaxt yaxındadır. Sizin aranızda iki ağır əmanət qoyuram. Onlardan birincisi Allahın kitabıdır ki, orada hidayət və nur var. Allahın kitabını götürüb ona möhkəm sarılın".*

Ardınca Allahın kitabına təşviq edərək bizi ona rəğbətləndirdi. Sonra buyurdu: "Və Əhli-Beytim. Əhli-Beytim haqqında sizi Allaha tapşırıram,

Əhli-Beytim haqqında sizi Allaha tapşırıram, Əhli-Beytim haqqında sizi Allaha tapşırıram!!!"[1366]

Həmçinin ona istinadən Tirmizi də "Sünən"də yaxın kəlmələrlə nəql edib: *"Peyğəmbər (s) buyurdu: "Sizin aranızda əmanət qoyuram ki, ondan möhkəm yapışdığınız müddətdə məndən sonra əsla azmayacaqsınız. Onlardan biri digərindən daha böyükdür. Allahın kitabı səmadan yerə uzanmış bir ipdir. Və itrətim olan Əhli-Beytim. Onlar Hovuz başında mənə qovuşanadək əsla bir-birindən ayrılmazlar. Məndən sonra onlarla necə rəftar edəcəyinizə diqqət yetirin".*[1367]

Əhli-Sünnənin böyük hədisşünas və hafizləri bunu fərqli kəlmə və çoxsaylı yollarla Zeyd ibn Ərqəmdən rəvayət ediblər. Onlardan Əhməd ibn Hənbəl "Müsnəd"ində,[1368] Nəsai "əs-Sünənul-kubra",[1369] "Fəzailus-səhabə"[1370] və "Xəsaisu Əmiril-muminin (ə)"də[1371] və s.

Əhməd ibn Hənbəl "Müsnəd"də, İbn Əbu Şeybə "əl-Müsnnəf"də[1372] və digərləri Zeyd ibn Sabitdən rəvayət ediblər. (Rəvayət Əhmədin kitabındandır:) *"Peyğəmbər (s) buyurdu: "Mən sizin aranızda iki xəlifə qoyuram: Allahın kitabı və Əhli-Beytim. Onlar Hovuz başında yanıma varid olanadək əsla bir-birindən ayrılmazlar".*[1373]

Əbu Səid Xudriyə istinadən isə yenə də Əhməd ibn Hənbəl "Müsnəd"də, İbn Əbu Şeybə "əl-Müsənnəf"də,[1374] Əbu Yəla Mosuli öz "Müsnəd"ində[1375] nəql ediblər. (Rəvayət Əhmədindir:) *"Peyğəmbər (s)*

[1366] Səhih, Müslim, c. 4, s. 1873, hədis 2408, "Əli ibn Əbu Talibin (r) fəzilətləri babı, c. 7, s. 122-123, "darul-fikr" mətbəəsi, Beyrut

[1367] Sünən, Tirmizi, c. 5, s. 329, Əbdürrəhman Muhəmməd Osmanın təhqiqi ilə

[1368] Müsnəd, Əhməd ibn Hənbəl, c. 4, s. 366-367; c. 4, s. 371

[1369] əs-Sünənul-kubra, Nəsai, c. 5, s. 51

[1370] Fəzailus-səhabə, Nəsai, s. 22

[1371] Xəsaisu Əmiril-muminin (ə), Nəsai, s. 93

[1372] əl-Müsənnəf, İbn Əbu Şeybə, c. 7, s. 418

[1373] Müsnəd, Əhməd ibn Hənbəl, c. 5, s. 189-190

[1374] əl-Müsənnəf, İbn Əbu Şeybə, c. 7, s. 176

[1375] Müsnəd, Əbu Yəla Mosuli, c. 2, s. 297-298; c. 2, s. 303

buyurdu: "Mən sizin aranızda iki ağır əmanət buraxıram. Biri digərindən daha böyükdür. Allahın kitabı səmadan yerə uzanmış bir ipdir. Və itrətim olan Əhli-Beytim. Onlar Hovuz başında yanıma varid olanadək əsla bir-birindən ayrılmazlar".[1376]

Eləcə də İbn Əbu Şeybə "əl-Müsənnəf"də Həkəm Əzdi sənədilə nəql edib.[1377]

Söhbət ümmətin həmin vəsiyyəti necə icra etdiyindən, əhdi necə qoruduğundan, Osman və yoldaşlarının Peyğəmbərin (s) vəfatından sonra Əhli-Beytinə (ə) qarşı necə rəftar etdiyindən gedir.

Peyğəmbərdən (s) nəql edilən bəzi rəvayətlər özünün vəfatından sonra Əhli-Beytinin (ə) böyük zülmlərlə qarşılaşacağından xəbər verir. Hakim "Müstədrək"də Həyyan Əsədi sənədilə rəvayət edir: *"Əlinin belə dediyini eşitdim: "Peyğəmbər (s) mənə buyurdu: "Məndən sonra ümmət sənə qarşı çıxacaq. Sən isə mənim dinimin üzərində yaşayacaq, sünnətim üzərində ikən qətlə yetiriləcəksən. Səni sevən məni sevmiş, sənə nifrət edən mənə nifrət etmişdir. (Əli ilə işarə edərək) bunu buna boyayacaqlar". Yəni saqqalını başının qanına boyayacaqlar".*

Hakim Nişapuri bu hədisin səhih olduğunu bildirir.[1378] Eləcə də Zəhəbi "ət-Təlxis"[1379] əsərində hədisin səhih olduğunu qeyd edir.

Bunu isə Xətib Bağdadi öz "Tarix"ində Əbu İdris Əsədi sənədilə Möminlərin əmirindən (ə) nəql edib: *"Peyğəmbərin (s) mənə verdiyi əhdlərdən biri də, ümmətin ondan sonra mənə qarşı çıxacağıdır".*[1380]

Həmçinin İbn Əsakir özünün "Tarix",[1381] İbn Kəsir isə "əl-Bidayətu vən-nihayə"[1382] əsərində bunu qeyd ediblər.

[1376] Müsnəd, Əhməd ibn Hənbəl, c. 3, s. 14
[1377] əl-Müsənnəf, İbn Əbu Şeybə, s. 503
[1378] əl-Müstədrək ələs-Səhiheyn, Hakim Nişapuri, c. 3, s. 153
[1379] Təliqatuz-Zəhəbi fit-Təxlis, c. 3, s. 153
[1380] Tarixu Bağdad, Xətib Bağdadi, c. 11, s. 216
[1381] Tarixu Mədinəti Dəməşq, İbn Əsakir, c. 42, s. 448
[1382] əl-Bidayətu vən-nihayə, İbn Kəsir, c. 6, s. 244

Beyhəqi "Dəlailun-nubuvvə" kitabında Sələbə Həmaniyə istinadən nəql edir: *"Əlinin minbərdə belə söylədiyini eşitdim: "Allaha and olsun ki, Ümmi Peyğəmbər mənə xəbər verib ki, ondan sonra ümmət mənə qarşı çıxacaq".*[1383]

Zəhəbi "Təzkiratul-huffaz" Əlqəməyə istinadən Əlinin (ə) belə buyurduğunu yazır*: "Peyğəmbər mənə əhd verib dedi: "Məndən sonra ümmət sənə qarşı çıxacaq".*[1384]

Hakim "əl-Müstədrək"də İbn Abbasdan nəql edir: *"Peyğəmbər (s) Əliyə dedi: "Bil ki, sən məndən sonra çətinliklərlə üzləşəcəksən". Əli dedi: "Dinim salamat olacaq?" Peyğəmbər (s) "Bəli, dinin salamat olacaq" deyə cavab verdi".*

Hakim şərhində deyir: *"Bu hədis Buxari və Müslimin şərtinə əsasən, səhihdir, lakin onu kitablarında qeyd etməyiblər".*[1385]

Əbu Yəla Mosuli öz "Müsnəd"ində Əbu Osmandan, o da Möminlərin əmirindən (ə) nəql edir: *"Peyğəmbər (s) məni qucaqlayıb ağlamağa başladı. Ağlamağının səbəbini soruşduqda dedi: "Bir çox insanın qəlbində sənə qarşı olan gizli kin-küdurəti məndən sonra zahir olacaq". Dedim: "Ya Peyğəmbər, dinim salamat olacaq?" Peyğəmbər (s) "Bəli, dinin salamat olacaq" deyə cavab verdi".*[1386]

Eləcə də Bağdadi[1387] və İbn Əsakir[1388] öz "Tarix"lərində, Zəhəbi "Mizanul-itidal" əsərində yazırlar: *"Nəsai bunu "Müsnədu Əli" kitabında Hərəminin vasitəsilə nəql edib, Bəğəvi isə Qəvariridən, o da Hərəvidən rəvayət edib".*[1389]

[1383] Dəalilun-nubuvvə, Beyhəqi, c. 7, s. 312, hədis 2759
[1384] Təzkiratul-huffaz, Zəhəbi, c. 3, s. 995
[1385] əl-Müstədrək ələs-Səhiheyn, Hakim Nişapuri, c. 3, s. 151
[1386] Müsnəd, Əbu Yəla, c. 1, s. 427
[1387] Tarixu Bağdad, c. 12, s. 394
[1388] Tarixu mədinəti Dəməşq, İbn Əsakir, c. 42, s. 322
[1389] Mizanul-itidal, Zəhəbi, c. 3, s. 355-356

Heysəmi də "Məcməuz-zəvaid"də nəql edərək deyir: *"Bunu Əbu Yəla və Bəzzar da nəql ediblər. O rəvayətdə Fəzl ibn Ümeyrə var ki, İbn Hibban onun siqə (inanılan şəxs) olduğunu bildirib. Digərləri isə onu zəif ravi hesab edirlər. Rəvayətin digər raviləri isə etibarlı (siqə) şəxslərdir".*[1390]

Hədisin əvvəlini Hakim "Müstədrək"də Fəzl ibn Ümeyrəyə[1391] istinadən nəql edib və deyib: *"Bu hədis Buxari və Müslimin şərtinə əsasən, səhihdir, lakin onu kitablarında qeyd etməyiblər".*[1392]

İbn Ədiyy "əl-Kamil" əsərində Ənəs ibn Malik sənədilə nəql edir: *"Mən və Əli Peyğəmbərlə (s) birlikdə Mədinə ətrafında gəzməyə çıxdıq. Bir bağın yanından keçdikdə Əli "Nə gözəl bağdır!" dedi. Peyğəmbər (s) onun Cənnətdəki bağının bundan daha gözəl olduğunu söylədi. Doqquz belə bağın yanından ötdük, hər dəfəsində eyni sözləri söylədilər. Sonra Peyğəmbər (s) ağlamağa başladı. Əli bunun səbəbini soruşduqda buyurdu: "Bir dəstə insanın qəlbində sənə qarşı olan gizli kin-küdurəti məni itirdiklərindən sonra zahir olacaq".*[1393]

Həmçinin İbn Əsakir "Tarix"ində,[1394] Zəhəbi "Mizanul-itidal"da,[1395] Təbərani "əl-Möcamul-kəbir"də[1396] İbn Abbasdan bunu nəql ediblər.

Digər rəvayətlərdə də Əhli-Beytin (ə) Əbu Bəkr, Ömər və Osmandan gördüyü zülmlər aydın qeyd olunub. Onların bu rəftarları nəticəsində

[1390] Məcmuz-zəvaid, Heysəmi, c. 9, s. 118

[1391] Hakim Nişapuri deyir: *"Əli ibn Həmşaz Ədildən, o da Abbas ibn Fəzl Əsfatidən, o da Əli ibn Abdullah Mədinidən və İbrahim ibn Muhəmməd ibn Ərərədən, onlar da Hərəmi ibn Ümarədən, o da Fəzl ibn Ümeyrədən nəql edir ki, Məymun Kərdi, Əbu Osman Hindinin Əlinin (r) belə dediyini söyləyir: "Mədinə küçələrində Peyğəmbər (s) mənim əlimdən tutaraq gəzirdik. Bir bağın yanından ötdükdə dedim: "Ya Peyğəmbər, nə gözəl bağdır!" Peyğəmbər (s) mənim Cənnətdəki bağımın bundan daha gözəl olduğunu söylədi". Bu, sənədi səhih hədisdir, lakin Buxari və Müslim kitablarında qeyd etməyiblər".* (əl-Müstədrək, c. 3, s. 139)

[1392] əl-Müstədrək ələs-Səhiheyn, Hakim Nişapuri, c. 3, s. 139

[1393] əl-Kamil, Abdullah ibn Ədiy, c. 7, s. 173-174

[1394] Tarixu mədinəti Dəməşq, İbn Əsakir, c. 42, s. 323

[1395] Mizanul-itidal, Zəhəbi, s. 480

[1396] əl-Möcamul-kəbir, Təbərani, c. 11, s. 61

Peyğəmbərin (s) vəfatından sonra Əhli-Beytin (ə) haqları əllərindən alınıb. Buxari "Səhih"ində Aişəyə istinad edilən rəvayətdə yazır: *"Peyğəmbərin (s) qızı Fatimə qəzəbləndi, Əbu Bəkrlə bir daha ölənədək kəlmə belə kəsmədi. Peyğəmbərdən (s) sonra cəmi altı ay yaşadı".*[1397]

Bu rəvayətdəki sözlər Peyğəmbər (s) qızının Əbu Bəkrə qəzəbləndiyinə və ölənədək onunla danışmadığına açıq dəlalət edir.

Müslim "Səhih"ində Malik ibn Ovs sənədilə Ömərin Möminlərin əmiri Əliyə (ə) belə dediyini nəql edir: *"Əbu Bəkr öldü, sonra mən Peyğəmbərin (s) və Əbu Bəkrin canişini oldum. Siz ikiniz məni də yalançı, günahkar, namərd və xəyanətkar bildiniz".*[1398]

Rəvayətdən göründüyü kimi, Möminlərin əmiri Əli (ə) Əbu Bəkrlə Ömərin yalançı, günahkar, namərd və xəyanətkar olduğuna etiqad bəsləyirdi.

İmam Əli (ə) Osmanın davranışlarını xülasə olaraq belə qeyd edir: *"Ömər də öz yolunun sonuna yetişdi, xilafət məsələsini, məni də onlardan biri güman etdiyi bir neçə adamın arasında ortaya qoydu. İlahi, təşkil olunmuş şuradan və etdikləri məşvərətdən Sənə sığınıram. Camaat məni Əbu Bəkrə necə tay tutub, mənə şəkk-şübhə ilə yanaşdı? İş o yerə çatdı ki, o gün belə şəxslərlə (şura üzvü olan beş nəfərlə) bir sırada dayandım. Bununla belə (yenə də səbr edib şurada iştirak etdim) eniş-yoxuşlarda onların ardınca getdim (məsləhətə görə, hər yerdə onlarla razılaşdım). Beləliklə, onlardan biri paxıllıq və kininə görə haqdan əl çəkərək batil yola qədəm qoydu, başqa birisi Osmanın kürəkəni və qohumu olduğundan məndən üz döndərdi. Başqa iki nəfərinsə (Təlhə ilə Zübeyr rəzalət və alçaqlığına görə) adını çəkmək rüsvaylıqdır.*

(Ömərin ölümündən sonra, onun göstərişi ilə yaradılan şurada) qövmün üçüncüsü (Osman) ayağa qalxdı. Yeyib bayıra getməkdən hər iki tərəfini

---

[1397] Səhih, Buxari, c. 4, s. 42. Həmçinin bax: c. 5, s. 82; Səhih, Müslim, c. 5, s. 154

[1398] Səhih, Müslim, c. 5, s. 152-153

şişirtmişdi və onun atalarının övladları da onunla əlbir idilər. Onun dolaşıq ipi çözülənə qədər, iştahlı dəvə bahar otlarının hamısını yediyi kimi, Allahın malını yeyirdilər. Rəftarı qətlinin tezləşməsinə, qarnının doluluğu devrilməsinə səbəb oldu".[1399]

Osmanın paylaşdırdığı malları geri aldığı vaxt müsəlmanlara söylədiyi sözlərindən: *"Bilin və agah olun ki, Osmanın pay verdiyi hər bir mülk, Allahın malından hədiyyə etdiyi hər bir pul və mal geri alınıb beytül-mala qaytarılacaq. Köhnə haqqı heç nə ləğv edə bilməz. Allaha and olsun ki, əgər onunla qadınların mehriyəsinin verildiyini, kölələr alındığını görsəm belə, onu əvvəlki vəziyyətinə qaytaracağam. Çünki ədalətdə bir genişlik var. Ədalət dar gələn şəxsə, zülm daha dar gələr".*[1400]

Qeyd etdiyimiz kimi, əməllər yalnız sonuna görə ölçülür. Bu barədə bir çox ayə və rəvayətlər mövcuddur. Bəzən insan saleh əməllər etdiyi halda ömrünün sonunda əvvəlki əməllərini puç edəcək işlərə mürtəkib olur. Buna əməllərin puç olması barədə ayə də dəlalət edir: ***"Ey iman gətirənlər! Səsinizi Peyğəmbərin səsindən artıq qaldırmayın və bir-birinizlə ucadan danışdığınız kimi onunla ucadan danışmayın! Yoxsa, özünüz də bilmədən, əməlləriniz puç olar".***[1401] Həmçinin: ***"Sizdən hər kəs öz dinindən dönüb kafir olaraq ölərsə, belə kimsələrin bütün əməlləri (vaxtilə gördüyü yaxşı işləri) dünya və axirətdə heçə gedər. Onlar cəhənnəmlikdirlər və orada əbədi qalacaqlar!"***[1402]

Buxari "Səhih"ində Səhl ibn Səd Saidi sənədilə belə rəvayət edir: *"Peyğəmbər (s) müşriklərlə savaşan və müsəlmanlardan onlara qarşı ən şiddətli vuruşan bir nəfərə baxıb buyurdu: "Kim cəhənnəm əhlinə tamaşa etmək istəyirsə bu şəxsə baxsın".*

[1399] Nəhcül-Bəlağə, c. 1, s. 33-35, "Şiqşiqiyyə" xütbəsi
[1400] Nəhcül-Bəlağə, c. 1, s. 46
[1401] Hücurat, 2
[1402] Bəqərə, 217

Bir kişi onu izləməyə yollandı. Nəhayət həmin adam yaralandı. O, ölümünü tezləşdirmək üçün qılıncını yerə dikəldərək ucunu sinəsinə qoyub özünü irəli çəkdi və qılınc onun belindən çıxdı.

Peyğəmbər (s) buyurdu: "Həqiqətən, bir şəxs insanların gözündə cənnət əhlinin əməlini edər, əslində isə cəhənnəm əhlindən olar. Habelə bir adam insanların gözündə cəhənnəm əhlinin əməlini edər, əslində isə cənnət əhlindən olar. Əməllər yalnız sonuna görə ölçülür".[1403]

Bir çox Əhli-Sünnə alimləri öz kitablarına "Əməllər sonuna görə ölçülür" başlıqlı fəsillər ayırmışlar. Onlardan İbn Əbu Üsamə "Müsnəd"ində Həsənə istinadən Peyğəmbərin (s) belə buyurduğunu qeyd edir: *"Birinin əməlinin sonuna baxmadan hökm verməyə tələsməyin".* Müəllif bunun ardınca yazır: *"Həsən deyir: "İlahi, bunu əməlimizin sonuncu, mükafatını isə Cənnət qərar ver!" Deyir: Peyğəmbər (s) isə belə buyurdu: "İlahi, əməllərimizin ən yaxşını əcəlimiz yaxınlaşdığı vaxt, günlərimizin də ən yaxşısını Sənlə görüşdüyümüz gün olaraq qərar ver!"*[1404]

Heysəmi "Məcməuz-zəvaid"də Ənəsin Peyğəmbərdən (s) belə nəql etdiyini yazır: *"Bir kəsin əməlinin sonunun nə ilə bitdiyi sizi təəccübləndirməsin. Bəzən insan ömrünün bir hissəsini saleh işlər görür. Əgər bu halda ölsə Cənnətə daxil olar. Lakin pis əməllərə mürtəkib olur. Həmçinin pis əməl sahibi də belədir. Pis əməllə ölsə Cəhənnəmə daxil olacaq. Lakin sonra saleh işlərə səy edir.*

Əgər Uca Allah bir bəndəsi üçün xeyir diləsə onu ölümündən əvvəl (Cənnət üçün) hazırlayar".

Dedilər: "Ya Peyğəmbər, onu necə hazırlayar?"

Buyurdu: "Onu saleh əmələ müvəffəq edər, sonra canını alar".

[1403] Səhih, Buxari, c. 7, s. 188

[1404] Buğyətul-bahisi ən zəvaidi musnədil-Haris, Haris ibn Əbu Üsamə, s. 237

Ardınca deyir: *"Bunu Əhməd ibn Hənbəl, Əbu Yəla, Bəzzar və "əl-Övsat"da Təbərani nəql ediblər. Ricalındakı ravilərin hamısı "Səhih"in raviləridir".*[1405]

Ətrafında bir çox sualların mövcudluğuna göz yumsaq belə (qarşıda bunları qeyd edəcəyik), evlilik nəticəsində yaranmış qohumluq Əhli-Beytin (ə) Osmana və Osmanın Əhli-Beytə (ə) olan sevgisinə şahidlik edə bilməz. Hətta bu evliliyin xoş niyyətlə baş verdiyini fərz etsək belə, yenə də bu, Osmanı Əhli-Beytə (ə) zülm etməkdən çəkindirəcək bir amil olmayacaq. Belə ki, həmin amil onun sonrakı əməl və rəftarlarına, Peyğəmbərin (s) Əhli-Beytlə (ə) bağlı vəsiyyətinə əməl etməsinə birbaşa bağlıdır. Əvvəlki bəhslərdə Əbu Bəkrin, Ömər və Osmanın Əhli-Beytə (ə) qarşı rəftarları barədə söhbət açdıq, bunun düşməncə bir münasibət olduğunu və onlardan bir çox zülmlər gördüklərini dəlillərlə isbatladıq. Lakin Əhli-Beyt (ə) üzvləri zülm görmələrinə rəğmən İslamı və müsəlmanların birliyini qorumaq naminə bütün əziyyətlərə səbr etmiş, bu səbəbdən qəzəblərini daxillərində boğmuşlar.

2. Qarşı tərəfə öz mənbələrindən dəlil göstərilməsinin zərurəti

İhsan Zahir şiələrə nəyisə isbatlamağa çalışır. Bu zaman səbəbi qohumluğa da şiələrin öz kitablarından dəlil təqdim etməlidir. Lakin şiə mənbələrində Osmanın kürəkənlik nəticəsində yaranmış olan səbəbi qohumluğu ilə bağlı nəql edilənlər Peyğəmbərə (s) və onun ailəsinə qarşı zülmlərini qeyd edir. Belə ki, Əhli-Beyt imamlarından (ə) rəvayət olunur ki, Peyğəmbərin (s) qızını öldürən şəxs məhz Osmanın özüdür. Şeyx Kuleyni "əl-Kafi" kitabında Əbu Bəsir sənədilə nəql edir: *"İmam Sadiqə (ə) dedim: "Qəbir sıxıntısından kimsə azad olubmu?" Buyurdu: "Qəbir sıxıntısından Allaha pənah aparırıq! Bundan çox az adam qurtulub. Osman*

[1405] əl-Möcəmul-övsat, Təbərani, c. 3, s. 53

Rüqəyyəni öldürdükdə Peyğəmbər (s) onun qəbrinin başında dayanıb üzünü səmaya qaldırdı, gözləri yaşardı. Camaata səsləndi: "Mən bu qəbirdəkini və onun yaşadıqlarını xatırlayır, onun üçün bir asanlıq diləyir və qəbir sıxıntısından amanda olmağı ona hədiyyə etmək istəyirəm. İlahi, mənə xatir Rüqəyyəni qəbir sıxıntısından azad et!" Və Allah bunu ona bəxş etdi".[1406]

Həmçinin "əl-Kafi"də İmam Sadiqdən (ə) belə buyurduğu rəvayət olunur: *"...Peyğəmbər (s) Əlini (ə) çağırıb buyurdu: "Qılıncını götür, Əmmar və başqa bir şəxslə bərabər filan ağacın altında olan Müğeyrə ibn Əbülası tapın". Əli (ə) oraya gedib Müğeyrəni tapıb öldürdü. Osman "Onun yerini atana sən xəbər verdin!" deyərək Peyğəmbərin (s) qızını ölümcül döyüb atasının yanına göndərdi. Qız onun etdiklərindən şikayətləndi... Atasını gördükdə ağlamaq səsi yüksəldi. Peyğəmbərin (s) də gözləri dolub ağladı. Onu evinə aldı. Kürəyindən paltarını götürdükdə zərbələrin yerlərini gördü. Üç dəfə "Allah onu öldürsün! Səni niyə belə ölümcül hala salıb?!" deyə fəryad etdi. Həmin gün həftənin bazar günü idi. O gecəni Osman evində kənizləri ilə eyş-işrətdə keçirdi. Həftənin birinci və ikinci gününü qız atasının evində qaldı, dördüncü gün vəfat etdi. Cənazəsi dəfn üçün hazır olduqda Peyğəmbər (s) Fatiməyə göstəriş verib möminlərin qadınları ilə birlikdə dəfn üçün çıxmalarını buyurdu. Osman da cənazəni müşayiət etmək üçün çıxdı. Peyğəmbər (s) onu gördükdə üzünü camaata tutub buyurdu: "Kim gecəni öz xanımları və kənizləri ilə keçiribsə, cənazəni müşayiət etməsin!" Bunu üç dəfə təkrarladı. Heç kəs oradan ayrılmadı. Dördüncü dəfə təkrarlayaraq buyurdu: "Ya həmin şəxs buradan ayrılsın, ya da mən onun adını çəkəcəyəm". Bu vaxt Osman köləsinə söykənmiş və qarnını tutmuş halda yaxınlaşıb dedi: "Ya Peyğəmbər, mənim qarnım ağrıyır, əgər izn versən mən buradan ayrılaram". Peyğəmbər (s) "Get!" deyə buyurdu".*[1407]

[1406] əl-Kafi, Şeyx Kuleyni, c. 3, s. 236

[1407] əl-Kafi, Şeyx Kuleyni, c. 3, s. 251-253

Əhli-Sünnə rical alimlərinin Yunus ibn Xəbbabın tərcümeyi-halında yazdıqları sözlər də bunu təsdiqləyir. Onların sözlərinə əsasən, Yunusun fikrincə, Osman Peyğəmbərin (s) iki qızının da qatilidir. İbn Ədiy Yunus ibn Xəbbabın tərcümeyi-halında "Əbbad ibn Əbbad Mihləbiyə istinadən yazır: *"Əhvəzdə Yunus ibn Xəbbabla qarşılaşdım və onun belə dediyini eşitdim: "Osman Peyğəmbərin (s) iki qızını da öldürüb".*[1408] Başqa kəlmələrlə: *"Yunus ibn Xəbbabın belə dediyini eşitdim: "Osmanın Peyğəmbərin (s) iki qızını da öldürdüyünə şahidlik edərəm".*[1409]

Yunus ibn Xəbbab Əhli-Sünnənin nəzərində hədis nəql etməkdə etibarlı (siqə) və doğru danışan şəxsdir. Yunusu zəif sayanlar isə onun Osmana qarşı bu düşüncələrinə əsasən belə hökm veriblər. İcli onun adını "əs-Siqat" ("Etibarlılar") kitabında qeyd edib.[1410]

Hafiz ibn Həcər "Təqribut-təhzib"də yazır: *"Yunus ibn Xəbbab Üseydi, doğru danışandır, xəta da edib. Rafizilikdə ittiham olunub. Altıncı təbəqədəndir".*[1411]

"Təhzibut-təhzib"də onun tərcümeyi-halında yazılıb: *"Saci deyir: "Hədis söyləməkdə doğru danışandır. Bəzi mənfi fikirlərinə görə barəsində pis sözlər danışılıb". Əhməd ibn Hənbəl deyir: "Rəyi pis idi". İbn Muin deyir: "Etibarlı (siqə) idi, Osmanı söyürdü". İbn Şahin "əs-Siqat"da yazır: "Osman ibn Əbu Şeybə deyir: "Yunus ibn Xəbbab etibarlı (siqə) və doğru danışan şəxsdir"... Əbu Davud: "Onun hədislərində inkar olunan mətləblər yoxdur. Yalnız qəbir əzabı ilə bağlı hədisə "Əli vəlidir" sözlərini əlavə edib".*[1412]

Yunusun Osmana qarşı tutduğu mövqe səbəbindən zəif hesab edilməsini təsdiqləyən amillərdən biri də İbn Həcərin "Təhzibut-təhzib"dəki sözləridir: *"Hakim Əbu Əhməd deyir: "Yəhya və Əbdürrəhman*

[1408] əl-Kamil, Abdullah ibn Ədiy, c. 7, s. 172; Mizanul-itidal, Zəhəbi, c. 4, s. 480
[1409] əl-Kamil, c. 7, s. 172
[1410] Mərifətus-siqat, İcli, c. 2, s. 377
[1411] Təqribut-təhzib, İbn Həcər, c. 2, s. 348
[1412] Təhzibut-təhzib, İbn Həcər, c. 11, s. 385

onu tərk etmişlər və biz də bunu alqışlamışıq. Çünki o, Osmanı söyürdü. Bir səhabəni söyən şəxs rəvayət nəql edilməməyə layiqdir".[1413]

Duri Yəhya ibn Muindən nəql edir: *"Yunus ibn Xəbbabdan Əbbad ibn Əbbad hədis eşidib. O, Osmanı pisləyir və deyirdi: "Osman Peyğəmbərin (s) iki qızını öldürüb". Mən bunu Əbbaddan eşitməmişəm".*[1414]

İbn Ədiy "əl-Kamil"də Əhməd ibn Səd ibn Əbu Məryəmdən nəql edir: *"Yəhya ibn Muindən Yunus ibn Xəbbab haqqında soruşdum. Onu zəif sayıb dedi: "Rafizilik edirdi".*[1415]

Abdullah ibn Hənbəl atasından nəql edir: *"Ondan Yunus ibn Xəbbab barədə soruşdum, dedi: "Rəyi pis idi". Dedim: "Bəs hədisləri necədir?" Dedi: "Əbbad bizə ondan hədis nəql edib".*[1416]

Deməli, Yunus ibn Xəbbab hədis rəvayət etməkdə etibarlı (siqə) şəxsdir. Buxari "əl-Ədəbul-mufrəd"də, Əbu Davud, Tirmizi, Nəsai və İbn Macə ondan öz kitablarında hədis nəql ediblər.

Yunusun bu əqidəsi və Osman haqqında söylədikləri bəzilərinin onu zəif saymasına səbəb olub.

Əhli-Sünnə rical alimlərinin Yunusla bağlı sözlərindən görünən odur ki, Peyğəmbərin (s) iki qızını qətlə yetirdiyinə görə onun Osmana qarşı mənfi münasibəti var idi. Eləcə də İbn Həcərin Əbu Davuddan nəql etdiyi sözlərə əsasən, o, həmçinin Əhli-Beytin (ə) vilayətinə etiqad bəsləyirdi. Belə ki, orada deyir: *"Onun hədislərində inkar olunan mətləblər yoxdur. Yalnız qəbir əzabı ilə bağlı hədisə "Əli vəlidir" sözlərini əlavə edib".*[1417]

Onların Yunusu bu səbəblərdən zəif hesab etmələri bizi heç də təəccübləndirmir. Belə ki, Əhli-Beytin (ə) vilayətinə etiqad bəsləmək və bəzi səhabələri tənqid etmək Əhli-Sünnə rical alimlərinin nəzərində

[1413] Təhzibut-təhzib, İbn Həcər, c. 11, s. 385
[1414] Tarixu İbn Muin, Duri, c. 2, s. 58
[1415] əl-Kamil, Abdullah ibn Ədiy, c. 7, s. 172
[1416] əl-İləl, Əhməd ibn Hənbəl, c. 1, s. 419
[1417] Təhzibut-təhzib, İbn Həcər, c. 11, s. 385

üzərinə basılması icazəli olmayan qırmızı xətlərdir. Onların nəzərində bir ravinin etibarlı (siqə) olmasına baxmayaraq, bu cür etiqadı onun hədislərinin rədd edilməsinə və özünün də zəif sayılmasına kifayət edir.

Yunus ibn Xəbbab onların nəzərində etibarlı (siqə) və doğru danışan şəxsdir. Lakin Əhli-Beytin (ə) vilayəti ilə bağlı kiçik bir şey rəvayət etdiyi təqdirdə anındaca bunu hədisə onun əlavə etdiyinə hökm verirlər.

Bu halı vəsiliklə bağlı hədislərdə də müşahidə etdik. Belə ki, Qeys ibn Minah onların nəzərində etibarlı şəxsdir, lakin Peyğəmbərdən (s) İmam Əlinin (ə) vəsiliyi ilə bağlı hədis nəql etdikdə, heç nəyə fikir vermədən həmin hədisə etina edilməyəcəyinə hökm verirlər.

Əhli-Beytlə (ə) bağlı digər məsələlərdə də vəziyyət belədir. Əhli-Sünnə hafiz və hədisşünaslarının nəzərində bir ravinin etibarına baxmayaraq, cızılmış qırmızı xətləri keçməyə əsla izn verilmir. Bu qırmızı xətlərdən ən əhəmiyyətlisi Əhli-Beytin (ə) vilayət və xilafəti, eləcə də səhabələrin ədalətidir. Buna əsasən, həmin cəhətlərin araşdırılması qapısını möhkəm bağlamışlar. Hədislərə qarşı tutduqları bu mövqe ilə onlar məsələlərin həqiqətini necə öyrənəcəklər?!

3. Peyğəmbərə (s) kürəkən olmasına Osman heç bir dəyər verməyib

Həqiqətən də, onun Peyğəmbərə (s) kürəkən olması münasibətlərində heç nəyi dəyişməyib. Buxari "Səhih"ində Ənəs ibn Malikə istinadən yazır: *"Peyğəmbərin (s) qızının dəfnində iştirak edirdik. Peyğəmbər (s) onun qəbrinin yanında oturmuşdu. Gözlərinin yaşla dolduğunu gördüm. Buyurdu: "Sizin aranızda bu gecə əhil ilə (cinsi) yaxınlıq etməyən şəxs varmı?" Əbu Təlhə "Mən" deyə səsləndi. Peyğəmbər (s) ona qəbirə enməyi buyurdu və o, qəbirə enərək cənazəni qoydu".*[1418]

[1418] Səhih, Buxari, c. 2, s. 80, "Cənazə" babı

Beyhəqi də "Sünən"də[1419] və Hakim "Müstədrək"də[1420] buna yaxın kəlmələrlə Ənəsdən nəql ediblər. Hakim hədisi qeyd etdikdən sonra yazır: *"Bu, Buxari və Müslimin şərtinə əsasən, səhih hədisdir, kitablarında nəql etməyiblər".* Zəhəbi də "ət-Təlxis"də onunla razılaşaraq deyib: *"Buxari və Müslimin şərtinə uyğundur".*[1421]

Eləcə də Həmmad ibn Sələmə yolu ilə Sabitdən, o da Ənəsdən Əhməd ibn Hənbəlin "Müsnəd"ində,[1422] Buxari "Tarixus-sağir" və "Tarixul-övsat"da[1423] və İbn Həzm "əl-Muhəlla"da[1424] nəql edib. Hakim "Müstədrək"də səhih saymış və ardınca demişdir: *"Bu, Müslimin şərtinə əsasən, səhihdir, lakin kitablarında qeyd etməyiblər".*[1425] Zəhəbi isə "ət-Təlxis"də[1426] bu barədə susub.

Hədis açıq şəkildə zövcəsini dəfn etmək üçün Osmanın qəbirə girməsini Peyğəmbərin (s) qadağan etdiyini göstərir. Halbuki Osman onu dəfn etməyə ən çox haqqı çatan şəxs idi. Lakin Peyğəmbər (s) bütün müsəlmanlar qarşısında onun qəbirə girməsinə etirazını bildirir. Həmin gecə əhli ilə yaxınlıq etməsini Osmanın susaraq təsdiqləməsi və bunun qarşılığında Peyğəmbərin Əbu Təlhəyə qəbirə enməyi buyurması Osmana ünvanlanmış birbaşa etirazdır.

Peyğəmbər (s) qızı olan zövcəsinin vəfatı gecəsi digər qadınları ilə Osmanın yaxınlıq etməsi baş vermiş hadisəyə etinasızlığını və

[1419] Sünən, Beyhəqi, c. 4, s. 53

[1420] əl-Müstədrək, c. 4, s. 47

[1421] əl-Müstədrək, c. 4, s. 52, Zəhəbinin "ət-Təlxis"dəki şərhləri ilə

[1422] Müsnəd, Əhməd ibn Hənbəl, c. 3, s. 229

[1423] Tarixus-sağir", Buxari, c. 1, s. 44. Deyir: Abdullah ibn Müsnədi bizə Üfeyrdən, o da Həmmaddan, o da Sabitdən, o da Ənəsdən nəql edib: *"Rüqəyyə vəfat etdikdə Peyğəmbər buyurdu: "Onun qəbrinə bu gecə əhli ilə yaxınlıq etmiş şəxs girə bilməz". Osman onu dəfn etmək üçün qəbirə girmədi".*

[1424] əl-Muhəlla, İbn Həzm, c. 5, s. 145

[1425] əl-Müstədrək, c. 4, s. 47

[1426] əl-Müstədrək, c. 4, s. 51, Zəhəbinin "ət-Təlxis"dəki şərhləri ilə

laqeydliyini göstərir. Görünür, həyat yoldaşının, xüsusilə də peyğəmbər qızı olan zövcəsinin ölümü ona qətiyyən təsir etməmişdi.

Peyğəmbər (s) tərəfindən bu qadağaya və etiraza səbəb də məhz qadınları ilə həmin gecə yaxınlıq etməsi oldu.

Peyğəmbər (s) müsəlmanların eyiblərinin üzərini örtməyi, qüsurlarına göz yummağı buyurur, onların gizlin işlərini və xəlvətdə etdiklərini yaymaqdan çəkindirirdi. Buna bir çox ayələr də dəlalət edir. Belə ki, o, din əhlini izzətləndirməyə diqqət göstərirdi. Amma Peyğəmbərin (s) Osmana qarşı bu addımı, onun rəftarının halal olmasına baxmayaraq, özündə böyük ehtiramsızlıq və etinasızlıq daşıdığını göstərir. Peyğəmbər (s) bunu gizlətməyi və üzərini örtməyi rəva bilmədi.

Əhli-Sünnə alimlər bu hədisdə iki cəhətdən fikir ayrılığına düşmüşlər:

Birinci: Həmin qızın kimliyi barədə müxtəlif fikirlər səsləndirmişlər. Bəziləri bunun Rüqəyyə, bəziləri Ümmü Külsüm və bəziləri də Peyğəmbərin (s) qızlığa götürdüyü qızlardan biri olduğunu söyləyiblər. İbn Həcər deyir: *"Peyğəmbərin (s) qızının dəfnində iştirak edirdik" – həmin qız Osmanın zövcəsi olan Ümmü Külsümdür. Vaqidi Füleyh ibn Süleyman bu sənədlə nəql edib. İbn Səd də "ət-Təbəqat"da Ümmü Külsümün tərcümeyi-halında, eləcə də Dulabi "əz-Zurriyyətut-tahirə"də bunu söyləyib. Həmçinin Təbərani və Təhavi də belə rəvayət ediblər. Həmmad ibn Sələmə Sabitdən, o da Ənəsdən nəql etmiş, həmin qızın Rüqəyyə olduğunu söyləmişlər. Buxari rəvayəti "Tarixul-övsat"da, Hakim "Müstədrək"də nəql ediblər... Xəttabi isə qəribə bir iddia səsləndirib: "Bu, Peyğəmbərin (s) qızlığa götürdüyü qızlardan idi və ona nisbət verilirdi".*[1427]

Birinci fikri (onun Rüqəyyə olduğunu) Zəhəbinin "Mizanul-itidal"da Əhməd ibn Hənbəldən nəql etdiyi sözləri də təsdiqləyir: *"Əhməd "Müsnəd"ində Əffandan, o da Həmmaddan, o da Əli ibn Zeyddən, o da Yusuf ibn Mehrandan, o da İbn Abbasdan rəvayət edir: "Peyğəmbərin (s) qızı*

[1427] Fəthul-Bari, İbn Həcər, c. 3, s. 126

Rüqəyyə vəfat etdi. Peyğəmbər (s) buyurdu: "İlahi, onu bizim saleh dostumuz Osman ibn Məzuna qovuşdur..."[1428]

Təbərani "əl-Möcəmul-kəbir"də İbn Abbas sənədilə nəql edir: *"Osman ibn Məzun öldükdə zövcəsi dedi: "Cənnət sənə mübarək olsun!" Peyğəmbər (s) qəzəbli baxışlarla ona nəzər salıb buyurdu: "Bunu haradan bilirsən?" Qadın dedi: "O, sənin atlı süvarin və səhabən idi". Peyğəmbər (s) buyurdu: "Allaha and olsun ki, onunla necə rəftar olunacağını mən belə bilmirəm".*

Peyğəmbərin (s) Osman haqqında söylədiyi bu sözlər səhabələrin xoşuna gəlmədi. Belə ki, Osman ibn Məzun onların ən fəzilətlilərindən idi.

Peyğəmbərin (s) qızı Rüqəyyə vəfat etdikdə isə o (s) belə dua etdi: "İlahi, onu sələfimiz Osman ibn Məzuna qovuşdur".[1429]

Heysəmi "Məcməuz-zəvaid"də hədisin ardınca yazır: *"Bunu Təbərani rəvayət edib. Raviləri etibarlı (siqə) şəxslərdir, bəziləri barədə isə fərqli fikirlər var".*[1430]

Onların qəbul edilmiş qaydalarına əsasən, belə rəvayətlər "həsən" dərəcəsindədir. Bunu İbn Həcər "əl-Qovlul-müsəddəd" kitabında Qəzə ibn Süveyd[1431] barədəki ixtilafı qeyd edərkən də söyləyib. Həmçinin "Təhzibut-təhzib"də İbn Qəttandan Abdullah ibn Saleh ibn Muhəmməd ibn Müslim Cəhni barədə nəql etdiyi sözlərdə də eyni fikirlə qarşılaşırıq.[1432]

Eləcə də Zərkəşi Küseyr ibn Şənzir barədəki ixtilafı da qeyd edərək bunu söyləyir.[1433]

Həmçinin Hafiz Heysəmi "Məcməuz-zəvaid"də İmam Əlinin (ə) Peyğəmbərdən (s) nəql etdiyi *"Mənə başqa peyğəmbərlərə verilməyən şeylər bəxş olunub"* hədisinin ravisi Abdullah ibn Muhəmməd ibn Əqilin

---

[1428] Mizanul-itidal, Zəhəbi, c. 3, s. 128-129
[1429] əl-Möcəmul-kəbir, c. 9, s. 37
[1430] Məcməuz-zəvaid, Heysəmi, c. 9, s. 302
[1431] əl-Qovlul-musəddəd, İbn Həcər Əsqəlani, c. 1, s. 30
[1432] Təhzibut-təhzib, İbn Həcər Əsqəlani, c. 5, s. 228
[1433] Laliul-mənsurə, Zərkəşi, c. 1, s. 42

barəsində ixtilaf olduğunu bildirdikdən sonra hədisə "həsən" hökmü verib.[1434]

Hafiz ibn Qəttan "Bəyanul-vəhmi vəl-eyham" kitabında bu qaydaya əsaslanaraq bir çox hədislərə "həsən" hökmü verib.[1435] Necə ki, İbn Ömərdən *"Xeybər fəth edildikdə bir yəhudi Peyğəmbərdən (s) soruşdu:..."* hədisinin ravisi Üsamə ibn Zeyd Leysi barədə ixtilafın olduğunu söyləyərək rəvayətin "həsən" olduğunu bildirib. Eləcə də Ənəsin *"Əgər siz günah etməsəydiniz, sizin üçün bundan daha çox qorxardım..."* hədisində də ravi Səllam ibn Süleyman Qari barəsində ixtilafları qeyd etdikdən sonra rəvayətə "həsən" hökmü verir.[1436]

Həmçinin ravilər barəsində müsbət və mənfi fikirlərin olmasına baxmayaraq, "həsən" hökmü verdikləri bir çox başqa mənbələr mövcuddur.[1437]

Bu qaydanı təkcə keçmiş alimlər tətbiq etməyiblər, həmçinin müasir alimlər də bundan istifadə ediblər. Dr.Muhəmməd Nasir Albani bu qaydanı rəhbər tutaraq müxtəlif kitablarında bir çox rəvayəti səhih hesab edib. Düheymin Muhəmməd ibn Şüeybdən, onun da Ömər ibn Yeziddən, onun da Əbu Səlamdan, onun da Əbu Ümamədən nəql etdiyi *"Allah bu üç nəfərin nə sədəqəsini və nə də diyəsi qəbul etməz: aq valideyn, minnət qoyan və qədəri inkar edən"* hədisinin ardınca yazır: *"Sənədi "həsən"dir, ravilərin hamısı etibarlı (siqə) şəxslərdir. Yalnız Ömər ibn Yezid Nəsri barəsində fərqli fikirlər mövcuddur".*[1438]

[1434] Məcməuz-zəvaid, Heysəmi, c. 1, s. 260

[1435] Bəyanul-vəhmi vəl-eyham fi kitabil-əhkam, İbn Qəttan, c. 4, s. 420

[1436] Bəyanul-vəhmi vəl-eyham fi kitabil-əhkam, İbn Qəttan, c. 4, s. 462-463

[1437] Bax: Muraqatul-məfatih şərhə Mişkatil-məsabih, Qari, Əli ibn Sultan Muhəmməd, c. 3, s. 305; Feyzul-qədir, Mənavi, c. 1, s. 369; Neylul-ovtar min əhadisi seyyidil-əxbar, c. 7, s. 20; Tuhfətul-əhvəzi, Mübarəkpuri, Əbüləla, Muhəmməd Əbdürrəhman ibn Əbdürrəhim, c. 4, s. 304; Nasbur-rayəti li-əhadisiil-hidayəti, Zeyləi, Əbu Muhəmməd Hənəfi, Abdullah ibn Yusuf, c. 4, s. 121

[1438] Zilalul-cənnət, Muhəmməd Nasir Albani, c. 1, s. 131, hədis 323

Onun öz kitablarında "həsən" hökmü ilə qeyd etdiyi digər belə hədislər də var.[1439]

Buradan aydın olur ki, alimlərin bir ravinin etibarlı və zəif olması haqqındakı fərqli kəlmələri rəvayəti heç də etimaddan salmır, onu "həsən" dərəcəsində qərarlaşdırır. "Həsən" rəvayət isə Əhli-Sünnə alimlərinin nəzdində "səhih" rəvayət kimi əhəmiyyətli dəlildir.

İkinci: Rəvayətdəki cinsi yaxınlıq (müqarifə) məsələsi ilə bağlı fərqli fikirlər irəli sürüblər. Onlardan bəzisi bunun elə cinsi yaxınlıq mənası daşıdığını, Osmanın Rüqəyyənin vəfat etdiyi gecə digər qadınları ilə eyş-işrətdə olduğunu söyləmiş, zövcəsinin ölümü ilə Peyğəmbərə (s) olan kürəkənliyinin də sona çatmasının onu kədərlənmədiyini bildirmişlər. Bu, İbn Bəttal, İbn Həzm, Nəvəvi və digərlərinin sözüdür.

İbn Bəttal deyir: *"Peyğəmbərin "...bu gecə əhli ilə yaxınlıq etməyən şəxs varmı?" sözündə məqsəd cinsi yaxınlıqdır... Alimlərin fikrincə qadını qəbirə qoymaqda əri hamıdan çox haqq sahibidir... zövcəsinin vəfatının və kürəkənliyinin bitməsinin digər qadınları ilə cinsi yaxınlıqdan çəkindirmədiyi Osmanı Peyğəmbər (s) zövcəsini qəbirə qoymaqdan məhrum etdi. Halbuki hüznü təzə və itkisi əvəzsiz idi... Peyğəmbər də (s) onu bu üstünlükdən məhrum qoydu. Osmanın çoxlu malı və xidmətçisi var idi. Osmanın həmin gecə yaxınlıq etdiyini təsdiqləməsində bir üstün xüsusiyyəti və fəziləti görünür. Belə ki, o, əleyhinə də olsa və zövcəsini qəbirə başqası da qoysa, hadisənin baş verdiyini inkar etmədi".*[1440]

İbn Bəttalın söylədiyi *"Osmanın həmin gecə yaxınlıq etdiyini təsdiqləməsində bir üstün xüsusiyyəti və fəziləti görünür"* sözlərə gəldikdə, Rüqəyyənin atası Peyğəmbər (s) olmasaydı bəlkə də düzgün səslənərdi. Belə ki, Osmanın həmin anda doğrunu söyləməkdən savayı seçimi yox idi. Əks təqdirdə vəhy yolu ilə onun yalanının üstü açılacaqdı.

[1439] Bax: Zilalul-cənnət, Muhəmməd Nasir Albani, c. 2, s. 294, hədis 1125; İrvaul-ğalil, Albani, c. 5, s. 109

[1440] Şərhu İbn Bəttal, c. 5, s. 362

İbn Həzm yazır: *"Əbu Muhəmməd deyir: "Müqarifə – halal cinsi əlaqədir. Allaha pənah ki, Əbu Təlhə Peyğəmbərin (s) hüzurunda haram cinsi əlaqəyə girmədiyi ilə öyünmüş olsun. Buna əsasən, həmin gecə əhli ilə yaxınlıq etməyən şəxs qəbirə daxil olmaqda ata və ərdən daha üstün olur".*[1441]

Nəvəvi deyir: *"Deyilib ki, mənası belədir: "müqarifə etmədi", yəni qadını ilə cinsi yaxınlıq etməmədi. Bunun günah cinsi əlaqə olduğu da deyilib. Buxari İbn Mübarəkdən, o da Füleyhdən nəql edib. Birinci variant daha üstündür. Onu Ənəsin hədisi də dəstəkləyir: "Rüqəyyə vəfat etdikdə Peyğəmbər (s) buyurdu: "Bu gecə qadını ilə yaxınlıq etməyən şəxs onu qəbirə qoymaq üçün girməlidir". Osman ibn Əffan qəbirə daxil olmadı". Bunu imam Əhməd ibn Hənbəl "Müsnəd"ində nəql edib. Məlumdur ki, Əbu Təlhə Peyğəmbərin (s) qızları üçün yad bir şəxs idi. Lakin orada iştirak edənlərin arasında saleh adam idi və aralarında Peyğəmbərdən savayı ona məhrəm şəxs yoxdu. Bəlkə də onun da, qızın ərinin də qəbirə girməməkdə üzrü var idi. Həmçinin Fatimə və digər məhrəm qadınları da orada idilər. Bu isə qadınların dəfn üçün qəbirə girə bilməyəcəklərini göstərir".*[1442]

Bəziləri də "müqarifə" ismini günah kimi təfsir ediblər. Bu, Füleyhin sözüdür, Buxari də həmin qənaətə gəlib.[1443] Necə ki, Nəvəvinin yuxarıdakı sözlərində bunu gördük.

Bu məna birincidən daha qəbihdir. Belə ki, cinsi yaxınlıq mənasında bir mənfilik olsa da, lakin şəriətə zidd məna düşünülmür. Bir kişinin qadınlarından biri vəfat edən gecə digər qadınları ilə yaxınlıq etməsinin haram olduğunu heç kəs söyləməyib. Bəli, amma bu hərəkət vəfat etmiş qadına laqeydliyin və əri üçün dəyərsizliyinin göstəricisi ola bilər.

Görünən odur ki, Osmanın əməlindən vəhyin vasitəsilə xəbər tutan Peyğəmbərdə (s) onun bu rəftarı böyük təsir qoymuşdu. Peyğəmbər (s) tərəfindən müsəlmanların eyib və nöqsanlarının üstünün örtüldüyü,

---

[1441] əl-Mühəlla, İbn Həzm, c. 5, s. 145

[1442] əl-Məcmu, Nəvəvi, c. 5, s. 289

[1443] Səhih, Buxari, c. 2, s. 93

onların xəlvətdəki pis əməllərini faş etməməyə diqqət göstərdiyi məlumdur. Lakin həmin qaydanı istisna edərək Osmanın bu hərəkətinə camaatın arasında etirazını bildirir və haqqı olduğu halda zövcəsini dəfn etməkdən məhrum edir. Əgər Osmanın əməli əhəmiyyətsiz və halal olsaydı, o zaman Peyğəmbər (s) mütləq onun üstünü örtər və gizlədərdi. Deməli, Peyğəmbərə (s) təsiri o qədər böyük idi ki, onu gizlədərək Osmanın ehtiramını qorumağı rəva bilmədi.

Təhavinin fikrinə görə isə "müqarifə" kəlməsi səhv düşmüşdür və düzgün variant "müqavil"dir. Bunun mənası "söz mübahisəsi etməmək"dir. Belə ki, onlar (ərəblər) axşamdan sonra söz mübahisəsi etməyi bəyənmirdilər.

İbn Həcər bu yanaşmanı "Fəthul-Bari"də qeyd edib: *"...İbn Mübarək Füleyhdən bunun günah olduğu fikrini əlavə edib. Müəllif də "Qadını qəbirə kim qoyar" bölümündə bunu şərh kimi yazıb... Həmçinin Şüreyh ibn Nüman Füleyhdən, ondan da Əhməd nəql edib. Deyilib: "Mənası – həmin gecə cinsi yaxınlıq etməyən şəxsdir". İbn Həzm də həmin məna üzərində dayanıb: "Allaha pənah ki, Əbu Təlhə Peyğəmbərin (s) hüzurunda haram cinsi əlaqəyə girmədiyi ilə öyünmüş olsun". Bunu Sabitin "Ötən gecə qadını ilə yaxınlıq edən şəxs qəbirə girə bilməz. Osman kənara çəkildi" rəvayəti də dəstəkləyir.*

Təhavinin belə dediyi nəql olunur: "Müqarifə" kəlməsi səhv düşmüşdür və düzgün variant "müqavil"dir. Bunun mənası "söz mübahisəsi etməmək"dir. Belə ki, onlar (ərəblər) axşamdan sonra söz mübahisəsi etməyi bəyənmirdilər. Belə ki, burada heç bir istinad olmadan etibarlı şəxsi gözdən salmaq var. Sanki, bununla Osmanı ittihamdan xilas edib və möhtərəmliyini qoruyub.

Buna qadının xəstəliyinin uzun müddət davam etdiyi ehtimalı ilə cavab vermək olardı. Belə olduqda, Osmanın da cinsi yaxınlığa ehtiyacı yaranmışdı. O, zövcəsinin məhz həmin gecə vəfat edəcəyini bilmirdi. Belə ki,

rəvayətdə hadisənin zövcəsinin vəfatından əvvəl, yoxsa can verdiyi vaxtda baş verdiyinə hökm edəcək bir amil yoxdur".[1444]

Görünən odur ki, İbn Həcər də digərləri kimi "müqarifə"ni cinsi yaxınlıq mənasına şamil etmişdir. Bunu İbn Həzmdən Sabitin rəvayətini nəql etməklə də təsdiqləyib. Təhavinin sözlərini isə rədd edib.

Nəticə: Qızın Rüqəyyə və ya Ümmü Külsüm olmasına, "müqarifə"nin cinsi yaxınlıq və ya günah kimi yozulmasına rəğmən, bu rəvayət Osmanın Əhli-Beytə (ə) qarşı laqeydliyinin və ehtiramsızlığının, onların da bu rəftardan üzüldüklərinin dəlilidir. Ona görə də bunu Osmanın Əhli-Beytə (ə) qarşı sevgisinə deyil, mənfi münasibətinə dəlil olaraq təqdim etmək lazımdır.

4. Osmanın Peyğəmbərə (s) kürəkən olmasına dair xəbərlərdə bir çox uydurma və uyğunsuzluqların olması

Kürəkənlik məsələsi özündə bir çox ixtilafları ehtiva edir ki, bu da onların arasında uydurma və saxtakarlığın mövcudluğunu göstərir. İhsan Zahir Osmanın Peyğəmbərin (s) qızları ilə evlilik məsələsini müsəlmanların arasında yekdilliklə qəbul olunmuş fikir kimi qələmə verməyə çalışıb. Halbuki məsələ heç də belə deyil. Həmin evliliklə bağlı bir çox qaranlıq və qarışıq nüanslar var ki, cürbəcür yozumlar gətirməklə onları həll etməyə çalışıblar. Bu da Əhli-Beytə (ə) düşmən mövqeyində dayanan Əməvi xanədanının hakimiyyətdə olduğu dövrlərdə onlara bu səltənəti hazırlayan Osmanın fəzilət və şərəfini ucaltmaq üçün ciddi səy göstərdiklərinin nəticəsidir. Bu uyğunsuzluqlara aşağıdakı bəndlərdə toxunacağıq:

[1444] Fəthul-Bari, İbn Həcər, c. 3, s. 127

A. Osmanın Rüqəyyə ilə evləndiyi vaxt barədə ixtilaflı fikirlər mövcuddur. Bəziləri bunun İslamdan əvvəl baş verdiyini iddia ediblər. Dulabi "əz-Zurriyyətut-tahirə" kitabında yazır: *"Abdullah ibn Muhəmməd Əbu Üsamə bizə Həccac ibn Əbu Muneydən, o da babasından, o da Zuhridən rəvayət edir: "Peyğəmbərin (s) qızı Rüqəyyə ilə Osman cahiliyyə günlərində evlənmişdi".*[1445]

Bəziləri isə bu evliliyin İslamdan sonra baş tutduğunu deyir. İbn Səd "ət-Təbəqat"ad yazır: *"Rüqəyyə ilə Üteybə ibn Əbu Ləhəb evlənmiş və onunla yaxınlıq etmədən boşamışdı. Hz.Muhəmməd (s) peyğəmbər göndərildikdən sonra isə Osman Rüqəyyə ilə evləndi".*[1446]

B. Onların övladları barədə də ixtilaf var. Bəziləri Osmanın Rüqəyyədən övladının olmadığını deyib. Bu, Qətadənin sözüdür. Dulabi "əz-Zurriyyətut-tahirə" kitabında yazır: *"Əbu Əşəs Əhməd ibn Miqdəm bizə Züheyr ibn Əladan, o da Səid ibn Əbu Ürubədən, o da Qətadədən nəql edir: "Osman Rüqəyyə ilə evləndi və evli olduqları vaxt Rüqəyyə vəfat etdi. Onların övladı olmadı".*[1447]

Bunu Qətadədən İbn Həcər və başqaları da nəql ediblər.[1448]

Digərləri isə Osmanın Rüqəyyədən Abdullah adlı oğlunun olduğunu yazıblar. Zəhəbi "Siyəru əlamin-nübəla" kitabında Rüqəyyənin tərcümeyi-halında yazır: *"Osmandan Abdullah adlı oğlu dünyaya gəldi. Osman da künyəsini ondan götürdü".*[1449]

Həmçinin övladının dünyaya gəldiyi yer barədə də müxtəlif fikirlər mövcuddur. İbn Şihab uşağın Həbəşistandan hicrətdə olduqları vaxtda doğulduğunu, bəziləri isə Məkkədə dünyaya gəldiyini iddia etmişlər. İbn Əbdülbərr "əl-İstiab"da yazır: *"İbn Şihab deyir: "Osman Rüqəyyə ilə*

[1445] əz-Zurriyyətut-tahirə, Dulabi, s. 79
[1446] ət-Təbəqatul-kubra, Muhəmməd ibn Səd, c. 8, s. 217
[1447] əz-Zurriyyətut-tahirə, Dulabi, s. 81
[1448] əl-İsabə, İbn Həcər, c. 8, s. 138
[1449] Siyəru əlamin-nübəla, c. 2, s. 251

Məkkədə evləndi. Onunla birlikdə Həbəşistana hicrət etdi və orada bir oğlu dünyaya gəldi. Uşağın adını Abdullah qoydular. Osman da künyəsini ondan götürdü". Müsəb deyir: "Cahiliyyə dövründə Osmanın künyəsi Əbu Abdullah idi. İslamdan sonra onun Peyğəmbərin (s) qızı Rüqəyyədən oğlu oldu və adını Abdullah qoydular. Osman da həmin künyə ilə çağırılmağa başlandı. Uşaq altı yaşında ikən xoruz onun gözünü çıxardı. Üzündə iltihab yarandı, xəstələndi və öldü". Digərləri isə deyirlər: "Osmanın peyğəmbər qızı Rüqəyyədən olan Abdullah adlı oğlu hicrətin dördüncü ilinin Cəmadil-əvvəl ayında vəfat etdi. Həmin vaxt altı yaşı var idi. Ona Peyğəmbər (s) cənazə namazı qıldı, qəbirə isə atası Osman qoydu".[1450]

Eləcə də yaşı və vəfat etdiyi vaxt barədə də ixtilaflar mövcuddur. Bəziləri anasının vəfatından əvvəl, hələ südəmər körpə ikən öldüyünü iddia ediblər. Bu, Əbu İshaqın sözüdür. Dulabi "əz-Zurriyyətut-tahirə" kitabında ondan nəql edir: *"Onun Rüqəyyədən Abdullah adlı oğlu oldu. Osman da Əbu Abdullah künyəsini ondan götürdü. Kiçik yaşlarında südəmər körpə ikən vəfat etdi".*[1451]

Dulabi İbn Şihabdan nəql edir: *"Osmanın Rüqəyyədən oğlu oldu və öldü. Sonra özü də xəstələnib vəfat etdi".*[1452]

Başqaları isə onun altı yaşında vəfat etdiyini deyirlər. Zəhəbi "Siyəru əlamin-nübəla"da yazır: *"Altı yaşına çatdı, gözünü xoruz deşdi, üzü iltihab etdi. Bir müddət sonra öldü".*[1453]

Altı yaşında öldüyünü deyənlər də ixtilaf etmişlər. Bəzilərinin onun hicrətin dördüncü ilində, digərləri isə, İbn Əbdülbərrin dediyi kimi, fərqli tarix göstərmişlər.

İbn Həcər "əl-İsabə"də onun tərcümeyi-halını Abdullah ibn Osman başlığında qeyd edib.[1454]

[1450] əl-İstiabu fi mərifətil-əshab, İbn Əbdülbərr, c. 4, s. 1840
[1451] əz-Zurriyyətut-tahirə, Dulabi, s. 81
[1452] əz-Zurriyyətut-tahirə, Dulabi, s. 81
[1453] Siyəru əlamin-nübəla, c. 2, s. 251

C. Rüqəyyənin ölümü ilə nəticələnən xəstəliyi də ixtilaf mövzusudur. Əbu İshaq Osmanın Bədr savaşında iştirak etməməsinə bunu səbəb göstərir. Digəri isə onun vəba xəstəliyinə tutulduğunu iddia edir. İbn Əbdülbərr yazır: *"Osman zövcəsi Rüqəyyə soyuqladığı üçün onun yanında qaldı, Bədrdə iştirak edə bilmədi. Onun evdə qalmasını Peyğəmbər (s) buyurmuşdu. İbn İshaq da belə deyib. Başqası isə etiraz edərək Rüqəyyənin vəba xəstəliyinə tutulduğunu deyir".*[1455]

Ç. Eləcə də Rüqəyyənin vəfatı və Peyğəmbərin (s) onun dəfnində iştirakı barədə müxtəlif fikirlər səslənib. Bəziləri Bədr döyüşü günlərində vəfat etdiyini və bu səbəbdən Peyğəmbərin (s) onun dəfnində iştirak etmədiyini bildiriblər. Bu, Vaqidinin sözüdür. İbn Həcər ondan nəql edir: *"Sübuta yetən odur ki, Rüqəyyə Bədr savaşı vaxtı vəfat edib".*[1456] Buxaridən isə bunu nəql edib: *"Rüqəyyə dünyadan köçdü. Həmin vaxt Peyğəmbər (s) Bədrdə idi və dəfnində iştirak etmədi".*[1457]

Hakim "Müstədrək"də Həmmad ibn Sələmə yolu ilə Hişam ibn Ürvədən, o da atasından nəql edir: *"Peyğəmbər (s) Bədrə yollanarkən Osmanı və Üsamə ibn Zeydi qızı Rüqəyyənın xəstəliyi səbəbindən onun yanında qoydu. Zeyd ibn Harisə qələbə müjdəsi ilə geri qayıtdığı zaman Rüqəyyə dünyadan köçdü. O, vəfat edərkən iyirmi yaşı var idi".*[1458]

Bəziləri də onun hicrətin ikinci ilində, Peyğəmbər (s) Bədr döyüşündən qayıtdıqdan sonra dünyadan köçdüyünü və Peyğəmbərin (s) onun dəfnində iştirak etdiyini söyləmişlər. Necə ki, bunu Əhməd ibn Hənbəlin "Müsnəd"ində Ənəsdən nəql etdiyi rəvayətdə gördük.[1459]

[1454] əl-İsabə, İbn Həcər, c. 5, s. 17
[1455] əl-İstiabu fi mərifətil-əshab, İbn Əbdülbərr, c. 4, s. 1038
[1456] əl-İsabə, İbn Həcər, c. 8, s. 138
[1457] Fəthul-Bari, İbn Həcər, c. 3, s. 127
[1458] əl-Müstədrək, c. 4, s. 47
[1459] Müsnəd, Əhməd ibn Hənbəl, c. 3, s. 229

Həmçinin Zəhəbinin "Mizanul-itidal"da Əhməd ibn Hənbəlin "Müsnəd"indən İbn Abbasdan nəql etdiyi hədis də bunu təsdiqləyir.[1460] Təbərani "əl-Möcəmul-kəbir"də yazır: *"Peyğəmbərin (s) qızı Rüqəyyə vəfat etdikdə isə Peyğəmbər (s) belə dua etdi: "İlahi, onu sələfimiz Osman ibn Məzuna qovuşdur".*[1461]

D. Peyğəmbərin (s) ən böyük qızının hansı olduğu barədə də fərqli fikirlər səsləndirilib. Bəziləri Rüqəyyənin ən kiçik qız olduğunu, digərləri isə ən kiçiyinin Fatimə (s.ə.) olduğunu iddia etmişlər. İbn Həcər "əl-İsabə"də yazır: *"Əbu Ömər deyir: "Zeynəbin Peyğəmbərin (s) qızlarının arasında ən böyüyü olmasında fərqli nəzərlərə rast gəlmədim. Rüqəyyə, Ümmü Külsüm və Fatimə barədə isə ixtilaf mövcuddur. Əksəriyyət onların bu ardıcıllıqla dünyaya gəldikləri fikrindədir".*

Əbu Ömər Cürcanidən nəql edib ki, daha düzgünü Rüqəyyənin qızların arasında ən kiçiyi olmasıdır. Fatimənin də ən kiçik qız olduğu deyilib".[1462]

Sefidi deyir: *"Peyğəmbərin (s) ən kiçik qızının kimliyi barədə çox ixtilaf var. Lakin onlardan ən böyüyü haqda ixtilaf demək olar ki, yoxdur".*[1463]

Bəli, Zeynəbin peyğəmbər qızlarının arasında ən böyüyü olduğu barədə yekdil fikirləri mövcuddur. İbn Səd "ət-Təbəqat"da onun tərcümeyi-halında yazır: *Zeynəb – Peyğəmbərin (s) qızıdır, anası Xədicə bint Xüveylid ibn Əsəd ibn Əbdülüzza ibn Qüseydir. Peyğəmbərin (s) ən böyük qızıdır".*[1464]

Həmçinin "ət-Təbəqat"da İbn Abbas sənədilə qeyd olunur: *"Peyğəmbərin (s) ən böyük övladı Qasim, sonra tərtiblə Zeynəb, Abdullah, Ümmü Külsüm, Fatimə və Rüqəyyədir".*[1465]

[1460] Mizanul-İtidal, Zəhəbi, c. 3, s. 128-129
[1461] əl-Möcəmul-kəbir, c. 9, s. 37
[1462] əl-İsabə, İbn Həcər, c. 8, s. 138
[1463] əl-Vafi bil-vəfayat, Sefidi, c. 24, s. 270
[1464] ət-Təbəqatul-kubra, c. 8, s. 30
[1465] ət-Təbəqatul-kubra, c. 3, s. 7

Zeynəbin Peyğəmbərin (s) besətindən iyirmi il öncə dünyaya gəldiyini deyirlər. İbn Həcər onun tərcümeyi-halında yazır: *"Adəm övladlarının ağası Muhəmməd ibn Abdullah ibn Əbdülmüttəlib Qüreyşi Haşiminin qızı Zeynəb. Qızlarının ən böyüyü və onların arasında ilk evlənən idi. Besətdən əvvəl doğulub. Həmin müddətin iyirmi il olduğu deyilib".*[1466]

Həmçinin yekdil fikirlərinə əsasən, ***"Əbu Ləhəbin əlləri qurusun"*** ayəsi nazil olduğu vaxt onun oğlanları Peyğəmbərin iki qızını – Rüqəyyə və Ümmü Külsümü boşamışlar. Mizzi "Təhzibul-kəmal"da yazır: *"Peyğəmbər (s) qızı Rüqəyyəni Ütbə ibn Əbu Ləhəblə, Ümmü Külsümü isə Ütbənin qardaşı Üteybə ibn Əbu Ləhəblə evləndirmişdi.* ***"Əbu Ləhəbin əlləri qurusun"*** *ayəsi nazil olduqda ataları oğlanlarına onları boşamağı əmr etmiş və ayrılmışdılar".*[1467]

İbn Səd və başqalarının sözlərinə əsasən, Peyğəmbərin (s) ən kiçik qızı Rüqəyyənin və Ümmü Külsümün Əbu Ləhəbin oğlanları ilə evləndikləri vaxt barədə də ixtilaf var. Bəziləri bunun besətdən öncə baş verdiyini iddia ediblər. Bu, İbn Səd, İbn Həcər və başqalarının sözüdür.

İbn Səd "ət-Təbəqat"da yazır: *"Rüqəyyə – Peyğəmbərin (s) qızıdır, anası Xədicə bint Xüveylid ibn Əsəd ibn Əbdülüzza ibn Qüseydir. Ütbə ibn Əbu Ləhəb ibn Əbdülmüttəlib Peyğəmbərin (s) besətindən əvvəl onunla evlənmişdi. Hz.Muhəmməd (s) peyğəmbər göndərildikdən sonra* ***"Əbu Ləhəbin əlləri qurusun"*** *ayəsi nazil olduqda atası Əbu Ləhəb oğluna ondan ayrılmasını əmr etdi. Ütbə də onu boşadı".*[1468]

İbn Həcər "əl-İsabə"də yazır: *"Rüqəyyə əvvəlcə Ütbə ibn Əbu Ləhəblə evli idi. Muhəmməd (s) peyğəmbər (s) göndərildikdə atası oğluna onu boşamasını əmr etdi".*[1469]

[1466] əl-İsabə, İbn Həcər, c. 8, s. 151
[1467] əs-Siqat, İbn Hibban, c. 1, s. 56
[1468] ət-Təbəqatul-kubra, c. 8, s. 36
[1469] əl-İsabə, İbn Həcər, c. 8, s. 138

Bəziləri isə bunun besətdən sonra, hicrətdən əvvəl baş verdiyini deyirlər. Zəhəbi "Siyəru əlamin-nübəla"da yazır: *"Peyğəmbərin (s) qızı Rüqəyyə – anası Xədicədir. İbn Səd deyir: "Ütbə ibn Əbu Ləhəb besətdən əvvəl onunla evlənmişdi". Belə deyib. Amma doğrusu hicrətdən əvvəl evləndiyidir.* ***"Əbu Ləhəbin əlləri qurusun"*** *ayəsi nazil olduqda atası Əbu Ləhəb oğluna ondan ayrılmasını əmr etdi, o da boşadı".*[1470]

Burada bəzi suallar ortaya çıxır. Əgər Peyğəmbərin (s) ən böyük qızı Zeynəbdirsə və besətdən iyirmi il əvvəl dünyaya gəlibsə, o zaman ən kiçik qızlar olan Rüqəyyə və Ümmü Külsüm nə vaxt evləniblər? Belə ki, onların Əbu Ləhəbin oğlanları ilə besətdən əvvəl evləndiklərini iddia edirlər.

Ən böyük qız olan Zeynəblə vəziyyət belədirsə, Peyğəmbərin (s) ən kiçik qızı olan Rüqəyyə ilə bağlı vəziyyət necədir?!

İbn Həcər bu iradı "əl-İsabə" kitabında Rüqəyyənin Ütbə ilə besətdən əvvəl evləndiyini iddia edənlərin sözlərinin inkarında qeyd edib. Orada yazır: *"Əbu Ömər Zeynəbin Peyğəmbərin (s) ən böyük qızı olmadığı barədə yekdil fikrin olduğunu nəql edir. Onun tərcümeyi-halında isə besətdən iyirmi il öncə dünyaya gəldiyi bildirilir. Əgər ən böyükləri bu yaşdadırsa, ən kiçiyi besətdən əvvəl necə evlənib?! Bəli, (Rüqəyyənin Ütbə ilə besətdən əvvəl evləndiyi) isbatlansa bu zaman nikah həddi-buluğa çatmasından sonra bağlanmalıdır. Ola bilər ki, boşanma nikahdan öncə baş verib".*[1471]

Boşanmanın nikahdan öncə olması mümkün deyil. Məgər nikah və boşanmanın həddi-buluğa çatmazdan öncə gerçəkləşməsi ağlasığandır?![1472]

[1470] Siyəru əlamin-nübəla, c. 2, s. 251

[1471] əl-İsabə, İbn Həcər, c. 8, s. 461

[1472] Əhli-Sünnə mənbələrində qeyd edilən belə bir evliliyin necə baş verə biləcəyindəki sirri anlamaq olmur. Onların bu evliliyə dair sözlərini araşdıran şəxs olduqca təəccüblənər. Peyğəmbərin (s) qızı Rüqəyyənin azyaşlı uşaq ikən evləndirib boşadırlar! Həmçinin Peyğəmbəri (s) də azyaşlı Aişə ilə, xəlifələri Öməri Möminlərin əmiri Əlinin (ə) azyaşlı qızı Ümmü Külsümlə evləndirirlər! Bunların arxasındakı sirr nədir?! Yoxsa azyaşlı ilə evlənmək onların nəzərində təbii və adi bir hadisədir?! Yoxsa

Onların besətdən sonra evləndiyi isə müşkül məsələdir. Məlumdur ki, ***"Əbu Ləhəbin əlləri qurusun"*** ayəsi Peyğəmbərin (s) İslamı aşkar təbliğinin ilk vaxtlarında nazil olub. Buxari "Səhih"ində İbn Abbas sənədilə rəvayət edir: ***"Yaxın qohumlarını qorxut"*** *ayəsi nazil olduqda Peyğəmbər (s) Səfaya qalxaraq Qüreyşin qəbilələrinə belə səsləndi: "Ey Fəhr oğulları! Ey Ədiy oğulları!" Onlar bir yerə toplaşdılar. Gələ bilməyənlər də nə baş verdiyini öyrənmək üçün öz yerlərinə adam göndərdilər. Əbu Ləhəb və qüreyşlilər də gəldilər. Peyğəmbər (s) buyurdu: "Nə düşünürsünüz, əgər sizin atınızın vadidə nəzarətsiz qalıb qaçmaq üzrə olduğunu sizə desəm, mənə inanıb sözümü təsdiqləyərsiniz?" Dedilər: "Bəli, biz səndən yalnız doğru sözlər eşitmişik". Buyurdu: "Mən sizi qarşıda gözləyən ağrıdıcı əzabla qorxudub, xəbərdar edirəm". Əbu Ləhəb dedi: "Sənin qarşıdakı günlərin qurusun! Buna görə bizi toplamısan?!" Həmin vaxt* ***"Əbu Ləhəbin əlləri qurusun"*** *ayəsi nazil oldu".*[1473]

Belə olduqda, Rüqəyyənin yaşı necə olur?

Həmçinin Rüqəyyənin Ütbə ibn Əbu Ləhəblə İslamdan sonra evləndiyini söyləyənlərlə cahiliyyə dövründə evləndiyini iddia edənlərin sözlərinin arasında neçə il fərq olur?!

Osmanın Peyğəmbərə (s) olan kürəkənlik məsələsinin incəliklərindəki bu ziddiyyətlər ortada böyük ixtilafların olduğunu göstərir, məsələyə çox sayda yalan, uydurma və saxtakarlığın qarışdığını ortaya qoyur.

Biz burada Osmanla Rüqəyyənin evlilik həqiqətini araşdırmaq niyyətində deyilik. Sadəcə bir çox cəhətlərin inkar olunduğunu bildirmək və İhsan Zahirin primitiv iddialarının üzərindən örtüyü qaldırmaq istəyirik. Onun sözlərinə görə, bu məsələlər müsəlmanların arasında yekdilliklə qəbul olunur. Halbuki vəziyyət heç də belə deyil. Əhli-Sünnə

---

onlar elə bir məsələ ilə qarşılaşıblar ki, bundan yayına bilməyiblər. Belə ki, Əhli-Sünnə hədis və tarix mənbələrində bir çox uydurma boşboğazlıqlar var ki, bunları kənara ata bilmirlər. Bu səbəbdən də onlar üçün münasib məsələ və hadisələr icad edirlər!

[1473] Səhih, Buxari, c. 6, s. 17

alimlərinin özləri də Osmanla Rüqəyyənin evliliyinin baş verməsindən savayı, bu izdivacla bağlı bütün məsələlərdə ixtilaflı fikirlər səsləndiriblər.

Ona görə də biz, Osmanın Peyğəmbərin (s) iki qızı ilə evlənməsi məsələsində mübaliğə və şişirtmənin olduğuna etiqad bəsləyirik. Yuxarıda qeyd edilən tarixi göstəricilər də bunu təsdiqləyir. Şübhə yoxdur ki, Əməvi hakimiyyəti Üməyyə oğullarından olan Osman üçün belə bir fəzilətin formalaşdırılmasına xüsusi əmək səy edib. Xülasə, burada onu araşdırmaq niyyətimiz yoxdur. Bu barədə geniş məlumat əldə etmək istəyənlər Əllamə Seyyid Mürtəza Cəfər Amulinin (h.a.) "Peyğəmbərin (s) qızları, yoxsa övladlıqları?" və "Övladlıqların sübutunda doğru söz" kitablarına müraciət edə bilərlər. Həqiqətən də, o kitablar, əlavə heç bir sözə ehtiyac duyulmayan bir təhqiqat əsərləridir.

5. Adqoyma iddiasının yanlışlığı

Əhli-Beytin (ə) öz övladlarına Osmanın adını qoyması iddiası yanlışdır və dəlilsizdir. İhsan Zahirin Şeyx Müfidin "əl-İrşad"dan və digər kitablardan Möminlərin əmiri Əlinin (ə) Əməvi xəlifəsi Osmanı nəzərdə tutaraq övladlarından birinə Osman adını verməsi barədə nəql etdikləri puç bir xəyaldır. Belə ki, bu ad təkcə Osmana məxsus deyil. Belə adla çox sayda insan var. Onlardan ən məşhuru Peyğəmbərin (s) süd qardaşı Osman ibn Məzundur. O, Peyğəmbərin (s) diqqət, lütf və ehtiram göstərdiyi şəxs idi. Vəfat etdikdə Peyğəmbər (s) heç bir səhabəyə qarşı etmədiyi hərəkətləri onun üçün etmişdi. Belə ki, vəfat edəcək yaxınlarını onun yanında dəfn etmək üçün qəbrini daşlarla nişanlamışdı. Əbu Davud "Sünən"də Müttəlib sənədilə nəql edir: *"Osman ibn Məzun vəfat etdikdə Peyğəmbər (s) onun cənazəsini götürüb dəfn etmək üçün evdən çıxdı. Sonra bir nəfərə daş gətirməsini tapşırdı. Lakin həmin şəxs gətirə bilmədi. Peyğəmbər (s) özü gedib daşı gətirdi və iki zira ətrafı daşlarla nişanladı.*

Bu hadisəni mənə danışan şəxs deyir: "Mən Peyğəmbər (s) qəbiri hasarlayarkən qollarında yaranan ağ tozlara baxırdım. Sonra bir daş da gətirib qəbirin baş tərəfinə qoydu. Buyurdu: "Qardaşımın qəbri bu nişanla tanınsın (bilinsin). Onun yanında vəfat edəcək yaxınlarını dəfn edəcəyəm".[1474]

Bunu həmçinin Beyhəqi "əs-Sünənul-kubra"da[1475] və "Mərifətus-sünən vəl-asar"da nəql edib: *"Əhməd deyir: "Peyğəmbərdən (s) bizə rəvayət olunur: "Osman ibn Məzun dəfn edildikdə Peyğəmbər (s) daş gətirib onun baş tərəfinə qoydu və buyurdu: "Qardaşımın qəbrinin yeri bilinsin ki, ailəsindən vəfat edənləri də onun yanında dəfn edim".*[1476]

Möminlərin əmiri Əlinin (ə) övladlarından birinə məhz Əməvi xəlifəsi Osman ibn Əffanın şərəfinə Osman adını qoyması iddiası qeybdən xəbər verməkdir və heç bir sübutu yoxdur. İmam (ə) bəlkə də oğluna Osman ibn Məzunun şərəfinə bu adı verib.[1477] Digər cəhətdən bunu dəlili onun Peyğəmbərə (s) olan xüsusi yaxınlığı və Allah rəsulunun (s) yanındakı hörmətidir.

Əlhəmdulillahi Rabbil-aləmin!

Və Sallallahu əla Muhəmmədin və alihit-tahirin!

[1474] Sünən, Əbu Davud, c. 2, s. 81

[1475] əs-Sünənul-kubra, Beyhəqi, c. 3, s. 412

[1476] Mərifətus-sünən vəl-asar, Beyhəqi, c. 3, s. 188

[1477] Əbülfərəc İsfahani deyir: "Osman ibn Əli (ə) – onun barəsində İmam Əlidən (ə) nəql olunur: *"Ona (din) qardaşım Osman ibn Məzunun adını qoymuşam".*